# İQTİSADİ TƏLİMLƏR TARİXİ

"İqtisadi təlimlər tarixi" dərsliyi Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi nəzəriyyə"-2 kafedrasının əməkdaşları tərəfindən iqtisad elmləri doktoru, professor M.X.Meybullayevin ümumi elmi redaktəsi ilə hazırlanmışdır.

Rəyçilər: Azərb. MEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor T.S.Vəliyev.

Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor T.Ə.Quliyev.

"İqtisadi təlimlər tarixi" dərsliyi aşağıdakı müəllimlər kol lektivi tərəfindən hazırlanmışdır:

Prof. M.X.Meybullayev (müqəddimə, fəs. I, fəs. 2, fəs. 3, fəs.14, fəs.15- § 1, 2, 3, 5); prof. A.Ş.Şəkərəliyev (fəs. 17), prof. F.A.Nəsrullayev (fəs. 7 -§1, 2, 3, fəs. 18); dos. İ.M.Lətifov (fəs. 8); dos. Q.S.Əlləzov (fəs. 5, fəs. 20); dos. F.İ.Hüseynov (fəs. 4- §1, 2, fəs. 19 -§3,4); dos. T.Q.Babayev (fəs. 4-§3, 4); dos. K.A.Məmmədov (fəs. 11- §1, 2); dos. Q.N.Manafov (fəs. 13); dos. N.O.Eminov (fəs. 11-§ 3, 4); dos. H.M.Vəliyev (fəs. 19 -§1, 2); dos. N.F.Həsənova (fəs. 10); dos. S.Ə.Fərəcova (fəs. 12); dos. Ə.X.Əsgərov (fəs. 21), dos. A.M.Əliyeva (fəs. 16); dos. R.Ş.Muradov (fəs. 6); dos. Ə.Ə.Sərdarov (fəs. 7 -§4, 5, 6); b/m.S.Ə.Əhmədov (fəs. 9); dos. R.A.Quliyev (fəs. 15 -§4).

downloaded from KitabYurdu.az

# Mündəricat

**Müqəddimə...............................................................…………......9**

**Fəsil 1. İqtisadi təlimlər tarixinin predmeti, metodu və strukturu.**
1. İqtisadi təlimlər tarixinin predmeti………………………...14
2. İqtisadi təlimlər tarixinin metodu……………………….…...16
§ 3. İqtisadi təlimlər tarixinin strukturu…………………………20

**Fəsil 2. Qədim dövrün iqtisadi təlimləri**.
1. Qədim dünyada ilkin iqtisadi görüşlərin yaranması...……25
2. Qədim Asiyada iqtisadi fikirlərin meydana gəlməsi...…....35
3. Qədim Yunanıstanda iqtisadi fikrin təşəkkülü və inkişafı.43
4. Qədim Romada iqtisadi fikrin formalaşması............……54

**Fəsil 3. Şərqdə iqtisadi fikirlərin yaranması.**
§1. Şərqdə iqtisadi fikrin formalaşmasında islamın rolu.…....61
§2. Qurani-Kərimdə iqtisadi dəyərlər........……......…………71
§3. İslamda iqtisadi münasibətlər sistemi......…...………..…..76
§4. İslamda vergi sistemi.............................…….....………89

**Fəsil 4. Azərbaycanda iqtisadi fikrin təşəkkülü və formalaşması.**
§1. Qədim Azərbaycanın iqtisadi həyatı, təsərrüfat və iqtisa- diyyatı haqqında təsəvvürlər......…............……………..102
§2. Azərbaycanda orta əsrlərin iqtisadi fikirləri və ideyaları……………………………………………………106
§3. Nizami Gəncəvinin "Xəmsə"si və iqtisadi baxışlar sistemi……………………………………………...………112
§4. Nəsirəddin Tusi. Onun «Əxlaqi–Nasiri», «Dövlət maliyyəsi haqqında traktatları» əsərlərinin Azərbaycan iqtisadi fikir tarixində yeri............……………………………………..123

**Fəsil 5. Qərbi Avropada iqtisadi təlimlərin meydana gəlməsi. Merkantilizm.**

downloaded from KitabYurdu.az

§1. Orta əsrlərdə Qərbi Avropanın iqtisadi ideyaları. F.Akvinskinin baxışları…………………………….………133
§2. Merkantilizmin mahiyyəti və inkişaf mərhələləri………..137
§3. Ayrı-ayrı ölkələrdə merkantilizmin xüsusiyyətləri………141

**Fəsil 6. Klassik siyasi iqtisad məktəbinin meydana gəlməsi.**

§1. Klassik siyasi iqtisad məktəbinin yaranmasının tarixi şəraiti və xüsusiyyətləri..............….………………………144
§2. U.Petti - klassik siyasi iqtisadın banisidir…..…………145
§3. U.Pettinin iqtisadi sistemi və baxışları…………….....…..148
§4. Fransada klassik siyasi iqtisad məktəbi. P.Buagilberin iqtisadi sistemi və islahatları……………….……………..151
§5. Benjamin Franklin və onun əmək-dəyər nəzəriyyəsi…..156

**Fəsil 7. Fiziokratizm.**

§1. Fiziokratlar məktəbinin yaranmasının tarixi şəraiti və ümumi xüsusiyyətləri.........................………………..……158
§ 2. Fransua Kene fiziokratlar məktəbinin banisi kimi və onun iqtisadi baxışları..........................................………163
§3. Fransua Kenenin "İqtisadi cədvəl"i……………………172
§4. A.R.Jak Tyürqonun iqtisadi baxışları və fiziokratizmin inkişafı………………….……………………………………..177
§ 5. Fiziokratların iqtisadi proqramı…………………………..185
§ 6. İqtisadi təlimlər tarixində fiziokratizmin yeri və rolu…...188

**Fəsil 8. Adam Smitin iqtisadi təlimi.**

§1. A. Smit və onun yaşadığı dövr haqqında…......…..…191
§2. A. Smit və onun "Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsəri.........................…………..…..192
§3. A.Smitin əmək bölgüsü, mübadilə və pul haqqında təlimi.......................................................……………..200
§4. A.Smitin qiymət və dəyər nəzəriyyəsi. …...................…..204
§5. A.Smitin siniflər və gəlirlər barədə fikirləri və bunlarla əlaqədar onun əmək haqqı, mənfəət və renta nəzəriyyəsi..209

downloaded from KitabYurdu.az

§6. A.Smitin kapital və təkrar istehsal haqqında təlimi...….214
§7. A.Smit məhsuldar və qeyri-məhsuldar əmək haqqında..217

**Fəsil 9. D.Rikardonun iqtisadi təlimi**.
§1. D.Rikardonun baxışlarının formalaşmasının tarixi şəraiti……………………………………………………………220
§2. D.Rikardonun iqtisadi sistemi və metodu……………….224
§3. D.Rikardonun "Siyasi iqtisadın və vergi qoyulmasının əsasları" əsəri və iqtisadi nəzəriyyələri…………………..227

**Fəsil 10. Klassik siyasi iqtisad məktəbinin davamı və tənqidi.**
§1. S.Sismondi……………………………………….…..…..250
§2. Pyer Jozef Prudon (1809-1865)…………………………..253
§3. Nassau Uilyam Senior.................................…………257
§4. Con Ramsey Mak - Kullox...........................................……….258
§5. Tomas Robert Maltus (1786-1834)……..……..…..…...259
§6. Jan Batist Sey........................……….... …........…....261
§7. Fridrik Bastia................................ ............……..…....267

**Fəsil 11. K.Marksın iqtisadi təlimi**.
§1. K.Marks alternativ iqtisadi təliminin yaradıcısıdır………271
§2 K.Marks təliminin iqtisadi mahiyyəti və xüsusiyyətləri…278
§3. "Kapital" əsəri, onun predmeti və tədqiqat metodu…….284
§4. K.Marksın iqtisadi təliminin iqtisadi təfəkkürün formalaşmasındakı rolu……………….…………………………..293

**Fəsil 12. Alman tarixi məktəbləri.**
§1. Almaniyada siyasi iqtisadın meydana gəlməsi. F.List, onun iqtisadi baxışları. Məhsuldar qüvvələr nəzəriyyəsi…..…300
§2. K.Rodbertusun iqtisadi konsepsiyası..........……………303
§3. Almaniyada tarix məktəbinin yaranması və inkişafı……305
§4. Verner Zombartın iqtisadi təlimi..................…………313
§5. Almaniyada sosial məktəb və onun metodologiyası…...316

downloaded from KitabYurdu.az

**Fəsil 13. Marjinalizmin yaranması. Avstriya məktəbinin iqtisadi təlimi.**
§1. Marjinalizmin yaranması. Avstriya məktəbi - marjinalizmin ilk nəzəri məktəbidir……………………………………….320
§2. K.Menger - marjinalizmin Avstriya məktəbinin banisidir…………………………………………………………...326
§3. Y.Bem-Baverkin və F.Vizerin iqtisadi baxışları………..329
§4. Avstriya məktəbinin əhəmiyyəti………………..……….335

**Fəsil 14. Neoklassik iqtisadi təlim.**
§1. A.Marşall neoklassik iqtisadi cərəyanın yaradıcısıdır….337
§2."Ekonomiksin prinsipləi" əsəri A.Marşalın iqtisadi nəzəriyyəsinin əsasıdır…………………………………………...347
§3. C.Klark - neoklassik nəzəriyyənin Amerikan məktəbinin banisidir………………………………………………….365
§4. V.Paretonun iqtisadi təlimi………………………………378

**Fəsil 15. C.M.Keynsin iqtisadi nəzəriyyəsi.**
§1.C.M.Keyns - müasir dövrün görkəmli iqtisadçısıdır.……381
§2. Məşğulluq səviyyəsi və səmərəli tələb. "Əsas psixoloji qanun"…………………………..………………………388
§3."Kapitalın son səmərəliliyi". Əmanət və investisiya. Faiz nəzəriyyəsi…………………………..………………..….396
§4.Makroiqtisadi tənzimlənmə proqramı.Multiplikator konsepsiya..........401
§5. Keyns nəzəriyyəsində qiymət və inflyasiya. Keynsçilik və onun əsas cərəyanları. ........................………………407

**Fəsil 16. Neoliberalizm.**
§1. Neoliberalizmin nəzəri və metodoloji əsasları.…....……420
§2. Qərbi Almaniyada neoliberalizm. V.Oykenin "Təsərrüfatın tipləri" və "Sosial bazar təsərrüfatı" nəzəriyyələri……….425
§3. L.Erxardın iqtisadi islahatları. "Formalaşmış cəmiyyət" konsepsiyası......................…........……………………..433
§4.F.Xayekin iqtisadi-fəlsəfi baxışları. "Geniş qayda"nəzəriyyəsi…..438

downloaded from KitabYurdu.az

§5. A.Mizesin neoliberalist baxışları..................................……444
§6. Fransada neoliberalizm.........................................……….....…446

**Fəsil 17. Monetarizm.**
§1. Monetarizmin nəzəri və metodoloji əsasları…………….448
§2.Neoliberalizm və monetarizm: fərqlər və ümumi cəhətlər.…454
§3. Monetarizmin həyata keçmə mexanizmi və təkamülü…461
§4. Müxtəlif ölkələrdə monetar siyasətin tətbiqi xüsusiyyətləri…472

**Fəsil 18. İnstitusional-sosioloji istiqamət.**
§1. Sosial institusionalizmin meydana gəlməsi və mahiyyəti …478
§2. İnstitusionalizmin Amerika məktəbi......……….......……482
§3.Qeyri-müvazinətli bazar problemi və dövlətin iqtisadi rolu …489
§4. İqtisadi mənafelərin ahəngdarlığı………………………...493
§5. İctimai inkişaf nəzəriyyəsi......................……......…..….....495
§6. İnhisarçı rəqabət problemi..........…............………......…499
§7. C.Robinson və U.Rostou…………………………….……503
§8."Müvazinətli qüvvələr" və "Sənaye cəmiyyəti" nəzəriyyələri. Plan və bazar...............……....…………………….….…509

**Fəsil 19. Azərbaycanda iqtisadi fikrin inkişafı.**
§1. XIX əsrin ikinci yarısında Azərbaycanın iqtisadi fikri…..520
§2. XX əsrin əvvəllərində marksist iqtisadi təliminin Azərbaycanda yayılması və iqtisadi ədəbiyyatda şərhi….….532
§3. XX əsrin 50-60 və 70-80-ci illərində Azərbaycan iqtisadçıları tərəfindən iqtisadi qanunların fəaliyyəti və istifadə mexanizminin tədqiqi............……………………………….…535
§4. Müasir dövrdə (90-2000-ci illərdə) Azərbaycanın iqtisadi fikrindəki dəyişiklik, onun iqtisadi ədəbiyyatda və dövlətin iqtisadi siyasətində əksi.............………………………543

**Fəsil 20. Müasir dövrün iqtisadi nəzəriyyələri.**
§1. Təklif iqtisadiyyatı nəzəriyyəsi…………………….……...552
§2. Səmərəli gözləmə nəzəriyyəsi……………………..……..554
§3. Neoklassik sintez nəzəriyyəsi.....................…………559

downloaded from KitabYurdu.az

**Fəsil 21. Dünya təsərrüfatı haqqında nəzəriyyələr.**
§1. Dünya təsərrüfatının nəzəri problemləri……..........………563
§2. Neoklassik müqayisəli üstünlük nəzəriyyəsi......………565
§3. Qeyri-ekvivalent mübadilə konsepsiyası…………..…….569
§4. Dünya təsərrüfatında yığım haqqında nəzəriyyələr ……574
§ 5. Dünya təsərrüfatının İ.Vallerstayn nəzəriyyəsi……….578
**İstifadə olunan ədəbiyyat**

downloaded from KitabYurdu.az

# M Ü Q Ə D D İ M Ə

Milli iqtisadi inkişafın mütərəqqi sistemə daxil olması ilə ictimai-sosial elmlərin, o cümlədən iqtisadi təlimlər tarixinin müasir təfəkkür baxımından şərh edilməsi vacib cəhətlərdən biridir. Aydın olduğu kimi, keçmiş ittifaqın ali məktəblərində, o cümlədən respublikamızda da bütün ictimai-sosial elmlər sırf ideoloji və siyasi baxımından öyrənilmişdir. Lakin bugünkü həyatın tələbatına uyğun, çevik, mənimsənilməsi mümkün olan, hər cür abstrakt, mühafizəkar baxışlardan kənar olan iqtisadi təlimlərin öyrənilməsi son dərəcədə zəruridir. Bu labüd cəhət sırf iqtisadi tədris ocaqlarında daha da aktuallaşır. Çünki iqtisadi nəzəriyyənin metodoloji prinsiplərini, bazar sisteminin ümumi problemlərini, makro və mikroiqtisadi nəzəriyyələri, milli iqtisadiyyatın formalaşması xüsusiyyətlərini, ümumdünya təsərrüfat əlaqələrini öyrəndikdən sonra iqtisadi təlimlər tarixinin konseptual müddəalarının tədris olunmasına böyük ehtiyac duyulur. Bu baxımdan hazırlanan "İqtisadi təlimlər tarixi" dərsliyi son dərəcə aktual və əhəmiyyətli bir vəzifənin həyata keçirilməsinə həsr edilib. Dərslik bütövlükdə iqtisadi nəzəriyyənin öyrənilməsi istiqamətində mövcud təlimlərin, iqtisadi məktəblərin, müasir iqtisadi cərəyanların şərh olunmasına həsr edilsə də o, təkcə iqtisadi ixtisas alanlar üçün deyil, eləcə də bütövlükdə iqtisadiyyatla maraqlananlar üçün də əhəmiyyət daşıyır.

Dərslikdə nəzərə çarpacaq xüsusiyyətlərdən biri ondan ibarətdir ki, iqtisadi təlimlərin dövrləşməsi prosesi ön plana çəkilir və müxtəlif iqtisadi sistemlər şəraitində iqtisadi münasibətlərin xarakteri şərh edilir. İqtisadi fikrin formalaşmasında, o cümlədən iqtisadi nəzəriyyənin inkişafında mühüm rol oynayan ümumbəşəri xarakterli nəzəriyyələr həm keçmiş, həm də müasir iqtisadi təfəkkür baxımından şərh edilir. Tarixi inkişafın ayrı-ayrı mərhələlərində iqtisadi təfəkkür sahəsindəki nailiyyətlərin iqtisadi nəzəriyənin bir elmi sistem kimi formalaşmasındakı rolu dərslikdə ardıcıllıqla nəzərə alınmışdır.

İlk dəfə olaraq dərslikdə Şərqdə iqtisadi fikrin inkişafında islam təliminin təsiri göstərilmişdir.

downloaded from KitabYurdu.az

Dərslikdə həm Şərqdə, həm də Qərbdə iqtisadi fikirlərin təşəkkülü təcrid olunmuş şəkildə deyil, elmi təfəkkürün gerçəkləşmiş nailiyyətləri baxımdan ilk dəfə olaraq şərh edilir. Bu fikirlərin ümumbəşəri dəyərlərin əldə olunmasındakı rolu milli-mənəvi sərvətlərin artırılmasındakı əhəmiyyəti müəyyənləşdirməklə, müasir sivilizasiyalı iqtisadi həyatdakı yeri göstərilir.

Bir cəhəti də nəzərə almaq lazımdır ki, mövzuların şərhi zamanı bəzən K.Marksın əsərlərinə istinad edilir. Bu da təsadüfi xarakter daşımır. Çünki bu əsərlərin Azərbaycan dilində nəşr olunması ilə əlaqədar orada Marksa qədərki, xüsusən qədim dövrün, orta əsr mütəfəkirlərin əsərlərindən birbaşa istifadə olunduğundan oxucunun işi xeyli yüngülləşir. Həm də iqtisadi təlimlər sahəsində mövcud olan əksər ilkin ədəbiyyatlar rus dilindədir və nadir nüsxələr şəklində mövcuddur.

İqtisadi təlimlər tarixinin öyrənilməsinin müstəqillik şəraitində xüsusi əhəmiyyəti vardır. Çünki ölkədə yeni iqtisadi sistemə keçid məsələsinin qarşıya qoyulması, bu sistemin üstünlüklərinin və məhdudiyyətlərinin üzə çıxarılması bilavasitə iqtisad elmində artıq özünə həyati vəsiqə qazanmış iqtisadi fikirlərdən, nəzəriyyələrdən və cərəyanlardan irəli gələn əsaslandırılmış müddəalardan asılıdır.

Ona görə də iqtisadi təlimlər tarixinin öyrənilməsi istiqamətində müstəqillik dövründə bir sıra tutarlı monoqrafiyalar, tədris vəsaitləri və proqramları, mühazirə mətnləri və bir sıra elmi məqalələr yazılmışdır.[1]

---

[1] T.S.Vəliyev və A.Həsənov. "Azərbaycan iqtisadi fikir tarixi", Bakı ,1996
T.S.Vəliyev. İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü, Bakı,1999.
M.X.Meybullayev. "İslam iqtisadiyyatı", Bakı, 2001
M.X.Meybullayev. "XIX əsrin iqtisadçılarının əsərlərində klassik elmi sistemin inkişafı", Bakı, 2001.
M.X.Meybullayev və Q.S.Əlləzov. İqtisadi təlimlər tarixi fənninin proqramı. Bakı, 1996 və Bakı, 1999-cu illər (Ali iqtisad tədris müəssisələri və fakültələri üçün)
Q.S.Əlləzov. Klassik burjua siyasi iqtisadının yaranması və inkişafı, Bakı, 1992.
Q.S.Əlləzov. Müasir iqtisadi nəzəriyyələr, Bakı, 1999.
X.Kərimov. "Azərbaycan iqtisadi fikir tarixinə dair", "Azərbaycan iqtisadiyyatı", Bakı,1998. səh. 31-42 və başqaları.

downloaded from KitabYurdu.az

Lakin iqtisadi təlimlər tarixinin bütöv, tam ardıcıllıqla və sistemli şəkildə öyrənilməsi son dərəcə vacib məsələlərdəndir. Bu onunla əlaqədardır ki, "İqtisadi təlimlər tarixi" iqtisadi nəzəriyyənin tarixi kimi təkcə iqtisadi təmayüllü ali məktəblər üçün deyil, ümumiyyətlə iqtisadiyyatla maraqlananlar üçün xüsusi əhəmiyyət daşıyır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda ən az öyrənilən və tədqiq olan elmi sahələrdən biri iqtisadi fikir tarixidir, o cümlədən Azərbaycan fikir tarixidir.

Düzdür, ölkəmizdə XX əsrin 50-ci illərindən başlayaraq ayrı-ayrı mütəfəkkirlərin ictimai-iqtisadi görüşləri tədqiq olunmağa başlamışdır. Burada Ə.Sumbatzadənin, Ə.Fərəcovun, B.Axundovun, M.Mustafayevin, Y.Mmmədovun tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. 80-ci illərdən başlayaraq Azərbaycan iqtisadi fikir tarixi müəyyən ardıcıllıqla tədqiq olunmağa başlamışdır. Burada T.Vəliyevin, M.Musayevin, Q.Əbülsəlimzadənin, A.Həsənovun, Ə.Qəribovun, Y.Həsənovun, X.Kərimovun və başqalarının tədqiqatlarını göstərmək olar. Lakin mövcud quruluşun tələbləri çərçivəsində aparılan bu tədqiqatlar öz elmi əhəmiyyətini saxlamaqla, iqtisadi fikrə dair ümumiləşmələr sistemli şəkildə yekunlaşdırılmışdır. Yalnız XX əsrin 90-cı illərindən etibarən ölkəmizdə müstəqillik əldə olunundan sonra iqtisadi təlimlərin öyrənilməsi ilə bağlı iqtisadi fikir sahəsində bir sıra tutarlı elmi əsərlər meydana gəlməyə başlamışdır. Bu dövrün görkəmli iqtisadçı alimləri Ə.A.Mahmudov, A.A.Nadirov, Z.Ə.Səmədzadə, A.K.Ələsgərov, T.Ə.Quliyev, M.M.Allahverdiyev, A.Ə.Əliyev, T.S.Vəliyev, Ş.M.Muradov, A.F.Musayev, T.A.Hüseynov, İ.Ə.Feyzullabəyli, H.B.Allahverdiyev və başqaları yaratmış olduqları elmi məktəblərin yetirmələri yeni iqtisadi sistemə keçidlə əlaqədar iqtisad elminin müxtəlif istiqamətlərində mühüm nəzəri və metodoloji əsaslı problemlərin həllinə xüsusi diqqət yetirə bilmişdilər. Bu iqtisadi problemlərin tədqiqi sözsüz ki, gələcək dövrdə Azərbaycanda iqtisadi fikrin formalaşmasında müstəsna rol oynayacaqdır.

Göstərmək lazımdır ki, müstəqilliyə qədər "İqtisadi təlimlər tarixi" dərsliyi yalnız Moskvada mərkəzləşdirilmiş şəkildə sırf marksist-leninçi ideologiyası ilə siyasətləşdirilmiş şəkildə dərc olunaraq ayrı-ayrı respublikalara göndərilirdi. Bəlli olduğu kimi bütün humanitar fənlər,

downloaded from KitabYurdu.az

yalnız rus dilində yazıldığından, yerlərdə onun müvafiq dillərə tərcümə olunması ilə dərc olunmasına icazə verilirdi. Yerli müəlliflər yalnız dərs vəsaiti şəklində bu və ya digər fənni dərc etdirə bilərdilər.

İqtisadi təlimlər tarixi də ölkəmizdə belə həyat yolu keçmişdir. 1965-ci ildə onun I hissəsi, 1971-ci ildə isə II hissəsi dərc olunmuşdur. Sözsüz ki, konkret dövrün tələbatı ilə əlaqədar yazılan bu dərs vəsaitinin elmi, nəzəri və metodoloji əhəmiyyətini azaltmadan, onun müəlliflərinə hörmət və ehtiramımızı bildirməklə qeyd etmək istəyirik ki, müasir və dəyişilən dövrün tələbatına uyğun milli müstəqillikdən bəhrələnmək və ümumbəşəri iqtisadi dəyərləri mənimsəmək üçün yeni bir dərsliyin yazılmasını qarşıya məqsəd qoymuşuq. Müəlliflər proqram çərçivəsində iqtisadi fikirlərin, nəzəriyyələrin meydana gəlməsini, formalaşmasını və inkişafını şərh etməklə ilk dəfə olaraq Şərqdə, Azərbaycanda iqtisadi təlimin meydana gəlməsini və inkişafını şərh etməyə çalışmışlar. Sözsüz ki, müstəqillik illərində yazılmış bu dərslik heç də müəyyən qüsur və çatışmazlıqdan xali olmayacaqdır. Hər halda müəlliflər heyəti həm dərsliyin məhdudluğunu, həm proqram çərçivəsində yazıldığını nəzərə alaraq, hər hansı mövzunun tam şəkilli izahını və detallaşdırılmış şəkildə şərhini qarşıya məqsəd qoymadıqlarına görə, şübhəsiz ki, bəzi məsələlərdə mübahisə, fikir ayrılığı, müəyyən iradlar meydana gələcəkdir. Bütün bunları nəzərə alaraq müəllif kollektivi əvvəlcədən minnətdarlıq hissi ilə dərsliyə aid hər cür təklif, rəyi və iradları qəbul etməyə hazırdır.

Azərbaycanda bazar sisteminin yenicə təşəkkül tapmasına və formalaşmasına başlanır ki, şübhəsiz ki, bu da bir neçə onilliklərin işidir. Bu əsasdan da iqtisadi təlimlər tarixi dərsliyində keçid dövrünün xarakterik xüsusiyyətləri barədə, sahibkarlığın formalaşması istiqamətləri barədə, dövlətin iqtisadiyyata müdaxiləsinin həddi barədə, bazarın modelləri haqqında tarixin keçmiş olduğu yollar barədə elmi əsaslandırılmış müddəa və fikirlərin nəzəriyyə və konsepsiyaların şərhinin verilməsinə cəhd göstərilmişdir. Keçmişi öyrənmədən gələcəyi yaratmaq mümkün deyil.

downloaded from KitabYurdu.az

# FƏSİL 1. İQTİSADİ TƏLİMLƏR TARİXİNİN PREDMETİ, METODU VƏ STRUKTURU

## § 1. İQTİSADİ TƏLİMLƏR TARİXİNİN PREDMETİ

İqtisadi təmayüllü ali təhsil alan və yenidən iqtisadi ixtisas alan gənclər üçün ümumbəşəri dəyərlərin öyrənilməsi və iqtisadi həyatda davranış mədəniyyətlərinin yüksəldilməsi üçün "İqtisadi təlimlər tarixi" fənni müstəsna rol oynayır. "İqtisadi təlimlər tarixi"nin öyrənilməsi zərurəti həm də müasir şəraitdə iqtisadi sistemlərin transformasiyaya uğramasından irəli gəlir. Çünki "İqtisadi təlimlər tarixi"nin predmeti cəmiyyətin iqtisadi həyatında və sosial sferasında baş verən dəyişikliklərlə əlaqədar iqtisadiyyatın birinin digəri ilə əvəz olunmasının qanunauyğunluqlarını və dövrləşmə prosesilə bağlı insanların davranış qaydalarının məntiqini öyrənir. İqtisadi hadisə və proseslərin tarixi dövrləşmə prosesilə öyrənməklə "İqtisadi nəzəriyyə" elminin daha

downloaded from KitabYurdu.az

dərindən mənimsənilməsinə imkan yaranır. Bəlli olduğu kimi "İqtisadi nəzəriyyə" 250 il bundan əvvəl kapitalizmin təşəkkül tapdığı dövrdə meydana gəlmişdir. Ümumi iqtisadi nəzəriyyə ilkin olaraq 1615-ci ildə fransız Antuan de Monkretyen tərəfindən "Siyasi iqtisad" termini ilə adlandırılmışdır. Daha sonra ingilis Uilyam Petti öz tədqiqatlarında bu elmi "Siyasi hesab" adlandırmışdır. Fiziokratlar məktəbinin banisi Fransua Kene bu elmə sadəcə "İqtisadiyyat" kimi baxmışdır. "İqtisadi nəzəriyyə"nin atası hesab olunan Şotlandiyalı Adam Smit bu elmi "Siyasi iqtisad" kimi qəbul etmiş və onun xalqların sərvətinin mənbəyi olduğunu qeyd etmişdir. İngilis iqtisadçısı David Rikardo klassik iqtisadi sistemin yaradıcılarından biri kimi "İqtisadi nəzəriyyə"ni siyasi iqtisadın başlanğıcı kimi qeyd etmişdir. İngilis iqtisadçılarından C.S.Mill "İqtisadi nəzəriyyə"ni kompromislər nəzəriyyəsi vasitəsilə "Siyasi iqtisadın əsasları" kimi öyrənmişdir. Alman iqtisadçısı Karl Marks "Kapital" əsəri vasitəsilə "Siyasi iqtisad"ı alternativ elmi sistem kimi öyrənə bilmişdir. Yeni elmi istiqamətin yaradıcısı olan ingilis Alfred Marşall iqtisad elmini ilk dəfə olaraq "Siyasi iqtisad"ın "Ekonomiks" fənni kimi öyrənilməsini təklif etmişdir. Bu fikri digər görkəmli ingilis iqtisadçısı U.Cevons da təkidlə qarşıya qoymuşdur. Ümumiyyətlə, görkəmli iqtisadçı alimlərin "Siyasi iqtisad"la və ya "İqtisadi nəzəriyyə" ilə bağlı irəli sürülmüş fikirlərini ardıcıllıqla qeyd etməklə bu istiqamətdə mövcud olan iqtisadi ideyaların məntiqindən irəli gələn prinsiplərin, səbəb-nəticə əlaqələrinin və inkişaf meyllərini əks etdirən fikirlərin mahiyyətini şərh etməklə iqtisadi təlimlər tarixinin predmeti haqqında mülahizələri konkretləşdirmək olar.

Tarixi inkişafın ayrı-ayrı dövrlərində irəli sürülən ümumbəşəri iqtisadi dəyərlərin mənimsənilməsi, inkişaf qanunauyğunluqlarının öyrənilməsi, iqtisadi sistemlərin transformasiyaya uğraması, eləcə də təkamüllü iqtisadi inkişafa təkan verən cərəyanların, məktəblərin və konsepsiyaların şərh olunması "İqtisadi təlimlər tarixi"nin əsas vəzifələrindəndir. Ona görə də ümumiləşmiş şəkildə "İqtisadi təlimlər tarixi"nin predmetini müxtəlif iqtisadi sistemlərin meydana gəlməsi və onların transformasiyası qanunauyğunluqlarını iqtisadi proseslərin bütöv şəkildə öyrənilməsi kimi qeyd etmək olar. İqtisadi həyatda, xüsusən, istehsalın strukturunda, texnologiyasında, istehlakında, eləcə də

downloaded from KitabYurdu.az

istehlakçıların davranış qaydalarında baş verən dəyişikliklər yeni iqtisadi proseslərin meydana gəlməsinə səbəb olur. Müasir şəraitdə dünya iqtisadiyyatında aktual yer alan qlobal iqtisadi problemlər, iqtisadi inteqrasiya prosesləri, iqtisadi təhlükəsizlik məsələləri, ayrı-ayrı ölkələrin iqtisadiyyatlarının inkişafına müxtəlif səviyyədə təsir göstərir. Eyni zamanda yoxsulluğun aradan qaldırılması, insan potensialının inkişaf etdirilməsi, qeyri-iqtisadi amillərin, xüsusən, mənəvi, dini amillərin rolunun nəzərə alınması özünü təkidlə qarşıya qoymuş olur. Bununla da iqtisad elmində mənəvi, sosioloji, institusional istiqamətlərin inkişafına real yol açmış olur. Bu da öz növbəsində "İqtisadi təlimlər tarixi"nin predmeti kimi sırf və ya pozitiv nəzəri müddəaların ümumiləşməsi və müəyyən nəticələrin əldə olunması ilə hüdudlaşmır. Eyni zamanda iqtisad elmində normativ səpkili və ya konkret əməli istiqamətli elmi ideyaların, prinsiplərin yeni fikir və müddəaların fəaliyyət istiqamətlərinin formalaşmasına gətirib çıxarmış olur.

"İqtisadi təlimlər tarixi"nin öyrənilməsi təkcə iqtisadi dünyagörüşün, xalis iqtisadi təfəkkürün formalaşması üçün deyil, eyni zamanda irəli sürülmüş elmi müddəaların təkamüllü yolunun məntiqinin mənimsənilməsindən ibarətdir. Çünki hazırkı şəraitdə bizim mənimsədiyimiz iqtisadi ideyalar sırf keçmişin elementlərinə əsaslanmır, eyni zamanda bugünkü və hətta gələcək iqtisadi görüşlərin elementlərinə əsaslanır. Ona görə də müasir şəraitdə tətbiq olunan hər bir iqtisadi nəzəriyyənin, cərəyanın və konsepsiyanın məşhurluğundan və hətta real tətbiqi və səmərəli səviyyəsindən asılı olmayaraq, yalnız onlara əsaslanmaq mümkün deyildir. Çünki iqtisadi konsepsiyalar və nəzəriyyələr özü-özünə inkişaf etməklə, mövcud dövrdəki üstünlükləri əks etdirməklə, eyni zamanda çatışmazlıqlar istiqamətində də özünü əks etdirir. Ona görə də mövcud çatışmazlıqların aradan qaldırılması üçün yeni iqtisadi ideyaların, fikirlərin, nəzəri baxışların əmələ gəlməsinə səbəb olur. Beləliklə, "İqtisadi təlimlər tarixi"nin əsas vəzifəsi kimi iqtisadi nəzəriyyələrin təşəkkülü və onların birinin digəri ilə əvəz olunmasının ümumi məntiqini öyrənir.

## § 2. İQTİSADİ TƏLİMLƏR TARİXİNİN METODU

downloaded from KitabYurdu.az

İqtisadi təlimlər tarixinin öyrənilməsinin metodoloji əsasını yeni iqtisadi nəzəriyyələrin mahiyyətinin daha dərindən mənimsənilməsi üçün keçmiş nəzəriyyələrin öyrənilməsi dialektikası təşkil edir. "İqtisadi təlimlər tarixi" dialektik metod vasitəsi ilə iqtisadi nəzəriyyənin inkişaf mərhələlərinin mahiyyətini əks etdirməklə onun mövcud şəraitlə həyata keçirilməsi imkanlarının mümkünlüyünü və üstünlüklərini əks etdirir. Çünki hər bir yeni "İqtisadi nəzəriyyə" dünənki problemlərin çatışmazlıqlarının aradan qaldırılmasından irəli gəlmişdir. Ona görə də hər yeni yaranan nəzəriyyə, keçmiş nəzəriyyələrdən irəli gələrək bəşəriyyətin dinamik və təkamüllü inkişaf yolunu əks etdirir. Təkamüllü iqtisadi inkişaf yolu bir tərəfdən ən mütərəqqi ideyaları tətbiq etməklə onların həyatiliyini göstərir, digər tərəfdən onlardan irəli gələn çatışmazlıqları üzə çıxarır. Eyni zamanda istifadə olunmayan alternativ ideyaların meydana gəlməsinə səbəb olur. Tərəqqi isə alternativ ideyaların bir nəzəriyyədə birləşdirilməsi ilə deyil, onların hər birinin ayrılıqda tətbiqi və onların ən ümumi cəhətlərinin sintezləşdirilməsi vasitəsi ilə meydana gəlir. Deməli, iqtisadi təlimlər tarixində təhlil və sintez metodu xüsusi yer tutur.

Əgər XIX əsrin sonu XX əsrin 90-cı illərinə qədər iqtisad elmi, o cümlədən "iqtisadi nəzəriyyə" və "iqtisadi təlimlər tarixi" iki barışmaz "kapitalizm" və "sosializm" mövqeyindən öyrənilirdisə, artıq buna son qoyulmuşdur. XX əsrin sonu və XXI əsrin ilk illərində artıq iqtisadi təfəkkürlər bir mövqedən, müxtəlif milli mənafeylər baxımından öyrənilərək, dünya iqtisadi inteqrasiya prosesini, qloballaşmanın iqtisadi səpkilərini, iqtisadi təhlükəsizlik problemlərini, kommersiya mənafelərini ön plana çəkmişdir

Daha doğrusu, tarixi məntiqi metod istifadə edilərək iqtisadi ideyalar, təfəkkürlər insan potensialının inkişafı naminə sintezləşdirilir. Ona görə də bazar iqtisadiyyatının üstünlükləri qəbul olunmaqla bəşəri tərəqqinin aparıcı iqtisadi sistemi kimi, onun liberal-sosial, sosial-demokrat modellərinə xas olan prinsiplərinin formalaşmasının əsası qoyuldu.

Beləliklə, iqtisadi fikirlər təsərrüfat həyatında həlledici rol oynamaqla, iqtisadi həyatda baş verən qanunauyğunluqların məntiqinin öyrənilməsini əsaslandırdı.

downloaded from KitabYurdu.az

Bazar iqtisadi sisteminə xas transformasiyanın baş verməsi mümkünlüyü ideyası, eyni zamanda onun makroiqtisadi səviyyədə tənzim olunması zəruriliyi yeni tənzimlənən fikrin meydana gəlməsinə əsas verdi.

Bu hər şeydən əvvəl keçmiş və müasir iqtisadi təfəkkürlər arasında qarşılıqlı əlaqə və asılılıqların mövcudluğundan irəli gəlir. Çünki hər bir nəslin yaşadığı dövrdən asılı olaraq özünə məxsus iqtisadi fikirləri əmələ gəlir. Lakin bu fikirlər təcrid olunmuş şəkildə deyil, özündən əvvəlki nəslin mütərəqqi iqtisadi fikirlərinə əsaslanır. Öz növbəsində də bu gələcək nəsillərdə yeni iqtisadi fikirlərin meydana gəlməsinə imkan yaradır. Məhz bu da real elmi tərəqqiyə təkan verməklə, müvafiq təlim formasını almış olur.

İqtisadi təlimlər tarixi, iqtisadi nəzəriyyənin tarixi kimi bilavasitə onun əsas prinsiplərinin formalaşmasının nəzəri və metodoloji əsaslarını öyrənir.

- Sərvətin əldə olunması, maddi nemətlərin artırılması yollarının müəyyən edilməsi;
- İnsanların tarixi inkişafın ayrı-ayrı mərhələlərində tələbatlarının ödənilməsi ilə bağlı müxtəlif davranış qaydalarına əməl etməsi;
- Sərvət və nemətlərin əldə olunmasına, bölgüsünə və istifadəsinə görə, seçim imkanının əldə olunmasına görə təsərrüfat formalarının yaradılması;
- İnsanların bütövlükdə mənafeyini təmin edən və qoruyan iqtisadi sistemin yaradılması və idarə olunması;

Ümumiləşmiş şəkildə bu prinsiplərin həyata keçirilməsi ilə bağlı irəli gələn elmi-nəzəri müddəaların və iqtisadi qanunauyğunluqların hər bir iqtisadi sistemin tələbatına uyğun öyrənilməsi və onun tətbiqinin mahiyyətinin şərh olunması təlimlər tarixinin əsas məqsədlərindəndir.

"İqtisadi təlimlər tarixi"ndə irəli sürülən hər bir nəzəriyyə özünəməxsus xüsusiyyətləri ilə qiymətlidir. Çünki onların hər biri konkret tarixi dövrün reallıqlarından irəli gələn iqtisadi proseslərə əsaslanır.

İqtisadi təlimlər tarixinin mərhələlər üzrə öyrənilməsi və uyğun nəzəriyyələrin meydana gəlməsi qanunauyğunluqlarının müəyyənləşdirilməsi ayrı-ayrı ölkələrin milli iqtisadiyyatlarının formalaşması prosesindəki rolun mahiyyətinin üzə çıxarılmasına imkan verir. Eyni zamanda dünya iqtisadiyyatında gedən böyük

downloaded from KitabYurdu.az

transformasiyaların baş verməsinin zəruriliyinin şərh olunmasına imkan yaradır. Təkcə onu demək kifayətdir ki, XV-XVII əsrlərdə dünyada mövcud olan sərt inzibati-amirlik, ənənəvi iqtisadi sistemlərinə alternativ olan bazar iqtisadi sisteminin meydana gəlməsinin nəzəri və metodoloji prinsiplərini məhz "İqtisadi təlimlər tarixi" ilə və ya iqtisadi nəzəriyyənin tarixi vasitəsi ilə öyrənmək mümkün olmuşdur.

Kapitalizmin meydana gəlməsi ilə ona uyğun iqtisadi nəzəriyyələrin meydana gəlməsi, onun bazar təsərrüfatının əsasına çevrilməsi ideyalarının əmələ gəlməsi və inkişaf etdirilməsi bəşəriyyət həyatında mütərəqqi rol oynamaqla yeni bir iqtisadi sistem kimi formalaşmasına təkan verdi. Yekun olaraq bazar təsərrüfatının dövlət tərəfindən himayədarlıq yolu ilə tənzim olunması, sonra onun özü-özünü tənzimləməsi ideyasına əsaslanan sərbəst tipinin meydana gəlməsinə səbəb olmaqla, onun bir iqtisadi sistem formasına çevrilməsinə imkan verdi. Beləliklə, bazar iqtisadiyyatının sosial tənzimlənən tipləri, milli modelləri haqqında elmi mübahisələr, nəzəri ideyalar irəli sürülür.[2]

Ona görə də tarixi-məntiqi metod, vaxt amilinin rolunun nəzərə alınması ilə iqtisadi inkişafın bəşəri sivilizasiyanın əsasında durması prinsipinin əsas götürülməsinə təkan verdi.

"İqtisadi təlimlər tarixi" bilavasitə iqtisadi nəzəriyyənin metodoloji prinsiplərinə əsaslandığından onun əsas funksiyası da bu əsasdan formalaşır. Ona görə də iqtisadi təlimlər tarixinin **əsas funksiyası iqtisadi nəzəriyyənin əsas prinsiplərinin tarixi inkişafın mərhələləri üzrə öyrənilməsindən ibarətdir**. Bu əsasdan da "İqtisadi təlimlər tarixi"nin bəşəriyyətin tarixi inkişaf mərhələlərinə uyğun öyrənilməsinə cəhd edilmişdir. Bu baxımdan iqtisadi təlimlər tarixi başlıca olaraq aşağıdakı mərhələlər üzrə öyrənilmişdir:

1) Qədim dövrün iqtisadi təlimi;
2) Orta dövrdə Şərqdə və Orta Avropada iqtisadi təlimlər;
3) Bazar sisteminin qərarlaşması dövründə iqtisadi təlim;
4) Müxtəlif iqtisadi inkişaf modelləri şəraitində iqtisadi təlim;
5) Müasir və ya yüksək sənayeləşmiş dövrün iqtisadi təlimi.

---

[2] Bununla əlaqədar T.Ə.Quliyevin "Регулируемая рыночная экономика", B.2000, monoqrafiyasını xüsusi qeyd etmək olar.

downloaded from KitabYurdu.az

İqtisadi təlimlər tarixi ilə əlaqədar bəzi xarici ədəbiyyatlarda isə iqtisadi fikrin inkişafının üç mərhələ üzrə öyrənilməsi tövsiyə edilir.[3] Bunlara: 1) bazar iqtisadiyyatı mərhələsinə qədərki iqtisadi təlimlər; 2) tənzimlənməyən bazar iqtisadiyyatı mərhələsindəki iqtisadi təlimlər; 3) tənzimlənən (sosial yönümlü) bazar iqtisadiyyatı mərhələsinin iqtisadi təlimi.

## § 3. İQTİSADİ TƏLİMLƏR TARİXİNİN STRUKTURU

İqtisadi təlimlər tarixi kursu, tarixi inkişafın ayrı-ayrı mərhələlərində iqtisadi ideyaların, görüşlərin, baxışların, fikirlərin ümumi dinamikasını öyrəndiyinə görə onun öyrənilməsi strukturu da bu istiqamətdə formalaşdırılmışdır. Burada əsasən iki başlıca prinsipə müraciət edilmişdir. Birincisi, şərh edilən mövzular tarixi inkişafın mərhələlərinə, ikincisi iqtisadi inkişafın modellərinə uyğun izah edilmişdir.

Qədim dövrün iqtisadi fikrinin izahı Qədim Şərqdə, Misirdə və Babilistanda iqtisadi fikirlərin əsasında şərh edilir. Bu dövr üçün xarakterik olan qul əməyindən istifadə və onunla əlaqədar meydana gələn iqtisadi fikirlər izah edilərək onun e.ə. IV minilliyində Şərqdə kəsb olunan xüsusiyyətləri qeyd edilir. Eyni zamanda Qədim Yunanıstanda və Qədim Romada eranın I minilliyindən başlayaraq eranın IV əsrinə qədər qul əməyinin cəmiyyətin inkişafında əsas məhsuldar qüvvə rolunu oynaması ideyası göstərilmişdir. Qədim dövrdə Çində formalaşan "Təbii hüquq" fəlsəfəsi, konfutsiyaçılıq, "Quan-tsızı" traktının mahiyyəti və onların təkamülü göstərilir. Xüsusən mülkiyyət, sərvət, əmək və gəlir haqqında olan təsəvvürlər, ekvivalent mübadilə, ticarətin və təsərrüfat həyatının dövlət tənzimlənməsi ideyası qeyd olunur. Qədim Hindistanda "Artxaşastır" iqtisadi təlimində dəyər, bazar qiyməti, mənfəət, xarici ticarət, idarəetmə və dövlət gəlirləri haqqında mövcud olan ideyalar izah olunur. Antik dünyada iqtisadi fikrin yaranması ilə Qədim Yunanıstan və Qədim Romada iqtisadi fikir şərh edilir. Qədim Yunanıstanda Ksenofontun, Platonun və Aristotelin əmtəə, ictimai əmək bölgüsü, sərvət, pul, onun

---

[3] Бах. Я.С.Ядгаров, История экономических учений, М.1997, с. 11-13.

downloaded from KitabYurdu.az

mənşəyi və funksiyaları haqqında ideyalar göstərilir. Qədim Romada iqtisadi fikrin formalaşmasında Kottonun, Qrakxilinin, Varronun, Kottonun, Kolumellanın dəyər, mənfəət, qiymət, təsərrüfatın təşkili, aqrar islahatlarla bağlı fikirləri böyük rol oynamışdır. İlk dəfə olaraq Şərqdə iqtisadi fikrin formalaşmasına İslamın təsiri ətraflı şəkildə şərh edilmiş, İslamın iqtisadi fikrinin təşəkkülündə və inkişafında Qurani-Kərim və Həzrəti Məhəmməd (s.ə.s.) sünnəsinin oynadığı rol qeyd edilmişdir. İslamda iqtisadi azadlıq, izah edilmişdir.

Orta dövrün iqtisadi təlimi əsasən iki istiqamətdə öyrənilmiş, bərabərlik, ədalətlilik, xüsusi mülkiyyət, vergi, ticarət, maliyyə və kredit məsələləri, eyni zamanda ibn Xəldunun iqtisadi görüşlərinin mahiyyəti şərh edilmişdir. Həmçinin orta dövrdə Azərbaycanda iqtisadi fikrin formalaşmasında Nizami Gəncəvinin və N.Tusinin iqtisadi baxışları izah edilmişdir.

Orta dövr üçün xüsusən XIV əsrdən başlayaraq Qərbi Avropada iqtisadi ideyaların meydana gəlməsi və formalaşması prosesi izah edilir. Burada F.Akvinskinin dövlət, siniflər və ədalətli qiymət haqqındakı baxışları şərh olunur. Merkantilizmin yaranmasının sosial-iqtisadi ilkin şərtləri, onun mahiyyəti, əmək, sərvət və mənfəət haqqında olan ideyalar izah olunur. Merkantilizmin inkişafında monetar və "ticarət balansı" nəzəriyyəsinin mahiyyəti və ayrı-ayrı ölkələrdə malik olduğu xüsusiyyətlər qeyd olunur. Klassik iqtisadi məktəbin meydana gəlməsi və onun U.Petti və P.Buagilberin əmək-dəyər nəzəriyyəsi, əmək haqqı, renta, faiz, torpağın qiyməti, rəqabət, "optimal qiymət", sosial-iqtisadi islahatlar haqqında mövcud olan ideyaları şərh edilmişdir. Eyni zamanda bu dövrlərdə fiziokratizmin meydana gəlməsi F.Kenenin iqtisadi ideyaları, xüsusən onun "təbii cəmiyyət" konsepsiyası, "xalis məhsul", "məhsuldar əmək", "sinif", "kapital" haqqındakı təlimi, eləcə də ilkin makroiqtisadi təhlilin əsasında duran "İqtisadi cədvəl"in, gəlirlər və kapital haqqındakı nəzəriyyələrinin mahiyyəti şərh edilir. Bazar iqtisadi sisteminin qərarlaşmasında A.Smitin və D.Rikardonun iqtisadi təlimlərinin müstəsna rolu nəzərə alınaraq, onların elmi sistemlərinin mahiyyəti izah edilir. Onların tədqiqatlarının predmeti və metodunun xarakteri şərh olunur. Burada əsas diqqət A.Smitin "görünməz əl" prinsipinə, əmək bölgüsü, dəyər, siniflər, gəlirlər

downloaded from KitabYurdu.az

və kapital haqqındakı nəzəriyyələrin mahiyyətinə verilir. Eyni zamanda Rikardonun bölgü, gəlirlər, əmək haqqı, mənfəət, renta və müqayisəli üstünlüklər nəzəriyyəsinin mahiyyəti qeyd olunur. Bazar sisteminin qərarlaşması ilə əlaqədar olaraq klassik iqtisadi məktəbin davamçıları və tənqidçiləri olan S.Sismondinin, P.Prudonun, C.Milin, T.Maltusun, J.Seyin, F.Bastiyanın, C.Kerrinin və S.Milin iqtisadi nəzəriyyələri, ideyaları və metodologiyaları şərh edilmişdir.

Müxtəlif iqtisadi inkişaf modellərinin qərarlaşması ilə bağlı irəli sürülən iqtisadi ideyalar arasında K.Marksın iqtisadi təlimini, alman tarixi məktəblərini, marjinalizm və neoklassik istiqamətləri xüsusi qeyd etmək olar. Burada Marksın izafi dəyər nəzəriyyəsini, onun təkrar istehsal, reallaşma, qeyri-müvazinətlı inkişaf nəzəriyyələrini qeyd etmək olar. Alman tarixi məktəbləri vasitəsilə siyasi iqtisadın yaranması, F.Listin "milli iqtisadi sistem", məhsuldar qüvvələr, proteksionizm, ticarət azadlığı nəzəriyyələrinin mahiyyəti şərh edilir. Burada həmçinin ilkin alman tarixi məktəbinin yaradıcıları olan V.Roşerin, K.Knisin və Y.Hildebrandın metodoloji prinsipləri şərh edilir. Yeni alman tarixi məktəbi və onun metodologiyasının yaradıcıları olan Q.Şmollerin, L.Brentanonun və K.Bryuxerin tədqiqat və baxışları izah olunur.

Marjinalizmin yaranması, onun metodoloji prinsiplərinin öyrənilməsi, faydalılıq nəzəriyyəsinin mahiyyəti bu bölmədə işıqlandırılır. Eləcə də "Avstriya məktəbi"nin görkəmli nümayəndələri K.Mengerin, Y.Bembavrekin və F.Vizerin iqtisadi təhlillərinin metodoloji xüsusiyyətləri, obyektiv və subyektiv qiymət nəzəriyyələri "İstehsal xərcləri həddi" nəzəriyyəsi və mənfəət konsepsiyası araşdırılır. A.Marşallın Kembric məktəbinin yaradıcısı kimi iqtisadi tədqiqatının predmeti və metodu izah olunur. Onun tələb, təklif və qiymət nəzəriyyəsi, tələbin elastikliyi və tədrici müvazinət nəzəriyyəsi, inhisar konsepsiyası, əmək haqqı və mənfəət nəzəriyyəsi izah olunur.

Neoklassik istiqamətin Amerikan məktəbinin yaradıcısı C.Klarkın elmi tədqiqatının predmeti və metodu, statik və dinamik inkişaf konsepsiyası, son məhsuldarlıq həddi nəzəriyyəsi, istehsal amillərinin xüsusi məhsuldarlığı, əmək haqqı, faiz və sahibkarlıq mənfəəti nəzəriyyəsi izah edilir.

downloaded from KitabYurdu.az

Dərsliyin sonuncu müasir iqtisadi nəzəriyyələr bölməsində Keynisin iqtisadi təlimi, neoliberalizmin və monetarizmin mahiyyəti, onların metodoloji və nəzəri əsasları, eləcə də sənayecə inkişaf etmiş ölkələrdə bu nəzəriyyələrin mahiyyəti araşdırılır. Burada Keynisin səmərəli tələb prinsipi, makroiqtisadi tənzimlənmə nəzəriyyəsinin, ümumi psixoloji qanununun mahiyyəti şərh edilir. Neoklassik ideyaların dirçəldilməsinin səbəbləri şərh olunmaqla neoliberalizmin metodoloji və nəzəri əsasları A.Mizesin və F.Xayekin iqtisadi nəzəriyyələri ilə şərh olunur. Avropanın ayrı-ayrı inkişaf etmiş ölkələrində neoliberalizmin mahiyyəti açıqlanmaqla Almaniyada neoliberalizm cərəyanı V.Oykenin "Sosial bazar təsərrüfatı" və L.Erxardın "Formalaşmış cəmiyyət" konsepsiyalarının mahiyyəti izah olunur.

Monetarist nəzəriyyənin mahiyyəti M.Fridmanın baxışları vasitəsilə izah olunur. İqtisadi aktivliyin baş verməsində dövriyyədəki pulun həcmi barəsində mövcud olan konsepsiyanın mahiyyəti izah olunur. Bu əsasdan da monetar iqtisadi siyasətin müasir iqtisadi inkişafındakı rolu qeyd olunur.

İnstitusional-sosioloji istiqamətlə aparılan təhlilin metodologiyası və predmetinin xüsusiyyətləri şərh olunur. Amerikan institusionalizminin mahiyyəti və əsas istiqamətləri T.Veblenin "Sosioloji-psixoloji texnokrat təlimi", C.Kommonsun "Sosioloji hüquqi", U.Mitçellin "Konyuktur statistik" təlimləri əsasında şərh edilir. Bundan əlavə Y.Şumpeterin "Səmərəli rəqabət", E.Çemberlinin "İnhisarçı rəqabət", C.Robbinsonun "Natamam rəqabət", U.Rostounun "İqtisadi artım mərhələləri", C.Helbreytin "Müvazinətlı qüvvələr" nəzəriyyələrinin mahiyyəti aşkarlanır.

Bundan əlavə bu bölmədə "Təklif iqtisadiyyatı", "Səmərəli gözləmə", "Yeni konservatizm", "Neoklassik sintez" nəzəriyyələrinə dair iqtisadi baxışlar şərh olunur.

Müasir şəraitdə beynəlxalq əmək bölgüsünə dair nəzəriyyələrin mahiyyəti, onların inkişaf etmiş, inkişaf etməkdə olan və zəif inkişaf edən ölkələr üçün daşıdığı əhəmiyyət şərh edilir. Bu əsasdan da dünyada mövcud olan qeyri-bərabər inkişafın mənbəyi, amilləri və səbəbləri aşkarlanır.

downloaded from KitabYurdu.az

Dünya iqtisadiyyatında baş verən mütərəqqi irəliləyişlər, eləcə də irəli sürülmüş bir sıra elmi mülahizələrin məqsədyönlü istifadəsinin konkret olaraq keçid iqtisadiyyatı dövrünü yaşayan Azərbaycan reallıqları üçün daşıdığı əhəmiyyət də dərsliyin sonuncu bölməsində aşkarlanır.

## FƏSİL 2. QƏDİM DÖVRÜN İQTİSADİ TƏLİMLƏRİ

### § 1. QƏDİM DÜNYADA İQTİSADİ GÖRÜŞLƏRİN YARANMASI

İqtisadi təlimlər tarixinin öyrənilməsi, bir qayda olaraq Qədim dünyada meydana gəlmiş iqtisadi görüşlərin, fikirlərin öyrənilməsi və mənimsənilməsi ilə başlanır. Bu da təsadüfi deyil. Çünki bəşəriyyətin tarixi təkamülü, insan cəmiyyətinin təşəkkülü, ilkin olaraq qədim dünyada meydana gəlmişdir. Minilliklər ərzində formalaşmış təbiət və cəmiyyət haqqındakı düşüncələr, baxışlar, görüşlər, fikirlər şifahi yollarla nəsildən-nəslə keçmiş və müxtəlif səpkili əfsanələr, rəvayətlər, eposlar, poeziyalar kimi ayrı-ayrı xalqların maddi və mənəvi mədəniyyətlərinə çevrilmişdir. Belə bir tarixi inkişaf prosesi, elmi dünyagörüşlərin formalaşması, ən qabarıq şəkildə özünü Qədim Şərqdə, Qədim Asiyada, Antik dövrün ən parlaq nümunələri olan Yunanıstanda və Qədim Romada əks etdirmişdir.

İctimai əmək bölgüsünün meydana gəlməsi, istehsal vasitələrinin təsərrüfat həyatında müəyyənedici rola malik olması, qul əməyinin mənimsənilməsi prosesi ictimai inkişafın iki yolunu müəyyən etdi. Bunların biri cəmiyyətin həyatında ictimai əməyin təşkilinin üstün rola malik olması ilə, ikincisi isə, müxtəlif ailələrin istehsal vasitələrinə və qullara görə mülkiyyətlərinin inkişafı ilə əlaqədardır. Məhz bununla əlaqədar olaraq tarixdə iqtisadi inkişafın, o cümlədən "siniflərin" meydana gəlməsinin iki üsulu fərqləndirilir. Bunlardan birini Asiya istehsal üsulu, digərini isə antik istehsal üsulu kimi fərqləndirirlər. Bununla əlaqədar olaraq bəzi hallarda Qədim dünya dedikdə, Şərq və Asiya ölkələri, Antik dünya dedikdə isə Qədim Yunanıstan və Qədim Roma nəzərdə tutulur. Lakin bir ümumi cəhət vardır ki, ictimai inkişafda, təsərrüfatçılığın təşkilində, siniflərin əmələ gəlməsində, dövlətin idarə olunmasında,

downloaded from KitabYurdu.az

insanların istehsal vasitələrinə və əməyinə görə davranış və fəaliyyət qaydalarının müəyyənləşdirilməsində nəticə etibari ilə eyni iqtisadi fikirlər söylənilmişdir. Məhz bununla əlaqədar olaraq, qədim dünya dedikdə, istər-istəməz uzaq keçmişdə mövcud olmuş olduqca dəyərli fikirləri, mövcud dövrü dolğun əks etdirən elmi mülahizələri vəhdət şəklində şərh etmək ehtiyacı əmələ gəlir. Ona görə də Antik dövrün iqtisadi fikirlərini, analoji olaraq Qədim dövrün fikirləri kimi də qəbul etmək olar.

Qədim dünyanın iqtisadi fikrində təsərrüfat fəaliyyətinin gedişatı və dərk olunması görkəmli elm xadimlərinin ya iqtisadi görüşlərində, ya da xalqın əfsanəvi - poetik və mənəvi mədəniyyətində öz əksini tapmışdır.

İqtisadi fikir haqqında danışarkən, bir qayda olaraq, bütün dünya ölkələrində qəbul olunmuş ümumi bir cəhət vardır ki, o da Qədim Şərqdə mövcud olmuş iqtisadi görüşlərin, fikirlərin öyrənilməsinə xüsusi diqqətin yetirilməsidir.

Qədim Şərqin tarixi inkişafının bütün mərhələlərində iqtisadi fikirlərdə əsas yeri dövlət təsərrüfatının təşkili və idarə edilməsi problemi tutmuşdur.

Natural təsərrüfata əsaslanan dövlət mülkiyyəti bir tərəfdən hakim "mərbəd" mülkiyyətinin formalaşmasına, digər tərəfdən əmtəə təsərrüfatının aparılması həddinin müəyyənləşdirilməsinə yönəldilmişdir.

Qədim Şərqdə iqtisadi fikir hakim natural - quldarlıq təsərrüfatının müdafiə olunmasına yönəldilərək, bu mövqedən əmtəə - pul münasibətlərinə əsaslandırılırdı. Məhz bununla əlaqədar olaraq şeylərin dəyərlərinə görə mübadilə olunması ideyası meydana gəlmişdir.

Göstərmək lazımdır ki, Qədim Şərqin iqtisadi fikri haqqında danışarkən, bura birinci növbədə Qədim Misirdə meydana gəlmiş, yayılmış və inkişaf etmiş iqtisadi fikri xüsusi qeyd etmək lazımdır. Bəşəriyyətin meydana gəlməsi, inkişafı, insan cəmiyyətinin ilkin beşiyi hesab olunan Misir, bu gün də öz ehramları, məbədləri, yeraltı sarayları, qəbir evləri ilə və s. möcüzələri ilə zəngin olan bir ölkə kimi dünyanın müxtəlif səpkili elmi-tədqiqatların daima diqqət mərkəzindədir.

Qədim Misirdə iqtisadi fikirlərin formalaşması, əsasən dövlətin mərkəzləşmiş idarəetmə sahəsindəki məqsədlərinin həyata keçirilməsi ilə bağlıdır.

downloaded from KitabYurdu.az

Burada ictimai işlər, hərbi və maliyyə idarəçiliyi xüsusi yer tuturdu. Belə mərkəzləşdirilmiş idarəçilik sistemi xeyli savadlı adamların olmasını tələb edirdi. Ona görə də belə adamların hazırlanması da mərkəzləşdirilmiş formada həyata keçirilirdi. Çox hallarda bu günə gəlib çatmış yazılı mənbələrdə dövlət və təsərrüfat idarəçiliyinin həyata keçirilməsi, o dövrlərdə hakim olmuş dini ehkamların yerinə yetirilməsi "Nəsihətlər" vasitəsi ilə şərh edilirdi. Belə "Nəsihətlər" bizim eradan əvvəlki, III-II minilliyinə qədərki ilkin, Qədim, Orta, Yeni hökmdarlıq dövrləri üçün xarakterik idi. Belə "Nəsihətlər" sırasına "Heraklopol" hökmdarının oğlu Merikara "Nəsihətlər"ini, "İnsarın kəlamları", "Nefertinin peyğəmbərliyi", "Çobanın nağılları", "Axtoyanın Duaufanın oğluna, öz oğlu Piokiyə nəsihətləri" və s. aid etmək olar.[4]

Qədim Misirdə iqtisadi resursların, əsasən əmək və torpaq resurslarının ciddi uçotu aparılırdı. Nil çayı vadisi boyunca, torpaq sahələrinin kadastrı aparılmış, ən məhsuldar sol sahil boyunca olan sahələr dövlət torpaqları adlandırılmışdır.

Dövlət başçısı hesab olunan Fironlar siyasi, dini hökmranlığı yerinə yetirməklə, başlıca iqtisadi funksiyaları da yerinə yetirirdilər. Məhz ona görə də onlar yer üzündə Günəş (Ra) allahının oğlu və varisi hesab olunurdular. Firon xalqın və məmurların yalnız bəndəliyi ilə kifayətlənmir, bəzən özünə mehrablar ucaldır və özünün təsviri qarşısında ətirli maddələr yandırırdı.[5]

Misirdə Firon hökmdarlığından sonra ölkənin iqtisadi həyatına ciddi müdaxilə edən kahinlər idi. Kahinlər ölkənin taleyini həll edən müdrik insanlar kimi cəmiyyətin həyatında qeyri-adi rol oynayırdılar. Məhz onların səyi nəticəsində o dünyadakı həyatın əbədiliyi əsaslandırılmışdır. Ona görə də insanlar bu dünyada qəbir evi üçün də mövqelərinə uyğun olaraq ciddi ehtiyatlar hazırlayırdılar.

Ona görə də o dövrlərdəki xalq qüvvətli hökmdarlar və zəkalı kahinlərlə birlikdə, qarşılıqlı ünsiyyətdə fəaliyyət göstərirdilər, onların ümumi rifahı artmaqla, Misirin sivilizasiyanın vətəninə çevrilməsinə səbəb olurdu.

---

[4] Всемирная история экономической мысли , том I М.1987, стр.37

[5] Б.Прус Фирон, Б.1986, стр.13

downloaded from KitabYurdu.az

Qədim Misirin iqtisadi fikir tarixindən bəhs edərkən bir qayda olaraq, bizim eradan XIII əsr əvvəl yazılmış "İpuserin kəlamları"na xüsusi diqqət yetirilir. İpuser cəmiyyətin dəyişilməsinin ilkin keçid dövrünü göstərmişdir. Olduqca dərin və düşündürücü şəkildə baş verəcək diyişiklikləri şərh edərək göstərirdi ki, mövcud mərkəzləşdirilmiş idarə sistemi çox az adamın mənafeyinə xidmət edir. Ona görə də o hesab edir ki, Misirin taxılı hamının neməti olmalıdır. Bunun üçün müxtəlif deklarasiyalar, məhkəmə qanunları məhv edilməlidir.

İluserin kəlamlarında əsas diqqət, ciddi reqlamentləşdirilmiş təsərrüfatın pozulmasına verilir.[6]

Göstərilir ki, nəzarətin zəifləməsi bir tərəfdən istehsalçıların, xüsusən sənətkarların boş dayanmasına, digər tərəfdən yazanların, qeydiyyat aparanların fəaliyyətsizliyinə gətirib çıxarır. Bu da xalqın məhvinə səbəb olur.

İşləməyən sənətkarları o, ölkənin düşmənləri adlandırır. O şəxslər ki, taxıl əkməyib, onlar məhsul alırlar. Bu barədə heç bir məlumat verilmir. Bu da xalqın qəzəbinə səbəb olur. Xüsusən cəmiyyətin kübar hissəsinin mərkəzləşdirilmiş hakimiyyət nümayəndələrinə qarşı çıxmasına səbəb olur. Kübarların Misirin xarici düşmənləri ilə ittifaqa girməsi mərkəzi dövlət idarəçiliyini dağıda bilmişdir. Lakin "İluserin kəlamları"nda, eləcə də "Nefertinin peyğəmbərliyi"ndə göstərilir ki, heç cür vahid Misir dövlətini dağıtmaq olmaz. Vahid Misir dövləti, ölkədə qayda-qanunun, inzibati qulluqçulların sabit gəlir əldə etmək təlimatçısı kimi göstərilirdi. "İluserin kəlamları"nda "xeyirxah paytaxtın düşmənlərinin" məhv olunması çağırışları vardı. O, ölkədə dini kahinlərin rolunun möhkəmləndirilməsinə və bərpa olunmasına, ölkənin hərbi gücünün artırılmasına diqqətin verilməsini qeyd edirdi.

Ona görə də mərkəzləşdirmə ideyası "İluserin kəlamları"nda əsas yer tuturdu ki, bu da onun dövlət məmurları arasında çox məşhurlaşdırılmasına səbəb olmuşdur. Qədim Misirdə iqtisadi fikrin əmələ gəlməsi əsasən, mərkəzləşdirilmiş dövlət idarəçiliyi ilə bağlı olsa da, lakin quldarlıq quruluşunun ümumi qanunauyğunluqlarından irəli gələn bir sıra

---

[6] Bununla əlaqədar daha ətraflı bax. "Всемирная история экономической мысли" Т.1, М.1987, стр.36-54

downloaded from KitabYurdu.az

xüsusiyyətləri də əhatə edirdi. Xüsusən dövlət idarəçiliyində yüksək vəzifə tutan əyanların təsərrüfatı ilə bağlı iqtisadi məsələlər də irəli sürülmüşdür.

Bir tərəfdən qulların əyan təsərrüfatında istifadə olunması qaydaları, digər tərəfdən orada çalışan işçilərin ağaların anbarlarından pay almaq hüququ müəyyənləşdirilmişdir. Bu da ölkə ərazisində mərkəzləşmiş təsərrüfat idarəçiliyinin prinsipi olmaqla həm əyan mülkiyyətinin formalaşmasına, həm də Misir taxılının hər kəsin əsas nemətinə çevrilməsinə səbəb olurdu. Dövlət idarəçiliyində tutduğu vəzifədən asılı olaraq əmələ gələn əyan təsərrüfatı, onların rifahının əsasını təşkil etməklə, şəxsi təsərrüfata malik olmalarını aradan qaldırmadı. Beləliklə, Qədim Misirdə mülkiyyətin formalaşması əsasən əyan təsərrüfatı ilə bağlı olmuşdur. Əyan mülkiyyətinə həm sərəncamlarında olan şəxsi vasitələr, həm də qulluq vəzifəsindən asılı olaraq mənimsədiyi predmetlər daxil idi. Beləliklə, xüsusi mülkiyyət və dövlət mülkiyyəti çərçivəsində əmələ gəlməklə, onların qarşılıqlı fəaliyyət göstərməsinə səbəb olurdu.

Qədim Misirdə dövlət və xüsusi mülkiyyətin formalaşmasına birmənalı baxmaq olmaz. Yəni elə hesab etmək olmaz ki, dövlət mülkiyyəti əsasında əmələ gələn xüsusi mülkiyyət inkişaf etdikcə, tədricən dövlət mülkiyyətinin azalmasına və ya dağılmasına səbəb olurdu. Düzdür, mərkəzi hakimiyyətin zəiflədiyi dövrlərdə xüsusi mülkiyyətin həddi artırdı. Lakin hər yeni mərkəzi hakimiyyətin güclənməsi, çox hallarda əyanların xüsusi mülkiyyətlərinin hesabına baş verirdi.

Bu və ya digər obyekt üzərində mülkiyyət hüququnun qorunması və saxlanması qaydaları b. e. əvvəl II minilliyin ikinci yarısında meydana gəlmişdir.

Əmək bölgüsünün dərinləşdiyi, xüsusən maddi nemətlər istehsal edən hökmdar sənətkarları ilə əkinçilərin arasındakı münasibətlər, onların iqtisadi fəaliyyətlərini əsaslandıran qaydalar əsasında baş verirdi. Lakin burada bir ümumi cəhət var idi ki, mülkiyyət obyektinə sahib olma, mərkəzi hakimiyyətdə tutulan vəzifədən asılı idi. Vəzifə mənimsənilməsi ilə əlaqədar meydana gələn mülkiyyətin nəsildən-nəslə keçməsi və irsi xarakter daşıması oğulun müvafiq vəzifəyə təyin olunmasından asılı idi. Ona görə də, bir qayda olaraq vəzifəyə görə mülkiyyət mənimsənilməsi nəsildən-nəslə keçsə də, lakin bu heç də bir qədər asan başa gəlmirdi.

downloaded from KitabYurdu.az

Burada vəzifə ilə bağlı mülkiyyətə sahib olmaq işində şəxsi mülkiyyət payının artımı prosesinin böyük rolu vardı. Əslində şəxsi mülkiyyət ilə vəzifə mülkiyəti birləşərək xüsusi mülkiyyəti yaradırdı. Şəxsi mülkiyyətin də əmələ gəlməsi müəyyən şərtlər daxilində ola bilərdi. Əvvəla sənətkar və ya usta əsasən qulluq müddətinin sərbəst vaxtında öz əməyi ilə bu və ya digər predmet hazırlaya bilərdi. İkincisi, hazırlanan əşyanın, predmetin öz materialı hesabına hazırlandığını sübut etməli idi. Üçüncüsü, tətbiq olunan əmək aləti hökmdara məxsus olmamalı idi. Dördüncüsü, hazırlanan tikili və ya "qəbir evi" heç kimə məxsus olmayan torpaq sahələrində aparılmalı idi.

Göründüyü kimi, xüsusi mülkiyyətin formalaşması mürəkkəb proses olsa da, dövlət əmlakının oğurlanması və ya havayı mənimsənilməsi hesabına baş verməsinin qarşısı alınırdı.

Qədim Misirdə iqtisadi fikir tarixində əsas yeri mərkəzi dövlət idarəçiliyi, əyan mülkiyyətinin əmələ gəlməsi tutsa da, lakin burada dövlət təsərrüfatının idarə olunma sistemi, onun istehsal vasitələri və iş qüvvəsi ilə, işçilərin ərzaq məhsulları ilə təmin olunması, məhsuldar torpaq sahələrindən istifadə olunması, dövlət əmlakının mənimsənilməsinin qarşısının alınması qaydaları da göstərilir.

Qeyd etmək lazımdır ki, əmtəə-pul münasibətlərinin inkişafı ilə, xüsusən Qədim, Orta hökmdarlıq dövründən fərqli olaraq, Yeni hökmdarlıq dövründə qul və ondan istifadə etmə fikirləri geniş yer tuturdu.

Təsərrüfatın natural xarakter daşıması ticarət, mal mübadiləsi, əsasən daşınan və daşınmaz əmlaka görə, eləcə də sərəncamda olan qullara görə aparılırdı. Eyni zamanda ekvivalent mal mübadiləsi üçün əsas yeri ilkin olaraq, buğda, daha sonralar mis və gümüş tutmağa başlamışdır.

Əmtəə-pul münasibətlərinin, eləcə də quldarlığın inkişafı, mal mübadiləsində müddətli qulların borc verilməsi üstünlük təşkil etməyə başlamışdır. Qul əməyindən borcların verilməsi və alınmasından istifadə tədricən sələmçiliyin meydana gəlməsinə səbəb olmuşdur. Qul əməyinə görə sahibinə olan aylıq haqqın verilməsi çox hallarda qulun qiymətinə yaxın olurdu. Sələmçilik natural təsərrüfatın xüsusiyyətlərindən biri kimi nəinki xüsusi mülkiyyətin, eləcə də mərkəzi dövlət təsərrüfatının inkişafını

downloaded from KitabYurdu.az

ləngidirdi. Çünki sələmin verilməməsi çox hallarda vətəndaş müharibələrinə gətirib çıxarırdı.

Bütün qeyd olunanları yekunlaşdırıb demək olar ki, Qədim Misirdə iqtisadi fikir dövlət təsərrüfatının təşkili və idarə olunması sahəsində bir çox məsələlər öz əksini tapmışdır. Əhalinin yaşına, işinə görə siyahıya alınması, məhsuldar torpaq sahələrinin hesabatının aparılması, torpaqların kadastrının müəyyən edilməsi, mərkəzi dövlət təsərrüfatçılığının inkişafında mühüm rol oynayırdı. Bundan əlavə irriqasiya işlərinin aparılması, müxtəlif mədəni abidələrin tikilməsi, mürəkkəb süvarma sisteminin aparılması, bəşəriyyətə möcüzə kimi görünən müxtəlif təyinatlı qurğuların hazırlanması, Piramidaların, ehramlarının tikilməsi əmək resurslarından məqsədyönlü istifadəsini əks etdirir. Həmçinin vəzifəyə görə əmlaka sahib olma, xüsusi mülkiyyətin əmələ gəlməsi və ona nəzarət qaydaları müəyyən olunmuşdur.

Eyni zamanda dövlət təsərrüfatının yüksək səviyyədə mərkəzləşməsi, nəinki xüsusi mülkiyyəti, eləcə də əmtəə-pul münasibətlərinin inkişafını ləngitmişdir (əmək resurslarının bölgüsü, onlardan çevik istifadə olunması). Əgər Qədim Misir iqtisadi fikrinə xüsusi diqqət verilirsə, lakin qul əməyinin təşkili və istifadə olunmasına bir o qədər əhəmiyyət verilməmişdir.

Qədim Misirdən sonra Şərq dünyasında iqtisadi fikrin geniş yayılmış ölkələrindən Qədim Şumeri, Babilistanı və ya Mesopotamiyanı qeyd etmək olar.

Yaxın Şərqdə meydana gələn xırda dövlətlər, daima öz aralarında ciddi çəkişmələrə məruz qaldığından təsərrüfat quruculuğunda böyük nailiyyətlər əldə edə bilmirdilər. Qədim Misirdən fərqli olaraq, bu ölkələrdə mərkəzləşmiş dövlət idarəetmə mexanizmi möhkəm deyildi. Çünki Qədim Şumerdə şəhər-dövlətlərin (Kiş, Eredu, Laqoin, Ur və s.) meydana gəlməsi, burada əsas iqtisadi fikir, əkinçilik şəraiti, irriqasiya işlərinin aparılması, su təchizatı, kanalların təmizəlnməsi və s. bağlı meydana gəlmişdi. Xüsusilə bu istiqamətdə ictimai əməkdən istifadə olunması sayəsində, bol məhsulun əldə olunmasına və onun da hakim sinfin əlində cəmlənməsinə səbəb olurdu.

downloaded from KitabYurdu.az

Qədim Şumerdə e. ə. III minillikdə icma icma-məbədlərə məxsus mülkiyyətin üstün rola malik olması, yaradılan bütün nemətlərin burada cəmlənməsinə səbəb olurdu. Bu da tədricən məbədlərin torpaq sahələrinin icma torpaqlarından ayrılmasına və onun sənətkarlıq mərkəzinə, irriqasiya işlərini aparan təşkilata çevirdi.

Məbəd torpaqları üç hissədən ibarət olurdu. Bir hissəni qullar becərib, əldə olunan gəlir məbədlərin ehtiyaclarının ödənilməsinə yönəldilirdi. İkinci hissə xidmət payları kimi, məbədin vəzifə adamlarına xidmət edənlərə verilirdi. Üçüncü hissə, çox da böyük olmayan məbləğdə, əldə olunan məhsulun beşdə bir hissəsindən çox olmayaraq icarəyə verilirdi.

Dövlət hakimiyyətinin möhkəmlənməsi, yararlı torpaq sahələrinin möhdudluğu, Qədim Şumerdə təsərrüfatçılıq hesabatlarının aparılması zəruri qaydaya çevrilmişdi.

Dövlət təsərrüfatında iş qüvvəsinin və istehsal vasitələrinin dəqiq uçotunun aparılması ilə yanaşı, eyni zamanda torpaqların kadastrının, becərilən torpaqların keyfiyyətinin və yer quruluşunun uçotu aparılırdı. Həmçinin mərkəzi və yerli anbarlarda saxlanılan maddi resursların da aylıq və illik uçotu aparılırdı.

Qeyd etmək lazımdır ki, Qədim Şumerdə dövlət təsərrüfatının möhkəmləməsi, onun ölkənin iqtisadi həyatına olan müdaxiləsi də güclənirdi. Belə ki, istehsalçıların fəaliyyətinə bilavasitə dövlət həm nəzarət edirdi, həm də onların davranışlarını reqlamentləşdirirdi.

Dövlətin təsərrüfatçılıq fəaliyyətindəki müdaxiləsi öz klassik formasını Qədim Babilistan çarlığının timsalında (e.ə. XIX -XYI əsr) tapmışdır.

Məbəd torpaq sahələrinin qulluqda olanlara verilməsi, hökmdar adamlarına paylanması Babilistanda xüsusi mülkiyyətin möhkəmlənməsinə, icarə münasibətlərinin güclənməsinə səbəb olmuşdur. Bundan əlavə sələmçiliyin geniş yayılması, torpaq sahələrinin bir qrup adamların əlində cəm,lənməsi, əhali kütləsinin bir qisminin tam var-yoxdan çıxmasına, borclu düşməsinə, hətta kölə, qul vəziyyətinə düşməsinə səbəb olurdu.

downloaded from KitabYurdu.az

Beləliklə, cəmiyyətdə adamların biri-birindən əsaslandırılmayan asılılığı sürətlənirdi. Dövlət mövcud vəziyyətlə, xüsusi hüquqi münasibətlərin qorunması ilə bağlı, o cümlədən sələmçilərdən asılılığı zəiflətmək məqsədi ilə yeni qaydaların müəyyən olunması prinsiplərini formalaşdırırdı. İqtisadi fikir nöqteyi-nəzərincə ən maraqlı qanunları hökmdar Xammurappinin (e.ə. 1792 - 1750) verdiyi qanunları hesab etmək olar. Hökmdar Xammurappi nəinki Qədim Mesopotamiyada fəaliyyət göstərən qanunları təkmilləşdirdi, eyni zamanda cəmiyyətin sosial-iqtisadi inkişafına səbəb olan bir sıra qanunlar da qəbul etdi. Onun 282 bənddən, giriş və nəticədən ibarət olan qanunlar məcəlləsi ölkənin idarə olunmasında, təsərrüfat həyatının, insanların, davranış qaydalarının müəyyən hüquqi sistemini müəyyən etmişdir.[7]

Babilistan vətəndaşlarının iri mülkiyyətlərin qorunması, icarə, ticarətin aparılması, sələmçilik, muzdla işləməklə bağlı verilən qanunlarını iqtisadi fikir sahəsində edilən mütərəqqi irəliləyiş kimi qəbul etmək olar. Bütün qanunların əsas hissəsini "güclülərin zəifləri sıxışdırmaması" prinsipindən ibarət idi. Bundan əlavə dövlət məmurlarının, Babilistan vətəndaşlarının, ordu əsgərlərinin mülkiyyətlərinin qorunmasına üstünlük verilməklə yanaşı məbəd mülkiyyətinin də qorunmasına xüsusi diqqət yetirilirdi. Xammurappinin qanunlarında onların torpaq sahələrinin, evlərinin, bağlarının gümüşə satılması qadağan edilirdi.

Sələmçiliyə qarşı yönəldilən Xammurappinin qanunlarında göstərilirdi ki, borcun ödənilməsi mümkün olmadıqda, əlavə faiz verməmək şərti ilə onun müddətinin bir ildə uzadılmasına icazə verilirdi. Digər tərəfdən borclunun icazəsi olmadan sələmçinin onun taxılının borcun əvəzinə götürülməsini qadağan edirdi. Xammurappinin qanunlarında sələmin həddi ciddi şəkildə müəyyən edilmişdi. Pul formasında sələmin həddi 20 %-dən natural formada isə 33 %-dən çox ola bilməzdi. Maraqlı cəhətlərdən biri kimi qeyd edilməlidir ki, Xammurappinin qanunlarında sələmçilərin borclularla pis rəftar etdikdə onların cəzalandırılması da göstərilirdi. Sələmçiliyin geniş yayılmasının qarşısını almaq məqsədi ilə əlaqədar qul borc verilməsi müddəti üç illə məhdudlaşdırılırdı.

---

[7] Всемирная история экономической мысли. том.I. М.1987. стр.56

downloaded from KitabYurdu.az

Qanunda göstərilirdi ki, əgər qul sahibi borclunun arvadını, oğlunu, qızını, borc əvəzinə satırsa, onda onlar sahiblərinə qulluq etməli, tapşırıqlarını yerinə yetirməli və üç il müddət başa çatdıqdan sonra, onları azadlığa buraxmalıdırlar.

Xammurappinin qanunları üç əhali kateqoriyasını, tam hüquqlu azad vətəndaşları, tam hüququ olmayan azad adamları və qulları nəzərə almaqla tərtib edilmişdir.

Ümumiyyətlə, hökmdar Xammurappinin qanunları, bir tərəfdən dövlətin təsərrüfatın tənzimlənməsi ilə, digər tərəfdən isə müxtəlif əhali qrupunun iqtisadi fəaliyyətlərinin nəzarətdə saxlanılması ilə səciyyələnirdi.

Qədim Babilistanda iqtisadi fikri, əsasən dövlətin təsərrüfata nəzarəti, xüsusi mülkiyyətin qorunması, sələmçiliyin həddinin müəyyən edilməsi, borc ödənişlərinin yerinə yetirilməsi, muzdlu əməkdən istifadə olunması ilə bağlı olmuşdur.

Beləliklə, hökmdar Xammurappinin qanunları Yaxın Şərqdə iqtisadi və hüquqi fikrin inkişafına təsir göstərmiş, beləliklə də Qədim dövrdə Yaxın Şərq dövlətlərində təsərrüfatçılığın digər sahələrində, xüsusən heyvandarlıqla, sənətkarlıqla, ticarətlə bağlı iqtisadi fikirlərin meydana gəlməsinə səbəb olmuşdur.

## § 2. QƏDİM ASİYADA İQTİSADİ FİKİRLƏRİN MEYDANA GƏLMƏSİ

Dünya mədəniyyət tarixində özünəməxsus istiqaməti ilə fərqlənən Çin elmi bir çox sahələrdə, o cümlədən iqtisadi fikir tarixində olduqca dəyərli nailiyyətlər əldə etmişdir. Xüsusən Konfutsiyanın (552-479 e.ə.) (Kun-Fut-zı) irəli sürdüyü iqtisadi ideyalar Qədim Çin dövlətinin milli ideologiyasının əsası kimi onun iki minillik tarixi dövrünü təşkil etmişdir.

İri ailə icmaları daxilində formalaşmış ənənələrə sadiq qalan Konfutsiya onu böyük - kiçik, ata - oğul, böyük qardaşlar - kiçik qardaşlar prinsipi ilə bütün cəmiyyətin sosial-iqtisadi quruluşunu stabilləşdirmək istəyirdi.

downloaded from KitabYurdu.az

Konfutsiya təkmilləşmiş adam-xeyirxah ər təlimini yaratmışdır. Bu təlimin əsasında böyüklərə hörmət, humanizm, öz borcunu dərk etmək prinsipi dururdu. Humanist adam təvazökarlığı, ədalətliliyi, dözümü, hamıya qarşı eyni olmağı ilə səciyyələnirdi. Konfutsiya göstərirdi ki, xeyirxah ər yalnız öz borcunu bildiyi halda, lakin aşağı adamlar yalnız faydalanmağı bilirlər.

Ali mənəvi prinsipləri hər cür sərvətdən, yüksək mövqe tutmaqdan üstün hesab edən Konfutsiya qeyd edirdi ki, insan yüksək mövqe tuta bilmədiyinə görə deyil, tam möhkəmlənməməsinə görə təəssüflənməlidir.

Konfutsiya ilk dəfə Çində irəli sürülmüş təbii hüquq nəzəriyyəsini sosial, mənəvi və hüquqi fəlsəfə istiqamətində inkişaf etdirmişdir. Təbii hüquq konsepsiyasına əsasən, allah dünyanın ilkin səbəbidir. Lakin cəmiyyət həyatında baş verən hadisələrə qarışmır. Allah töhfəsi kimi verilən təbii hüquqlar vətəndaş qanunları ilə qorunur.

Əsrlər boyu "təbii hüquq" nəzəriyyəsi Çində inkişaf etmiş, hakim sinfin mənafeyinə xidmət etsə də, lakin xalqın mənəvi zənginləşməsində olduqca böyük rol oynamışdır. Çünki mənəvi zənginlik, bu gün də Çin xalqının ən böyük bəşəri dəyərləri kimi qiymətləndirilir.

Konfutsiya insanın mənəvi təkmilləşməsini dövlət idarəçiliyinin əsası hesab edirdi. Onun fikrinə görə dövlət böyük bir ailədir, hökmdar isə "xalqın atasıdır".

İdeal hökmdar obrazında da Konfutsiya təkmilləşmiş şəxsiyyəti görürdü və qeyd edirdi ki, dövlət xərclərində qənaətcil olmalı, insanlar üçün qayğı çəkməlidir.

Konfutsiya hökmdarları əvvəlcə xalqı varlı etməyə, sonra isə tərbiyələndirməyə çağırırdı. Bununla əlaqıdar o qeyd edirdi ki, hökmdarlar adamların azlığı ilə deyil, nemətlərin qeyri-bərabər bölünməsinə görə qayğı çəkməlidirlər. Eyni zamanda o göstərirdi ki, yoxsulluğun əsas səbəbi aşağıdakılarla yuxarılar arasında gedən çəkişmələrdir. Əlbəttə, belə bölgüdə əhalinin sosial təbəqələşməsi nəzərə alınırdı. Çünki Konfutsiya "ali icma ilə" xüsusi mənimsəməni fərqləndirirdi.

Ali icmaya kollektiv mülkiyyət sahibi olan kəndliləri, xüsusi mənimsəməyə isə quldar mülkiyyətini daxil edirdi.

downloaded from KitabYurdu.az

Hökmdarın hər cür narazılıqların aradan qaldırılması və kəndli təsərrüfatının təşkil olunması sahəsindəki vəzifəni qeyd edən Konfutsiya xalqın mövsümi ictimai işlərə cəlb olunmasını zəruri hesab edirdi.

Qədim Çində sosial-iqtisadi sabitləşmənin əsas istiqamətini, nəsil-tayfa prinsipi əsasında formalaşan patriarxalq-ailə münasibətində görən Konfutsiya hesab edirdi ki, dövlətin sərvəti, məhz ailələrin sərvətinə əsaslanmalıdır. Konfutsiya xalqı çox işləməyə və az istehlak etməyə çağırırdı. Bununla belə hakimiyyətin möhkəmləndirilməsi üçün xalqın sosial təbəqələrindən istifadə etməyi, kollektiv əməkdən istifadə edib ictimai işləri görməyi tövsiyə edirdi.

Hökmdarı varlı, xalqı razı görmək istəyən Konfutsiya vergi həddinin qoyulması, etik normalara riayət edilməsi, əkinçilik işlərinin vaxtında görülməsi, sərvətin bərabər bölgüsü prinsiplərinin nəzəri ideyalarını göstərə bilmişdir.

Konfutsiyanın ideyalarını daha sonralar inkişaf etdirən görkəmli mütəfəkkirlərdən biri müəllim Men (e.ə.372 - 281) olmuşdur. Konfutsiyanın yaşadığı dövrdən fərqli olaraq, müəllim Men sinfi mübarizələrin kəskinləşdiyi şəraitdə fəaliyyət göstərirdi. O qeyd edirdi ki, xalq kütləsinə humanist hökmdar güzəştə getməyi bacarmalıdır və xalqı idarə etməlidir.

İdarəetmə Konsepsiyasını irəli sürən Men-tsızı idarə edənlə idarə olunan arasındakı münasibətlərini müəyyən etməklə qeyd edirdi ki, sadə adamlar hakim təbəqəni təmin etməməlidirlər, bu göyün yerdəkilər üçün ən ümumi qanunudur.

İstehsalın icma formasına üstünlük verən Men-tsızı, kəndli torpaqlarının birgə becərilməsinə, qarşılıqlı yardım edilməsinə xüsusi əhəmiyyət verirdi. Eyni zamanda bu istiqamətdə tətbiq ediləcək verimlərin həddinin müəyyən edilməsinə də diqqət verilməsini qeyd edirdi.

Əmtəə mübadiləsinə xüsusi əhəmiyyət verən Men-tsızı qeyd edirdi ki, əkinçilərlə sənətkarlar arasında belə mübadilə olmalıdır. Daxili bazarda qiymət həddinin müəyyənləşdirilməsində istehsalçının əmək məsrəflərini nəzərə almaq lazımdır. "Əgər iri və kiçik başmaqlar eyni qiymətdə olsa, onda iriləri kim hazırlayar?" Lakin qiymətlərin tənzimlənməsində aldat-maların olacağına tərəddüd edən müəllim Men göstərirdi ki, belə olan şəraitdə dövləti kim idarə edəcək.

downloaded from KitabYurdu.az

Bununla müəllim Men qiymətlərin mübadilə şəraitində uyğunlaşmasını və dövlətin onları tənzimləməkdən azad olunmasını tövsiyə edirdi.

Qədim Çin ictimai fikrində "Quan-tsızı" kollektiv iqtisadi traktı xüsusi yer tutur. Bu iqtisadi traktı e.ə. 4-3 əsrlərdə hökmdar tipin yaranmış olduğu "Qərb qankarında elm sarayı" adlı akademiyasında meydana gəlmişdir.

Müxtəlif alimlərin 500-dən yuxarı əsərlərinin məhsulu "Quan-tsızı" traktında birləşmiş 76 fəsilli ensklopedik yadigar bir əsər kimi bugünkü günə gəlib çatmışdır.[8]

İctimai həyatda baş verən dəyişikliklərin məhsuldar və ya qeyri-məhsuldar illərlə əlaqəsi və əməyin dövlətin gücünün əsası olduğu "Quan-tsızı" traktında qeyd olunurdu. Bununla yanaşı əməyin ekvivalent mübadiləsinin aparılmasının meyarı olduğu göstərilirdi. Traktın müəllifləri hesab edirdilər ki, "ustalarla" "əkinçilərin" əmək məhsullarının mübadiləsi şəraitində birinin o birinə nisbətən daha çox fayda götürməsinə heç cür yol vermək olmaz. Çünki bütün xalq bir çalışmalı və hamı bərabər qazanc əldə etməlidir.

"Quan-tsızı" traktında qeyd olunur ki, xalq bilikli adamlar üçün gəlir, tacirlər üçün isə mənfəət yaradır. Bununla belə sadə xalqla bilikli adamlar təbii hüquq konsepsiyası baxımından əsaslandırılırdı. Göstərilirdi ki, əgər hamı bilikli adam olsaydı onda ölkə gəlirsiz qalardı və heç biliksiz adamlar da olmazdı. "Quan-tsızı" traktında iqtisadi fikirlər əsasən "hökmdarı dövlətli" "xalqı razı" görmək istiqamətindədir.

"Quan-tsızı" müəllifləri qeyd edirdilər ki, iqtisadiyyatın stabilləşməsinin əsasını əkinçilik işinin sürətləndirilməsi və dövlətin daim taxıl ehtiyatının yaradılması təşkil edir. Taxılın qiymətinin tənzimlənməsi tövsiyə edilirdi. Lakin nə sənətkarlıq, nə də ticarət faydasız iş hesab olunurdu. Bundan əlavə traktda qeyd olunurdu ki, "dörd qrup xalqın" qulluq adamlarının, əkinçilərin, sənətkarların və tacirlərin əmək və həyatı geniş şəkildə reqlamentləşməlidir. Onlar sənətlərini dəyişməməli və nəsildən-nəslə keçməlidir.

---

[8] Бах: Всемирная история экономической мысли. том.I. стр.105

downloaded from KitabYurdu.az

Traktda dövlətin "torpağı idarə" edə bilməsi üçün onun təbii xüsusiyyətlərinin öyrənilməsi və keyfiyyət şkalasının qoyulması tövsiyə edilirdi.

Əkinçilik işinin sürətləndirilməsi üçün "Quan-tsızı" traktında əhaliyə kreditlərin verilməsi tövsiyə edilirdi. Çünki dağlıq ərazilərdə yaşayanların taxıl məhsullarına olan ehtiyacı, məhsuldarlığın aşağı olması nəticəsində daima artır. Belə şəraitdə dövlət kredit əməliyyatlarından daha çox pul resurslarını cəmləyir. Bu da "pulların bahalaşmasına" və "şeylərin ucuzlaşmasına" səbəb olurdu.

"Quan-tsızı" traktının müəllifləri sadə əmtəə təsərrüfatı şəraitində pul təsərrüfatının bir sıra qanunauyğunluqlarını müəyyən edə bilmişdilər. Belə ki, əmtəələrin qiymətinin artımı, pulun və əmtəələrin qiymətlərinin əks hərəkəti pulun ucuzlaşmasına, kreditlərin məhsulların mübadiləsinə verilməsi, onların bahalaşmasına səbəb olacağı qeyd olunmuşdur. Digər tərəfdən təsərrüfatın sabitləməsi üçün pul nişanlarının emissiyasının normalaşdırılmasını göstərirdilər.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, "Quan-tsızı" traktı Qədim Çin iqtisadi fikirlərinin təşəkkülü və inkişafında misilsiz rol oynamışdır.

Qədim Hindistanda eramızdan əvvəl XXIII-XXYIII əsrlərdən başlayaraq, quldarlıq quruluşunun inkişafı, intensiv şəhərsalma, budda ehkamının üstün rola malik olması, xüsusi mülkiyyətlə, əmlakla, vergi ilə, dəyərlə, əməklə bağlı Cənubi Asiyada iqtisadi görüşlərin meydana gəlməsinə səbəb olmuşdur.

Qədim Hindistanda mülkiyyət onun sahibinin bir hissəsi hesab olunurdu. Lakin bununla yanaşı ilkin buddizm təlimində mülkiyyətdən imtina etmək əsas yer tuturdu. Bədənin zahiri ünsürü kimi təsvir olunan əmlakdan imtina etmək şəxsiyyətin budda qarşısında ən ali keyfiyyəti kimi göstərilirdi.

Eramızdan əvvəl I minilliyin ortalarında meydana gələn buddizm dininin və onun təsvirinə həsr olunan ədəbiyyatın braxmanizmin (induzma) meydana gəlməsi cəmiyyətin mədəni həyatının inkişafına müsbət təsir göstərirdi. Qədim Hindistanda insanların istər dini, istərsə gündəlik fəaliyyətləri, istərsə də mənəvi davranışları o dövrdə yazılmış ədəbiyyatlarla tənzimlənirdi. Xüsusi üç kitab vasitəsi ilə insanın

downloaded from KitabYurdu.az

həyatındakı fəaliyyətinin əsas məqsədi, onun dini borcu (dxarme), qazancı (artxe), sevgisi (kame) əsaslandırılırdı. Bunlara "Manunun qanunları" - dini borcları , "Artaxaşastra" - qazancı, "Kamasutra" - sevgisini təsvir edən kitablar daxil idi. Dini borcların yerinə yetirilməsini birinci dərəcəli vəzifə kimi qarşıya qoyan "Manunun qanunları" hər bir fərdə üç məqsəddən istifadə olunmasına icazə verilirdi.

Sərvətin, maddi nemətlərin əldə olunması xüsusən qurban vermə ehkamı ilə əlaqədar idi.

Həyat fəaliyyətində əldə olunan bütün əmlaklar birmənalı olaraq allahın yolunda (buddaya) qurban vermək üçün nəzərdə tutulurdu.

Qeyd etmək lazımdır ki, Qədim Hindistanda iqtisadi fikirlərin meydana gəlməsində və formalaşmasında eramızın birinci əsrində 15 kitab əsasında tərtib edilmiş "Artaxaşastra" traktı mühüm rol oynamışdır.

Maddi qazancın əldə olunmasına, ətraf ərazilərin yeni vergi verənlərə görə zəbt edilməsi, bu əsasdan da hökmdarın xəzinəsinin doldurulması prinsipi traktda əsas yer tutur. Traktın əsas tərtibatçısı hökmdar I Çandra quntanın məsləhətçisi Kanutilya hesab olunur. Dövlətin möhkəmlənməsinə, vergi yağmanın təkmilləşməsinə, gəlirlərin artırılmasına, xərclərin azalmasına, ticarətin aparılması qaydalarına traktda geniş yer verilmişdir.

"Artaxaşastra" traktında hökmdara dörd elmin öyrənilməsi zəruri hesab edilir. Bunlardan biri dini təlim, ikincisi fəlsəfə, üçüncüsü idarəetmə, dördüncüsü isə iqtisadiyyat. Traktın ikinci kitabı iqtisadiyyata (vartta) həsr edilmişdir.

Müxtəlif təsərrüfat fəaliyyəti ilə bağlı, xüsusən əkinçilik, heyvandarlıq, ticarət sahələri kimi öyrənilən iqtisadiyyat, əslində dövlət təsərrüfatı sferası kimi şərh edilərək xəzinənin doldurulması vasitəsi hesab olunur.

İqtisadiyyat bilavasitə hökmdarın inhisarına daxil olduğuna görə, ayrı-ayrı təsərrüfatlar da onun hissələri hesab olunurdu.

Qul əməyinə üstünlük verilən əkinçilik sahələrindən başqa, emalatxanalarda muzdlu əməkdən istifadə olunması tövsiyə edilirdi. Natural və qul ilə ödənilən muzdlu əməyin ixtisas yönümü əsas götürülürdü. Vergilərin mahiyyəti traktda, onun hökmdara ölkəni müdafiə

downloaded from KitabYurdu.az

etdiyi üçün verilən mükafat kimi göstərilirdi. Lakin bununla yanaşı müxtəlif sahələrdən əldə olunan vergilər fərqlənirdi. Belə ki, kənd təsərrüfatından əldə olunan vergi məhsul yığımının 1/6 hissəsinə bərabər tutulurdusa da, lakin sənətkarlar və tacirlər üçün tamamilə başqa hədd müəyyən edilmişdi. Ümumiyyətlə, bütün fəaliyyət sahələrinin vergiyə cəlb olunması zəruri hesab olunurdu.

Vergilərdən yalnız dini təlimin ən aparıcı nümayəndələri azad edilirdi. Traktda ticarətlə məşğul olanlar arasında əyyaşlığın geniş yayıldığını nəzərə alaraq qeyd olunurdu ki, belə adamlar "oğru adını daşımayan oğrulardır".[9]

Hökmdara tacirlərin çəki və ölçüləri üzrə ciddi dövlət nəzarətinin qoyulması tövsiyə edilirdi. Eləcə də məhsulların idxal, ixracı üzrə müxtəlif rüsumların tətbiq olunması qeyd olunurdu. Məhsulların qaçaqmalçılıq yolu ilə daşınmasına, bazarlarda deyil, məhsulların istehsal olunduğu yerlərdə satıldığına görə çox sərt cəza tədbirlərinin tətbiq olunması məsləhət görülürdü.

"Artaxaşastra" traktında tacirlərin mənfəəti "sair xərclərə" aid edilərək, onun həcmi əvvəlcədən müəyyənləşdirilirdi. Yerli tacirlər üçün mənfəət qoyulmuş əmtəə qiymətlərinin 5%-ini, xaricilər üçün isə 10%-ini təşkil edə bilərdi.

Tacirlərin öz aralarında məhsulların ucuz və ya baha satılmasına görə razılığa gəlmələri, hökmdar tərəfindən ciddi nəzarət altına alınırdı. Bazar nəzarətçiləri ekspertlər vasitəsi ilə əmtəələrə "ədalətli qiymət" müəyyənləşdirmək hüququna malik idilər. Bəzi hallarda hərrac yolu ilə məhsullar satılarkən elan olunmuş qiymətlə bazar qiyməti arasındakı fərq xəzinəyə cəlb olunurdu.

Nəzarətçi məmurların xəzinəyə məxsus vəsaitlərin oğurlanmasının qarşısının alınması üçün də, tarktda müəyyən tədbirlər nəzərdə tutulmuşdu. Qədim Hindistanda əmtəə-pul münasibətlərinin zəif inkişaf etməsinə baxmayaraq, kredit sistemi, icarə haqqı, girov, mənfəətin bölgüsü, əmlak, borc faizi və s. bağlı olduqca əsaslandırılmış iqtisadi fikirlər mövcud idi.

[9]Всемирная история экономической мысли. том 1. стр. 88

downloaded from KitabYurdu.az

Belə ki, faizlərin həcmi, borcun xarakterindən asılı olaraq müəyyənləşdirilirdi. Əgər adi faizin həcmi ayda 1,25% bərabər idisə, lakin onun həcmi, kreditorun risk etməsindən və yaxud işin mənfəətli olmasından asılı olaraq artırıla bilərdi.

Kreditlərin verilməsi öhdəliklərin qəbul olunması və yaxud girov qoyma yolu ilə həyata keçirilirdi. Belə şəraitdə həm kreditorun təlimatı, həm də mənfəətdən pay almaq hüququ qorunurdu. Bəzi hallarda girovun özündən istifadə, müəyyən edilmiş müddət ərzində götürülmüş krediti ödəməli idi.

Mənfəətin əldə olunmasının ən geniş yayılmış üsullarından biri müvəqqəti istifadə etmək və sərəncam vermək yolu ilə əmlakın icarəyə verməsi idi.

Qədim Hindistanın hüquqi və iqtisadi fikrində mülkiyyətin həqiqi sahibi ilə ona müvəqqəti sərəncam verənin dəqiq həddi müəyyən edilmiş idi.

Lakin "Artxaşastra" traktı, heç də tam iqtisadi prosesləri bütövlüklə əhatə etmirdi. Bəzi hallarda oradakı iqtisadi görüşlər reallıqdan uzaq şəkildə şərh edilirdi. Bütün bunlara baxmayaraq, Qədim Hindistanın bu mədəniyyət abidəsi, təsərrüfatçılığın aparılması, ideal dövlətin idarə olunması, vergi qoyuluşunun təşkili sahəsində əmlakdan istifadə və sərəncam vermək istiqamətində dəyərli iqisadi fikirləri əks etdirə bilmişdir. Məhz buna görə də, bu trakt ümumdünya iqtisadi fikir tarixində özünəməxsus və əbədi yer almışdır.

## § 3. QƏDİM YUNANISTANDA İQTİSADİ FİKRİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

İqtisadiyyat haqqında söhbət edərkən, bir qayda olaraq, bu sözün ilkin şərhini vermiş qədim yunanlar haqqında düşünməli oluruq. Lakin cəmiyyətin davranış qaydaları, faydalı fəaliyyətləri haqqında bəhs edən iqtisadiyyat lap qədim dövrlərdən bəri mövcud olsa da ancaq bir elmi təfəkkür tərzi kimi, uzun müddət elmin müxtəlif sahələri ilə bağlı öyrənilmişdir. Özü də bu proses Qədim Yunanıstanda özünə xüsusi məkan qazanmışdır. Heç də, təsadüfi deyildir ki, biz iqtisadiyyat haqqında

downloaded from KitabYurdu.az

danışarkən, bu məfhumun mənşəyini yunan sözü olan "təsərrüfat" və "qanun" olduğunu qeyd etməli oluruq.

"İliada" və "Odisey" əsərlərində sərvətin mənbəyi, natural təsərrüfat, xüsusən, taxılın, heyvanların yığımı hər cür məhsulların ehtiyatı sayılırdı. Kənd təsərrüfatı işləri ilə məşğul olmaq azad adamların ləyaqətli işi hesab olunurdu.[10]

Yunanıstanda e.ə. YIII-YII əsrlərdə sənətkarlığın əkinçilikdən ayrılması, ticarətin genişlənməsi, eləcə də sələmçiliyin güclənməsi, bir tərəfdən adamların torpaqdan məhrum olunmasına gətirib çıxarırdı, digər tərəfdən cəmiyyətin Polisey (şəhər-dövlət) deyilən, xüsusi qrupu meydana gəldi ki, onlar da kollektiv şəkildə qullara, digər asılı adamlara və yadelli adamlara qarşı dururdular. Poliseyaya daxil olan vətəndaşlar, torpaq və qullar üzərində hakim mövqedə dayanmaq hüququnu daşıyırdılar.

Antik dövrün iqtisadi fikri haqqında bəhs edərkən Qədim Yunanıstanda e.ə. Y-YI əsrlərdə həyata keçirilən Solonanı və Periklin islahatlarından irəli gələn iqtisadi görüşləri xüsusi qeyd etmək lazımdır. Bu dövrlərdə azad əhali kütləsi ilə kübarlar arasında gedən mübarizə sənətkarlığın əkinçilikdən ayrılması nəticəsində yeni şəhərlərin əmələ gəlməsi, qul borcunun birmənalı qəbul olunması, quldarlıq quruluşunun sosial bazasının möhkəmləndirilməsi, siyasi sistemin demokratikləşməsi və s. ilə bağlı iqtisadi görüşlər üstünlük təşkil edirdi.

Solon borc hüququ ilə bağlı irəli sürdüyü fikir bütün borcları və onunla bağlı faizləri, qul borc verməsini ləğv etdi. Borc yerinə verilmiş afinalılar dövlət hesabına alınıb geri qaytarılırdı.

Quldarlıq quruluşunun inkişafı ilə bağlı irəli sürülən islahatlar nəticəsində bir tərəfdən qohumluqla bağlı bir sıra toxunulmaz qanunlar ləğv olundu, əmtəə-pul münasibətlərinin geniş vüsət almasına şərait yaradıldı.

Hakimiyyətin nəsli xarakter daşımasına, qohumluq prinsipinə əsaslanmasına son qoyan Solona islahatları, heç də cəmiyyətdə mövcud təkhakimiyyətliliyi, diktatorluğu aradan qaldırmadı. Əksinə, bu rejimin möhkəmləndirilməsi üçün əkinçilərin, sənətkarların, tacirlərin dövlətdən iqtisadi asılılığını xeyli gücləndirdi. Bu özünü ən çox güzəştli kreditlərin

---

[10] Бах. История древнего мира, т.II М. 1982 стр. 90

downloaded from KitabYurdu.az

verilməsində, vergilərin tutulmasında, torpaqların bölgüsündə əks etdirdi. Kəndlilərin xeyrinə torpaqlar əgər bərabər bölgü şəklində paylanılırdısa, lakin girov qoyulması, icarəyə verilməsi, dəyişdirilməsi qadağan edilirdi.

Qədim Yunanıstanda iqisadi fikir, ilkin olaraq, bədii ədəbiyyatda, iqtisadi siyasətdə, qanunçuluqda öz əksini tapsa da, lakin daha sonralar o öz əksini məşhur filosofların görüşlərində tapırdı. Məsələn, Demokrit (e.ə. 470) sübut edirdi ki, icma cəmiyyətini heç də ideallaşdırmaq lazım deyil. Çünki o vaxt adamlar boş əllə mübarizə aparırdılar. Lakin dövlətin yaradılması yeni cəmiyyətin ən böyük nailiyyəti olmaqla "hər şeydə bərabərliyin" qorunması baş verirdi.

Bununla bərabər Demokrit hesab edirdi ki, hər cür əlavə yığım cəmiyyətin "kasıb" və "dövlətli" təbəqəsini əmələ gətirir. Əgər hər hansı kəs "öz payından razıdırsa, onu yoxsul adlandırmaq olmaz". Yaxud "malik olduğundan razı olmayanı da dövlətli adlandırmaq olmaz".

Xüsusi mülkiyyəti, qul əməyinin mənimsənilməsini təbii hal hesab edən Demokrit göstərirdi ki, qulların məhsuldarlığını yüksəltmək, onların təyinatına görə istifadə etmək vacibdir.

Bundan əlavə Demokrit iri torpaq sahibkarlığını, həddindən artıq pul yığımını qəbul etmirdi. Göstərirdi ki, həddindən artıq pula pərəstişlik və onun ödənilməsinin sonu yoxdur. Görünməmiş mənfəət "vicdanın itirilməsinə" gətirib çıxarır. Yoxsulluğu ləyaqətlə keçirməyi, sağlam düşüncəni əks etdirən cəhət kimi qəbul edirdi.

Qədim Yunanıstanın "Özün-özünü dərk et" tezisinin müəllifi məşhur Sokratın (469-399) iqtisadi görüşlərində əsas yeri "mənəvi xeyirxahlıq" tuturdu. O qeyd edirdi ki, sərvət əldə etmək üçün qətiyyətlilik, enerji və xeyirxahlıq lazımdır. Sərvətin saxlanılması üçün isə, adamlarda onsuz keçinmək xüsusiyyəti olmalıdır. Bununla əlaqədar olaraq o, geniş əhali kütləsini aza qane olmağa, əldə olunan sərvəti mənəvi xeyirxahlıqla bağlı olaraq qorumağa çağırırdı.

Qədim Yunanıstanın iqtisadi fikir tarixinin, bəlkə də bəşəriyyətin antik dövrlə bağlı ən parlaq tərəqqi dövrü e.ə. IY əsridir. Bu dövrdə quldarlıq quruluşu inkişafının yüksək mərhələsinə çatmaqla, onun daxili ziddiyyətləri kəskinləşmiş, Polisey (şəhər-dövlət) sistemi böhrana uğramış, demokratik proseslər isə özünü doğrultmuşdur.

downloaded from KitabYurdu.az

Kiçik və orta torpaq sahibkarlığı quldarlığın, sənətkarlığın və mübadilənin inkişaf səviyyəsi ilə uyğun gəlmirdi. Bütün bunlar iqtisadi inkişafın natural və əmtəə təsərrüfatına doğru inkişaf etdirilməsini zəruriləşdirirdi. Xüsusi və kollektiv quldarldıq, sənətkarlıq və əkinçiliyin inkişafı yeni iqtisadi görüşlərin əmələ gəlməsinə səbəb olurdu.

Belə iqtisadi görüşlərin formalaşması və Ksenofontun (e.ə. 430-354), Platonun (e.ə. 427-347), Aristotelin (e.ə. 384-322) əsərlərində daha parlaq şəkildə əks olunmuşdur.

Afina Poliseyinin kübar ailəsində dünyaya gəlmiş Ksenofont qızğın siyasi dairələrdə aktiv iştirak etmiş, spartakçılardan torpaq sahəsi almış və öz fəaliyətini bədii ədəbiyyatlarla, kənd təsərrüfatı işləri ilə bağlamışdır. O, öz iqtisali görüşlərini "Evqurumu" əsərində şərh etmişdir. Quldarlıq quruluşunun görkəmli ideoloqu kimi, o, ev təsərrüfatının aparılması qaydaları, xüsusi ev təsərrüfatı ilə əkinçiliyin aparılması üsulları, istehsalın təşkili, qulların daha məhsuldar işləməsi, maddi stimullaşmanın aparılması haqqında elmi mülahizələr irəli sürmüşdür.

Ksenofont göstərirdi ki, iqtisadi inkişafın yolu natural təsərrüfatdır.

Bununla əlaqədar olaraq, o, kənd təsərrüfatını son dərəcə ideallaşdırırdı. Əkinçilik sahəsində tətbiqi əməyin bütün sahələrdə əldə olunacaq müvəffəqiyyətlərin zəmini olduğunu qeyd edən Ksenofont göstərirdi ki, "torpaq ədalətliliyi öyrədir və kim orada ürəklə çalışırsa, o, daha çox mənfəət əldə edir".

Bununla əlaqədar olaraq Ksenofont göstərirdi ki, "əkinçilik bütün peşələrin anası və əmizdirənidir".

Sərvət haqqında bəhs edən alim onu xalis istehlakçı mövqedən izah edirdi.

Əmək bölgüsünə xüsusi diqqət yetirən Ksenofont qeyd edirdi ki, eyni bir ustanın müxtəlif əşyalar hazırlamaq qabiliyyətinə baxmayaraq o, heç də onları eyni qaydada yaxşı hazırlaya bilməz. Ona görə də hərə öz məşğul olduğu peşəyə uyğun məhsul hazırlasa və məhdud bir işlə məşğul olsa daha çox fayda gətirə bilər və daha yaxşı hazırlaşa bilər. Əmək bölgüsünə həm geniş mənada, həm də dar mənada baxan Ksenofont qeyd edirdi ki, bazarların həcmi əmək bölgüsünün miqyasından asılıdır. Lakin bununla yanaşı o qeyd edirdi ki, bazarların həcminin genişlənməsinə pul

downloaded from KitabYurdu.az

da təsir göstərir. Pula olan hədsiz meyli əsaslandıran Ksenofont qeyd edirdi ki, heç kəs istədiyi qədər pul əldə edə bilmir. Əgər kimdəsə, o həddindən artıqdır, onda o, əlavə pulu basdırır və onun istifadəsindən az olmayan bir zövq əldə edir.

Qiymət yaranma mexanizminə toxunan Ksenofont göstərirdi ki, misin, dəmirin, ərzağın təklifindən asılı olaraq, onların qiyməti dəyişir. Belə qiymət diyişmə əkinçiliyə də təsir edir və hətta onların peşələrinin dəyişdirilməsinə səbəb olur.

Pelopon müharibəsindən sonra Yunanıstanı dərin böhran bürüməklə, quldarlıq quruluşunun ziddiyyətləri olduqca kəskinləşmişdi. Kübar ailələrin mənafeyi zəifləyirdi.

Azad vətəndaşlar, əkinçilər, sənətkarlar, tacirlər və aristokratiya arasında ciddi ziddiyyətlər meydana gəlmişdi. Məhz belə şəraitdə görkəmli filosof Platonun iqtisadi və sosial proseslərə olan münasibəti, iqtisadi fikirdə olduqca dəyərli görüşlərin əmələ gəlməsinə səbəb oldu. Onun əsas iqtisadi fikirləri "Dövlət" və "Qanunlar" əsərində şərh olunmuşdu.

Platon da Ksenofont kimi yunan polisinin böhran keçirtdiyi vaxtlarda yaşamış, zəmanəsinə xas olan ictimai, iqtisadi, sosial-siyasi, mənəvi-hüquqi məsələlərini həll etməyə çalışmışdı. Yaxşı təhsil almış, gəmi səyahəti ilə müxtəlif ölkələrdə olmuş və seçilən torpaq sahibi ailəsində anadan olmuş Platon kübarlarla demokratlar arasında, dövlətlilərlə kasıblar arasında, qullarla quldarlar arasında gedən sinfi mübarizənin həll olunmasına çalışmışdı. Məhz buna görə də o, antik dövrün ən məşhur mütəfəkkiri kimi, sonrakı elmi dünyagörüşlərin formalaşmasının mənbəyi kimi bəşər tarixində əbədiləşmişdir.

Yeni və ya ideal dövlət yaradılması barədə Platonun konsepsiyasında əsas yeri varlıların və kasıbların maddi mənafelərinə uyğun gəlməyən vahid dövlətin olmaması onun hər vaxt parçalanmağa məruz qalacağı qeyd olunurdu.

Çünki dövlət varlılarla kasıbların mənafeyini birləşdirmədiyindən o, iki yerə bölünür. Belə şəraitdə varlanmağa cəhd edən, hərislik göstərən dövlətlilər fəaliyyətsizləşir, kasıbların təsərrüfatını aparılmasını məhdudlaşdıran imkansızlara çevrilirlər. Ona görə də, Platon göstərirdi ki,

downloaded from KitabYurdu.az

hakim sinifla azad əhali arasındakı qeyri-bərabər əmlak artımını dayandırmaq lazımdır.

Platon hesab edirdi ki, ümumiyyətlə qeyri-bərabərlik insanların təbiətindən irəli gəlir və onu aradan qaldırmaq mümkün deyil. Ona görə də hər adam təbii qabiliyyətinə uyğun gələn payı almalıdır.

O göstərirdi ki, hərə bir işlə məşğul olmalıdır. İşçi işləyənlərin işinə deyil, müəyyən bir işə uyğunlaşmalıdır. Bu çox asan məhsul istehsal etməyə səbəb olar.

Platon hesab edirdi ki, dövlət üç təbəqədən ibarət olmalıdır. Hökmdar və filosoflardan, hərbiçilər və əkinçilərdən, sənətkar və tacirlərdən. Bu təbəqələrin mənəvi təbiətləri müxtəlif olduğundan onlar dövlət işlərində də müxtəlif işləri yerinə yetirəcəklər. Əmək bölgüsünə, xüsusən ixtisaslaşmaya böyük əhəmiyyət verən Platon göstərirdi ki, cəmiyyətdə müxtəlif kəmiyyətli tələbatlar fəaliyyət göstərdiyindən, hətta bir adamın tələbatının ödənilməsi üçün çoxnövlü əmək tətbiq etmək lazımdır. Beləliklə, o, belə qənaətə gəlirdi ki, əmək bölgüsü cəmiyyətdə adamların biri-biri ilə əlaqəyə girməsinə səbəb olur. Belə əlaqə şəraitində müxtəlif tələbatlarla, ayrıca bir adamın məhdud qabiliyyəti arasındakı ziddiyyəti həll edir.

Öz sinfi mövqeyindən çıxış edən Platon göstərirdi ki, filosof və hərbiçiləri məhsuldar əməkdən azad etmək lazımdır. Bu işə yalnız qullar, sənətkarlar, kəndlilər cəlb olunmalıdır.

Platon əmək bölgüsünün zəruriliyini göstərməklə yanaşı, bu işdə ticarətin rolunu xüsusi qeyd edirdi.

O göstərirdi ki, ticarət ona görə lazımdır ki, o şəhərlər daxilində və şəhərlər arasında əmək bölgüsünə xidmət edir. Pulun mahiyyətini izah etmədən, Platon onun iki funksiyasını, dəyər ölçüsü və tədavülün olduğunu qeyd edirdi. Pulun yalnız mübadilə vasitəsi olduğu qeyd olunurdu.

Dövlətin sabit inkişafını, natural təsərrüft ilə əlaqələndirən Platon göstərirdi ki, yalnız quldarlığı saxlamaqla, yeni şəhərlər salmaqla nail olmaq olar. Dövlət quruculuğu ilə əlaqədar olan"Qanunlar" əsərində o, şəhər-dövlət işinin başlanğıcını, təbii-coğrafi mühitlə əlaqəsini, şəhərsalma işini, eləcə də, orada əhalinin əmlaka görə yerləşdirilməsi qaydalarını

downloaded from KitabYurdu.az

göstərirdi. Belə ki, yerləşdirilən əhaliyə verilən torpaq payı ilə əlaqədar 4 əmlakın inkişafı mövcudluğu qeyd olunurdu. Əmlakın azalıb-çoxalması ilə əlaqədar bir sinif digər sinfə keçirilməlidir.

Xüsusən əmlakın çoxalmasına dövlət nəzarətinin gücləndirilməsi qeyd olunurdu. Əgər əmlak mövcud payın dəyərindən 4 dəfə çox olarsa, onda əlavə əmlak dövlətə və ya allah hesab olunan hökmdara verilməlidir.

Belə şəraitdə varlı nə kasıb olacaq, nə də deməli, vətəndaşlar arasında ciddi narazılıqlar baş verməyəcək.

Dövlətin iqtisadi inkişafını aqrar bölmə ilə əlaqələndirən Platon qeyd edirdi ki, əldə olunan məhsullar 12 hissəyə bölünməlidir. Hər 12 hissə isə 3 hissəyə bölünməlidir. Bir hissə azad adamlar üçün, digər hissə qullar üçün, üçüncü hissə isə xaricilərə satılmaq üçün nəzərdə tutulmalıdır.

Platon öz dövlət layihəsində faizlə borcun verilməsini, kreditlə mal alınmasını qadağan edirdi. Zəruri olmayan malların idxalını, dövlətə lazım olan malların ixracını vacib hesab edirdi. Bir gündə bir məhsula iki qiymətin qoyulmasını qadağan edirdi. Xırda ticarətin fəaliyyətini Platon yalnız anadan olmuş torpaq sahibləri üçün zəruri hesab edirdi.

Platon iqtisadi inkişafın meyarının, ciddi və vaxtında yerinə-yetirilən qanunlardan ibarət olduğunu göstərirdi.

Dövləti torpağın ali mülkiyyətçisi hesab edən Platon, göstərirdi ki, dövlət torpaq paylarını bölür, kollektiv istehlakı təmin etməklə, natural təsərrüfatın inkişafını tənzimləşdirir. Bununla yanaşı o, xüsusi mülkiyyəti toxunulmaz elan edir. Bu əsasdan da o, cəmiyyət üzvlərinin bərabərliyini təmin etməyi və vətəndaşların dövlətə tabe olma ruhunda tərbiyə olunmasını tövsiyə edirdi.

Antik dövrün iqtisadi problemlərinə dair ən mütərəqqi fikirlər irəli sürən Aristotel, dünya elminin korifeylərindən hesab olunur. Aristoteldir. Məntiqi elmi yaradıcılığa əsaslanan, cəmiyyətdə baş verən sosial-siyasi, mədəni-iqtisadi dəyişikliklərin əsasında duran əsas prinsipləri Aristotel açıb göstərmişdir. Elm aləmində dahi Platonun şagirdi, qədim dünyanın bənzərsiz sərkərdəsi Makedoniyalı İsgəndərin müəllimi kimi tanınan Aristotel, quldarlıq quruluşunun iqtisadi sistemini şərh edən ilk iqtisadçı hesab olunur.

downloaded from KitabYurdu.az

Bu da təsadüfi deyildir. Çünki o, "Siyasət", "Afina siyasəti" əsərlərində adamların faydalı fəaliyyətini və nemətlər əldə olunmasına görə onların davranış qaydalarını təhlil edə bilmişdir.

Aristotelin iqtisadi görüşləri elə dövrdə foprmalaşmışdır ki, həmin şəraitdə quldarlıq cəmiyyəti dərin böhranlara, polisey dövlət qurumu tənəzzülə məruz qalmışdır.

Quldarlığın ilkin olaraq, iqtisadi xarakteristikasını vermiş Aristotel göstərirdi ki, nə istehsal, nə də ki, insan həyatının özü qulsuz keçinə bilməz.

Qulları danışan və çevik əmək aləti hesab edən Aristotel, onları mülkiyyət obyekti sayırdı. Bununla əlaqədar olaraq meydana gələn iki fəaliyyət növünü fərqləndirməyi tövsiyə edirdi. Biri aktiv fəaliyyət kimi istehlakdan ibarətdir ki, onlar zəruri yaşayış vasitələrinin yaradılmasını tələb edir. İkinci fəaliyyət növü isə qul əməyidir ki, o da zəruri yaşayış vasitələrinin istehsalına yönəldilir. Məhz bu baxımdan da Aristotel hesab edirdi ki, sərvət, nemət əldə etmək istəyən hər bir kəs mütləq qul əməyindən istifadə etməlidir. Qul əməyi və ona hökm vermək "təbiətin ümumi qanunu" kimi, "qarşılıqlı özünüsaxlamaq" prinsipindən irəli gəldiyini göstərən Aristotel sübut edirdi ki, hətta adamlar hüquqi baxımdan azad olsalar belə, müəyyən fiziki işlər yerinə yetirəndə onlar qula çevrilirlər.

Fiziki əməyin cəmiyyətin sosial həyatında daşıdığı mahiyyətdən asılı olmayaraq, onun hər cür sərvətin, nemətin mənbəyi olduğunu Aristotel qeyd etməklə, bu, iqtisadi fikir tarixində böyük elmi xidmət kimi qiymətləndirilir. Aydındır ki, o dövrün iqtisadi inkişaf qanunauyğunluqlarından irəli gələn elmi müddəalar, heç də müasir iqtisadi təfəkkür baxımından birmənalı qəbul edilə bilməz. Lakin o dövrdə gətirilən təhlillər, müxtəlif mülahizələr tarixi-məntiqi səpkidə qiymətləndirilməlidir.

Aristotel qulu gəlir gətirən əmlak hesalb edirdi. Çünki bir halda ki, qul quldarın mülkiyyətində idi, onun əməyinin nəticəsi də quldar tərəfindən mənimsənilməli idi. Beləliklə, quldarlıq insanla əşya arasındakı həddi silmiş, nemət yaradan əmək hər cür azadlıqdan məhrum edilmişdir.

downloaded from KitabYurdu.az

Aristotel göstərirdi ki, hər cür ağır fiziki işləri qullar görməlidirlər. Fiziki işlərdən azad olanlar isə dövlət işləri ilə məşğul olmalıdırlar.

Nemətdən istifadə olunması üsulunu tədqiq edən Aristotel əmtəənin iki tərəfini -istehlak və mübadilə dəyərini təhlil edir.

İstehlak dəyəri kimi istifadə olunan neməti Aristotel "təbii, mubadilə dəyəri kimi istifadə olunan neməti "qeyri-təbii" proses kimi xarakterizə edirdi.

İqtisadi zəruriyyət kimi nəzərdə tutulan ehtiyac, Aristotelə görə adamları bir-biri ilə bağlı edir. Tarixi inkişafla, əmək bölgüsü ilə əlaqədar olaraq meydana gələn maddi nemətlərin mübadilə olunması zəruriliyini göstərən Aristotel ticarətin meydana gəlməsini və inkişafını tədqiq edir.

Mübadilənin və ticarətin iqtisadi zəruriliyini və onun dövlətin əmələ gəlməsindəki rolunu şərh edən Aristotel qeyd edirdi ki, belə proses mənfəət əldə etmək üçün labüddür.

Mübadilə qanunlarının mahiyyətini aşkarlamağa cəhd göstərən Aristotel qeyd edirdi ki, mübadilədə əmtəə dəyərlərinin bərabərləşməsi prosesi baş verir. Mübadilə prosesinin inkişafı ilə əlaqədar meydana gələn pulun mənşəyini təsadüfi saymır və qeyd edirdi ki, "mübadilə ticarətin zəruriliyi ilə pul meydana gəlir". Pulun əmtəə mənşəyini və dəyər ölçüsünü, tədavül funksiyalarını aşkar edən Aristotel, onun təbii mahiyyətini açmaqla, sözün əsl mənasında dəyər formalarının ilk tədqiqatçısına çevrilmişdir.

Aristotel hesab edirdi ki, əmtəələr özü-özlüyündə ölçülməklə, lakin pul vasitəsi ilə bu prosesə daxil ola bilərlər. Çünki bu praktiki tələbatla əlaqədardır. Bununla da o, pulun dəyər ölçüsü funksiyasını qeyd etmişdir. O göstərirdi ki, əgər əmtəələr pulla ölçülərsə, deməli, onlarda bir bərabərlik mövcuddur.

Bu bərabərləşmənin ümumi bir əsasının olduğunu dərk edən Aristotel, onun mənbəyini tapa bilməsə də, lakin gələcəkdə mübadilədə əmtəə dəyərlərinin bərabərləşməsinin əsasının ictimai zəruri əməkdən ibarət olunması kəşfinin əsasını qoydu.

Bundan əlavə Aristotel əməkdə bərabərliyin axtarılmasını mənasız hesab edirdisə də, lakin istehsal xərclərində xüsusi əməyə qiymət verirdi.

downloaded from KitabYurdu.az

Ev və dövlət üçün nemətlər əldə olunması üçün təsərrüfatçılıq fəaliyyətinə xüsusi qiymət verən Aristotel qeyd edirdi ki, belə formadakı fəaliyyət "iqtisadiyyat"dır. Lakin varidat, sərvət əldə etmək, xüsusən onun pul formasında toplanması fəaliyyəti isə xrematistikadır.

Xrematistikaya əmlak, mülk mənasını verən Aristotel onu iqtisadiyyatla müqayisə etməklə, bu anlayışların təbii tarixi rolunu müəyyən etməyə cəhd göstərir.

Bununla da o, ilk dəfə olaraq pulun tədavül vasitəsi kimi rolu ilə sahibkar üçün yeni pul əmələ gətirən pul rolunu fərqləndirir. Beləliklə də göstərir ki, iqtisadiyyat nəzərə çarpmadan, lakin zəruri şəkildə xrematistikaya, yəni əmlaka, mülkə çevrilir.

Antik dünyada ticarətin və sələmin istər iqtisadi fəaliyyətdə, istərsə də xrematistik fəaliyyətdəki rolunu nəzərə alan Aristotel qeyd edirdi ki,"...ticarət fəaliyyətində özünü göstərən sərvət toplamaq məqsədə çatmaqda heç bir zaman son hədd olmur, ona görə ki, burada məqsəd hədsiz sərvət toplamaq və pula sahib olmaqdan ibarətdir. Pul dövriyyəsi ilə məşğul olanların hamısı öz kapitallarını hədsiz dərəcədə artırmağa çalışırlar". Beləliklə də "iqtisadiyyata" təbii, xrematistikaya qeyri-təbii münasibət bəsləyən Aristotel göstərirdi ki, nemətlərin bölgüsü "ədalət" prinsipinə görə həyata keçirilməlidir. Daha doğrusu, belə ədalətli bölgü "ləyaqətə görə", adamların cəmiyyətdə və dövlət işlərində tutduğu mövqeyə görə aparılmalıdır.

Aristotelə görə əmlak fərqi saxlanılmalıdır. Lakin o, nə həddən artıq varlanmağa, nə də ki, kasıblığa səbəb olmamalıdır.

Aristotelin iqtisadi fikirləri demək olar ki, əsrlər boyu görkəmli filosofların, cəmiyyət həyatı ilə məşğul olan alimlərin daim diqqət mərkəzində olmuşdur.

İqtisadiyyat elmi bir sistem kimi tətbiq olunmasından başlayaraq, hal-hazırkı dövrə qədər, Aristotelin bir sıra ideyalarını inkişaf etdirmiş, onun elmi təfəkkürün formalaşması üçün daşıdığı əhəmiyyət xüsusi qeyd edilmişdir.

Qədim Yunanıstanda iqtisadi fikrin formalaşması və olduqca yetkin səviyyədə qalxması hər şeydən əvvəl icma quruluşunun dağılması, quldarlığın inkişaf etməsi, bu zəmində polis dövlət quruluşunun əmələ

downloaded from KitabYurdu.az

gəlməsi və ziddiyyətlərin kəskinləşməsi ilə əlaqələndirmək lazımdır. Digər tərəfdən dövrün görkəmli korifeylərinin quldarlıq quruluşuna haqq qazandırması, belə şəraitə uyğun "ədalətli" həyat tərzinin formalaşması prinsiplərinin müəyyən edilməsi, qul əməyinin hər cür sərvətin mənbəyinin təşkil olunmasının əsaslandırılması iqtisadi fikrinin inkişafına səbəb olmuşdur.

Bundan əlavə şəhərlərin inkişafı, onunla əlaqədar olaraq əkinçiliyin, sənətkarlığın, ticarətin inkişaf etməsi, əmək bölgüsünün əhəmiyyətinin düzgün qiymətləndirilməsi iqtisadi fikrin yetkinləşməsinə səbəb olmuş, iqtisadi proseslərin aparılmasının ilkin nəzəri istiqamətlərinin verilməsinə şərait yaratmışdır.

## § 4. QƏDİM ROMADA İQTİSADİ FİKRİN FORMALAŞMASI

Qədim dövrün iqtisadi fikri klassik quldarlıq quruluşunun tərəqqi etdiyi e.ə. II əsrdə, eləcə də eranızın III-Y əsrlərində Qədim Romada inkişaf etmiş və başa çatmışdır. Qədim Roma iqtisadi fikri azad və bərabərhüquqlu torpaq mülkiyyətçilərinin birləşməsi əsasında əmələ gəlmiş şəhər icma əkinçiliyi və qul əməyinin mənimsənilməsi ilə əlaqədar idi.

Roma polis dövlətinin quldarlıq şəraitində inkişafı və kəsb etdiyi ziddiyyətlərin aradan qaldırılması əkinçilik, torpaq mülkiyyətçiliyi, hərbiçilərin torpaq əldə etməsi hüquqları və sairə məsələlərlə bağlı aparılan islahatlarla sıx şəkildə bağlı idi.

Qeyd etmək lazımdır ki, Qədim Romada xüsusi mülkiyyətçilərin hüquqlarının möhkəmləndirilməsi, azad adamlarla qullar arasındakı tərəfləri əks etdirən "XII cədvəlli qanunlar" deyilən əsasnamə öz əksini tapmışdır.

Burada eyni zamanda borc sistemini tənzimləyən çox ciddi qanunlar da öz əksini tapmışdır. Həmçinin 125 ha-dan (500 yuqer) yuxarı torpaq sahəsini icarə etmək qadağan edilirdi.

Roma tarixində e.ə. 134-cü ildə Qrakx qardaşlarının torpaq islahatları sahəsindəki layihələri çox mühüm rol oynamışdır. Belə ki,

downloaded from KitabYurdu.az

dövlətdən torpaq icarəyə götürülməsinin həcmi ailədəki yetkin yaşlı oğlanların sayından asılı olaraq artırılırdı. Belə ki, onların ikisinə əlavə olaraq hər birinə 250 yuqer (62,5 ha) torpaq sahəsinin icarəyə verilməsinə icazə verilirdi.

Əlbəttə, bu istiqamətdəki islahatlar qədim Roma dövlətinin bütün ərazisində eyni səviyyədə həyata keçirilməsə də, lakin mövcud resurslardan faydalı istifadə etmək sahəsində çox mühüm rol oynayırdı.

Eramızdan II-I əsr əvvəl torpaqdan istifadə etməklə bağlı qədim Roma iqtisadiyyatında ciddi dəyişikliklər baş vermişdir.Xırda torpaq sahələri təmərküzləşməyə, iri torpaq sahibkarları meydana gəlməyə başlamışdı. Quldarlıq təsərrüfatına əsaslanan prinsiplərin formalaşması ilə yanaşı, muzdlu əməkdən istifadə olunması, təsərrüfatın şəhər tələbatına uyğun olaraq aparılması meylləri də güclənirdi. Belə şəraitdə quldarlıq təsərrüfatının səmərəli təşkili yeni iqtisadi fikirlərin meydana gəlməsinə səbəb oldu. Bu sahədə Mak Portsen Katonun (e.ə. 234-149) "Əkinçilik haqqında" traktını xüsusi qeyd etmək lazımdır.

Katon göstərirdi ki, əkinçiliklə məşğul olmaq, azad vətəndaşlar üçün ən ləyaqətli iş hesab olunmalıdır. Çünki "ən sadiq adamlar və ən məşhur əsgərlər" əkinçilər arasından çıxır. Əkinçilər "xalis gəlir" yaradanlardır. Katon qeyd edirdi ki, 100 yuqerlik (25 ha. bir qədər çox) kiçik malikanələr əldə etmək lazımdır. Həmin malikanələr yaxşı torpaq sahələrində yerləşməlidir. Şəhərlərə su hövzələrinə yaxın yerlərdə əldə olunan malikanələr üzümlüklə, bostan sahəsi ilə, zeytun bağı ilə, çörək tarlası ilə əhatə olunmalıdır. Katon həmin kənd təsərrüfatı sahələrinin gəlir gətirmək şkalasını da təsvir etmişdir.

Natural təsərrüfatın tərəfdarı olan Katon, eyni zamanda qeyd edirdi ki, əlavə nə əldə olunsa, hamısı satılmalıdır. Yaxşı mülkədar olmaq naminə əlavə hesab olunan və özünə lazım olmayanları satmalıdır.

Katon mülkədarların qul əməyindən istifadə etmək qaydalarını da tövsiyə edirdi. Hər qul, işinin həcmi və növü üzrə konkret tapşırıq almalıdır. Bu tapşırıqlar mülkədarların olmadığı vaxtda necə yerinə yetirildiyini nəzarət etməyə imkan verirdi. Bundan əlavə muzdlu əməkdən istifadə etmək qaydalarını da Katon müəyyənləşdirirdi.

downloaded from KitabYurdu.az

Qədim Roma iqtisadi fikirində ilk dəfə olaraq Katon, istehsalın təşkili və mübadilə ilə əlaqədar quldarlıq təsərrüfatının səmərəlilik problemini qarşıya qoymuşdur. Katon əkinçilikdən əldə edəcəyi səmərəni, həm əmək alətləri, həm də istehsal prosesi ilə əlaqələndirirdi. Mülk sahiblərinin əkinçilik işlərinin təqvim vaxtının və zəruri aqrotexniki qaydalarının yaxşı mənimsənilməsi tövsiyə edilirdi. Ümumiyyətlə, Katon əkinçiliyin inkişafını sadəcə natural təsərrüfatın forması kimi götürmürdü, o, eyni zamanda həmin sahədəki istehsalın təşkilinin bazar meylli istiqamət almasını tövsiyə edirdi.

Qədim Roma iqtisadi fikir tarixində Mark Varron (116-27 e.ə.) kənd təsərrüfatı sahəsində irəli sürmüş ideyalarına görə xüsusi yer tutur. Onun "Kənd təsərrüfatı haqqında" əsərində əkinçiliklə yanaşı heyvandarlıq, şəxsi təsərrüfat məşğuliyyəti ilə bağlı dəyərli fikirlər irəli sürmüşdür.

Varron qeyd edirdi ki, əkinçilər iki məqsədə doğru, faydalanmağa və zövq almağa can atmalıdırlar. Fayda, gəlir gətirməyi tələb edir. Zövq isə nə xoşdur, onu tələb edir. Xoş olandan vacib isə faydalanmaqdır. Varron əkinçilik işinin yaxşı mənimsənilməsi üçün göstərirdi ki, toxumu səpməzdən əvvəl, əkin sahəsinin xüsusiyyətini bilməklə yanaşı, orada hansı avadanlıqlardan istifadə olunacağını da bilmək lazımdır.

Torpağın təyinatına görə istifadə olunmasına xüsusi əhəmiyyət verən Varron eyni zamanda qeyd edirdi ki, ona təbii amillər də təsir göstərir.

Malikanələrin yerləşməsini təsərrüfatın daxili təşkili ilə əlaqələndirən Varron göstərirdi ki, istehsal gəlir gətirə bilmək nöqteyi-nəzərincə aparılmalıdır. Varron təsərrüfatların bazar istiqamətində aparılmasını xüsusi qeyd edirdi.

Katondan fərqli olaraq, Varron, malikanələri təkcə şəhər tələbatı ilə deyil, kənd yerlərinin tələbatı ilə də əlaqələndirməyə üstünlük verirdi. Lakin buna baxmayaraq, Varron quldarlıq təsərrüfatının natural xüsusiyyətlərindən kənarlaşa bilməmişdir.

Quldarlıq təsərrüfatının şəhərətrafı malikanələr və ayrıca mülkədar işlərini fərqləndirən Varron qeyd edirdi ki, alqı-satqı prosesi və ya bazar şəraiti öz mülkilə hər hansı bir işin görülməsinin faydasız olduğunu əks etdirir. Ona görə də əlavə görünəndən gəlir əldə etmək ideyası, bazar təsərrüfatının təşkilinə olan təsiri ilə uzaqlaşdı.

downloaded from KitabYurdu.az

Spartak üsyanından sonra, Varron qulları "Danışan alətlər", "iş heyvanları" adlandıraraq onları daha səmərəli işləmək üçün və təsərrüfata məcburi cəlb olunmasının daha çevik metodlarından istifadə olunmasını qeyd edirdi.

O qeyd edirdi ki, bir millətdən olan qullardan çox almaq olmaz.

Eyni zamanda Varron qulların tox olması, geyindirilməsi, bəzən ev heyvanları ilə mükafatlandırılmasını da məsləhət bilirdi. Beləliklə, Varronun ideyasında artıq qulların əmlak əldə olunması rüşeymləri görünürdü.

Onun fikrinə görə qullar arasında qabiliyyətliləri seçmək, onlara üstünlük vermək və qadın qullarla mükafatlandırmaq, onlarla öz ağaları arasındakı münasibətləri yaxşılaşdırmaq qulların təkrar istehsalına səbəb olar. Mövsümü kənd təsərrüfatı işlərində qul əməyinin məhdudluğunu görən Varron qeyd edirdi ki, belə şəraitdə muzdlu işçilərin əməyindən istifadə etmək lazımdır.

Qulların işinin səmərəliliyini, onun təsərrüfatın daxili quruluşundan asılı edən Varron qeyd edirdi ki, yerin xüsusiyyəti, mülkün həcmi, yerinə yetirilən işin miqyası mütləq nəzərə alınmalıdır.

Qədim Roma iqtisadi fikir tarixində mühüm yerlərdən birini tutan Yuniyu Kollumelladır (e. I əsri). Kənd təsərrüfatına dair 12 əsərin müəllifi olan Kollumella təsərrufatların müəyyən səviyyədə məhsuldarlığının aşağı düşməsi, bəzi sahələrin otlaqlıqlara çevrilməsi, torpaqların yararsızlığı, iqlim şəraiti və s. bağlı dərin, tutarlı fikirlər irəli sürmüşdür.

Kollumellada qul əməyinin məhdudluğunu nəzərə alaraq, ondan daha səmərəli və məhsuldar istifadə olunması yolları haqqında tövsiyələr edirdi.

Kollumella, Katon və Varrondan fərqli olaraq, qul təsərrüfatının ekstensiv inkişafının əleyhinə idi.

O qeyd edirdi ki, az məhsuldar geniş torpaq sahələrinin əvəzinə, yaxşı emal olunacaq kiçik məhsuldar sahələrdən istifadə etmək lazımdır. Torpaq sahələrindən olduqca bacarıqlı və səmərəli istifadə olunması, Kollumellanı düşündürməklə yanaşı, bir quldar kimi onun praktiki həyata keçirilməsi yollarını da müəyyən etməyə çalışırdı.

downloaded from KitabYurdu.az

Malikanələrin alınıb və satılmasının əsas məqsədini Kollumella gəlir əldə etməkdə görürdü. O qeyd edirdi ki, hər bir ağıllı adam istənilən torpağı məhsuldarlığından və yaxşı yerdə yerləşdiyindən asılı olmayaraq, almaz. Çünki yaxşı təsərrüfatçı istənilən torpağı münbit və gəlirli sahəyə çevirə bilər. Eyni zamanda həmin sahəyə uyğun gələn daha məhsuldar bitki istehsal edə bilər.

Təsərrüfatların intensivləşdirilməsini məsləhət bilən Kollumela eyni zamanda qul əməyinin ixtisaslaşmasına xüsusi qiymət verirdi.

Kollumella qulların təbii təkrar istehsalını təsərrüfat daxilində tövsiyə edirdi.

Göstərirdi ki, çoxuşaqlı qul olanları işdən azad etmək lazımdır. Hətta onlara sərbəstlik vermək lazımdır.

Roma imperiyasında ilkin xristianlığın meydana gəlməsi (bizim eranın I-II əsr) iqtisadi fikir tarixində xüsusi bir cərəyan yaratmasa da, lakin peyğəmbər İsa Məsihin adından həddindən artıq sərvət əldə etmək, oğurluq etmək, sələm almaq Allah qarşısında günah işlətmək kimi göstərilirdi. İncilin, Yukanın, Mattanın, Markın, Lukanın Yəhyanın müqidələrində belə fikirlər öz əksini tapmışdır. "Dəvənin iynə deşiyindən keçməsi, varlı adamın Allah hüzurundan keçirilməsindən daha asandır", "...Heç bir şey ummadan borc verin". (Lukanın müqidəsi 6:35)[11]

Lakin bununla yanaşı ilkin xristianlığın əsas çağırılışı bərabərliklə, (Allah qarşısındakı günahkar olmasına görə) əlaqədar idi. Ona görə də hesab edilirdi ki, bütün digər bərabərliklər törəmədir, onlar ilkin bərabərliklərdən asılıdır. Hər cür fəaliyyətdə ədalətli olmaq tövsiyə edilirdi və göstərilirdi ki, "hansı ölçü ilə ölçsəniz, o ölçü ilə də siz ölçüləcəksiniz".

Lakin ilkin xristianlıq Qədim Romada quldarlıq quruluşuna qarşı heç bir sosial-iqtisadi dəyişikliklərə uğramamasının yolunu göstərmədi.

Əksinə, qullara mövcud ağır və çətin şəraitlə barışmağı, tab gətirməyi tövsiyə edirdi.

Ümumiyyətlə, Qədim Roma iqtisadi fikrində əsas yeri xüsusi mülkiyyətin formalaşması, əkinçiliyin inkişafı əsasında torpaqlardan səmərəli istifadə olunması, gəlir əldə etmənin sürətlənməsi üçün onların

[11] İncil. Bibliya tərcümə institutu, Stokholm. 1996, səh.113

downloaded from KitabYurdu.az

ixtisaslaşdırılması və əlavə məhsulların bazar vasitəsi ilə reallaşması və s. tuturdu.

downloaded from KitabYurdu.az

# FƏSİL 3. ŞƏRQDƏ İQTİSADİ FİKİRLƏRİN YARANMASI

## § 1. ŞƏRQDƏ İQTİSADİ FİKRİN FORMALAŞMASINDA İSLAMIN ROLU

İqtisadi təlimlər tarixinin bir elm kimi formalaşmasında Şərq iqtisadi fikrinin müstəsna dərəcəli təsiri olmuşdur. Bu hər şeydən əvvəl Şərqdə, xüsusən İlkin Ərəb Xilafəti dövlətində İslam dininin meydana gəlməsi (610-632-ci illər) ilə yeni iqtisadi münasibətlərin və davranış qaydalarının meydana gəlməsi ilə əlaqədar olmuşdur.

Şərqdə spesifik iqtisadi davranış qaydalarının mövcud olması bir tərəfdən ənənəvi yaşayış tərzindən, milli vərdişlərdən asılı olmuşdursa da, lakin onun spesifik forma alması sırf İslami mənəvi-dini dəyərlərin insanların həyat tərzlərində hakim mövqedə durması ilə bağlıdır. Ona görə də Şərqdə orta əsrlərdən başlayaraq iqtisadi fikirlər barəsində mülahizələr irəli sürərkən, bir qayda olaraq islam elmi dünyagörüşünə, xüsusən Qurani-Kərimdə və Məhəmməd (s.ə.s.) sünnəsindən irəli gələn prinsiplərə əsaslanmaq lazımdır.

Min illər boyu insanların mənəvi həyat tərzinin əsası kimi təsvir olunan islam eyni zamanda elmin bir sıra sahələrində böyük nailiyyətlərin əldə olunmasına istiqamət vermişdir. Sözsüz ki, burada fəlsəfəni, hüququ, sosiologiyanı, tarixi, ədəbiyyatı, dilçiliyi, kimyanı, fizika-riyaziyatı, coğrafiyanı və s. sahələri xüsusi qeyd etmək olar. Lakin Qurani-Kərimdə iqtisad elminə dair külli miqdar ayələrin olmasına, eləcə də şəriətdə xüms, zəkat, həcc kimi ərkan və ya rükunların göstərilməsinə baxmayaraq, onların sistemşəkilli tədqiqi istənilən səviyyədə aparılmamışdır.

Şübhəsiz ki, islam dünyasının bir çox alimləri elmin müxtəlif sahələrini əhatə edən, olduqca mükəmməl, dəyərli və zəngin bir xəzinə qoyub getmişlər. Lakin ökəmizdə islamın belə möhtəşəm xəzinəsindən bəhrələnmək imkanı olmamışdır. İndinin özündə də elmi dairələrin müəyyən qrup adamları marksist-ateist düşüncə tərzindən ayrıla bilməyərək, islama elmi məntiqə uyğun gəlməyən səpkidə çox səthi yanaşırlar.

downloaded from KitabYurdu.az

İslamda iqtisadi dəyərlərin üzə çıxarılması, onların sistemli şəkildə elmi dilə salınması, real həyatda gedən təsərrüfat prinsipləri ilə əlaqələndirilməsi, müasir dövrdə tarixi inkişafımızın qorunub saxlanılması və qlobal xarakterli iqtisadi problemlərin aradan qaldırılması üçün ən tutarlı zəminlərdəndir.

İslam elmi dünyagörüşü yalnız ərəblərin yaratdığı təlimlə deyil, eyni zamanda islam dinini qəbul etmiş bütün xalqların mənəvi sərvəti əsasında formalaşmışdır. Təkcə onu demək kifayətdir ki, islam mənəvi dəyərləri, mədəniyyəti, ərəb, fars, türk dillərində qovuşmuş şəkildə sürətlə yayılmağa başlamışdır. Bunun nəticəsidir ki, islam dini-mənəvi dünyagörüşü, ruhu ilə cilalanmış, elm və bədii söz xəzinəsinin böyük yaradıcıları olan İbn Ruşd, Əl-Fərabi, İbn-Sina, Biruni, Firdovsi, Cami, Ömər Xəyyam, Nəsirəddin Tusi, Əl-Qəzəli, Buxari, İbn-Xəldun, Füzuli və başqa bu kimi yüzlərlə dahi sənətkarların hər biri ayrı-ayrılıqda islam mənəviyyatını zənginləşdirən parlaq ədəbi nümunələr yaratdılar.

Bu dahi sənətkarların islam dini-mənəvi dəyərləri meyarı ilə yaratdıqları sənət əsərlərinin bu gün də örnək kimi qəbul edilməsi, təbiət və cəmiyyət hadisələrinə onların müdaxilə edə bilməsi bu günkü hər bir müasir islam əqidəli araşdırmaçıya imkan verir ki, onlar başqalarına az da olsa müəyyən dərəcədə təsir göstərən elmi tədqiqatlar aparmağa səy göstərsinlər. Çünki, İslam çoxşaxəli bir hikmətdir. Hər kəsin bu hikmətdən xəbərdar olması zəruri və faydalıdır. İslam hər kəsdə olan mənliyi üzə çıxardan, cəhaliyyətdən xilas olub, əbədi varlığı dərk etməyə yol göstərən həqiqətdir.

İslam dini və elmi dünyagörüşünün formalaşmasında Həzrəti Məhəmmədin (s.ə.s.) müstəsna rolu olmuşdur.

Miladi tarixinin 570-ci ilində Rəbbiləvvəl ayının 12-də bazar ertəsi dünyaya gəlmiş şərəfli və sevimli Peyğəmbərimiz Məhəmməd (s.ə.s.) Kəbənin rəisi Əbdül Mütəllibin nəvəsi, onun 13 oğlundan biri olan Abdullanın övladı idi. Anası Əbd Mənafın qızı Aminə idi. Süd anası Həlimə idi.

Ana bətnində ikən yetim qalmış, 6 yaşında ikən anasını itirən Həzrəti Məhəmməd (s.ə.s.) babası Əbdül Mütəllibin vəfatından sonra ticarətlə

downloaded from KitabYurdu.az

məşğul olan əmisi Əbutalibin himayəsinə keçdi. On iki yaşında onunla Şam şəhərinə, 17 yaşında ikən digər əmisi Zübeyr ilə Yəmənə səfər etmişdi.

Bu səfərlər ona ciddi təsir göstərmiş və sonralar özünün müstəqil ticarətlə məşğul olmasına çox kömək etmişdir.

Həzrəti Peyğəmbərimiz 25 yaşında ikən, 40 yaşında dul qalmış dövlətli Xədicə xanım ilə evləndi. Ondan iki oğlu: Qasım və İbrahim, dörd qızı: Zeynəb, Ruqiyyə, Ümmü Gülsüm və Fatimə olmuşdur. Hər iki oğlu lap kiçik yaşlarında ikən vəfat etmişdir. Üç qızını islamiyyətə qədər, islamiyyət dövründə isə sonuncu qızı Fatimeyi-Zəhranı əmisi oğlu Həzrəti Əliyə ərə vermişdir.

Böyük qızı Zeynəbi, Əbül-Asa, Ruqiyyəni və Ümmü-Gülsümü əmisi Əbuləhəbin oğlanları Ümbə ilə Ümeybərə vermişdir. İslamın qatı düşməni mövqeyindən duran Əbuləhəb, sonralar oğlanlarını Həzrəti Peyğəmbərin qızlarından boşandırmışdır.

Əvvəlcə Ruqiyyəni, sonra o vəfat etdikdən sonra Ümmü Gülsümü Həzrəti Osman kəbinlə almışdır. Xədicənin vəfatından sonra Həzrəti Məhəmmədin (s.ə.s.) kəbin etmiş qadınlardan (yalnız Misirdən olan Məryəmdən) İbrahim adında oğlu olur, o da kiçik yaşında ikən vəfat edir.

Həzrəti Məhəmməd (s.ə.s.) 40 yaşı tamam olduqda (Miladın 610-cu illərində) Hira dağında mübarək Ramazan ayının Qədr gecələrinin birində pak Quran ayəsinin ona nazil olunması ilə Xatəmi - Ənbiya (sonuncu) Peyğəmbər oldu.

İlk ayələr isə belə idi: "Ya peyğəmbər! Qurani-Kərimi, bütün məxluqatı yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu. O, insanları laxtalanmış qandan yaratdı. Oxu. Sənin Rəbbin ən böyük Kərəm sahibidir. O Rəbbin ki, qələmlə yazmağı öyrətdi. O Rəbbin ki, insana bilmədiklərini öyrətdi" (Əl-Alaq surəsi 1-5).

İlahi hökmü ilə çox böyük, ağır və şərəfli bir vəzifənin məsuliyyətini qəbul edən Həzrəti Peyğəmbərimiz, islamın təbliğilə Qüreyş tayfasını bu dini qəbul etməsinə dəvət etdi. İlk dini qəbul edən Həzrəti Xədicə və Həzrəti Məhəməd (s.ə.s.) tərbiyəsi ilə böyümüş əmisi oğlu - Həzrəti Əli olmuşdur. Təsadüfi deyildir ki, Həzrəti Peyğəmbər, Həzrəti Əli haqqında deyirdi: "Mən elmin şəhəriyəm. Əli də bu şəhərin qapısıdır".

downloaded from KitabYurdu.az

İslamın ilkin gizlin təbliğindən sonra onun açıq qəbul olunması təklif edilirdi. Çox böyük qarşıdurma ilə islam qəbul olunurdu. Qüreyş tayfası açıqca islam dininə və onu təbliğ edən Həzrəti Peyğəmbərimizə, eləcə də onu qəbul edənlərə düşmən münasibəti bəsləyirdi. Burada həm peyğəmbərin əmisi Əbuləhəb, həm də qüreyşilərin ən adlı-sanlı adamları: Əbucəhl, Vəlid ibn Muğirə (məşhur islam sərkərdəsi Xalid ibn Validin atası), As ibn Vail, Əbusüfyan, Ümbə ibn Rabiyə və b. idilər.

Çox çətin, kobud, təhqiramiz şəraitdə yaşayan Həzrəti Peyğəmbər (s.ə.s.) öz yüksək və gözəl əxlaqı ilə, təmkinli və ibrətamiz davranışı ilə bütün bu çətinliklərə 12 il dözdü. Miladi 622-ci ildə Rəbiləvvəl ayının 12-də, bazar ertəsi Mədinəyə, açıq düşmənçilik nəticəsində Hicrət (köçmək) etməyə məcbur olmuş Həzrəti Peyğəmbər burada islamın rükunlarının icra olunması qaydalarını müəyyən etdi. Gündə 5 dəfə namaz qılmaq, ildə də 30 günlük oruc tutmaq təyin olundu.

Mədinə şəhərində islam dininin formalaşması, yayılması, təbliğ olunması ilə əlaqədar çox böyük işlər görməklə yanaşı, onun dövlət dininə çevrilməsi başlandı.

İslamın üçüncü rükunu cihadda, məhz Mədinədə Hicrətin ikinci ilində nazil olundu.

Peyğəmbərin sağlığında islam uğrunda 84 irili-xırdalı müharibə olmuşdu.

Bunların 28-ində Peyğəmbər şəxsən iştirak etmişdir. Bu müharibələrdən tarixi əhəmiyyətinə görə Bədr, Uhud, Xəndək, Xeybər döyüşləri xüsusi qeyd olunmalıdır.

Peyğəmbərlər iştirak etdiyi müharibələrdən (Qəzəvat) yalnız 9-unda qan axıdılmışdır. Digər müharibələr əsasən sülh yolu ilə, yaxud düşmənin qaçması ilə başa çatmışdır.

İslam dini uğrunda gedən müharibələrin hamısında, düşmənə dinin qəbul olunması təklif olunardı. Əgər düşmən qüvvələr bütpərəstlər olurdusa, onlarla müharibə çox şiddətli olurdu. Çünki, ya onlar islamı qəbul etməlidirlər, yaxud da tamamilə məhv edilməli idilər. Əgər müharibə aparan yəhudi və ya xristian dininə mənsub olanlardandırsa, onlar məcburi dini qəbul etməyə bilərdilər. Lakin onlar vətəndaş kimi müəyyən cizyə adı ilə xərclər verməli idilər.

downloaded from KitabYurdu.az

Hicrətin 2-ci ilində Peyğəmbərin qardaşı oğlu Abdullanın apardığı beşinci döyüşdə ələ keçirilmiş qənimətin ilk dəfə olaraq beşdə birinin "Xüms", "Beytül-mali", yəni cəmiyyət xəzinəsinə verilməsi qərarı çıxarıldı.

Hicrətin 9-cu ilində Məkkənin alınması ilə islamın əsl zəfər yürüşü başlanmışdı. Məkkənin ətrafında yaxın yerlər də tamamilə islanmışdı.

Bununla da əsası İbrahim peyğəmbər Əleyhüssəlam tərəfindən qoyulmuş, əsl həcc qaydalarına riayət olunması qeyd olunduğu Kəbə evi çılpaq, ehramla təvaf olunmalı idi. Bundan sonra isə Məscidül-harama qeyri-müsəlman yaxın durmamalı idi. İlk dəfə olaraq əmirülhəcc məqamını Həzrəti Peyğəmbər müəyyən etmişdir. O da Həzrəti Əli olmuşdur. Həmin ildə "Beytül-mali" üçün hər bir ailə gəlirinin ondan birindən "zəkat" almaq tətbiq olundu.

Hicrətin 11-ci ilində, Miladın 632-ci ilində Rəbiləvvəl ayının 12-də bazar ertəsi Həzrəti Məhəmməd (s.ə.s.) vəfat etdi. Həzrəti Məhəmməd Peyğəmbərin (s.ə.s.) dünyaya gəlməsi, Hicrət etməsi, axirət aləminə köç etməsi, Rəbiləvvəl ayının 12-nə bazar ertəsi gününə təsadüf etməsi də ilahinin ona lütf etdiyi bir sehr, təcəlli və düşünmədir.

Tarixi mənbələrə görə sevimli Peyğəmbərimiz 62 il, 11 ay, 11 gün ömür sürmüşdür.

Ömrünü insanları cahiliyyət girdabından xilas etməyə sərf edən, sülhü, ədaləti, qardaşlığı, həqiqəti üstün tutan Həzrəti Məhəmməd (s.ə.s.) sonuncu Peyğəmbər olmaqla, eyni zamanda Məkkə və Mədinə və ona yaxın olan ərazilərdə əmələ gəlmiş ilkin islam dövlətinin qüdrətli başçısı və əzəmətli sərkərdəsi idi.

Xilafətdən sonrakı dövrlərdə iqtisadi həyatda baş verən dəyişikliklər, istər-istəməz islamın iqtisadi əsaslarının pozulmasına səbəb oldu. Bu hal istər Əməvilər, istər Abbasilər, istərsə də Osmanlı hakimiyyəti dövrlərində müşahidə olunmuşdur. Halbuki, dövlətin idarə olunması, xüsusi mülkiyyətin toxunulmazlığı, nemətlərin ədalətli bölgüsündə islamın iqtisadi əsaslarının mövcud olmasını XYIII əsrdə Qərbi Avropada bu istiqamətdə gedən burjua inqilabları üçün nümunə hesab etmək olar.

downloaded from KitabYurdu.az

İslam dünyasında ictimai fikrin və iqtisadi təfəkkürün inkişafında görkəmli Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusinin (1201-1274) çox böyük elmi xidməti olmuşdur.

İslam dini və fəlsəfi elmi dünyagörüşünü əsas götürərək N.Tusinin "Əxlaqi-Nasiri" əsərində göstərilmişdir ki, cəmiyyətin həyatında əmək aparıcı rol oynayır və insanlar arasında iqtisadi əlaqələri zəruriləşdirir.

İnsanı öz təbiəti etibarı ilə ictimai varlıq hesab edən N.Tusi göstərirdi ki, onun başqa canlılardan fərqi və üstünlüyü şüurlu ictimai əmək fəaliyyəti ilə bağlıdır. "İnsan yaşamaq üçün yeməyə möhtacdır, insanın yeməyi - isə başqa heyvanlardakı kimi alaf və sudan ibarət deyil və təbiət tərəfindən hazır-nazir verilmir."[12] Ona görə də insan çalışmalı, işgüzarlığı və qabiliyyəti ilə yaşayış vasitələrini əldə etməlidir. Nemətlərin istehsalı və sərvətlərin əldə olunması üçün (əmək alətlərini və torpağı birlikdə istifadə etməyi qeyd edərək) əmək bölgüsünün xüsusi rola malik olduğu qeyd olunurdu. Rəngsazla dülgərin timsalında əmək bölgüsünü şərh edən N.Tusi qeyd edirdi ki, "Sənət və peşə olmadan, məsələn, əkmək, biçmək, təmizləmək, üyütmək, yoğurmaq və bişirmək mümkün deyildir, bunun üçün isə köməkçi işlər, kənd təsərrüfatı ləvazimatını düzəltməyi və işlətməyi bacarmaq, uzun müddət böyük əmək sərf etmək lazımdır.[13]

Birgə əmək sistemi vasitəsilə müxtəlif peşələrə yiyələnməyin zəruriliyini qeyd edən N.Tusi göstərirdi ki, nəticədə belə bir şərait qarşılıqlı köməyə və hamının xeyrinə olan ictimai bir sistem daxilində baş verir.

İctimaiyyət adı ilə cəmiyyət həyatında baş verən iqtisadi münasibətləri öyrənən N.Tusi göstərirdi ki, insan mənəviyyatını əks etdirən ruh, əxlaq, nəfs, ağıl, şüur, idrak və s. vaxt bəhrəsini verə bilər ki, ictimai əməklə birləşən və istehsalı ən kamil təşkil edən insanlar, evdarlıq elmini, ölkənin idarəetmə qaydalarını öyrənə bilsinlər.

Ailə münasibətilə dünya ictimai münasibətlər sistemini şərh edən N.Tusi göstərirdi ki, hər bir adam (ailənin) tərkib hissəsi olduğu kimi, hər ev bir məhəllənin, hər məhəllə bir şəhərin, hər şəhər bir xalqın (ölkənin) tərkib hissəsi, hər xalq isə bütün dünya əhalisinin tərkib hissəsi olur".[14]

---

[12] N.Tusi. Əxlaqi-Nasiri, 1980, səh.145.
[13] Yenə orada
[14] N.Tusi. Əxlaqi-Nasiri. səh.178

downloaded from KitabYurdu.az

Beləliklə, N.Tusi cəmiyyətin bir sistem halında fəaliyyət göstərdiyini, ayrı-ayrı fərdlərin isə bu sistemin bir ünsürü olduğunu və onların qarşılıqlı əlaqə və asılılıqda olduğunu qeyd edir. Burada ən vacib cəhət odur ki, insanların cəmiyyət həyatındakı birgə əməklə, birgə fəaliyyət göstərmənin zəruriliyi qeyd olunur. Cəmiyyətin hər cür səadətə qovuşmasının isə insanların qarşılıqlı əlaqə və əlbir fəaliyyətindən asılı olduğu da göstərilir.[15]

İslam dünyasının ictimai-iqtisadi fikrinin ən böyük dühalarından biri də Qərbi Ərəbistanda Tunisdə dünyaya gəlmiş İbn Xəldundur (1332-1406-cı illər).

İbn Xəldun ilk dəfə olaraq tarixi tərəqqinin dövrləşməsini, "cəmiyyətin sosial fizikasını", onda gedən fərqlənmənin maddi əsaslarını göstərmişdir. Cəmiyyətin tarixi təkamül yolunun "primitivdən" "sivilizasiya"ya doğru olduğunu göstərmişdir. İbn-Xəldunun traktatlarında ilk dəfə olaraq dövlət idarəetmə sistemi ilə iqtisadiyyat arasındakı vəhdətin elmi şərhi verilmişdir. Onun "Böyük tarix" və xüsusən "Müqəddimə" əsərlərində iqtisadi fikrin formalaşmasına dair çox diqqətəlayiq mülahizələr söylənilmişdir. İbn Xəldun göstərirdi ki, nəsillərin yaşadığı şərait, nemətlərin əldə olunması vasitələrindən asılı olaraq fərqlənir. Bununla əlaqədar göstərirdi ki, müxtəlif coğrafi mühitdə yaşayan insanlar öz həyat tərzinə görə müxtəlif olacaqlar.

Öz dövründə elmi bilikləri iki: fəlsəfi və ənənəvi qismə bölən İbn Xəldun eyni zamanda onların təsnifatını da verir.

İslam fəlsəfi dünyagörüşü ilə müəyyən qanunauyğunluqlar şəraitində insan cəmiyyətinin təbiəti haqqında-sosial fizika elmi yaratmaq ideyasilə İbn Xəldun, sözün əsl mənasında bəşəriyyətin tarixi inkişafını dövrləşdirə bilmişdir. Dünya İbn Xəldun üçün qaydalaşdırılmış və təkmilləşdirilmiş şəkildə, səbəb və nəticə əlaqələri çərçivəsində görünür.

Cəmiyyətin tarixi inkişafı İbn Xəldunun fikrinə görə maddi nemətlərin istehsalından, bölgüsündən və istehlakından sıxı surətdə asılıdır. Cəmiyyət o vaxt cəmiyyət, adamlar o vaxt adam olur ki, onlar zəruri yaşayış vasitələri istehsalına görə birləşirlər. Belə fəaliyyət insan

---

[15] Daha ətraflı bax: A.Həsənov. Nəsirəddin Tusi iqtisadiyyat və idarəetmə haqqında. İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı. №3-4, 1997.

downloaded from KitabYurdu.az

cəmiyyətini təbiətdən ayırır. Məhz belə ayrılma, digər tərəfdən cəmiyyətlə təbiət arasında yeni qarşılıqlı əlaqələrin əmələ gəlməsinə səbəb olur. Belə ki, insanlar inkişaf edir, mədəniyyətləri təkmilləşdirir və özünün təbii şəraitinə əks-təsir göstərir öz həyat tərzlərini də dəyişirlər. İbn Xəlduna görə təbiətən nə dəyişilməzdirsə, o ilahi qanunun əbədi xarakteri ilə əlaqələndirilir. "Nə ki, təbiidir, o dəyişilməzdir".

İbn Xəldun yazır: "Ağıllı siyasətə malik bəzi dövlət kişiləri belə hesab edə bilərlər ki, dövlətin dağılması cəhətlərindən uzaqlaşmaq olar. Onlar dövləti təkmilləşdirmək, onun vəziyyətini, tərkib hissəsini yaxşılaşdırmağa və sağlamlaşdırmağa cəhd göstərə bilərlər.

Hesab edə bilərlər ki, dövlətin dağılması onlara qədər dövlət kişilərinin səhlənkarlığından, axmaqlığından irəli gəlib. Lakin bu belə deyil. Belə dağılma təbiidir".

İbn Xəldun "Sosial fizika" terminini tətbiq etməklə "ictimai dəyişikliklər" nəzəriyyəsinin əsasını qoymuşdur. Beləliklə də islam mənəvi dünyagörüşü şəraitində ictimai dəyişikliklərin getməsi qanunauyğun haldır.

İbn Xəlduna görə insanlar ilkin olaraq vəhşi şəkildə mövcud olublar. Tədricən onlar təbii dünyadan ayrılmış sosial vəziyyət almışlar. Öz inkişafında iki mərhələdən keçmişlər. Bunların biri "bilava", digəri "xilara"dır. Bu iki mərhələ "yaşayış vasitələrinin necə əldə olunmasına" görə fərqlənirlər. "Bilava" mərhələsində insanlar əsasən əkinçilik və heyvandarlıqla məşğul olmuşlar. İkinci "xilara" mərhələsində isə göstərilən məşğuliyyətlə yanaşı sənətkarlıqla, ticarətlə, elm və incəsənətlə məşğul olmuşlar.

Müxtəlif insan cəmiyyətlərinin həyatında "bilava" və "xilara" inkişaf mərhələləri bir ərazidə və ya region ərazisində fəaliyyət göstərə bilər.

"Bilava"nı bəzi hallarda tədqiqatçılar köçəri həyat tərzi kimi, "xilara"nı isə oturaq həyat tərzi kimi qeyd edirlər.

Bəzən "bilava" köçəri kənd həyatı, "xilara" isə oturaq şəhər həyatı kimi şərh edilir.

Primitiv həyat tərzindən sivilizasiyalı həyat tərzinə keçidi İbn Xəldun izafi məhsulla əlaqələndirir və hər cür inkişafın mənbəyini maddi, iqtisadi səbəblərin təşkil etdiyini göstərir. İzafi məhsul, qrup üzvlərinin

downloaded from KitabYurdu.az

ehtiyacından qat-qat artıq olan hissə kimi əmək bölgüsündən və kooperasiyadan asılı olaraq yaradılır.

İzafi məhsul istehsal edən əmək "izafi əmək", zəruri məhsul istehsal edən əmək isə "əsas əmək" adlandırılır. İbn Xəldun onu sivilizasiyanın görünməsi kimi qiymətləndirir. Əgər şəhər sivilizasiyalaşırsa və orada adamların əməyi artarsa, zəruri tələbatını ödəyib və onları artırırsa, onda bu izafi hissə zənginliyi əks etdirən vasitələrə sərf olunacaq.[16]

İnsan cəmiyyətinin təbiəti haqqında İbn Xəldunun elmi konsepsiyasına bu gün də maraqla müraciət olunur və o adamların davranış qaydaları, dövlətin idarə olunması üçün öz əhəmiyyətini saxlayır.[17] Bir cəhət xüsusi qeyd olunmalıdır ki, İbn Xəldun ictimai-iqtisadi fikirlərini sırf islam dini və fəlsəfi dünyagörüşü əsasında şərh etmişdir.

İslamın iqtisadi prinsiplərini daha sonralar əmələ gəlmiş dünyəvi iqtisadi dəyərlərə uyğunlaşdırmaq ideyası bir sıra ərəb-müsəlman dövlətlərində müşahidə olunsa da, lakin o istənilən nəticələri verməmişdir. Halbuki, inkişaf etmiş dünya ölkələri, islam iqtisadi prinsiplərinə uyğun gələn humanitar yardım, sosial-sığorta fondları və s. yardımlarla sivil dövlətlər səviyyəsinə qalxmışdır.

Zəmanəmizin 70-ci illərindən başlayaraq ərəb-müsəlman dövlətlərində islamın iqtisadi prinsiplərinə uyğun gələn amillərin, proseslərin onların iqtisadi həyatlarına daxil edilməsi nəinki bu ölkələrin, eləcə də digər müsəlman mənşəli ölkələrin sürətli inkişaf etməsinə səbəb oldu.

## § 2. QURANİ-KƏRİMDƏ İQTİSADİ DƏYƏRLƏR

---

[16] A.A.İqnatenko. İbn Xəldun, 1980, səh.67.

[17] Daha ətraflı bax: A.Həsənov, "İbn-Xəldunun iqtisadi nəzəri fikirləri haqqında". İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı №3-4, B-1997. N.Paşayeva. İqtisadi həyat tərzinin dövlət hakimiyyəti ilə əlaqəsi haqqında İbn-Xəldunun baxışları. İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı №1-2, 2000. N.Paşayeva. İbn-Xəldunun əmək və əmək bölgüsünə dair baxışları. İqtisad elmləri: nəzəriyyə və praktika jurnalı №4, 1999, İbn-Xəldunun "Müqəddəmə" əsəri, üç cilddə, türkcə. Zakir Qafuri Ucarın tərcüməsi, İstanbul, 1988.

downloaded from KitabYurdu.az

İslam - dini əqidə olmaqla, insanların həyat tərzini nizamlayan və tənzimləyən ictimai-iqtisadi, sosial-siyasi, hüquqi-əxlaqi, mənəvi-mədəni davranış qaydalarını əsaslandıran bütöv bir elmi sistemdir. Bu sistem öz zənginliyini Qurani-Kərimdən, Həzrəti Məhəmməd (s.ə.s.) hədislərindən, əhli-beyt umanlarının fikirlərindən və böyük ilahiyyatçı alimlərin fitvalarından (qərar və ya mühakiməli) ictihadları (müstəsna qərar) götürmüşdür. Qurani-Kərim Allahdan Həzrəti Məhəmmədə (s.ə.s.) 610-cu ildə Ramazan ayında nazil olunan sözlərin oxunması kimi 23 il ərzində yığılmış və islam dininin ən möhtəşəm, müqəddəs kitabına çevrilmişdir. Quran 114 surədən ibarət olub, müxtəlif qiraət variantlarına görə 6204 və ya 6236 ayəyə bölünür. 1.Əl-Fatihə (kitabı açan) surəsi müstəsna olmaqla, Quranda surələr qısalma qaydası ilə düzülmüşdür. Surələrin ardıcıllığını bir-birindən "Bismillahir-Rəhmanir-Rəhim (Rəhimli, Mərhəmətli Allahın adı ilə) kəlamı ayırır. Yalnız 9.Ət-Tövbə surəsinin əvvəlində "Bismillahir" kəlamı işlədilmir. Bunun səbəbini müfəssirlər onun 8.Əl-Ənfal surəsinin adı olması ilə əlaqələndirirlər.[18] Ən uzun surə 2.Əl-Bəqərə surəsidir, 286 ayədən ibarətdir. Ən qısa surələri isə 103. Əl-Əsr, 108. Əl-Kövsər və 110. Ən-Nəsr surələridir ki, hərəsi 8 ayədən ibarətdir. Ayələrdə 1-dən 68-ə qədər söz vardır. Ümumiyyətlə, Qurani-Kərimdə 77934 söz mövcuddur. Qurani-Kərim Həzrəti Məhəmmədə (s.ə.s.) birdən-birə deyil, hissə-hissə, ilkin olaraq Məkkədə, sonra Mədinədə vəhy edilmişdir. Allahın əmri ilə cənab Cəbrayıl tərəfindən Həzrəti Məhəmmədə (s.ə.s.) ayə-ayə çatdırılmışdır. Məkkə surələri ilkin olaraq həcmcə çox qısa olmuşdur. İlahiyyatçı alimlərin fikrinə görə, Quranın 90 surəsi Məkkədə, 24 surəsi Mədinədə nazil olmuşdur. Qurani-Kərimin göndərilməsinə işarə edilən ayədə göstərilir ki, "elmə ətraflı izah etdiyimiz kitab (Quran) gətirdik" (7.Əl-Əraf (sədd) surəsi, ayə 5). İslamın ən böyük möcüzəsi hesab olunan Quranın insanların, ətrafda baş verən bütün hadisələri elm və hikmətlə, ağıl və məntiqlə müşahidə etməyə istiqamətləndirməsidir.

İslam elmə varid olanları xüsusi qeyd edir. Bununla əlaqədar Qurani-Kərimi bilənlərlə, heç bilməyənlər eyni ola bilərmi? (39.Əz-Zümrələr surəsi, ayə 9). 2.Əl-Bəqərə surəsinin 247; 6.Əl-Ənam surəsinin 80-

---

[18] Bax: V.Məmmədəliyev. Ön söz. Quran-tərcümə, səh..,9, B, 1991. İslam - qısa məlumat kitabı. Bakı, 1985 (ruscadan tərcümə), səh.,43.

downloaded from KitabYurdu.az

ci, 148-ci; 7.Əl-Əraf surəsinin 52-ci; 16.Ən-Nəhl surəsinin 27-ci ayələrində elmə və ona varid olanlara xüsusi üstünlük verilərək, onlara dünya və axirət üçün nəticə çıxartmağı göstərmişdir.

Qurani-Kərimdə insan azadlığına aid olan ayələrdə göstərilir ki, Allah insanı milliyyətindən, rəngindən, cinsindən asılı olmayaraq bərabər yaratmışdır. Qulu, köləni azad etmək, onun insani haqlarını bərpa etmək, ən ali mənəvi davranış qaydalarına daxil olan, xüsusi, savabı böyük olan yaxşı işlərdəndir.

Mütləq mənada azad olan insan başqasına görə deyil, qarşılıqlı fəaliyyət nəticəsində bir-birilə hər cür qarşılıqlı münasibətdə bərabərşəkilli sərbəstliyi duymalı və görməlidir. Belə vəziyyət isə ədalətli davranışı əsaslandırır. Qurani-Kərimdə göstərilir: "Ölçüdə və çəkidə düz olun. Söz söylədiyiniz zaman qohumlar olsa belə ədalətli olun". (6.Əl-Ənam surəsi, ayə 152).

Göstərmək lazımdır ki, istər bu ayədə, istərsə də bu surənin 157-ci; 7.Əl-Əraf surəsinin 85-ci; 17. Əl-İsra surəsinin 35-ci; 26. Əş-Şuəra surəsinin 181, 182-ci; 55. Ər-Rəhman surəsinin 89-cu; 8. Əl-Ənfal surəsinin 69-cu; 14. İbrahim surəsinin 31-ci; 65. Ət-Talaq surəsinin 7-ci ayələrində göstərilən "Ölçü və çəki" bir tərəfdən düzlüyü, halallığı, təmizliyi əks etdirsə də, onun rəmzi mənası daha çox ədaləti əks etdirir.

Digər tərəfdən, islam iqtisadi sistemində ekvivalent mal mübadiləsinə xüsusi diqqət yetirilir. Bununla əlaqədar 4. Ən-Nisa surəsinin 29-cu ayəsində buyurulur: "Ey iman gətirənlər! Qarşılıqlı edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə yeməyin və özünüz-özünüzü öldürməyin. Həqiqətən Allah sizə qarşı mərhəmətlidir". Yaxud, 7. Əl-Əraf surəsinin 85-ci ayəsində göstərilir: "Adamların mallarının dəyərini azaltmayın". Göründüyü kimi, insanın mənəvi davranış qaydalarının formalaşdırılmasında müstəsna dərəcədə onun iqtisadi fəaliyyətindən irəli gələn davranış qaydaları da xüsusi rol oynayır. Yalnız fəaliyyət göstərməklə, başqaları ilə təsərrüfat əlaqələrinə girməklə, insan həm mənəvi davranışının meyarını, həm də maddi fəaliyyət həddini müəyyənləşdirə bilər. Ona görə də Qurani-Kərimdə insanların nəsillər boyu əmək bölgüsünün dərinləşdiyi, mübadilə prosesinin mürəkkəbləşdiyi

downloaded from KitabYurdu.az

şəraitində qarşılıqlı əlaqəyə girdikləri zaman adamların həm mənəvi, həm də maddi davranış qaydalarını rəhbər tutmaq ardıcıl olaraq göstərilir.

Göstərilir ki, yer üzündə yerləşdirilən insanlar üçün hər cür dolanacaq vasitələri mövcuddur.

Adamlar hər cür zənginliyə, yeməyə, içməyə layiqdirlər. Lakin onlar hər cürə israfçılıqdan uzaq olmalıdırlar. "Ey Adəm oğulları, hər ibadət vaxtı gözəl libaslarınızı geyin, yeyin, için, lakin israf etməyin. Çünki Allah israf edənləri sevməz". (7. Əl-Əraf surəsi, ayə 31).

İnsanların fərdi qabiliyyəti daxilində dövlət əldə etmək imkanı Quranda xüsusi qeyd olunur və göstərilir ki, "hərə öz qabiliyətinə görə iş görər" (17. Əl-İsra surəsi, ayə 84)

Deməli, insanlar qabiliyyətləri daxilində malik olduqları nemət və sərvətlərin xüsusi mülkiyyətçisinə çevrilməklə, ondan yalnız istifadə edə bilər və sərəncam verə bilər.

İnsanların təbii sərvətlərə olan münasibətləri bərabərdir, orada hasil olunan nemətlər bütövlükdə xalqa, millətə məxsusdur. Yeni iqtisadi sistemin formalaşması şəraitində bu islami iqtisadi prinsiplərin nəzərə alınması olduqca vacibdir.

Bununla əlaqədar göstərilir ki, "Sizə verdiyimiz ruzilərin təmizindən (halalından) yeyin, lakin bunda həddi aşmayın (israfçılıq, xəsislik, nankorluq etməyin, ehtiyacı olana şəriət qaydaları üzrə kömək göstərin), yoxsa qəzəbimə düçar olarsınız" (20. Ta ha surəsi, ayə 81).

İnsanların sərvətlərə olan hərisliyini, tamahkarlığını nəzərə alaraq islam iqtisadi sistemində zəkatın, sədəqənin, fitrənin verilməsinə xüsusi diqqət, əhəmiyyət və üstünlük verilir. Mal-dövlət yığıb saxlayan və müəyyən qənimətlərə sahib olanlara, Allah payını acizlərə, "yoxsullara" verməyənlərə ciddi cəza veriləcəyi göstərilir. (70. Ən-Məaric surəsi (pillələr), ayə 18; 8. Əl-Ənfal surəsi (qənimət, ayə 41)).

Əlbəttə, bu payın verilməsi müəyyən hədlə müəyyənləşdiyindən, qeyd olunur ki, "Allah heç kəsi özünün ona verdiyindən artıq xərcləməyə məcbur etməz. Allah hər bir çətinlikdən sonra asanlıq, yoxsulluqdan sonra dövlət əta edər". (65. Ət-Talaq (boşanma) surəsi, ayə 7).

Eyni zamanda, əldə olunan nemətlərdən qohum-əqrabaya, yoxsullara, pulu qurtarıb yolda qalan müsafirlərə haqqın verilməsi zərurəti

downloaded from KitabYurdu.az

göstərilir. Lakin bununla yanaşı, hər cür israfçılıqdan uzaq olmaq tövsiyə edir.

"Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et. Yoxsa həm qınanarsan, həm də peşman olarsan" (17. Əl-İsra "Gecə vaxtı seyr" surəsi, ayə 29).

Qurani-Kərimdə islam iqtisadi dəyəri kimi könüllü olaraq öz ehtiyacından artıq qalanını verməklə, insan ən yüksək ali davranışa malik olur və fərdi mənəviyyatı ucaldan prinsipi əldə edir. Quranda sədəqə ilə bağlı olduqca çox ayələr var. "Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi şəxs üçün bunu qat-qat artırır". (2. Əl-Bəqərə surəsi, ayə 261).

"Sədəqə Allah yolunda canından keçərək yer üzündə hərəkət edə bilməyən yoxsullar üçündür" (2. Əl-Bəqərə surəsi, ayə 273). "Həqiqətən Allah sədəqə verənləri mükafatlandırır" (12. Yusif surəsi, ayə 88).

Qurani-Kərimdə pul tədavülü ilə əlaqədar ayələr göstərilir. Pulun sələmə, faizə, ribaya verilməsinin ən murdar, iyrənc və çirkin bir əməl olduğu qeyd olunur. "Allah sələmi məhv edir, sədəqələri isə artırır" (2. Əl-Bəqərə surəsi, ayə 276).

Müamilə, sələmlə bağlı məsələ Qurani-Kərimdə qətiyyətlə pislənməklə yanaşı, o müsəlmanın iqtisadi davranış qaydaları üçün qadağan hesab olunur. Sələmin haram olması, insanlara bədbəxtlik gətirməsi Qurani-Kərimin 2. Əl-Bəqərə surəsinin 275-ci, 276-cı, 278-ci; 3. Ali-İman surəsinin 130-cu; 30. Ər-Rum surəsinin 39-cu ayələrində göstərilmişdir. Məsələnin mahiyyətinə iqtisadi nöqteyi-nəzərincə yanaşdıqda, aydın olur ki, belə bir hal həm ümumi tələbatı məhdudlaşdırır, həm pulu olanları fəaliyyətsizləşdirir. Həm işgüzarlıq meylini aşağı salır, həm də adamları bir-birindən ədalətsiz olaraq asılı edir. Eləcə də insanın insan tərəfindən istismarını dərinləşdirir, insan əxlaqını, etikasını və mənəviyyatını çürükləşdirir.

Qurani-Kərimdə iqtisadi dəyərlərlə tanışlıq göstərir ki, bu elmin elə problemi yoxdur ki, orada ona toxunulmasın. Bəlli olduğu kimi, iqtisadi təfəkkürün formalaşdığı və insan həyatında dəyişikliklərin uğramasına aid elmi-iqtisadi anlayışların mahiyyətinə dair baxışlar əsasən Qərbi

downloaded from KitabYurdu.az

Avropada XVIII-XX əsrdə formalaşmışdırsa, lakin Qurani-Kərimdə onların anlamına çox incəliklə toxunulmuşdur. İqtisadi davranış qaydalarını, fəaliyyət həddini müəyyən edən bir sıra iqtisadi anlayışlar Qurani-Kərimdə ardıcıllıqla və əsaslandırılmış şəkildə verilmişdir. Məsələn, nemət, mənfəət, xərc, ehtiyac kimi anlayışlar daha çox təkrarlanaraq, sədəqə, sələm, xeyir, borc, imkan, fərq, israf kimi anlayışların mahiyyəti, faydalılıq, müvazinət, mübadilə, müxtəliflik, qıtlıq, fərq, rəqabət, zəngin, varlı, yoxsul, miskin, kölə kimi anlamlar göstərilir.

Qurani-Kərimdə islami prinsip kimi mövcud olan azadlıq, ədalət, bərabərlik, qardaşlıq kimi ifadələrin iqtisadi mahiyyətini əks etdirən mülk, seçim, borc, nizam, hədd, ölçü, çəki, haqq, əməl kimi anlayışlar göstərilir. İnsanların fəaliyyətini əsaslandıran çalışmaq, əmək, torpaq, sərmayə, vaxt, işgüzarlıq kimi amillərin mahiyyəti də əks olunaraq, xüms, zəkat, həcc kimi vacib bədən ibadətinin zəruriliyi göstərilir.

Qurani-Kərimin surələrinə diqqət yetirərkən aydın olur ki, onun bir sıra surələrində bilavasitə iqtisadi dəyərləri əks etdirən xeyli ayələr vardır. Məsələn, 2. Əl-Bəqərə surəsinin 286-cı ayəsinin 86-da; 3. Ali-İmran surəsinin 200 ayəsinin 41-də; 16. Ən-Nəhl surəsinin 128 ayəsindən 31-də, Əl-İsra surəsinin 111 ayəsinin 16-da bilavasitə iqtisadi dəyərlərdən bəhs edilir. Bundan əlavə, 4.Ən-Nisa; 6.Əl-Ənam; 7.Əl-Əraf; 8.Əl-Ənfal; 9.Əl-Tövbə; 11.Hud, 20, Ta ha; 30. Ər-Rum; 31. Loğman; 39. Əz-Zumar; 41. Fussilət; 47. Məhəmməd; 51. Əz-Zariyat; 55. Ər-Rəhman; 57. Əl-Hədid; 70. Əl-Məaric surələrində 4-10 arasında ayələr vardır. Bunları qeyd etməkdə məqsədimiz ondan ibarətdir ki, Qurani-Kərimdə dini-mənəvi dəyərlərin ali davranış meyarlarını, eləcə də elmi gerçəkliyin müxtəlif sahə və istiqamətləri ilə bağlı ayələri göstərməklə, eyni zamanda insanın dünyəvi həyat tərzini nizamlayan, tənzimləyən, maddi dəyərlərlə bağlı davranış hədlərini, qaydalarını müəyyən edən ayələr də göstərilmişdir.

downloaded from KitabYurdu.az

Qurani-Kərim bəşəriyyət aləmində, onun müqəddəs ayələrindən bəhrələnən insanların həyat yolunda sönməz və əbədi məşəldir.

## § 3. İSLAMDA İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİ

İslam iqtisadi fikrini müəyyən münasibətlər sistemi vasitəsi ilə də izah etmək olar. Buraya hər şeydən əvvəl əmlak, mülkiyyət, torpaq, icarə, ticarət, maliyyə-kredit və bank işi ilə bağlı iqtisadi münasibətlər daxildir.

İslamda əmlak və mülkiyyət münasibətləri olduqca dərin, səlis və məntiqi-elmi ardıcıllıqla, mənimsənilmə, istifadə olunma və sərəncamvermə ilə bağlı prinsiplərlə müəyyənləşdirilmişdir. Şəriət vasitəsilə tənzimlənən əmlak və mülkiyyət hüquqları həm sahibolma prinsipini, həm sərəncamvermə, həm də istifadəetmə üsulunu əsaslandırır. Halallıq çərçivəsində əmlakın əldə olunması və ondan faydalı istifadə olunması mülkiyyətdən istifadə olunması hüququ üçün çox tutarlı əsas yaratmışdır.

İnsan fəaliyyətinin müxtəlifliyi ilə bağlı olan və onlara verilən nemətlərlə biri-birilə ünsiyyətə girənlər müxtəlif əmlak və mülkə malik olurlar. İslamda əmlak və mülkiyyətə olan münasibət hər şeydən əvvəl müxtəliflik əsasında meydana gəlir. 5. Əl-Maida surəsinin 48-ci, 32. Əs-Səcdə surəsinin 18-ci, 39. Əz-Zumər surəsinin 9-cu, 41. Fussilət surəsinin 34-cü ayələrində insan fəaliyyətinin müxtəlifliyi birbaşa göstərilir.

Lakin bu fəaliyyət müxtəlifliyi ilə bağlı olan əmlak müxtəlifliyi insanların davranışında seçmə imkanları verməklə ondan faydalana bilir. Düzdür, 3. Ali-İmran surəsinin 26-cı ayəsində göstərilir ki, "(Ya Məhəmməd) De ki, Ey mülkün sahibi olan Allah. Sən mülkü istədiyin şəxsə verərək, istədiyin şəxsdən alarsan, istədiyin şəxsi yüksəldər və istədiyin şəxsi alçaldarsan".

Lakin əmlak və mülkün səviyyəsindən asılı olmayaraq insanlar öz davranışlarında ədalətli olmalı və ondan istifadə etməklə həm mənəvi, həm də maddi cəhətdən fayda götürməklə yüksəlməlidir.

Bir cəhəti qeyd etmək lazımdır ki, əmlaka görə müəyyən olunan iqtisadi münasibətlərin işlək mexanizmi, əmlak hüququ vasitəsilə tənzimlənən şəriət prinsiplərindən bilavasitə asılıdır. Eyni zamanda bu

downloaded from KitabYurdu.az

prinsipləri əsas götürməklə, konkret yerli şəraitin xüsusiyyətləri nəzərə alınır.

Yəni əmlakla və mülkiyyətlə bağlı münasibətlər bəsit və donuq şəkildə deyil, daima inkişaf, dinamika şəklində götürülür. Məhz əmlak və mülkiyyətə görə islamda insanların nəfslərinin tənzimlənməsi diqqət mərkəzində durur.

Digər tərəfdən, islamda əmlak toxunulmazlığı əsas götürülür. Əmlak toxunulmazlığı o qədər ciddi məsələdir ki, hətta böyük ehtiyac duyulan hər hansı istahsal vasitəsindən, onun sahibinin icazəsi olmadan ona toxunmaq və ya istifadə etmək olmaz. Hətta qeyri-müsəlmanlar olsa belə onun əmlakına toxunmaq islamda qəti qadağan edilir və əgər onun vasitəsi ilə nə isə hasil edilib mənimsənilibsə, haram hesab olunur. Buna görə də əmlak ilkin olaraq xüsusi mülkiyyətin ən vacib təzahürü kimi ortalığa çıxır. İslamda birmənalı olaraq mülkiyyət toxunulmazlığı elan olunur və onun faydalı istifadə olunması təmin olunur. Şəxsi mənafeyin reallaşması əgər ilkin olaraq nəzərdə tutulursa, lakin onun cəmiyyət mənafeyinə uyğun olaraq istiqamət alması vacib cəhət kimi qeyd olunur. İnsan fəaliyyətinin hər cür fərdiçilikdən uzaqlaşdırılıb ictimai xarakter alması, cəmiyyətin dünyəvi inkişafının təmin olunması, humanizm prinsiplərinə yiyələnməsi əsasında formalaşması meydana çıxacaq hər hansı bir iqtisadi münasibətin əsasının təşkil olunmasına üstünlük verir.

İnsanların istək və arzularından, əqidəsindən asılı olmayaraq malik olduğu mülkiyyət, ona sahibolma və istifadəsinə görə əmələ gələn münasibətlər islamda şəriət qanunları ilə möhkəmləndirilir. İslam iqtisadiyyatında əmlak və mülkiyyətdən istifadə hüququ sərbəst xarakter daşıyır. Burada dövlətin rolu müşahidəçilikdən ibarətdir. Yalnız dövlət cəmiyyətin ehtiyacını ödəmək məqsədilə müşahidə vasitəsilə insanların xüsusi mülkiyyətinə (mal ibadətinə, xüsusən zəkatın, xümsün, xəracın verilməsinə) nəzarət edir.

Dünyada ən demokratik, ən bəyənilən prinsiplərdən hesab olunan müsəlman bölgü sistemi, əmlak və mülkiyyətlə bağlı meydana gələn münasibətlərin konkretləşməsinə çox ciddi və düzgün təsir göstərir.

Belə ki, əmlakın bölgüsü islamda vərəsəlik hüququ vasitəsilə çox dəqiq həyata keçirilir. Bu, bir tərəfdən onunla bağlı olanların hamısının

downloaded from KitabYurdu.az

mənafeyinin qorunması, eləcə də ondan istifadə olunması ilə əlaqədardır. Burada hüquqi və iqtisadi münasibətlər qovuşaraq mənəvi, əxlaqi və sosial münasibətlərin inkişaf etməsinə səbəb olur. Yəni külli miqdar var-dövlət yığmağın həm aqibəti aydın olur, həm də onun çoxlarının sərəncamına daxil olma prosesinin zəruriliyi qeyd olunur.

Mülkiyyətin, eləcə də əmlakın formalaşması əsasında faydalı fəaliyyətin, həmçinin əmək sərfinin vacib cəhət kimi üstünlüyə malik olması əsas şərt kimi çıxış edir. Hətta ərlə arvadın əmlak hüququnda bu olduqca çox incə şəkildə nəzərdə tutulur. Əgər qadına verilmiş cehiz, zinət şeyləri və ya əmlak xarakterli digər vasitələr, eləcə də torpaq sahəsi, bina və s. bilavasitə onun sərəncamındadırsa, onda bunlardan istifadə olunma istiqamətini o, özü müəyyənləşdirir. Könüllü olaraq o, öz sərəncam vermək və istifadə etmək hüququnu ərinə verə bilər. Şəriətdə istər əmlakdan, istərsə də mülkiyyətdən zorla istifadə etmək tamamilə qadağan edilir. Hətta ən sadə görünən hər hansı bir əşyanın və ya məmulatdan sahibinin icazəsi olmadan istifadə etmək ən böyük qəbahət hesab olunur. Digər tərəfdən, bütün əmlak və mülkiyyətdən istifadə olunmaq məcburiyyəti mövcud vergi üsulları ilə, xüsusilə xüms vasitəsilə tənzimlənir. Əmlaka sahibolma, faydalı istifadəetmə, islamda mülkiyyətin əsas aparıcı forması olan xüsusi mülkiyyətin üstün rolu və daha səmərəli olması üçün dövlət mülkiyyətinin və vəqflər yolu ilə əmələ gələn ictimai təyinatlı mülkiyyətin formalaşmasına da geniş imkanlar yaranır.

İslam təlimində xüsusi mülkiyyətin iqtisadi əsası hər cür əmlaka və istehsal vasitələrinə sahibolma prinsipi ilə müəyyən olunur. Ona görə də xüsusi mülkiyyətin əmələ gəlməsi hamı üçün mümkün şəkil alır və mövcud cəmiyyət daxilində hökm sürən müxtəlif adət-ənənələrlə bağlı, şəriətdən kənar qoyulmuş qanunlarla onun səviyyəsi və ya miqyası müxtəlif olur.

İslam dünyasında torpaq və ondan istifadə olunması məsələsinə olduqca zəruri, toxunulmaz və müqəddəs bir nemət kimi baxılır. Bir tərəfdən torpaq, yalnız Ulu Yaradanın mülkiyyəti kimi qəbul edilir, digər tərəfdən ona təsərrüfat obyekti kimi sahibolma prinsipləri müəyyənləşdirilir. Mütləq mənada torpaq Allahındır. Lakin istifadəsinə,

downloaded from KitabYurdu.az

sahibolmasına, sərəncamverməsinə görə torpaq nisbi mənada mülkiyyət obyektinə çevrilir.

Torpaq və ondan istifadə, onun insan həyatında, davranışında, fəaliyyətində oynadığı müstəsan rol barədə Qurani-Kərimin 7. Əl-Əraf surəsinin 10-cu, 12. Yusif surəsinin 105-ci, 13. Ər-Rəd surəsinin 4-cü, 20. Ta ha surəsinin 53-55-ci. 77. Əl-Mursəlat surəsinin 25; 26; 79. Ən Naziat surəsinin 30, 31-ci; 80. Əbəsə surəsinin 24-32-ci ayələrindən çox asanlıqla faydalanmaq olar. Bu ayələrdə yer üzünün insan naminə döşənilməsi, onun sulanması, müxtəlif dənli, bitkili və meyvələrlə dolu sahələrin, tarlaların və bağların yaradılması, otlaqların və bitkilərin insanların sərəncamına verilməsi göstərilir.

Yer üzünün torpaq rəmzində müqəddəsləşməsi, onun insan həyatının əzəli və axirət məkanına çevrilməsilə, hər cür sərvət və nemətin ilkin toplayıcı amili olması ilə, eyni zamanda onun "insanların anası olması" ilə bağlıdır. Həzrəti Peyğəmbər (s.ə.s.) buyurmuşdur: "Yer üzünü məsh edin, o, sizə xeyirdir, bərəkətdir". Başqa hədislərdə Peyğəmbər (s.ə.s.) torpağı insanın anası (yəni onu yedirdən, içirdən, qidalandıran), insanı isə onun atası adlandırmışdır. Həzrəti Əliyə (ə.s.)  "Əbu Turəb torpaq atası" deyə müraciət edərək, ona bu küniyyəni vermişdir.

Torpaq sahələrindən istifadə olunması, onların yararlı vəziyyətə salınması, əldə olunan məhsulun razılaşdırılmış sazişə görə bölgüsü kənd təsərrüfatının inkişafına səbəb olan mühüm amillərdəndir.

Göstərmək lazımdır ki, torpağın ərzaq məhsulları əldə olunmasındakı həlledici rolu nəzərə alınaraq, onların məhsuldarlığı, suvarılması, vergiyə cəlb olunması nöqteyi-nəzərincə, şəriətdə onların kateqoriyalara bölünməsi əsaslandırılmışdır. Peyğəmbərin (s.ə.s.) sağlığında və onun vəfatından sonrakı dövrlərdə hökmranlıq etmiş dörd Rəşidi xəlifələrinin - Həzrəti Əbubəkrin, Həzrəti Ömər ibn Əl Xəttabın, Həzrəti Osman ibn Əffanın və Həzrəti Əli ibn Əbutalibin dövrlərində torpaq əsasən dörd kateqoriyaya bölünmüşdür.

Birinci kateqoriyaya əkin üçün yararlı olan torpaq sahələri aid edilir. İkinci kateqoriyaya torpaqdan istifadəyə görə hüququnu qoruyub saxlamaq naminə islamı qəbul etmiş şəxslərin torpaqları daxildir. Üçüncü kateqoriya döyüşlər zamanı ilhaq edilmiş torpaqlardır. Dördüncüsü, xərac

downloaded from KitabYurdu.az

vergisi alınan torpaqlardır. Torpaqların hər dörd kateqoriyası üçün onların yararlı vəziyyətə salınması, faydalı istifadəyə cəlb olunması, icarəyə verilməsi zərurəti mövcuddur.

İslamda həm vaxtı ilə əkilib-becərilmiş, sonralar satılmış torpaqların, həm də tam yararsız olan və heç kimin istifadəsində olmayan torpaqların istehsal dövriyyəsinə cəlb edilməsi zəruriliyi qeyd edilir. Bu torpaqlar "ölü torpaqlar", "yararsız torpaqlar" adlandırılsa da, lakin onların istifadəyə və yararlı vəziyyətə salınması vacibliyi qeyd olunur. Belə torpaqların, islamda yararlı vəziyyətə salınması çox qiymətləndirilir. Burada torpağın həm yararsız vəziyyəti, həm də yaşayan əhalinin ictimai vəziyyəti üçün daşıdığı əhəmiyyət nəzərdə tutulur. Gələcəkdə kənd salmaq, biçənəklər, otlaqlar kimi istifadə oluna bilməsi zəruriliyi və s. ehtiyacların ödənilməsi müstəsna əhəmiyyət daşıyacaqsa, belə torpaqlardan istənilən şəxsin, aparıcı din xadimlərinin icazəsi ilə istifadə etmək hüququ vardır.

Yararsız torpağı yararlı vəziyyətə salan, torpağın mülkiyyətçisinə çevrilir. Lakin Ərəb dünyasında torpağın məhsuldarlığı, yararlığı və suvarılmasına görə vəziyyəti olduqca məhdud olduğu üçün bütün torpaqlara nəzarət edilir və onlardan səmərəli istifadə olunması diqqət mərkəzində saxlanılır. Torpaq Allahındır. O, torpağı öz bəndələrinə dolanacaq vasitəsi kimi bəxş edir. Burada 7. Əl-Əraf surəsinin 10-cu "Sizi yer üzündə yerləşdirdik və orada sizə dolanacaq vasitələri yaratdıq. Siz isə olduqca az şükr edənlərsiz" ayəsi əsas götürülür.

Torpaq sahələrindən istifadə etmək və ehtiyacı ödəmək islamda, şəriətin müəyyən etdiyi qaydalar əsasında ya ali din xadimləri və ya dövlət başçıları tərəfindən icra edilərək həyata keçirilir. Çünki yararsız torpaqlar olsa belə onun üzərində mülkiyyət hüququnun bərqərar olması üçün dini hökm vacib şərtdir. Həm də belə vəziyyət torpağa görə özbaşınalıqların, çəkişmələrin, müxtəlif mənşəli savaşların son qoyulmasına səbəb olur.

İslam iqtisadi prinsiplərinə görə, əmlakdan tutmuş, ev əşyalarına qədər, torpaq sahəsindən tutumuş ev heyvanlarına qədər nə varsa, hamısının icarəyə verilməsi məqbul hesab olunur. Burada iki xüsusiyyət nəzərə alınmalıdır.

Birincisi, əmlakın və ya mülkiyyətin konkret sahibi olsun, ikincisi, qarşılıqlı razılaşma və anlaşma olsun. Hər iki şəraitdə qarşılıqlı faydalanma

downloaded from KitabYurdu.az

prinsipi əsas götürülür. Əgər tərəflərin hər biri belə şəraitdə faydalanmazsa, onda icarə məqbul hesab olunmur. Bu məsələnin qoyuluşunun birinci aktı ilə bağlıdır. Əgər tərəflər bir-birinin faydalana biləcək imkanlarının məhdudluğunu və ya yoxluğunu əvvəlcədən bilib, icarə münasibətinə girirlərsə, o, batil hesab olunur. Lakin əgər istifadə olunma şəraitində əmlakdan, heyvanlardan və s. yaxşı istifadə olunmayıbsa, o halda o icarə haqqını ödəməlidir. Çünki sazişin və ya müqavilənin bağlanması ağıllı, sağlam düşüncəli adamlar arasında aparıldığından risk etmək dərəcəsi nəzərdə tutulur.

İcarə və onunla bağlı iqtisadi münasibətlərin baş verməsi, bilavasitə əmlakdan, istehsal vasitələrindən, torpaq sahələrindən səmərəli və faydalanma əsasında baş verməlidir. Özü də belə şəraitdə aparılan hər hansı bir iqtisadi münasibət qarşılıqlı razılaşmaya, müqaviləyə əsaslanır. Əgər bir kəs evini, mağazasını, malını icarəyə versə, belə şəraitdə mütləq ondan konkret istifadə edən bilinməlidir. Konkret şəxs bilindikdən sonra həmin şəxs öz icarədar hüququnu başqasına verə bilməz. Çünki burada əsas razılaşan tərəflərdən biri mülkün sahibidir, o da yeni müqavilənin aparılmasında iştirak etməlidir. Əgər mülkü icarəyə götürən şəxs sahibin razılığını alandan sonra onu başqa şəxsə icarəyə verərsə, o, müəyyən təmir işləri aparmalı və ya onun fəaliyyət dairəsini dəyişməlidir. Yəni mənzil kirayə edilib bir il ərzində istifadə olunmalıydısa, lakin ondan dərzi sexi kimi istifadə ediləcəksə, orada müəyyən əlavə xərclər çəkilməlidir. Əlavə xərcin çəkilməsi ilə əlavə qazancın əldə olunmasına nail olmaq olar. İslamda icarənin əsas məqsədi onun sahibinin fəaliyyət göstərməsi məhdudiyyətləri ilə onu başqasının sərəncamına verməklə əlavə gəlir, qazanc əldə etməkdir. Mülk sahibi mülkün istifadə olunmasına görə, icarədar və ya işgüzar şəxs isə fəaliyyətinə görə yaradılan əlavə gəlirdən pay almaq hüququna malik olurlar.

Ticarətin və pulun islam iqtisadiyyatında oynadığı rolun əhəmiyyəti barədə danışmağa xüsusi ehtiyac yoxdur. Ticarət mürəkkəb bir mexanizm kimi müxtəlif adamların, ölkələrin qarşılıqlı əlaqəyə girməsinə səbəb olur. O, islam dini-mənəvi dəyərlərinin yayılmasının ən mühüm üsulu olmaqla yanaşı, islam iqtisadiyyatının inkişafının mühüm mənbəyidir. Ticarəti yalnız alqı-satqı obyekti kimi qəbul etmək səhv olardı. Çünki ticarət bir

downloaded from KitabYurdu.az

tərəfdən əmək bölgüsünə, xüsusi mülkiyyətə əsaslanırdısa, digər tərəfdən ixtisaslaşmanın dərinləşməsinə, sahibkarlıq fəaliyyətinin əmələ gəlməsinə səbəb olurdu. Ona görə də ticarət şəbəkələrinin genişləndiyi bir şəraitdə onun ixtisaslaşma sayəsində əldə edə biləcəyi böyük nailiyyətə xüsusi diqqət yetirmək lazımdır. Çünki ixtisaslaşma həm məhsuldarlığı, həm də gəliri artıran prosesdir.

Təsadüfi deyildir ki, XYIII əsrdən başlayaraq Qərb ölkələrinin sürətli iqtisadi inkişafa nail olmaları məhz müəyyən fəaliyyət sferasında ixtisaslaşmalar hesabına baş vermişdir. Məhsuldar fəaliyyət istənilən məhdud görünən məhsulların əldə olunmasına səbəb olmuşdur. Eyni zamanda müxtəlif peşə sahiblərinin müəyyən vəzifənin həyata keçirilməsindən ötrü birləşməsinə şərait yaratmış, müxtəlif yenilik əmələ gətirmiş, bir qisim adamı əmək bölgüsünün yaxşı təşkilatçısına çevirmişdir. Əmək bölgüsü adamların xüsusi keyfiyyətini (yeniliklik yaratmaq və təşkilatçılıq bacarıqlarını) üzə çıxararaq, onların yeni görünən mövqelərinin möhkəmlənməsinə səbəb olur. Adamların üzə çıxan qabiliyyətləri mövcud sfera daxilində tətbiq olunma imkanları tapıldıqca inkişaf etmişdir. Qərb ölkələri buna nail olmuş və dünyanın inkişaf etməkdə olan ölkələri də bu təcrübədən istifadə edə bilmişlər. Lakin müsəlman Şərq ölkələrində **yenilikçiliyin, təşkilatçılığın və təşəbbüskarlığın tətbiq dairəsi daima məhdudlaşdırılmışdır**. Ona görə də müsəlman ölkələrində ticarət ona xas olan inkişaf meylini üzə çıxara bilməmişdir. Ticarət indinin özündə yalnız alğı-satqı kimi qəbul olunur. Halbuki onun daxili gücü yenilikçilik, təşkilatçılıq, təşəbbüskarlıq qabiliyyəti ilə bağlıdır. Sahibkarlıq fəaliyyətinin əsas elementlərinin tətbiq dairəsi olmadıqda, o ixtisaslaşmanı nəinki dərinləşdirir, əksinə onun ətalətli xarakter almasına səbəb olur.

**İqtisadiyyatda ixtisaslaşmanın rolunun nəzərə alınmaması ləng inkişafı əsaslandırır**, istehsalın səmərəliliyini azaldır. Aydındır ki, zəif inkişaf edən və geridə qalan ölkələrdə birdən-birə yüksək ixtisaslaşmaya keçidin tətbiq olunması heç də istənilən nəticəni verməz. Çünki ixtisaslaşma prosesi adamların ümumi intellektual, mədəni-texniki səviyyəsindən asılıdır. Əgər geridə qalmış ölkələr də avtomobilin idarə olunmasından ötrü kompüter mikrosxemini öyrənirsə, bu, onun heç də

downloaded from KitabYurdu.az

neft emalı zavodunda kompüterdə işləyən operator kimi ixtisaslaşması deməkdeyildir. Çünki peşələrin özü illər ərzində formalaşır.

Təsərrüfat insan cəmiyyətinin, adamların fəaliyyətinin ayrılmaz hissəsi olub, meydana gəldiyi gündən əmək bölgüsünün dərinləşməsinə səbəb olmuşdur. Lakin ticarət islam sivilizasiyasının meydana gəlməsində və formalaşmasında müstəsna rol oynamışdır. Ona görə də təsərrüfat fəaliyyətinin mühüm hissəsi olan ticarət, islam iqtisadiyyatında mərkəzi yerlərdən birini tutur. İslamın meydana gəlməsi və formalaşması bilavasitə ticarət əlaqələrinin fasiləsiz olaraq getdiyi dövrə təsadüf edir. Ticarət və onunla bağlı məsələlər islamda çox incə şəkildə öz şərhini tapmış məşğuliyyət formasıdır. Lap keçmiş zamanlardan tutmuş, indiyə qədər Şərq dünyasını ticarətsiz təsəvvür etmək olmur. Bu baxımdan müsəlman dünyasında bazar anlayışı, alğı-satqı kimi görünən və ticarət əlaqələrinin getdiyi məkan kimi nəzərdə tutulur. Təsadüfi deyildir ki, indinin özündə də bazar sistemi çox vaxt sırf ticarətlə bağlı olan təsərrüfat məkanı kimi qəbul edilir.

Digər tərəfdən, Həzrəti Məhəmməd (s.ə.s.) gənc yaşlarından başlayaraq Peyğəmbərlik dövrünə qədər ticarətlə məşğul olduğundan müsəlman dünyasında ticarət seçilən peşələrdən hesab olunurdu. Mövhumatın geniş yayıldığı dövrlərdə islam aləmində elə hesab olunurdu ki, müsəlmanın yalnız dini işlərlə və ticarətlə məşğul olması daha faydalıdır. Halbuki Peyğəmbər (səs) buyurmuşdur: "Mənə mal toplamaq və tacir olmaq vəhy edilmədi. Mənə Rəbbinin şənini yay, səcdə edənlərdən ol və (ona) qulluq et" əmr edilmişdir.

Göstərmək lazımdır ki, ilkin olaraq Şərq mədəniyyəti Avropaya məhz ərəb tacirləri vasitəsilə yayılmağa başlamışdır ki, bu da xilafətin 710-cu ilindən başlayaraq İspaniya və Siciliyaya daxil olub və orada tədrici olaraq müsəlmanlığın yayıldığı dövrə təsadüf edir. X əsrə qədər Qərbi Avropa ölkələri ilə o qədər də böyük olmayan ticarət əlaqələri mövcud idisə,lakin bu dövrdə Fatimilərin hakimiyyət başına gələrək 969-cu ildə Misiri ələ keçirmələri ilə onun həcmi, xüsusən İtaliya ilə ticarət əlaqələri xeyli genişləndi. Orta əsrlərdə Qərbi Avropa ilə müsəlman dünyası arasındakı ticarət əlaqələrində əsas yeri (bəzi tədqiqatçılar XIX-XX əsrlərdəki müstəmləkə ticarəti ilə eyniləşdirərək göstərirlər ki, fərq yalnız

downloaded from KitabYurdu.az

ondan ibarət idi ki, Avropa müstəmləkələrin yerini əvəz edirdi) Avropa tuturdu. Avropanın idxalında müsəlman dünyasından gələn istehlak şeyləri, ixracında isə xammal və qullar üstünlük təşkil edirdi.

Xilafətin Əməvilər dövründən başlamış Abbasilər dövrü ilə birlikdə özünəməxsus maliyyə-kredit sistemi fəaliyyət göstərmişdir. Bu sistem hər şeydən əvvəl müsəlman hüquq konsepsiyasının, eləcə də şəriətin maliyyə-kredit sistemində mövcud olan fikirlə əlaqədardır. Aydın olduğu kimi, ilkin islamın meydana gəldiyi məkanın özü və aparılan əsas təsərrüfat fəaliyyəti olan ticarət istər-istəməz külli miqdar mala və ya pula olan ehtiyacı artırmışdı. Lakin islam dövlət institutu formalaşdıqca maliyyə-kredit sisteminin islam prinsipləri ilə uzlaşması və mövcud həyat tərzinə qovuşması prosesi getmişdir. Birmənalı olaraq faizin alınması və verilməsi Qurani-Kərimdə göstərilən ayələrə uyğun qadağan edilmişdir. "Allah alış-verişi halal, sələm almağı isə haram (qadağan) etmişdir..." (2., 275). "Allah sələmi məhv edər, sədəqələri isə artırar" (2.Əl-Bəqərə surəsi, ayə 2. 276). Lakin islam insan əməyinin tətbiqi ilə əldə olunan mənfəəti halal buyurur. Mənfəət o şəraitdə mənimsənilə bilinər ki, onun əldə olunmasında mübadilə və istehsal prosesi getmişdir. Göstərmək lazımdır ki, ticarətin və istehsalın genişlənməsi islamda bəyənilən mühüm istiqamət olmaqla, eyni zamanda əldə olunan pul kütləsinin yığılıb saxlanılması pislənilən cəhət kimi nəzərdə tutulmuşdur. **Ona görə də islam ölkələrində ticarətin genişlənməsi, onun pul resursları ilə qovuşmasını təkidlə qarşıya qoymuşdur.**

Ticarətin və pul resurslarının birləşməsi, şəriətə əsasən hər iki tərəfin qarşılıqlı razılaşması əsasında "pulun və əməyin" qovuşması baş verə bilər. Burada mübadilə prosesində iştirak edənin ixtisası, səriştəsi, işgüzarlığı əsas götürülərək, pula olan ehtiyac müəyyən edilir. Pul sahibi işgüzar şəxslə razılaşaraq birlikdə fəaliyyət göstərir. Əldə olunan mənfəətin səviyyəsi, əvvəlcədən müəyyənləşmə prinsipi əsas götürülmür. Aparılan ticarət fəaliyyətindən, mübadilə prosesindən asılı olaraq mənfəətin səviyyəsi müəyyən edilir. Ondan sonra isə qarşılıqlı razılaşma müqaviləsinə (sazişinə, siğəsinə) əsasən mənfəətin bölgüsü baş verir. Belə şəraitdə ticarətlə bağlı bütün məsrəflər nəzərə alınaraq, mənfəətin ümumi məbləğindən çıxılır.

downloaded from KitabYurdu.az

Hər şəriatdə iqtisadi aktivlik amili kimi çıxış edən kredit münasibətləri islamda xüsusi diqqət mərkəzində saxlanılır. Bununla əlaqədar Qurani-Kərimdə deyilir: ". . . (Ya Məhəmməd) qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!" (9. 34). Bu o deməkdir ki, qızıl və gümüş, eləcə də valyuta və kağız pulların dəfinə kimi saxlanılması günah olmaqla yanaşı, eyni zamanda onun sahibi bir sıra vacib görünən fəaliyyətini məhdudlaşdırmalı olacaqdır. Əvvəla, o, mübadilə prosesindən pul resurslarını çıxartmaqla, məcmu tələbi məhdudlaşdıracaq. İkincisi, məcmu təklifin artımı prosesinin qarşısını alacaq. Üçüncüsü, pulun xərclənməsi ilə əlavə gəliri əldə etmək mümkünlüyü olduğu halda və ondan müəyyən qədər ehtiyacı olanların mənafeyinə uyğun istifadə oluna biləcəyi halda, ondan heç nə əldə olunmur. Dördüncüsü, pul sahibi həmin vəsaitini mal ibadətinin, xüsusən zəkat, xüms verilməsinə cəlb etmir. Beləliklə, fərdi fəaliyyətlə bağlı yığım prosesi ictimai rifahı nəinki yaxşılaşdırır, əksinə onu tədricən məhdudlaşdırır. **İqtisadi fəaliyyətə cəlb olunmayan pul resurslarının məbləği artdıqca cəmiyyətdə** həmişə yoxsullaşma prosesi dərinləşir və xroniki hal alır.

Göstərmək lazımdırk ki, orta əsrlərdən başlayaraq müasir dövrə qədər müsəlman ölkələrində demək olar ki, pul-kredit münasibətləri şəriətin hökmünə əsasən uzun müddət dəyişilməz qalmışdır.

Lakin dünya kapitalist iqtisadiyyatının meydana gəlməsi, sivil bazar sisteminin formalaşması, beynəlxalq bazarın təşəkkülü islam pul-kredit sisteminin hərəkətə gəlməsinə səbəb oldu. Yəni müsəlman Şərqində neft-dollar mənbələrinin artması pul-kredit münasibətlərinin dinamik xarakter daşımasına təsir göstərdi. Eyni zamanda bir sıra müsəlman ölkələrində, xüsusən Misirdə, Pakistanda, Türkiyədə kapitalist iqtisadiyyatına olan meylin güclənməsi borc kapitalına olan ehtiyacın artmasına gətirib çıxardı. Lakin faizin əldə olunmasına görə qadağaların hökm sürməsi istər-istəməz ona yeni yanaşma yollarının axtarılmasına səbəb oldu.

Nəticədə bir qisim müsəlman ilahiyyatçı alimləri faizin haram olmasına yeni baxışla yanaşmağa cəhd göstərməklə, onu modernləşdirmək istəyirdilər. Digərləri isə şəriətin müəyyən etdiyi qaydalar əsasında bank

downloaded from KitabYurdu.az

sisteminin yaradılmasına cəhd göstərirdilər. İkinci istiqamət artıq öz bəhrəsini İslam İnkişaf Bankı timsalında vermişdir.

İslam bank sistemi birmənalı olaraq bu və ya digər layihənin həyata keçirilməsi üçün faizsiz kreditləşməni həyata keçirir. Bununla yanaşı, xarici ticarət əməliyyatlarını maliyyələşdirməklə əldə olunan mənfəətdə iştirak edir. İstər faizsiz kreditləşmənin aparılmasında, istərsə də mənfəətdə iştirakda əldə olunan pay əməliyyatların sonunda müəyyənləşdirilir. Bir qayda olaraq banklar daha çox ticarətlə bağlı idxal-ixrac əməliyyatlarını maliyyələşdirirlər. Burada onların əməliyyatda iştirak etməklə əldə olunan mənfəətin payı faiz kimi deyil, ticarət mənfəəti kimi görünür. İslam bankının klassik bank sistemindən fərqi onun mənfəətdən əldə etdiyi payın aparmış olduğu əməliyyatların sonunda müəyyən etməsi ilə əlaqədardır. Beləliklə  də, o, əvvəlcədən müəyyən edilən faizdən, ribadan, sələmdən tam uzaqlaşa bilir.

## § 4. İSLAMDA VERGİ SİSTEMİ

İslam dünyasında iqtisadiyyatın tənzimlənməsinin xüsusi üsullarından biri vergi sisteminin tətbiqidir.

İslamda vergi sisteminin formalaşması prosesi Qurani-Kərimdə göstərilən ayələr və Məhəmməd Peyğəmbərin (s.ə.s.) əmrləri əsasında getmişdir. İslam dünyasında vergi sisteminin uzun tarixi yol keçməsinə, müxtəlif ictimai-iqtisadi, təbii-iqlim şəraitinin mövcud olmasına baxmayaraq, o, əsas prinsipini, funksiyasını və mexanizmini qoruyub saxlaya bilmişdir. Lakin islam vergi sisteminin uzun tarixi yol keçməsinə baxmayaraq, ayrı-ayrı dövrlərdə onun mexanizmi pozulmuş, ayrı-ayrı hökmdarların göstərişi ilə onun mahiyyətində ciddi dəyişikliklər baş vermişdir. Çox hallarda xalq gücü çatmadığından, artıq yükləndiyindən, onlar Allah qarşısında bədənlə olan ibadətlə yanaşı, mal ilə ibadət edə bilməmişlər. Bu bir tərəfdən müsəlman dünyasında təriqət və məzhəbçiliyin dərinləşməsinə, müsəlmanlar arasında qarşıdurmalara səbəb olmuşdur, digər tərəfdən islam əqidəli dövlətlərin idarəetmə

downloaded from KitabYurdu.az

sistemini pozmuş, yoxsul əhalinin vəziyyəti nəzarətdən tamamilə kənarda qalmış və ölkələrin iqtisadi təhlükəsizliyi başlı-başına buraxılmışdır.

Halbuki, **islamın ilkin dövlət quruculuğunda tətbiq olunan verginin formaları və məbləği demək olar ki, ölkənin iqtisadi təhlükəsizliyinin qorunması ilə əlaqədardır**.

İslam dünyasında tətbiq olunan vergi formalarının sayında fərq olsa da, lakin onların bir ümumi hüquqi bazası və işlək mexanizmi mövcuddur. Bu da Şəriətdir ki, onun əsasında verginin tətbiq olunma üsulları, vergiyə cəlb olunan əhalinin qrup və təsnifatı, alınacaq verginin məbləği, miqyası və müddəti müəyyən edilir.

Şəriət vergiyə cəlb olunmanın aşağıdakı formalarını müəyyən etmişdir:

1. **Xüms** - əldə olunan qənimət və ya qazancın, eləcə də ona bərabər tutulan illik gəlirin beşdə bir hissəsi.
2. **Zəkat** - həddi və vaxtı müəyyən olunmuş malın qırxdan bir və ya 2,5 hissəsi.
3. **Fitrə** - orucluğun başa çatması ilə ehtiyacını ödəyənlərin hər birinə 3 kq buğdaya, xurmaya, qarğıdalıya və s. bərabər tutulan məbləğ.
4. **Cizyə** - müsəlman dövlətlərində yaşayan qeyri-müsəlmanlardan alınan can vergisi.
5. **Xərac və üşr** - torpaq vergisi, müəyyən edilmiş hədd əsasında məhsulun onda bir hissəsi.

Verginin göstərilən formalarına diqqət yetirdikdə, aydın olur ki, onun əsas məqsədi müsəlmanların əmək fəaliyyəti, işgüzarlığı ilə bağlıdır və onların işgüzarlığı mal ilə ibadət etməyə sövq edir.

Digər tərəfdən, ölkədə yaşayan digər qeyri-müsəlman əhalini ictimai təhlükəsizliyin qorunması və dövlət idarəçiliyi naminə vergiyə cəlb edir. Həm müsəlman, həm də qeyri-müsəlmanların vergiyə cəlb olunmasını, həm də onların mülkiyyət və əmlaklarından iqtisadi fəaliyyət ilə bağlı əldə etdikləri sərvət və nemətlərdə kasıb və yoxsulların, imkansızların ictimai işləri yerinə yetirilməsinə görə pay ayırmaq üsullarını tətbiq edir. Verginin müxtəlif formalarının mövcud olması çoxnövlü fəaliyyətlə əlaqədar olduğundan, bir tərəfdən bütün əmlak və mülkiyyətin hərəkətə gətirilməsi,

downloaded from KitabYurdu.az

digər tərəfdən isə iqtisadi fəaliyyətin yararlı, faydalı və sərfəli istiqamət alması ilə bağlıdır.

Allah qarşısında bütün insanların əmlak və mülkiyyətindən asılı olmayaraq bərabər mövqedə durmaları onların fəaliyyətləri və əldə olunan gəlir hesabına başqalarının ehtiyaclarını ödəmək naminə pay ayırmaq qabiliyyətləri onları müxtəlifləşdirir. Ona görə də vergi **sisteminin çoxnövlüyü bütün imkanı olanların imkanı olmayanların yerinə öz nemətlərindən könüllü imtina etmək prinsipini əsaslandırır.**

İslam hüquq konsepsiyası çərçivəsində formalaşmış vergi sistemi tarixi inkişafın bütün dövrləri üçün dəyişilməzdir. Müxtəlif fəaliyyət növündən irəli gələn müasir dövrdəki gəlir mənbələri vergi formaları baxımından, eyni tətbiq sferasına daxildir.

Müasir şəraitdə xümsün müəyyən hissəsi, yəni Peyğəmbər (s.ə.s.) və onun yaxın qohum və əqrəbasına çatacaq hissə, əsasən, ali din xadimlərinin sərəncamına keçir ki, bu da ilahiyyat elmlərinin inkişafı, dini işlərlə məşğul olanların əmək haqqı, təhsil alanlara təqaüdün verilməsi xərcləri üçün nəzərdə tutulur. Belə ki, xüms - əmlak və işgüzarlıqdan alınan vergi olaraq, gəlirin beşdə bir hissəsini əhatə edir. O həm pul formasında, həm də natura formasında ola bilər. Xümsə əsasən 7 növ gəlirdən pay ayrılır:

1. Qazanc mənfəətindən, 2. Mədənlərdən, 3. Xəzinələrdən, 4. Halal malın harama qarışığından, 5. Dəniz dibindən çıxarılan daş-qaşdan, 6. Müharibədən əldə edilən qənimətdən, 7. Qeyri-müsəlmanın müsəlmandan satın aldığı torpaqdan.

Miras qalmış əmlakdan, qadınlara verilən məhrdən xüms tutulmur.

Vergi sisteminə cəlb olunma üsulları konkret olaraq adamların şəxsi fəaliyyətləri, etiqadları, sosial vəziyyəti, ailə tərkibi ilə əlaqədar müəyyən edilir. Bir qayda olaraq vergi üsullarının hər hansı birinin tətbiqi adamların imkanları, illik dolanacaq xərcləri ilə əlaqədar müəyyən edilir.

Ümumiyyətlə, islamda vergi sistemi, insanların ən ali davranış qaydaları ilə, özünü dərketmə prinsipi ilə əlaqələndirilir. Yəni hər bir şəxs əldə etdiyi gəlirin artıq qalan hissəsindən beşdə bir düsturu ilə xüms verməlidir.

Xümsün verilməsi qaydaları müəyyənləşdirilərkən, şəriət və əsasən gəlirin artım prosesi nəzərdə tutulur. Əgər hər hansı əmlak miras yolu ilə

downloaded from KitabYurdu.az

kiməsə verilibsə, o haqda qohumluğun dərəcəsi nəzərdə tutulur. Çox uzaq qohumdursa, mirasdan əldə olunan gəlir məxaricdən çoxdursa, o halda xüms verilməlidir.

Qazanc mənfəətindən vergi, əsasən, şəxsin ticarətdən, sənətkarlıqdan və s. fəaliyyətdən əldə etdiyi gəlirdən ailəsinin illik xərcini çıxdıqdan sonra yerdə qalan hissədən beşdə birini əhatə edir. Əgər hər hansı şəxsin xərclərini başqaları ödəyirsə, o halda həmin hissə əldə olunan gəlirdən çıxılaraq xüms hesablanır.

İslam iqtisadi dəyərləri sırasında zəkat anlayışının müstəsna rolu vardır. Zəkat özündə islam həyat tərzinin ən zəruri cəhətlərini birləşdirməklə, iqtisadi fəaliyyətin təşəkkül tapmasının olduqca vacib üsuludur. Zəkat vergisinin mühüm forması olmaqla, təsərrüfat fəaliyyətini tənzimləyən iqtisadi mexanizmidir. Onun başlıca məqsədi təkcə dövlət büdcəsini formalaşdırmaq deyil, həm də məcmu tələbi stimullaşdırmaqdan ibarətdir.

Göstərmək lazımdır ki, 107. Əl-Maun (zəkat) surəsi islamda vacib olan əmr kimi Mədinə illərində nazil olunsa da və orada "4. Vay, halına o namaz qılanların ki, 6. Onlar riyakarlıq edir 7. Və (xalqa) zəkat verməyi qadağan edirlər" ayələri göstərilsə də, lakin zəkat vergisi ilə bağlı hökmlər daha çox hicrət illərinə, yəni Mədinədə vəhy edilmiş Qurani Kərim ayələrində daha çox göstərilmişdir. Buna 2. Əl-Bəqərə surəsinin 110-cu, 5. Əl-Maidə surəsinin 55-ci, 47. Məhəmməd surəsinin 37-38-ci ayələrində zəkat vermək barədə hökmlərini göstərmək olar.

Zəkat verməyin də Allah yolunda borc olaraq verilməsi, namaz qədər vacib və xeyirli bir iş olduğu, mal-dövlətin yalnız il ərzində qırxda bir hissəsinin verilməsi zərurəti göstərilir. Düzdür, zəkatın verilməsi də mal ibadəti kimi iman sahibləri üçün bərabər şəkildə tətbiq edilsə də, lakin burada əsasən imkanlı adamlar, yoxsulluq həddindən qat-qat artıq yaşayan və fəaliyyət göstərənlər cəlb olunur.

Mal-dövlətin hesabı bəlli olduqda, konkret adda məhsullar üzrə zəkat vergisi tətbiq olunur. Lakin zəkat verməyənlər, ondan yayınanlar islamda son dərəcə pislənilən xəsislik əməli kimi qiymətləndirilir. Zəkat sosial-ictimai əhəmiyyəti və dini-mənəvi dəyərlənmə baxımından məcburi xarakter daşıyır.

downloaded from KitabYurdu.az

Zəkat vergisi dənli bitkilərə, giləmeyvə, daş-qaş və ev heyvanlarına tətbiq edilir. Şəriət zəkat vergisinin alınması üçün tətbiq olunan konkret adda məhsul növü müəyyən etmişdir: 1.Buğda. 2. Arpa. 3. Xurma. 4.Üzüm. 5.Qızıl. 6.Gümüş.7. Dəvə. 8.Qaramal. 9.Qoyun-keçi.

İslamda zəkat vergisinə cəlb olunmağın əsas prinsipi şəxsin yetkinlik yaşına çatması (müsəlman olması), ağıllı və azad olması, malın nisab[19] həddinə çatmasıdır. Zəkat vergisi ilə bir dəfə 11 aydan bir qırxda bir prinsipi ilə hesablanır. Lakin ilk dəfə zəkat vergisinə cəlb olunan 12 aydan sonra onu ödəyir.

Buğda, arpa, xurma və üzümün nisabı 847 kq-a bərabər tutulur. Bu həddə çatan və bundan artıq məhsulların zəkatı verilməlidir. Zəkatı verilmiş bu məhsullar bir neçə il saxlanılsa, onlar vergiyə cəlb olunmur. İslamda nisab həddinə çatan məhsullardan yalnız bir dəfə vergi tutulur.

Əgər qaramal və ya davar, dəvə, qızıl və ya gümüş sahibi olan müsəlman il ərzində ruhi xəstəlik keçirirsə, ondan zəkat vergisi tələb olunmur. Lakin əgər ilin axırında o, sağalarsa, vergi verməlidir. Əgər belə müsəlmanın xəstəliyi bir ildən artıq sürürsə və onun nə vaxt sağalacağı məlum deyildirsə, qazılar ağlını itirmiş adama nəzarət üçün yox, əsasən onun varidatından vergi ödənilməsinə nəzarət üçün qəyyum etməyə çalışırlar.

Başqasının əlindən qəsb edilmiş, yəni zorakılıqla alınmış əmlak üçün zəkat vergisi təyin edilmir. Əgər borc alınmış qızıldan və ya gümüşdən dəyərinə görə zəkat alınmalıdırsa və bunlar il ərzində əvvəlki sahibinə qaytarılmışdırsa, borc alan həmin varidat üçün zəkat verməlidir. Həmin qızılı və ya gümüşü borc verən adam isə bu halda zəkat vermir.

Taxıldan və giləmeyvədən zəkat tutulması zamanı şəriət vergiyığanları xüsusi çəki ölçülərindən istifadə edirlər. Əgər zəkat vergisi ödənən dövrdə əmlak sahibi vəfat edirsə, vergi onun əmlakından tutulur. Əgər o, vergi toplanan vaxtdan tez ölmüşdürsə, zəkatı ölənin varisləri hərəsi öz payından ödəyir. Qazılar xüsusi vergi yığanlar təyin edirlər. Onlara əvvəlki məhsulun əvəzinə başqa məhsulla zəkat almaq ixtiyarı verilir. Əgər vergi ödənməzsə, qazılar ticarət sazişini ləğv edə bilərlər.

---

[19] Nisab-miqdar, kəmiyyət, həcm, say deməkdir.

downloaded from KitabYurdu.az

Dənli bitkilərdən, üzüm və xurmadan zəkat vergisi (bu məhsulların qurudulmuşundan, həm də bir dəfə) həmin məhsulların neçə il saxlanılmasından asılı olmayaraq tutulur. Əgər bu məhsulların saxlanması üçün onların nəmliyini süni surətdə artırmaq lazım gəlirsə, vergi tutularkən nəmişlik üçün güzəşt edilir. Yəni məhsul quruyandan sonra onun nisab həddi aşağı düşdüyündən, ona zəkat vacib deyil.

İslam zəkat yığılmasının ən xırda təfərrüatını nəzərə alır. Bu, xüsusən torpaq sahələrinin süni və ya təbii yolla suvarılması zamanı nəzərdə tutulur. Əgər məhsul yağış və rütubət ilə yetişirsə, zəkat məhsulun onda biri qədərdir. Əgər süni yolla, su motoru və s. torpaq sulanıb məhsul əldə olunubsa, zəkat məhsulun iyirmidə biri qədərdir.

Əgər məhsul torpağın bir hissəsindən təbii yolla, digər hissəsindən süni yolla, yəni suvarma yolu ilə əldə edilirsə, birinci hissədən zəkat onda bir, ikinci hissədən isə iyirmidə bir prinsipi ilə tutulur.

Burada həm torpağın iqtisadi münbitliyi, həm də məhsuldarlığı nəzərdə tutulur. Digər tərəfdən müəyyən bir sahənin süni yolla suvarılması zamanı onun yanında olan sahədə həmin yerin rütubətindən qidalanırsa, onda onların zəkatı müxtəlif olacaqdır. Süni yolla suvarılan sahə üçün iyirmidə bir, yanındakı sahə üçün isə onda birdir.

Müasir mərhələdə kənd təsərrüfatında maşın və texnikadan istifadə olunması, kompleksli irriqrasiya işlərinin aparılması, eləcə də muzdlu əməkdən istifadə olunduğuna görə zəkat iyirmidə bir prinsipi ilə hesablanılır.

Zəkatın yığılması, istifadə olunması və sərf olunması da istər mərkəzləşmiş formada olsun, istərsə də fərdi formada olsun şəriət onun konkret istiqamətini müəyyən edir. Zəkat əsasən 8 istiqamətdə verilir.

Bu istiqamətlərin şəriətdə əsaslanması Qurani Kərimdə 9. Ət-Tövbə surəsinin 60-cı ayəsi ilə bağlıdır. Orada göstərilir ki, "Sədəqələr (zəkatlar)" Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq ancaq yoxsullara, miskinlərə zəkatı yığıb-paylayanlar, ürəkləri (müsəlmanlığa) isinilib bağlanmaqda olanlara (iman gətirib hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə, həmçinin (borcu ödəməyə imkanı olmayan), borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən, müsafirlərə)

downloaded from KitabYurdu.az

məxsusdur. Allah hər şeyi biləndir və hikmət sahibidir". Bu ayə ilə bağlı şəriətdə istiqamətlər konkretləşdirilir:

1. Özünün və ailəsinin xərcini təmin edə bilməyən fağıra;
2. Din üzrə fağırdan da vəziyyəti pis olan miskinə;
3. Zəkatın yığılıb saxlanılmasında və paylanmasında vəzifəsi olan şəxsə və ya məmura;
4. Zəkat verilərsə, imanları güclənən imanlı müsəlmanlara:
5. Öz borcunu ödəyə bilməyən borclulara;
6. İslam və müsəlmanların xeyrinə olan ictimai işlərin görülməsinə;
7. Qulların alınıb azad olunmasına (hazırda bu zəkata nəzarətlə əvəz olunub);
8. Öz məmləkətində zəngin olan, lakin yolda və ya səfərdə pulu qurtarıb yolda qalan şəxslərə;

Zəkatın fəqir və miskinlərə verilməsi o halda əsas götürülür ki, onunla ailələrin illik xərcləri ödənmiş olur. Əgər onların müəyyən miqdarda pul və yaxud malları varsa, bu halda zəkat məbləği kimi xərclərinin çatmayan hissəsi qədər götürülür. Burada əsasən ilik zəruri ehtiyacın ödənilməsi səviyyəsi nəzərdə tutulur.

İslamda zəkat o şəraitdə fağırlar üçün halal hesab olunur ki, o halda onların müəyyən peşəsi, sənəti olmasın və ya onun vasitəsi ilə ehtiyacını ödəyə bilməsin. Ona görə də daha qazanclı peşənin, sənətin öyrənilməsi fağır üçün zəruridir. Çünki öyrənməyə imkanı və yaxud şəraiti olduqda, ona əməl etməyib, güzəranını yalnız zəkatla yaxşılaşdıran hər hansı bir fağırın davranışı İslamda xoşagəlməyən hal kimi qiymətləndirilir.

Hazırda müsəlman ölkələrində zəkatın 1/8 hissəsi prinsipi ilə bərabər xərclənməsi nəzərdə tutulur. Yəni nəzərdə tutulan 8 istiqamət üçün ümumi zəkat fondu bərabər bölünür. Bölgünün 1/8 prinsipi (yəni 12,5 faiz) bu əsasdan hesablanır. Ona görə ayrı-ayrı dövrlərdə iqtisadi aktivlik səviyyəsindən asılı olaraq zəkatın paylandığı istiqamətlər üzrə dəyişiklik baş verə bilər. Ola bilər ki, yoxsul və ya miskinlərin sayının azalması ilə onların əldə etdiyi zəkatın payı yüksəlsin və onların vəziyyəti yaxşılaşsın. Yaxud borclu olanlara zəkatın verilməsi tələbi yüksəltməklə, onlar üçün sığorta rolunu oynasın. Borclunun xəstəliyi, işsizliyi və s. amillər nəticəsində onun ən zəruri ehtiyaclarının ödənilməsi həm tələb sferasına

downloaded from KitabYurdu.az

daxil olan məhsulların həcmini azaltmır, həm də qiymət sabitliyinə səbəb olur.

Borcluya zəkatın verilməsi həm onun iş qabiliyyətinin qorunmasına, həm yoxsul düşməsinə, həm də borcunun qaytarılmasına görə əməli fəaliyyət göstərməsinə səbəb olur.

İslamda zəkatın vergi növü kimi ən böyük üstünlüyü onun tələbli stimullaşdırılması ilə bağlıdır. Çünki verginin dəyişilməz həddi və aşağı olması istehsala maşın və texnikanın cəlb olunmasına və əlavə işçilərin işlə təmin olunmasına imkan yaradır. İnvestisiya prosesinin sürətlənməsi və məşğulluq səviyyəsinin yüksəlməsi ilə gəlirlərin məbləği də artır ki, bu da nəticə etibarilə məcmu tələbin və məcmu təklifin miqyasını genişləndirir. Hazırda zəkat kapitala və ya istehsalın həcminə də tətbiq edilir. İstehsal xərcləri ilə mənfəət səviyyəsi arasındakı fərqin qırxda bir prinsipi ilə vergiyə cəlb olunması zəkatın mahiyyəti kimi özünü göstərir. Deməli, zəkat - Allahın əmri ilə imkanlı adamların mal-dövlətlərinin müəyən miqdarının il ərzində ehtiyacı olan fağırlara, kasıblara verilən hissəsidir. Bu dəyişilməz, əbədi bir İlahi hökmdür.

Zəkatın bir qolu da fitrə zəkatıdır. Fitr bayramı ilə, yəni orucluq - Ramazan ayının son gününün başa çatması ilə əlaqədar verilir. Öz ehtiyacını ödəyən hər bir kəsin, onun çörək yeyən ailə üzvlərinin hər nəfərinə görə 3 kq həcmində ya buğdadan, ya arpadan, ya xurmadan, ya kişmişdən, ya düyüdən, ya qarğıdalıdan və b. bu kimi şeylərdən verilən və ya ona börabər tutulan pul vəsaitinin verilməsi nəzərdə tutulur. Zəkatla fitrə zəkatının mahiyyəti aydın olsa da, yəni imkanlı şəxslərin mallarından yoxsullara, ehtiyacı olanlara pay olsa da, ildə bir dəfə ödənilsə də. Lakin aralarında fərq mövcuddur. Zəkat rəsmi şəkildə mövcuddur və nisab həddi ilə müxtəlif dərəcədə ödənilir. Lakin fitrə zəkatının isə nisab həddi yoxdur. Orada ən zəruri ərzaq və ya qida məhsullarının 3 kq həcmi ilə ödənilməsi nəzərdə tutulmaqla qeyri-rəsmi xarakter daşıyır. Digər tərəfdən, zəkat əgər malın həcminə görə verilirsə, lakin fitrə zəkatı ailə üzvlərinin sayına görə verilir. Zəkat növü bəlli olan məhsullardan, ilin müxtəlif vaxtlarında verilirsə, lakin fitrə zəkatı Orucluq ayının sonuncu gününün səhərisi verilir.

downloaded from KitabYurdu.az

Ehtiyacı olanların, ailəsinin qazancını təmin edə bilməyən şəxslərə fitrə zəkatı vermək vacib deyil.

Hər kəs fitrə bayramı gecəsində onun çörək yeyənləri hesab olunan şəxslər üçün fitrə zəkatı verilməlidir. Adamların kiçik və ya böyük olmaları, müsəlman və ya qeyri-müsəlman olmaları vacib deyil. Fitrə bayramı gecəsi evə daxil olan istər qonaq, istərsə də qeyri-bir şəxs olsun, əgər onun çörək yeyəni hesab olunsa, onun fitrəsi ev sahibinin öhdəsinə düşür.

Fitrə zəkatının da, mal zəkatının verildiyi 8 istiqamətdən birinə, xüsusən fağırlara verilməsi daha zəruri hesab edilir. Hətta şəxs zəkat fitrəsini verəndə, qohum fağırları birinci nəzərə alsa daha yaxşı olar. Sonra qonşulara və fağır elm sahiblərinə çatdırılması şəriətdə xüsusi qeyd olunur.

Bayram günü günortaya qədər nəzərdə tutulan malın yaxşısından fitr zəkatı verilməsi vacibdir.

Göründüyü kimi, istər zəkatın yığımı, istərsə də bölgüsü son dərəcə sadə mexanizmə əsaslandığına görə nə ondan yayınmaq, nə də kənarda qalmaq mümkündür. Zəkatın vergi kimi aşağı həddi sosial ehtiyacların ödənilməsinin maddi mənbəyinin olması hər sağlam düşüncəli adamın ona qarşı ciddi münasibət bəsləməyi zəruriləşdirir.

Əgər ailənin illik xərci üçün haram, həm də halal yolla qazanc əldə edilirsə, bir qayda olaraq fitrə zəkatı halal, qanuni yolla edilən qazancdan verilməlidir. Əgər birisi müəyyən iş və ya xidmət görmək üçün muzdla işçi tutursa, həmin adam onun çörək yeyəni hesab olunursa, onda sahib, işçinin əvəzinə fitrə ödəməlidirlər. Fitrənin ödənilməsi ehtiyacı ödənilmiş müsəlmanların fağırlar qarşısındakı ali mənəvi borcu kimi onların faydalı fəaliyyət göstərmələrini tələb edir.

Xüms, zəkat və zəkat əl-fitrə islamın vergi sistemində mühüm yer tutmaqla yanaşı, bunlardan əlavə verginin xərac (torpaq vergisi), uşr (onda bir), cizyə (can vergisi) kimi digər formaları və növləri də vardır ki, bunlar həm torpağından istifadənin səmərəliliyinin, həm də müsəlman dövlətlərinin himayəsində yaşayan qeyri-müsəlmanların da iqtisadi aktivliyinin yüksəldilməsi ilə bağlıdır.

İslamın hüquqi mənbələrində xərac vergisi olduğu qeyd olunur. Bunun da əsas məqsədi dövlətin iqtisadi potensialından istifadə olunması

downloaded from KitabYurdu.az

ilə əlaqədardır. Aydın olduğu kimi, torpaqların təbii və iqtisadi məhsuldarlığı və onların münbitliyi müxtəlif olduğundan, eyni zamanda ən pis və yararsız torpaqlardan istifadə olunması üçün xərac tətbiq olunub.

Tarixi inkişafın müxtəlif dövrlərində xərac vergisinin toplanmasında ciddi pozuntular, əyintilər və ziddiyyətlər olmuşdur ki, bu da müsəlman müəlliflərinin əsərlərində öz əksini tapmışdır.

Eyni xüsusiyyətlər üşr (onda bir, natural onda bir vergi) vergisinə də aiddir.

Müsəlman ölkələrində yaşayan qeyri-müsəlmanlar zəkat vermədiklərinə görə cizyə vergisinə cəlb olunurlar. Burada bir vacib cəhəti nəzərə almaq lazımdır ki, tətbiq olunan cizyə vergisinin səviyyəsi, ödənilməsi mümkün olan dərəcədə alınmaqla, eyni zamanda qeyri-müsəlmanların islama daxil olmaları üçün geniş imkanlar verirdi. Digər tərəfdən, Qurani-Kərimdə və Peyğəmbər (s.ə.s.) sünnəsində yəhudilərə, xristianlara, "müqəddəs kitab əhli" kimi birgə yaşayışa şərait və imkan yaradılmışdır. Şəriətə görə, Allahın vahidliyini qəbul edən Tövrat və İncilə əsaslanan qeyri-müsəlmanlar kafir deyil və hər zaman onlar islama tez gələ bilərlər. Ona görə də müsəlman dövlətinin təbəəsinə çevrilən və onun himayəsində yaşayan "müqəddəs kitab əhli" sayılan qeyri-müsəlmanlar ölkə vətəndaşı kimi tətbiq olunan şəriət qanunları qarşısında bərabər hüquqa malikdir.

Məhz cizyə tətbiqi müsəlman və qeyri müsəlmanlar arasındakı fərqi silmiş və kütləvi şəkildə yəhudi və xristianların müsəlmanlığı qəbul etməsinə səbəb olmuşdur. Düzdür, bu, iqtisadi bir vasitə rolunu oynaya bilər. Çünki "həqiqi" "müqəddəs kitab əhli" olanlar islamın dini-mənəvi dəyərlərinin əhəmiyyətini cahiliyyətdə yaşayanlara, köçəri həyat tərzi keçirən ərəblərə nisbətən daha tez görə bilərdilər. Müasir şəraitdə demək olar ki, bu vergi müsəlman ölkələrində ümumi dövlət vergiləri ilə əvəz edilmişdir.

İslam vergi sisteminin mahiyyətindən danımaq heç də müasir şəraitdə müsəlman ölkələrində bu vergi formalarının birmənalı tətbiq olunmasını əks etdirmir.

Zəkatla əlaqədar göstərməliyik ki, o vergiqoymanın dünyada analoqu olmayan ən mütərəqqi formasıdır.

downloaded from KitabYurdu.az

Birincisi, onun həddinin son dərəcə aşağı olması, xalis gəlirin qırxda birinə bərabər olması ilə məcmu tələbi stimullaşdırır.

İkincisi, zəkat yalnız xalis gəlirdən ödənildiyinə görə adamlar öz fərdi fəaliyyətlərində düzlüyə və təmizliyə riayət edirlər.

Üçüncüsü, zəkatın səviyyəsi daha mənfəətli sahələrə olan axını sərbəstləşdirir.

Dördüncüsü, hər bir sahibkar öz fəaliyyətinin nəticəsinə görə vergiyə cəlb olunacağından daha mənfəətli, ziyansız layihələr əsasında çalışmaq meylini gücləndirir.

Beşincisi, iqtisadi fəaliyyət dairəsində istehsal xərcləri üzərində nəzarət etməklə daha çevik idarəetmə şəraiti yaradır.

Altıncısı, sahibkarları və biznesmenləri risk etmək təhlükəsindən qoruyaraq, onlarda təşəbbüskarlıq, yenilikçilik üçün geniş meydan açır.

## FƏSIL 4. AZƏRBAYCANDA İQTİSADİ FİKRİN TƏŞƏKKÜLÜ VƏ FORMALAŞMASI

downloaded from KitabYurdu.az

Bəşər tarixində xalqların iqtisadi həyatında ideya və fikirlərin təkamülü, ümumdünya fikir tarixində onların mövqeyi və rolu böyük inkişaf yolu kecmişdir.

Azərbaycan və digər türk xalqlarının qədim və orta əsrlər dövrü xüsusən də IX-XIV əsrlər dövrü iqtisadi ideya və fikirlərlə zəngin olmuşdur. Bu fikri Azərbaycan xalqının böyük mütəfəkkir alimi Nəsirəddin Tusinin hələ XIII əsrdə yazmış olduğu bəlkə də öz dövrünə görə ilk iqtisadi əsər olan "Maliyyə haqqında" traktatı təsdiq edir. Bununla yanaşı böyük mütəfəkkir Azərbaycan alimi N.Tusinin ən böyük xidməti iqtisadiyyatı öyrənən elmin mövzusu (predmeti), yeri, cəmiyyətin tərəqqisində rolu haqqındakı yürütdüyü nəzəri fikirlər sübut edir. O bunu nəzərdə tutaraq yazırdı: "Bu elm (ictimaiyyət) hamının xeyrinə olan birgə əməyin həqiqi və ümumi inkişafı haqqında nəzəriyyədir. Bu elmin obyekti (mövzusu) ictimai əməklə birləşən və beləliklə, istehsalı ən kamil təşkil edən insanlar münasibəti sistemidir... Deməli, hamı bu elmi öyrənməyə səy etməlidir ki, fəzilət sahibi olmağı bacarsın; əks halda rəftar və davranışında səhvlərə yol verər".[20]

Hər bir xalqın həyatında iqtisadi fikrin yetkinliyi onun ümumdünya iqtisadi fikir və ideyaları ilə müqayisədə aşkar olunur. Azərbaycan xalqının və cəmiyyətinin tarixi keçmişi də bizə əsas verir ki, onun görkəmli alim və mütəfəkkirlərinin iqtisadi ideya və fikirləri eləcə də xalqın çoxəsrlik təsərrüfat təcrübəsi, əmək vərdişləri, səyləri, çalışqanlığı, əməyə, sərvətə münasibəti öz ifadəsini o dövrün ictimai-iqtisadi münasibətlərində, onları əks etdirən hadisələrdə və proseslərdə, anlayışlarda, qanun və qanunauyğunluqlarda tapır. Bu da xalqın o dövrdə yaratdıqları ədəbiyyat nümunələrində, xalq dastanlarında, şifahi ədəbiyyatda və onun içindən çıxmış böyük mütəfəkkirlərin əsərlərində ifadə olunur.

Bu mövzuda prof. T.Vəliyev və dos. A.Həsənov çox dəyərli "Azərbaycan iqtisadi fikir tarixi" (I kitab - 1996-cı ildə) dərc elətdirmişlər.

"Azərbaycanda iqtisadi fikrin təşəkkülü və formalaşması"na həsr olunan bu mövzu ilk növbədə qədim dövrlərdə Azərbaycanın iqtisadi

---

[20] Bax: T.Vəliyev, A.Həsənov Azərbaycan iqtisadi fikir tarixi, Bakı, 1996, səh.104-113.

downloaded from KitabYurdu.az

həyatı, onun təsərrüfat və iqtisadi münasibətləri haqqında fikir və ideyaları açıqlamaqla yanaşı, Azərbaycanda baş vermiş sosial hərəkatlarının, (məzdəkilər və xürrəmilər) nəticələrini göstərmək və orta əsrlərin iqtisadi fikirlərini, xüsusən də XI əsrdə Nizami Gəncəvinin və XIII əsrdə Nəsirəddin Tusinin əsərlərində iqtisadi baxışların və bunların Azərbaycan iqtisadi fikir tarixində yeri və rolu işıqlandırılmaqdan, qədim dövrlərdə, orta əsrlərdə və XIX əsrin birinci yarısında Azərbaycan xalqının həyatında mövcud olan iqtisadi hadisələri yığcam və konkret formada, ilk növbədə Azərbaycan oxucusuna, xüsusən də gənclərə çatdırmaq və həmin tarixi dövrdə formalaşan və təkamul edən iqtisadi ideya və fikirlərlə tanış etməkdən ibarətdir.

## §1. QƏDİM AZƏRBAYCANIN İQTİSADİ HƏYATI, TƏSƏRRÜFAT VƏ İQTİSADİYYATI HAQQINDA TƏSƏVVÜRLƏR

Hər bir xalqın mövcudluğunu, inkişafını, mənəviyyatını, mədəniyyətini səciyyələndirən amillərdən biri həmin xalqa məxsus olan iqtisadi fikir və ideyalardır. Xalqın iqtisadi fikri onun yaşadığı dövrün sosial-iqtisadi şəraitinin ifadəsidir. Azərbaycan xalqının həyat tərzi, rastlaşdığı problem və çətinliklər onun inkişafının nailiyyətlərini əks etdirir. Bu mənada iqtisadi gerçəklik necədirsə xalqın iqtisadi fikiri də o cür formalaşmalıdır.

Azərbaycan xalqının iqtisadi fikirləri haqqında bizə gəlib çatan ən qədim yazılı abidələrdən biri "Avesta"dır. Zərdüştiliyin (zoroastrizmin) qanunlar toplusu olan "Avesta" bizim eradan əvvəl X-VII əsrlərdə meydana gəlmişdir. Onu qeyd edək ki, Zərdüştilik üç prinsipdə ifadə olunur: birincisi, xeyirxah fikirdir; ikincisi xeyirxah söz; üçüncüsü də xeyirxah əməl.[21]

Bəşər həyatının Məzdə qanunları əsasında qurulması cəmiyyətdə xeyirxahlıq və ədalət qanunları əsasında qurulması deməkdir.

---

[21] Bax: Azərbaycan iqtisadiyyatı, Bakı, 1998, səh.31.

downloaded from KitabYurdu.az

Azərbaycanda ilk sosial hərəkatlar olan Manihəçilik (III əsr), Məzdəkizm (V-VI əsrlər) və Xürrəmilər (VIII-X əsrlər) hərəkatlarının iqtisadi məzmunu hamı üçün mülkiyyət hüququ yaratmaq ideyası təşkil edir.

İslam dininin yaranması (VII əsr), onun qəbul olunması bütün şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının sosial-iqtisadi fikrinə öz dərin tə'sirini göstərmişdir.

Müsəlmanların müqəddəs kitabı olan "Qurani-Kərim" sonrakı iqtisadi fikirlərin, mütəfəkkirlərin iqtisadi baxışlarının əsas ideya mənbəyi kimi cıxış etmişdir. Torpaq üzərində mülkiyyət, ticarətə münasibət, əmək və əmlaka münasibət, vergilər, onların mahiyyəti və əhəmiyyəti və digər iqtisadi məsələlər islam ideyaları əsasında və ya ona uyğun şəkildə şərh olunmuşdur.

Azərbaycan xalqı dünya xalqları içərisində ensiklopedik məzmunlu qədim yazılı abidələri olan xalqlardan biridir. Bu baxımdan "Dədə-Qorqud" qəhrəmanlıq dastanı və oradakı iqtisadi ideyalar diqqəti cəlb edir. X əsrdə qələmə alınmış bu dastan III-VII əsrlərin real hadisələrini, böyük bir dövrün ictimai həyatını, təsərrüfat ukladını öyrənmək baxımından əvəzsiz mənbədir.

"Dədə-Qorqud" dastanının məlumatları təsdiq edir ki, Azərbaycan oğuzlarının həyatında natural mübadilə ilə bərabər pul artıq müəyyən rol oynayır. Tədavül və yığım vasitəsi kimi istifadə olunur. Mə'lumdur ki, elmi baxımdan iqtisadiyyat, iqtisadi münasibətlər ilk növbədə bir-biri ilə qarşılıqlı və üzvi əlaqədə olan istehsal, bölgü, mübadilə, istehlak proseslərinin məcmusudur. Bunların hamısı isə bilavasitə mülkiyyət münasibətləri, mülkiyyət formaları ilə bağlıdır, üzvi qovuşmaqdadırlar.

Onu da qeyd edək ki, "Kitabi-Dədə-Qorqud" dastanlarındakı ayrı-ayrı anlayışlardan, ifadələrdən, məs., xan, bəy, nökər məfhumlarından, bəylərin çoxlu mal-dövlətə, köç sahələrinə malik olması haqqında söz birləşmələrindən məhsul (natural) rentasının mövcudluğundan xəbər verən fikirlərdən məntiqi nəticə çıxarmaq olar ki, bəhs olunan dövrdə feodal səciyyəli sosial-iqtisadi quruluş və feodal mülkiyyəti hakim mövqedə olub. Tarixi məlumatlara görə həmin vaxt torpaq üzərində xan, bəy, iqta, mülk, vəqf, icma torpaq mülkiyyət formaları bərqərar imiş.

downloaded from KitabYurdu.az

"Müsəlman", "məscid", "namaz", "tanrı". "nəzir", "dua", və s. islamiyyətlə bağlı anlayışlardan nəticə çıxarmaq olar ki, bəzi mülkiyyət formaları islamiyyətdən sonra meydana gəlib və fəaliyyət göstərməyə başlayıb.[22]

Feodal səciyyəli mülkiyyət formaları ilə bərabər, şəxsi mülkiyyət, erkən çağlarda icma-qəbilə ukladlarının da mövcud olması yəqinliyi hasil edilir.

Dastanın oğuz tayfalarının o zamankı məşğuliyyətlərindən mötəbər xəbər verilir. Orada maddi nemətlər istehsalının müxtəlif sahələri, təsərrüfat rəngarəngliyi, onların konkret strukturu, əmək bölgüsü və bunun aparıcı təmsilçisi olan ixtisaslaşma növləri aydın duyulur. Mötəbər məlumatlara görə ilk içtimai əmək bölgüsü tarixən Şərq aləmində baş verib. Bu isə vaxtı ilə cəmiyyətin, xalqların tərəqqisində bir amil olubdur.

Adam Smit özünün "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı məşhur əsərində əmək bölgüsünü cəmiyyətin tarixi tərəqqisində coşqun təkanverici rola, bir katalizator mahiyyətli gücə malik olduğunu dərin elmi əsasla açıqlamışdır. Öz zamanı üçün tarixi tərəqqidə misli-bərabəri olmayan bu amilin əzəli beşiyi məhz Asiyada yaşayan tayfalar olmuşdur.

F.Engels "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" əsərində ilk böyük ictimai əmək bölgüsünü orada yaşayan ən qabaqcıl tayfalarda meydana gəldiyini göstərir və bunun üçünün adını çəkir. Onlardan birinin də "Turanlılar" olduğunu göstərir. Məlum olduğu kimi "Turanlılar"ın da ən öncül qollarından biri oğuzlar olub. Dədə-Qorqud dövründə isə bunlarda əmək bölgüsü və onun tərkibi zamana görə cox əhatəli olub. Bu da kənd təsərrüfatı sahəsində (o cümlədən, xüsusilə heyvandarlıqda), habelə sənətkarlıqda öz konkret ifadəsini tapıbdır. Bilavasitə, belə bir rəngarəng əmək bölgüsü ilə bağlı surətdə, o dövrün ictimai quruluşuna müvafiq olaraq kənd təsərrüfatının bəzi sahələri üstünlük təşkil etmişdir. Onların özlərində qoyunçuluğu və atçılığı xüsusi olaraq artırmaq yolu ilə qoyunçuluğu, atçılığı, dəvəçiliyi, quşçuluğu, ovçuluğu təmsil edən neçə-neçə məhsul və məmulatın adı çəkilir və bu sahələrə xüsusi diqqət verildiyi ifadə olunur. Çox təəssüflər olsun ki, o məhsulların bəzilərinin istehsalı artıq aradan çıxıbdır. Heyvandarlıqdan alınan məhsullar içərisində ən çox

[22] Bax: M.X.Meybullayev, "İslam iqtisadiyyatı", Bakı, 2001

downloaded from KitabYurdu.az

adı çəkilən ət, qaxac, süd, qımız, pendir, qaymaq, qatıq, ayran və b. içkilər, yoğurt, yun, keçi qılı, quş tükü, dəri və s. idi.

Onu da qeyd edək ki, ictimai əmək bölgüsü obyektiv qanununa əsasən tacir həmişə ticarətlə, yəni alqı-satqı prosesi ilə məşğul olan peşə sahibinə deyilir. Dastanlarda tacirlikdən, ticarətdən, habelə onların xüsusi geyimləri barədə xəbərlər bəyan edilir. Yaxın Şərqin çox məşhur şəhərlərindən biri olan Bərdədən keçən ticarət və karvan yolları vaxtı ilə Dərbəndi, Tiflisi, Ərdəbili, şimal, cənub və şərq ölkələri ilə birləşdirdi. Gəncə, Beyləqan, Bakı, Təbriz, Marağa kimi şəhərlər ticarət və sahibkarlıq mərkəzləri sayılırdı.

Beləliklə, iqtisadiyyata, təsərrüfat sahələrinə, sənətkarlığa, ticarətə aid yuxarıda verilən şərhlər göstərir ki, "Kitabi-Dədə Qorqud"un formalaşdığı və xüsusilə təşəkkül tapdığı bir şəraitdə maddi nemətlərin təkrar istehsalı ardıcıl olmasa da az-çox genişlənmə prosesi ilə səciyyələnir.

## §2. AZƏRBAYCANDA ORTA ƏSRLƏRİN İQTİSADİ FİKİRLƏRİ VƏ İDEYALARI

Azərbaycan xalqının zəngin tarixi irsini, ictimai-iqtisadi fikrini müasir tələblər baxımından tədqiq və təhlil etmək iqtisad elminin və onun tarixinin başlıca vəzifələrindən biri hesab olunmalıdır. Müstəqil Azərbaycan Respublikasının iqtisadi fikir tarixinin sistemli şəkildə araşdırılması, öyrənilməsi iqtisadi fikrin təşəkkülü və formalaşması baxımından müstəsna əhəmiyyət kəsb edir. Bu min illər boyu torpağına və digər sərvətlərinə sahib olan, əkinçilikdə, heyvandarlıqda, sənətkarlıqda ticarətdə öz məharətini göstərən, əmtəə təsərrüfatının təsiri altında yaşayıb yaradan keçmiş nəsillərimizin indiki dövr üçün də faydası olan iqtisadi həyat tərzinin aşkar edilməsi üçün də çox vacibdir. Bunu nəzərdə tutub Mustafa Kamal Atatürk deyirdi: "Tarixi yazmaq - tarixi yaratmaq qədər mühümdür. Əgər tarixi yazan tarixini yaradana sadiq qalmazsa, dəyişməz həqiqət insanlığı çaşdırmaqdan ibarət olar".[23]

[23] Bax: T.Vəliyev, A.Həsənov. Azərbaycan iqtisadi fikir tarixi, səh.7.

downloaded from KitabYurdu.az

Orta əsrin iqtisadi fikirlərini öyrənərkən, ümumiləşdirmələr aparanda və nəticələr çıxaranda əksər hallarda keçmiş irsimizə müasir dövrün tələbləri ilə baxırıq. Böyük mütəfəkkirlərin fikir dünyasından indiki dövrümüzə nəzər salsaq görərik ki, onların elmi, ictimai-iqtisadi baxışlarının milli, ümumbəşəri dəyərləri ortaya çıxmış olur. Şərqin, o cümlədən Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış böyük filosof və mütəfəkkirlərinin əsərlərində cəmiyyətin iqtisadi quruluşu və onun inkişaf qanunları haqqında irəli sürdükləri dəyərli nəzəri fikirlərlə qarşılaşırıq. Məsələn, böyük Şərqin dünya şöhrətli mütəfəkkirlərindən Əl Fərabi (870-950), İbn Sina (980-1037), Abu Reyhan Biruni (XI əsr), Nizami Gəncəvi (1141-1209), Nəsirəddin Tusi (1201-1274), İbn Xəldun (1334-1406) bütün bəşər mədəniyyətinə böyük elmi töhfələr vermişlər. Bunların iqtisadi fikir sahəsində də böyük xidmətləri olmuşdur.

Orta əsrlərdə bütün İslam Şərqində o cümlədən Azərbaycanda da elmin, mədəniyyətin iqtisadi və mədəni həyatında da bir canlanma başlamışdır. Bu dövrdə iqtisadi fikir və tə'limlər tarixi vüs'ətli təkamül və inkişaf yolu keçmişdir. Lakin elmi mənbələrdən göründüyü kimi "iqtisadi tə'limlər tarixi" adı ilə ali məktəblərdə tədris olunan elmi kursda Şərq iqtisadi fikri üzərindən yan keçilmişdir. Keçmiş SSRİ dövründə mərkəzdə və digər yerlərdə hazırlanan dərsliklərdə, çoxcildli kitablarda və proqramlarda Şərqin və eləcə də Azərbaycanın zəngin iqtisadi fikir tarixinə ya heç yer verilməmiş, ya da çox qısa səciyyəli ifadələr, səthi mə'lumatlar verilirdi.[24]

Lakin, bu gün tarixi bir həqiqəti gizlətmək olmaz, ən qədim böyük dövlətlər və mədəniyyətlər Şərq ölkələrində, o cümlədən Azərbaycanda meydana gəlmiş və inkişaf etmişdir. Məsələn, qədim Şumerlərdə, Misirdə, Mesopotamiyada, Türküstanda, Azərbaycanda meydana gəlmiş və təkamül etmişdir. Həmin ölkələrdə iqtisadi həyatda istehsalın ən qədim formaları olan əkinçilik, heyvandarlıq, suvarma sistemləri, sənətkarlıq, tiçarət, şəhər mədəniyyəti daha yüksək səviyyəyə qalxmışdır.

F.Engels qeyd edirdi ki, Asiyanın ən qabaqcıl tayfalarında, arilərdə, semitlərdə, turanlarda başlıca əmək sahəsi olan əkinçilik, heyvandarlıq, suvarma sistemi xeyli inkişaf etmiş, ilk ictimai əmək bölgüsü də bu

---

[24] Bax: T.Vəliyev, A.Həsənov. Azərbaycan iqtisadi fikir tarixi, səh.6.

downloaded from KitabYurdu.az

ölkələrdə meydana gəlmişdir. O, "Kapitalın III cildinə əlavədə yazır ki, "Əmtəə mübadiləsi hələ heç bir yazılı tarixin mövcud olmadığı zamanlarda, Misirdə bizim tarixdən azı üç və ya bəlkə də beş min il qabaq, Babilistanda isə dörd-altı min il qabaq başlanır".

Tarixi mənbələrdən görünür ki, Qədim Şərqdə, o çümlədən Azərbayçanda orta əsrlərdə ictimai əmək bölgüsü və əmtəə mübadiləsinin inkişafı erkən dövrlərdə ayrı-ayrı əmtəələrin ümumekvivalent rolunda çıxış etməsinə səbəb olmuşdur. Böyük şərqdə və eləcə də Azərbaycanda qaramal, qoyun və s. xüsusi bir əmtəə çıxış edərək mübadilə prosesində ümumekvivalent ölçü vasitəsi kimi fəaliyyət göstərmişlər. Heç təsadüfi deyildir ki, bu günə kimi Azərbaycanda mal, əmtəə anlayışları eyni anlamada ifadə olunur. Onlardan metal pullara tədricən keçilməsi də çox qədim dövrlərdən başlanmışdır. İndi ana dilində işlətdiyimiz manat pul vahidinin adı da eramızdan əvvəl Bisutun qayalarında Mixi yazılarında "manat" kimi həkk olunmuş şərq dillərinə məxsus bir termindir. Məşhur dilçi azərbaycanlı alim Ə.Dəmirçizadənin verdiyi təhlilə görə bu anlayış, söz, yəni "manat" çox qədim dövrlərdə "vergi", "xərac" mənasını ifadə etmişdir. Bu anlayış tarixən pulla ödənilən vergini bildirən və tədricən pulun öz adını ifadə edən bir kateqoriya kimi işlədilməyə başlanmışdır. Son illər "moneta" termini kimi Avropa dillərinə uyğunlaşdırılmış həmin məvhum o xalqların dillərində geniş yayılmışdır.[25]

Göründüyü kimi indi bizim müstəqil respublikamızın mühüm rəmzi olan "manat" milli pul vahidi adını daşıyan pulun adı tarixən çox qədim zamanlardan şərq dillərindən gələn və iqtisadi həyatımıza daxil olmuş anlayışdır. Buna əsaslanıb qeyd etməliyik ki, "sikkə" termini əvəzinə dilimizin tələffüz qaydalarına daha uyğun gələn "moneta" sözünü işlətmək daha məqsədəuyğun olardı. Bunları xatırlatmaqda məqsədimiz budur ki, ən qədim iqtisadi fikir və təfəkkürlər ümumiyyətlə Şərqdə və o cümlədən Azərbaycanda meydana gəlmiş və təkamül etmişdir. Bunun nümunələrinə qədim Misirin papirus yazılarında (e.ə. III, II minilliklərdə), Babilistanda çar Xammurapinin daş üzərinə mixi yazıları ilə həkk olunmuş qanunlarında və s. bu kimi abidələrdən öyrənirik.

---

[25] Bax: T.Vəliyev, A.Həsənov. Azərbaycan iqtisadi fikir tarixi, səh.10.

downloaded from KitabYurdu.az

Heç təsadüfi deyildir ki, Ərəb dünyasının böyük mütəfəkkiri, filosofu və sosioloqu İbn Xəldun (XIV əsr) özünün məşhur üç cildlik "Müqəddimə" əsərində Şərqin keçirdiyi tarixi ictimai-iqtisadi inkişaf mərhələləri və onun qanunauyğunluqları haqqında qiymətli elmi-nəzəri fikirlər yürüdülmüşdür. O, cəmiyyətin yaranmasının üç mühüm mərhələlərdən: köçərilik, oturaq həyat və mədəniyyət mərhələsindən keçdiyini əsaslandırmışdır.

İbn Xəldun cəmiyyətin iqtisadi quruluşu, iqtisadi münasibətləri, qiymət qanunu, tələb-təklif və rəqabət qanunları haqqında elmi-iqtisadi təfəkkürlərin əsaslarını yaradanlardan olmuşdur. Bu həqiqətlə tanış olan A.Aniçkin Maksim Qorkiyə İbn Xəldunun iqtisadi məsələlərin həllində əldə etdiyi nailiyyətləri çatdırır. M.Qorki 1912-ci ilin 21 sentyabrında A.Aniçkinə yazır ki, "İlk dəfə iqtisadi amillərin və iqtisadi münasibətlərin rolunu XIV əsr alimlərindən İbn Xəldunun göstərmiş olduğu haqqındakı məlumatınız sensasiyaya səbəb olmuşdur. Bu xüsusilə dostumuz V.İ.Lenində böyük maraq oyatmışdır". A.Aniçkin özü sonra bu münasibətlə yazmışdı: "V.İ.Lenin ərəb filosofu İbn Xəldunun iqtisadi amillərin rolundan bəhs edən "Müqəddimə" əsəri ilə çox maraqlanırdı. Lenin soruşurdu. Şərqdə bu qəbildən özgə bir filosof da yoxdurmu? " Deməli hələ orta əsrlərdə iqtisadi münasibətlər və onun qanunları haqqında açıq-aydın iqtisadi ideya və fikir yürüdən mütəfəkkirin bu baxışları təəccüb doğurmuş və "sensasiyaya" səbəb olmuşdur.[26]

Dünya iqtisadi fikir tarixinin araşdırılmasında və işıqlandırılmasında mühüm rol oynayan İbn Xəldunu XIV əsrin Adam Smiti adlandırsaq səhv etmərik. O, "Müqəddimə" əsərinin ikinci cildində özündən 100 il əvvəl yaşamış böyük Azərbaycan mütəfəkkiri N.Tusinin adını dahi alimlər cərgəsində çəkir və onun sərbəst fikir yürütmək qabiliyyətindən bəhs edir.

Orta əsrlərdə Azərbaycan mütəfəkkirlərinin, o cümlədən Səlcuqilərin uzun müddət ərzində baş vəziri olmuş məşhur "Siyasətnamə" əsərinin müəllifi Nizamülmülkün (XI əsr) və Qazan xanın islahatlarının aparılmasında bilavasitə iştirak edən məşhur tarixçi "Cəmi ət-tavarix" (tarixlər toplusu) əsərinin müəllifi Fəzlullah Rəşid-əd-Dinin (1247-1318)

---

[26] Bax: A.Həsənov. İbn Xəldunun iqtisadi-nəzəri fikirləri haqqında. //"İqtisad elmləri: nəzəriyyə və praktika", №2-3, Bakı, 1994, səh. 143-156.

downloaded from KitabYurdu.az

iqtisadi və siyasi baxışlarının mühüm rolu olmuşdur desək səhv etmərik. Elə buna görə də Azərbaycanın müxtəlif dövrlərində yaşayan və dəyərli ictimai-iqtisadi fikirlər yürüdən, elmimizi və mədəniyyətimizi zənginləşdirən mütəfəkkirlərimizin əsərlərini dərindən araşdırmaq və öyrənmək tələb olunur.

Biz əvvəldə qeyd etdik ki, hər bir xalqın, o cümlədən Azərbaycan xalqının iqtisadi fikir və düşüncələri tarixi çox uzaq keçmişlərdən onların şifahi ədəbiyyatının nümunələrindən başlayır. Bu fikir və ideyalar çox zəngin tarixə malik olan türk xalqlarına, o cümlədən Azərbaycan xalqına da aiddir.

Məşhur türkoloq alim Lev Qumilyev "Qədim türklər" adlı əsərində yazır ki, "Altay dəmirçiləri yüksək keyfiyyətli dəmirdən bir tiyəli bıçaqlar, yonucu baltalar, üzəngilər, cilovlar, duz, azca maili və geniş tiyəli qılınclar, ox və cida ucluqları, habelə ikicür-dəyirmi, asma qazanlar və üçayaq üstündə duran qazanlar hazırlayırdılar". Onun qeyd etdiyi kimi, yazılı mənbələrin verdiyi məlumat tam inamla məlum edir ki, "Türklər dəmirin sənaye üsulu ilə istehsalını Mərkəzi Asiyada mənimsəyən ilk xalq kimi tarix səhnəsinə çıxarıblar".

Bu gün türkləri xəbisliklə köçərilikdə ittiham edən, türkün zəngin iqtisadi və mədəni keçmişinə göz yuman balayanlar köçərilik mədəniyyətinin özünün də nədən ibarət olmasını başa düşmür və öz səthiliklərini, elmsizliklərini açıq biruzə verirlər.

İbn Xəldun və ümumiyyətlə başqa elm korifeyləri, mütəfəkkirləri bəşər cəmiyyətində insanların köçərilik həyatı sürməsini cəmiyyətin inkişafının zəruri bir mərhələsi hesab etmişlər. İbn Xəldun göstərir ki, "Köçərilik mədəni və şəhər həyatının əsasıdır və bütün insanların yerləşik həyat yaşamasından öncə yaşadıqları və keçirdikləri bir dövrdür".[27]

Bütün bu deyilənlərə əsasən bir daha qeyd etməliyik ki, qədim dövrlərdə olduğu kimi orta əsrlərdə də iqtisadi fikir və ideyalar cəmiyyətin müəyyən tarixi inkişafının, onun iqtisadi şəraitinin ifadəsi kimi meydana çıxır, formalaşır və təkamül edir. Məlumdur ki, Azərbaycan xalqının iqtisadi fikir və təsəvvürləri əzəldən başlasa da o orta əsrlərdə, xüsusən də XI-XIV əsrlərdə çox zəngin olmuş və təkamül etmişdir. Qədim

---

[27] Bax: T.Vəliyev, A.Həsənov. Azərbaycan iqtisadi fikir tarixi, səh.18.

downloaded from KitabYurdu.az

əcdadlarımızın şüurlu əmək fəaliyyətinə, iqtisadi fəaliyyətə başladıqları anlardan orta əsrlərə və sonrakı mərhələlərə, bu günümüzə qədər öz tələbatlarını necə və hansı vasitələrlə ödəmək haqqında da düşünməyə başlamışlar. Lakin yazılı ədəbiyyatın olmadığı dövrlərdə istehsalçı insanları ən çox düşündürən ətraf təbii mühitin dərk edilməsi, bu mühitlə ünsiyyət, bəsit əmək alətlərilə zəruri yaşayış vasitələri əldə etmək, təbiətdən qorunmaq üçün yaşayış məkanları seçmək, bir sözlə, "yaşamaq uğrunda mübarizə" məsələləri düşündürmüşdür. Həmin dövrdən bizə gəlib çatan əmək alətləri ilk insan nəsillərinin necə və nə istehsal etməsi, onların ümumi həyat şəraiti haqqındakı məlumatlar çağdaş dövrümüzdə də iqtisad elminin, onun iqtisadi fikir tarixinin başlıca vəzifəsidir.

Buna görə də biz qədim Azərbayçanın iqtisadi həyatı, təsərrüfat və iqtisadiyyat haqqında təsəvvürləri, Azərbaycanda ilkin sosial hərəkatları (məzdəkilər və xürrəmilər hərəkatının iqtisadi tələbləri), orta əsrlərin iqtisadi ideya və fikirləri haqqında mühakimələrimizi müxtəsər, bəsit iqtisadi təsəvvür və fikirləri öyrənməyin çoxlu mənbələri və oradakı iqtisadi fikirləri araşdırıb ümumiləşdirmək üçün nəzərdən keçirilmiş, öyrənilmişdir.

İndi də orta əsrin iqtisadi ideyalarını araşdırmaq və sistemə salmaq üçün N.Gəncəvini, onun iqtisadi fikir dünyasını bütövlükdə dərk etmək, onun yaşadığı (XII əsr) ictimai-iqtisadi mühitə yaxından bələd olmaq tələb olunur.

## §3. NİZAMİ GƏNCƏVİNİN "XƏMSƏ"Sİ VƏ İQTİSADİ BAXIŞLAR SİSTEMİ

Nizami Gəncəvinin iqtisadi fikrini araşdırmaq və sistemə salmaq üçün onun fikir dünyasını bütövlükdə dərk etmək, yaşadığı ictimai-iqtisadi mühitə yaxından bələd olmaq tələb olunurdu. Bunun üçün nizamişünaslığa dair əsas mənbələrlə tanış olmadan, fəlsəfi, əxlaqi və bədii görüşlərini öyrənmədən, onun "Xəmsə" boyu sənədləşmiş iqtisadi ideya və fikirlərini araşdırmaq çətin olardı.

Hər bir dövrdə mövcud ictimai-iqtisadi münasibətlərin mahiyyəti, iqtisadi anlayışlar, kateqoriyalar və prinsipləri nə dərəcədə dərk olunub

downloaded from KitabYurdu.az

səciyyələndirilməlidir. Əmək, əmək bölgüsü mübadilə, təcrübə, qiymət, pul, sələm kapitalı və s. kimi iqtisadi anlayışlara mütəfəkkirlərin münasibəti baxışları eyni ola bilməzdi. Bu da məlumdur ki, elm aləmində heç bir şair, yazıçı, ümumiyyətlə qeyri-peşəkarlar qarşılarına heç də bilavasitə iqtisadi fikir və ideyalar yürütmək məqsədi qoymurlar. Məsələn, Nizami, Xaqani, Nəsimi, Füzuli və b. nəhəng söz mütəfəkkirlərimiz böyük poetik əsərlər yaratmaqla dünya şöhrəti qazanmışlar. Lakin onlar qarşılarına bilavasitə iqtisadi fikirlər söyləməyi məqsəd qoymamışlar. Lakin bu mütəfəkkirlərin əksəriyyəti öz dövrünün ictimai-iqtisadi münasibətlərinə, ziddiyyətlərinə də biganə qalmamış, öz əsərlərində az və ya çox dərəcədə ictimai-iqtisadi münasibətlər öz əksini tapmışdır.

Artıq XII əsrdə Azərbaycanda iqtisadi fikir və ideyalar özünün yüksək inkişaf səviyyəsinə çatmışdır.[28] N.Gəncəvi (1141-1209) əmək və sərvət haqqında mükəmməl təlim yaradır. Bu təlimə görə əmək maddi və mənəvi sərvətləri artıran əsas mənbədir. Əmək fəaliyyətinin səmərəliliyi əməyə stimul doğuran amillərdən asılıdır. Dahi söz ustası böyük mütəfəkkir şairimiz N.Gəncəvi əməyin yüksək nəticələr verməsi üçün hər şeydən əvvəl onun azad əmək olması ideyasını hər kəsin öz qabiliyyətinə görə işlə təmin olunması fikri, əmək adamının daima öz baçarıq və ustalığını artırması ideyalarını irəli sürmüşdür.

Dahi mütəfəkkir alimimiz N.Gəncəvi alqı-satqı prosesində bərabərlik prinsipinin gözlənilməsindən bəhs edir, tələb və təklifin əmtəələrin bazar qiymətlərinə təsirini aydın təsvir edir.

XII əsrdə N.Gəncəvi Azərbaycanda pul sistemi haqqında, ümumiyyətlə pulun sosial-iqtisadi təbiəti haqqında mükəmməl elmi fikir və təsəvvürlər yaradır.

N.Gəncəvinin "Xəmsə"sində səpələnən xüsusi forma və üsulunda ifadə edilən iqtisadi fikir və ideyalar müəyyən sistem halına salındıqda, onun cəmiyyətin ictimai-iqtisadi münasibətləri haqqındakı təsəvvürləri daha aydın nəzərə çarpır. Bu baxımdan onun irsinin tədqiqi göstərir ki, Nizami Gəncəvi çox zaman humanizm və demokratizmi dahi mütəfəkkirin iqtisadi ideyalarının da əsasını təşkil edir. Nizami Gəncəvi çox hallarda

---

[28] Daha ətraflı bax: T.Vəliyev və A.Həsənov. Azərbaycan iqtisadi fikir tarixi, səh.63-104

downloaded from KitabYurdu.az

əməyə, sərvətə, mübadiləyə, pula, bölgü və istehlaka öz əxlaq fəlsəfəsi mövqeyindən yanaşmışdır. Əmək və əməkçi surətləri (obrazları) demək olar ki, onun bütün əsərlərinin başlıca qayəsini təşkil edir.

İqtisad elmi ("İqtisadi nəzəriyyə" və onun tarixi) mövqeyindən yanaşdıqda onun iqtisadi həyat hadisələri və prosesləri haqqında irəli sürdüyü ideyalar çox mütərəqqi və öz aktuallığını itirməyən bir sistem halında ifadə edilmişdir.

M.Ə.Rəsulzadə "Azərbaycan şairi Nizami" əsərində "Şairin yaşadığımız günlər üçün son dərəcə aktual və maraqlı olub siyasi iqtisadla bağlı mülahizələri" olduğunu qeyd edir. Bu mülahizə dahi Nizaminin "İsgəndərnamə"də ruslarda quru xəz dərinin pul rolu oynaması, onun "gümüşdən daha mötəbər" sayılması fikri ilə əlaqədar verilmişdir.

Dahi mütəfəkkir şairimiz N.Gəncəvinin nəzəri-iqtisadi ideyaları onun yaradıcılığında mühüm yerlərdən birini tutur. O, cəmiyyətin ictimai-iqtisadi quruluşu, əmək, əmək bölgüsü, sərvət və onun mənbələri, bölgü, istehlak məsələləri üzrə özünə məxsus bir tərzdə qiymətli fikirlər irəli sürmüşdür. Onun mübadilə, ticarət, qiymət, pul və s. haqqında fikir və ideyaları haqqında baxışları iqtisadi fikir tariximizi zənginləşdirən qiymətli töhfədir.

N.Gəncəvinin yaşadığı cəmiyyətin ictimai ziddiyyətlərini dərindən qavraması, cəmiyyətdəki sosial ədalətsizliyə qarşı mübarizəsi və nəticədə cəmiyyətin yenidən qurulması üçün yollar axtarması, ideal cəmiyyət haqqındakı fikirləri ictimai-iqtisadi fikir tariximizin ən qiymətli inciləridir.

N.Gəncəvi bir mütəfəkkir alim kimi elmin qarşısında qoyduğu vəzifəni "Sən çalış yaxşı öyrən dünyanı, bəşəri, bitkini, daşı, heyvanı" fikri ilə şərəflə yerinə yetirmişdir.

N.Gəncəvinin "Xəmsə"sində: "Sirrlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" kimi böyük əsərlərində özünün dünyagörüşünü, təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqları, onların dərk edilməsinin əhəmiyyəti haqqında nəzəri fikirlərini poetik formada əks etdirmişdir. O yazır: "Yeni tarixlərdən ziyadə Yahudi, Nəsrani (xristian) və Pəhləvi tarixini aradım...., hər dildə olan xəzinələri topladım".[29]

---

[29] Bax: T.Vəliyev, A.Həsənov, Azərbaycan iqtisadi fikir tarixi, s.63.

downloaded from KitabYurdu.az

Böyük mütəfəkkir şairimizin "Dünyanın ucqarlarına dağılmış kitabları, Ərəb və Dari dilində deyilmiş sözləri, Buxari və Təbərinin əlyazmalarını... müxtəlif evlərin (sarayların) xəzinələrində saxlanılan əsərləri topladım, öyrəndim, "nə qədər gizli və dərin elmlər vardırsa" hamısından xəbərdar oldum və varlıqların sirrini axtarmağa başladım".[30]

N.Gəncəvi öz yüksək bilik səviyyəsi və yiyələndiyi dillərin vasitəsilə Şərqin böyük mütəfəkkirlərinin: Əl Fərabi, İbn Sina, Biruni, Əl Kindi və başqa görkəmli alimlərin əsərləri ilə tanış olmuş, antik, hind və yunan fəlsəfəsini və mədəniyyəti mənimsəmişdir. Buna görə də o dahi şair olmaqla yanaşı öz dövrünə qədər və öz zəmanəsində mövcud olan əsas bilik sahələrinə: tarix, fəlsəfə, məntiq, ilahiyyət, astranomiya, kimya, fizika və s. dərindən bələd olan və bunlardan bəşəriyyətin faydalanması üçün yollar arayan böyük mütəfəkkir alimdir.

N.Gəncəvinin əsərlərində insan, onun dünyada yeri və rolu, insanın insana, insanın cəmiyyətə və onu əhatə edən təbii mühitə münasibəti, cəmiyyətin ədalət və təbii qanunlar əsasında qurulması və idarə edilməsi kimi həyati məsələlər əsas yer tutur. Onun nəzəri irsinin və fikir dünyasının hərtərəfli və dərindən öyrənilməsi göstərir ki, o öz dövrünün mühüm ictimai, iqtisadi və siyasi hadisələrinə, bu hadisələrin cərəyan etdiyi mühitə biganə qalmamışdır.

Dahi Nizami özünün dərin müşahidəçilik qabiliyyəti və elmi müşahidələri sayəsində XII əsrdə Azərbaycanda və ona qonşu olan ölkələrdə mövcud olan ictimai-iqtisadi quruluşun xarakterini və ziddiyyətlərini açıb göstərməyə çalışmışdır. Onun "Xəmsə"si əvvəldən axıradək yaşadığı dövrün ictimai, iqtisadi, sosial və mənəvi problemlərin həllinə, öz xalqının və bütün bəşəriyyətin əzab-əziyyətdən, ictimai bərabərsizlikdən xilas olması məsələlərinə yönəldilmişdir. O. keçmişdən danışarkən öz dövrünün ictimai quruluşuna və üsul-idarəsinə qarşı açıq və kəskin etirazlarını bildirmiş və cəmiyyətin gələcəyinə nikbin nəzərlərlə baxmışdır. Buna görə də N.Gəncəvinin yaradıcılığı öz aktuallığını itirməmiş, bəşər sivilizasiyasına 900 ilə yaxındır ki, xidmət etmiş və indi də etməkdədir.

---

[30] Bax: Yenə orada

downloaded from KitabYurdu.az

N.Gəncəvinin iqtisadi ideyaları onun Azərbaycan iqtisadi fikrinin inkişafında tutduğu yer xüsusi və geniş tədqiqat obyekti olmamışdır. Lakin bu mövzuda ilk təşəbbüsü unudulmaz görkəmli iqtisadçı alimimiz, respublikada mühasibat və təhlil nəzəriyyəsinin əsasını yaradan mərhum prof. Ə.Q.Fərəcovun 50-ci illərdə yazdığı bir neçə məqalə və 1956-cı ildə nəşr olunmuş «Nizaminin iqtisadi görüşləri haqqında»kı 50 səhifəlik kitabçası vardır. Görkəmli alimimiz Ə.Fərəcovun dahi mütəfəkkir şairimiz N.Gəncəvinin iqtisadi görüşləri haqqındakı ilk təşəbbüsü təqdirəlayiqdir və Azərbaycan iqtisadi fikir tarixinin yazılması və öyrənilməsi üçün də əhəmiyyətlidir. Bunu da qeyd etməliyik ki, Ə.Fərəcovun əsərində N.Gəncəvinin iqtisadi görüşlərinin yalnız bir qismi işıqlandırılmış, onun iqtisadi hadisələr və proseslər haqqındakı elmi ideyaları tam əhatə olunmamışdır. Həmin kitabçada istər-istəməz dahi Nizamiyə və onun iqtisadi ideyalarına yalnız marksizm-leninizm metodologiyası baxımdan yanaşılmışdır. Buna görə də bütövlükdə Nizami irsinə və onun bizim üçün tədqiq olunması ən çox vaçib olan iqtisadi-nəzəri ideyalarına obyektiv və qərəzsiz yanaşılması yenidən müstəqillik qazanmış Azərbaycanımızın bazara keçid dövrünün başlıca tələblərindən biridir.

Bunu da qeyd etməliyik ki, N.Gəncəvinin «Xəmsə»sində səpələnən, xüsusi forma və üslubla ifadə edilən iqtisadi fikir və ideyalar müəyyən sistem halına salındıqda, onun cəmiyyətin ictimai-iqtisadi münasibətləri haqqındakı təsəvvürləri daha aydın formada nəzərə çarpır. Buna görə də dahi mütəfəkkir şairimizin irsinin tədqiqi göstərir ki, onun humanizm və demokratizmi iqtisadi baxışlarının da əsasını təşkil edir.

İqtisadi-nəzəri və tarixi araşdırmalar mövqeyindən yanaşdıqda onun iqtisadi həyat hadisələri və prosesləri haqqında irəli sürdüyü fikir və ideyalar çoğdaş dövrümüzdə də çox mütərəqqi və öz aktuallığını itirməyən bir sistem haqqında ifadə edilmişdir.

N.Gəncəvinin «Xəmsə»sindəki iqtisadi fikir və ideyalar yaşadığı dövrün ictimai-iqtisadi quruluşunun, ən çox feodalizm dövrünün tənqidi təhlili və ifadəsi kimi meydana çıxmışdır. O, ən çox feodal mülkiyyət formaları, ondan doğan ziddiyyətlər, vergi sistemi haqqındakı fikirlər öz əksini tapmışdır. Elə buna görə də şərq dünyasına məxsus xüsusiyyətlərə malik olan feodal mülkiyyət formalarına qısa nəzər salmadan

downloaded from KitabYurdu.az

N.Gəncəvinin bu sahədə irəli sürdüyü iqtisadi fikirləri dərk etmək çətindir.

Tarixi mənbələrdən göründüyü kimi Azərbaycanda (XII əsr) torpaq mülkiyyəti formaları haqqında çox müxtəlif və fərqli fikirlər mövcuddur. Bunu həmin dövrün ilk mənbələri əsasında araşdıran məşhur şərqşünas alimimiz mərhum akademik Z.M.Bünyadov özünün «Azərbaycan Atabəyləri dövləti»[31] adlı əsərində və redaktoru olduğu «Azərbaycan tarixi» (1994-cü il) kitabında torpaq mülkiyyəti haqqında verilən məlumatlar N.Gəncəvinin əsərlərində əks olunan fikirlərə uyğun gəlir. Bu mənbələrdən aydın olur ki, o dövrdə Azərbaycanda dövlətə məxsus olan divan torpaqları, hökmdarların və onun sülaləsinin mülkiyyətində olan Xanədan (xass) torpaqları, keçmiş əsrlərdə geniş yayılmış Atabəylər dövründə xüsusi formaları olan «iqta» şərti pay torpaqları iri feodalların əlində olan «mülk» (əmlak) adlandırılan torpaqlardır. Bununla yanaşı dini müəssisələrə, xeyriyyə cəmiyyətlərinə məxsus olan torpaqlar və kəndlilərin bölüşdürülüb becərdikləri icma torpaqları da mövcud olmuşdur. Həmin dövrdə şübhəsiz, bu torpaqların əkilib becərilməsində, məhsulların yığılmasında kəndlilərin və sənətkarların əməyindən geniş istifadə olunmuş, dövlət xəzinəsinin, şah, sultan sülaləsinin, əmirlərin və saysız-hesabsız məmurların, din xadimlərinin gəlirlərlə təmin olunması müasir formalarda tətbiq edilən vergi və ödənişlər vasitəsilə həyata keçirilmişdir. Bunu qeyd etmək kifayətdir ki, yalnız Atabəylər dövründə Azərbaycan əyalətinin verdiyi illik gəlirin məbləği 8,57 milyon abbasilər dinarı həcmində, aran və Muğan əyalətlərindən isə 3 milyon dinar Atabəylər xəzinəsinə daxil olurmuş.[32]

Tarixi mənbələrdə və N.Gəncəvinin əsərlərində verilən məlumatlara görə o dövrdə vergilərin çox olduğu aydın olur ki, bu da vergilərin miqdarı, növləri və toplama formaları haqqında müxtəlif fikirlər söyləməyə əsas verir.

Bu da məlumdur ki, Nizaminin yaşadığı dövr (XII əsr) Azərbaycanda və eləcə də Yaxın və Orta Şərq ölkələrində intibah (renessans) dövrü adlandırılmışdır. Bu dövr Şərqdə ondan xeyli əvvəl başlamış və N.Gəncəvinin yaşadığı XII əsrdə özünün ən yuksək inkişaf mərhələsinə çatmışıdır ki, bu

---

[31] Bax: T.Vəliyev, A.Həsənov. Azərbaycan iqtisadi fikir tarixi, səh. 67-68
[32] Yenə orada, səh. 68

downloaded from KitabYurdu.az

dövrdə intibahın ən böyük simalarından biri N.Gəncəvi olmuşdur. İntibah adlandırılan həmin dövr elmin, sənətin və mədəniyyətin geniş vüsət alması və çiçəklənməsi dövrü kimi səciyyələndirilir.

F.Engels «Təbiətin dialektikası» əsərinə yazdığı girişdə renessans deyilən dövrün ümumi cəhətlərini göstərir və onun dünyanın bir bölgəsində deyil, bəşəriyyətin keçdiyi tarixi inkişaf prosesində müxtəlif ölkələrdə və regionlarda baş vermiş çevrilişlər kimi xarakterizə edir. Bunu nəzərdə tutub o yazır: «Bu, bəşəriyyətin o vaxta qədər gördüyü çətin çevrilişlər içərisində ən böyük mütərəqqi bir çevriliş idi, dahilərə ehtiyacı olan, təfəkkür, ehtiras və xarakter cəhətdən kamillik və alimlik cəhətdən alimlər yetirən bir dövr idi».[33]

Yeri gəlmişkən bu dövr Şərqdən fərqli olaraq Avropada XV əsrin ikinci yarısından başlamışdır. F.Engels intibah dövrünü şəhərlərin inkişafı, ictimai-iqtisadi münasibətlərdə baş verən dəyişikliklərin yaranması ilə bağlı olduğunu qeyd etmişdir. Bu baxımdan da Nizaminin yaşadığı XII əsrdə Azərbaycanda şəhər həyatının yüksək və geniş miqyasda inkişaf etməsi və çiçəklənməsi dövrü olmuşdur.

Tarixi mənbələrdən məlum olur ki, XII əsrdə Azərbaycanın Təbriz, Gəncə, Naxçıvan, Şamaxı, Beyləqan, Bakı, Ərdəbil, Marağa kimi şəhərləri sənətkarlığın, ticarətin və mədəniyyətin inkişaf etdiyi mərkəzə çevrilmişdir.

Akad. Z.Bünyadov göstərir ki, «Azərbaycan Atabəylərinin hakimiyyəti dövrü ölkədə şəhər həyatının çiçəklənməsi əsridir. Bu dövrdə Azərbaycanın bir çox şəhərləri orta əsr sənətlərinin bütün növlərini özündə toplamış iri yaşayış məntəqələri idi. Şəhərlər həm daxili, həm də xarici ticarətin mərkəzi rolunu oynayırdı. Əgər Naxçıvan, Beyləqan, Təbriz və Şamaxıda 100 min və daha artıq, Gəncədə isə yarım milyona qədər əhali yaşadığını nəzərə alsaq, onda aydındır ki, bu inkişaf kənd yerlərindən şəhərlərə əhali axınını tələb edən yüksək inkişaf etmiş çoxsahəli kustar sənayedə adamların sayının artması hesabına yaranırdı.[34] Göstərilən şəhərlərin hər birində özünə məxsus əmək alətləri və müxtəlif çeşidli

---

[33] Bax. F.Engels, Təbiətin dialektikası. Bakı, 1966, s.5.
[34] Bax: Z.M. Bunyadov. Azərbayçan Atabəylər dövləti. Bakı, 1985, səh.185.

downloaded from KitabYurdu.az

istehlak şeyləri istehsal olunurdu. Tarixi mənbələrdən göründüyü kimi həmin dövrdə Azərbaycan şəhərlərində ən çox yun, ipək və kətan parçaları, müxtəlif növ geyim libasları, mis və şüşədən hazırlanan qab-qacaq, zərgərlik və musiqi alətləri və s. istehsalı geniş yayılmışdır. Bu dövrdə şəhərlərdə sənətkarlıq və ticarətin inkişafı ilə yanaşı memarlıq, mühəndislik, nəqqaşlıq və rəssamlıq sənətləri də xeyli inkişaf etmişdir. Bu fikiri o dövrdə tikilən memarlıq abidələrinin-məscidlərin, günbəzli hamamların, mədrəsələrin, əzəmətli sarayların və b. kimi abidələrin də bizim dövrümüzə gəlib çıxan nümunələri də göstərir.

XII əsrdə Azərbaycan şəhərlərində əhalinin çoxalması əkinçilik, maldarlıq və sənətkarlıq məhsullarına olan tələbatın da artmasına səbəb olmuşdur. Bu dövrdə əmək bölgüsünün genişlənməsi, əmtəə-pul münasibətlərinin inkişafı və genişlənməsi üçün zəmin yaradıldı. Bazarların və bazar münasibətlərinin genişlənməsi ölkə daxilində və onun ayrı-ayrı əyalətləri arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsinə səbəb olurdu, bu eyni zamanda Azərbaycanın xarici ticarət əlaqələrinin canlanmasına təsir edirdi. Azərbaycanın Şərqlə Qərbin mühüm ticarət yolları üzərində yerləşdiyinə görə, bu onun həmin ölkələrlə ticarət əlaqələri yaranmasını asanlaşdırırdı. Azərbaycan tacirləri quru və dəniz yolları ilə Yaxın və Orta Şərqin, eləcə də avropanın bir sıra ölkələri ilə ticarət əlaqələrində fəal iştirak edirdilər.

N.Gəncəvi «Xəmsə»də daxili və xarici ticarət mənbələrinə, onların inkişafına və aparılması qayda-qanunlarına dair qiymətli fikirlər söyləmişdir. O, tacirlərə, alqı-satqı ilə məşğul olanlara şərait və ədalət qanunları ilə sövdələşməyi tövsiyə edir. Həm də onların dükanlarını, mallarını oğru-quldurlardan qorumağı da dövlət məmurlarının vəzifəsi hesab edir. Bunu nəzərdə tutub yazır ki, «Bu çartı-bazarla mən necə dükan qurum ki, oğru-quldurdan amanda qalım. Kimin bu çartı-bazarda dükanı varsa, onu hər tərəfdən yarıb oğurlayıblar. Əgər oğru aparandan səs-səmir çıxmadısa, demək oğru tutan darğanın əli mala çatıb».[35] Bununla da o, xarici ticarətlə məşğul olan tacirlərdən danışarkən yenə də onların hüquqlarının müdafiə olunmasını xatırladan, yollarda qarşılaşdıqları təhlükədən xilas olmaq üçün tədbirlər görülməsini vacib hesab edirdi.

---

[35] Bax. T.Vəliyev, A.Həsənov, Azərbaycan iqtisadi fikir tarixi, səh.72.

downloaded from KitabYurdu.az

N.Gəncəvi ölkələr və xalqlar arasında ticarət əlaqələrinin inkişaf etdirilməsinin mütərəqqi yolunu düzgün qiymətləndirərək deyir ki, «Dünya al-ver siyasətində çiçəklənməyə başlanmışdır».

Dahi mütəfəkkir şairimiz N.Gəncəvinin yaşadığı doğma Gəncə şəhəri o dövrdə Qafqazda deyil, həm də yaxın və Orta Şərqin ən böyük və sənətkarlığın, tiçarətin, mədəniyyətin yüksək inkişaf etdiyi mərkəzlərdən biri idi. 1139-cu ildə baş verən fəlakətli zəlzələdən əvvəl və şəhərin bərpa edilməsindən sonra onu görən və ya tarixi materiallara istinad edərək Gəncəni təsvir edən tarixçilərin və səyyahların əsərlərində orada iqtisadi və mədəni həyatın yüksək inkişafından, gözəl tikililərindən, ətrafında göz oxşayan bağ-bağçalarından, əhalisindən, xoş və mülayim iqlimindən danışılır. O dövrün məşhur Ərəb tarixçisi İbn-əl-Əsir (1160-1234) Gəncəni Arranın anası və mərkəzi adlandırmışdır. O qeyd edirdi ki, 1139-cu ildə (sentyabrın 30-da) Arranın da digər vilayətlərində baş verən dəhşətli zəlzələdən ən çox dağıntıya və insan tələfatına məruz qalan şəhər olmuşdur. Bu zəlzələ nəticəsində təxminən 230 minə qədər insan, o cümlədən, Gəncə hakimi Qara Sunqurun 2 oğlu tələf olmuş və külli miqdarda saraylar, evlər dağılıb batmışdır.Bunlardan Müşdəsəsid Bəhruzə məxsus olan böyük istehkam, zəngin xəzinə və əmlak da dağılmış və xarabalıqlar altında qalmışdır.[36]

Tarixi faktlardan məlum olduğu kimi bu zəlzələdən üç il sonra dünyaya göz açan N.Gəncəvi onu ürək ağrısı ilə belə xatırlayaraq yazır: «Göyləri parçalayan o zəlzələdən yer üzündə şəhərlər qalmadı. O gün çoxlu xəzinənin bada getməsindən şənbə gecəsi Gəncəni yaddan çıxardı. O qədər qadın, kişi, cavan və cocuqdan ah-nalədən başqa ayrı səs çıxmadı… Torpaq suyun yolunu kəsdi. Lakin çox çəkmədi ki, «Bu ətrafdan müsibət uzaqlaşdı, az bir müddətdə o viranə qalmış yer, onun hümməti ilə Rumdan da abad oldu».[37] Doğrudanda dəhşətli zəlzələ baş verən vaxt səyahətdə olan Gəncə hakimi Qara Sunqur geri dönür, şəhərdə sağ qalan və ətrafdan cəlb edilən əhalinin gücü ilə şəhəri qısa müddətdə bərpa etdirir və şəhər yenə də öz əvvəlki həyatına qaytarılır.

---

[36] Bax: T.Vəliyev, A.Həsənov, Azərbaycan iqtisadi fikir tarixi, səh.73.
[37] Yenə orada.

downloaded from KitabYurdu.az

Həmin dövrü tədqiq edən tarixçilərin verdiyi məlumatlara görə Gəncə şəhəri özünün yüksək sənət növləri və sənətkarlıq ilə məşhur olmuşdur. O dövrdə Gəncədə mis və metal əşyalar, xüsusilə barama, onun emalı, ipəkdən hazırlanan paltarlar, atlas, pambıq parçaları və s. geniş istehsal edilir və başqa ölkələrə ixrac edilirdi. Hətta o dövrdə Azərbaycanın və Yaxın və Orta Şərqin digər ölkələrində sənətkarları özündə birləşdirən cəmiyyətlər və dərnəklər yaradılmışdır. Belə cəmiyyətlər Gəncədə də fəaliyyət göstərirmiş.

F.Engels uzaq keçmişdə belə cəmiyyətlərin yaradılmasının iqtisadi əsaslarını göstərərək yazmışdır: «Əvvəlcə şəhərlə kənd arasında, sonra isə şəhərlərin müxtəlif əmək sahələri arasında olan əmək bölgüsü sayəsində meydana gəlmiş yeni qruplar öz mənafeyini müdafiə etmək üçün yeni orqanlar yaratdılar, cürbəcür vəzifələr təsis edildi».[38]

Həmin dövrdə əxilər cəmiyyətləri də təxminən buna uyğun gələn təşkilatlardan biri olmuşdur. Məhşur ərəb səyyahı İbn Bətutə (XII əsr) Əxilər (qardaşlıq) cəmiyyəti haqqında yazmışdır: «Bütün dünyada Əxilər kimi kimsəsizlərə və yurdsuzlara bu qədər qayğı göstərən, acları doyuzduran, ehtiyacı olanlara kömək edən, zorakılığa qarşı çıxan, qəddar hökmdarları və onların nökərlərini öldürməyə hazır olan insanlar tapmaq mümkün deyildir».[39] Onların da rəhbər tutduqları prinsiplərin bir çoxu dahi mütəfəkkir şair N.Gəncəvinin də sosial ədalət və ideyalarına yaxın idi. Buna görədə Əxillərin zəhmətsevərlik, ədalət və bərabərlik uğrunda apardıqları mübarizəni Nizami bəyənir və təqdir edirdi.

N.Gəncəvinin doğulduğu və yaşayıb yaratdığı Gəncə şəhərinin ictimai-iqtisadi və mədəni mühit haqqında daha aydın fikir yaratmaq üçün mərhum akademik Məhəmməd Cəfərin bir sıra səyyahların və tarixçilərin əsərlərindən gətirdiyi bəzi məlumatları göstərmək yerinə düşərdi. O, İbn-Hövlənin «Surətül-Ərz» əsərində verilən bu fikiri xatırladır ki, «Gəncə gözəl, bərəkətli, abad və cəmiyyəti çox olan bir şəhərdir. Onun əhalisi comərddir. Davranışları, rəftarları yaxşıdır. Qəribləri sevirlər, alimləri dost tuturlar». Hacı Zeynalabdin Şirvani isə «Büstanüs-siyahə» əsərində yazır

[38] Bax: F.Engels, Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi, Bakı, 1971, səh. 124.
[39] Bax: Azərbaycan tarixi, Bakı, 1994, səh. 312-313.

downloaded from KitabYurdu.az

ki, «Gəncə böyük və yaxşı şəhərdir. Suyu içməli, havası mülayim və gözəldir... Oradan çox mənfəət sahibləri çıxmışdır. Onlardan biri «Xəmsə» sahibi Şeyx Nizamidir.[40] Həqiqətən də öz doğma şəhərindən kənara çıxmayan, Şərqin yaratdığı zəngin mədəni və mənəvi irsi mənimsəyən Azərbaycan xalqının və bütün türk aləminin dahi şairi və mütəfəkkiri N.Gəncəvi bu şəhərdən dünyaya nəzər salmış və onun görünən və görünməyən sirlərini açıb göstərməyə çalışmışdır.

Beləliklə, dahi mütəfəkkir N.Gəncəvinin iqtisadi fikir və ideyaları, onun «Xəmsə»sindəki iqtisadi baxışları sistem halında yaşadığı ictimai-iqtisadi quruluşun tənqidi təhlili və ifadəsi kimi meydana çıxmışdır. Onun bu sahədə söylədiyi fikir və ideyaların «Xəmsə»boyu səpələnmiş beyitlərdə, misralarda yaratdığı çox saylı obrazların deyimlərində iqtisadçıların adət etmədiyi bir tərzdə açıqlanır və nəticədə onun baxışları bir sistem halında müəyyənləşir. Buna görə də o dövrdə iqtisad elmi olmadığını, iqtisadi fikrin başqa elm sahələri tərkibində inkişaf etdirilməsini nəzərə alaraq dahi mütəfəkkir şair N.Gəncəviyə haqq qazandırmaq və qiymət vermək olar.

## §4. NƏSİRƏDDİN TUSİ. ONUN «ƏXLAQİ-NASİRİ», «DÖVLƏT MALİYYƏSİ HAQQINDA TRAKTATLARI» ƏSƏRLƏRİNİN AZƏRBAYCAN İQTİSADİ FİKİR TARİXİNDƏ YERİ

XIII əsrdə yaşamış böyük Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusinin başqa elm sahələri ilə yanaşı iqtisadi nəzəri biliklər sahəsində də qiymətli fikir və ideyaları var. Böyük astronom, riyaziyyatçı və filosof N.Tusinin əsərlərində iqtisadi-nəzəri baxışlar yüksək dərəcədə öz əksini tapmışdır.

Orta əsrlər iqtisadi fikrində Azərbaycanın görkəmli mütəfəkkiri N.Tusinin (1201-1274) xüsusi yeri vardır. Onun məşhur «Əxlaqi-Nasiri» (1232-1233) əsərində iqtisadi məsələlərin şərhi və «Dövlət maliyyəsi haqqında traktatları» onu həm də professional bir iqtisadçı hesab etməyə

---

[40] Bax: T.Vəliyev, A.Həsənov, Azərbaycan iqtisadi fikir tarixi, s.74.

downloaded from KitabYurdu.az

imkan verir. Qərbin tanınmış din xadimi İtaliyalı rahib Foma Akvinski ilə bir əsrdə (XIII) yaşayan N.Tusinin iqtisadi-nəzəri görüşlərini Fomanın iqtisadi ideyası ilə müqayisə etdikdə Tusi çox yüksək ümumbəşəri dəyərlərə malik olan bir iqtisadçı kimi görünür.

Buna baxmayaraq marksist ədəbiyyatda, sovet dərsliklərində F.Akvinski öyrənilir, onun xidməti qeyd olunurdu, lakin N.Tusinin adı belə çəkilmirdi. O dövrdə Avropa katolik kilsə xadimlərinin mistik pərdəyə bürünmüş iqtisadi fikirlərindən fərqli olaraq N.Tusi iqtisad elminin olmadığı bir şəraitdə "Maliyyə haqqında"traktat əsərini yazmışdır. Bu bəlkə də o dövrdə iqtitsadi fikir tarixində yazılan ilk iqtisadi əsər olmuşdur.

N.Tusi özünün məşhur "Əxlaqi-Nasiri" əsərində elmlərin təsnifatını, predmetini və metodlarını vermiş və onların ictimai-iqtisadi həyatın öyrənilməsində rolunu göstərmişdir.

N.Tusi ilk dəfə olaraq insanların iqtisadi münasibətlərini öyrənən elmin obyektini müəyyənləşdirmişdir. O, "İctimaiyyət" adlandırdığı elmin mövzusunu iqtisadiyyatı, onu əks etdirən hadisə və prosesləri öyrənməkdə görür. N.Tusi yazır ki, ictimaiyyət birgə əməyin həqiqi və ümumi inkişaf qanunları haqqında nəzəriyyədir. Bu elmin mövzusu (obyekti) ictimai əməklə birləşən və istehsalı ən kamil təşkil edən insanlar münasibəti sistemidir”. Buna görə də o, hamının bu elmi öyrənməsini və öz iqtitsadi davranış qaydalarını bu elmin köməyi ilə tənzim edə bilməsini tövsiyə edir. N.Tusi evdarlıq, mühasiblik kimi bilik və sənət növlərinin də məqsəd və vəzifələrini müəyyənləşdirir.

N.Tusini fərqləndirən mühüm cəhət ondan ibarətdir ki, o, bütün toxunduğu iqtisadi anlayış, kateqoriyalara və qanunlara son dərəcə konkret və aydın təriflər verməyə çalışır. Elə buna görə də N.Tusiyə həqiqətən də Azərbaycanın böyük iqtisadçısı desək, səhv etmərik.

N.Tusi iqtisad elminin predmetini müəyyən etmişdir. O, iqtisad elminə "İstehsalı ən kamil təşkil edən insanlar münasibəti sistemi" kimi tərif vermişdir. O, pulun dəyəri ilə əmtəənin dəyəri arasındakı əlaqənin düzgün aydınlaşdırılması, onun dərin iqtisadi təfəkkürə malik olmasından xəbər verir. N.Tusi yazır ki, pulun "dəyişdirilməsi və ya fənaya getməsi

downloaded from KitabYurdu.az

mal və ərzaq əldə etmək üçün sərf edilmiş əmək və zəhmətin itirilməsi və ya hədərə getməsi kimi olar".

Tarixi mənbələrdən göründüyü kimi N.Tusi çox qarışıq, mürəkkəb ictimai-siyasi şəraitdə yaşayıb yaratmışdır. O, 1201-ci ildə Tusidə doğulmuş və 1274-cü ildə Bağdada səfər zamanı orada xəstələnib vəfat etmişdir. Onun elmi irsinin tədqiqatçıları N.Tusinin türk mənşəli olduğunu və Həmədan şəhərindən Tusa köçdüklərini göstərirlər. Zəngin biliyə, iti hafizəyə malik olan N.Tusi elmin müxtəlif sahələri üzrə onlarça əsər yazmışdır.

N.Tusi İranın məşhur tədqiqatçılarından biri olan fizika-riyaziyyat elmləri doktoru H.Məmmədbəyli "Marağa rəsədxanasının banisi Nəsirəddin Tusi" (Bakı-1961) kitabında onun 76 əsərinin adını çəkir. Onun iqtisadi məsələləri həll edən "Əxlaqi-Nasiri" və "Maliyyə haqqında traktatı" əsərlərində ictimai-iqtisadi həyatın qanunauyğunluqları və idarə edilməsi haqqında öz nəzəri və əməli fikirlərini irəli sürmüş və bir islahatçı alim kimi çıxış etmişdir. Onun iqtisadi-nəzəri fikirlərinin əsasını da ən çox öz dövründə baş verən ictimai-iqtisadi proseslər və ziddiyyətlər təşkil edir. XIII əsrdə Monqolların Azərbaycana dəfələrlə yürüşləri (1221, 1231, 1256-cı illərdə) nəticəsində ölkəyə böyük dağıntılar və insan tələfatı törədilmiş, iqtisadiyyat bərbad hala düşmüş və tənəzzülə uğramışdır. Monqolların yürüşləri Azərbaycanda sənət, ticarət və mədəniyyət mərkəzləri olan şəhərlərin də dağılmasına və kütləvi qırğın törədilməsinə səbəb olmuşdur. Bütün bu basqınlar və yürüşlər Azərbaycanda istehsal (məhsuldar) qüvvələrinin inkişafına ağır zərbə vurmuş və əhalinin maddi güzəranının xeyli pisləşməsinə və aşağı düşməsinə gətirib çıxarmışdır.

Tarixi mənbələrdən görünür ki, XIII əsrin ortalarında Azərbaycanda vergi və mükəlləfiyyətlərin sayı 40-dan çox olmuşdur. Bu dövrdə vergilərin miqdarında və toplanmasında qayda-qanuna əməl edilmir, baş divanda və yerli vergi idarələrində özbaşınalıq hökm sürmüşdür. Becərilməyən torpaqlardan, gəlir götürməyən sənətkar və tacirlərdən zorla vergi tələb etmək adi hala çevrilmişdir.

XIII əsrin son rübündə Hülakular dövlətində bu iqtisadi və siyasi böhranın aradan qaldırılması üçün Qazan xanın (1295-1304) dövründə ciddi tədbirlər həyata keçirilmişdir.

downloaded from KitabYurdu.az

Qazan xanın bu məqsədlə iqtisadi, siyasi, maliyyə və vergi sahəsində apardığı islahatlar nəticəsində ölkədə istehsal (məhsuldar) qüvvələrinin inkişafı üçün nisbi sakitlik və imkan yarandı. İslam dinini qəbul edən Qazan xan bundan mərkəzi dövlət hakimiyyətini möhkəmlətmək, yerli oturaq feodalları və din xadimlərini öz tərəfinə çəkmək üçün məharətlə istifadə etmişdir. Qazan xanın iqtisadi-siyasi islahatlarının keçirilməsində məşhur tarixçi, səlnaməçi alim, "Cəmi-ət-tavarix" (tarixlər toplusu) əsərinin müəllifi və dövlətdə baş divan rəisi (vəzir) vəzifəsini tutan Fəzlullah Rəşid-əd-Din də (1247-1318) fəal iştirak etmişdir. O, N.Tusinin əsərlərinə yaxşı bələd olmuş və onu yüksək qiymətləndirmişdir. Görünür ki, 1295-1305-ci illərdə iqtisadi, xüsusilə maliyyə vergi sahələrində həyata keçirilən islahatlarda N.Tusinin irəlicədən göstərdiyi nəzəri və əməli töysiyələrin təsiri az olmamışdır. Çünki Qazan xanın bir sıra iqtisadi islahatları N.Tusinin fikirlərinə uyğun gəlir. Qazan xanın vergilərin növü, miqdarı, toplanması üsulu və vaxtı barədə qayda-qanun yaratması, bu sahədə dövlət nəzarətinin güçləndirilməsi tədbirləri Tusinin əvvəlcədən dediyi fikirlərlə uzlaşırdı.

Böyük mütəfəkkir, Azərbaycan alimi N.Tusinin iqtisadi-nəzəri görüşlərinin və bütövlükdə cəmiyyətə dair baxışlarını aşkarlamaq üçün ilk növbədə onun elm, elmin təsnifatı, mövzu və metodları haqqındakı fikirləri ilə tanış olmaq gərəkdir. Çünki onun elmə dair ümumnəzəri görüşlərində iqtisadiyyat, idarəetmə, maliyyə, mühasibat, evdarlıq kimi bilik sahələrinin rolu, mövzu və vəzifələri də mühüm əhəmiyyət kəsb edir.

Bu və ya digər məsələlərin araşdırılmasında N.Tusi ən çox Platonun və Aristotelin, Fərabinin (870-950) İbn Sinanın (980-1037), Bəhmənyarın ( XI əsr) əsərlərindən, ərəb, fars və türk dillərində olan digər elm və ərəbi mənbələrdən baçarıqla istifadə etmişdir. Təsadüfi deyildir ki, böyük ərəb

downloaded from KitabYurdu.az

alimi İbn Xəldun (XIV əsr) Şərqin dünyada tanınmış mütəfəkkirləri sırasında N.Tusinin də adını çəkir və onu yüksək qiymətləndirir. O yazır ki, Şərqdə məşhur olan N.Tusi İbn Sinanın fəlsəfi görüşlərini şərh etmiş, onu müdafiə etmiş və öz fikrini bildirmişdir.

N.Tusinin başlıca iqtisadi-nəzəri görüşlərini əks etdirən "Əxlaqi-Nasiri" əsəri cəmiyyətin iqtisadi, siyasi və idarəetmə məsələlərinə həsr olunmuşdur. Bu əsərdə o xüsusi bir üsul və ustalıqla fəlsəfi, əxlaqi və iqtisadi kateqoriya və anlayışlara konkret təriflərini, onun cəmiyyətin və insanın həyatında tutduğu yeri və oynadığı rolu aydınlaşdırmağa çalışmışdır. İnsan, onun ictimai-iqtisadi fəaliyyət və davranışı N.Tusi fəaliyyətinin özəyini təşkil etməklə elm aləmində xüsusi əhəmiyyət kəsb edir. Bunu nəzərdə tutub N.Tusi göstərir ki, elmin başlıca vəzifəsi mövcud varlıqların mahiyyətini düzgün dərk etmək, "İnsanın yaradıcı ağıllı və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdədir". [41]

N.Tusi insan və cəmiyyətin tərəqqisinə, maddi və mənəvi yüksəlişinə xidmət göstərən elmləri faydalı hesab edir. O, tamamilə haqlı olaraq bu qaydada hər işi görən, yaradan və quran - insandır fikrini soyləyir. Buna görə də insanı öz-özünü dərk etməsinə, tərbiyəsinə və kamilləşməsinə xidmət edən elm, təhsil ən şərəfli fəaliyyət sahəsidir deyir. N.Tusi yazır ki, «Bu dünyada mövcudatın ən şərəflisi olan insanı kamilliyə çatdırmaq məqsədi güdən sənət (elm) dünya sənətlərinin ən şərəflisi olmalıdır».[42] Dahi mütəfəkkirə görə «əsil elm adamlarının ruhu və rahatlığı da elmdədir».

N.Tusi elmin təsnifatı, obyekti və əsasları məsələsində Şərq klassikləri üçün səciyyəvi olan nəzəri sistemə əsaslanır. O, dövrünün elm sisteminə uyğun olaraq fəlsəfə, ilahiyyat, riyaziyyat, astronomiya, tibb, əxlaq, məntiq, iqtisadiyyat kimi elmi bilik sahələrini nəzəri elmlər sırasına daxil edir. Əməli (təcrübə) elm və əməli hikmət dedikdə isə o, idarəetmə və onun növlərini, evdarlıq, şəhərsalma, maliyyə, mühasiblik, hüquq və s. elm və sənət sahələrini nəzərdə tutur. Ümumiyyətlə, onun nəzəriyyəsində elm ilə təcrübənin vəhdəti, birinin digərini tamamlaması əsas tutulmuşdur.

[41] Bax: T.Vəliyev, A.Həsənov, Azərbaycan iqtisadi fikir tarixi, səh. 111.
[42] Yenə orada.

downloaded from KitabYurdu.az

Bunu nəzərdə tutaraq o yazır: «Fəzilətlərə yiyələnmək hələ kafi deyildir, əsl məsələ onları əməldə (işdə) həyata keçirməkdir».[43] N.Tusinin fikrincə nə qədər ki, elmi nəzəriyyə reallaşmayıb o bir qüvvə və məqsəd olaraq qalır. Bu qüvvənin fəaliyyətə çevrilməsi, yerinə yetirilməsi, onun müəyyən maddi şəkilə çevrilməsində, insanın maddi və mənəvi yüksəlişində özünü göstərir. O, hər bir elmin obyektinin (mövzu) müəyyən edilməsinə və onun hansı üsullarla dərk və təhlil edilməsinə xüsusi əhəmiyyət verir. N.Tusinin fikrincə elmin obyektini bilmədən onun məqsəd və vəzifələrini də təyin etmək olmaz. Bu baxımdan N.Tusi öz dövründə məşhur olan bir çox elmlərin, eləcə də iqtisadiyyatla məşqul olan elmlərin predmetini və öyrəndikləri hadisələr dairəsini müəyyən etməyə çalışır. N.Tusi burada ən çox Platonun və Aristotelin nəzəri fikir və anlayışlardan xüsusən İbn Sinanın «Məntiq» və «Metafizika» əsərlərindən geniş istifadə etdiyini göstərir. N.Tusi iqtisadiyyatı, idarəetmənin, ev təsərrüfatını, maliyyəni, əkinçiliyi öyrənən elm və bilik sahələrini də müəyyənləşdirir. Onun «Əxlaqi-Nasiri» əsərinin «Evdarlıq elmi haqqında» və «Ölkə idarəetmə qaydaları» haqqındakı məqalələrində həm elmlərin mövzusu, vəzifələri və rolunu təhlil edir. Əlbəttə, bu məsələdə qədim Yunan alimlərinin təsiri də özünü göstərmişdir. Onlar iqtisadiyyat anlayışlarını ev təsərrüfatı və onun qanunu kimi izah edirdilər. N.Tusinin orjinallığı bundadır ki, o, ev, ailə təsərrüfatını dar çərçivədə deyil, ictimai münasibətlərin bir üzvi hissəsi kimi şərh edir. Onun «Evdarlıq elmi» haqqındakı düşüncələri əməli əhəmiyyətə malik olan məsələdir. Heç təsadüfi deyil ki, hazırda dünyanın bir çox universitetlərində və kolleclərində «Evdarlıq» adı ilə xüsusi kurslar tədris olunmaqdadır.

N.Tusi idarəetmə, onun forma və üsullarına da geniş yer vermişdir. O, cəmiyyətin, ölkənin idarəedilməsini insanların və müxtəlif təbəqələrin arasında qarşılıqlı və ahəngdar müvazinət yaradılmasında görür. N. Tusi elmə, hikmətə və ədalətə əsaslanan idarəetmə elmini dərin incəliklərə malik olan, insanların həyatı üçün çox önəmli və əməli əhəmiyyətli bir elm hesab edir. O, hökmdarları və idarəedənləri həkimə bənzədir və göstərir ki, onlar elə bir səviyyədə olmalıdır ki, ölkə xəstələndikdə, onu müalicə edə

[43] Yenə orada, səh.111-112.

downloaded from KitabYurdu.az

bilsinlər, sağlam olduqda isə onun səhhətini qorumağı bacarsınlar.[44] N.Tusinin ən böyük xidməti iqtisadiyyatı öyrənən elmin mövzusu, yeri və cəmiyyətin tərəqqisində rolu haqqındakı yürütdüyü nəzəri fikirlərdir. Yuxarıda qeyd etdik ki, o ayrılıqda iqtisadi elmi anlayışını işlətmir. Lakin iqtisadiyyatı «İctimaiyyət» adlandırdığı elmin tədqiqat obyekti hesab edir. O, bu haqda yazır: «Bu elm (İctimaiyyət) hamının xeyrinə olan birgə əməyin həqiqi və ümumi inkişafı haqqında nəzəriyyədir. Bu elmin obyekti (mövzusu) ictimai əməklə birləşən və beləliklə istehsalı ən kamil təşkil edən insanlar münasibəti sistemidir... Deməli, hamı bu elmi öyrənməyə səy etməlidir ki, fəzilət sahibi olmağı baçarsın; əks halda rəftar... və davranışında səhvlərə yol verər.[45] Onun iqtisad elminin predmetinə verdiyi bu tərif çox müasir və bu gün bizim də vərdiş etdiyimiz və öyrəndiyimiz nəzəri anlayışa uyğundur.

N.Tusi cəmiyyətin və dövlətin həyatında mühüm əməli əhəmiyyət kəsb edən maliyyə və mühasiblik və sənət sahələrinin də vəzifələrini açıqlamışdır. O, dövlət xəzinəsinin gəlirləri və xərclərinin müəyyən edilməsində uçot və nəzarətin həyata keçirilməsində maliyyəçilərin və mühasiblərin xüsusi rolu olduğunu qeyd edir. O, bu qəbildən olan bilik və vəzifə adamları əhalidən alınan vergilərin miqdarına, dərəçə və ödənilməsi qaydalarına düzgün əməl etməli və bunları ədalət qanunları əsasında həyata keçirməlidirlər.

N.Tusinin öz iqtisadi baxımlarında cəmiyyətin ictimai-iqtisadi münasibətləri haqqındakı görüşləri bununla məhdudlaşmır. O, cəmiyyətdə istehsal, təkrar istehsal, bölgü və istehlak məsələlərinə, burada insanlar ictimai təbəqələr arasında yaranan münasibətlərə, onların tənzimi və idarəedilməsi məsələsinə toxunur. O, istehsalla istehlak arasındakı qarşılıqlı əlaqəni, bütövlüyü düzgün qavramışdır.

N.Tusi cəmiyyətin ilk ibtidai icmalarından başlamış, yetkin inkişaf mərhələlərinə qədər yüksəlişinə nəzər salaraq belə bir həqiqəti görə bilmişdir ki, insanın istehsal, birgə əmək fəaliyyətinin təbii və son məqsədi tələbatın ödənilməsidir.[46] O, bunu müəyyən ictimai formada təşəkkül

[44] T.Vəliyev, A.Həsənov, Azərbaycan iqtisadi fikir tarixi, c.113.
[45] Yenə orada.
[46] Bax: T.Vəliyev, A.Həsənov, Azərbaycan iqtisadi fikir tarixi, səh.119.

downloaded from KitabYurdu.az

tapan və fəaliyyət göstərən insan qruplarının ünsiyyət və əlaqəsində görür. Onun göstərdiyi kimi-təbiətdə insanın yaşayıb həyat sürməsi üçün hər cür imkan, torpaq, su, mədən, bitki, heyvanat və s. vasitələr mövcuddur - deyir. Bu vasitə və insanlardan ağıl və bacarıqla istifadə etmək və onları qoruyub saxlamaq insanın başlıca məqsədi olmalıdır. Təbiət, onun maddələri və əşyaları insanın şüurlu əmək fəaliyyətinin zəruri şərtidir. İstehsal prosesi yalnız «İnsanın əməyi və iradəsi, təbii vasitələrin köməyi və iştirakı ilə olur».

Dahi mütəfəkkir Azərbaycan alimi N.Tusi göstərir ki, insan ilk bəsit əmək alətlərindən və peşələrindən tədriclə yüksək sənət növlərinə doğru bir yüksəliş yolu keçmişdir. Onun fikrincə, insan təbiətən, anadangəlmə dülgər, zərgər, katib və ya başqa mütəxəssis kimi doğulmur. Bütün bunlar uzun sürən təcrübə və qazanılan bilik nəticəsində əldə edilir. Bununla bağlı o, haqlı olaraq təbiəti müəllim və ustada, sənət və sənətkarı isə şagirdə bənzədir.[47] Tarixi mənbələrdən göründüyü kimi, təbiət həmişə insanı düşünməyə, birləşməyə, axtarışa, özünü dərk etməyə və dəyişməyə vadar edən bir varlıq kimi yaratmışdır. Bu varlıq çərçivəsində insan özünü və nəslini yaşatmağa, təkrar istehsal etməyə möhtacdır. Bunu nəzərə alıb o, cəmiyyətin həyatında istehsalın və təkrar istehsalın yerini və rolunu düzgün qiymətləndirmişdir. Onun təkrar istehsal haqqında fikri çox sadə və aydındır. Əgər N.Tusinin yaşadığı feodal istehsal üsulu şəraiti nəzərə alınsa, onun bu haqda irəli sürdüyü fikir iqtisadi nəzəriyyə və onun tarixi («İqtisadi təlimlər tarixi») baxımından qiymətli görünür.

N.Tusi insanın əqli, fiziki və mədəni qabiliyyətlərinin təkmilləşdirilməsinə, yüksəlişinə və reallaşdırılmasına dair ən dəyərli fikir söyləyən mütəfəkkirlərdəndir. O, «hər kəsin bacarığına görə işləməsini, əməyinə görə haqq almasını» potensial və bölgüdə insanın maraqlarını təmin edən ən ədalətli prinsip hesab edirdi. O, həyatda, təcrübədə bu qanuna əməl edilməməsini ədalətin pozulması kimi qiymətləndirir. Əgər bu prinsip pozularsa «bir yerdə azlığa, başqa bir yerdə çoxluğa yer verilsə, ədalət pozular. İnsanlar içərisində fitnə-fəsad törəyər, ölkədə zorakılıq, zəiflik meydana gələr; kömək əvəzinə kələk gəlməyə başlayarlar, hərə öz xeyrinə başqasının zərərinə çalışar... nizam-intizam yox olar, yerini onun əksi olan

---

[47] Yenə orada.

downloaded from KitabYurdu.az

hərc-mərclik tutar».[48] Bununla yanaşı o, insanların fəaliyyətinin qiymətləndirilməsində, bölgüdə bərabərçiliyi də qəbul etmir. O, insanların fitri istedada, bacarığa, bilik səviyyəsi və sənətkarlıq dərəcəsi arasında mühüm fərq olduğunu göstərir və bunun nəzərə alınmasını da tövsiyə etmişdir.

Beləlikiə, N.Tusi «Əxlaqi-Nasiri» və «Maliyyə haqqında traktatları» əsərlərində keçmiş dövlətlərin tarixi təcrübəsindən, idarəetmə qayda-qanunlarından öz dövrünün dövlət quruluşundan və ən çox xalqa xidmət edən, onun mənafeyini ifadə edən ümumi bəşəri dövlətdən bəhs edir. O, mütləq monarxiya, aristoqrafiya (bir qrup ziyalıların idarəsi) və demokratiya formalarından danışır. Bunların hər birinin müəyyən tarixi şərait, zaman və məkan daxilində mümkünlüyü ideyasını əsaslandırmışdır. Bir sözlə N.Tusi Azərbaycan və dünya iqtisadi fikir tarixində mühüm yer tutan mütəfəkkir alim və dövrünün (XIII əsr) böyük iqtisadçısıdır.

---

[48] T.Vəliyev, A.Həsənov, Azərbaycan iqtisadi fikir tarixi, səh.124.

downloaded from KitabYurdu.az

# FƏSİL 5. QƏRBİ AVROPADA İQTİSADİ TƏLİMLƏRİN MEYDANA GƏLMƏSİ. MERKANTİLİZM

## § 1. ORTA ƏSRLƏRDƏ QƏRBİ AVROPANIN İQTİSADİ İDEYALARI. F.AKVİNSKİNİN BAXIŞLARI

Orta əsr dövrlərinin iqtisadi ideya və baxışları dini örtükdə olmuş və bizə də elə o formada gəlib çatmışdı. Orta əsr cəmiyyətinin mənəvi və iqtisadi həyatı din xadimlərinin və dini qurumların təsiri altında formalaşmışdı və bu təsir o qədər güclü olmuşdur ki, cəmiyyətin iqtisadi həyatına aid olan bütün mülahizələrə bir qayda olaraq dini-əxlaqi forma verilmişdi və təsərrüfat fəaliyyətinin qaydaları dini etik prinsiplərə əsaslanmışdı. Bu dövrdə iqtisadi həyat müstəqil tədqiqat obyekti kimi formalaşmamışdı. Lakin bütün bunlar o demək deyildir ki, orta əsrlərdə Qərbi Avropada iqtisadi həyatı əks etdirən sırf ideya və baxışlar olmamışdı.

Orta əsrlərdə Qərbi Avropanın ictimai fikrində kononist iqtisad nəzəriyyələr mühüm yer tutmuşdu və iqtisad elminin tarixinin şərhini verən bəzi iqtisadçılar iqtisad elminin ilkin tarixini kononistlərdən başlamağı məqsədəuyğun hesab edirlər; onları XIII əsrin bazar təhlilinin pionerləri adlandırırlar və kononist nəzəriyyənin sonrakı klassik iqtisad elminə mühüm təsir etdiyini qeyd edirlər. Hətta sanballı "İqtisadi təhlilin tarixi" (1954-cü il) əsərinin müəllifi olan görkəmli Amerikan iqtisadçısı Y.Şumpeter A.Smitin "Xalqlar sərvəti" əsəri də öz əsaslarını fiziokratlardan və XVIII əsr Britaniya fitredçilərindən deyil, məhz kononistlərdən və təbii hüquq filosoflarından götürdüyünü göstərir. İqtisad elminin tarixi və metodologiyası ilə intensiv məşğul olan digər görkəmli Amerikan iqtisadçısı M.Blauq da A.Smitin kononistlərin baxışlarını inkar etdiyini göstərsə də, kononist nəzəriyyənin A.Smitə XVII əsr təbii hüquq fəlsəfəçilərindən gəldiyinə də şübhə etməmişdi. Fiziokratların əsərləri də kononist əlamətlərdən xali olmadığı da göstərilir və F.Kenenin özünü də çox vaxtı XVIII əsrin F.Akvinski kimi səsləndirmişlər. İqtisadi ədəbiyyatda

downloaded from KitabYurdu.az

K.Marks da əmək-dəyər nəzəriyyəsi ideyasını kononist "ədalətli qiymət" nəzəriyyəsindən götürməsi haqqında fikir də mövcuddur.

Kononist nəzəriyyə kilsə hüququnu təfsir edən kilsə hüquqşünasları tərəfindən yaradıldığından onlar iqtisadi fəaliyyətə hüquqi cəhətdən yanaşmışlar. Onlar həmişə iqtisadi məsələlərə sazişin (alverin, alqı-satqının) həyata keçirilməsində istifadə olunan sazişlərin tipləri mövqeyindən yanaşmışlar. Onlar bazar davranışını əxlaq problemi kimi təsvir etmişlər.

Kononistlər iqtisadi məsələləri çox vaxtı Aristotelin baxışlarına münasibət bildirməklə və onun mövqeyini əsas götürməklə şərh etmişlər. Lakin sosial imtiyazlar iddiasında olan kilsənin özünün xüsusi motivləri həlledici əhəmiyyət kəsb etmişdi.

Kononistlərin ilkin banisi Avqustin Blajenin (353-430), sonrakı inkişaf mərhələsinin ən nüfuzlu siması Foma Akvinski (Akvinat - 1225-1274) olmuşdu.

Kononistlərin baxışlarında: 1) qiymətin əsas mənbəyi kimi faydalılıq, 2) "ədalətli qiymət" ideyası, 3) pul kapitalının qeyri-məhsuldarlığı haqqında fikir xüsusi yer tutmuşdu. Bu fikirlər onların elmi nailiyyəti hesab olunur. Onlar dəyər konsepsiyasını "faydalılıq üstəgəl nadirlik" ilə ifadə olunmuş formula ilə inkişaf etdirmişlər. Onların dəyər konsepsiyası faydalılığa əsaslanmışdır. Kononistlər ilk  əvvəllər dəyəri bilavasitə istehlakın ödənilməsilə, son variantda isə nadirliklə əlaqələndirmişlər. F.Akvinski bütün nemətlərin dəyərinin yalnız nisbətən insan tələbatlarının ödənilməsi ilə ölçülməsi fikrini söyləmişdir. Lakin onun "ekvivalentlik" haqqında fikri kononistlərin, əvvəlki fikri inkar edən əmək-dəyər nəzəriyyəsinə tərəfdar olması haqqında da rəy yaratmışdı. Çünki, F.Akvinski "ədalətli qiyməti" mübadilənin ekvivalentliyi və "ekvivalentliliyin" özünü isə məsrəf, əsasən də əmək məsrəfi kimi başa düşülməsi niyyətində olmuşdu.

Kononistlərin "ədalətli qiymət" ideyası rəqabətdən asılı olmayan adi qiymətdir. Onlar qiymətlərin qoyulmasına və tənzimlənməsinə şübhə etməmişlər və bunun kübar cəmiyyətin ədəb və adətlərinə uyğun olduğunu göstərirlər. Onların "ədalətli qiymət" haqqında baxışları birmənalı olmamışdı və olduqca ziddiyyətli olmuşdu.

downloaded from KitabYurdu.az

F.Akvinskinin "ədalətli qiymət" haqqında fikiri ilkin məktəbin nümayəndəsinin fikrindən tamamilə fərqli olmuşdu. İlkin məktəbin nümayəndəsi Avqustin "ədalətli qiymət" altında istehsal xərclərinə bərabər olan qiyməti başa düşmüşdü. İlkin məktəb "mütənasib tarazlığın gözləmə cəmiyyəti tənəzzülə aparması" fikrini söyləmişdi.

F.Akvinski isə "ədalətli qiyməti" cari bazar qiyməti ilə eyniləşdirir. Onun fikrincə "ədalətli qiymət", təkcə istehsal xərclərini ödəməməlidir, həm də kübar dairələrə mənsub olan adamların yaşamasını da təmin etməlidir. Bununla o, silki mənfeyləri müdafiə edir, mübadiləni qazanca bərabər olan xalis subyektiv akt və şeyləri, onların qiymətindən baha satmağı kübar hakimiyyətinin hüququ hesab edir. Beləliklə, qiymətqoyma prosesini istehsalçıların ictimai statusu ilə müəyyən edir və bu prosesin mübadilə iştirakçılarının ictimai statusundan asılı etmiş olur.

F.Akvinskinin "təbii" və "bazar" qiymətləri arasında əsaslı fərq olduğu haqqında da fikiri olmuşdu. O "ədalətli qiymətin" Allah tərəfindən müəyyən edilməsi haqqında fikir formalaşdırmışdı. O öyrədir ki, Allah qanunu belə deyir: əgər predmet (əşya) "birinin xeyrinə və digərinin ziyanına hərəkət edirsə", onda "bu halda qaydaya görə predmeti öz dəyərindən baha satmaq mümkün olacaq". Bununla yanaşı o, ümumiyyətlə "sahibinə neçəyə başa gəldiyindən baha satılmayacaq", çünki artırılma satıcı həmin predmetdən məhrum olmaqla özünə vurduğu ziyanı kompensasiya edir.

Kononistlər ticarət mənfəətinin və faizin mənimsənilməsinə "ədalətli qiymətə" görə mübadilənin pozulması kimi baxmışlar. Ona görə də onlar mənfəət əldə etmək məqsədilə olan iri ticarətin və sələmçiliyin qadağan olunması fikrində olmuşlar. F.Akvinskinin mühakimələrində əmtəə istehsalı ikinci dərəcəli yer tutmuş, o pulun dəyər ölçüsü və tədavül vasitəsi kimi zəruriliyini qəbul etmişdi. Faizi isə "faydasız metalın" törəməsi kimi izah etmişdi. Kononistlər borc pula faizin bütün müxtəlif növlərini "sələmçilik" kimi şərh etmişlər. F.Akvinski qeyd edir ki, pul pul törədə bilmir, onun qazanc əldə etmək üçün istifadə edilməsi mümkün deyil.

Kononistlər əmək, mülkiyyət və renta haqqında da müəyyən mülahizələr söyləmişlər. Əməyi müsbət qiymətləndirərək onu həyat üçün

downloaded from KitabYurdu.az

zəruri hesab edirlər və onun mərhəmət verdiyini qeyd edirlər. İlkin kononistlər əməyi fiziki və əqli əməyə ayırmayıb, onları bərabər qiymətləndirib və cəmiyyətin ictimai statusuna təsir etmədiyini dedikləri halda, F.Akvinski isə fiziki və əqli əmək arasında fərq qoyub, insanların ictimai statusunun onunla müəyyən edildiyini güman edibdir. O əvvəlki dini təlimlərdə olan bərabərlik ideyasına həmrəylik göstərməmiş və sosial bərabərliyə cəhd göstərməyi çox ciddi mühakimə etmişdir və cəmiyyəti iyerarxiya və silk kimi təsvir etmişdi. O quldarlığı faydalı hesab edir, onun kökünü insanların təbii fərqində və onların günahında görür.

F.Akvinski bütün əşyaların təbiətən eyni və onların Allaha məxsus olduğunu və insanın onlardan ancaq istifadə edə bilməsini qeyd etməklə yanaşı, xüsusi mülkiyyəti ümumi xeyir və şəxsi mənafe xatirinə zəruri sayır. O qeyd edir ki, zəruri ehtiyaclar çərçivəsində mülkiyyət təbiidir, çünki öz işlərinin yaxşı qayğısına qalmağa, insanlarla dinc münasibət qurmağa məcbur edir. Renta kononistlər tərəfindən torpaq mülkiyyətçisi öz tabeliyində olanları idarə etdiyinə görə onun əməyinin haqqı kimi şərh olunmuşdu.

## § 2. MERKANTİLİZMİN MAHİYYƏTİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

İqtisadi nəzəriyyənin ilkin tarixi merkantilizmdir. Merkantilizmə qədər iqtisadi nəzəriyyə müstəqil tədqiqat sahəsi olmamış, iqtisadi tədqiqatlar sistemsiz şəkildə aparılmış, hətta iqtisadi fəaliyyətin özü belə müstəqil fəaliyyət sahəsi kimi qəbul edilməmişdi. Merkantilizm iqtisadi fəaliyyəti, iqtisadi hadisə, prosesləri və qanunauyğunluqları ilk sistemli öyrənən nəzəri praktiki sistem olmuşdu.

Kapitalist iqtisadiyyatının və baza münasibətlərinin mahiyyətini və təzahür formalarını ilk dəfə öyrənən merkantilistlər olmuşdu. Merkantilizm (italyanca merkante sözü olub, mənaca tacir deməkdir) kapitalist iqtisadiyyatının ilk nəzəri işlənilməsidir. Bazar iqtisadiyyatının "ticarət sistemi" kimi öyrənilməsidir. Merkantilizm bazar iqtisadiyyatının konseptual əsasını təşkil edir və bazar təsərrüfatlı iqtisadi sistemin iqtisadi siyasəti və nəzəriyyəsi öz başlanğıcını ondan götürür. Sonrakı iqtisadi

downloaded from KitabYurdu.az

siyasət və nəzəriyyə sistemləri isə merkantilizmin tənqidi əsasında yaranmışdı.

Merkantilizm XV-XVIII əsrlərdə Qərbi Avropa ölkələrində iqtisadi siyasətin və iqtisadi fikrin əsas cərəyanı olmuşdu. Bunu həmin dövrlərdə Qərbi Avropa ölkələrinin iqtisadi inkişafında baş vermiş sosial iqtisadi dəyişikliklərlə: böyük coğrafi kəşflər, ilkin kapital yığımı prosesi, əmtəə-pul münasibətlərinin inkişafı, milli bankların yaranması, dünya bazarının yaranması və beynəlxalq ticarətin genişlənməsi və s. əlaqələndirmək lazımdır.

Merkantilist ideyalar və prinsiplər müasir bazar təsərrüfatlı sistemlərdə indinin özündə də istifadə edilir. Bunlar ümumi əlamətləri merkantilistlər tərəfindən işlənib hazırlanmış mübadilə konsepsiyanı, proteksionist tədbirləri, aktiv ticarət balansını və s. bu cür tədbirləri aid etmək olar.

Merkantilizmin əsas ideyaları və prinsipləri aşağıdakılardan ibarət olmuşdu: Qiymətli metalların və onların yığımı sərvətin mahiyyətini əks etdirməsi; dövlətin sərvətinin və gücünün qızıl və gümüş yığımı yolu ilə artırılması; ölkəyə qızıl və gümüş axının təmin olunması məqsədilə xarici ticarətin tənzim edilməsi; ucuz xammalın idxalı yolu ilə sənaye inkişafına kömək etmək; idxal olunan sənaye məhsullarına proteksionist tariflərin qoyulması; ixracın, xüsusən hazır məhsulun ixracının həvəsləndirilməsi; əmək haqqının aşağı səviyyəsini saxlamaq üçün əhalinin artırılması və s. öz dövrü üçün bu ideyalar iqtisad elminin ciddi nailiyyəti idi. Merkantilist ideyalar və prinsiplər o dövrün iqtisadi inkişafının əsl qanunauyğunluqlarını və tələbatını əks etdirmişdi.

"Siyasi iqtisad" terminin özünün də meydana gəlməsi merkantilizmlə bağlıdır. Bu termin ilk dəfə fransız merkantilisti A.Monkretyen tərəfindən işlədilmişdi. O, 1615-ci ildə "Siyasi iqtisadın traktatı" adı altında kitab nəşr etdirmişdi.

Göstərildiyi kimi merkantilizm həm iqtisadi siyasət və həm də iqtisadi nəzəriyyələr sistemi olmuşdur. Merkantilist iqtisadi siyasəti - ölkədə və dövlət xəzinəsində qiymətli metalların, yəni pulun hər vasitə ilə toplanmasından; nəzəriyyəsi isə iqtisadi qanunauyğunluqları tədavül sahəsində, xüsusən xarici ticarətdə və pul dövriyyəsində axtarılmasından

downloaded from KitabYurdu.az

ibarətdir. Merkantilist siyasətin yeganə məqsədi dövlətin sərvətini və qüdrətini artırmaqdan ibarət olmuşdu. Bunun yollarını "ticarət sistemində" axtarır. Merkantilizmin ideyaları ticarət və pul kapitalı nümayəndələrinin (tacirlərin və sələmçilərin) mənafeyini müdafiə edirdi. Merkantilistlər millətin sərvətini mahiyyət etibarı ilə ticarət kapitalının mənafeyi baxımından nəzərdən keçirmişlər. Qeyd edək ki, kapitalın tarixən ilkin forması ticarət kapitalı olmuşdur. Sənaye kapitalı tədricən bu formadan meydana gəlmişdi. Ticarət kapitalının qanunu-satmaq üçün satın almaqdır.

Merkantilizmin məğzini və məqsədini ölkəyə pulun, yəni qiymətli metalın cəlb edilməsi təşkil edir. Hər cür sahibkarlığın başlanğıcını, çıxış nöqtəsini pul təşkil edir. Bu pul da, sahibkarlar onun vasitəsilə fəhlə tutduqda, emal üçün və ya yenidən satmaq üçün əmtəə satın aldıqda pul kapitalına çevrilir. Bu fakt merkantilizmin əsasında durur.

Merkantilistlər əsas diqqətlərini tədavül sferasına verirlər. Onlar istehsala sadəcə olaraq sərvəti artırmaq üçün bir vasitə kimi baxırlar. Onların təlimində istehsal xarici ticarətin məqsədinə tabe etdirilir. İstehsal pulun xaricə axmaması işinə xidmət etməli olur. Onlar əsasən sərvətin mübadilə dəyəri formasına diqqət vermişlər. Sərvəti pul ilə eyniləşdirmişlər, onu qızıl və gümüş yığımından ibarət təsəvvür edirlər və çox pulu olan dövləti daha varlı sayırdılar. Sərvətin mənbəyini tədavül sferasında, əsasən xarici ticarətdə görürlər. Qeyri-ekvivalent mübadiləni əsas götürürlər və ucuz alıb baha satmağı sərvətin mənbəyi hesab edirlər. Ona görə də, onlar iqtisadi siyasətlərini həyata keçirmək üçün dövlət müdafiəsinə möhtac olmuşlar. Merkantilist müdrikliyinin yüksək zirvəsi-xaricdən satın alındığından daha çox xaricə satmaq olmuşdu.

Merkantilistlər, yalnız qızıl və gümüş hasilatı üzrə əməyi və ya ölkəyə qiymətli metalların axınını təmin edən (sənayenin ixrac sahələrindəki, xarici ticarətdəki) əməyi məhsuldar əmək hesab edirlər. Onlar görürlər ki, qızıl və gümüş hasilatına sərf olunan əmək və həmçinin ixrac sahələrindəki əmək, digər sahələrdə tətbiq olunan əməkdən çox mənfəət gətirir.

Merkantilizm öz tarixi inkişafında iki mərhələ keçirir. İlk merkantilizmin (XV-XVI əsrlərdə) əsas nümayəndələri U.Stafford (İngiltərədə), Q.Skaruffi (İtaliyada) olmuşdur. İnkişaf etmiş merkantilizmin

downloaded from KitabYurdu.az

(XVII-XVIII əsrlərdə) başlıca nümayəndələri T.Man (İngiltərə), A.Serra (İtaliya), A.Monkretyen (Fransa) olmuşdur.

Merkantilizmin bu iki mərhələsi bir-birindən pulun az xərclənməsi və onu çoxaltmaq üçün təklif etdikləri üsul və tədbirlərlə fərqlənir. İlk merkantilizm qanunvericilik yolu ilə milli miqyasda pul sərvətinin artırılmasına yönəldilmiş monetar siyasət yerinə yetirmişdir. Onların fikrincə sərvət pula sahib olmaqdır. Fərd kimi, dövlət də əgər sərvətini artırmaq istəyirsə əldə etdiyindən az xərcləməlidir. Onlar bu artıqlığı qiymətli pulun (metalın) və yaxud yığımın əldə olunması ilə eyniləşdirmişlər.

İlk merkantilistlər öz "pul balansı" nəzəriyyələri ilə pula əslində dəfinə kimi yanaşır və hər bir alqının onun miqdarını azaltdığını göstərib, imkan daxilində xaricdən alqıdan imtina etməyə çalışırdılar. Ölkədə nəğd pulun (qızıl və gümüş) daha çox toplanması məqsədi ilə onların xaricə ixrac olunmasını qadağan edirlər.

İdxalı məhdudlaşdırırlar, qızıl və gümüş hasilatını gücləndirirlər, gətirilən mallara yüksək gömrük qoyurdular. Əcnəbilər ölkədən ancaq yerli məhsullar apara bilərdilər. Bu tədbirləri çox vaxtı iqtisadi yollarla yox, inzibati vasitələrlə həyata keçirirdilər. Belə ki, xarici ölkələrə gedən ingilis tacirləri yalnız müəyyən sahələrlə alver etməli və ingilis hökumətinin xüsusi nümayəndələrinin nəzarəti altında olmalı idilər. Bunda məqsəd o idi ki, satılan ingilis malları müqabilində əldə edilən pulun bir hissəsi İngiltərəyə gətirilsin.

İngiltərəyə gələn əcnəbi tacirlərin də üzərində xaricə pul aparmasın deyə nəzarət qoyulurdu. Hər bir əcnəbi tacir öz pulunu ingilis xəzinəsində ingilis pullarına dəyişməli və bütün pullarını xərcləməli, yəni ingilis malı almalı idi. Bütün bu tədbirlər isə getdikcə xarici ticarətin inkişafına mane olurdu.

Ona görə də son merkantilistlər ağırlıq mərkəzini pul tədavülü sferasından əmtəə mübadiləsi sferasına keçirirlər. Xaricə pul ixracının qadağan edilməsindən, xarici malların idxalının məhdudlaşdırılmasından imtina edirlər və öz diqqətlərini milli, hər şeydən əvvəl sənaye məhsullarının ixracının sürətlənməsinə, bazarların, o cümlədən müstəmləkələrin alınmasına yönəltmişlər.

downloaded from KitabYurdu.az

İnkişaf etmiş merkantilizm "aktiv ticarət balansı" sistemini müdafiə edir. Bu mərhələdə merkantilistlər pula həqiqi kapitalist kimi yanaşır, onlar başa düşürlər ki, pulun yeni pul yaratması üçün o, hərəkətə gətirilməlidir. Onlar xarici ticarəti inkişaf etdirməyi tələb edirlər. Yetkin merkantilistlərin nəzəriyyəsinin əsasında milli rifahın vacib şərti kimi aktiv ticarət balansı nəzəriyyəsi durmuşdu

İnkişaf etmiş merkantilizm ixracatın nisbətən artıq olması vasitəsi ilə ölkəyə pul toplamağı və aktiv ticarət balansını təmin etməyi əsas götürür. Aktiv ticarət balansını təmin etmək üçün merkantilizmin mühüm tələbi-himayəçilik siyasəti, dövlətin təsərrüfat həyatına bilavasitə qarışması siyasəti olmuşdu.

## § 3. AYRI-AYRI ÖLKƏLƏRDƏ MERKANTİLİZMİN XÜSUSİYYƏTLƏRİ

Müxtəlif ölkələrdə merkantilizmin özünə məxsus xüsusiyyətləri olmuşdur. Ən inkişaf etmişi və tipiki ingilis merkantilizmi olmuşdu. İngiltərədə merkantilizm iki əsr (XVII əsrin 2-ci yarısında - XIX əsrin 2-ci yarısına kimi) rəsmi dövlət siyasəti olmuşdur. Bu, İngiltərədə iqtisadi inkişafın sürətli olması və ingilis burjuaziyasının yetkinliyi ilə izah olunur. Yetkin ingilis merkantilizminin ideyaları Tomas Man (1571-1641-ci illər) tərəfindən yaradılmışdı. Man 1615-ci ildə ilk dəfə olaraq Şərq-hind kampaniyasının direktorları şurasına seçilir. O, ticarət strategi olmuşdur. Yetkin ingilis merkantilizminin əsas prinsipləri: xammal (xüsusən yun) ixracı qadağan edilməsi və hazır məmulat ixracı olmuşdur. Xarici ölkənin sənaye mallarının İngiltərəyə daxil olması yüksək gömrük haqqı ilə məhdudlaşdırılmışdır ki, bu da vətən manufakturalarının inkişafına kömək edirdi. Həyata keçirilən tədbirlərin mühüm məqsədi qiymətli metalların ölkəyə axınının artırılması idi. Donanmaya böyük diqqət yetirilirdi, çünki o, dünyanın bütün sahələrinə yük daşımalı və ingilis ticarətini müdafiə etməli idi.

T.Man xarici ölkə mallarının alınması üçün ölkədən qiymətli metalların ixracını qadağan edən tədbirlərə qarşı inadlı mübarizə aparmış. O, sübut edir ki, hind mallarını satın almaq üçün ixrac edilən gümüş heç də

downloaded from KitabYurdu.az

itirilmir, əksinə böyük artımla İngiltərəyə qayıdır. Bu malların xeyli hissəsi Avropanın digər ölkələrinə yenidən gümüş və qızıla satılır. O yazırdı ki, sonradan məhsul almaq üçün kəndliyə taxılı torpağa səpmək lazım olduğu kimi, tacirə də pulu aparıb xarici ölkə mallarını satın almaq lazımdır ki, sonradan daha çox öz malını satsın və əlavə pul məbləği şəklində millətə xeyir versin.

T.Man başa düşürdü ki, ölkəyə qiymətli metalların axını daxili qiyməti yüksəldir və "ucuz almaq, baha satmaq" nəzəriyyəsi ölkənin özünün əleyhinə çevrilir. O, pul yığımını "ölü yükə" bənzədir və pulu artırmaq üçün onun hərəkətə gətirilməsini tələb edir.

Fransız merkantilizminin iqtisadi ideyaları Antuan Monkretyenin (1575-1621), "Siyasi iqtisadın traktatı" əsərində verilmişdir. Monkretyen hesab edir ki, "insanların xoşbəxtliyi sərvətdədir, sərvət isə əməkdədir", bolluq (israfçılıq) yalnız yerli məhsulların istehlakı, onun istehsalçılarının işi olduğu və "mənfəətin ölkə daxilində qaldığı" halda qanunidir. Əcnəbiləri Fransadan sərvəti çıxaran nasosla müqayisə edir. O, onların qovulmasını, sənayenin inkişafını və onun məhsulunun təkmilləşdirilməsini təklif edir. İqtisadi həyata dövlətin müdaxilə etməsinin, vergilərin alınmasının və ticarət mənfəətinin tərəfdarı olmuşdu.

Monkretyen xarici ticarəti genişləndirməyə kömək etməyi təklif etməmişdir. Onun əsərlərində monotarizmin izləri qalırdı. Merkantilizmin əksinə olaraq "təbii sərvətə" (taxıla, duza, çaxıra və s.) birinci dərəcəli əhəmiyyət verir. O, hesab edir ki, dövləti qızılın və gümüşün miqdarı yox, "həyat və geyim üçün lazım olan predmetlərin olması" varlı edir.

Merkantilizmi təcrübədə həyata keçirən Fransada XIV Lüdovikin maliyyə naziri Kolber (1619-1683) olmuşdu. O, dövlət gəlirlərini aktiv ticarət balansı vasitəsi ilə artırmağa çalışır. Kolberinin merkantil siyasətinin əsas və ən səciyyəvi cəhəti ölkədə manufaktura inkişafına himayədarlıq idi. Bu siyasət bir sıra himayəçi - qoruyucu xarakterli tədbirlər vasitəsi ilə həyata keçirilirdi. Fransız əmtəələrinin xaricə ixracını şirnikləndirməklə yanaşı, hazır əcnəbi mallar idxalı azaldılır. Bu məqsədlə idxalat gömrükləri sistemi tətbiq edilmişdir. Xarici manufakturaların mallarına yüksək gömrük qoyulurdu. Kolber, dövlət büdcəsindən manufakturalara mükafat və müstəqil yardım etmək üçün bir milyon lirə pul ayırmışdı. Digər

downloaded from KitabYurdu.az

tərəfdən Fransada kənd təsərrüfat xammalı və məhsulları ixracına icazə verilmirdi, bununla da ölkədə manufakturalar üçün əlverişli şərait yaratmağa çalışırdı. İstər daxili, istərsə də xarici ticarəti inkişaf etdirmək üçün nəqliyyat vasitələri də inkişaf etdirilirdi. Bütün bu tədbirlərdə məqsəd xarici ixracatı artırmaq, idxalı məhdudlaşdırmaqla aktiv ticarət balansı siyasətini həyata keçirmək idi.

Merkantilistlərin bütün əsərlərinin ana xəttini ixracın idxaldan üstünlüyünün iqtisadi rifahın göstəriciisi olması fikri təşkil etmişdi. Onlar ticarət balansının aktiv saldosunu millətin sərvətinin yeganə göstəricisi hesab etmişlər, onu ölkənin xarici ticarətdən əldə etdiyi yeganə qazanc adlandırmışlar. Merkantilistlər ticarət balansının aktiv saldosu haqqında danışdıqda, ya ölkəyə qızılın cəlb olunmasını, ya da xarici ölkələrə kreditin verilməsini, daha doğrusu kapital ixracını tələb etmişlər.

downloaded from KitabYurdu.az

# FƏSİL 6. ÍÏÀÖÖÊÍ ÖÊÌÀÖÊ İQTİSAD ÐÇÍTÇÁÊÑÊÑ ÐÆÌÅÀÑÀ ÎÇÏÐÇÖÊ

## §1. KLASSİK SİYASİ İQTİSAD MƏKTƏBİNİN YARANMASININ TARİXİ ŞƏRAİTİ VƏ XÜSUSİYYƏTLƏRİ

Íïàööêí öêìàöê êã÷êöàå ðçí÷çáê íêðê ÷àñëñàñ æïðê êö÷êãàðç÷ íàôê÷àïêö÷ êö÷æüöàï ùöøïøñøñ áçõãçõàõ òïðàöë êïç áêõ âàû÷åà ðæìåàñà ýëûðëÿåëõ. XVI çöõåçñ áàÿïàìàõàã Êñîêï÷çõçåç úæòååàï ðùñàöêáç÷ïçõêñêñ åààëïðààà áàÿïàðàöë êïç þçðêìç÷åç íàôê÷àïêö÷ êö÷æüöàï ðùñàöêáç÷ïçõêñêñ öùõç÷ïê êñíêÿàúë ñçéçõç ýàõôðààà áàÿïàåë. Öòìàøñýøïøã ôõòöæöêñêñ åààâàð æ÷ðçöê, íçñå ÷çöçõõùúà÷ëñåà ýàïëÿàñïàõëñ ðùúïêöïçÿðçöêñç âç ÷òõôàãååàñ ðçüõøð òïàõàã ðøéåïø çðçí òõåøöøñøñ öëõàïàõëñà åàûêï òïðàöëñà öçáçá òïøõ, ÷òõôàã öàüêáíçõêñêñ «áøõèøàïàÿðàöë» áàÿ âæõêõ âç íàôê÷àïêö÷ ÷êôïê úæõðæõ ÷çöçõõùúà÷ëñà êö÷êãàðç÷ïçñçñ «ìæñê éàåçîàñïëã» úòõðàïàÿëõåë.

Íàôê÷àïêö÷ ðùñàöêáç÷ïçõê öçñàìæåç åç êñíêÿàú æåêõ âç àõ÷ëã ÷êþàõç÷ - åç íàôê÷àï ãòìøïøÿøñøñ çüçðêìç÷ïê öúæõàöëñà ýæâõêïêõåê.

Ðæõíàñ÷êïêéð áêõ êã÷êöàåê þçõçìàñ íêðê öçüñçåçñ ýëûðààà áàÿïàöà åà, íàôê÷àïêö÷ êñíêÿàúë ìòïøñà ùé ÷ø÷ðøÿ óïíçïçõåçñ ìàïñëé çñ ãàáààãþëïïàõë - Êñîêï÷çõç âç Úõàñöàåà íïàööêí öêìàöê êã÷êöàåëñ êåæìàïàõë íóí öàïà áêïðêÿåê. Ãæìå æ÷ðçí ïàéëðåëõ íê, ðæõíàñ÷êïêéðêñ öëõàååàñ ýëûðàöëñà, êã÷êöàåê úçàïêìç÷ç åóâïç÷êñ áêõááÿà ñçéàõç÷êñê ðçüåøåïàÿåëõàñ ðæìïïçõ åç ÷çíàñ âæõåê. Ñç÷êþçåç, àéàå öàüêáíàõïëã êåæìàïàõëñà îæñêÿ ðæìååàñ âæõêïåê íê, áø åà Ô.Öàðøæïööòñøñ úêíõêñç îóõç, ðæõíàñ÷êïêéðêñ óé ìæõêñê ìæñê íòñöæôöêìàìà - åóâïç÷êñ êã÷êöàåê ôõòöæöïçõç ãàõëÿðàðàöë ôõêñöêô-ïçõêñç çöàöïàñàñ **êã÷êöàåê ïêáæõàïêéð íòñöæôöêìàöëñà** âæõåêìêñç åçïàïç÷ æåêõåê.

Áàÿ âæõðêÿ öòöêàï-êã÷êöàåê åçìêÿêíïêíïçõ öêìàöê êã÷êöàå æïðêñêñ åç ûàõàí÷æõêñåç åçìêÿêíïêíïçõç öçáçá òïàø. Ðçüé áø åóâõåç öêìàöê êã÷êöàåëñ ìæñê, üçãêãê æïðê ðçí÷çáê úòõðàïàÿðààà áàÿïàåë íê, áø ðçí÷çáê åç öòñõàïàõ íïàööêí ðçí÷çá àåïàñåëõåëïàõ. Áø ðçí÷çáê òñà îóõç “íïàööêí” ðçí÷çá àåïàñåëõëõïàõ íê, òñøñ ðùàöêõ êã÷êöàå æïðêñåç åç óéùñç ìæõ ÷àôàñ áêõ

downloaded from KitabYurdu.az

ýòû ñçéçõêìçïçõê âç ðæ÷òåòïòèê ðùååçàïàõë çöï æïðê ðàüêìç÷ íçöá æåêõåê. Ýùñíê ÷çååâùï öúæõàöëñåà áàÿ âæõçñ öç÷üê ùàåêöçïçõê ùðøðêïçÿåêõðçíïç ðçÿäøï òïàñ ðæõíàñ÷êïêö÷ïçõåçñ úçõãïê òïàõàã, íïàööêí ðçí÷çáêñ êã÷êöàåýëïàõë íàôê÷àïêéðêñ ååûêïê êã÷êöààê çïàãçïçõêñê âç àöëïëïëãïàõëñë óïõçñêõåêïçõ. Òñïàõëñ ÷çåãêãà÷ òáìæí÷ïçõêñê ðàååê êö÷æüöàï ÷çÿíêï æåêõåê. Í.Ðàõîö ìàéëõåë íê, ðùàöêõ öêìàöê êã÷êöàå, ÷çåãêãà÷ëñ êö÷êãàðç÷ê ÷çååâùï ôõòöæöêñåçñ êö÷æüöàï ôõòöæöêñç ìóñçïåêìê éàðàñ üçãêãê æïðç ýæâõêïðêÿ òïøõ. Ò, **íïàööêí öêìàöê êã÷êöàå** àï÷ëñåà Ø.Ôæ÷÷êåçñ áàÿïàìàõàã, íàôê÷àïêö÷ êö÷æüöàï ðùñàöêáç÷ïçõêñêñ ååûêïê àöëïëïëãïàõëñë ÷çåãêã æåçñ áù÷ùñ öêìàöê êã÷êöààë ñçéçõåç ÷ø÷øõåø.

## § 2. U.PETTİ - KLASSİK SİYASİ İQTİSADIN BANİSİDİR

Êñîêï÷çõçåç íïàööêí öêìàöê êã÷êöààëñ ááñêöê Ø.Ôæ÷÷ê (1623-1687) òïðøÿåøõ. Ò, ûëõåà öçñç÷íàõ àêïçöêñåç àñàààñ òïðøÿ, Ïæìàæñ, Ôàõêö âç Òíöúòõå øñêâæõöê÷æ÷ïçõêñåç çïà ÷êááê ÷çüöêï àïðëÿåëõ. Ò, ðùû÷çïêú þçüç÷ïê êö÷æååàà ðàïêí êñöàñ òïðøÿåøõ. Ðçöçïçñ, 1647-þê êïåç öøõç÷ýëûàõàñ ðàÿëñ êû÷êõà æ÷ðêÿ, 1649-þø êïåç úêéêíà elmləri åòí÷òõø æïðê åçõçþçöêñê àïðëÿ, 1651-þê êïåç êöç ðøöêãê âç àñà÷òðêìà ôõòúæöööòõø òïðøÿåøõ. Ïàíêñ áù÷ùñ áøñïàõïà ìàñàÿë, ò, êïí ôæÿçíàõ êã÷êöàåýë òïðøÿåøõ. Áøñø àÿàäëåàíë íêðê çöàöïàñåëõðàã òïàõ íê, êã÷êöàåêìà÷ óé ðàüêìç÷êñç îóõç ÷ç÷áêãê æïðåêõ âç òñøñ çöàö ðçãöçåê âç ðêööêìàöë êñöàñïàõà óé üçìà÷ïàõëñë ÷çíðêïïçÿåêõðçìç “àïç÷“ âæõðçíåçñ êááàõç÷ òïàõíçñ, íêð êöç êã÷êöààê áêïêíïçõê íòñíõæ÷ âçéêúçïçõêñ ìæõêñç ìæ÷êõêïðçöê ùýùñ, åêîçõïçõê êöç öàåçþç ðàõàã ûà÷êõêñç óïõçñðçìç ýàïëÿëõåëïàõ. Ø.Ôæ÷÷ê ðçüé áø þùõ - çöï àïêð íêðê - ðçöçïçìç ìàñàÿðëÿåëõ. Ò, “àïç÷ê“ ÷çíðêïïçÿåêõðçìç ùö÷ùñïùí âæõçõçí, ôõàí÷êíàåà áøñøñ ñæþç üçìà÷à íæýêõêïçþçìêñêñ çüçðêìç÷êñç âàõðàðëÿåëõ: “ ...ðçñ áø öçüêúçïçõê ìàéàõíçñ, üæý åç áø úêíêõïçõêðêñ üçõ üàñöë ûàïãëñ âç ìà àìõëþà áêõ ðùçööêöçñêñ ðçñàúæìêñê åùÿùñðùõåùð, öàåçþç òïàõàã ááÿëðë ìòõøþø úêíêõïçõåçñ àéàå æ÷ðçí êö÷çìêõåêð, àððà áêõ üàïåà íê, áø úêíêõïçõêñ ðæìååñà ýëûðàöë üæõööàã Òõðòñåàöíêñêñ Êõïàñåêìàñëñ âê÷öæ-íõàïë öæýêïðçöê êïç ùö÷-ùö÷ç åùÿðùÿåùõ, áæïç üæöàà

downloaded from KitabYurdu.az

æ÷åêð íê, òñïàõ åêîçõ óïíçïçõ íêðê áø óïíç ùýùñ åç àé åà òïöøñ úàìåà îç÷êõç áêïçõ“.[49]

Ø.Ôæ÷÷ê óé **“Âæõîêïçõ âç õùöøðïàõ üàããëñåà ÷õàí÷à÷“ (1662)** àåïë êïí çöçõêñç ðùãçååêðçñê áø þùõ áàÿïàìëõ. Áø ðùãçååêðçñêñ öòñïøäø åà ûàõàí÷æõêíåêõ:

“Ðçüé áøñà îõõç åç, üæöàá æåêõçð íê, úêíêõïçõêðê Êõïàñåêìàìà ÷ç÷áêã æåêá, òñïàõë üàéëõåà, ìçñê òñïàõ àõ÷ëã ðùçììçñ úàìåà îç÷êõç áêïçþçìê éàðàñ ñçÿõ æ÷åêõçõíçñ, åçðêõê êö÷ê êíçñ åóìùõçð âç ...üæý áêõ çüçðêìç÷ê òïðàìàþàäëñë æü÷êðàï æ÷åêìêð üàïåà áæïç, ìàéåëãïàõëðåàñ üçéé àïëõàð“.[50]

Ø.Ôæ÷÷êñêñ êã÷êöàåê áàûëÿïàõëñëñ úòõðàïàÿðàöë âç êñíêÿàúë Êñîêï÷çõçåç íàôê÷àïêö÷ ðùñàöêáç÷ïçõêñêñ öùõç÷ïê êñíêÿàúë, Úõàñöàìà ñêöáç÷çñ êöç, ÷êþàõç÷êñ, ôøï åóâõêììçöêñêñ åàüà öùõç÷ïê êñíêÿàúë ÿçõàê÷êñåç áàÿ âæõêõåê. Ðçüé áø àðêïïçõ ðæõíàñ÷êïêéð êåæìàìïàõëñëñ òñà ÷çöêõêñê ðùðíùñ æåêõ. Ïàíêñ áøñøñïà ìàñàÿë, öçñàìæ êö÷æüöàïë öçâêììçöêñç îõõç Êñîêï÷çõçñêñ åêîçõ Àâõòòà óïíçïçõêñê ó÷ðçöë íàôê÷àïêö÷ êã÷êöàåêììà÷ëñëñ ñçéçõê þçü÷åçñ ÷çüïêîêñç çïâæõêÿïê ÿçõàê÷ ìàõà÷åë. Ñç÷êþçåç, áù÷ùñ áø ôõòöæöïçõ Ôæ÷÷êìç ìæñê æïðêñ çöàöëñë ãòìðàää êðíàñ âæõåê.

Ø.Ôæ÷÷ê ò åóâõòùñ ÷çïçáïçõêñç øìäøñ òïàõàã áêõ öëõà üçþâïçõ ýàô æ÷åêõðçíïç ìàñàÿë, êã÷êöàåêììà÷åà áàÿ âæõçñ ôõòöæöïçõç åç óé ðùñàöêáç÷êñê îêéïç÷ðêõåê. Òñøñ çñ áóìùí ñàêïêêìç÷ïçõêñåçñ áêõê öêìàöê þçáõêñ (ö÷à÷êö÷êíàñëñ) íçÿú æåêïðçöê êåê. Ðùàöêõïçõê òñøñ áàÿïëþà ûêåðç÷êñê ðçüé áøñåà îõöçïçõ åç, àõ÷ëã áçïêåêõ íê, ò, åçìçõ, õæñ÷à, çðçí üàããë, çðçí áóïîùöù âç ôøï üàããëñåà öóìçåêìê úêíêõïçõê êïç æïðê öêìàöê êã÷êöàåëñ çöàöïàõëñë ãòìðøÿåøõ.

Òñøñ ãçïçðêñåçñ, ìøûàõëåà àõ÷ëã àåë ýçíêïðêÿ “Âæõîêïçõ âç õùöøðïàõ üàããëñåà ÷õàí÷à÷“(1662) çöçõêñåçñ áàÿãà “Ðùåõùíïçõ öóé“ (1664), “Êõïàñåêìàñëñ öêìàöê àñà÷òðêìàöë“ (1672), “Öêìàöê üæöàá“ (1676), “Ôøï üàããëñåà ðùû÷çïêú åùýùñþçïçõ“(1682) íêðê ìàééïàõ åà ýëûðëÿåëõ.

Òñøñ êïí çöçõïçõê çöàöçñ êã÷êöàåê öêìàöç÷êñ çöàöïàñåëõëïðàöëñà ìóñçïàåêïðêÿàê. Áø çöçõïçõåç ò, “àí÷êâ ÷êþàõç÷ áàïàñöë“ êåæìàöëñë êñíêÿàú æ÷åêõêõåê. “Ðùåõùíïçõ öóé“ âç “Öêìàöê üæöàá“ çöçõïçõêñåç Ø.Ôæ÷÷ê

[49] В.Петти. Экономические и статистические работы, стр. 30.
[50] Јенә орада.

downloaded from KitabYurdu.az

öçõâç÷ê ðæõíàñ÷êïêö÷þçöêñç ûàõàí÷æõêéç æåçõçí, ãæìå æåêõåê íê, üçõ áêõ óïíçñêñ öçõâç÷ê òñøñ ûàõêþê ÷êþàõç÷åç ðàïêí òïåøäø ôàìà áçõàáçõåêõ. Ò, üçðýêñêñ åóâïç÷êñ êã÷êöàåêììà÷à ðùåàûêïçöêñêñ ÷çõçúåàõë òïøá, æìñê éàðàñåà, ãæìå æåêõåê íê, áø ðùåàûêïç êö÷æüöàïëñ êñíêÿàúëñë ö÷êðøïìàÿåëõðàïëåëõ.

"Öêìàöê êã÷êöàåëñ à÷àöë âç ðùçììçñ ðçñàåà ö÷à÷êö÷êíàñëñ êû÷ê-õàýëöë"[51] òïàñ Øêïìàð Ôæ÷÷ê áêõêñþê òïàõàã åóâïç÷ ö÷à÷êö÷êíà ûêåðç÷êñêñ ìàõàåëïðàöëñëñ éçõøõêïêìê üàããëñåà ðçöçïçñê êõçïê öùõðùÿ  âç ðçïøðà÷ïàõë ÷òôïàðàäëñ áçéê çöàö êö÷êãàðç÷ïçõêñê ðùçììçñ æ÷ðêÿåêõ. Ò, ö÷à÷êö÷êíàñëñ éçõøõêïêìêñê ÷çáïêä æåêõ, æìñê éàðàñåà óéùñùñ êã÷êöàåê ðùåçàïàõëñë öùáø÷ æ÷ðçí ùýùñ öçõçñþàðëñåà òïàñ þùéê âç ò ãçåçõ åç æ÷êáàõïë òïðàìàñ ö÷à÷êö÷êí ðçïøðà÷ïàõååñ ðçüàõç÷ïç êö÷êúàåç æåçõçí, òáìæí÷êâ õçãçð ðçïøðà÷ïàõë çöàöëñåà Êñîêï÷çõçñêñ êã÷êöàåê âçéêìç÷êñê íçðêìç÷ úòõðàöëñåà ãêìðç÷ïçñåêõêõåê.

Ø.Ôæ÷÷êñêñ áàûëÿïàõëñåàíë öêñúêïêí, òñøñ öçõâç÷ âç öçúàïç÷êñ çíöïêìêñêñ ÿçõüêñåç óéùñù áùõøéç âæõêõ. Ò ãæìå æåêõåê íê, çîçõ "áçéê êñöàñïàõ åêîçõïçõêñåçñ åàüà íàöëáåëõïàõöà, áø üçðêÿç òïøá âç áæïç åç òïàþàã", áø üçìà÷ëñ åàêðê âç àðàñöëé ãàñøñøåøõ. Ïàíêñ áøñøñïà áæïç, ò, üçåöêé åçáåçáçñêñ âç öçõâç÷êñ çïæìüêñç òïøá, îóö÷çõêõåê íê, öçõâç÷ êïç öçúàïç÷êñ íçöíêñ ãàõÿëåøõðàöë öòöêàï ôàõ÷ïàìëÿà âç âç÷çñåàÿ ðùüàõêáçöêñç îç÷êõêá ýëûàõà áêïçõ. Ðæõíàñ÷êïêéð ðóâãæìêñåçñ ýëûëÿ æåçõçí, íòñíõæ÷ ðçöçïçïçõê üçïï æåçñ Ø.Ôæ÷÷ê óé çöçõïçõêñåç êã÷êöàåê ôõòöæöïçõêñ ÿçõü òïøñðàöëñà åàüà ýòû ùö÷ùñïùí âæõêõåê. Áø éàðàñ ò, ìæñê ðæ÷òå ÷ç÷áêã æåêõ, ìçñê üàåêöçïçõç åàüà åçõêñåçñ ðùåàûêïç æåçõçí, òñïàõëñ ÷çöâêõêñåçñ ðàüêììç÷êñêñ ÷çüïêïêñç íæýðçìç þçüå æåêõ. Ò, çöàö úêíõêñê, àìõë-àìõë êñöàñïàõëñ àõéø âç êö÷çíïçõêñåçñ àöëïë òïàñ üçõ áêõ ÿæìê êñíàõ æåçõçí, êã÷êöàåê üàåêöçïçõêñ åàûêïê öçáçá və  àöëïëïëãïàõëñë îóö÷çõðçìç ìóñçïåêõåê. Áøñøñà åà, Ôæ÷÷ê öêìàöê êã÷êöàååà æïðê ààö÷õàíöêìàïìàõ ðæ÷òåøñø ÷ç÷áêãêñêñ çöàöëñë ãòìðøÿåøõ.

Øêïìàð Ôæ÷÷ê êã÷êöàåê üàåêöçïçõêñ åçãêã íçðêìç÷ ÷çüïêïêñêñ éçõøõêïêìêñê öùáø÷ æ÷ðçìç ýàïëÿàõàã êã÷êöàåê ãàñøñ ôõòáïæðêñê ãòìøõåø. Áø éàðàñ ò, ÷çíþç ÷çååâùï öúæõàöëñëñ ÷çåãêãà÷ë êïç íëúàìç÷ïçñðçðçìê âç åêããç÷ê êö÷æüöàïà ìóñçï÷ðçìê ÷çííëú æåêõåê. Ôæ÷÷ê ãæìå æåêõåê íê, öçõâç÷

[51] K.Marks. İzafi dəyər nəzəriyyələri, Kapital, IV cild.

downloaded from KitabYurdu.az

ðçüé ðàååê êö÷æöàï öúæõàöëñåà ìàõàåëïëõ, ÷çååâùï öúæõàöë êöç òñøñ áóïîùöùñù ÷çðêñ æåêõ.

## §3. U.PETTİNİN İQTİSADİ SİSTEMİ VƏ BAXIŞLARI

U.Petti ìàõàñðàããà òïàñ íàôê÷àïêö÷ êö÷æüöàïëñë ÷çååêã æåçõçí, öêìàöê êã÷êöàåëñ áù÷óâ æïðê öêö÷æðêñê ìàõàåà áêïðçöç åç, òñøñ áêõ ýòû ôõòàïæðïçõê ùéõç ðùüùð ñçéçõê ùðøðêïçÿðçïçõ âæõðêÿåêõ. Òñøñ çñ áóìùí ûêåðç÷ê **çðçí-åçìçõ ñçéçõêìçöêñêñ** çöàöïàõëñë ãòìðàöëåëõ. Ø.Ôæ÷÷ê Àâõòôàåà êïí ÿçûö êåê íê, åçìçõêñ ðçñáçìêñê çðçíåç îôõùõåù. Áø ðùååçàñë çöàöïàñåëõðàã ùýùñ ò, "÷çáêê ãêìðç÷" ÷çïêðêñê êÿïçìêá üàéëõïàðëÿåë. Ðæõíàñ÷êïêö÷ïçõç üóõðç÷ïç ìàñàÿàõàã, Ôæ÷÷ê çð÷ççñêñ ãêìðç÷ê üàããëñåà ðçöçïçñê üçïïæåêþê üæöàá æåêõåê. Ïàíêñ ò, ÷çöàåùúê áàéàõ ãêìðç÷ïçõêñê åæìêï, åçìçõ íêðê æü÷êðàï æ÷âåêìê òõ÷à âç ìà "÷çáêê ãêìðç÷ê" ÷çååêã æåêõ âç áæïç üæöàá æåêõåê íê, áêõ áøÿæï ýóõçí áêõ øñöêìà îùðùÿç åçìêÿåêõëïåêíåç, öòñøñþø, üçðêñ íçðêìç÷åç ýóõçìêñ "÷çáêê ãêìðç÷ê" íêðê ýëûëÿ æåêõ.

Áæïçìêîïç, Ôæ÷÷ê ðàüêìç÷þç, åçìçõ ãàñøñøñø ðùçììçñ æåêõ âç áàÿà åùÿùõ íê, áø ãàñøñ ìàïñëé ùðøðê ðæìï íêðê úçàïêìç÷ îóö÷çõêõ. ×ççþþùáïùåùõ íê, Ôæ÷÷ê àõ÷ëã ò éàðàñ, ðùàöêõ êã÷êöàåýëïàõëñ êñåêíê åóâõåç üæöàáïàÿðàïë òïåøãïàõë áêõ öëõà ãêìðç÷ çðçïç îç÷êõçñ àðêïïçõê: çâçéæåêþê ðàïïàõëñ, ÷çéç ðàïïàõëñ, ðòååàïàõëñ, ÷çãïêåêñ âç êö÷æüïàí çñçñçïçõêñêñ ÷çöêõêñê ãæìå æåêõåê.

Ôæ÷÷ê åçìçõ ìàõàååàñ çðçìêñ üçõ ñóâùñùñ íòñíõæ÷ ñæðç÷ê, êö÷æüïàí åçìçõêñê ( çíêñýêñêñ çðçìê - ÷àûëë, ÷òûøþøñøñ çðçìê - ôàõýàñë âç ö.) ìàõà÷åëäëñë ãæìå æåêõåê. Ò, êã÷êöàå æïðê ÷àõêûêñåç Ðàõíöëñ åçìçõ ñçéçõêìçöêñêñ çöàöëñë ÷çýíêï æ÷ðêÿ òïàñ ðùþçõõçå çðçí êåæìàöëñà êïí ìòï àýàñ êã÷êöàåýë òïðøÿ âç êñíêÿàú æ÷ðçðêÿ úòõðàåà òïöà åà, íïàööêí öêìàöê êã÷êöàåëñ **çöàö æïðê ðùååçàöëñë** àÿàäëåàíë íêðê êúàåç æ÷ðêÿåêõ: ñç÷êþç æ÷êáàõêïç **çðçí ðçöõçúïçõê êïç ðùçììçñ æåêïçñ çð÷ççñêñ ãêìðç÷êñåç çðçí üàããë âç êéàúê åçìçõ (õæñ÷à, ðçñúçç÷, úàêé) ÷çõö ðù÷çñàöêáåêõïçõ.**

Îóõùñåùìù íêðê, Ø.Ôæ÷÷ê öêìàöê êã÷êöàå æïðêñåç áêõ êû÷êõà æåçõçí, ***çðçí-åçìçõ ñçéçõêìçöêñêñ*** çöàöïàõëñë ãòìðøÿ, ïàíêñ ðæõíàñ÷êïêö÷ ÷çöçââùõïçõêñ ÷òõøñååàñ ãøõ÷øïà áêïðçðçöê øþáà÷ëñååàñ åçìçõê ìàïñëé ãêìðç÷ïê ðæ÷àïïàõëñ ýëûàõëïðàöëñà öçõú æåêïçñ çðçíïç çïàãçïçñåêõêõåê.

downloaded from KitabYurdu.az

Æïðêñ öòñõàíë êñíêÿàúë Ø.Ôæ÷÷êñêñ éçêú âç åòïàÿëã êåæìàïàõëñë àÿíàõïàöà åà, åçìçõêñ ðçñáçìêñê ðçüé çðçìêñ ÷çÿíêï æ÷ðçöêñê òñøñ çâçéöêé ûêåðç÷ê üæöàá æ÷ðçí ïàéëðåëõ.

Òñøñ çðçí-åçìçõ ñçéçõêìçöêñêñ ýà÷ëÿðàéïëãïàõëñà, íàôê÷àïêö÷ êö÷æüöàïëñà ÷çáêê ãàìååñëñ üóíð öùõåùìù ååêðê þçðêìç÷ úòõðàöë íêmê áàûðàöëñë, çðçìêñ åçìçõêñêñ ÷çáêç÷êñê ááÿà åùÿðçðçöêñê, ðùþçõõçå âç íòñíõæ÷ çðçìê, åçìçõïç êö÷æüïàí åçìçõêñê ãàõëÿåëõðàöëñë àêå æ÷ðçí òïàõ.

Ø.Ôæ÷÷êñêñ áæïç áêõ íçïàðë âàõ: “Çðçí öçõâç÷êñ à÷àöë âç úçàï ôõêñöêôê, ÷òõôàã êöç àñàöëåëõ”. Áø ðùååçà ðààåê öçõâç÷ïçõêñ êö÷æüöàïëñåà çðçíïç ìàñàÿë ÷çáêç÷êñ åç êÿ÷êõàíëñë çöàö îó÷ùõåùìù ùýùñ çååïç÷ïê üæöàá òïøñà áêïçõ.

Ø.Ôæ÷÷ê **çðçí üàããëñë âç õæñ÷àñë** óéùñùñ åçìçõ ñçéçõêìçöê çöà-öëñåà ÷çããêã æ÷ðêÿåêõ. Íïàööêí öêìàöê êã÷êöàåëñ åêîçõ ñùðàìçñåçïçõê íêðê, ò åà êÿ ãùââçöêñêñ åæìêï, ðçüé çðçìêñ çð÷çç ÿçíïêñåç ýëûëÿ æ÷åêìêñê êååêà æåêõåê. Çðçí üàããëñà ò, çðçìêñ “÷çáêê ãêìðç÷ê“ íêðê ááûëõ âç óé âçéêúçöêñê òñøñ íçðêìç÷êñêñ ðùçìçñ æåêïðçöêñåç îóõùõåù. Ò éàðàñïàõ Êñîêï÷çõçåç çðçí üàããë ãàñøñâæõêþêïêí ìòïø êïç ÷çñéêðïçñêõ, òñøñ çñ ìùíöçí üçååê êöç úçüïçïçõêñ ìàÿàìëÿ ðêñêðøðø öçâêìçöêñåç öàûïàñëïëõåë. Áø þùõ ðæ÷òåøñ ÷çõçúååàõë òïàñ Ø.Ôæ÷÷ê òñø ñçéçõê þçüç÷åçñ çöàöïàñåëõðààà ýàïëÿëõåë. Çðçí üàããëñëñ öçâêìçöêñê úçüïçïçõêñ ìàÿàìëÿ ðêñêðøðø êïç ðçüåøåïàÿåëõàñ Ø.Ôæ÷÷ê, áøñø áæïç çöàöïàñåëõëõåë íê, “Ãàñøñ... úçüïçñê çñ éçõøõê ìàÿàìëÿ âàöê÷çïçõê êïç ÷çðêñ æ÷ðçïêåêõ, çîçõ úçüïçïçõç îóö÷çõêïçñ ðêñêðøðåàñ êíê åçúç àõ÷ëã çðçí üàããë óåçìçõïçõöç, òñïàõ êÿïçìç áêïçþçìê âç çðçí üàããëñëñ êíêãà÷ àõ÷ðàöëñà ãçåçõ úàí÷êíê òïàõàã êÿïçåêìêñêñ ìàõëöëñë êÿïçõ, áø êöç þçðêìç÷ ùýùñ ðùââàúêã çðçí ðçüöøïøñø ê÷êõðçí åæðçíåêõ“ [52].

**Õæñ÷à ÷çïêðêñê** åç ò, çðçí-åçìçõ ñçéçõêìçöê çöàöëñåà êéàü æåêõ. Òñøñ ñçéçõêñç îóõç, çíêñýëïëí ðçüöøïøñøñ åçìçõêñåçñ êö÷æüöàï ûçõþïçõêñê (÷òûøðøñ åçìçõê âç çðçí üàããëñà ýçíêïçñ ûçõþïçõ) ýëûåëãååàñ öòñõà, **ãàïàñ üêööçöêñê õæñ÷àìà** àêå æ÷ðçí òïàõ. Ïàíêñ çð÷ççñêñ åçìçõê öçõú òïøñðøÿ çðçíïç ðùçìçñ òïøñåøåøñååàñ âç çðçí üàããë üçðêñ åçìçõêñ ÷çîíêá üêööçöê òïøá, ðùçìçñ íçðêìç÷ç áçõààçõ òïåøåøñååàñ, **õæñ÷à** úàí÷êíê òïàõàã êéàúê çðçìêñ ðçüöøïø íêðê, ìçñê çðçí üàããëñëñ âæõêïðçìçñ üêööçöê òïàñ êéàúê åçìçõ íêðê ýëûëÿ æåêõ. Ãæìå æ÷ðçí ïàéëðåëõ íê, **ðçñúçç÷ç** Ôæ÷÷ê

[52] Ldooj Ö.Çigkgyjtdnijd j noaojnojtdijd mabgox, n.70-71.

downloaded from KitabYurdu.az

ðùö÷çãêï áêõ íà÷æãàòõêìà íêðê ááûðàðëÿ, çâçéêñåç êöç “ôøï õæñ÷àöë“ òïàñ **áòõþ úàêééñê** ÷òõôàã õæñ÷àöë çöàöëñåà ñçéçõåçñ íæýêõðêÿåêõ. Ò, áæïç üæöàá æåêõ íê, üçõ áêõ ôøï öàüêáê ÷òõôàã àïëá, õæñ÷à àïàñà ýæâõêïç áêïçõ.

Ôæ÷÷êñêñ çöçõïçõêñåç ÷òõôàã õæñ÷àöëñëñ úòõðàïàõëñåàñ áêõô íêðê ýëûëÿ æåçñ **åêúúæõæñöêàï õæñ÷à** àñïàìëÿëñà åà õàö÷ îçïêñêõ. Ò, åêúúæõæñöêàï õæñ÷àñëñ ìàõàñðàöëñëñ öçáçâêñê ÷òõôàã öàüçïçõêñêñ ðùñáê÷ïêìêñêñ ðùû÷çïêúïêìê, òñïàõëñ ááéàõà ìàûëñïëäë âç ìà øéàãïëäë êïç çïàãçïçñåêõêõåê. Ò, **÷òõôàäëñ ãêìðç÷êñê** íàôê÷àïïàÿåëõëïðëÿ õæñ÷à üæöàá æåêõ âç òñø ÷òõôàäëñ ðùçìïçñ êïïçõåç îç÷êõåêìê õæñ÷àñëñ ðçáïçâêñç áçõàáçõ ÷ø÷øõåø. Ò, ÷òõôàäëñ ãêìðç÷êñê ðùçìïçñ æåçõíçñ, ðùçìïçñ åóâõ ýçõýêâçöêñåç ìàõàñàñ õæñ÷àñë ÷çåãêã æåêõ âç áø ðùåç÷ê ùý ñçöïêñ (ááááåàñ ñçâçìçåçí) áêõïç ìàÿàðàöëñëñ ààê ðùåç÷ê öàìëïàñ 21 êïç áçõàáçõ îó÷ùõçõçí, ÷òõôàäëñ ãêìðç÷êñê (ðùçìïçñ öàüçñêñ) 21 êïïêí õæñ÷àñëñ ðçþðøøöøñà áçõàáçõ ÷ø÷øõdu.

Øêïìàð Ôæ÷÷ê îóö÷çõêõ íê, þçðêìç÷åç öçõâç÷ ìàïñëé ôøï úòõðàöëñåà ýëûëÿ æåêõ âç åçìçõê òñøñ êö÷æüöàïëñà öçõú òïøñðøÿ çðçìêñ íçðêìç÷ê êïç ðùçìïçñ òïøñøõ. Ò, ôøïø ùðøðê æíâêââàïæñ÷ õòïøñø ìæõêñç ìæ÷êõçñ õôæöêúêí çð÷çç íêðê ñçéçõåçñ íæýêõçõçí, åùÿùñùõåù íê, ôøïøñ ðêãååàõëñëñ éçõøõê òïåøäøñåàñ ýòû âç ìàûøå àé òïðàöë þçðêìç÷ ùýùñ, æïçþç åç, áù÷óâïùíåç êã÷êöàåêìà÷ ùýùñ ðçñúê ñç÷êþçïçõ ÷óõçåç áêïçõ. Áøñøñïà çïàãçåàõ òïàõàã, Ø.Ôæ÷÷ê þçðêìç÷ ùýùñ éçõøõê íçðêìç÷åç òïàñ ôøïøñ ðêãååàõë üàããëñåà úêíêõïçÿêõ âç ÷çååâùì ùýùñ ïàéëð òïàñ ôøïøñ ðêãååàõëñë õæàïêéç òïøñàñ çð÷ççïçõêñ íçðêìç÷ê, ãêìðç÷ê âç ôøï åóâõêìçöêñêñ öùõç÷ê êïç ðùçìïçñ æ÷ðçìê ÷çïíêú æåêõåê.

Ôæ÷÷ê ðàååê öçõâç÷ ìàõàååàñ çðçìê ðçüöøïààõ çðçí üæöàá æåêõ âç áø ááûëðààñ óïíçñêñ çüàïêöêñê 2 üêööçìç áóïìùõ:

Ðàååê ÿæìïçõ âç ìàûøå þçðêìç÷ ùýùñ üçãêãç÷çñ úàìåàïë âç ìàõàõïë òïàñ ÿæìïçõ êö÷æüöàï æåçñ ÿçûöïçõ;

Áøñïàõë êö÷æüöàï æ÷ðçìçñ ÿçûöïçõ.

Áø íòñ÷æíö÷åç ò, ãæìõê-ðçüöøïààõ çðçìêñ üçõ÷çõçúïê êû÷êöàõ æåêïðçöê úêíõêñê öóïïçìêõ. Ø.Ôæ÷÷ê ÷àþêõïçõêñ åç çðçìêñê “ãæìõê-ðçüöøïààõ“ ààïàñåëõàõàã, áø çöàöåà òñïàõëñ öàìëñëñ àéààëïðàöëñë ÷çïçá æåêõåê.

downloaded from KitabYurdu.az

Çïáç÷÷ç, Ôæ÷÷êñêñ êã÷êöàåê çöçõïçõêñêñ áàÿïëþà ðçéðøñø áø åæìêïçñïçõïç ãøõ÷àõðëõ. Áø ðçéðøñ òïåøãþà åçõêñ òïøá, òñøñ ÷çõçññùð æ÷åêìê éêìàïë ÷çáçãçñêñ åùñìàîóõùÿùñù ÷çÿíêï æåêõ. Ôæ÷÷ê êñîêïêö áøõèøàéêìàöêñêñ ïàìêãïê ñùðàìçñåçöê òïðàãïà, áêõêñþê òïàõàã óé óïíçöêñêñ ðêïîê öçõâç÷êñêñ üæöààáëñë àôàõðëÿåëõ. Ò, Êñîêï÷çõçñêñ ðàååê öçõâç÷êñê 250 ðêïìòñ úøñ÷-ö÷æõïêñã ðçáïçâêñåç ãêìðç÷ïçñåêõðêÿ âç çüàïêñêñ óéùñùñ åç 417 ðêïìòñ ðçáïçâêñåç ôøïïà ãêìðç÷ïçñåêõêïðçöêñê åç áøõàìà çïàâç æ÷ðçìê ÷çíîêú æ÷ðêÿåêõ. Ôæ÷÷ê ðçüöøïåàõ ãùâçïçõêñ ÿçûöê àðêïêñç ûàö òïàñ çðçí âçõåêÿïçõêñêñ ðêãååàõëñë ðùçììçñ ãàìååàà ãêìðç÷ïçñåêõðçìêñ ùöøïøñø àû÷àõëõåë[53].

Ø.Ôæ÷÷êñêñ áù÷ùñ êã÷êöàåê ñçéçõêìçöê çüàïêñêñ öàìë âç ÷çõíêáê üàããëñåà ðçöçïçåçñ áàÿïàñëõåëöà åà,  ò, ðêïîê îçïêõêñ üæöàáïàñðàöëñà åàüà ýòû çüçðêìç÷ âæõêõåê. Áø ÷çÿçááùöïçõåçñ êöç ðêïîê üæöàáïàðàïàõëñ ðùàöêõ öêö÷æðê ðæìåàñà îçïðêÿåêõ. Àõ÷ëã ðùàöêõ ÿçõàê÷åç áø öêö÷æð ùðøðêïçÿåêõêïðêÿ úòõðàåà óïíç åàûêïêñåç êö÷æüöàïëñ üçþðê, êö÷æüïàíëñ úòõðà âç öçâêìçöê, üçð åç îçïêõïçõ ááõçåç ÷çöçââùõ ìùõù÷ðçìç êðíàñ âæõêõ.

Øêïìàð Ôæ÷÷êñêñ êã÷êöàåê ÷çïêðê ýòû ðùüùð çüçðêìç÷ íçöá æåêõ âç êã÷êöàåê úêíêõ ÷àõêûêñåç îóõíçðïê ìæõïçõåçñ áêõêñê ÷ø÷øõ. Ðçüé ò, çðçí åçìçõ ñçéçõêìçöêñêñ çöàöïàõëñë ãòìðøÿ, íàôê÷àïêö÷ îçïêõïçõêñêñ âàüêå ðçñáçìêñê àû÷àõàã, êã÷êöàåê ãàñøñàøìàøñïøãïàõ üàããëñåà ðçöçïçñê ãàïåëõðëÿåêõ. Òñøñ ÷çõçúêñåçñ êõçïê öùõùïçñ æïðê-ñçéçõê ðùååçàïàõ öòñõàíë öêìàöê êã÷êöàå ðçí÷çáïçõêñêñ ñùðàìçñåçïçõê ÷çõçúêñåçñ ãçáøï æåêïərək  êñíêÿàú æ÷åêõêïðêÿdir.

## §4. FRANSADA KLASSİK SİYASİ İQTİSAD MƏKTƏBİ. P.BUAGİLBERİN İQTİSADİ SİSTEMİ VƏ İSLAHATLARI

Úõàñöàåà íïàööêí öêìàöê êã÷êöàåëñ êñíêÿàú ÷çíàðùïù Êñîêï÷ç-õçåçíêñåçñ úçõãïê ÷àõêûê ÿçõàê÷åç áàÿ âæõêõåê. XVIII çöõêñ öòñøñàåçí Úõàñöà úæòåàï óïíç òïàõàã ãàïëõ âç áøõàåà éàåçîàñïàõ üóíðõàñïëã æåêõåêïçõ. Íàôê÷àïêö÷ ðùñàöêáç÷ïçõê ïçñî êñíêÿàú æåêõåê. XIV Ïùåòâêíêñ üóíðõàñïëäë éàðàñë óïíç ÷çöçõõùúà÷ëñë Íòïáæõ êååòç æåêõåê. Ò,

---

[53] W.Petty. The Economic Writings.Ed. by Ch.H.Hill  vol.1.Cambridge,1899, p.236.

downloaded from KitabYurdu.az

öçñàìæñêñ çüçðêìç÷êñê áàÿà åùÿöç åç, åóâïç÷ ùýùñ ðàïêìç âàöê÷çïçõêñêñ ðçñáçìê íêðê íçñå ÷çöçõõùúà÷ëñë ñçéçõåçñ íæýêõêõåê. Òñøñ öêìàöç÷êñêñ áàÿïëþà ãùöøõø úæòåàï ðùñàöêáç÷ïçõêñê ãòõøìøá öàûïàðàã êö÷çìê êåê. Üçðêñ ðùñàöêáç÷ïçõ êöç óïíçñêñ êã÷êöàåê âç òòöêàï êñíêÿàúëñë ïçñîêåêõåê. Íõàï üàíêðêìç÷êñêñ, Íòïáæõêñ ãàõÿëöëñåà óéùñùñ åçáåçáçïê öàõàì üçìà÷ëñë ÷çðêñ æ÷ðçí âç ýòûïø ðùüàõêáçïçõ ùýùñ ôøï ÷òôïàðàã âçéêúçöêñê ãòìðàöë åà óïíçåç áêõðçñàïë ãàõÿëïàñðëõåë.

Áù÷ùñ áøñïàõ ðæõíàñ÷êîêéðêñ Úõàñöàåà ðùúíêöïçÿðçöêñç öçáçá òïøõ âç ìæñê êã÷êöàåê åòí÷õêñàñëñ ðæìåàñà ýëûðàöëñë éçõøõê æåêõ. Áø ìæñê êã÷êöàåê åòí÷õêñàñëñ ìàõàåëþëöë âç êïüàðâæõêþêöê Úõàñöàñëñ íïàööêí öêìàöê êã÷êöàå ðçí÷çáêñêñ áàñêöê Ôìæõ Ïæôæéàñ åæ Áøàîêïáæõ (1646-1714) òïðøÿåøõ. Ò, 1646-þë êïáç Õøàñåà éàåçîàñ àêïçöêñåç àñàåàñ òïðøÿåøõ.

Îçñþ Ôìæõ Ïæôæéàñ óé åóâõù ùýùñ çïà ÷çüöêï àïðëÿ, òòñõà êöç Ôàõêöç íóýçõçí çåçáêìà÷ïà ðçÿäøï òïðøÿåøõ. ×æéïêíïç ò, àêïçöê ùýùñ çñçñçâê üùãøã ôæÿçöêñç ìêìçïçñðêÿ âç êã÷êöàåêìà÷ïà ìàïñëé 70-þê êïïçõåç ðçÿäøï òïðààà áàÿïàðëÿåëõ. Åæðçí ïàéëðåëõ íê, àõ÷ëã 1691-þê êïáç ò, áêõ öëõà áøõèøà-åæðòíõà÷êí ûàõàí÷æõïê êöïàüà÷ïàõë çüà÷ç æ÷ðëÿ "öêö÷æðê"ñê üàéëõïàìëõ. Ò, áø öêö÷æðê ùý çöàö æïæðæñ÷ç áóïùõåù:

Áøàîêïáæõ áóìùí âæõîê êöïàüà÷ëñëñ íæýêõêïðçöêñê éçõøõê üæöàá æåêõ, íóüñç õæãõæööêâ âæõîê öêö÷æðêñê ðù÷çõçããê âæõîêãòìðà öêö÷æðê êïç çâçé æ÷ðçìê ÷çïîêú æåêõåê.

Ò, åàûêïê ÷êþàõç÷ê ðçüåøåïàÿåëõðàïàõåàñ àéàå æ÷ðçìê ÷çïîêú æåêõ âç áø ÷çååêõêñ ñç÷êþçöêñåç åàûêïê ááéàõëñ âç çðçí áóïîùöùñùñ îæñêÿïçñçþçìêñê, çð÷çç âç ôøïïàõëñ åóâõàñëñëñ îùþïçñçþçìêñê îóéïçìêõåê.

Ô.Áøàïîêáæõ ÷àûëïëñ àéàå öøõç÷åç ááéàõåà öà÷ëÿëñë ÷ç÷áêã æ÷ðçìê âç òñøñ ãêìðç÷êñêñ ÷çáêê öøõç÷åç àõ÷ðàöëñëñ ãàõÿëöëñë àïðàðààë ÷çïçá æåêõåê.

Ò, áæïç üæöàá æåêõåê íê, êã÷êöàåêìà÷ çð÷ççïçõêñ óéùñùñ "üçãêãê ãêìðç÷êñê" ÷àôà áêïçþçìê àéàå õçãààç÷ ÿçõàê÷êñåç åàüà ìàûÿë êñíêÿàú æåç áêïçõ. Áø êöïàüà÷ïàõë Áøàîêïáæõ ÷çöçõõùúà÷ ìùíöçïêÿêñêñ, óïíçñêñ âç ûàïãëñ õêúàü üàïëñëñ ìùíöçïðçöêñêñ çöàö ÿçõ÷ïçõê üæöàá æåêõåê. Ò, üàíêðêìç÷ ááÿÿëïàõëñë êñàñåëõðààà ýàïëÿëõåë íê, åóâïç÷êñ îçïêõïçõêñê ìàïñëé áø ìòïïà àõ÷ëõðàã ðùðíùñåùõ.

downloaded from KitabYurdu.az

Òñøñ öêìàöê âç êã÷êöàåê áàûëÿïàõë “XIV Ïùåòâêíêñ íõàïïëäë åóâõùñåç Úõàñöà ùàããëñåà ÷çúöêïà÷“(1696), “Úõàñöàñëñ îùñàüïàñåë-õëïðàöë“(1707), “Úõàñöàñëñ ôçõàíçñåç ÷êþàõç÷ê“(1709), “Öçõâç÷êñ, ôøïøñ âç âæõîêñêñ ÷çáêç÷ê ùàããëñåà“ àåïë çöçõïçõêñåç óé çíöêñê ÷àôðëÿåëõ.

Áøàîêïáæõêñ çöçõïçõê ò åóâõ Úõàñöàöëñëñ êã÷êöàåêìà÷ëñëñ àþëñàþàãïë âçéêìç÷ê ùàããëñåà, åóõåàç ùý ùêööçöê íçñåïêïçõåçñ êáàõç÷ òïàñ ûàïãëñ ààëõ âçéêìç÷ê ùàããëñåà ãêìðç÷ïê ðçñáçïçõåêõ. Áù÷ùñ çââçïíé êã÷êöàåýëïàõ íêðê Áøàîêïáæõ óé ñçéçõê ðùååçàïàõëñë ÷çþõùáçìç, ÷çííêú æ÷ðêÿ òïåøäø öêìàöç÷êñ çöàöïàñåëõëïðàöëñà ÷ààæ æ÷ðêÿåê. Êã÷êöàå æïðêñêñ áàñêïçõêñåçñ áêõê íêðê òñøñ õòïø áøñøñïà ðùçìçñ æåêïíêõ íê, ò, óéùñùñ ÷çííêú æ÷åêìê êöïàüà÷ïàõëñ çöàöëñåà ñçéçõê áàûëÿïàõëñ ò åóâõ ùýùñ áø÷óâ âç åçõêñ öêö÷æðêñê ãòìðøÿåøõ. Ò åà Ôæ÷÷ê íêðê óïíçñêñ êã÷êöàåê êñíêÿàúëñëñ ñç ëïç ðùçìçñ æåêïðçöê ðçöçïçöêñê óé ãàõÿëöëñà ãòìðøÿåø. Áøàîêïáæõê Úõàñöà êã÷êöàåêìà÷ëñëñ åùÿåùìù âçéêìç÷ ýòû ñàõàüà÷ æ÷åêìêñåçñ, ò, ùðøðêìç÷ïç, êã÷êöàåêìà÷ååíë ôõòöæöïçõêñ ãàñøñàøìäøñïøãïàõëñë àû÷àõëõåë.

Ãêìðç÷ïçõêñ ìàõàñðàöë âç åçìêÿðçöê ãàñøñïàõëñëñ àû÷àõëïëá ÷àôëïðàöë íêðê, ùçïç Àõêö÷ò÷æïåçñ (Çõçö÷øñ) áàÿïàìàñ ýòûçööõïêí áêõ ôõòöæöç Áøàîêïáæõ âç óé ÷öúúçöêñê âæõðêÿåêõ. Êñåê åæìêïåêìê íêðê, ðçöçïçìç “òô÷êðàï ãêìðç÷ãòìðà“ ðóâãæìêñåçñ ìàñàÿàõàã ò ìàéëõåë íê, ôõòôòõõöêòñàï âç ìà ñòõðàï ãêìðç÷ïçõ êã÷êöàåê ðùâàéêñç÷êñ âç ÷çõçããêñêñ ýòû ðùüùð ÿçõ÷êåêõ.

Ãêìðç÷ïçõ ãàñøñøñøñ, ìçñê ðàüêìç÷ æ÷êáàõêïç åçìçõ ãàñøñøñøñ êã÷êöàåêìà÷ëñ ôõòôòõõöêòñàïïëäëñëñ êúàåçöê íêðê áàÿà åùÿùïðçöê, ò éàðàñ ýòû þçöàõç÷ïê âç ìæñê úêíêõ êåê. Ãêìðç÷ïçõêñ áø þùõ ÿçõüêñåç “òô÷êðàï ãêìðç÷ïçõ“êñ ö÷õøí÷øõø õçãààç÷ àéàåïëäë ÿçõàê÷êñåç íòõ÷çáêê öøõç÷åç ÷çÿçííùï ÷àôëõdı. Áøàîêïáæõ õçãààç÷ àéàåïëäëñëñ ôòéøïðàöëñëñ çöàö öçáçâêñê íòñíõæ÷ òïàõàã ÷àûëï ùýùñ ðàíóêðøð ãêìðç÷ïçõêñ ðùçìçñ æåêïðçöêñåç îóõùõ âç áæïç ùæöàá æåêõåê íê, ðàíóêðøð ãêìðç÷ïçõêñ ïçää æåêïðçöê ëïç ÷àûëïëñ ááéàõ ãêìðç÷ïçõê àõ÷àþàã âç ñç÷êþçåç, íçñåïêïçõêñ îçïêõïçõê ýòûàïàþàããåëõ. Áø êöç, óé ñóââçöêñåç, òñïàõëñ öçñàìæ ðçüöøïïàõëñà ÷çïçáà÷ëñëñ âç ùçðêñ ðçüöøïïàõëñ êö÷æüöàïëñëñ ìùíöçïðçöêñç öçáçá òïàþàã, æìñê âàû÷åà âç çñ ùðøðê ÿçíêïåç “ôõòôòõõöêòñàï

downloaded from KitabYurdu.az

ãêìðç÷ïçõêñ" ðùçììçñ æåêïðçöêñê âç ÷çöçõõùúà÷ëñ îøõ êñíêÿàúëñë ÷çðêñ æåçþçíåêõ.

Áøñøñïà ìàñàÿë, Áøàîêïáæõ åóâïç÷êñ êã÷êöààê úøñíöêìàïàõëñë êñíàõ æ÷ðêõ âç îùðàñ æåêõåê íê, åóâïç÷ àäëïïë âæõîê öêìàöç÷êñêñ íóðçìê êïç óïíçåç ÷çíïêúêñ âç ÷çïçáêñ ìùíöçí öçâêììçöêñç íóðçí æåç áêïçõ.

Áøàîêïáæõêñ áóüõàñïàõ üàããëñåà åùÿùñþçïçõê åç öòñõàíë çööïçõåç êã÷êöààê úêíõêñ êñíêÿàúë ááûëðëñåàñ ýòû çüçðêììç÷ïêåêõ. Ýùñíê áøñïàõë ò, ÷çöçõõùúà÷ëñ ååûêïê ããñøñàøìäøñïøãïàõëñåàñ åàüà ýòû ôêö åóâïç÷ öêìàöç÷ê êïç çïàãçïçñåêõêõåê. ßøðôæ÷æõ ãæìå æåêõ íê, Áøàîêïáæõ êö÷æüïàí ÷çïçáêñêñ àéàåïëäëñåà âç çðàñç÷ïçõêñ àõ÷ëãïëäëñåà íàôê÷àïêö÷ êã÷êöààêììà÷ëñëñ öààê÷ïêìê ùýùñ ÷çüïùíç îóõùõåù, áøñà îóõç åç ò, "Öæì ããñøñøñøñ"(Èàñ Áà÷êö÷ Öæìç îóõç, ðçüöøïïàõëñ àéàå ðùáàåêïçöêñç çöàöïàñàñ öêö÷æðåç üæý áêõ éàðàñ ðçüöøïïàõëñ üçååêñåçñ àõ÷ëã êö÷æüöàïë ðùðíùñ åæìêïåêõ) ÷çñãêåýêïçõêñêñ, ûùöøöêïç åç Íæìñöêñ öçïçúêåêõ[54]. Áøñøñïà áæïç, Áøàîêïáæõ óéùñùñ ááÿïëþà ñçéçõê çöçõê òïàñ "Öçõâç÷êñ, ôøïøñ âç âæõîêñêñ ÷çáêç÷ê üàããëñåà åùÿùñþçïçõ"-åç ôàõïàã âç òáõàéïë ÿçíêïåç êã÷êöààê áóüõàñïàõ éàðàñë ñçïçõ ááÿ âæõåêìêñê îóö÷çõðêÿ âç ãæìå æ÷ðêÿåêõ íê, êñöàñïàõ ñæðç÷ïçõêñ ñçêñíê ýà÷ëÿðàðàöëñåàñ, üç÷÷à àõ÷ëãïëäëñåàñ åà ðçüâ òïà áêïçõïçõ. Áòïïøã ÿçõàê÷êñåç ááÿ âæõçñ áø üçïàíòïðà ðçñéçõçöê XX çööêñ úàí÷ïàõëñë: åçñêéç ÷óíùïçñ öùåù âç ñæú÷ê, æíòïòîêìàñëñ ðçüâê ñç÷êþçöêñåç ááÿ âæõçñ ûçö÷çïêíïçõê, êõêáøìñøéïø ðàïãàõàñëñ ðçüâ òïðàöëñë, áêõ ÷çõçúåçñ åçáåçáçïê üçìà÷ öùõçñïçõi, åêîçõ ÷çõçúåçñ òñ ðêñïçõïç êñöàñëñ àþïëãååàñ ðçüâ òïðàöëñë âç ö. ìààà öàïëõ.

Ñçéçõêììçåç òïåøäø íêðê, öêìàöç÷åç åç Áøàîêïáæõêñ ðóââæìê ðæõíàñ÷êïêö÷ïçõêñ ááûëÿëñåàñ úçõãïçñêõ. Ò, êã÷êöààê ããñøñàøìäøñïøãïàõë ÷çååâùï öàüçöêñåç åæìêï, êö÷æüöàï öàüçöêñåç ÷àôðààà ýàïëÿëõåæ âç íçñå ÷çöçõõùúà÷ëñë êã÷êöààêììà÷ëñ êïí çöàöë üæöàá æåêõåê. Ò, óïíçñêñ öçõâç÷êñêñ ôøïåàñ êáàõç÷ òïðàöë êåæìàöëñë ãçáøï æ÷ðêõ âç çð÷ççïçõ íù÷ïçöê ÿçííêñåç õæàï öçõâç÷ê ôøïà ããõÿë ãòìðàãïà, òñø îóéåçñ öàïðààà ýàïëÿëõåë. Ò, ñçéçõç àïðëõåë íê, åçìçõ ããñøñøñøñ úçàïêìç÷ îóö÷çõåêìê þçðêìç÷åç çð÷çç âç ôøï ãëõëïðàé áêõ âçüåç÷ ÷çÿíêï æåêõ, ààö÷õàí÷ çðçí óéùñùñ áê÷íêñ êúààçöêñê ðçüé ôøïåà ÷àôëõ. Ò, ôøïà êö÷æüïàí ôõæåðæ÷êñç àêå òïðàìàñ öùñê áêõ ÿæì íêðê ááûëõ âç "Öçõâç÷êñ ÷çáêç÷ê üàããëñåà

54 I.A.Schumpeter. History of Economic Analysis, p. 285-287.

downloaded from KitabYurdu.az

åùÿùñþçïçõ“ çöçõêñê òñà ãàõÿë üùþøðïàõïà áàÿïàìëõ: “Ãçïáïçõêñ ôòéäøñïøäø ãëééï âç îùðùÿù ... áù÷ç ýæâêõðêÿåêõ...Òñïàõë “àïïàüïàõ“à ýæâêõêáïçõ âç áø àïïàüïàõà - ïàô ãçåêðïçõåçñ ûàïãïàõëñ áóìùí üêööçöêñêñ ìæîàñç àìêñêñç âç åêñêñç ýæâõêïðêÿ òïàñ áø àïïàüïàõà - ãçåêð éçðàñçñêñ åùÿùñðçåçñ ãøõáàñ âæõåêìêñåçñ åàüà àõ÷ëã ñæðç÷, öçõâç÷ âç üç÷÷à êñöàñïàõë åà ãøõáàñ âæõêõåêïçõ âç ãøõáàñ âæõðçíåçåêõïçõ“[55].

Ãæìå æ÷ðçí ïàéëðåëõ íê, íàôê÷àïêö÷ êö÷æüöàïëñëñ çöàöïàõëñë åçìêÿåêõðçåçñ, òñø “ôøïøñ çöàõç÷êñåçñ ûêïàö æ÷ðçí“ êåæìàöë ùðøðêìç÷ïç, Áøàîêïáæõåçñ Ôõùåòñàåçí olan úõàñöëé öêìàöê êã÷êöàåëñëñ “êõöê ðêïïê ûçö÷çïêìê“ êåê. Åêîçõ ÷çõçúåçñ, Áøàîêïáæõ óé åóâõùñåç úæòåàïêéð ãøõøïøÿøñøñ êýçõêïçõêñåç ìæñêþç úòõðàïàÿðàãåà òïàñ áøõèøà þçðêìç÷êñêñ êö÷êöðàõýë ÷çáêç÷êñê ÷àð àýà áêïðçðêÿåêõ. Ïàíêñ ò, êã÷êöàåê âç öòöêàï áçõàáçõöêéïêìê, éùïðù və éòõàíëïëäë íçöíêñ ÷çñãêå æ÷ðêÿåêõ.

Åæìêïçñïçõê ùðøðêïçÿåêõçõçí ãæìå æ÷ðçí òïàõ íê, Áøàîêïáæõêñ åç Ø.Ôæ÷÷ê íêðê çñ áóìùí ûêåðç÷ê áøñåàñ êáàõç÷åêõ íê, ò, çðçí åçìçõ ñçéçõêìçöêñêñ ìàõàåëþëöë (Úõàñöàåà) òïðøÿ âç îóö÷çõðêÿåêõ íê, çð÷ççñêñ “üçãêãê åçìçõê“ çðçíïç ðùçììçñ òïøñàõàã, òñøñ ðæìàõëñë êÿ âàû÷ë ÷çÿíêï æåêõ. Ïàíêñ òñïàõëñ ðùçììçñ ðçöçïçïçõç áàûëÿïàõëñåà úçõãïçõ ðóâþøå òïðøÿåøõ. Ðçöçïçñ, ðæõíàñ÷êïêéðç òïàñ ðùñàöêáç÷åç çîçõ Ø.Ôæ÷÷ê ãç÷ê ðóâãæìç ðàïêí åæìêïåêöç, Áøàîêïáæõ ðæõíàñ÷êïêö÷ ñçéçõêìçöêñêñ âç öêìàöç÷êñêñ éêìàñïë òïåøäøñø îóö÷çõêõåê âç áøñø óéùñùñ çöàö âçéêúçïçõêñåçñ áêõê öàìëõåë. Áøñåàñ áàÿãà, çîçõ Ôæ÷÷ê öçñàìæìç ùö÷ùñïùí âæõêõåêöç, çíöêñç, Áøàîêïáæõ íçñå ÷çöçõõùúà÷ë âç íçñåïêïçõêñ ðàõàãïàõëñë ðùåàúêç æåêõåê. Çîçõ Ôæ÷÷ê ôøïø êã÷êöàåê êñíêÿàúëñ ö÷êðøïø üæöàá æåêõåêöç, Áøàîêïáæõ òñà áù÷ùñ áçåáçû÷ïêíïçõêñ öçáçáê íêðê áàûëõåë. Ôæ÷÷ê åêããç÷êñê ðùáàåêïç åçìçõêñç ìóñçïåêõåêöç, Áøàîêïáæõ çöàö úêíõêñê êö÷æüïàí åçìçõêñç ìóñçïåêõ âç íàôê÷àïêéðêñ ðù÷çõçããê õòïøñø ãçáøï æ÷ðçìçõçí, êö÷æüöàïëñ çöàö ðçãöçåêñêñ êö÷æüïàí òïåøäøñø êåàêà æåêõåê. Ôæ÷÷ê êöç úæòåàïêéðê ÷çñãêå æåçõçí, ãæìå æåêõåê íê, ðçüé òñøñ ðçüâ òïðàöë êö÷æüöàïëñ êñíêÿàúëñà çïâæõêÿïê ÿçõàê÷ ìàõà÷ðàïëåëõ.

---

[55] «Economistes financiers du XVIII-e ciecle», publ. par E.Daire. P., 1843, p. 394-395.

downloaded from KitabYurdu.az

## §5. BENCAMİN FRANKLİN VƏ ONUN ƏMƏK-DƏYƏR NƏZƏRİYYƏSİ

Çðçí-åçìçõ ñçéçõêììçöêñêñ ìàõàåëþëìàõëñåàñ áêõê åç XVIII çöõåç ìàÿàìëá ìàõà÷ðëÿ, îóõíçðîê Aðæõêíà åóâïç÷ ûàåêðê Áåñjàðêñ Úõàñíîêñ (1706-1790) òïðøÿåøõ. 1729-þø êïåç ò, óéùñùñ çöàö çöçõê òïàñ "Íàäëé ôøïïàõëñ éçõøõêïêìê âç ÷çáêç÷ê üàããëñåà öç÷üê ÷çåãêãà÷" àåïë êÿêñåç Ø.Ôæ÷÷êñêñ çðçí-åçìçõ ñçéçõêììçöêñê ðùåàúêç æ÷ðêÿ âç ðùáàåêïç åçìçõêñêñ ÷çüïêïêñê êÿ âàû÷ëñà þàïàìàñ êïí êã÷êöàåýë òïðøÿåøõ. Ðæõíàñ÷êïêö÷ïçõêñ áàûëÿïàõë êïç õàéëïàÿðàìàñ Úõàñíîêñ ãæìà æåêõåê íê, öçõâç÷êñ ìæîàñç ðæìàõë ìàïñëé çðçí òïà áêïçõ.

**O, mùáàåêïç åçìçõêñê** çðçíïç ðùçììçñ æ÷öç åç, áø êã÷êöàåê íà÷æãò-õêìàñëñ êþ÷êðàê ÷çáêç÷êñê áàÿà åùÿðçðêÿåêõ. Åçìçõ òñøñ úêíõêñç îõõç, çð÷ççñêñ ÷çáêê ûùöøöêìç÷êåêõ âç çöàö ðçöçïç òñøñ åçãêã íçðêìç÷ óïýùöùñù ÷àôðàããààëõ. Áø óïýù âàüêåêñê ò, êÿ âàû÷ëñàà îõõùõåù.

Çðçí ôõòáïæðêñêñ óéù Úõàñíîêñ ùýùñ üçïïæåêïðçé ôõòáïæðç ýæâõêïðêÿåâ. Ò, çðçìêñ êþ÷êðàê ÷çáêç÷êñê âç ûàõàí÷æõêñê àýà áêï-ðçåêìêñåçñ, åçìçõêñ çð÷çç âç ôøï úòõðàïàõë àõàöëñåàíë åàûêïê çïàãçñê âç ôøïøñ ðæìåàñà ýëûðàöë ããàñøñàøìàøñïøãïàõëñë îõõðùõåù. Áøñà îõõç åç, ðùáàåêïç åçìçõêñê ìàõàååàñ çðçí âç ôøï òñøñ ñçéçõêñåç üæý áêõ åàûêïê çïàãçïçõ ðàïêí åæìêïåêõïçõ. Ðçüé áø åà òñà ðæõíàñ÷êïêéðêñ ÷çöêõêñåçñ ÷àð ãøõ÷øïðàã êðíàñë âæõðçðêÿåêõ. Òñøñ çöçõêñåç ðæõíàñ÷êïêö÷ íònöæôöêìàöë åà óé çíöêñê ÷àôðëÿåëõ. Bæïçíê, áøõàåà åà öçõâç÷êñ çöàö ðæìàõë íêðê ôøï íçðêìç÷êñ àõ÷ëðë öàìëïëëõåë. Öòñõàíë çöçõïçõêñåç ( "Îçñþ ÷êþàõç÷ýêìç ðçöïçüç÷", "Öçñàìæ, ÷çð÷çõàãïëã âç áæíàõïëã üàããëñåà", "Êÿïçìçñ ìòûöøïïàõ üàããëñåà" âç ö.) åêïçõ êã÷êöàåê íà÷æãòõêìàïàõ åà ÿçöü òïøñðøÿåøõ. **Ðçñúçç÷ê** Úõàñíîêñ àìõëþà ÷çååêã æ÷ðçðêÿ âç òñø úàêéïç æìñêïçÿåêõðêÿåêõ. **Õæñ÷àìà** ÷òõôàäëñ ÷óüúçöê íêðê áàûðëÿ âç òñøñ ðçñáçìêñê àýðàðëÿåëõ. Õæñ÷àñëñ âç ðçñúçç÷êñ åçìçõïç çïàãçöê åç ÷çåãêã æåêïðçðêÿåêõ.

Ðçïøðåøõ íê, ÀÁß-åà áøõèøà öêìàöê êã÷êöàåëñëñ ìàõàñðàöë éàðàñë åêããç÷ íàôê÷àïêéðêñ çöàö êã÷êöàåê ããàñøñïàõëñëñ ÷çüïêïêñç åæìêï, öàåçþç òñøñ ðçåüêñç ìóñçïàåêïðêÿåê. Áêõ öëõà Aðæõêíà êã÷êöàåýëïàõë ÷æé-÷æé Úõàñíîêñêñ çöçõïçõêñç êö÷êñàå æ÷öçïçõ åç, çöàöçñ åêããç÷ïçõêñê òñøñ çðçí-

downloaded from KitabYurdu.az

åçìçõ ñçéçõêììçöêñêñ ðùååçàïàõëñà åæìêï, íàôê÷àïêö÷ ìëäëðë íòñöæôöêìàöëñà ìóñçïåêõåêïçõ. Çñ öæâêðïê âç ýòû êÿïçñçñ ÷æéêö êöç áøñååàñ êáàõç÷ êåê íê, íàôê÷àïêö÷ ìëäëðëñëñ âç êõê öçõâç÷êñ ìàõàåëïðàöëñëñ çöàö ðçñáçìêñê êö÷êöðàõ åæìêï, çðçíöæâçõ êñöàñïàõëñ ãçñàç÷þêïîêìê ÷çÿíêï æåêõ. Àðæõêíà íàôê÷àïêéðêñê êåæàïîàÿåëõàõàã Á.Úõàñíîêñ êååêà æåêõåê íê, ãçñàç÷, çðçìç öæâîê - éçüðç÷íæÿïçõêñ âçéêììç÷êñêñ ìàûÿëïàÿåëõëïðàöëñëñ çñ åùéîùñ ìòïøåøõ.

Ìøûàõëåà åæìêïçñïçõåçñ îóõùñùõ íê, Áæñjàðêñ Úõàñíîêñ çðçí åçìçõ ñçéçõêììçöêñêñ ÷çõçúååàõë òïöà åà, öêìàöê êã÷êöàåëñ åêîçõ ôõòáàïæðïçõêñêñ ÿçõüêñåç íîàööêí ðçí÷çáêñ ååâàðýëïîàõëñååàñ úçõãïçñðêÿ âç áøõèøà öêìàöê êã÷êöàåëñåà óéùñçðçûööö ìæõ ÷ø÷ðøÿåøõ.

downloaded from KitabYurdu.az

# FƏSIL 7. FİZİOKRATİZM

## § 1. FİZİOKRATLAR MƏKTƏBİNİN YARANMASININ TARİXİ ŞƏRAİTİ VƏ ÜMUMİ XÜSUSİYYƏTLƏRİ

İqtisadi təlimlər tarixində fiziokratlar məktəbi mühüm yer tutur və bu məktəbin nümayəndələri bir çox yeniliklər yaratmışlar. Fiziokratların yaradıcılığı feodalizmdən kapitalizmə keçid dövrünə təsadüf edir ki, bu dövrdə Qərbi Avropa nisbətən yetkinləşmiş iqtisadi inkişaf mərhələsində idi. XVIII əsrin ortalarında Qərbi Avropada kapitalizmin inkişafı çox uzağa getmişdi. İngiltərədə sənaye çevrilişi başlamışdı. Fransada isə manufaktura kapitalizmi möhkəmlənirdi. Fransada manufaktura kapitalizmi antifeodal inqilab ərəfəsinə daxil olmuşdu. Məhz buna görə də Qərbi Avropada kapitalizmin yaranması və inkişafı merkantilistlərin proqramına və nəzəriyyələrinə yenidən baxmağı tələb edirdi.

İlkin kapital yığımı dövrü artıq başa çatmışdı. Aqrar ölkələrdə, xüsusilə müstəmləkələrdə ticarət öz ictimai əhəmiyyətini itirmişdi.

Merkantilistlərin iqtisadi ideyaları ilə mübarizənin nəticəsi olaraq fiziokratlar məktəbi yaranır. Fiziokratların xidmətlərindən biri ondan ibarətdir ki, bu məktəbin nümayəndələri XVIII əsrdə Qərbi Avropada baş verən iqtisadi irəliləyişləri ümumiləşdirmişlər. Merkantilistlərlə olan iqtisadi ideyalar mübarizəsi Qərbi Avropa ölkələrində gedirdi, lakin bu mübarizə İngiltərədə xüsusi əhəmiyyət kəsb edirdi. Merkantilistlər ilə gedən mübarizə Fransada Fiziokratizm adlanırdı. Bu onunla əlaqədar idi ki, XVIII əsrdə Fransada antifeodal inqilabı güclənirdi. Qeyd edək ki, Fransız merkantilizmi mütləqiyyət və feodal üsul-idarəsi ilə sıxı əlaqədar idi.

Göstərdiyimiz dövrdə merkantilizmin tənqidi feodal üsul-idarəsinin tənqidi ilə üst-üstə düşürdü. Lakin feodalizmlə mübarizə təbii ki, kənd təsərrüfatının müdafiəsinə yönəldilmişdi. Bu da öz növbəsində milli sərvətin kənd təsərrüfatında axtarılması demək idi. Odur ki, zəruri bir

downloaded from KitabYurdu.az

proses kimi əkinçilik ideallaşdırılırdı. Əgər İngiltərədə iqtisadi fikirlər merkantilizm ilə mübarizədə manufaktura sənayesinə əsaslanırdısa bu sənaye Fransada çox böyük nüfuza malik deyildi. XYIII əsrdə Fransada "kral manufakturaları" feodal sisteminin qol-budağına çevrilmişdi. Fiskal siyasətə olan nifrət onlara qarşı çevrilmişdi. Bütün bunlara baxmayaraq fiziokratizmin ideyalarının təməli yaranırdı.

İnqilab ərəfəsində Fransanı narahat edən iqtisadi problemlər təkcə merkantilizmin iflası ilə əlaqədar deyildi. Feodal üsul-idarəsi artıq böhranla üzləşirdi. Feodalizm fransız kəndlərində də hakim mövqe tuturdu. Bu üsul-idarə mürtəce xarakter daşıyırdı və sənaye istehsalını ləngidirdi.

Belə bir şəraitdə Fransa zadəganları və ruhaniləri tüfeyli sinfə çevrilmişdilər. Onların torpaq üzərində olan inhisarı saxlanılırdı. Mütləqiyyət zadəganları dəstəkləyirdi, zadəganlar isə təsərrüfatla məşğul olmurdular, kənddə yaşamırdılar. Onların məqsədi töycü və vergi yığmaq idi.

XIV-XV əsrlərdə təhkimçilik öz əhəmiyyətini sarsıtsa da XVIII əsrdə təhkimçilik müəyyən mənada saxlanılırdı. Geniş miqyasda olmasa da işləyib ödəmə münasibətləri qalırdı.

XVIII əsr Fransasında kənd təsərrüfatı iqtisadi ziddiyyətlərin mərkəzinə çevrilmişdi. Kənd təsərrüfatını belə bir vəziyyətdən çıxarmaq üçün aqrar münasibətlərini kökündən dəyişdirmək tələb olunurdu. Odur ki, aqrar münasibətləri məsələsi ön plana keçirdi. Kənd təsərrüfatında kapitalizmin inkişafının yollarını və formalarını müəyyən etmək tələb olunurdu. Kapitalizmin kənd təsərrüfatında inkişafına olan maraq getdikcə artırdı və belə bir şəraitdə fiziokratizmin yaranması üçün şərait yaranırdı. Fransada merkantilizmin tənqidi aqrar istiqamət alır, çünki XVIII əsrdə Fransada kənd təsərrüfatında pozitiv iqtisadi məsələlərin həlli ön plana keçirilir. Fiziokratlar Fransanın iqtisadi durğunluğunun həllini kənd təsərrüfatında görürdülər.

Belə bir şəraitdə Buagilber (1646-1714) Fiziokratlar məktəbini xarakterizə edən bir sıra ideyalar irəli sürür. Buagilber merkantilistləri ciddi tənqid edir, təbii qaydalara bəraət qazandırır, ticarət azadlığını tələb edir, taxıl üzərində yüksək qiymətlərin qoyulmasını faydalı hesab edir,

downloaded from KitabYurdu.az

əkinçilikdə olan kasıb vəziyyətə diqqəti artırır, vergilərin bərabər bölünməsini müdafiə edir, əkinçiliklə məşğul olanların kasıbçılıqdan azad olmasını təbliğ edirdi.

Buagilberdən sonra Marşall Voban (1623-1707) özünün "Kral onluğu" (1707) adlı anonim əsərini buraxır. Bu əsərində o mütləqiyyət Fransasının kasıbçılığını açıb göstərir, onun xalqının yoxsullaşmasını açıqlayır, vergilərin ağırlığından danışır, ziynət və dövlət borclarını tənqid edir, imtiyaz sistemini və yardarlığı (otkup) qamçılayır, yaxşı əməyi və əkinçiliyi tərifləyirdi. Marşall Voban Buagilberi tərifləyərək göstərirdi ki, XYIII əsrin əvvəllərində Fransada vergilər ən yüksək dərəcəyə, öz apogeyinə çatmışdır, Fransanın küçələrində ayaqyalınlar, ac-yalavaclar gəzişirlər. Vobanın təklifləri ondan ibarət idi ki, vergilər vahid şəklə salınsın, zadəganlara və ruhanilərə çatacaq vergilərin toxunulmazlığı ləğv edilsin. Deməli, Voban fiziokratlara qədər vergilərin vahid şəklə salınması ideyasını irəli sürmüşdü.

XYIII əsrin birinci yarısında merkantilizmin ciddi tənqidi ilə Markiz dArjanson (1694-1757) çıxış edirdi. Onun iqtisadi fikirləri ancaq 1764-cü ildə nəşr olunmuşdur. Markiz dArjanson iqtisadi həyatın inkişafına qaydalar və üsullar tətbiq edilməsi əleyhinə çıxırdı, gömrük rüsumlarını tənqid edir, Avropanın vahid bir bazara çevrilməsini tövsiyə edir, birbaşa vergilərin qoyulması proyektlərini işləyib hazırlayır. Onun fikrincə yaxşı idarə etmək üçün idarəçiliyin özünü məhdudlaşdırmaq lazımdır. Ölkənin yaşayış vəziyyətinin mənbəyini dArjanson əkinçiliyin uğurlu olmasında, sənətkarlıqda və daxili ticarətdə görürdü.

Fiziokratlar üçün xarakterik xüsusiyyət kəsb edən iqtisadi liberalizm ideyası dArjanson tərəfindən formalaşdırılır. Bu ideyanı isə Qurne (1712-1759) sonralar ardıcıl olaraq inkişaf etdirir. 1751-ci ildə ticarət intendantı (hərbi təchizat sahəsinin işçisi) işləyən Qurne ticarət üzərində olan bir neçə məhdudiyyətləri aradan qaldırır. O merkantilistlərin siyasətini tənqid edir, feodal imtiyazlarının əleyhinə çıxır, vergi islahatı keçirməyi tələb edir və iqtisadi liberalizm anlayışını irəli sürür.

Fiziokratların ideyalarına yaxın fikirləri bankir Riçard Kantilyon inkişaf etdirir. O 1733-cü ildə "Ticarətin təbiəti haqqında oçerk" adlı əsər yazır. Kantilyon bu əsərində açıq şəkildə fiziokrat ideyaları irəli sürürdü. O

downloaded from KitabYurdu.az

qeyd edirdi ki, məhz sərvətin yeganə mənbəyi torpaqdır, çünki torpaq yaşayış vasitələri ehtiyatına malikdir, insan əməyi torpaqdan sərvət yaradır. Bununla belə Kantilyon iddia edirdi ki, bütün əhali, zümrələr, təbəqələr torpaq mülkiyyətçiləri hesabına varlanırlar. O hətta cəmiyyəti üç sinfə də bölmüşdü. Kantilyonun fikrincə cəmiyyət əkinçilərdən (kənd sahibləri, icarədarlar), sənətkarlardan və tacirlərdən ibarətdir.

Kantilyonun fikrincə əmtəənin həqiqi və ya daxili dəyərliliyi onun istehsalına sərf olunan əmək və torpağın miqdarına uyğun olur. O ictimai məhsulun hərəkətini, tədavül prosesində onun reallaşdırılmasını göstərməyə çalışmışdır. Lakin belə bir cəhəti də qeyd edək ki, Kantilyon merkantilistlərin baxışlarından tam azad ola bilməmişdir. Çünki ticarət balansı naminə o sənaye məhsullarının ixracının, lazım olan xammalın isə idxalının gücləndirilməsi tərəfdarı idi.

Fransua Kene fiziokratizmin əsasını qoymuş və bu məktəbin rəhbəri idi. O, nəinki fiziokratlar məktəbinin əsasını qoymuş, hətta fiziokratizmin iqtisadi və siyasi proqramını formalaşdırmışdır. F.Kenenin ideyalarını və axtarışlarını XYIII əsrin ikinci yarısı Fransasının dövlət xadimi baş maliyyə nəzarətçisi Ann Raber Jak Tyürqo (1727-1781) davam etdirmişdir. Fiziokratizmin ideyalarını P.Dyupon de Nemur, Viktor Mirabo, P.Mersye de la Rivyer, Q.Letron təbliğ edirdilər. Belə ki, həqiqi fiziokratlar məktəbi, öz dövründə adlandırıldığı kimi "iqtisadçılar" məktəbi yaranmışdı.

XYIII əsrin ortalarında İngiltərədə sənaye çevrilişi başlamışdısa Fransada isə manufaktura kapitalizmi möhkəmlənirdi. Lakin Fransada XYIII əsrin sonlarına kimi feodalizm, aqrar münasibətləri qalırdı. Fransa monarxiyası kəndliləri ağır vergilər altında saxlayırdı. Güclü mütləqiyyət sistemi, feodal iyerarxiyası kapitalizmin inkişafına maneəçilik edirdi. Kənd təsərrüfatı çıxılmaz vəziyyətə düşmüşdü.

Bu dövrdə, yararlı torpaq sahələrinin 80%-i zadəganların əlində idi.[56] Fransız kəndlisi torpaqdan və mal-qaradan məhrum edilmişdi, məhsul verimi çox aşağı səviyyədə idi. Göstərdiyimiz dövr Fransasında feodal istismarının forması olan töycü, pul və məhsul vergi sistemi hökm sürürdü. Şəxsi təhkimçiliyin müxtəlif formaları, əsarət və zülm geniş tüğyan edirdi. Töycü pul və natural şəkildə ödənilirdi. XYIII əsrin sonuna

[56] Всемирная история экономической мысли. Т.1, М.,1987, стр.442

downloaded from KitabYurdu.az

kimi töycünün pul forması daha da artmışdı. Yardarlıq geniş inkişaf tapmışdı. Torpaqsız və az torpaqlı kəndlilər mülkədarlardan icarəyə torpaq alsalar da məhsulun yarısını onlara verirdilər. Bütün bunlardan başqa kənd təsərrüfatı merkantilizm ideyalarına tabe etdirilirdi. Taxıl üzərində ən yüksək qiymətlər mövcud idi. Xaricə taxıl aparmaq qadağan idi, ucuz taxılın gətirilməsi isə getdikcə genişləndirilirdi. Kasıb fransız kəndi sənaye məhsullarının satılması üçün yararlı deyildi.

Fransa mütləqiyyəti proteksionizmi, xarici ticarəti, gəmiçiliyi və sənayenin inkişafını genişləndirirdi. Bu dövrdə, yəni XYIII əsrin ortalarında İngiltərə dünya bazarında hakim mövqe tuturdu. Kiçik həcmli Fransız sənayesi texniki tərəqqi üçün maneəçilik törədirdi, kapitalist sənayesinin artmasının qarşısına əngəl törədirdi.

Qeyd etdiyimiz amillərlə əlaqədar olaraq Fransada aqrar münasibətləri kəskin xarakter almışdı. Bu məsələnin həllində fiziokratlar müstəsna rol oynayırdılar. Fiziokratlar ölkədə yeganə sərvət yarada biləcək sahəni kənd təsərrüfatında görürdülər. Odur ki, fiziokratlar tədqiqat obyekti kimi öz baxışlarını kənd təsərrüfatına həsr etdilər. Onlar sənayeni məhsuldar sahə hesab etmirdilər. Kənd təsərrüfatında izafi məhsulun yaradılmasını sərf-nəzər edən fiziokratlar istehsal dairəsini aqrar münasibətləri ilə məhdudlaşdırırdılar.

Siyasi iqtisad elmində fiziokratların əhəmiyyəti, rolu və mövqeyi ondan ibarət idi ki, Uilyam Petti və Buagilberdən sonra onlar öz tədqiqatlarını tədavül dairəsindən istehsal dairəsinə keçirmişdilər. Bununla da fiziokratlar kapitalist istehsalının sonrakı elmi təhlilinin əsaslarını qoydular.

## § 2. FRANSUA KENE FİZİOKRATLAR MƏKTƏBİNİN BANİSİ KİMİ VƏ ONUN İQTİSADİ BAXIŞLARI

Fiziokratlar məktəbinin əsasını qoyan Fransua Kene 1694-cü ildə Versalın yaxınlığında kasıb kəndli ailəsində anadan olmuşdur. Onun ailəsi kiçik ticarətlə məşğul idi. Valideyinləri F.Keneye heç bir təhsil verə bilməmişdilər. Lakin o, müstəqil olaraq təhsillə məşğul olur, hətta latın və yunan dillərini öyrənir. Çox gənc yaşlarında tibb ilə maraqlanır. Kənd cər-

downloaded from KitabYurdu.az

rahından dərs alan Kene sonralar Parisdə tibb məktəbində oxuyur və nəhayət, məşhur həkim olur. O, bir neçə tibb əsəri yazır və 1749-cu ildə istedadlı bir həkim kimi Markiz de Pompadurun şəxsi həkimi, 1752-ci ildə isə XY Lüdovikin həkimi olur. Ona zadəgan titulu verirlər, Versal sarayına köçür, sonralar isə iri mülk sahibinə çevrilir. O, görkəmli alim-bioloq kimi də fəaliyyət göstərmişdir.

F.Kene tibb və biologiya elmləri ilə yanaşı fəlsəfə ilə də məşğul olur, Malbranşın və Dekartın əsərlərini öyrənir. Fəlsəfə ilə məşğul olmaqla, maarifpərvər filosofların əsərlərini öyrənməklə F.Kene insan cəmiyyətinə kainatın məhsulu kimi baxırdı. İnsan cəmiyyətini F.Kene təbiətin qanunlarına tabe olan aləm adlandırırdı. Təbiət qanunlarını öyrənərək o hesab edirdi ki, nəinki təbiətdə, hətta cəmiyyətdə də mübadilə ekvivalentlik prinsipinə əsaslanır. Bu ideyadan Kene iqtisadi tədqiqatlarında da istifadə edirdi.

F.Kene 60 yaşlarında bir iqtisadçı kimi formalaşır. 1756-cı ildə Didro onu Ensiklopediya yazılışına cəlb edir. Bu hadisə Kenenin həyatında çox mühüm rol oynayır. Versalda 50-ci illərdə Kenenin ətrafına ensiklopedistlərdən Didro, Helvetsi, Tyürqo və Mirabo toplanırdılar. Bu şəxslər inqilabi ruhda idilər. Dini, təbiəti dərk etməyi, cəmiyyəti, dövlət quruluşunu bu maarifçilər ciddi tənqid edirdilər.

Xalq arasından çıxan Kene xalqın iztirab və əzablarını yaxşı başa düşürdü. Saray mühitində, eyş-işrət içərisində yaşayan Kene aristokratları da, şəhər zəhmətkeşlərini də, fransız kəndlisinin acınacaqlı həyatını da düzgün dərk edirdi. Kenenin isə aristokratlar və zadəganlarla olan əlaqəsi çox sıx idi. Bu ikilik onun iqtisadi platformasına təsir etməyə bilməzdi. 1756-1757-ci illərdə Kene aşağıdakı məqalələrini Ensiklopediya üçün yazır: "Fermerlər", "Taxıl", "Əhali" və "Vergilər". Kənd təsərrüfatına həsr edilmiş Kenenin əsərləri böyük maraq doğurur. Onun tələbələri, ardıcılları meydana çıxır.

F.Kene idealist idi. Dinin hərtərəfli hökmranlığını qəbul edirdi. Lakin Ensiklopediyada olan maarifçilər tərəfindən materialist ideyalar qərarlaşmışdı. Bundan qorxan Kene Ensiklopediya ilə olan əməkdaşlığından imtina edir.

downloaded from KitabYurdu.az

Fransua Kene "Fermerlər" və "Taxıl" məqalələrində kənd təsərrüfatına və iqtisadi siyasətə xas olan ziddiyyətləri açıqlayır, XY Lüdovikin apardığı siyasəti əks etdirirdi. Bir çox faktiki materiallar əsasında əkinçilik sistemində olan geriliyi göstərir, kənd təsərrüfatının təşkilinin və aqrar münasibətlərin yenidən qurulmasının zəruriliyini açıqlayırdı. F.Kene primitiv, bəsit texnikaya əsaslanan natural təsərrüfatın iri fermer təsərrüfatı ilə əvəz olunmasını istəyirdi. Fermer təsərrüfatı, onun fikrincə, bazar üçün işləməli və iri kapital qoyuluşuna əsaslanmalı idi. F.Kene aqrar mədəniyyətinin artmasını və kənd təsərrüfatında muzdlu əməyin tətbiq edilməsini istəyirdi. O iddia edirdi ki, Fransa kiçik, qeyri-məhsuldar istehsaldan və yardarlıqdan imtina etməlidir. Kiçik istehsal və yardarlıq külli miqdarda sərvətin itməsinə və daimi aclığın qalmasına səbəb olur.

Deməli, F.Kene mahiyyət etibarilə feodalizmin qalıqlarının ləğv edilməsinə çağırırdı və iri kapitalist əkinçiliyinə keçilməsini istəyirdi. O yazırdı ki, həm kiçik, həm də iri təsərrüfatlar xərclərə olan münasibətlərdə qeyri-proporsional mənfəət gətirirlər. Bununla əlaqədar olaraq varlı əkinçilər bir neçə kotandan istifadə edərək özləri və dövlət üçün əlverişli şərait yaradırlar. Buna görə də varlıların təsərrüfatında iş qüvvəsinə qənaət edilir və nəticədə onlar özlərini yüksək mənfəətlə təmin edirlər.

F.Kene öz iqtisadi proqrammasını ümumiləşdirilmiş şəkildə "Əkinçilik dövlətinin iqtisadi siyasətinin ümumi prinsipləri və bu prinsiplərə aid qeydlər" (1758) əsərində vermişdir.

Sənaye istehsalının təhlilini vermiş klassik ingilis burjua siyasi iqtisadından fərqli olaraq F.Kene, kənd təsərrüfatının təhlilini verməklə bu sahəni yeganə istehsal sahəsi kimi izah etmişdir.

Fiziokratlar məktəbi merkantilizm ilə mübarizədə inkişaf etmişdir. F.Kene özünün "Əhali" məqaləsində XY Lüdovikin merkantilist siyasəti və ticarət müharibələri əleyhinə çıxış edirdi. Bu sahədə o "Ticarət haqqında" (1765) adlı əsərində xüsusilə aktual çıxış edirdi. Merkantilizmin əksinə olaraq Kene və ümumiyyətlə fiziokratlar, ekvivalent mübadilə ideyasını irəli sürürdülər. F.Kene belə hesab edirdi ki, tədavülə daxil olan əmtəələr qabaqcadan verilmiş qiymətlər əsasında çıxış edirlər. Lakin F.Kene nə üçün əmtəələr qabaqcadan müəyyən olunmuş qiymətlər əsasında çıxış edirlər

downloaded from KitabYurdu.az

səbəbinin elmi əsasını verə bilməmişdir. O, mübadilənin ekvivalent xarakter daşıdığını əsas tutaraq merkantilizmi tənqid edirdi. Çünki merkantilistlər iddia edirdilər ki, sərvət tədavüldə yaradılır. Buna görə də F.Kene göstərirdi ki, əmtəələrin alışı hər iki tərəfdə bərabərlik yaradır, satış hər iki tərəf üçün uyğun olan qiymətlər əsasında aparılır və mübadilə heç nəyə üstünlük vermir.

F.Kene "Cənab M.X. memuarlarına cavab (sənaye və ticarətin səmərəsi, qeyri-məhsuldar sinfin məhsuldarlığı haqqında)" (1765) məqaləsində belə bir qərara gəlir ki, bazar qiymətinin yaranmasının əsas səbəbi əmtəələrin az tapılması və ya məhsul bolluğudur və ya satıcılar ilə alıcılar arasında olan zəif və ya güclü rəqabətdir.

Merkantilistlərdən fərqli olaraq F.Kene pulu qeyri-faydalı sərvət adlandırmışdır. O elan edirdi ki, pul mübadilədə vasitəçi rolunu oynayır. Əgər merkantilistlər pula yığım kimi baxırdılarsa, F.Kene bunu inkar edirdi, çünki Keneyə görə pul ölkə sərvətinin təkrar istehsalına kömək etmir. Məlumdur ki, merkantilistlər sərvətin mənbəyini xarici ticarətdə görürdülər, Keneyə görə isə ölkənin sərvətinin mənbəyi və varlanmağın açarı maddi istehsaldır. Maddi istehsal dedikdə o kənd təsərrüfatını nəzərdə tuturdu. Kene iddia edirdi ki, xarici ticarət müxtəlif ölkələrdə əmtəələr üzərində olan qiymətləri bərabərləşdirir. Xarici ticarət qiymətləri bərabərləşdirsə də heç bir əlavə şey vermir. Tacirlərin gəliri ölkənin mənfəəti deyil, bu proses təkrar istehsalın yox olması ilə aradan çıxır. Əgər merkantilistlər tacirləri bazarın ağası adlandırırdılarsa (öz əmtəələri üzərində özləri istədiyi qiyməti qoyurlar), F.Kene qeyd edirdi ki, satışdan əldə edilən fayda alış zamanı yox olur. Qeyd edək ki, merkantilizmi tənqid etməsinə baxmayaraq F.Kene ticarət mənfəətinin reallığını və əhəmiyyətini düzgün olmayaraq inkar edirdi.

Fiziokratların nəzəri axtarışlarının əsasını "təbii qaydalar" təşkil edirdi. Belə bir konsepsiyanı F.Kene özünün "Təbii hüquq" (1765) əsərində şərh etmişdir. Onun bu əsəri özünün və ümumiyyətlə fiziokratların dünya görüşü və fəlsəfi baxışlarını əks etdirən bir traktatdır. F.Kene belə hesab edirdi ki, ictimai qanunların özü "təbii qaydalar" qanunlarıdır. Bu qanunlar allah tərəfindən göndərilmişdir və cəmiyyət onlardan təkrar istehsal və bölgü münasibətlərində istifadə etməlidir. F.Kene bu ideyasını "Çin əsarəti"

downloaded from KitabYurdu.az

(1767) əsərində də inkişaf etdirmişdir. O, göstərirdi ki, fiziki qanunlar təbii qaydaları müəyyən etməklə yanaşı insan nəsli üçün də əlverişlidirlər. Bu qanunlar dəqiq olaraq insanların bütün təbii hüquqlarını müəyyən edirlər. Belə qanunlar əbədidir, dəyişməzdir və ən yaxşı qanunlardır.

F.Keneyə görə mülkiyyət hüququ təbii hüququn əsasıdır. Mahiyyət etibarilə "təbii qaydalar" F.Kene tərəfindən burjua qaydaları kimi qəbul edilirdi. F.Kene "təbii qaydalar" pərdəsi altında kapitalizmi müdafiə edirdi. Kapitalizm isə xüsusi mülkiyyət münasibətləri və azad rəqabət əsasında inkişaf edirdi. F.Kene bəyan edirdi ki, insanların təbii hüquqları təxminən onların şeylər üzərində olan hüquqları ilə müəyyən olunur. Bu şeylər isə onlara istifadə etmək üçün zəruridir.

Fiziokratların "təbii hüquq" və "təbii qaydalar" haqqında olan təlimləri tərəqqipərvər ideyalar idi. Bu ideyalar ictimai inkişafın obyektiv və qanunauyğun qaydalarını irəli sürürdü. Fiziokratlar cəmiyyətə canlı ictimai orqanizmin inkişafı kimi baxırdılar. İqtisadi həyatı isə öz daxili qanunauyğunluqları olan təbii proses adlandırırdılar.

Fiziokratların xidməti ondan ibarət idi ki, onlar ictimai formaya cəmiyyətin fizioloji forması kimi baxırdılar. Cəmiyyətin fizioloji forması dedikdə Fiziokratlar istək və arzudan, siyasətdən asılı olmayaraq istehsalın özünün təbii zərurətindən irəli gələn formaları nəzərdə tuturdular.

Fiziokratların iqtisadi nəzəriyyələrinin mərkəzi nöqtələrindən biri "xalis" və ya izafi məhsul haqqında olan təlimləridir. Merkantilistlərin əksinə olaraq fiziokratlar izafi məhsulun mənşəyini tədavül sferasından maddi istehsal sferasına daxil edirlər, bununla da kapitalist istehsalının təhlilinin əsasını qoyurlar. F.Kene "Cənab M.X. memuarlarına cavab" əsərində əkinçiliyin məhsuldarlığının müstəsna əhəmiyyət kəsb etdiyini əsaslandırmış və ticarəti ancaq şeylərin bir-birinə qarşı mövcud qiymətlərinin əsasında mübadilə olunduğu vasitə adlandırmışdır. Məhz bu səbəbdəndir ki, Fiziokratlara görə ticarət sərvət yaratmır.

"Xalis məhsulu" Fiziokratlar (məlumdur ki, əkinçilikdə) istehsal xərclərindən artıq əldə edilən artıq məhsul adlandırırdılar. "Vergilər" məqaləsində F.Kene yazırdı ki, "xalis məhsul" hər il yaradılan sərvətdir. Bu sərvət millətin gəlirini təşkil edir ki, əkinçilikdə yaradılan məhsuldan bütün xərcləri çıxdıqdan sonra qalan gəlirdir. Beləliklə, Fiziokratlar

downloaded from KitabYurdu.az

göstərirdi ki, "xalis məhsul" ancaq əkinçilikdə yaradılır. F.Kene qət edirdi ki, sənaye ancaq istehlak edir və buna görə də sənayedə xalis məhsul yaradılmır; sənaye əməyi ilə yaradılan sərvət torpağın verdiyi gəlir hesabına olur və ona görə də sənaye qeyri-məhsuldar sahədir. F.Kene göstərirdi ki, sənayenin təkrar istehsalı torpaq sahələrindən əldə edilən gəlir hesabına həyata keçirilir. F.Keneyə görə sənayedə xammal və materiallara yeni forma verildiyi üçün istehsalın bu sahəsi qeyri-məhsuldardır.

Bu ideyaları F.Kene "Sənətkar əməyi haqqında" (1766) əsərində inkişaf etdirmişdir. F.Kene bu əsərində yazırdı ki, sərvət istehsalı onun təkrar istehsalıdır. İstehlak isə məhsulun, maddi nemətlərin məhv olması deməkdir. Bu əsərində F.Kene göstərirdi ki, sənətkar xammalın dəyərliliyini (qiymətini) artırır, lakin o saat qət edirdi ki, sərvət əkinçilikdə yaradılır. O izafi məhsulu naturalcasına izah edərək onu təbiətin bəxşeyişi kimi qəbul edirdi. İzafi məhsula onun belə yanaşmasını dəyər kəmiyyəti kimi izah etmək olar. Əgər F.Kene "Əkinçilik dövlətinin ümumi iqtisadi prinsipləri..." əsərində "torpaq sərvətin yeganə mənbəyidir" deyirdisə, "Çin əsarəti" əsərində "xalis məhsulun" daha geniş anlayışını verirdi. O qeyd edirdi ki, xərclər çıxıldıqdan sonra qalan artıq məhsul "xalis məhsuldur". Bu xalis məhsul isə, F.Keneyə görə dövlətin və xüsusi mülkiyyətçilərin gəlirini təşkil edir.

İzafi dəyər probleminin öyrənilməsində Fiziokratların çox böyük xidmətlərinə baxmayaraq onların "xalis məhsul" haqqında olan təlimləri məhdud və ziddiyyətli xarakter daşıyır. Feodal nümayəndələrinə üstünlük verərək izafi məhsul (izafi dəyər) problemini onlar tam şəkildə həll edə bilməmişlər. Fiziokratlar izah edə bilmirdilər ki, izafi dəyər dəyərin artmasıdır. F.Kene bir tərəfdən iddia edirdi ki, "xalis məhsul" torpağın məhsuludur, təbiətin bəxş etdiyi nemətdir. Digər tərəfdən iddia edirdi ki, "xalis məhsul" muzdlu fəhlənin izafi əməyi tərəfindən yaradılan məhsuldur. Fiziokratizmdə olan bu ikililik onların dəyərin mahiyyətini başa düşməməsindən irəli gəlirdi.

Belə bir hal onunla əlaqədar idi ki, Fiziokratların nəzəri bazası yox idi, əmtəə və dəyərin təbiətini onlar təhlil etməmişdilər. Fiziokratlar maddi nemətlərin artmasını təbiətin özü ilə əlaqələndirirdilər. Fiziokratların

downloaded from KitabYurdu.az

fikrincə kənd təsərrüfatında sərvətin artması istehsal prosesinə sərf olunan istehlak dəyərlərindən çox istehlak dəyərlərinin yaranması təbii amillərin hiss ediləcək dərəcədə artması ilə əlaqədardır.

F.Kene iddia edirdi ki, kənd təsərrüfatı "xalis məhsul" gətirən yeganə sahədir. Məhz buna görə də o izafi dəyəri renta ilə eyniləşdirirdi. Deməli, F.Keneyə görə torpaq rentası "xalis məhsulun", izafi dəyərin yeganə formasıdır.

Fiziokratlar iddia edirdilər ki, sənayedə izafi məhsul yaradılmır, kapitala görə sənayedə mənfəət də yoxdur. Kapitalistlərin gəliri yüksək əmək haqqı kimi izah edilirdi. Onlar belə hesab edirdilər ki, gəlir və fəhlənin əmək haqqı istehsal xərclərinə daxildir. Fiziokratlar, xüsusilə F.Kene belə hesab edirdilər ki, sənayedə yaradılan məhsulun dəyəri onun istehsalına çəkilən xərclərə bərabərdir. Beləliklə, fiziokratlar sənayedə, kənd təsərrüfatında və ticarətdə yaradılan mənfəət kateqoriyasını nəzərə almırdılar.

F.Kene ticarət mənfəətini qeyri-iqtisadi kateqoriya hesab edirdi və göstərirdi ki, ticarət mənfəəti haqq-hesabda aldatma yolu ilə əldə edilir. O, belə hesab edirdi ki, "xalis məhsul" tam mənası ilə torpaq sahibinə çatır, fermerlər guya xalis məhsuldan heç bir hissə almırlar, onlar özlərinin muzdlu fəhlələri kimi əmək haqqı alırlar. Fermerlərin və onların muzdlu fəhlələrinin aldıqları əmək haqqı da istehsal xərclərinə daxildir. Fiziokratların bu ideyasına görə guya fermerlər özləri özlərinə əmək haqqı verirlər. Faktiki olaraq bu o demək idi ki, kənd təsərrüfatında fermer-kapitalistlər və muzdlu fəhlələr eyni adamlardır.

Fiziokratların "xalis məhsul" haqqında olan təlimləri onların məhsuldar və qeyri-məhsuldar əmək haqqındakı konsepsiyaları ilə əlaqədar idi. Fiziokratların bu sahədə olan xidməti ondan ibarət idi ki, siyasi iqtisad elmində onlar əmək məhsuldarlığı anlayışını açıqlamışdılar. Onlar düzgün başa düşürdülər ki, məhsuldar əmək elə bir əməkdir ki, o izafi dəyər yaradır, yəni "xalis məhsul" istehsal edir. Ancaq yuxarıda qeyd etdiyimiz kimi, onlar məhsuldar əməyi kənd təsərrüfatına, əkinçiliyə tətbiq edilən əmək hesab edirdilər. Sənayedə tətbiq edilən əməyi qeyri-məhsuldar əmək adlandırırdılar. Daha dəqiq desək, sənayedəki əmək səmərəsiz əmək kimi qəbul edilirdi.

downloaded from KitabYurdu.az

Fiziokratlar iddia edirdilər ki, əmtəələr tədavülə irəlicədən müəyyən olunmuş qiymətlə daxil olurlar. Mahiyyət etibarilə bu o demək idi ki, dəyər istehsalda yaradılır. F.Kene dəyər kateqoriyasını həll etmədən əmtəənin dəyərə və istehlak dəyərinə malik olmasını ayırd edirdi.

Fiziokratlar, o cümlədən F.Kene bazar qiyməti şəraitində tələb və təklif arasında olan nisbətlə məhdudlaşırdılar.

Məlumdur ki, fiziokratlar dəyər nəzəriyyəsi yaratmamışlar. Onların belə bir mövqeyi U.Petti və P.Buagilber ilə müqayisədə bir addım geri demək idi. Çünki U.Petti və P.Buagilber dəyərin əsasını əmək təşkil edir ideyasını vermişdilər, fiziokratlar isə bunun əksinə olaraq iddia edirdilər ki, dəyəri torpaq, təbiət yaradır.

F.Kene və ümumiyyətlə, fiziokratlar pul haqqında da heç bir nəzəriyyə yaratmamışdılar. Fransua Kene "Ticarət haqqında", "Sənətkar əməyi haqqında", "Əkinçilik dövlətinin iqtisadi siyasətinin ümumi prinsipləri və bu prinsiplərə qeyd" adlı əsərlərində göstərirdi ki, pul elə bir vasitədir ki, o mübadiləni yüngülləşdirir. O, pul yığımının əleyhinə çıxış edirdi, puldan dəfinə kimi istifadə olunmasını istəmirdi. F.Kene yazırdı ki, pul öz özlüyündə adamların tələbatını ödəmir və pul pul yaratmır. Əgər real sərvət yoxdursa pul sərvəti də səmərəsizdir və faydasızdır. Kene daha sonra göstərirdi ki, pul istehlak olunmur, təkrar istehsal edilmir, lakin daima sərvət mübadiləsi vasitəsi kimi çıxış edir.

F.Kenenin və onun məktəbinin nümayəndələrinin ideyalarının təhlili göstərir ki, əmək haqqı barədə olan merkantilistlərin fikirlərini onlar təkrar etmişlər. F.Kene əmək haqqını fiziki yaşayış minimumu hesab edirdi. O iddia edirdi ki, əmək haqqı adi, elementar tələbatı ödəməli və dəyişməz qalmalıdır.

Fiziokratların kapital haqqında olan nəzəriyyələri isə böyük əhəmiyyət kəsb edir. Merkantilistlər kapital ilə pulu eyniləşdirirdilər, Fiziokratlar isə kapitalın əşya tərkibini təhlil edirdilər. İstehsal xərclərinin təhlili F.Keneyə imkan verirdi ki, kapitalın tərkib hissələrini o ayıra bilsin. Əkinçilik işlərinə hər il sərf edilən xərcləri F.Kene illik avans adlandırırdı (toxum, iş qüvvəsi). Bir neçə il fəaliyyət göstərən kənd təsərrüfatı maşınlarına, tikililərə, mal-qaraya və s. çəkilən xərcləri isə ilkin avans hesab edirdi.

downloaded from KitabYurdu.az

F.Kene yazırdı ki, illik avans bir başa və tam şəkildə xərclərə daxildir, ilkin avans isə hissə-hissə istehsal xərclərinə daxil edilir. Lakin, kapitalın belə bir bölgüsünü-illik və ilkin avansı Kene kənd təsərrüfatı istehsalına aid edirdi. Odur ki, kənd təsərrüfatında fəaliyyət göstərən kapitalı o məhsuldar kapital adlandırırdı.

Merkantilistlər kapitalı bir çox tarixi dövrlərə aid kateqoriya adlandırırdılarsa da fiziokratlar belə fikri nəzərə almırdılar.

## §3. FRANSUA KENENİN "İQTİSADİ CƏDVƏL"İ

Kapital haqqında təlim təkrar istehsal prosesinin və bütövlükdə ictimai kapitalın tədavülünün təhlili F.Kene üçün çıxış nöqtəsi idi. Siyasi iqtisad elmində o, ilk dəfə istehsalın və satışın daima "təkrar istehsalı" anlayışından istifadə etmiş və ümumiyyətlə, "təkrar istehsal" kateqoriyasını bu elmə o gətirmişdir. Təkrar istehsal prosesinin təhlilini F.Kene özünün məşhur əsəri olan "İqtisadi cədvəl"də vermişdir (1758).

"İqtisadi cədvəl"də F.Kene üç birləşmiş sinifdən ibarət olan cəmiyyətə vahid bir orqanizm kimi baxmışdır. Çünki F.Kenenin "İqtisadi cədvəl"ində məcmu məhsul tədavül prosesi zamanı bilavasitə üç sinif arasında bölüşdürülür. F.Kene yazırdı ki, millət üç sinif vətəndaşlardan ibarətdir. Buraya o, aşağıdakı sinifləri daxil edirdi: məhsuldar sinif, mülkiyyətçi siniflər, səmərəsiz sinif. Məhsuldar sinfə və ya fermerlərə o torpaqdan istifadə edənləri, torpaqla əlaqədar olaraq xərc çəkən adamları daxil edirdi. Beləliklə, məhsuldar sinif dedikdə o, kəndliləri, fermerləri, kənd təsərrüfatında olan muzdlu fəhlələri, yəni kənd təsərrüfatında məşğul olan bütün əhalini başa düşürdü. Mülkiyyət sahiblərinə isə F.Kene "xalis məhsul" əldə edənləri, yəni torpaqdan gəlir alanları aid edirdi.

Mülkiyyət sahiblərinə F.Kene kralı, torpaq sahiblərini, kilsə işçilərini daxil edirdi. Sənayedə məşğul olan bütün əhali "səmərəsiz", qeyri-məhsuldar sinif adlandırılırdı. "Səmərəsiz", qeyri məhsuldar sinif dedikdə F.Kene sənayedə məşğul olan muzdlu işçiləri, sənətkarları, kapitalistləri, tacirləri və kiçik alverçiləri nəzərdə tuturdu. F.Keneyə görə "səmərəsiz sinif", mülkiyyət sahibləri "xalis məhsul" yaratmırlar, lakin onlar öz əməkləri vasitəsilə özlərinə lazım olan miqdarda istehlak şeyləri istehsal edir və tələbatlarını ödəyirlər.

downloaded from KitabYurdu.az

F.Kene sübut etməyə çalışırdı ki, kral və torpaq sahibləri cəmiyyətin əsasını təşkil edirlər. Lakin mülkiyyət sahiblərini birinci yerə keçirə bilmirdi. Əgər o mülkiyyət sahiblərini birinci yerə keçirsəydi öz nəzəriyyəsinə qarşı ziddiyyət yaradardı. Çünki F.Kene üstünlüyü kənd təsərrüfatına verirdi. Kənd təsərrüfatına verilən belə bir üstünlük fiziokratların əsas konsepsiyasını təşkil edirdi.

Torpaq sahibləri F.Kenenin əsas ideyasını təşkil edir və xüsusi sinif kimi izah edilirdi. O, xüsusi sinif adlandırdığı torpaq sahiblərini məhsuldar siniflə "səmərəsiz" sinif arasında yerləşdirirdi.

Qeyd edək ki, F.Kenenin siniflərin belə bir bölgü prinsipi onun yaşadığı tarixi şəraitdən irəli gəlirdi. Çünki F.Kenenin dövründə Fransa fəhlə sinfi təzə formalaşırdı. Kapitalist müəssisələri rüşeym halında idi, kapitalizm manufaktura dövrünü yaşayırdı və bu manufakturalar feodalizmin tərkibində inkişaf edirdi.

F.Kene tərəfindən cəmiyyətin fermerlərə, mülkiyyət sahiblərinə və sənayeçilərə bölünməsi cəmiyyətin orta əsrlərdə silklərə-kəndlilərə, zadəganlara və şəhərlilərə bölgüsünə uyğun gəlirdi. Onun dövründə məlum idi ki, sənaye kənd təsərrüfatından asılı idi. Məhz buna görə fiziokratlar belə bir nəticəyə gəlirdilər ki, guya sənaye "xalis məhsul" istehsal etmir və qeyri-məhsuldar sahədir. Sənayeçi siniflər də "səmərəsiz" siniflərdir. Məlumdur ki, kapitalistlərin özləri "xalis məhsul" istehsal etmirlər (xalis gəlir), sənayedə olan fəhlələr əmək prosesində istehlak dəyərlərinin şəklini dəyişirlər.

F.Kene tərəfindən kənd təsərrüfatının yeganə istehsal sahəsi və fermerlərin ancaq məhsuldar sinif elan edilməsinin əsası vardı. Çünki kənd təsərrüfatında yaradılan torpaq rentası izafi məhsul kimi dərk edilirdi.

F.Kene öz "İqtisadi cədvəl"ində əsas problemlərdən biri olan xalq təsərrüfatı proporsiyalarını açmışdır ki, bu proporsiyalar da ölkənin iqtisadi inkişafını təmin edirdi. "İqtisadi cədvəl" cəmiyyətin illik məhsulunun reallaşdırılmasını və təkrar istehsalın formalaşdırılmasının şərtlərini özündə əks etdirən bir sxemadır. Milli miqyasda sadə təkrar istehsalın imkanlarını və siniflər arasında olan iqtisadi əlaqələri göstərmək məqsədilə bu "cədvəldə" reallaşdırma prosesini sadələşdirmiş və bir çox momentləri sərfnəzər etmişdir. Beləki o "İqtisadi cədvəldə" sadə təkrar

downloaded from KitabYurdu.az

istehsalı təhlil etmək məqsədilə yığım prosesini cədvəldən çıxarmışdır. F.Kene "İqtisadi cədvəldə" pulun dəyərinin dəyişməzliyini, əmtəələrin qiymətlərinin sabitliyini təklif etmiş və reallaşma prosesinə xarici ticarətin təsirini cədvəldən çıxarmışdır.

F.Kenenin "İqtisadi cədvəl"i iqtisad elmi sahəsində böyük kəşflərdən biri hesab edilir. Çünki o, bu əsərində bütövlükdə kapital istehsalı prosesinə təkrar istehsal prosesi kimi baxmış, tədavülü isə təkrar istehsal prosesinin forması kimi izah etmişdir. F.Kene təkcə bununla kifayətlənməyərək kapital və gəlirlər arasında olan mübadiləni, təkrar istehsal ediləcək və istehlak üçün yaradılacaq münasibətləri, istehsalçılar və istehlakçılar arasında olan əlaqələri (həqiqətdə kapital ilə gəlirlər arasında olan əlaqələri) də cədvəldə təhlil etmişdir. Digər tərəfdən F.Kenenin dahiliyi ondan ibarətdir ki, o, iki istehsal bölməsinin-xammal istehsalı ilə sənaye arasında olan əlaqələrin iqtisadi mənalarının təhlilini vermişdir. Qeyd edək ki, XVIII əsrin son rübündə belə bir "İqtisadi cədvəl"in yaradılması siyasi iqtisad elmində inqilab demək idi. Çünki siyasi iqtisad da göstərilən dövrdə bir elm kimi hələ də formalaşmamışdı, bu elm hələ də özünün bəsit dövrünü yaşayırdı. Siyasi iqtisad elmində F.Kenenin bu konsepsiyası böyük bir elmi kəşf idi.

F.Kenenin "İqtisadi cədvəl"inə görə torpaq sahibləri məhsulu reallaşdırmaq üçün şərait yaradırlar. Çünki torpaq sahibləri fermerlərdən istehlak (tələbatları ödəmək üçün) məhsulları alırlar. Bu məhsullar bir mlrd. livr təşkil edir. Bu pullar fermerlərdə qalır. Sonrakı reallaşdırma ikinci mlrd. dolların hesabına həyata keçirilir. Buna da torpaq sahibkarları sənaye əmtəələri alırlar. Bununla da torpaq sahibkarlarının ictimai məhsulun reallaşdırılması prosesində olan iştirakı başa çatır. Çünki F.Keneyə görə torpaq sahibləri özlərini istehlak malları ilə təmin edirlər, yəni onların yaşayış vasitələri artıq vardır, bu məhsullar bir il üçün nəzərdə tutulur və öz öhdələrinə təkrar istehsal prosesində düşən vəzifələrini yerinə yetirmiş olurlar.

F.Kene "İqtisadi cədvəl"ində daha sonra göstərir ki, ictimai məhsulun sonrakı mübadiləsi sənayeçilər sinfi ilə fermerlər arasında baş verir. Belə bir münasibət ondan irəli gəlir ki, torpaq sahibkarlarına satılan sənaye əmtəələrinə görə sənayeçilər bir mlrd. livr əldə etmişlər. Sənayeçilər əldə

downloaded from KitabYurdu.az

etdikləri bir mlrd. livri yenidən fermerlərə qaytarırlar, ona görə ki, sənayeçilər fermerlərdən bir mlrd. livrlik istehsal məqsədli məhsullar alırlar. Fermerlərdən xammal alan sənayeçilərə ikinci mlrd. livr çatır, çünki sənayeçilər fermerlərə bir mlrd. livrlik məhsul satmışdılar. F.Kenenin "İqtisadi cədvəl"ində reallaşdırmanın belə bir prosesi başa çatır. Çünki sənayeçilərdən məhsullar və pul vəsaiti fermerlərə, fermerlərdən məhsullar və pul vəsaiti sənayeçilərə keçdiyi üçün istehsal və təkrar istehsalın davam etdirilməsi məqsədilə şərait yaranmış olur. Məhz buna görə də istehsal və təkrar istehsal dəyişməz miqyasda davam etdirilir.

F.Kenenin "İqtisadi cədvəl"inin mahiyyətinin təhlili göstərir ki, o, bu cədvəldə siyasi iqtisad elmində birinci dəfə olaraq ictimai məhsülün reallaşdırılmasının əsas yollarını göstərmişdir. Belə bir proses daxilində o pul və əmtəələrin hərəkətini mübadilə prosesində çoxsaylı aktlarının birləşməsi prinsiplərini təhlil etmişdir. Belə bir metodoloji prinsip F.Keneyə imkan vermişdir ki, o, təkrar istehsal prosesini və reallaşdırmanın fasiləsiz həyata keçirilməsini təhlil edə bilsin. F.Keneyə görə belə bir proses o zaman həyata keçirilə bilər ki, xalq təsərrüfatının inkişafında müəyyən proporsiyalara riayət edilsin.

Kənd təsərrüfatı məhsulunun istehsalına sərf olunmuş bütün xərclər çıxıldıqdan sonra əmələ gələn artığı Kene "xalis məhsul" adlandırmışdır. F.Kene öz "İqtisadi cədvəl"ində xalis məhsulun istehsalını, bölgüsünü və dövranını təhlil etmişdir. Fiziokratların şərhində xalis məhsul izafi məhsulun və izafi dəyərin ən yaxın timsalıdır. Doğrudur, fiziokratlar xalis məhsulu birtərəfli olaraq torpaq rentasına müncər edir və torpağın təbii bəhrəsi hesab edirdilər. Lakin fiziokratların, o cümlədən F.Kenenin çox böyük xidmətləri bunda idi ki, onlar izafi dəyərin mənşəyi haqqında tədqiqatı tədavül dairəsindən bilavasitə istehsal dairəsinə keçirmişdilər. Belə bir metodologiyaya baxmayaraq F.Kene və fiziokratlar dəyər anlayışının sirlərini təhlil etmirdilər.

Fiziokratlar əkinçilikdə izafi məhsulu haqqı ödənilməmiş insan əməyinin nəticəsi kimi deyil, təbiətin bəhrəsi kimi izah edirdilər. İzafi məhsul artıq natural məhsul formasında, xüsusilə də çörəkdə bilavasitə mövcuddur. Öz modelini yaradarkən Kene bu model üçün yardarlığa

downloaded from KitabYurdu.az

işləyən kasıb kəndlini deyil, daha çox işçi qüvvəsini və sadə avadanlığı olan, həmçinin pulla muzdur tutan icarəçi fermeri əsas götürmüşdür.

F.Kene yazırdı ki, kapitalist nəyin hesabına kapital (o, kapital qoyuluşunu avans adlandırırdı) yığa bilər? Bunu aydınlaşdırmaq üçün F.Kene belə bir fikir irəli sürürdü ki, yalnız xalis məhsuldan alınan, yəni torpaq sahiblərinin gəlirindən alınan yığım normaldır, iqtisadi cəhətdən "qanunidir". Fabrik sahibi və ya tacir isə öz "əmək haqqlarından" müəyyən şey kəsib götürməklə o qədər də "qanuni" olmayan üsulla kapital yığa bilərlər.

F.Kenenin iqtisadi fikirlərindən, xüsusilə onun "İqtisadi cədvəlindən" hansı əməli nəticələr irəli gəlir. Hər şeydən əvvəl F.Kenenin ilk tövsiyəsi iri fermer təsərrüfatı formasında əkinçiliyin hər cür həvəsləndirilməsi olmuşdur. Lakin, daha sonra ən azı o vaxtlar üçün o qədər də zərərsiz görünməyən iki tövsiyə var idi. F.Kene belə hesab edirdi ki, yalnız yeganə həqiqi iqtisadi "artıqlıq" olan xalis məhsula vergi qoymaq lazımdır. Hər cür başqa vergilər təsərrüfatı çətinə salır.

F.Kenenin bu qədər mühüm və şərəfli sosial funksiyalar aid etdiyi həmin feodallar əslində bütün vergiləri verməli idilər. O zamankı Fransada məsələ tamam əksinə idi: həmin feodallar heç bir vergi vermirdilər. Bundan əlavə, F.Kenenin dediyi kimi, sənaye və ticarət əkinçiliyin "himayəsində" olduğundan lazım idi ki, bu himayə ucuz başa gəlsin. Bu isə o zaman baş tuta bilərdi ki, sənaye və ticarət üçün yaradılmış bütün məhdudiyyətlər və çətinliklər ya ləğv edilsin və ya heç olmasa zəiflədilsin.

F.Kenenin iqtisadi təlimi öz dövrü üçün istər nəzəriyyədə və istərsə də praktikada mütərəqqi olan bütün iqtisadi və sosial dünyagörüşü idi. Məsələn, F.Kenenin məşğul olduğu başlıca problem, müasir elmin dili ilə deyilsə, iqtisadiyyatın inkişafını təmin edən əsas xalq təsərrüfatı proporsiyaları problemidir. Bu problem müasir dövr üçün son dərəcə aktual və əhəmiyyətlidir. Demək olar ki, F.Kenenin ideyaları bir çox ölkələrdə tərtib edilməkdə olan sahələrarası əlaqələr balanslarının əsasında dururdu. Bu balanslar sahələrin (mikroiqtisadiyyat) və təsərrüfatın idarə edilməsində daha böyük rol oynayırdılar.

Sahələrarası balans (xərc balansı) məcmu ictimai məhsulun (ümumi milli məhsulun-ÜMM) istehsalı və bölgüsünün təhlili və iqtisadi cəhətdən

downloaded from KitabYurdu.az

əsaslandırılmış makroiqtisadi proporsiyaların proqnozlaşdırılması üçün daha dolğun ilkin statistik material verir. Bu metodun tətbiq edilməsi bizim zəmanəmizin iqtisad elminin ən böyük və praktik cəhətlərindən biri olmalıdır.

## § 4. A.R.JAK TYÜRQONUN İQTİSADİ BAXIŞLARI VƏ FİZİOKRATİZMİN İNKİŞAFI

Fiziokratlar məktəbinin tarixi inkişafında Ann Rober Jak Tyürqonun (1727-1781) xüsusi xidmətləri olmuşdur.

Elmi cəhətdən Tyürqo novator, dərin biliyə və tərəqqipərvər ideyalara malik idi. Onda incə müşahidəçilik və əsl nəzəri qabiliyyət vardı. Tyürqo ensiklopedistlər və fiziokratlar ilə yaxınlaşaraq "Ensiklopediyada" məqalələr çap etdirir və iqtisadi məsələlərə dair bir çox əsər yazır.

1766-cı ildə "Sərvətin yaranması və bölüşdürülməsi haqqında düşüncələr" adlı əsərini yazır və əsəri 1776-cı ildə kitab şəklində çap etdirir.

Çox maraqlı olan bu əsərdə Tyürqo fiziokratların doktrinalarını əks etdirir, lakin bir çox əlavələr və şərhlər də fiziokratların fikirlərinə əlavə edir. Məsələn, Tyürqo qət edir ki, ticarətin özünün mövcud olması torpağın qeyri-bərabər bölüşdürülməsinin nəticəsidir. Əgər torpaq bərabər bölüşdürülsəydi onda hər kəs özünə lazım olan yemək şeyləri əldə edə bilərdi. Eyni zamanda muzdlu əmək sistemi də olmazdı, əgər hamısı bərabər olsaydı heç kim digəri üçün işləyə bilməzdi. Tyürqo belə bir ideya irəli sürürdü ki, torpaq bölüşdürülməmişdən əvvəl becərilməyə başlanmışdır, becərilmə başlanandan sonra torpaq insanlar arasında bölüşdürülməyə məruz qalmış. Bu səbəbdəndir ki, sonralar torpaq üzərində olan mülkiyyət qanunları da yaranmışdır.

Sonralar, torpağın müxtəlifliyi və tələbatların çoxluğu, Tyürqoya görə, mübadiləni yaratmışdır. Tyürqo göstərirdi ki, işçilərin arasında olan rəqabət minimum dərəcədə məhdudlaşdığına görə həyat minimumu yaranır, yaşayış vasitələri istehsal edilir və əmək haqqı meydana çıxır. Beləliklə, sahibkarlarla fəhlələr arasında seçmə üsulu tətbiq edirlər və kim ən az əmək haqqı ilə işləməyə razılıq verərsə onları işə götürürlər. Torpaq isə əksinə, adamlardan asılı olmayaraq və onların bir-birləri ilə razılığı

downloaded from KitabYurdu.az

olmadan işçilərə bilavasitə əməklərinin qiymətini verir. Torpaq adamlarla ticarət etmir, onları məcburiyyətə çəkmir. Torpaq adamların alacaqları əmək haqqı barədə onlarla razılığa girmir. Digər tərəfdən, torpağın verəcəyi hər hansı bir məhsul qabaqcadan torpaqla razılaşdırılmır və insanların gündəlik əməklərini torpaq qiymətləndirmir. Torpağın insanlara bəxş etdiyi nemətlər torpağın fiziki münbitliyinin nəticəsidir. Adamların əldə etdikləri öz səylərinin və əmək haqqından artıq olan torpağın xalis bəxşeyişidir.

Beləliklə, torpaq sahibi asılı olmayan sərvət əldə edir ki, bunun da nəticəsində istehsalı təşkil edir. Bu göstərdiyimiz fikirlər əsasında Tyürqo cəmiyyəti iki əsas sosial qrupa ayırmışdır. Birinci qrupa Tyürqo istehsal edənləri və ya torpaq sahiblərini, ikinci qrupa isə aylıq məvacib alanları, yəni sənətkarları daxil edir. Birinci qrupa daxil edilən sosial qrup sərvət yaradır, ikinci qrupa daxil olanlar isə şeylərə lazımi forma verirlər.

Tyürqonun fikrincə "ilkin vaxtlarda mülkiyyətçilərlə əkinçilər arasında fərq olmamışdır, sonra torpaq üzərində mülkiyyətçilər yaranmağa başlayır. Beləliklə, insanlar arasında bərabərsizlik meydana çıxır. Çünki insanlar güclüdürlər, əməksevərdirlər və qənaətcillik, ehtiyatlılıq göstərib mühüm torpaq sahələrini tutmuşlar, nəticə etibarilə borc verənlərə çevrilmişlər. Bu proseslərin nəticəsində icarə münasibətləri yaranır. Torpağın məhsuldarlığının nəticəsi əkinçilər və sahibkarlar arasında bölünməyə başlayır ki, bu da xalis məhsul yaradır. Həmən bu xalis məhsul və ya gəlir, Tyürqoya görə, sahibkarların verəcəkləri əmək haqqı və ödəyəcəkləri xərclər çıxıldıqdan sonra qalan hissəsidir.

Nəhayət, Tyürqo iddia edir ki, cəmiyyəti üç sinfə bölmək zərurəti yaranır. O, belə bir sxema irəli sürür ki, cəmiyyət aşağıdakı siniflərdən ibarətdir: məhsuldar sinif, əmək haqqı yaradanlar sinfi və sərbəst sinif. Belə bir şəraitdə öz əməyinə görə əkinçilər də mükafatlandırılırlar, yəni əmək haqqı alırlar (sənətkarlar kimi). Əkinçiliklə məşğul olanlar və sənətkarlar çox istehsal edirlər.

Tyürqo göstərirdi ki, sənətkarlar özləri və başqaları üçün heç bir gəlir yaratmırlar. Tyürqo torpaqdan əldə edilən gəlirin beş üsulunu izləmişdir: muzdlu əmək sisteminin müxtəlifliyi, köləlik, təhkimçilik, yarılığa işləyənlər, qeydə alınan icarədarlıq.

downloaded from KitabYurdu.az

Dəyərlilik təhlilinə xüsusi diqqət verərək Tyürqo göstərirdi ki, puldan gəlir əldə etmək və ya faiz götürməklə əməksiz və torpaqsız varlı olmaq olur. O, mübadiləni tələbatların qarşılıqlı olması ilə əsaslandırırdı. Qızılı və gümüşü adi əmtəə kimi izah edən Tyürqo, qeyd edirdi ki, hər bir əmtəə pulun ikili keyfiyyətinə malikdir. Çünki pul vasitəsilə əmtəələrin dəyərliliyi ölçülür, pul vasitəsilə əmtəələrin dəyərliliyi ifadə olunur.

Lakin öz keyfiyyətliliyinə, bölünmə qabiliyyətinə görə qızıl və gümüş pul rolunu oynamışlar. Bu proses şeylərin təbiəti ilə baş vermiş və burada razılıqlar və qanunlar heç bir rol oynamamışdır.

Tyürqoya görə əmtəənin nisbi dəyərliliyinin minlərlə səbəbi var. Lakin belə bir nəticəyə də gəlirdi ki, mübadilə olunan hər bir şeyin dəyərliliyi başqa ölçüyə gələ bilməz, ancaq razılaşma, istehlak və arzu şeyin dəyərliliyinə təsir edə bilər. Məsələn, o göstərirdi ki, dəyərlilik insanların arzularının razılığı ilə müəyyən oluna bilər. Tyürqo qeyd edirdi ki, rəqabət qiymətləri bərabərləşdirir və onların bazar səviyyəsini yaradır, satıcılar və alıcılar da bununla razılaşırlar.

Tyürqonun əsərində kapital problemi xüsusi yer tutur. Feodal rejiminin böhranında və feodalizmin iflası şəraitində Tyürqo çalışırdı ki, mənfəət və faiz əldə edən kapitalistlərin hüquqlarını əsaslandırsın. O göstərirdi ki, hərəkət edən sərvətin olması qazanc əldə etmək üçün irəlicədən müəyyən olunmuş zəruri şərtdir. Tyürqo belə bir dəlil göstərirdi ki, torpaqdan istifadə etmək üçün avadanlıq, qoşqu alətləri, mal-qara yerləşdirmək üçün yer və s. lazımdır.

Tyürqoya görə, torpağın alınması kapitalın ilkin mənimsənilməsi demək idi. Torpağın qiymətini torpaqdan alınan gəlirə bərabər tuturdu. Mənfəət əldə etmək məqsədilə sənaye müəssisələrinə sərf edilən kapitalı o ikinci hadisə hesab edirdi. Onun fikrincə, kapitalist öz əməyinə görə əmək haqqı almalıdır. Buna görə də kapitalist qayğıkeş olmalı, risk etməli və nəhayət öz bacarığını göstərməlidir. Əgər bu belə olmazsa onda kapitalist öz əməyinə görə gəlir əldə edə bilməyib yaşaya bilməz. Mənfəətin əldə edilməsi Tyürqoya görə zəruridir ki, kapitalist istehsal alətləri alır və bu alətlər sonradan aşınırlar, mal-qara-qoşqu alətləri saxlanılmalıdır, xammala xərc çəkilməlidir.

downloaded from KitabYurdu.az

Əgər kapital çatışmazlığı olarsa onda kapitalistlər torpağı kəndlilər vasitəsilə becərməlidirlər. Məhz buna görə də Tyürqo belə bir nəticəyə gəlirdi: ancaq kapital iri əkinçiliyi yarada bilər, torpağa daima "muzdlu dəyərlilik" verər və sahibkara çoxlu gəlir gətirər.

Tyürqo hesab edirdi ki, mənfəətin bütün formaları - kapitalistin əmək haqqı, risk və bacarıq əvəzinə ödəmələr, renta xarakterli gəlirlər torpağın yetişdirdiyi məhsulun qiymətindən irəli gəlir. İri kənd təsərrüfatı istehsalının təşkilini Tyürqo kapital tətbiqinin üçüncü üsulu hesab edirdi. Ticarətin verdiyi qazancı dördüncü üsul adlandırırdı.

Merkantilistləri tənqid etməyinə baxmayaraq Tyürqo ticarət mənfəətini qəbul edirdi. Lakin burada da o, əmək, risk və bacarıq fərqlərini görürdü.

Tyürqo kredit əməliyyatını kapital tətbiqinin beşinci üsulu adlandırırdı. Tyürqoya görə bu doğru hal idi. Borcun qiymətini və ya faizi o, tələb və təklifdən asılı olaraq təhlil edirdi. Məlumdur ki, faiz borc kapitalının gətirdiyi mənfəətin səviyyəsi ilə müəyyən olunur. Borc məsələlərində Tyürqo heç bir cinayət görmürdü. O göstərirdi ki, əgər borc müqaviləsi hər iki tərəf üçün əlverişlidirsə bu ədalətlidir.

Tyürqo pul ilə kapitalı fərqləndirirdi. O yazırdı ki, bazara çıxarılan pul borc kimi xərclənmir. Kapital isə müəyən formada dəyərlilik amili kimi yığıla bilər. Əgər pulun qiyməti ticarət dövriyyəsində metalın qiymətindən asılı olursa, faizin səviyyəsi yığılmış kapitalın miqdarı ilə müəyyən edilir.

Tyürqo kapitalı yaradan amillər barədə məsələ qoymuş və qənaətçilliyə geniş yer vermişdir. O, pulun oynadığı böyük rolu inkar etmirdi, çünki bütün qənaətcilliklər, əmanətlər pul formasında həyata keçirilir. Fiziokratlar kimi Tyürqo da qət edirdi ki, bütün kapitallar torpaqdan yaranır və ya kapital torpağın yaratdığı dəyərlərin bir hissəsinin yığılmış formasıdır. Tyürqo tərəfindən torpağın məhsulu "sərbəst gəlir" kimi qəbul edilirdi. O, eyni zamanda göstərirdi ki, "sərbəst gəlir" yığımın ilkin mənbəyidir.

Eyni zamanda, onun fikrincə, bu gəlirin yaranmasında torpağın alınmasına sərf edilən kapital əsas rol oynayır. Tyürqo göstərirdi ki, əgər torpaq alınmasa idi daha çox gəlir verərdi. Onun belə bir fikri fiziokratların

downloaded from KitabYurdu.az

ideyaları ilə üst-üstə düşürdü ki, hər bir torpaq sahibi kapitalistdir. Ona görə ki, hər cür torpaq müəyyən kapital ilə eyni gücə malikdir.

Tyürqo qeyd edirdi ki, gəlir faizin səviyyəsinə enərsə, bu çox qorxuludur. Çünki bunun ardınca əmək fəaliyyəti dayana bilər, torpaqdan istifadə zəifləyər, sənayenin və ticarətin iflici başlayar.

Belə bir cəhəti də qeyd edək ki, Tyürqo maliyyə siyasəti barədə olan fiziokratların fikirlərinə şərik çıxırdı. O yazırdı ki, pul faizi üzərində kortəbii vergi qoymaq olmaz. Əgər bu belə olarsa kapitalist öz pulunu geri götürər, yəni borc verməz, müəssisə də borcsuz öz fəaliyyətini davam etdirməz.

Tyürqonun iqtisadi fikirlərinin təhlili göstərir ki, o fiziokratların mövqeyində dayanmışdır. Çünki Tyürqo əkinçiliyin müstəsna məhsuldar sahə olması barədə əlavə dəlillər gətirməklə fiziokratizmi inkişaf etdirmişdir. Lakin Tyürqonun gətirdiyi dəlillər fiziokratizmin zəif tərəflərilə üst-üstə düşür və fiziokratların sübutları ilə eyniyyət təşkil edir.

Məlumdur ki, həm F.Kene, həm də Tyürqo iddia edirdilər ki, xammal və ərzaqla təmin etdirənlərdən asılı olan sənətkarlar və məhsul istehsal edən bu zümrə səmərəsiz sinif adlandırılırdı. Aclıqdan əziyyət çəkən və tələbatını ödəmək üçün, ailəsinin minimum yaşayışını güclə təmin edən və sənayedə məşğul olan əməyin nümayəndələri də səmərəsiz sinifə daxil edilirdi.

F.Kenenin xalis məhsul haqqında olan təliminə Tyürqo heç bir yenilik gətirməmişdi. Kene xalis məhsul barədə öz təlimini möhkəm elmi əsaslar və dəlillər üzərində yaratmışdı. Fiziokratların ideyaları çərçivəsindən kənara çıxa bilməyən Tyürqo isə digər iqtisadi problemlər haqqında siyasi iqtisada öz yeni fikirlərini gətirə bilmişdir. F.Keneyə nisbətən Tyürqo kapitalizmin yaranması, bərabərsizliyin və siniflərin meydana gəlməsi barədə dəyərli elmi fikirlər irəli sürmüşdür. Tyürqo düzgün hesab edirdi ki, kapitalizmin yaranması prosesində xalq kütlələrinin yoxsullaşması, torpaqdan məhrum olmaları mühüm rol oynamışdır. Tyürqoya görə, məhz kəndlilərin torpaqdan və istehsal alətlərindən məhrum edilməsi onları muzdlu əmək səviyyəsinə gətirib çıxarmışdır. Əgər XYIII-XIX əsrlərdə kəndlilərin təsərrüfatı kütləvi surətdə

downloaded from KitabYurdu.az

ləğv edilməsəydi göstərdiyimiz dövrdə kapitalizm öz nüfuzunu Avropada yaya bilməzdi.

Tyürqoya görə iqtisadi inkişaf torpaq bölgüsündən çox asılı olmuşdur. Bu bölgüdən asılı olaraq müxtəlif siniflərin yaranması mövcud olmuşdur. Bu vəziyyətin düzgünlüyünü feodalizmin tarixi inkişaf taleyi də təsdiq edir.

Fiziokratlar üçün xarakterik xüsusiyyət kəsb edən cəmiyyətin sinfi quruluşu haqqında olan fikirləri Tyürqo öz tədqiqatlarında daha da dərinləşdirmişdir. Tyürqo sənayeçilər və fermerlər arasında kiçik təsərrüfat sahiblərini və muzdlu işçiləri fərqləndirirdi. Məlumdur ki, Kene cəmiyyətin üçsinifli modelini vermişdi. Tyürqo isə onu beşsinifli edir. F.Kenenin əksinə olaraq Tyürqo sosial statusu olan kapitalistlərlə muzdlu işçilərin əksliklərini açıqlamışdır. O, cəmiyyətin sinfi quruluşuna dərindən nüfuz edirdi. Beləliklə, Tyürqo iqtisadi nəzəriyyəni müəyyən mənada irəliyə apara bilmişdi.

Fiziokratlara nisbətən Tyürqo əmək haqqı qanunu haqqında dərin məna kəsb edən fikirlər irəli sürmüşdü. O, düzgün izah edirdi ki, "əməkçi" adamların torpağı yoxdur, muzdlu işçilər arasında olan rəqabət və kapitalistlərin hüquqları şərait yaradır və imkan verir ki, mövcud olan iş qüvvəsindən ən ucuzunu kapitalistlər seçə bilsin və onları işlə təmin etsin.

Tyürqonun iqtisadi baxışlarında qiymətli cəhətlərdən biri də ondan ibarətdir ki, o, pulla əmtəə dünyası arasında olan əlaqələri açmış və belə bir nəticəyə gəlmişdir ki, pulun özünün də əmtəə təbiəti vardır.

F.Kene kapitalın formalaşmasını nəzərə almırdı və göstərirdi ki, sənayeçilər və tacirlər torpaq sahiblərindən məvacib alırlar. Tyürqo isə kapital yığımı prosesinin aktivləşməsini vurğulayırdı və kapitalizmin genişlənməsini izah etməyə çalışırdı. Hərəkət edən sərvətin yığılmasını o, iqtisadi proseslərin vacib şərti hesab edirdi.

Tyürqo kapitalı hərəkət edən dəyərlərin yığımı kimi izah edirdi. Bununla da fiziokratlarda olan naturalizmi o aradan qaldırırdı. Onun bu baxışları kapital haqqında olan qiymətli fikirlər idi.

Tyürqo öz iqtisadi baxışlarının bir hissəsini dəyər probleminə həsr etmişdir. Ancaq dəyər problemlərini axıra kimi həll edə bilməmiş və bu

downloaded from KitabYurdu.az

məsələdə müəyyən nöqsanlara yol vermişdir. Bu da onun yaşadığı dövrün məhdudluğundan irəli gəlirdi.

Tyürqo belə bir fikir irəli sürürdü ki, muzdlu əməkdən istifadə edən kapitalist-fermer öz kapitalı üçün fabrik sahibi qədər mənfəət, üstəlik də renta kimi torpaq sahibkarına verməli olduğu müəyyən artıq məhsula malik olmalıdır.

Tyürqo kapital tərəfindən yaradılan məhsulun dəyərinin nədən ibarət olduğunu aydınlaşdırmağa çalışırdı. O qeyd edirdi ki, məhsulun dəyərindən kapital xərci, o cümlədən fəhlələrin əmək haqqı ödənilir. Yerdə qalan hissəsi üç yerə bölünür. Birinci hissə kapitalistin "heç bir əməksiz", pul kapitalının sahibkarı kimi ala biləcəyi gəlirə bərabər olan mənfəətdir. Bu, mənfəətin borc faizinə bərabər olan, uyğun gələn hissəsidir. Mənfəətin ikinci hissəsi öz pullarını fabrikə və ya fermaya digər istehsal sahələrinə qoymaq qərarına gələn kapitalistin "əməyini, riskini və məharətini" ödəyir. Bu, sahibkar gəliridir. Üçüncü hissə torpaq rentasıdır. Bu hissə yalnız əkinçiliyə qoyulmuş kapitallar üçün mövcuddur.

Sözsüz ki, Tyürqonun bu qeyd etdiyimiz baxışları iqtisad elmində yeni fikirlər idi.

## § 5. FİZİOKRATLARIN İQTİSADİ PROQRAMI

Fiziokratlar məktəbinin görkəmli nümayəndələrinin iqtisadi baxışlarının şərhindən sonra bu məktəbin yaratdığı və qarşıya qoyduqları məqsəd - onların iqtisadi proqramı - üzərində dayanaq.

Fiziokratların iqtisadi siyasət proqramının bir çox ideyalarını F.Kene özünün yuxarıda göstərdiyimiz, "Əkinçilik dövlətinin iqtisadi siyasətinin ümumi prinsipləri" kitabında şərh etmişdir. O, bu əsərində göstərmişdir ki, ali hakimiyyət vahid olmalıdır və cəmiyyətin bütün üzvlərindən yüksəkdə dayanmalıdır. Ali hakimiyyət cəmiyyətin bütün təbəqə və zümrələrinə qarşı ədalətli olmalıdır.

Onun fikrincə mülkiyyət üzərində bu mülkiyyət sahiblərinin (təminatı) qarantı olmalıdır.

Çünki mülkiyyətlə təmin olunmaq cəmiyyətin iqtisadi quruluşunun fundamentini, əsasını təşkil edir. Başqa cürə olarsa torpaqdan istifadə

downloaded from KitabYurdu.az

etmək, onu becərmək olmaz. Vergi siyasəti elə təşkil olunmalıdır ki, o, çətinlik yaratmasın və milli gəlirin həcminə proporsional olaraq müəyyən edilsin.

F.Kenenin və bütünlükdə fiziokratların proqramında belə bir fikir də öz əksini tapmışdır ki, torpaq sahiblərinin "xalis məhsulundan" vergi tutulmalıdır. Fiziokratlar əmək haqqı və zəruri istehlak şeylərindən vergi alınmasının əleyhinə çıxış edirdilər. Onların fikrincə vergilərin çoxluğu vergi toplamağı çətinləşdirir və bu proses xeyli xərclərin olmasını tələb edir. Əgər bu belə olarsa ticarət əngəlliklərlə qarşılaşa bilər və nəticədə cəmiyyətin sərvətinin bir hissəsi məhv olar.

Fiziokratlar məktəbinin əsasını qoyan  və onun rəhbəri olan F.Kene hər hansı bir şəraitdən asılı olmayaraq fermerlər üzərində vergi tətbiq edilməsinin əleyhinə idi, dövlətin əkinçiliklə əlaqədar olaraq çəkdiyi xərcləri toxunulmaz fond kimi qorunmasını təbliğ edirdi. Fiziokratların proqramına əsasən belə bir proses ona görə lazım idi ki, bu fondun hesabına vergi, gəlir və bütün sinifdən olan vətəndaşların yaşaması üçün vəsait əldə edilə bilsin. Əgər bu belə olmazsa vergilər soyğunçuluq vəsaitinə çevrilə bilər və dövlət isə dağılar.

Fiziokratların proqramına görə satış nə cür olsa, təkrar istehsal da elə olacaqdır. Kənd təsərrüfatı məhsullarının və əl əməyi məmulatlarının satılması üçün yollar yaxşılaşdırılmalı və su nəqliyyatından istifadə edilməlidir. Fiziokratlara görə ərzaq malları və digər əmtəələr üzərində olan aşağı səviyyəli qiymətlər düzgün deyildir, çünki aşağı səviyyəli qiymətlər millətin xarici ticarətini əlverişsiz edir.

Fiziokratların proqramında göstərilirdi ki, əkinçilərin xeyrinə olmayan cah-cəlalı genişləndirmək olmaz, bu hal səmərəsiz qənaətcilliyə gətirib çıxarar və dövlət də tərəqqi edə bilməz. Fiziokratların proqramına görə vergilər alınarkən və onları xərcləyərkən pul əmlakının artmasına şərait yaratmaq olmaz. Çünki pul əmlakının artması "xəlvəti sərvətin" artmasına səbəb olar və nəticədə adamlar həm vətənlərini, həm də padşahı (çarı) tanımazlar. Belə adamlar tədavül vasitələrini mənimsəyə bilərlər, nəticədə bölgü və istehsal çətinləşir.

Fiziokratların proqramında daha sonra göstərilirdi ki, borc məsələlərində dövlət ehtiyatlı olmalı, bu pul rentası yarada bilər, ticarət

downloaded from KitabYurdu.az

zəifləyər və alverçilik, möhtəkirlik artar. Daha sonra proqramda qeyd edilir ki, əhali xaricilərlə olan ticarətdə ehtiyatlı olmalıdır və millət elə bilər ki, belə bir ticarət əlverişli pul balansı yaradır. Eyni zamanda iddia edilirdi ki, ticarətə tam azadlıq verilməlidir, çünki xalq və dövlət üçün ən ümidverici və əlverişli sahədaxili və xarici ticarəti idarə etməkdir. Fiziokratlara görə ticarət üzərində tam rəqabət təmin olunmalıdır.

Fiziokratların proqramına görə torpaq sahiblərinin gəlirlərinə qoyulan vahid vergi bu gəlirlərin yarısına bərabər ola bilər. Əhalinin özünün və onun əmək haqqının üzərinə qoyulan vergilər muzdlu əməyin qiymətini artıra bilər, bu da öz növbəsində sahibkarlara ziyan gətirər. Belə bir prosesin nəticəsində əmək məsrəflərinin həcmi, ərzaq istehsalı və əhalinin tərkibi azalar.

Fiziokratların proqramında göstərilir ki, kənd təsərrüfatı işçilərinin, bütün sənətkarların və ticarətçilərin vergilərdən azad olunması təbii qanun olmalıdır. Əgər göstərilən əmək sahəsində məşğul olanlar vergilərdən azad olmasalar ölkənin gəliri üzərinə ikiqat ağırlıq düşər və millət müflisləşər.

Bütün bu qeyd etdiklərimizlə yanaşı fiziokratların proqramına görə torpaq dövlətin mülkiyyətində deyil, sahibkarlar arasında bölüşdürülməlidir. Çünki belə zümrədən olanlar gəlirlərin artmasına maraq göstərirlər və idarəçiliyi yaxşılaşdırmağa çalışırlar. Onların fikrincə xalis gəlir torpaq sahibinin mülkiyyətinin və idarəçiliyinin nəticəsidir.

Fiziokratların tələb etdiyi vahid vergi siyasəti və bu vergilərin torpaq sahiblərindən alınması onların "üçüncü təbəqə" üçün irəli sürdükləri maliyyə məsələlərinə həsr olunmuş maksimum proqramında da öz əksini tapmışdır.

Onların maliyyə proqramı siyasi radikalizm ilə fərqlənirdi. Bu proqram siyasi cəhətdən daha yetkin idi. Vergi və maliyyə məsələlərində fiziokratlar obyektiv fəaliyyət göstərən iqtisadi qanunlara əsaslanırdılar.

Məlumdur ki, fransız kəndi feodal üsul-idarəsindən əziyyət çəkirdi və buna görə də kapitalist fermerçiliyinin Fransada inkişaf etdirilməsi o dövr üçün tərəqqipərvər bir hal idi. Əgər kapitalizm kənd təsərrüfatında inkişaf edərdisə, əlbəttə feodalizmin əsasları sarsıla bilərdi. O zaman Fransa çətinlikdən çıxa bilər və öz milli sənayesini inkişaf etdirərdi.

downloaded from KitabYurdu.az

Kapitalın kənd təsərrüfatına axını onun inkişafına tə:sir edər və səmərəlilik arta bilərdi.

## § 6. İQTİSADİ TƏLİMLƏR TARİXİNDƏ FİZİOKRATİZMİN YERİ VƏ ROLU

İqtisadi təlimlər tarixinin inkişafında və siyasi iqtisadın bir elm kimi formalaşmasında fiziokratlar mühüm rol oynamışlar və onların bu elm sahəsində xüsusi mövqeyi və yeri vardır.

XYIII əsrdə meydana gələn burjua siyasi iqtisadının ilk sistemi birtərəfli - analitik metodun aradan götürülməsi ilə üzvi surətdə bağlıdır. Birtərəfli - analitik metod sadə, bir-birilə əlaqəsi olmayan iqtisadi abstraksiyaya (mücərrədlik) söykənirdi. Bir-birilə əlaqəsi olmayan bu sadə iqtisadi hadisələrin qeydə alınması və abstraktlaşdırılması nəticəsində aşağıdakı kateqoriyalara əsaslanan iqtisadi sistem yaranmağa başladı. Məsələn, əmək, əmək bölgüsü, tələbat, mübadilə dəyəri. Mübadilə dəyəri dövlətə, beynəlxalq mübadiləyə və dünya bazarına aid edilirdi.

İqtisad elminin ilk prinsiplərinin hazırlanması birinci növbədə fiziokratlara məxsusdur. Çünki, fiziokratların təlimi kapitalist istehsalı haqqında olan sistemli konsepsiyadır. Bu konsepsiyada mərkəzi yeri F.Kenenin "İqtisadi cədvəl"i tutur.

F.Kene cəmiyyətə canlı bir orqanizm kimi baxmışdır. O göstərirdi ki, cəmiyyət də xəstə və sağlam vəziyyətdə ola bilər. Məhz buna görə də məqsəd cəmiyyətin xəstə tərəflərini sağaltmaq üçün müəyyən üsullar tapmaqdan ibarətdir. Cəmiyyətin sağlamlığı dedikdə Fransua Kene cəmiyyətin təbii vəziyyətini nəzərdə tuturdu. O qeyd edirdi ki, cəmiyyətə təbii sağlamlığı qayıdarsa bu istehsal tarazlığı deməkdir. Əgər cəmiyyətin təbii sağlamlığı varsa o zaman istehsal tarazlığı da yaradılan məhsul ilə bütün burjua sinfinin yaşamasını təmin edə bilər. Belə bir şəraitdə, F.Keneyə görə, istehsal prosesi sonrakı dövrlər üçün də davam edər, yəni təkrar istehsal təmin edilər. Ancaq belə bir elmi konsepsiyada F.Kene ilə U.Petti arasında fərq var idi.

Faktiki olaraq F.Kene istehsalın obyektiv xarakter daşıyan qanunlarını qəbul edirdi. Bunun üçün o, "təbii qaydalar" və "təbii

downloaded from KitabYurdu.az

hüquqlar" prinsipinə söykənirdi ki, "təbii qaydalar"ı , "təbii hüquqlar"ı XYIII əsr fransız maarifçiləri təbliğ edirdilər (Monteksye, Russo və s.).

Digər tərəfdən, qeyd edək ki, U.Pettiyə nisbətən F.Kene dövlətə başqa münasibət bəsləyirdi. Dövlət məsələlərində U.Petti merkantilistlərin mövqeyində qalırdı. Merkantilistlər isə iddia edirdilər ki, ölkənin sərvəti iqtisadi siyasət vasitəsilə müəyyən edilir. F.Kene isə göstərirdi ki, dövlət cəmiyyətin həkimidir (lekar). Odur ki, dövlət həkim kimi cəmiyyətin xəstə tərəflərini müalicə etməli və cəmiyyəti öz "təbii qaydalar"ına qaytarmalıdır.

Məsələnin belə qoyuluşu o demək idi ki, elə prinsiplər axtarılıb tapılmalıdır ki, bu prinsiplər ictimai istehsalın ayrı-ayrı hissələrini, tərəflərini deyil (çünki söhbət burada bütövlükdə cəmiyyətin normal, təbii vəziyyətindən gedir), ictimai istehsalı bütövlükdə əhatə edə bilsin.

İstehsalı fiziokratlar məhsulu və onun dəyərini yaradan sahə hesab edirlər, lakin onlar əmtəənin dəyər və natural formasını dəqiq ayırd etmirdilər. Bununla belə, əkinçilik istehsalını "xalis məhsul"u yaradan sahə elan edirdilər. Bu ideya fiziokratizmin mərkəzi ideyası idi. Onların bu fikirləri epizodik xarakter daşımırdı. Məhz əkinçilikdə "xalis məhsul"un (izafi dəyərin) yaradılması fiziokratların tədqiqatının başlanğıcı və son çıxış nöqtəsi idi. Onların təliminin bu prinsipləri F.Kenenin "İqtisadi cədvəl"inin bütün mahiyyətini və məzmununu təşkil edirdi.

F.Kene belə bir müddəadan çıxış edirdi ki, "xalis məhsul" ancaq cəmiyyətin bir qütbündə (əkinçilikdə) yaradılır və cəmiyyətin bu qütbündən "xalis məhsul" istehlaka doğru hərəkət edir.

Qeyd edək ki, ümumi prinsiplər olmasa monist elmi sistem də olmaz. Fiziokratlarda da bu fikir var idi. Məhz buna görə də fiziokratların xidməti və tarixdəki rolu ondan ibarət idi ki, onlar kapitalist istehsalı haqqında ilk sistemli konsepsiya yaratmışdılar.

downloaded from KitabYurdu.az

# FƏSİL 8. ADAM SMİTİN İQTİSADİ TƏLİMİ

İqtisadiyyatın xüsusiyyətlərinin araşdırılmasının bir elm olaraq ortaya çıxması Adam Smitlə başlayır. A.Smit klassik siyasi iqtisad adlandırılan iqtisadi fikir sisteminin qurucusu olmuş və onun ideyaları zəmanəmizdə də iqtisadi düşüncənin özəyini təşkil edir.

A.Smit özünün iqtisadi sistemini 1767-1776-cı illərdə yazdığı "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı əsərində yaratmışdı. Onun bu əsərinin əsas tədqiqat predmeti xalqların sərvəti və onun artırılmasının mənbə və yolları, stimulları və qanunlarıdır. Ona görə də bu əsər "millətlərin zənginliyi", "xalqların sərvəti" adları ilə də istifadə edilir. İqtisad tarixində kitabı bu qədər oxunan bir başqa iqtisadçı yoxdur. Məşhur iqtisadçıların söylədiyi kimi A.Smitin bu kitabı "Liberalizmin incili" halına gəlmişdir.

## § I. A. SMİT VƏ ONUN YAŞADIĞI DÖVR HAQQINDA

1723-cü ildə anadan olan Adam Smit 14 yaşında Qlazqo Universitetinə girmiş və teologiya, əxlaq elmi, hüquq və siyasi iqtisad təhsili almışdır. Üç il sonra təqaüd alma haqqı qazanaraq Oksforda Valliol kollecinə getmiş və orada 6 il oxumuşdur. 27 yaşında Qlazqo Universitetində məntiq müəllimi kimi işə başlamışdır. Bir il sonra əxlaq fəlsəfəsi professoru, yeddi il sonra həmin məktəbdə dekan olmuşdur. İlk böyük kitabı "Əxlaqi hisslər nəzəriyyəsi" 1759-cu ildə çap edilmişdir.

Manufaktura dövrünün ən görkəmli iqtisadçısı olan A. Smit çox böyük intellektə malik, humanist insan idi. Ədalətsizliyi, amansızlığı,

downloaded from KitabYurdu.az

zorakılığı sevməzdi. O, zəka və mədəniyyətin müvəffəqiyyətinə inanan, sözün əsl mənasında böyük ziyalı olmuşdur.

A. Smitin dövründə Böyük Britaniya dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ən qüdrətli dövləti idi. XYIII əsrdə İngiltərədə sənaye və kənd təsərrüfatı inkişaf etmiş, xarici ticarəti genişlənmişdi. Təxminən XYIII əsrin 50-ci illərində Şotlandiya böyük mədəni yüksəliş mərhələsinə daxil olur ki, bu da elm və incəsənətin müxtəlif sahələrdəki inkişafında özünü göstərir.

A.Smit Qlazqoda professor Fransis Hatçesonun ictimai quruluş haqqında mühazirələrinə qulaq asmışdı, o zaman iqtisadiyyat da bura daxil idi. Məhz bu mühazirələrdən A.Smit özü də hiss etmədən iqtisadi biliklər almışdı. Professor F. Hatçeson iqtisadi məsələlərdə merkantilist mövqe tuturdu. Lakin XYIII əsrin sonu və XIX əsrin əvvəllərində merkantilizm dağılır və ona əsas zərbəni öz əsəri ilə A. Smit endirir.

A. Smit tədricən yaşadığı cəmiyyətin daxili quruluşuna dərin nüfuz edir və öz iqtisadi təlimini yaradır. O, öz iqtisadi nəzəriyyəsini əmək-dəyər nəzəriyyəsinin zəminində qurur ki, bu da ona fiziokratlarla müqayisədə irəliyə doğru mühüm addım atmağa imkan vermişdi.

A. Smitin bir iqtisadçı kimi şöhrət tapmasında yaranan ictimai mühitin, yəni kapitalist münasibətlərinin hökmranlığı və inkişafda olması şəraitinin də mühüm rolu olmuşdur.

İngiltərədə ilkin kapital yığımının tarixi prosesinin başa çatması, istehsalın manufaktura formasının üstünlük təşkil etməsi, sənaye çevrilişinin baş verməsi, ölkənin rəqabət mərhələsinə keçməsi, İngiltərə burjuaziyasında ictimai inkişafı sürətləndirməyə və azad sahibkarlıq fəaliyyətinə həvəs yaranmasına səbəb oldu. Bütün bu və digər amillər kapitalizmin feodalizmdən üstünlüyünü elmi şəkildə təsdiq edən təlimin yaradılmasına ehtiyac yaratdı.

downloaded from KitabYurdu.az

Beləliklə, XYIII əsrin ikinci yarısında İngiltərədə iqtisadi fikirlər inkişaf etməyə və tərəqqi yolunda olan yeni quruluşun elmi təhlilinə başlandı. Məhz belə bir şəraitdə A. Smit dahisi üzə çıxdı. O, azad sahibkarlıq mərhələsində kapitalist təsərrüfatının fəaliyyəti prinsiplərini nəzəri əsaslandıran elmi-siyasi iqtisadın sistemini yaratmağa cəhd edir və özünün şah əsərini yazır.

## § 2. A. SMİT VƏ ONUN "XALQLAR SƏRVƏTİNİN TƏBİƏTİ VƏ SƏBƏBLƏRİ HAQQINDA TƏDQİQAT" ƏSƏRİ

A. Smitin bu dahi əsəri 1776-cı ilin mart ayında Londonda çapdan çıxmışdır. Smit bu əsəri ilə dünya şöhrəti qazanmış və iqtisad elminin atası səviyyəsinə yüksəlmişdir.

Əsərdə irəli sürülmüş sosial, iqtisadi və siyasi problemlərin A.Smit təhlili tezliklə geniş oxucu kütləsini cəlb etdi və buna görə 1778-ci ildə kitab yenidən nəşr olundu.

Amerikada istiqlaliyyət müharibəsinin başa çatması və Avropada kapitalist münasibətlərinin püxtələşdirilməsinə doğru irəliləyişlər kitaba olan marağı yenidən artırmış oldu və A.Smit öz kitabının üçüncü nəşri haqqında fikirləşməyə başladı. Yeni nəşrlər zamanı müəllif fəsilləri dəyişməsə də merkantilizmin xüsusən də o dövrdə fəaliyyət göstərən "Ost-hind şirkətinin" apardığı soyğunçuluq siyasətinin tənqidini kəskinləşdirir. Beləliklə əsər 1784-cü ildə üçüncü dəfə nəşr olunur və Smit hər nəşrdə mətnlərin yaxşılaşdırılması üçün əlindən gələni edirdi. Bundan sonra kitab daha iki dəfə 1786 və 1789-cu illərdə nəşr olunmuşdur.

A.Smitin bu şah əsəri ingilis dilindən, alman, fransız, ispan, italyan və rus dillərinə tərcümə edilərək nəşr edilmişdir. Şübhə yoxdur ki, A. Smit və onun fikirləri elmə və təfəkkürə çox böyük təsir göstərmişdir. O, dövlətin iqtisadi fəaliyyətini və kapitalist istehsalı

downloaded from KitabYurdu.az

iştirakçılarının psixologiyasının formalaşmasında mühüm rol oynamışdır.

A. Smit adi təsərrüfat hadisələrini dərindən duymaq qabiliyyətinə malik idi. İstehsal, alqı-satqı, torpaq icarəsi, işçi qüvvəsi tutulması, vergilərin ödənməsi, veksellərin uçotu və s. iqtisadi münasibətlər Smitin qələmində elmi izahını tapmışdır. Əlbəttə, A.Smitin elmdəki rolu ilk növbədə onun siyasi iqtisadın elmi sistemini yaratması ilə müəyyən olunur. Əgər, A.Smitə qədər siyasi iqtisadda klassik məktəblərin yalnız ayrı-ayrı hissəcikləri var idisə, ondan sonra məhz bütöv mülahizə və qanunlar sisteminə malik olan məktəblər yaranır. A.Smitin kitabı həqiqətən liberal iqtisadi nəzəriyyənin doğuluşu olmuşdur. Merkantilistlərin sistemindən fərqli olaraq xalqların sərvətinin artırılmasında görünməyən əl kimi fəaliyyətdə olan təbii azadlıq və rəqabət cəmiyyətin ahəngdar inkişafına güclü təsir göstərmişdir.

A.Smit, sərvətin istehsalı, artırılması, mübadiləsi və istehlakı proseslərini bir sistem şəklində araşdırmış və onun inkişaf qanunlarını aşkara çıxarmışdır

Əlbəttə, Smit, sərvəti "ölü bir varidat" kimi iqtisad elminin predmetinə daxil etməyib, o, insanı, onun iqtisadi və mənəvi maraqlarını, həyat tərzini, davranış qaydalarını da araşdırmış və qiymətli fikirlər söyləmişdir. (İqtisadi nəzəriyyə, Bakı, 1999, səh.21). A.Smitin "Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsəri beş kitabdan ibarətdir. Bunlardan yalnız ilk iki kitab Smitin nəzəri görüşlərinin quruluşunu və mahiyyətini əhatə edir.

Birinci kitabda - iqtisadi artımın əsas faktoru olan əmək bölgüsünə baxılır. Sonra müəllif istehsal olunan əmtəələrin və xidmətlərin dəyəri problemlərini araşdırır. A.Smit hesab edir ki, dəyəri əmək yaradır (əmək-dəyər nəzəriyyəsi).

downloaded from KitabYurdu.az

Birinci kitab əmək haqqı, kapitala mənfəət və rentanı əhatə edən bölgü nəzəriyyəsinin şərhi ilə başa çatır.

İkinci kitab- iqtisadi artım üçün zəruri olan kapital yığımına və bu yığımı təmin edən qənaətin əhəmiyyətinə həsr edilmişdir.

Üçüncü kitabda bir qədər iqtisadi təhlildən uzaqlaşan müəllif müxtəlif xalqların rifahından bəhs edir, ictimai inkişafa dair görüşlərini şərh edir.

Dördüncü kitab- siyasi iqtisadın sistemləri haqqındadır. Burada siyasi iqtisadın tarixindən və tənqidindən bəhs edilir. Bu kitab özü doqquz fəsildən ibarətdir. Bunlardan səkkizi merkantilizmin tənqidinə, bir fəsil isə fiziokratlara həsr edilmişdir. Burada müəllif ilk olaraq azad mübadilənin zəruriliyinin nəzəri isbatını verir.

Beşinci kitab- ictimai maliyyəyə həsr edilmişdir. Dövlətin xərcləri barədə Smitin təhlili bu günə qədər liberal fikrin böyük nailiyyəti olaraq qalır. Bu kitabın birinci fəslində dövlət məsrəfləri, üçüncü fəsildə dövlət borcları nəzərdən keçirilir. A.Smit məhz bu beşinci kitabda konkret materiallar əsasında əsaslı iqtisadi problemlərə dair öz mülahizələrini bildirir. Məsələn, onun vergilər haqda mülahizəsi də diqqətə layiqdir. Smitə görə, dörd vergi prinsipi vardır: bərabərlik, aydınlıq, ödəmə rahatlığı və vergi toplanmasının iqtisadi bir formada aparılması.

Stimulu cəmiyyətin başlıca məhsuldar qüvvəsi adlandıran Smit, əsərində istehsalın zəruri əlamətləri olan əmək, torpaq və kapital anlayışlarının mahiyyətini açır, əmək haqqı, renta və mənfəətin mənbəələrini və təbiətini, onlardan istifadə edən sinif və təbəqələrin iştirakı və rolundan danışır. Habelə Smit kitabında əmək bölgüsü və onun əmək məhsuldarlığına göstərdiyi təsiri, mübadilə və bazar problemini, qiymət və onun tərkib hissələrini təhlil etmişdir. Əmək resurslarını, sərvətin mənbəyi hesab edən Smit, iqtisadiyyatı, maddi nemətlər istehsalı sahəsini bütöv və tam halında tədqiq etmiş və

downloaded from KitabYurdu.az

onun inkişaf qanunlarını aşkar etmişdir. O, sərvətin yaradılması və artırılması mənbələrini maddi istehsalın bütün sahələrində axtarıb tədqiq etməklə iqtisad elminə müəyyən aydınlıq gətirmişdir. A.Smit əsərini yazarkən özünün dərin biliyindən, incə müşahidə qabiliyyətindən istifadə etmiş və orijinal ümumiləşdirmələr apara bilmişdir. Kitabda iqtisadi nəzəriyyəyə münasibəti olmayan bəzi məlumatların da olmasına baxmayaraq A.Smit siyasi iqtisada hər şeyi əhatə edən - cəmiyyət haqqında bir elm kimi baxmışdır. Onun fikrincə siyasi iqtisad hər şeydən əvvəl, cəmiyyətdə maddi nemətlərin istehsalının, mübadiləsinin, bölüşdürülməsinin, istehlakının, insanların iradəsindən asılı olmayaraq mövcud olan obyektiv qanunlarını öyrənən bir elmdir. O yazır ki, siyasi iqtisadın məqsədi xalqın varlanmasını təmin etməkdir. A.Smitin fikrinə görə siyasi iqtisad obyektiv təhlil əsasında əməli vəzifələri həll etməlidir. O, tədqiqatını elə bir istiqamətdə aparmalıdır ki, "Xalq üçün bol gəlir və yaşayış vasitələri təmin edə bilsin, daha doğrusu bu vasitələri əldə edə bilmək üçün ona imkan təmin edə bilsin". Eyni zamanda siyasi iqtisadın vəzifələrindən biri Smitə görə ictimai quruluşda iqtisadi münasibətlərin təkmilləşdirilməsi yolu ilə maddi nemətlər istehsalının artırılmasına nail olmaqla "Dövlətə, yaxud cəmiyyətə ictimai istehlak üçün lazımi qədər gəlir gətirməkdir".

Öz tədqiqatında elmi abstraksiya metodundan istifadə edən A.Smit əmək bölgüsü və mübadilə dəyəri kimi kateqoriyaları əsas götürməklə öz iqtisadi sistemini qurmağa çalışmışdır.

A.Smitin metodologiyası iqtisadi hadisələrin həm daxili əlaqəsini, həm də zahiri görünüşünü öyrənmək olmuşdur. O, bir tərəfdən hadisənin daxilinə nüfuz edərək onun əlaqələrini açır və mahiyyətini öyrənir; digər tərəfdən isə təzahür formalarını öyrənir və zahiri təsvirini verir. Ona görə də o, müəyyən bir hadisə haqqında bəzən müxtəlif fikirlər söyləmişdi. A.Smitin ən müsbət cəhəti

downloaded from KitabYurdu.az

hadisələrə cəmiyyətin məhsuldar qüvvələrinin və millətin sərvətinin inkişafı nöqteyi-nəzərindən yanaşması olmuşdur. A.Smitə görə siyasi iqtisad (iqtisadi nəzəriyyə) işini elə bir istiqamətdə aparmalıdır ki, cəmiyyətdə məhsuldar qüvvələrin inkişafı üçün maksimum əlverişli şərait yaradan qayda fəaliyyət göstərsin. A.Smit siyasi iqtisadın və iqtisadi tədqiqatın vəzifəsini sərvətin təbiətini və mənbələrini öyrənməkdə, xalqın rifahının təmin edilməsi yollarının axtarılmasında görür. A.Smit yazır: "hər millətin illik əməyi, o millətin bir il içərisində istehlak edəcəyi mal və xidmətləri təmin edən fond"dur. Smitin, əməyin əhəmiyyətini vurğulaması, kapitalın və torpağın əhəmiyyətini rədd etmək istəməsindən deyil, fiziokratların istehsalın orijinal mənbəyi olaraq sadəcə təbiəti və təbii qüvvələri göstərməsinin səhv olduğuna reaksiya verməsindədir. Ona görə, əməyin əlavəsi olmadan, nə torpaq, nə də kapital nə isə istehsal edə bilməz. Smitin iqtisadi sisteminin əsasında insanın təbiəti və mənafeyi durur. O, cəmiyyətə müxtəlif əmək növlərinin mübadiləsi ittifaqı kimi baxırdı. Mübadiləyə həvəsli insanı, bunu onun təbiətinə xas əlamət hesab edirdi və bu prosesin səbəbini əmək bölgüsündə görürdü.

Cəmiyyəti xüsusi mülkiyyətsiz təsəvvür edə bilməyən Smitin fikrinə görə insanın iqtisadi fəaliyyətinin başlıca məqsədi varlanmaqdı, motivi isə şəxsi mənafedir. Bu mənafe isə bir insanın başqa adamlara xidmət göstərməsi, öz əməyini və əmək məhsullarını azad surətdə mübadilə etməsi ilə həyata keçə bilər. A.Smit ayrıca adamı öz kapitalı olan "iqtisadi adam" kimi təsvir edir və cəmiyyətə bu adamların əmək və mübadilə ittifaqı kimi baxır. "İqtisadi adam" anlayışının əsasını Smitin insanın təbiəti, insan və cəmiyyətin qarşılıqlı münasibəti haqqındakı baxışları təşkil edir. Onun fikrinə görə anadan olma şəraitindən və vəziyyətindən asılı olmayaraq əgər hər bir əmək adamına öz faydasını güdmək

downloaded from KitabYurdu.az

sahəsində bərabər hüquq verilərsə, bütün cəmiyyət bundan udmuş olar. Smit üçün onun "iqtisadi adamı" əbədi və təbii insan təbiətinin ifadəsidir. O, "iqtisadi adam" konsepsiyası ilə insana cəmiyyətdə bütün proseslərə çıxış amili kimi baxmış, insanın təsərrüfat fəaliyyətinin motivləri və stimulları haqqında öz nəzəri və əməli əhəmiyyətli fikirlərini söyləmişdir.

A.Smit insana cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi kimi baxmış və qeyd etmişdir ki, insanlar öz mənafelərini güdməklə eyni zamanda cəmiyyətin inkişafına, onun məhsuldar qüvvələrinin artmasına əhəmiyyətli şərait yaratmış olurlar. Onun fikrincə əgər hər bir fərdə öz mənafeyini, öz qazancını ağıllı surətdə güdmək imkanı verilsə, onda bu, bütün cəmiyyətin sərvətinin artmasına, çiçəklənməsinə kömək edər.

A.Smit qeyd edir ki, insanların öz maddi vəziyyətini yaxşılaşdırmağa təbii surətdə çalışmaları elə bir güclü stimuldur ki, hətta "İnsan qanunlarının ağılsızlığının insanın fəaliyyətini bu qədər tez-tez çətinləşdirdiyi yüzlərlə acınacaqlı maneəçilikləri aradan qaldırmağa qadirdir". Bununla A.Smit insanın "təbii azadlığını" yəni, işçi tutmaq, istehsal və istehlak etmək, almaq və satmaq azadlığını məhdudlaşdıran merkantilizmə qarşı kəskin çıxış edir.

A.Smitin iqtisadi nəzəriyyəsinin əsasını rəqabət azadlığı prinsipi təşkil edir. O, azad rəqabətin söndürülməsini iqtisadiyyatın sərbəst inkişafı üçün böyük fəlakət hesab edir. Rəqabət azadlığı pulun, kapital və əməyin hərəkət, yerdəyişmə azadlığı şəraitində cəmiyyətin ehtiyatlarından ən səmərəli və optimal şəkildə istifadə olunacaqdır.

Əgər hər bir şəxsin iqtisadi fəaliyyəti nəticə etibarı ilə cəmiyyətin rifahına aparıb çıxarırsa, onda bu fəaliyyəti heç bir şeylə məhdudlaşdırmaq lazım gəlmir. İngilis hökuməti bir əsrdən çox

downloaded from KitabYurdu.az

müddət ərzində A.Smit proqramını həyata keçirməkdə davam etmişdir.

A.Smit proqramı konkret olaraq aşağıdakılardan ibarət idi:

Birincisi, A.Smit işçi qüvvəsinin mobilliyini, sürətlə hərəkət etmək qabiliyyətini məhdudlaşdıran bütün tədbirlərin ləğv edilməsini tələb edir, bu tələbin obyektiv mənası iş adamları üçün fəaliyyət azadlığının təmin edilməsidir.

İkincisi, A.Smit torpaq alveri sahəsində tam azadlıq uğrunda çıxış etmişdir. O, iri torpaq sahibkarlığının əleyhdarı idi, irs qalmış torpaqların parçalanmasına mane olan qanunların ləğv edilməsini tələb edirdi. Smit torpaqlardan səmərəli istifadənin tərəfdarı olmuşdur.

Üçüncüsü, A.Smit sənaye və ticarətin dövlət tərəfindən nizama salınmasının qalıqlarının ləğv edilməsini tələb edirdi.

Dördüncüsü, A.Smit İngiltərənin bütün xarici ticarət siyasətini ətraflı tənqid etmiş və xarici ticarət azadlığı üçün proqram işləyib hazırlamışdır. Onun bu proqramı birbaşa merkantilizmə qarşı yönəldilmişdir. XIX əsrdə ingilis sənaye burjuaziyasının bayrağına çevrilmiş fritredeçilik (azad ticarət) belə yaranmışdı.

Beynəlxalq ticarət sahəsində irəli sürülmüş nəzəriyyələrdən biri A.Smitin "mütləq üstünlüklər nəzəriyyəsi"dir. Beynəlxalq ticarətdə müqayisəli xərclər və üstünlüklər prinsipinə böyük əhəmiyyət verən Smit, bunu beynəlxalq əmək bölgüsü və ixtisaslaşma ilə bağlayır və göstərir ki, beynəlxalq ticarət vasitəsi ilə ayrı-ayrı ölkələr varlandıqca dünya iqtisadiyyatı da inkişaf edir; dünya ölkələri qapalı iqtisadiyyatdan imtina edərək daha sərfəli beynəlxalq ticarətlə məşğul olmalıdırlar. Hər hansı ölkə digəri ilə müqayisədə yüksək kefiyyətdə olan əmtəəni mütləq olaraq daha ucuz istehsal edə bilərsə, onda həmin ölkənin, həmin əmtəə istehsalı üzrə ixtisaslaşması məqsədəuyğun olar. Mütləq üstünlüyə malik olmadığı

downloaded from KitabYurdu.az

əmtəələrin istehsal və ixracı ilə digər ölkələr məşğul olar. A.Smit sənayenin sıxışdırılması və ticarətin məhdudlaşdırılması siyasətini uzağı görməyən və mənasız bir siyasət hesab edirdi. A.Smit yazırdı: "bütöv bir xalqa öz əməyinin məhsulundan ona bacara bildiyi hər şeyi düzəltməyi, öz kapitalını və sənaye əməyini özü üçün daha faydalı hesab etdiyi tərzdə sərf etməyi qadağan etmək bəşəriyyətin müqəddəs hüquqlarının aşkar şəkildə pozulması deməkdir".

A.Smit müəyyən əmtəələrin ölkəyə gətirilməsinin və ölkədən kənara aparılmasının qadağan edilməsini, yüksək idxal kömrük haqları qoyulmasını, idxal və ixracda inhisarçılığı kəskin tənqid etmişdir. O, ingilis müstəmləkəçiliyi siyasətinə qarşı çıxaraq, açıq bildirirdi ki, bu siyasət millətin mənafeyindən deyil, bir ovuc inhisarçının mənafeyindən irəli gəlir.

A.Smit proteksionizmə və inhisarçılığa qarşı mübarizə aparmış, azad ticarətin və iqtisadi azadlığın tərəfdarı olmuşdu. O, kortəbii iqtisadi qüvvələri dövlət qanunlarından güclü hesab edir və iqtisadiyyatda hər şeyi bu iqtisadi qüvvələrin azad oyununun sərəncamına verməyi lazım bilirdi.

İlk dəfə olaraq A.Smit iqtisadiyyatın insanların iradəsindən asılı olmayan obyektiv iqtisadi qanunların fəaliyyət göstərdiyi bir sistem olması haqqında təlim işləyib hazırlayır və dövlətin iqtisadi siyasətinin bu qanunlara əsaslanmasını zəruri hesab edirdi.

A.Smitin bu ideyası iqtisadi fikir tarixinə "görünməyən əl" təlimi kimi daxil olub. Bu təlimə görə sərbəst iqtisadiyyat şəraitində hər hansı bir şəxsin özü üçün qazanc əldə etməyə, başqa sözlə mənfəət götürməyə yönəldilən fərdi siyasəti son nəticədə hərc-mərcliyə deyil, bazar ünsürləri vasitəsi ilə cəmiyyətdə qayda-qanun yaradılmasına səbəb olur və "gözə görünməyən əl" vasitəsi ilə fərdi mənafe ümumi mənafeyə uyğunlaşdırılır.

downloaded from KitabYurdu.az

Smitin təliminə görə bazar iqtisadiyyatı "görünməyən əl" vasitəsi ilə özü-özünü avtomatik tənzimləyən bir sistemdir. Buna görə də o, iqtisadi proseslərə dövlətin müdaxilə etməsini məqsədəuyğun saymırdı. Beləliklə, iqtisadiyyatı çox incə surətdə tənzimləyən "görünməyən əl" məhz özü-özünə fəaliyyət göstərən elə bir qayda yaradır ki, bazar iqtisadiyyatı onun vasitəsi ilə qarışıqlığa qarşı dura bilir.

Beləliklə, klassik iqtisadın banisi A.Smitin əsas ideyası-bazar iqtisadiyyatında liberalizm, dövlətin iqtisadiyyata minimal müdaxiləsi, tələb və təklifdən asılı olaraq azad qiymətlər əsasında bazar özünüidarəsi ideyası idi. Bu cür iqtisadi idarəetməni isə o, "görünməz əllər"lə əlaqələndirirdi. Bununla bərabər Smit göstərirdi ki, bazarın normal inkişafı və ayrı-ayrı istehsalçıların normal şəraitdə mənfəət əldə etməsi üçün bir sıra funksiyaları dövlət öz üzərinə götürməlidir.

Deyilənlərdən aydın olur ki, Adam Smit özünün iqtisadi sistemini "Xalqlar sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində yaratmışdır və onun bu əsəri "iqtisadi nəzəriyyə" (siyasi iqtisad) elmi tarixində çox mühüm rol oynamış iqtisadi tədqiqat əsəridir. Onun nəzəri irsi - elmin, iqtisadiyyatın və mədəniyyətin inkişafında indi də öz xidmətini göstərir və aktuallığını saxlayır. Əsərin nəşrindən iki yüz ildən artıq vaxt keçməsinə baxmayaraq indi də A.Smitin iqtisadi ideyaları dünyanın çox ölkələrində, habelə müstəqillik əldə etmiş və bazar iqtisadiyyatı quran Azərbaycanda da istifadə edilir.

## § 3. A.SMİTİN ƏMƏK BÖLGÜSÜ, MÜBADİLƏ VƏ PUL HAQQINDA TƏLİMİ

downloaded from KitabYurdu.az

Əmək bölgüsü probleminə A.Smit öz tədqiqatının çıxış nöqtəsi kimi yanaşdığından, əsərini əmək bölgüsündən başlayır və onu ictimai əmək məhsuldarlığının artırılmasının başlıca amili kimi təsvir edir. Onun fikrincə insanları cəmiyyətdə bir-birinə bağlayan əmək bölgüsüdür. O qeyd edirdi ki, hər bir şəxs cəmiyyətdə yalnız bir cismin istehsalında ixtisaslaşdığından nəticədə bütün insanlar bir-birindən asılı vəziyyətə düşürlər. Beləliklə, cəmiyyət əmək bölgüsünə əsaslanan əmək birliyinə çevrilir və əmək insanları bir tam halında əlaqələndirir.

A.Smit hansı sahədə sərf edilməsindən asılı olmayaraq sərvətin mənbəyinin həmişə əmək olduğunu göstərmişdir. Əmək bölgüsünə insanlıq tarixinin mühüm amillərindən biri kimi baxan Smit onu sərvətin artımını sürətləndirən bir amil kimi də nəzərdən keçirir. A.Smitə görə şəxsi mənafe və mübadiləyə meyl əmək bölgüsünün yaranması və inkişafına səbəb olmuşdur.

Alətlərin və maşınların ixtirası və təkmilləşdirilməsinin özünü əmək bölgüsü ilə bağlayan Smit özünün sancaq istehsalı manufakturasını misal gətirir. Burada 10 işçi arasında əmək bölgüsü təşkil edilir və həmin 10 adam gündə 48 min sancaq hazırlayır və bu hər işçinin gündə 4800 sancaq istehsal etməsi deməkdir. Burada əmək bölgüsü olmasaydı, işçi tək işləyəndə bir gündə bir sancaqdan çox istehsal edə bilməzdi. Göründüyü kimi əmək bölgüsü əmək məhsuldarlığının artımına güclü təsir göstərir. Smit bu misalı və ona istinad edərək irəli sürdüyü əmək bölgüsü təklifi, iqtisadiyyatın klassik mövzularından biri olmuşdur. Əlbəttə, onun əmək bölgüsü ilə əlaqəli fikirləri sancaq manufakturasında ortaya qoyulduğundan daha ətraflı və geniş şərh edilmişdir. Smit bu barədə fikirlərini sadəcə əl bacarığına görə həyata keçirilən əmək bölgüsü ilə məhdudlaşdırmamışdır O, əmək bölgüsünü: ixtisaslar, vəzifələr, firmalar, sahələr və sektorlar yönümündən fikirləşdiyi kimi,

downloaded from KitabYurdu.az

bölgələrarası və ölkələrarası əmək bölgüsü və ticarət yönümlü sahələri  üzrə də genişlətmişdir.

A.Smit deyirdi ki, cəmiyyətin sərvətinin həcmi və onun artımı iki amildən asılıdır:

1. Əhalinin məhsuldar əməklə məşğul olan hissəsindən (istehsalda tətbiq olunan əməyin miqdarından, işçilərin sayından)

2. Əmək məhsuldarlığının səviyyəsindən.

A.Smit özünün uzaqgörənliyi ilə ikinci amilin böyük əhəmiyyətə malik olduğunu göstərmiş və əmək məhsuldarlığının artımını əmək bölgüsü ilə müəyyən olunduğunu dəfələrlə qeyd etmişdir.

Smitə görə əmək bölgüsü, başlıca üç səbəbə görə əməyin məhsuldarlığını artırır:

Birincisi, əmək bölgüsü nəticəsində hər bir əməkçinin bilik və bacarığı, cəldliyi və qabiliyyəti artır.

İkincisi, əmək bölgüsü bir əmək növündən digərinə keçdikdə itirilən vaxta qənaət edilməsi şəraiti yaradır.

Üçüncüsü, əmək bölgüsü əməyə qənaətedici yenilikləri stimullaşdırır və beləliklə maşınların ixtirası və tətbiqi prosesi sürətlənir.

Nəticədə, müəyyən bir iş qüvvəsinin ortaya çıxardığı istehsalda böyük bir artım olur. A.Smitin fikrincə əmək bölgüsü nəticəsində məhsuldarlığın artması bütün əhalinin güzəranının yaxşılaşmasına səbəb ola bilər. Əmək məhsuldarlığı yüksək olan mədəni xalqlar daha çox sərvət yaradır və yaxşı yaşayırlar.

Beləliklə, A.Smit iqtisadi qanunauyğunluqların tədqiqini əmək bölgüsündən, onun səbəb və nəticələrinin təhlilindən başlayır və ayrı-ayrı ölkələrin, hətta ərazi və sahələrin inkişafının qeyri-bərabərliyini əmək bölgüsünün səviyyəsi ilə əlaqələndirirdi. Məsələn, o, kənd təsərrüfatının inkişafının sənayedən geri qalmasının

downloaded from KitabYurdu.az

səbəbini, hər şeydən əvvəl kənd təsərrüfatının özünün xüsusiyyətlərinin əmək bölgüsünün inkişafına törətdiyi maneçilikdə görürdü.

A.Smit manufakturadaxili və cəmiyyətdaxili əmək bölgüsünə aid müəyyən fikirlər söyləmişdir. Manufakturada məşğul olan fəhlələr müxtəlif əməliyyatlar üzrə ixtisaslaşırlar və birlikdə hazır məhsul, misal üçün, A.Smitin dediyi həmin sancaqları istehsal edirlər, hər bir sancaq 18 müstəqil əməliyyat nəticəsində başa gəlir buna manufakturadaxili əmək bölgüsü deyilir.

Cəmiyyətdə olan əmək bölgüsü ayrı-ayrı müəssisələr və sahələr arasında olan bölgüdür. Məsələn, maldar, mal-qara yetişdirir və onu ətliyə satır, qəssab heyvanı kəsir, ətini və dərisini satır, dərini alan gönü aşılayır və çəkməçiyə satır...

Məlumdur ki, manufakturadaxili əmək bölgüsündə alqı-satqı yoxdur, cəmiyyətdaxili əmək bölgüsündə isə geniş mənada alqı-satqı mövcud olur. Manufakturadaxili əmək bölgüsü ilə cəmiyyətdaxili ictimai əmək bölgüsü arasında prinsipial fərq qoymayan A.Smit prosesi bütün cəmiyyəti nəhəng bir manufaktura, əmək bölgüsünü isə "Xalqlar sərvəti" naminə insanların iqtisadi əməkdaşlığının ən ümumi forması kimi təsəvvür edir. Smitə görə əmtəə mübadiləsi elə bölünmüş əmək məhsullarının mübadiləsidir.

Ayrı-ayrı ölkələrin istehsal etdikləri müəyyən növ əmtəə və xidmət üzrə ixtisaslaşması və həmin məhsulların ölkələrarası mübadiləyə çıxarması ilə həmin ölkə beynəlxalq əmək bölgüsü sisteminə daxil olur.

"Beynəlxalq əmək bölgüsü ölkələr arasında ərazi əmək bölgüsünün yüksək mərhələsi olub, ölkələrin müəyyən növ məhsul istehsalı üzrə ixtisaslaşmasına və onların istehsal etmiş olduqları məhsulların qarşılıqlı şərtlər əsasında kəmiyyət və keyfiyyətə görə mübadiləsinə əsaslanır... və iqtisadi artımın tə"min edilməsi

downloaded from KitabYurdu.az

prosesinə xidmət edir." (İqtisadi nəzəriyyə, dərslik, Bakı, 1999, səh. 596-597).

A. Smitin pul haqqında təlimini də əmək bölgüsü, mübadilə və bu proseslərin inkişafı və dərinləşməsi ilə əlaqələndirmişdir. Cəmiyyət üzvlərinin tələbatlarının çox böyük hissəsi mübadilə yolu ilə ödənilir. Bu barədə Smit yazır: "Hər insan mübadilə ilə yaşayır və müəyyən bir səviyyədə tacir olur və cəmiyyət necə deyərlər ticari ittifaqa çevrilir." (A. Smit "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" I cild IY fəsil, Moskva, 1935, səh.24)

Deməli, cəmiyyətdə, mübadilə vasitəsi"nə ehtiyac yaranır; Bu mübadilə vasitəsi elə bir əmtəə olmalıdır ki, hər kəs öz məhsulunu onunla dəyişdirməyə razı olsun. Pulun əsas vəzifəsinin mübadilə vasitəsi olmasını hesab edən Smit, qiymətli metalların bu işə ən uyğun olacağını qeyd etmişdir. A.Smitin fikrinə görə pul birbaşa əmtəə mübadiləsi zamanı qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün bir vasitədir və pulsuz müntəzəm mübadilə mümkün deyil, o, pulun yaranmasını əmtəə dövriyyəsinə olan ehtiyacdan irəli gələn təbii proses kimi xarakterizə etmişdir.

A. Smit pulu bir tərəfdən əmək məhsullarının mübadiləsini asanlaşdıran texniki vasitə hesab etmiş, digər tərəfdən onu ən ümumi ekvivalent olan xüsusi bir əmtəə kimi müəyyən etmişdi. A.Smit pulun mübadilə funksiyasına, ilk növbədə dövriyyə vasitəsi olmasına xüsusi diqqət yetirir. O, pulu "tədavülün böyük təkəri" adlandırmışdır. O yazır: "Pul tədavülün böyük təkəridir, mübadilə və ticarətdə böyük vasitədir". (A.Smit - "Xalqların sərvəti" əsəri I cild səh. 243. Moskva, 1935). A.Smit bütün əmtəələr kimi pulun da dəyərə malik olduğunu (qiymətli metal, qızıl, gümüş nəzərdə tutulur) qəbul edirdi; Smit merkantilistlərin pulun yeganə sərvət olması fikrinə qarşı çıxırdı. O, qızıl və gümüşün kağız pulla əvəz edilməsini məqsədəuyğun hesab edirdi, onun fikrinə görə bu,

downloaded from KitabYurdu.az

tədavül xərclərində qənaətə imkan verər, lakin bununla bərabər tədavül kanallarını kağız pullarla doldurmaq olmaz; ona görə Smit kağız pulların banklar tərəfindən məhdud həcmdə buraxılması fikrini irəli sürürdü. İstehsal prosesinə üstünlük verən Smit pul və kreditin əsas vəzifəsini istehsala xidmətdə görür, banknot emissiyasının istehsalın artımına şərait yaradacağını təsdiq edirdi.

## §4. A.SMİTİN QİYMƏT VƏ DƏYƏR NƏZƏRİYYƏSİ

A.Smit pulun əhəmiyyətini şərh etdikdən sonra "Qiymət" məfhumunu araşdırır. Smitə görə əmtəələrin iki növ qiyməti vardır: "İstifadə qiyməti" və "mübadilə qiyməti". Bu iki qiymətin eyni şey olmadığını söyləyən Smit yazmışdır: "Ən böyük istifadə qiymətinə sahib olan şeylər, çox hallarda aşağı mübadilə qiymətinə malik olur və əksinə çox böyük mübadilə qiymətinə sahib olan şeylər, çox hallarda ya az istifadə qiymətinə malik olur və ya heç istifadə qiyməti olmur. Heç bir şey sudan daha yararlı deyildir, fəqət su ilə çox nadir hallarda bir şey satın alına bilər, çox nadir hallarda az bir şeylə dəyişdirilə bilər. Bunun əvəzinə almaz, çox məhdud bir istifadə yararına sahib olduğu halda, onunla dəyişdirilə biləcək xeyli sayda əmtəə vardır".

Burada Smit aydın bir nöqtəni diqqətdən qaçırır ki, istifadə qiyməti olmadıqda bir əmtəənin başqa bir əmtəəyə dəyişdirilməsi və ya pul əvəzində satılması mümkün deyil. Smit bu mövzudakı başqa bir səhvi, əmtəənin nisbi məhdudluğunun (və ya bolluğunun) onun qiymətinin təyin olunmasındakı əhəmiyyətini diqqətdən qaçırmasıdır.

Sonra Smit daha çətin mövzunu, qiymətin müəyyənləşdirilməsində əməyin rolu problemini araşdırır. Smitin fikrincə "əmtəələri istehsal edən əmək onların həqiqi qiyməti, pul isə

downloaded from KitabYurdu.az

onların nominal qiymətidir". (Smit, "Xalqların sərvəti". I cild, Y fəsil, səh.35, Moskva, 1935).

A.Smit kitabında "əmtəələrin real və nominal qiymətləri və ya onların əmək cinsindən və pul cinsindən qiymətləri" adını daşıyan bölümünə belə başlayır: "hər insan, həyatı üçün lazım olan şeylərə və əyləncəyə nə səviyyədə xərcləyə bilməsinə görə varlı və ya yoxsuldur. Fəqət əmək bölgüsü tamamilə yerləşdikdən sonra, bunların çox azını insan öz əməyi nəticəsində əldə etdikləri vasitəsilə ödəyə bilər.

Ehtiyac duyduqlarının çoxunu, başqa insanların əməyindən əldə etmək məcburiyyətindədir və fərd bu cür əməkdən nə qədərini satın almağa gücünün çatmasına görə zəngin və ya yoxsul olacaqdır. Bu səbəblə, hər hansı bir əmtəəni istehlak etmək istəməyən, lakin onu başqa əmtəələrlə dəyişdirmək istəyənin sahibinə, onun qiyməti, satın ala biləcəyi və ya əmr edə biləcəyi əmək miqdarına bərabərdir; Dolayısı ilə əmək, bütün əmtəələrin mübadilə edilə bilən qiymətinin həqiqi ölçüsüdür". Bu tərifin müəyyənləşdirdiyi mənaya "qiymətin əmək-əmr nəzəriyyəsi" adı verilir. Bu nəzəriyyəyə görə bir əmtəənin qiyməti onunla dəyişdiriləcək digər əmtəənin bir başa və ya dolayı şəkildə ehtiva etdiyi əmək miqdarı ilə ölçülür. Bu mənada əmək, bir "qiymət" ölçüsü xüsusiyyəti qazanır. A.Smit daha sonrakı izahatında əməyi "qiymətin yaradıcısı" olduğunu da qeyd edir. Bununla yanaşı Smit "qiymətin real məsrəf nəzəriyyəsi" adlanan ikinci nəzəriyyəni də önə çəkir və göstərir ki, bir əmtəənin qiyməti, istehsalında istifadə olunan zəhmətlə ölçülür və bu səbəbdən əmtəələr mübadilədə əmr etdikləri əməyin qiymətinə sahib olurlar. Deməli iki gün və ya iki saatlıq bir əməklə istehsal olunan bir şeyin, bir günlük və ya bir saatlıq əməklə istehsal olunana görə iki qat artıq qiymətə sahib olması təbiidir.

downloaded from KitabYurdu.az

Pul olaraq ən uyğun metallar olan qızıl və gümüşün də istehsalı üçün lazım olan əmək miqdarına uyğun mübadilə edilir deyən Smit, belə nəticəyə gəlir ki, əmək yeganə ümumbəşəri və eyni zamanda yeganə etibar edilən qiymət ölçüsüdür.

Smit, bazarın əmtəə qiymətlərinin, əmtəələrin ehtiva etdiyi əməyin qiymətinə görə müəyyənləşəcəyinə inanmış olduğunu bildirir; və təbii qiymət və bazar qiyməti probleminin şərhinə keçir; Məlumdur ki, hər bir cəmiyyətdə zaman və məkana görə "təbii" qəbul edilən əmək haqqı, mənfəət və rentanın bir orta səviyyəsi mövcuddur. Deməli, hər hansı bir əmtəə: işçinin, torpaq sahibinin və yığım sahibinin payını bu təbii səviyyədən ödəməyə yetəcək bir qiymətdə satıldığı zaman, əmtəə "təbii qiyməti"ndə satılmış olacaqdır. Əlbəttə bu, bütün əmtəələrin təbii qiymətə satılacağı mənasına gəlmir. Çox vaxt bu əmtəəyə olan tələblə o əmtəə təklifi arasındakı əlaqənin dəyişməsi "bazar qiymətinin" "təbii qiymətdən" yuxarı və ya aşağı olması ilə nəticələnir. Lakin belə bir dəyişmə, öz-özünə düzəlmə meyli içərisində olur; çünki təklif, təbii olaraq özünü effektiv tələbə görə müəyyənləşdirməyə meyli içərisindədir. Beləliklə bazar qiyməti artma və ya azalma yolu ilə yenidən təbii qiymətə bərabər olur. Bu səbəblə, təbii qiymət bir mərkəzi qiymət xüsusiyyətində olub, bütün əmtəələrin qiymətləri bu qiymətə yaxınlaşma meylindədir. Müxtəlif dəyişmələr bəzən bazar qiymətlərini təbii qiymətdən yuxarı, bəzən də aşağı olmasına səbəb olur. Lakin bazar qiymətlərinin davamlı mərkəzə çatmasına mane olan əngəllərə baxmayaraq bu qiymətlər (yəni bazar qiymətləri) mütəmadi formada təbii qiymətə doğru meyilli olacaqdır.

Beləliklə, A.Smit "uzun dövr təbii qiyməti" qısamüddətli tələb və təklif tarazlaşdırılması nəticəsində hər zaman özünə dönüləcək bir "uzun dövr tarazlıq qiyməti" olaraq qəbul edir.

downloaded from KitabYurdu.az

A.Smit qiymətin müəyyənləşməsində "rəqabətin" oynadığı rol üzərində də dayanmışdır. Smit, həm bazarda çoxlu sayda satıcı olmasının əhəmiyyətini vurğulamış və həm də bazar ilə əlaqədar məlumatların az və ya çox olmasının bazardakı qiymətə təsir edə biləcəyinə işarə etmişdir. Rəqabət qiymətinin ən aşağı qiymət olmasını söyləyən Smit, inhisar qiymətini isə "hər şərt daxilində istehsalçıdan sızdırıla biləcək ən yüksək qiymət" olmasını göstərmiş və inhisar qiymətinin yuxarı həddinin, sözü gedən əmtəəyə olan tələblə məhdudlaşacağını qeyd etmişdir.

A.Smit qiymət nəzəriyyəsini dəyər nəzəriyyəsi ilə əlaqələndirmişdir.

A.Smitin dəyər nəzəriyyəsi onun iqtisadi təhlilində mərkəzi yer tutur. O, öz iqtisadi nəzəriyyəsini əmək-dəyər nəzəriyyəsi əsasında qurmuşdur, əmək prosesinə dəyərin yaranması prosesi kimi baxmışdır, məhsuldar əməyin bütün növlərinin dəyərin yaranması nöqteyi-nəzərindən əhəmiyyətə malik olmasını qəbul etmişdir. O, dəyərin kəmiyyətini əməyin miqdarı ilə ölçür və əmtəələrin mübadiləsinin ancaq onların istehsalına sərf olunan əməklə tənzimləndiyini göstərirdi. Smit yazırdı ki, hələ ibtidai zamanlarda müxtəlif şeylərin mübadiləsində ölçü rolunu oynayan ancaq əmək olmuşdur. O, əmtəə dəyərinin kəmiyyətinin əməyin miqdarından asılılığını bu cür şərh edir: "İki gün və ya iki saatlıq əməyin məhsulu olan bir şey, bir gün və ya bir saatlıq əməyin məhsulu olan şeydən iki dəfə çox dəyərə malik olacaqdır. . . hər şeyin həqiqi qiyməti həmin şeyi əldə etmək üçün lazım olan əməyin və ya gücün məsrəfindən ibarətdir".

A.Smit əmtəənin istehlak və mübadilə dəyəri anlayışlarını müəyyən etmiş və bir-birindən fərqləndirmişdi. Smit yazır: " ... dəyər sözünün iki müxtəlif mənası var: bəzən o hər hansı predmetin faydalılığını göstərir, bəzən isə müəyyən predmetə sahib olmaq

downloaded from KitabYurdu.az

üçün onun başqa predmetlə dəyişmə imkanı olması mənasını verir. Birincini istehlak dəyəri, ikincini mübadilə dəyəri adlandırmaq olar. (A.Smit, "Xalqların sərvəti", I cild, IY fəsil, səh.28, Moskva, 1935). O, əməyi, dəyərin yaradıcısı və ölçüsü olduğunu qəbul etməklə yanaşı, dəyərin mübadilə dəyərində, digər əmtəələrlə onun kəmiyyət nisbətində, inkişaf etmiş əmtəə təsərrüfatında isə pulda ifadə olunması qanunauyğunluğunu göstərirdi. Diqqətini mübadilə dəyərində, dəyərin kəmiyyət ölçüsünə verən Smit hesab edir ki, mübadilə dəyəri əmtəənin təbii qiymətidir, əmtəələrin mübadiləsi onlarda maddiləşmiş müxtəlif miqdarda əməyin mübadiləsidir. Ona görə də mübadilə dəyəri əməklə müəyyən olunur. Smit yazır: "Əmək bütün əmtəələrin mübadilə dəyərinin həqiqi ölçüsüdür". (A.Smit "Xalqların sərvəti", I cild, Y fəsil, səh.30). O göstərir ki, dəyərin kəmiyyəti ayrıca əmtəə istehsalçısının əmək məsrəfləri ilə yox, cəmiyyətin mövcud vəziyyətində orta zəruri məsrəflərlə müəyyən olunur. Smit qeyd edir ki, ixtisaslı və mürəkkəb əmək, ixtisassız və sadə əməklə müqayisədə vaxt vahidi ərzində daha çox dəyər yaradır.

Əməyin yalnız qızıl və gümüş istehsalı sahəsində dəyər yaratdığını düşünən U.Pettidən (1623-1687) fərqli olaraq, Smit qeyd edir ki, əmək bütün əmtəə istehsalı sahələrində dəyər yaradır, o, iş vaxtı ilə dəyərin həcmi arasındakı birbaşa əlaqəni aşkar etmiş və göstərmişdir ki, dəyərin yeganə yaradıcısı əməkdir.

A.Smit təsviri metoddan istifadə edərək dəyərin başqa bir nəzəriyyəsini də irəli sürmüşdür. O yazır: "hər əmtəənin dəyəri onun sahibi üçün, bu əmtəə ilə satın alına bilən əməyin miqdarına bərabərdir". Deməli, dəyər əmtəənin müqabilində alınan əməklə ölçülür. Smit yazır: " yeganə ümumi və eləcə də yeganə dəqiq dəyər ölçüsü əməkdir" (A.Smit "Xalqlar sərvəti", I cild, Y fəsil, səh.35, Moskva, 1935).

downloaded from KitabYurdu.az

A.Smit dəyər nəzəriyyəsinə verdiyi bu iki izahatdan başqa bu barədə bəzi digər fikirlər də söyləmişdir. Onun fikrincə, kapitalist təsərrüfatı şəraitində "fəhlələrin materialların dəyərinə əlavə etdikləri dəyərin özü də iki hissəyə bölünür, - biri onların əmək haqqının ödənilməsinə, digəri isə sahibkarın avans etdiyi bütün kapitala görə onun mənfəətinin ödənilməsinə yönəlir". (A.Smit, "Xalqların sərvəti", I cild, YI fəsil, səh.46, Moskva,1935) Bundan əlavə Smit dəyərin üçüncü tərkib hissəsi kimi rentanı nəzərdən keçirir və qeyd edir ki, kapitalizm şəraitində dəyər: əmək haqqı, mənfəət və rentaya bölünür.

Göründüyü kimi A.Smitin dəyər nəzəriyyəsində ziddiyyətli fikirlər vardır.

## §5. A.SMİTİN SİNİFLƏR VƏ GƏLİRLƏR BARƏDƏ FİKİRLƏRİ VƏ BUNLARLA ƏLAQƏDAR ONUN ƏMƏK HAQQI, MƏNFƏƏTVƏ RENTA NƏZƏRİYYƏSİ

A.Smit gəlirlər bölgüsünü "üç böyük sosial sinif" adlandırdığı: əməkçi sinfi, kapitalist sinfi və torpaq sahibləri sinfinin: əmək haqqı, mənfəət və renta adı verilən gəlir paylarını necə əldə etdiklərini təhlil etmiş və beləliklə "klassik bölgü nəzəriyyəsi"nin əsaslarını müəyyənləşdirmişdir. "Hər bir ölkədə torpaq və əməyin bütün illik məhsulu yaxud da bu illik məhsulun bütün qiyməti deyildiyi kimi təbii olaraq üç hissəyə: torpaq rentasına, əməyin əmək haqqına və kapitalın mənfəətinə bölünür və xalqın üç müxtəlif sinfinin gəlirlərini təşkil edir". (A.Smit, "Xalqların sərvəti", I cild, səh.220, Moskva, 1935).

A.Smit adamları istehsal vasitələrinə görə siniflərə bölmüşdü. O, İngiltərə cəmiyyətində üç əsas sinfin: torpağa sahib olan torpaq mülkiyyətçilərinin, digər növ istehsal vasitələrinə yəni əmək

downloaded from KitabYurdu.az

alətlərinə, sənaye qurğularına və əmək cisimlərinə sahib olan kapitalistlərin və iş qüvvəsinə sahib olan fəhlələr sinfinin olduğunu qeyd edir. Bu əsas siniflərlə yanaşı cəmiyyətdə ara qrupların və təbəqələrin də olduğunu göstərir və əsas sinifləri və digər qrupları bir-birindən, onların gəlirlərinin əsas, ilkin və törəmə olmasına görə fərqləndirir.

Gəlirin üç əsas növünü: əmək haqqı, mənfəət və rentanı qəbul edən Smit, bunları bir-birindən fərqləndirir. O, hesab edir ki, üç gəlirdən yalnız əmək haqqı əmək gəliridir, mənfəət və torpaq rentası isə fəhlənin əməyi ilə yaradılan əmək məhsulundan çıxmadır. Smit öz dahi əsərinin heç bir yerində kapital sahibinin mənfəət əldə etməyə və torpaq sahibinin də renta gəliri əldə etməyə haqqı olduğunu rədd etməmişdir, əksinə bu prosesə təbii bir hal kimi baxmışdır. Bu halı o, istehsal vasitələrinin və torpağın xüsusi mülkiyyətə çevrilməsi və onun inhisarı ilə əlaqələndirmişdir. Bununla yanaşı Smit iri torpaq sahibkarlığının əleyhdarı olmuş və torpaqların parçalanmasına (bölünməsinə) mane olan qanunların ləğv edilməsini tələb etmişdir. Torpaqları, onlardan daha səmərəli istifadə etməyi bacaran sahibkarların sərəncamına verməyi təklif etmişdir.

Fəhlənin gəliri olan əmək haqqı Smitə görə əməyin təbii qiymətidir, onun işinin mükafatlandırılmasıdır. O, əmək haqqının kəmiyyətini fəhlənin və onun ailəsi üçün zəruri olan yaşayış vasitələri dəyəri ilə müəyyən edir. Smit hesab edir ki, əmək haqqı insanın yaşaması üçün kifayət edən səviyyədən bir qədər yüksək olmalıdır; əmək haqqı özündə tarixi və mədəni ünsürləri də əks etdirməlidir. Onun fikrinə görə kortəbii bazar mexanizmi təbii əmək haqqını müəyyən səviyyədə saxlayır. A.Smitin "bazarlıq nəzəriyyəsi"nə görə "hər yerdə əmək haqqı və mənfəətlər bir-birindən fərqli olan iki tərəf arasındakı razılaşmaya dayanır... Bu iki tərəfdən hansının normal şəraitlərdə daha üstün vəziyyətdə

downloaded from KitabYurdu.az

olduğunu və digər tərəfi öz şərtlərini qəbul etməyə məcbur edəcəyini əvvəlcədən müəyyənləşdirmək çətin deyildir". Smitin "yaşayış üçün minimum əmək haqqı" adını verdiyi və işçi ilə ailəsinin yaşayışına yetəcək bu əmək haqqı səviyyəsi uzun dövrdə əmək haqqının düşəcəyi minimum səviyyəni göstərir. O, əmək haqqının dəyişmə meylini ölkənin təsərrüfat vəziyyəti ilə əlaqələndirir və cəmiyyətin üç vəziyyətini qeyd edirdi: 1. İqtisadi tərəqqi, 2. İqtisadi sabitlik, 3.İqtisadi tənəzzül. Smitə görə yüksək əmək haqqı tərəqqiyə işarədir, çünki bu, əmək məhsuldarlığının artması üçün stimul rolunu oynayır. O, əmək haqqının artımının əməyə stimulu azaldacağı və fəhlələri tənbəl edəcəyi fikrinə qarşı çıxış edirdi. O, xalqın əsas hissəsinin muzdlu fəhlələrdən ibarət olduğunu bildirərək yazırdı: "Əgər cəmiyyətin böyük bir hissəsi kasıb və bədbəxtdirsə, o, heç bir zaman xoşbəxt adlandırıla bilməz. Bundan başqa, bütün xalqı yedizdirən, geyindirən, yaşayışla təmin edən insanların (yəni fəhlələrin q.m.) dilənçi halında yaşamaları ən azından ədalətsizlikdir və onlar heç olmazsa orta yaşayışları üçün lazım olan vasitələrlə təmin olunmalıdırlar". Smit fəhlələrin yoxsulluğunun burjuaziyaya da ziyan vurduğunu izah etməyə çalışmış və əmək haqqının mənfəətə toxunmadan artırılmasının mümkünlüyünü qeyd etmişdi; və əməyə tələbin əmək haqqı fondunun böyüklüyü ilə bağlılığını göstərmişdir.

Smit əmək haqqı səviyyəsi ilə əhalinin artımı arasındakı əlaqəni də təhlil etmişdir, ona görə "hər canlı növünün artımı, onun yaşayışı üçün mövcud olan vasitələrlə düz mütənasibdir".

Burjuaziyanı mütərəqqi sinif edən Smit onun mənafeyini müdafiə edir və onlara cəmiyyəti tərəqqi etdirən və millətin sərvətini artıranlar kimi baxır və bununla yanaşı onların bəzilərinin mənfəətləri artdıqca amansızlaşmasını, cəmiyyətin mənafeyinə qarşı mənfi hərəkətlər etməsini tənqid edir. Sənayeçilər və tacirlər daim azad rəqabəti boğmağa, məhdudlaşdırmağa, cəmiyyət üçün zərərli

downloaded from KitabYurdu.az

olan inhisar yaratmağa çalışdıqlarını tənqid edir. Bununla belə Smit son nəticədə kapitalizmə təbii və əbədi cəmiyyət kimi baxır.

A.Smit mənfəət anlayışını ictimai əməyin bütün sferalarına şamil edir. Yuxarıda qeyd edildiyi kimi Smitə görə fəhlələrin materialların dəyərinə əlavə etdikləri dəyər iki hissəyə bölünür: bunun bir hissəsi ilə əmək haqqı ödənilir, digər hissəsini isə sahibkar qoyduğu kapitala görə mənfəət şəklində mənimsəyir. Deməli Smit mənfəətə bütün avans olunmuş kapitalın törəməsi kimi baxmışdı. A.Smit yazır: "mənfəət ümumiyyətlə işdə istifadə olunan kapitalın dəyəri ilə müəyyən olunur, bu kapitalın həcmindən asılı olaraq az və ya çox ola bilər". (Smit, "Xalqların sərvəti", I cild, YI fəsil, səh.46, Moskva, 1935). O, mənfəəti kapitalın özünün və onun məhsuldarlığının qanunauyğun nəticəsi kimi qiymətləndirmişdi.

A.Smit yazır: "Ayrı-ayrı şəxslərin əlində yığılan ehtiyatlar meydana gəldikdə təbiidir ki, onların bəziləri həmin ehtiyatlardan dərhal istifadə etməyə başlayır, əmək sevən adamlara iş verir, onları materialla və yaşayış vasitələri ilə təchiz edirlər ki, emal olunan materialların dəyərinə bu fəhlələrin əməyinin əlavə etdiyi şeydən mənfəət götürsünlər. Fəhlələrin əməyi ilə yaradılan məhsulun bir hissəsini, yaxud emal etdikləri materiala öz əmələri ilə əlavə etdikləri dəyərin bir hissəsini bu sahibkar əldə etməlidir; sahibkarın mənfəətini məhz bu hissə təşkil edir". Bununla yanaşı o qeyd edir ki, mənfəət kapitalistin kapitala görə aldığı haqqdır, onun yaşayış fondudur. Smit yazır ki, "Kapital sahibi istehsal etdiyi məhsulun satışından, sərf etdiyi kapitalları ödəmək üçün lazım olan məbləğdən artıq pul əldə edə bilməzsə, onun fəhlə tutmağa marağı olmaz. Mənfəət kapitalistin yaşaması (və istehsalını davam etdirməsi, q.m.) üçün lazım olan vəsaiti təmin edən həqiqi bir fonddur".

downloaded from KitabYurdu.az

A.Smit mənfəətin əmək haqqının digər forması kimi elan edilməsinə qarşı çıxmış və göstərmişdirki, mənfəətin kəmiyyəti kapitalın miqdarı ilə müəyyən edilir və bu əməyin güman edilən həcmi və mürəkkəbliyi ilə bağlı deyil.

Mənfəət normasının və faizin aşağı səviyyəsini yüksək iqtisadi inkişafın və millətin sağlamlığının göstəricisi kimi xarakterizə edən Smit göstərir ki, varlı ölkələrdə rəqabətin artması nəticəsində mənfəət normasının aşağı düşmə meyli olur. A.Smit qeyd edirdi ki, kapitalist təsərrüfatının əsas məqsədi mənfəət əldə etməkdir və bu proses bütün cəmiyyətin mənafeyinə uyğundur, çünki şəxsi mənafeyi güdmək son nəticədə bütün cəmiyyət üçün xeyirli olur.

A.Smit yazırdı: "Onların maraqları həmişə bir çox münasibətlərdə cəmiyyətin mənafeyi ilə eyni olur. Lakin bəzən ziddiyyət də təşkil edir".

Torpaq rentasını - Smit torpaqda işləyənin əmək məhsulundan çıxma kimi elan etmiş və onda inhisar elementi görürdü. O yazırdı: "Bu və ya digər ölkədə bütün torpaqlar xüsusi mülkiyyətə çevrildiyi vaxtdan torpaq mülkiyyətçiləri də, bütün başqa adamlar kimi əkmədikləri yerdə biçmək istəyirlər və hətta torpağın təbii bəhrələri üçün də renta tələb etməyə başlayırlar... işçi öz əməyi ilə yığdığının və istehsal etdiyinin bir hissəsini və ya bu hissənin qiymətini torpaq mülkiyyətçisinə güzəştə getməlidir. Bu hissə- torpaq rentasını təşkil edir". (A.Smit, "Xalqların sərvəti". I cild, YI fəsil, səh.47, Moskva 1935).

O, torpaq sahələrinin məhsuldarlığına və yerləşmə məkanına görə bir-birindən fərqləndiyini qeyd edərək, bildirirdi ki, bunların hər ikisi rentanın formalaşmasına təsir edir. O, "millətlərin zənginliyi" əsərində differensial rentaya aid fikirlər söyləmişdir. O yazırdı: "Daha münbit və ya bazarlara daha yaxın olan torpaqlar artıq renta verirlər. Torpaq rentası nəinki torpağın... yalnız münbitliyindən,

downloaded from KitabYurdu.az

habelə onun məkanından da asılı olaraq dəyişir. Şəhər yaxınlığındakı torpaqlar, ölkənin uzaq yerlərindəki eyni dərəcədə münbit torpaqlardan daha artıq renta verir"

Rentaya gəlirin müəyyən forması kimi baxan Smit daha sonra yazırdı: "Torpaq xüsusi mülkiyyətə çevrildikdə, torpaq mülkiyyətçisi, işçinin həmin torpaqda yetişdirə və ya toplaya bildiyi mühsulun demək olar hamısından özünə dərhal müəyyən bir pay tələb edir, onun rentası torpağın becərilməsinə sərf edilmiş əməyin məhsulundan birinci növbədə çıxılmalıdır". Rentaya "müxtəlifdən yaranan" bir qazanc kimi də baxan Smit onu torpaq sahibinin təbii mükafatı da adlandırırdı. Deməli, Smitin renta nəzəriyyəsində fiziokratik elementlər də vardır. O göstərir ki, kənd təsərrüfatında təbiət də insanla işləyir və ona görə də renta- əkinçilikdə təbiətin insana köməyinin nəticəsidir. Deyilənlərdən aydın olur ki, Smitin renta nəzəriyyəsində müəyyən ziddiyyətli məqamlar olsa da, dəyərli fikirlər də çoxdur. O, əkinçiliyi kapital qoyuluşu üçün ən sərfəli sahə hesab edərək göstərirdi ki, kənd təsərrüfatı böyük miqdarda məhsuldar qüvvəni hərəkətə gətirir və illik məhsula daha çox dəyər əlavə edir.

## §6. A.SMİTİN KAPİTAL VƏ TƏKRAR İSTEHSAL HAQQINDA TƏLİMİ

A.Smitə görə kapital toplanmış və maddiləşmiş əməkdir. O, kapitalın təhlilini bütün maddi istehsal dairəsinə şamil edirdi.

Smitə görə "bütün kapital qənaətin nəticəsidir, kapital qənaətlə artar, israf və pis istifadə ilə azalar". Kapitalı təbii bir kateqoriya kimi təsvir edən Smit mənfəət gətirən hər bir şeyi kapital hesab edir. Onun fikrincə kapital, istehsala başlamaq və gələcəkdə onu davam etdirmək üçün lazım olan alətlərin, xammalın, yaşayış vasitələrinin

downloaded from KitabYurdu.az

və pulun toplanmış ehtiyatıdır. Smitə görə kapital bəşər cəmiyyətinin müəyyən inkişaf mərhələsində meydana gəldikdən sonra o həmişə mövcud olmuşdur və əbədi olaraq mövcud olacaqdır; çünki belə bir ehtiyat olmadan heç bir istehsal mümkün deyil. Fiziokratlar yalnız kənd təsərrüfatında fəaliyyət göstərən kapitalı məhsuldar hesab edirdilərsə, A.Smit bütün növ kapitalı birləşdirir və hamısını məhsuldar hesab edir, o sənaye və ticarət kapitalı arasında mühüm fərq görmür.

A.Smitin mühüm xidmətlərindən biri, onun əsas və dövriyyə kapitalı anlayışlarını inkişaf etdirməsi və bu kateqoriyaları tətbiq olunduğu sahədən asılı olmayaraq bütün fəaliyyət göstərən kapitala şamil etməsidir. O, əsas və dövriyyə kapitalı haqda yazmışdır: "Onun kapitalı (yəni sahibkarın kapitalı q.m.) müəyyən bir formada daima ondan uzaqlaşıb və sonra başqa formada ona qayıdır və yalnız bu cür, tədavüllə yaxud daimi mübadilə ilə sahibinə müəyyən mənfəət gətirir. Bu cür kapitalı dövriyyə kapitalı adlandırmaq tamamilə düzgün olar.

İkinci tərəfdən, kapital torpağın yaxşılaşdırılmasına, faydalı maşın və alətlərin və ya buna bənzər predmetlərin alınmasına sərf edilə bilər ki, bu da sahibkardan başqasına keçmədən və ya tədavülə daxil olmadan gəlir və ya mənfəət gətirir, ona görə belə kapitalı qanuni olaraq əsas kapital adlandırmaq olar. (A.Smitin əsəri, I cild, səh.232, Moskva 1935).

Bu barədə şəhrini davam etdirərək A.Smit yazır: "Fermerin kapitalının torpağı becərmə alətlərinə sərf edilən hissəsi əsas kapital, əmək haqqı və fəhlələrin saxlanılmasına sərf edilən hissəsi isə dövriyyə kapitalıdır. İş heyvanlarının qiyməti və ya dəyəri, onun təsərrüfat alətlərinin qiyməti kimi əsas kapital, heyvanların saxlanmasına sərf edilən yem isə, fəhlələrin saxlanmasına sərf edilən vəsait kimi dövriyyə kapitalıdır. Həmçinin iş üçün yox, satış

downloaded from KitabYurdu.az

üçün alınan və yemlənən heyvanların qiymət və dəyəri dövriyyə kapitalıdır", "Tacir kapitalı tamamilə dövriyyə kapitalıdır". (A.Smitin əsəri, I cild, səh.232, M.1935).

A.Smit qeyd edir ki, "əsas kapital ilk olaraq dövriyyə kapitalından meydana gəlib və bu mənbə hesabına daima tamamlanır və ən faydalı maşın və alət, dövriyyə kapitalsız heç nə istehsal edə bilməz. Ona görə istehsalla məşğul olan hər bir sahibkarın kapitalı mütləq iki yerə: əsas və dövriyyə kapitalına bölünür". (A.Smitin əsəri, I cild, səh.235, 243, M.1935)

Beləliklə, Smit dövriyyə kapitalı dedikdə əsasən pulu, qida ehtiyatlarını, xammalı, hazır olan, lakin hələ satılmayan əmtəələri nəzərdə tutduğu halda, maşınları və əmək alətlərini, ticarət və sənaye məqsədləri üçün tikilən binaları, torpağı və cəmiyyətin bütün üzvlərinin qabiliyyət və bacarığını əsas kapital kimi nəzərdən keçirir.

Əsas kapitalla, dövriyyə kapitalı arasındakı əlaqəni Smit onda görür ki, birincisi, yəni əsas kapital yalnız ikincisinin, yəni, dövriyyə kapitalının köməyi və iştirakı ilə fəaliyyət göstərə və mənfəət gətirə bilər.

Əsas kapital "bir sahibdən digərinə keçmədən yaxud da, sonrakı tədavülsüz gəlir gətirdiyi halda dövriyyə kapitalı daim bir formada gedib, digər formada qayıdaraq" gəlir gətirir.

A.Smit kapital yığımına böyük əhəmiyyət vermiş və qeyd etmişdir ki, kapitalistlər özlərinin gəlirlərinin mühüm hissəsinə qənaət edərək yığdıqları vəsaitləri istehsalın genişləndirilməsinə sərf edirlər, fəhlələr üçün əlavə iş yerləri açırlar və son nəticədə cəmiyyətin sərvətinin artırılmasına səbəb olurlar.

A.Smit dəfələrlə göstərmişdir ki, yığım millətin sərvətinin artırılması mənbəyidir; yığımla, qənaətlə məşğul olan hər bir insan millətin xeyirxahıdır, hər bir israfçı isə ictimai rifahın düşmənidir.

downloaded from KitabYurdu.az

Smitin fikrincə kapitalist qənaətçilliyi istehsalatda çalışan fəhlələrin təminatı və məhsuldar fəhlələrin sayının çoxaldılmasını nəzərdə tutan fondun artmasına səbəb olur.

A.Smit kapital yığımının ölkənin iqtisadi prosesləri ilə sıx əlaqədə olduğunu göstərmişdir. O, ictimai kapitalın təkrar istehsalı prosesini tədqiq edərkən ümumi gəlirlə xalis gəlirin fərqini qeyd etmişdir.

Ümumi və xalis gəlir anlayışlarını irəli sürən Smit, ölkənin əhalisinin bütün illik məhsulunu ümumi gəlir, bunun fəhlənin və kapitalistin şəxsi istehlakına gedən hissəsini isə xalis gəlir adlandırır.

Smitə görə xalis gəlir – bu milli gəlirdir, il ərzində əməyin yenidən yaratdığı dəyərdir. Burada sovet iqtisadçıları aydın olmayan cəhəti onda görürdülər ki, Smit xalis gəliri şəxsi istehlak fondu kimi şərh edir, onun istehsalın genişləndirilməsinə gedəcək hissəsini yada gətirmir.

Lakin Smitin iqtisadi təhlillərinə dərindən diqqət yetirdikdə aydın olur ki, elə Smitin dövründə kapitalistlər öz şəxsi yığımları hesabına nəinki sadə təkrar istehsalı, habelə geniş təkrar istehsalı da həyata keçirə bilmişlər. Onun ideyalarından bəhrələnən kapitalizm cəmiyyəti sonrakı inkişaf dövründə də geniş təkrar istehsalla tərəqqi etmişdir.

Smit dəfələrlə qeyd etmişdir ki, ayrıca bir əmtəənin dəyəri və eləcə də illik məhsul – əmək haqqı, mənfəət və renta kimi gəlirdən ibarətdir. İstehsal vasitələrinin dəyərinin keçirilməsi məsələsini Smit belə həll edir; istehsal vasitələrinin dəyəri son nəticədə əmək haqqı, mənfəət və rentada öz əksini tapır. Smitə görə cəmiyyətin illik məhsulunun dəyəri yalnız gəlirlərdən ibarət olur.

downloaded from KitabYurdu.az

Beləliklə ictimai kapitalın təkrar istehsalının təhlilində sovet iqtisadçılarına görə sabit kapital A.Smit tərəfindən nəzərdən qaçırılmış olur.

İctimai məcmu məhsulun təhlilindən sabit kapitalın çıxarılmasını K.Marks "Smitin ehkamı" adlandırırdı.

## §7. A.SMİT MƏHSULDAR VƏ QEYRİ-MƏHSULDAR ƏMƏK HAQQINDA

A.Smitin məhsuldar əmək haqqında təlimi bu gün də öz elmi əhəmiyyətini saxlayır. Smit hansı növ əməyin "Millətin sərvətinin" artırılmasına xidmət etdiyini aydınlaşdırmışdır. Dəyər yaradan əməyi Smit məhsuldar əmək hesab etmişdir. Onun fikrincə məhsuldar o əməkdir  ki, onun alınmasına kapital sərf olunur və istehsal prosesində yeni dəyər yaradır. Gəlirlərdən ödənilən əmək isə qeyri-məhsuldardır.

İkinci tərifə görə məhsuldar əmək faydalı bir şeydə təcəssüm etməlidir. Smitə görə kapitalist istehsalının bütün sahələrində tətbiq olunan əmək məhsuldardır.

A.Smit yazır: "Sərf olunan bir növ əmək, predmetin dəyərini artırır, başqa növ əmək belə nəticə vermir. Birincisi, necə ki, müəyyən dəyər istehsal edir, o, məhsuldar əmək adlandırıla bilər, ikincisi isə qeyri-məhsuldar adlanır. Beləliklə, manufaktura fəhləsi adətən üzərində işlədiyi materialın dəyərini öz əməyi ilə artırır, bu artım onun özünün saxlanması və sahibkarın mənfəətini ödəməlidir: ev qulluqçusunun əməyi isə dəyərə heç bir şey əlavə etmir. Onun xidməti elə xidmət göstərdiyi anda yoxa çıxır, çox təsadüf hallarda özündən sonra iz, yaxud hər hansı bir dəyər qoya bilir". (A.Smitin əsəri, I cild, IY fəsil, səh.278-279, M.1935)

downloaded from KitabYurdu.az

Beləliklə, Smit belə nəticəyə gəlir ki, məhsuldar işçi tutan adam varlanır, qulluqçu tutan adam isə kasıblaşır. A.Smit nəinki ev qulluqçularının habelə bürokratik idarə məmurlarının da azaldılmasının tərəfdarı olmuşdur.

Smit yazır ki, "cəmiyyətin bəzi ən möhtərəm silklərinin əməyi ev qulluqçularının əməyi kimi, heç bir dəyər yaratmır... Məsələn, hökmdar, onun bütün məmurları və zabitləri, bütün ordu və donanma qeyri-məhsuldar işçilərdir. A.Smit, keşişlər, hüquqşünaslar, həkimlər, hər cür qəbildən olan yazıçılar, aktyorlar, klounlar, musiqiçilər, opera müğənniləri, rəqqaslar və s. bu qəbildən olanların hamısının əməyini qeyri-məhsuldar əmək hesab etmişdir.

Smitin məntiqinə görə cəmiyyətdə qeyri-məhsuldar işçilərin və tamam işləməyənlərin sayı nə qədər azdırsa, onun sərvəti bir o qədər sürətlə artar.

Smitə görə hər adam başına düşən milli gəliri müəyyənləşdirən amil ikidir: birincisi, əməyin məhsuldarlığı, ikincisi, məhsuldar əməyin qeyri-məhsuldar əməyə nisbətidir.

A.Smit məhsuldar və qeyri-məhsuldar əməyi fiziki əmtəə istehsal edib və etmədiyinə görə də fərqləndirir. Ona görə bəzi əmək "satıla bilən bir əmtəə" istehsal edir və özünü bu əmtəədə maddiləşdirir. Bu cür əmək, məhsuldar əmək olaraq qəbul edilir, başqa bir cür əmək "özünü əmək istifadəsi bitdikdən sonra davam edəcək və bərabər miqdarda bir əməyi satın ala biləcək hər hansı bir malda (əmtəədə) maddiləşmir", bu cür əmək, məhsuldar olmayan əmək olaraq qəbul edilir.

Bəzi məsələlərdə fiziokratlara qatılan Smit kənd təsərrüfatında təbiətin də əməklə birlikdə bir artıq dəyər istehsalında iştirakını qəbul edir. Aqrar sahədə istifadə olunan kapitalın digər sahələrdə istifadə olunan kapitala nisbətən daha məhsuldar olacağını deyən Smit yazır: "Bu səbəblə, aqrar sahədə istifadə olunan kapital sadəcə

downloaded from KitabYurdu.az

çox sayda məhsuldar işçiləri cəlb etməklə, ölkədə yaşayanların real sərvətinə və gəlirinə çox böyük dəyər əlavə edirlər".

Əlbəttə qısa tədris vəsaiti çərçivəsində A.Smit kimi dahinin bütün deyimlərini və fikirlərini əhatə etmək mümkün deyil, o öz əsərləri ilə XYIII əsr ictimai fikrinin ən yüksək zirvəsinə yüksəlmiş şəxsiyyət olmuşdur.

# FƏSİL 9. D.RİKARDONUN İQTİSADİ TƏLİMİ

## §.1 D.RİKARDONUN BAXIŞLARININ FORMALAŞMASININ TARİXİ ŞƏRAİTİ

Klassik siyasi iqtisadın inkişafında D.Rikardonun rolu diqqətəlayiqdir və həm də bu məktəb onun şəxsində başa çatır. Rikardonun rolu onunla izah olunmur ki, o, öz təhlilini sona çatdırır, tamamlayır yaxud da ondan sonra iqtisadçılar arasında kifayət qədər qabiliyyətli və ya hazırlıqlı insanlar olmamışdır. Bu rol dərin səbəblərlə izah olunur və ona şahidlik verir ki, klassik siyasi iqtisadın inkişafı burjua sinfinin iqtisadi təfəkkür forması kimi bir tərəfdən obyektiv sosial-iqtisadi qanunlara, digər tərəfdən burjua

downloaded from KitabYurdu.az

sinfinin onunla sıx bağlı olan iqtisadi baxışlarının qanunauyğunluğuna tabe olur. Bu hal əsasən XYIII əsrin sonu və XX əsrin əvvəllərində sənaye inqilabının təsiri altında burjua cəmiyyətində baş verən sosial-iqtisadi dəyişikliklərlə müəyyən olunur.

Bu dövrdə İngiltərə müharibələrlə rastlaşmış, Napoleonun ingilis ticarətini boğmağa ümid bəslədiyi qitə mühasirəsi parçalanmış olsa da onun varlanmağına maneçilik törətmişdir. İngiltərə sənaye inqilabı dövrünü yaşayırdı. Kapitalizm manufaktura mərhələsindən maşın sənaye mərhələsinə qədəm qoymuşdu. Kustar emalatxanaların yerini yüzlərlə adamın işlədiyi fabriklər tutmağa başlamışdı.

İngiltərənin kənd təsərrüfatı dəyişirdi. Xırda müstəqil kəndli təsərrüfatları və ya icarə torpaqları öz yerini iri torpaq sahibkarlığına və kapitalist icarəçi fermerlərin təsərrüfatına verirdi. Bu zaman fəhlələrin yaranmaqda olan hər cür birlik və ittifaqları qadağan edilir və qiyamçılıq kimi nəzərdən keçirilirdi. Fəhlə sinfi zəif idi və mütəşəkkil deyildi. Torpaq sahiblərinin hərəkətləri isə burjuaziyanın mənafeyi üçün təhlükə yarada bilirdi. Taxılın qiymətinin artması onlar üçün torpaq rentasının artmasına səbəb olurdu və bu da parlamentdən taxıl qanunlarının qəbul edilməsinə zərurət yaradırdı. Qəbul edilmiş qərarlar xarici ölkə taxılının İngiltərəyə gətirilməsini məhdudlaşdırdığı üçün taxılın qiymətinin yüksək olmasının davam etdirilməsinə kömək göstərirdi. Fabrikçilər üçün isə bu faydalı deyildi. Belə ki, bunun əvəzində fəhlələrə pulla daha yüksək əmək haqqı verilməsini tələb edirdi. Taxıl qanunları sahəsində mübarizə XIX əsrin bütün birinci yarısında İngiltərənin siyasi həyatının mühüm sahəsi idi və iqtisadçıların, xüsusilə Rikardonun nəzəri mövqelərini xeyli dərəcədə müəyyən edirdi. Rikardonun təliminin təşəkkül tapdığı və ingilis klassik məktəbinin özünün zirvəsinə çatdığı tarixi

downloaded from KitabYurdu.az

şərait belə idi. Bu şərait Rikardonun nə üçün köklü sosial-iqtisadi problemləri böyük elmi obyektivliklə, qərəzsizliklə təhlil edə bilməsini qismən də olsa aydınlaşdırmış olur.

Klassik siyasi iqtisadın görkəmli nümayəndəsi David ailənin 17 uşağından üçüncüsü olmaqla 1772-ci ilin aprel ayında Londonda anadan olmuş, adi ibtidai məktəbdə oxumuş, sonra isə iki illiyə Amsterdama göndərilmişdir ki, burada da öz dayısının kontorunda ticarətin sirlərini öyrənməyə başlamışdır. 14 yaşında onun müntəzəm təhsili başa çatmışdır. 16 yaşında David kontor və birjada atasının ən yaxın köməkçisi olmuşdur. 21 yaşında ailə qurmuş və onun səkkiz uşağı olmuşdur.

O, birja alış-verişindən başqa digər bir iş tanımır və bu işlə atasının köməkçisi kimi yox, artıq müstəqil olaraq məşğul olurdu. Beş il müddətində o, artıq varlı idi və böyük əməliyyətlarla məşğul olurdu. 26 yaşında Rikardo maliyyə cəhətdən müstəqilliyə və hətta müəyyən sərvətə nail olmuş bir adam kimi gözlənilmədən təbii elmlərə, o cümlədən təbiətşünaslıq və riyaziyyata müraciət edir. Onun təfəkkürü ciddi, demək olar ki, riyazi məntiqiliklə, dəqiqliklə fərqlənirdi. Bu vaxt Rikardo ilk dəfə olaraq bir elm kimi siyasi iqtisadla üz üzə gəlir. Bu zaman siyasi iqtisadda bütünlüklə Adam Smit hökmran idi və gənc Rikardo onun təsiri altına düşməyə bilməzdi. Bununla yanaşı Maltus ona güclü təsir bağışlamışdır. Bir qədər sonra Londonda sosial-iqtisadi məsələlər üzrə kəskin publisist və yazıçı gənc şotlandiyalı olan Cems Mill meydana çıxır. Rikardo onunla tanış olur və bu tanışlıq tezliklə dostluğa çevrilir.

İlk illərdə Mill Rikardoya hami tərbiyəçi rolunu oynamış, onu ilk əsərlərini yazmağa vadar etmişdir. Rikardonun əsas əsərləri çapdan çıxdıqdan sonra Mill özünü onun şagirdi və davamçısı elan etmişdir.

David Rikardo elm aləmində ilk dəfə öz diqqətini pul tədavülü problemləri üzərində cəmləşdirir. 1809-cu ildə o "Qızılın qiyməti"

downloaded from KitabYurdu.az

adlı anonim məqalə ilə çıxış edir və bu bir sıra imtinalara səbəb olur. Onlara cavab verməklə Rikardo öz mövqeyini yaradır və "Külçənin yüksək qiyməti- banknotların ucuzlaşmasına sübutdur" adlı broşüra buraxır. Bundan sonra banknotların bilavasitə qızıla dəyişdirilməsinin məhdudlaşdırılması ilə əlaqədar qəbul edilmiş qanun İngilis banklarından qızılın sürətlə azalmasına, banknotların isə qiymətdən düşməsinə səbəb olduğu üçün Rikardo yaranmış mübahisələrin mərkəzində durur. Nəticədə parlament komitəsi yaradılır və Rikardo həmin komitəyə seçilir. Komitədə etdiyi çıxış banknotun qiymətdən düşməsini elan edən qərarın qəbul edilməsinə səbəb olur.

1811-ci ildə Rikardo "Komitetdə külçə haqqında" çıxışa "Bozanketin praktik iradlarına cavab" adlı işlə, 1916-cı ildə "Xarici çörəyin idxalının məhdudlaşdırılması siyasətinə baxışların əsasları" adlı Maltusun işinə qarşı çıxır və 1916-cı ildə isə "Qənaətli və sabit pul dövriyyəsinin xeyrinə təkliflər" məqaləsini yazır.

Bu işləri ilə o, İngiltərədə pul tədavülünün sağlamlaşdırılması uğrunda ciddi mübarizə aparır və dövlət borcunu idarəetməklə qazanc götürən İngiltərə bankını (ingilis hökuməti emissiya və kredit əməliyyatlarını bu səhmdar cəmiyyətə həvalə etmişdir) kəskin tənqid edir.

Nəhayət, 1817-ci ildə Rikardo özünün iqtisadi təliminin əsaslarını əks etdirən "Siyasi iqtisadın və vergi qoyulmasının əsasları" adlı sanballı elmi əsəri ilə çıxış etmişdir.

1819-cu ildə Rikardo parlamentə seçilir. Özünün parlament fəaliyyətində "Dictionary of National Biography" adlı Rikardonun tərcümeyi-halının müəllifi Lesli Stefan yazır ki, o, həmin dövrün radikal partiyalarının siyasəti ilə demək olar ki, sözsüz razılaşır... hər cür dini təqibləri kəskin tənqid edir, çörək qanunlarına, sələmçilik haqqında qanunlara, ümumiyyətlə, göstəriş və məhdudiyyətlərə qarşı çıxırdı. Rikardo siyasətçi kimi radikal olmuş, çörək

downloaded from KitabYurdu.az

qanunlarının əksinə çıxmış, ticarət azadlığı, koalisiya, fəhlə ittifaqı və parlament islahatı uğrunda mübarizə aparmışdır. Rikardo özü sənaye burjuaziyasının mənafeyini müdafiə etmişdir. Bununla yanaşı, o, dövlət azadlıqlarının məhdudluğundan da öz şikayətlərini gizlətmir və göstərir ki, palatada mənə göstərilən hörmətə baxmayaraq çox müdrikliklə, sağlam ehtiyatlılıqla, sakitcə səs verməklə qənaətlənməli olurdum. Rikardo elmdə qərəzsiz və məlum olduğu kimi özünə tənqidi yanaşma qabiliyyətinə malik olmuşdur. O məhsuldar qüvvələri inkişaf etdirməklə kapitalizmə, kapitalist istehsal üsuluna, ümumiyyətlə, istehsal üçün ən əlverişli üsul kimi baxmışdır.

Adam Smit və David Rikardo yaşadıqları dövr etibarilə feodal cəmiyyətinin qalıqlarına qarşı mübarizəyə təsadüf etməklə məhsuldar qüvvələri artırmaqla sənaye və ticarətə yeni təkan vermək, burjua istehsal münasibətləri şəraitində sərvətin əldə edilməsini aydınlaşdırmaq, bu münasibətləri kateqoriya və qanunlar şəklində şərh etmək, bununlada bu qanun və kateqoriyaların sərvət əldə edilməsi işində feodal qanun və kateqoriyalarından yüksəkdə durduğunu göstərmək zəruri idi.

## § 2. D.RİKARDONUN İQTİSADİ SİSTEMİ VƏ METODU

Rikardo ingilis klassik siyasi iqtisadının sonuncu nümayəndəsi olmaqla onun iqtisadi sistemi Smitin sistemindən fərqli olaraq özünün nisbətən tamlığı, bütövlüyü, məntiqi quruluşu, ardıcıllığı ilə xarakterizə olunur. Xarici formasına görə Rikardonun sistemi bir çox

downloaded from KitabYurdu.az

hallarda Smitin, hətta Tyurqonun sistemindən fərqlənir. Lakin Rikardonun əsərində kompozisiya uyğunluğu baxımından ciddi bir monizm, bir ümumi prinsip baxımından dərin vəhdətlik gizlənmişdir. Əsərinin ilk fəsillərindən görünür ki, Rikardonun bütün sistemi dəyərin əməklə müəyyən olunması prinsipinə köklənir. Onun təlimində iqtisadi nəzəriyyənin dövrün gündəlik məsələləri ilə sıx əlaqələndirilməsi və tədqiqatının vahid ümumi konsepsiya əsasında qurması ən mühüm xüsusiyyətdir. Rikardo iqtisadiyyatı mürəkkəb bir sistem kimi tədqiq edir və burada obyektiv iqtisadi qanunların fəaliyyətini qəbul edir. Bununla yanaşı, bu qanunların fəaliyyətini təmin edən mexanizmlərin mövcudluğunu göstərmiş olur. İqtisadi siyasət məsələsində dövlətin iqtisadiyyata nüfuzunun məhdudlaşdırılması və azad rəqabət tərəfdarı kimi çıxış edir. Rikardo kapitalist təsərrüfatının fəaliyyət mexanizminin öyrənilməsi üzrə Smitin işini davam etdirir. Mövcud siyasi iqtisadın ənənələrinə uyğun olaraq təsərrüfatın inkişafının hərəkətverici qüvvəsini şəxsi maraq və xüsusi sahibkarlıq hesab edir. Məhsuldar qüvvələrin inkişafına böyük əhəmiyyət verir və sahibkarlığın rolunu bu vəzifənin həyata keçirilməsində görür. Bu baxımdan sənaye burjuaziyasının mənafeyini müdafiə edir və başqa siniflərdən üstün tutur.

Rikardonun tədqiqat metodu ilə əlaqədar göstərmək olar ki, o, öz sisteminin əsasını siyasi iqtisadın əmək-dəyər kateqoriyasına qoymaqla deduksiyanı tətbiq edir. O hər vəchlə göstərməyə çalışır ki, burjua cəmiyyətinin iqtisadi kateqoriyaları - əmək haqqı, mənfəət, renta- dəyərin ifadəsindən başqa bir şey deyildir. Rikardo onları dəyərdən ayırıb nəzəri cəhətdən dəyərin təzahür formaları kimi inkişaf etdirmək istəyir.

Rikardo ingilis klassik siyasi iqtisadının başa çatdırıcısı olmaqla onun metodunun da işlənməsinin yekunlaşdırıcısı hesab olunur. Lakin metodologiyada o, sələflərinin də yaradıcılığında yol verilən

downloaded from KitabYurdu.az

empirizmə bağlılığın aradan qaldırılması xəttini tutmuşdur. O deduksiya və sintezin tətbiqini inkişaf etdirmiş, eyni zamanda induksiya və analizdən də imtina etməmişdir.

Rikardonun müasir fəlsəfə ilə əlaqəsindən danışılırsa, onun metoduna Qobbas və Dekartın fəlsəfəyə göstərdikləri yeni ideyalar təsir etmişdir. Bu ideyalar riyaziyyatın inkişafı ilə əlaqədar olub, onun təbii biliklər sferasına tətbiqilə bağlı olmuşdur. Burada söhbət siyasi iqtisadda riyazi tədqiqat metodunun tətbiqindən getmir. Rikardo öz sisteminin işlənməsində riyazi metod sistemi mühakiməsindən istifadə etmişdir.

Rikardo öz sisteminin əzəlini haradan götürmüşdür? O, dəyərin əməklə müəyyən edilməsini necə əsaslandırmışdır və nə üçün bunu öz sisteminin özülü hesab etmişdir kimi suallara cavab axtarmalı olsaq aşağıdakıları söyləmək olar: O, dəyərin əməklə müəyyən edilməsinin düzgün olub-olmamasının sübut edilməsinə xüsusi əhəmiyyət verməmiş və iki məqama söykənmişdir. Birincisi, mövcud, təcrübi və tarixi fakt olan "arzu olunan, bütün nemətlərin əksər hissəsinin əməklə əldə edilməsi". O nemətlər ki, bilavasitə təbiət tərəfindən verilir və onun yaradılmasında əmək iştirak etmir, dəyəri yoxdur və əməklə müəyyən olunmur. İstisna olaraq nadir əmtəələr bu cür müəyyən olunma sferasından kənarda qalır. Bu qayda Rikardoda heç bir şübhə doğurmur. Belə ki, cəmiyyətin inkişafının ilkin inkişaf mərhələlərində əmtəələrin dəyəri onların istehsalına sərf olunan əməyin miqdarından asılı olmuşdur. Sondakı inkişaf mərhələlərində bu əmək sərfinə istehsalda istehlak olunmuş istehsal vasitələri məsrəfləri, "Kapital" məsrəfləri də əlavə olunur. İkincisi, Rikardo əmək-dəyər nəzəriyyəsini öz sələflərindən düzgün hesab edərək mübahisəsiz qəbul etmişdir. Bu siyasi iqtisadın iki yüz illik təcrübəsinin mahiyyəti idi. D.Rikardo bu elmi nəzəriyyənin davamçısı olmuşdur.

downloaded from KitabYurdu.az

Rikardonun iqtisadi təlimində onun mövqeyinin xüsusiyyətlərindən biri siyasi iqtisadın predmetinin bölgü sferasının öyrənliməsində görməsidir. O, hesab edir ki, iqtisad elminin problemi gəlirlərin bölgüsünü tənzimləyən qanunu tapmaqldan ibarətdir. "Siyasi iqtisadın və vergi qoyuluşunun əsasları" əsərində yazır: "Torpağın məhsulu - əmək tətbiqi, maşın və kapitalın birləşməsilə onun səthindən alınan nə varsa - cəmiyyətin üç sinfi arasında bölüşdürülür: bilavasitə torpaq sahibləri, pul və yaxud kapital mülkiyyətçiləri və onu əməyilə becərən işçilər. Lakin torpağın bütün məhsulundan bu siniflərə "renta", "mənfəət" və "əmək haqqı" adı altında çatan pay cəmiyyətin müxtəlif inkişaf mərhələlərində olduqca müxtəlifdir. Bu bölgünü idarə edən qanunların müəyyən edilməsi siyasi iqtisadın başlıca vəzifəsidir.

Rikardo bütün gəlirlərin yeganə mənbəyinin əmək olduğunu göstərərək belə bir nəticə çıxardır ki, siniflərin mənafeyi müxtəlifdir, bir-birinə ziddir. Lakin o, siniflərin mənafeyinə yalnız istehsalın inkişafı, millətin sərvətinin artması nöqteyi-nəzərindən baxmışdır. Yəni o, öz təhlil obyektindən istehsal sferasının təhlilini kənar etmir. Bununla birlikdə, bölgü sferasını vurğulamaqda istehsalın ictimai formasını siyasi iqtisadın bilavasitə predmeti kimi ayırmaq məqsədini güdür. Lakin bu problem Rikardo tərəfindən özünün tam elmi həllini tapmamışdırsa da klassik məktəbin başa çatdırıcısının əsərlərində məsələnin bu şəkildə qoyuluşu mühüm əhəmiyyət kəsb edir.

D.Rikardo əsərlərində faktiki olaraq cəmiyyətin məhsuldar qüvvələrindən fərqli olaraq insanların istehsal münasibətlərini ayırmaq və onu siyasi iqtisadın predmeti elan etmək səyi aydın görünür. Bu siyasi iqtisadın predmetinin elmi təhlilində mühüm addım idi. Lakin, o, insanların istehsal münasibətlərini xüsusi sosial hadisə kimi açmamış və bu kateqoriyanı şərh etməmişdir.

downloaded from KitabYurdu.az

D.Rikardo iqtisadi hadisələrin tədqiqinin elmi metodunun işlənməsində mühüm addım atmış və siyasi iqtisad tarixində ilk dəfə olaraq kapitalizmin iqtisadi nəzəriyyəsinin əsasına anlaqlı şəkildə əmək-dəyər nəzəriyyəsini qoymuşdur ki, bu də kapitalist münasibətləri üçün ümumi, xüsusilə də əmtəə münasibətləri üçün tipik olan xüsusiyyətləri əks etdirir. Rikardonun kapitalizmin təhlilində ilk dəfə şüurlu olaraq əmək-dəyər nəzəriyyəsinə əsaslanması məsələni əhəmiyyətli şəkildə dəyişmiş və kapitalist iqtisadiyyatının fərdi, eləcə də xüsusi hadisələrini deyil, onların daxili əsası nöqteyi nəzərdən məcmu halda elmi təhlilinə şərait yaratmışdır. İqtisadi hadisələrə yeni baxış metodu həmçinin bir çox hallarda Smitin iqtisadi ziddiyyətlərinin aradan qaldırılmasında Rikardoya imkan vermişdir.

## §3. D.RİKARDONUN "SİYASİ İQTİSADIN VƏ VERGİ QOYULMASININ ƏSASLARI" ƏSƏRİ VƏ İQTİSADİ NƏZƏRİYYƏLƏRİ

"Siyasi iqtisadın və vergi qoyulmasının əsasları" əsəri D.Rikardonun əsas və qiymətli əsəri hesab olunur. O, parlamentin üzvü olduğu üçün sessiyalar dövrü onun bütün vaxtını alırdı. İqtisadi problemlər Rikardonun parlament fəaliyyətində mühüm yer tutsa da 1819-1923-cu ildəki bütün əsərləri parlamant fəaliyyəti ilə bağlı idi. Bu əsərlərdən başlıcaları çörək qanunlarına və dövlət borcuna həsr olunmuşdur. Rikardo yay aylarında elmlə məşğul ola bilir və əsərin üçüncü nəşri üzərində işləməklə dəyər, torpaq rentası, maşınların tətbiqinin iqtisadi nəticələri problemləri üzərində gərgin fikirləşməkdə davam edirdi. 1823-cü ilin sentyabrında 51 yaşında qəflətən Getkemb-parkda vəfat etmişdir.

downloaded from KitabYurdu.az

Əsərin üçüncü nəşri üç hissəyə bölünən 32 fəsildən ibarətdir. Müəllifin əsas iqtisadi fikirləri 7 fəsildən ibarət birinci bölmədə şərh olunur. Xüsusilə də dəyər və renta haqqında məsələlər birinci iki fəsildə - dəyər haqqında və renta haqqında- şərh olunur. Qalan 27 fəsildən 12-si vergi məsələlərinə həsr edilir. 13 fəsil isə müxtəlif əlavələr, digər iqtisadçıların, əsas etibarilə Smitin, Maltusun və Seyin ünvanına söylənilmiş fikirlər və tənqidi mülahizələri əhatə edir. Bu əsərlə Rikardo K.Marksın ifadəsilə desək, "Burjua sistemi fiziologiyasının çıxış nöqtəsinin əsasını" təhlil edir. Bilavasitə bu əsərdə bəşəriyyətin keçdiyi bütün tarixi, iqtisadi, sosioloji inkişaf mərhələlərində müəyyən mülahizələr, ideyalar, fikirlər söylənilmədən keçinmək mümkün olmayan, elmi-iqtisadi mübahisələrə səbəb olan dəyər anlayışını və eləcə də dəyər qanununu inkişaf etdirmişdir. Kitabda birinci fəsil "dəyər haqqında" adlanır.

İqtisadi hadisələrin öyrənilməsində Rikardonun metodologiyası abstraksiyadan istifadə və siyasi iqtisad sisteminin işlənməsinə əsaslanmaqla iqtisadi nəzəriyyənin əsasına dəyər nəzəriyyəsinin qoyması təsadüfi deyildir. Rikardoya görə bu kateqoriyanın izah edilməsində qeyri-müəyyənliyin aradan qaldırılması "Siyasi iqtisad üçün ən yüksək mənada mühüm əhəmiyyət kəsb edir". Bu problemə baxarkən o, Smit tərəfindən söylənilən ideyanı davam etdirir, eyni zamanda bir sıra məqamlar üzrə onunla qələm mübahisəsinə girir.

Rikardo özünün "Siyasi iqtisadın və vergi qoyulmasının əsasları" əsərində A.Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində dəyər ifadəsinin izahında belə bir məqama diqqət yetirir. Smit yazır: "Dəyər sözü iki müxtəlif əhəmiyyətə malikdir: bəzən o hər hansı cismin faydalılığını göstərir, bəzən isə həmin cisim başqa cisimlərin əldə edilməsi üçün imkan verir. Birincini istehlak dəyəri adlandırmaq olar, ikincini - mübadilə

downloaded from KitabYurdu.az

dəyəri. Daha çox istehlak dəyərinə xas olan cisimlər çox vaxt cüzi mübadilə dəyərinə malik olurlar yaxud da buna heç malik olmurlar; əksinə, daha çox mübadilə dəyərinə malik olan cisimlər çox vaxt cüzi istehlak dəyərinə malik olub, yaxud da heç ona malik olmurlar"[57]

Rikardo göstərir ki, hava və su həddən artıq faydalıdırlar, onlar yaşamaq üçün zəruridir, lakin adi şəraitdə onların əvəzində mübadilə ilə heç nə almaq mümkün deyildir. Əksinə, qızılın hava və su ilə müqayisədə  istehlak dəyəri çox azdır, lakin çox miqdarda başqa nemətlərə mübadilə olunur. Beləliklə, faydalılıq mübadilə dəyəri üçün nə qədər zəruri olsa da onun ölçüsü ola bilməz. Faydalılıq, faydalı əmtəələr öz mübadilə dəyərlərini iki mənbədən götürürlər. Bu onların nadir olması və əmtəələrin istehsalına daha çox əmək sərf olunmasının tələb edilməsidir. Nadir əmtəələr dedikdə, bu az bir qrup məhsullara aid edilməlidir və hansı ki, həmin əmtəələr azad surətdə yenidən təkrar istehsal (bərpa) olunmur və ya uzun müddət məşhur anbarlarda saxlanılmış olur.

Dəyər haqqında ümumi qanunauyğunluğa gəldikdə Rikardonun fikrincə əmtəələrin dəyəri onların istehsalına çəkilən əməklə düz və əmək məhsuldarlığı ilə tərs mütənasibdir. O, ilk dəfə olaraq əməyi fərdi və ictimai zəruri əməyə bölür və göstərir ki, dəyər fərdi əməklə deyil, zəruri əməklə müəyyən olunur.

Rikardo Smitin dəyərin yalnız kapitalın və muzdlu əməyin olmadığı "cəmiyyətin ibtidai vəziyyətində" əməklə, iş vaxtı ilə müəyyən olunması fikrini qəbul etmir və dəyər qanununun kapitalizm şəraitində tam surətdə tətbiq olunduğunu göstərir.

---

[57] А.Смит, Исследование о природе и  прицsmåпах богатства  народов, т.1. 1935, стр.28.
Д.Рикардо,  Соч. т.1. Москва, 1955,стр.34.

downloaded from KitabYurdu.az

Bundan başqa, Smitin "müasir cəmiyyətdə dəyər faktiki olaraq əmtəənin istehsalından və realizə olunmasından alınan əmək haqqı, mənfəət və renta şəklində gəlirlərin məcmusu ilə müəyyən olunur" kimi fikri Rikardonun ciddi məntiqi zəkası üçün əl vermirdi. Çünki dəyər qanunu kimi belə əsaslı qanun cəmiyyətin inkişafı ilə tam dəyişə bilməz. Rikardo deyirdi ki, bu ola bilməz; dəyərin iş vaxtı ilə müəyyən edilməsi mütləq, ən ümumi qanundur. Smitin və xüsusən onun davamçılarının baxışlarından belə çıxırdı ki, pul, əmək haqqının artması (ümumiyyətlə, dəyişməsi) əmtəələrin dəyərində və qiymətlərində müvafiq dəyişiklik əmələ gətirməlidir. Rikardo bu fikri qətiyyətlə rədd edərək göstərir ki, əmtəənin dəyəri və ya onun mübadilə olunduğu hər hansı bir digər əmtəənin miqdarı onun üçün lazım olan nisbi əmək miqdarından asılıdır, bu, əmək üçün haqq kimi verilən çox və ya az mükafatdan isə asılı deyildir. Əgər əmək məhsuldarlığında heç bir dəyişiklik baş vermədən əmək haqqı yüksələrsə əmtəənin dəyəri bunun nəticəsində dəyişməyəcəkdir.

A.Smit, həmçinin dəyər haqqında öz təhlilində göstərir ki, "hər bir əmtəənin həqiqi qiyməti" ona sərf olunan əmək və onu əldə etmək istəyindən asılıdır. Odur ki, o, Rikardoya mübadilə dəyərinin köklü mənbəyini nə qədər düzgün müəyyən etsə də A.Smit bu işdə ardıcıl olmamışdır. Rikardo daha da irəliyə gedərək göstərir ki, əmtəələrin dəyəri bazarda nə məqsədə və hansı miqdarda məhsul almaq istəyi və imkanı ilə deyil, "onlarda maddiləşmiş əməklə" bu və ya digər məhsulun istehsal məsrəfləri ilə müəyyən olunur. Əmtəələrin dəyərlərinin dəyişməsinə səbəb onların istehsalının çox və ya az yüngüllüyü, başqa sözlə, əmək miqdarının çoxalması və ya azalmasıdır. Daha dəqiq demiş olsaq "cisimlərin dəyəri onlara sərf olunan əməkdən asılıdır".

Rikardo istehsal olunan məhsulların dəyərinə onun yaradılmasında iştirak edən əsas kapitalın dəyərini də daxil etməklə Smitin

downloaded from KitabYurdu.az

mövqeyinə düzəliş verir. O göstərir ki, əmtəənin dəyərində təkcə onun istehsalına bilavasitə sərf olunan əmək deyil, maddiləşmiş əmək də iştirak edir. Başqa sözlə, maşın və avadanlığa sərf olunan əmək, onların vasitəsilə tətbiq olunur. Yəni əmək vasitələri başqa insanların əməyi ilə yaradıla bilər, lakin onların köməyi ilə başqaları əmək sərf edirlər. Belə ki, məhsulların qiyməti həm bilavasitə məhsul istehsalına sərf olunan əməyə, həm də maşın və avadanlıqda maddiləşmiş əməyə nisbətən müəyyən olunur.

Rikardo Smitdən fərqli olaraq dəyərlə sərvət arasındakı fərqə də ciddi aydınlıq gətirmiş, onların eyniləşdirilməsini düzgün hesab etməmişdir. Smitə görə "insanın varlı və ya kasıb olması onun zərüri yaşayış vasitələrindən, rahatlıq və zövqdən istifadə etmək səviyyə-sindən asılıdır".

Bu fikrin sonrakı aydınlığı baxımından Rikardo göstərir ki, dəyər əhəmiyyətli dərəcədə sərvətdən fərqlənir və nəticə etibarilə ondan bolluğa görə deyil, istehsalın yüngüllük və ya çətinliyindən asılıdır. İnsanın varlı  yaxud yoxsulluğu onun sərəncamında olan yaşayış vasitələri və zinət şeylərinin (qiymətli şeylərin) miqdarından asılıdır. Pula, çörəyə, yaxud əməyə nisbətdə götürülməklə bu cisimlərin mübadilə dəyəri necə dəyişirsə-dəyişsin, o istər çox yüksək, yaxud çox aşağı olsun onlar öz sahibkarlarına eyni təminat, eyni rahatlıq, eyni dəbdəbə gətirəcəkdir. Yalnız dəyər və sərvət, yaxud rifah halı anlayışlarının qarışdırılması nəticəsində təsdiq etmək olar ki,  sərvət əmtəələrin kəmiyyətinin azalması yolu ilə arta bilər, əgər dəyər sərvətin ölçüsü olsaydı biz bununla razılaşmalı olardıq. Ona görə ki, əmtəələrin dəyəri onların nadir olmaları nəticəsində yüksəlir. Lakin əgər Adam Smit haqlıdırsa, yəni sərvət zəruri cisimlərlə və cah-cəlalla bağlıdırsa, onda sərvət onların kəmiyyətinin azalması yolu ilə arta bilməz, lakin ölkənin sərvətinin ikili yolla artırılması mümkündür. O gəlirin daha çox hissəsinin

downloaded from KitabYurdu.az

əmək məhsuldarlığının saxlanmasına sərf olunmaqla artırıla bilər. Bu vaxt sərvət yalnız kəmiyyətcə deyil, bütün əmtəə kütləsinin dəyəri baxımından artar. Yaxud da o əlavə əmək sərf etmədən arta bilər. Əgər həmin miqdar əmək daha məhsuldar olarsa, onda əmtəələrin dəyəri yox, kəmiyyəti arta bilər. Beləliklə, Rikardo istehlak dəyəri ilə dəyər arasındakı fərqi ("faydalılıq", "sərvət"), – bu faydalılığın istehsalına çəkilən məsrəfləri daha ardıcıllıqla izləmiş olur və dəyər qanununu formalaşdırır. Aydın olur ki, əmtəənin dəyəri onun istehsalına çəkilən əməklə düz və əmək məhsuldarlığı ilə tərs mütənasibdir. O, J.B. Seyin "cismin faydalılığı əmtəələrin dəyərinin tənzimləyicisidir" fikrini tənqid edərək göstərir ki, bu o vaxt düzgün olardı ki, əmtəələrin dəyəri yalnız alıcılar tərəfindən tənzimlənmiş olsun. Rikardo qeyd edir ki, əmtəələrin faydalılığı, başqa sözlə, istehlak dəyəri əmtəənin dəyərə malik olması üçün zəruridir, lakin dəyərin mənbəyi deyildir. Rikardonun belə bir fikri daha aktual səslənir ki, siyasi iqtisadda bir çox səhvlər əmtəənin iki tərəfinin – dəyər və mübadilə dəyəri – qarışdırılması ilə izah olunur.

Rikardonun dəyər nəzəriyyəsində mühüm yer tutan məsələlərdən biri də odur ki, o əmtəənin substansiyası kimi əməklə, dəyərin daxili ölçüsü kimi əməyi biri-birindən fərqləndirmişdir. O, qeyd etmişdir ki, "...əmək bütün dəyərlərin əsası hesab olunur və ... onun müəyyən miqdarı demək olar ki, ancaq əmtəələrin müəyyən dəyərini müəyyən edir". Bu fərqləndirmə abstrakt dəyər kateqoriyasının müəyyən edilməsinə səbəb olmuşdur. Baxmayaraq ki, Rikardo əməyin ikili təbiətini açmamışdır, ancaq o, Smitdən fərqli olaraq əməyin sahəvi xüsusiyyətini daha tam verməklə göstərmişdir ki, əmək, bütün istehsal sahələrində dəyərin mənbəyi kimi eyni səviyyədə çıxış edir.

Əmtəənin dəyər kəmiyyətini onun istehsalına sərf olunan əməklə müəyyən etməklə Rikardo bu kəmiyyətin əmək

downloaded from KitabYurdu.az

məhsuldarlığının səviyyəsindən ümumi asılılığını görə bilmişdir. Əgər əmtəələrin mübadilə dəyəri onlarda maddiləşən əməyin kəmiyyətilə müəyyən edilirsə, onun artması əmək sərf olunan əmtəənin dəyərini artırmalı, hər cür azalması isə onu aşağı salmalıdır. Əmtəənin dəyərinin onun istehsalına sərf olunan əməklə bağlı olmasını müəyən etməklə Rikardo dəyərin bilavasitə hansı əməklə tənzimlənməsi sualı ilə qarşılaşmış olur. Buna görə də ictimai əmək probleminin qoyuluşu onun xidməti hesab olunur. Belə ki, xırda sənətkarın, manufaktura fəhləsinin və maşınlı fabrik işçisinin eyni növdən olan əmtəələrinin istehsalı zamanı sərf etdikləri əmək ictimai əməkdən əhəmiyyətli dərəcədə fərqlənirlər. Rikardo belə nəticəyə gəlir ki, əmək məhsuldarlığı dəyərin əməklə müəyyən edilməsini aradan qaldırmır. Çünki dəyərin kəmiyyəti məlum əmtəənin hazırlanmasına faktiki sərf olunan əməklə deyil, pis şəraitdə onun istehsalı üçün zəruri olan əməklə tənzimlənir.

Burada Rikardo iqtisadi fikrin əsrlərlə düşündüyü problemin həll edilməsində mühüm addım atır. O, faktiki olaraq fərdi və ictimai zəruri əməyi fərqləndirməklə dəyər qanunu mexanizminin mahiyyətinə toxunmuş olur. Bu həmçinin iqtisad elminin inkişafında da mühüm rol oynayır. Lakin Rikardonun təklif etdiyi qərar, yaxud da dəyərin tənzimlənməsi probleminin həlli məqsədilə gəlinən nəticə heç də tam və dəqiq deyildir. Bu ondan irəli gəlir ki, pis şəraitdə əmtəələrin dəyərini yaradan fərdi əmək məsrəfi dəyər kəmiyyətinin tənzimləyicisi kimi əks etdirilir. Digər tərəfdən, qiymətin əmələ gəlməsində kənd təsərrüfatı, hasilat sənayesi və nadir hallarda emal sənayesi üçün tipik olan proses iqtisadiyyatın bütün sahələrinə aid edilir. Bu da öz növbəsində əmtəələrin dəyər kəmiyyətinin həqiqətən məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılı olduğunun dərk olunmasını çətinləşdirmiş olur.

downloaded from KitabYurdu.az

D.Rikardo dəyərin əməklə müəyyən edilməsində sadə və mürəkkəb əmək məsələsini də qoymuş və bu da öz həllini tapmışdır. Birincisi, o müəyyən edir ki, bu növ fərqləndirilmə dəyərin mənbəyi kimi əməyə baxılmasına maneçilik etmir. Müxtəlif keyfiyyətli əməyin qiymətləndirilməsi bazarda bütün praktik məqsədlər üçün tezliklə kifayət qədər dəqiqliklə müəyyən olunur: "Bununla Rikardo faktiki olaraq bazarda müxtəlif keyfiyyətli əməklərin müəyyən kəmiyyətdə sadə əməklə müqayisə olunmasını, ortaq ölçüyə gətirilməsini görmüşdür. İkincisi, o, belə bir nəticəyə gəlir ki, əməyin müxtəlif səviyyədə mükafatlandırılması əmtəələrin dəyərinin onların istehsalına sərf olunmuş əməklə müəyyən edilməsində mühüm dəyişikliklərə gətirib çıxartmır. O, qeyd edir ki, "müxtəlif keyfiyyətli əmək müxtəlif şəkildə mükafatlandırılır. Bu vəziyyət əmtəələrin nisbi dəyərlərinin dəyişməsinə səbəb olmur", belə ki, əmək haqqı əmtəələrin dəyərini müəyyən etmir.

Bununla birlikdə D.Rikardo müəyyən edir ki, cəmiyyətin siniflərə bölünməsi və gəlirin siniflər arasında bölüşdürülməsi əmtəələrin dəyərinin əmək prinsipi əsasında müəyyən edilməsini aradan qaldırmır.

D.Rikardo muzdlu işçilərin əmək haqqının dəyişməsinin, onların əməyilə yaradılan məhsulun dəyərinə təsiri haqqında məsələyə də xüsusi fikir verir. Özünün dəyər qanununun izahına əsaslanaraq o, əmək haqqının əmtəənin dəyərinə təsirini inkar edir. Rikardo yazır: "əmtəənin dəyəri və ya onun mübadilə olunduğu hər hansı bir əmtəənin miqdarı onun istehsalı üçün lazım olan nisbi əmək miqdarından asılıdır. Bu, əmək üçün haqq kimi verilən çox və ya az mükafatdan isə asılı deyildir", əgər əmək məhsuldarlığında heç bir dəyişiklik baş vermədən əmək haqqı yüksələrsə əmtəənin dəyəri bunun nəticəsində dəyiməyəcəkdir. Digər bərabər şərtlər daxilində bu əmtəələrin satıldığı qiymətə də təsir etməyəcəkdir, yalnız

downloaded from KitabYurdu.az

əmtəənin qiymətində əmək haqqı ilə mənfəət arasındakı nisbət dəyişə biləcəkdir.

Renta nəzəriyyəsi Rikardonun iqtisadi təlimində mühüm yer tutur və o, renta münasibətlərinin əsaslı təhlilçisi kimi həmişə xatırlanır. İlk baxışda renta özündə xüsusi, gizli məna daşımır. Maraqlı burasıdır ki, müxtəlif ərazilərdə, torpaqlarda, iqlim şəraitində əkilib yetişdirilməsinə baxmayaraq taxıl istehlakçılar tərəfindən bu fərqlər nəzərə alınmadan qoyulan qiymətlərə alınıb satılır. Taxıla olan tələbat istər yüksək məhsuldarlığa malik olan, istərsə də az məhsuldar olan torpaqlardan istehsal olunan məhsul hesabına ödənilir.

Rikardoya görə renta – yerin pozulmayan qüvvələri və imkan istifadəsindən əldə edilən məhsuldan torpaq sahibinə verilən hissədir. Onu adətən kapitala görə mənfəət və faizlə qarışdırırlar. Hesab edək ki, eyni təbii məhsuldarlığa və eyni sahəyə malik olan iki firma var. Onlardan birində bütün səmərəli təsərrüfat tikintiləri var, qurudulub, gübrələnib və s., digəri isə bu üstünlüklərə malik deyildir. Təbiidir ki, birinci sahənin istifadəsi ikinciyə nisbətən daha çox mükafatlandırılacaqdır. Bununla birlikdə hər iki halda bu mükafatlandırma renta adlandırılır. Yəqin ki, hər il keyfiyyətcə yaxşılaşdırılmış fermaya ödənilən külün bir hissəsi yerin ilkin və pozulmamış qüvvəsinə görə verilir, digər hissəsi isə yerin istifadə üçün yararlı vəziyyətə gətirilməsi üçün sərf olunan kapitala görə verilir.

Bundan başqa əgər bütün torpaqlar eyni xüsusiyyətli, kəmiyyətcə qeyri-məhdud və keyfiyyətcə yekcins olsaydı onda xüsusi əlverişli vəziyyətdə olan torpaqlardan başqa, onlardan istifadəyə görə ödəniş almaq mümkün olmazdı. Deməli, torpaqdan istifadəyə görə həmişə ödəniş ona görə verilir ki, torpaqlar kəmiyyətcə məhduddur, keyfiyyətcə eyni deyildir, əhali artdıqca isə

downloaded from KitabYurdu.az

becərilməyə daha aşağı keyfiyyətli və az əlverişli torpaq sahəsi daxil olur. Cəmiyətin inkişafı ilə məhsuldarlığına görə becərməyə ikinci dərəcəli torpaq daxil olur. Bu zaman birinci dərəcəli torpaq üçün renta əmələ gəlir və həmin rentanın  həcmi bu iki torpaq sahəsinin fərqini müəyyən etmir.

Rikardo öz təhlilində belə nəticəyə gəlir ki, əgər yaxın torpaqlar çox olsaydı və köhnə torpaqlara daim qoyulan kapitalın gəliri azalmasaydı rentanın səviyyəsi yüksəlməzdi. Çünki daimi renta ona görə baş verir ki, əlavə miqdar əmək tətbiqi proporsional olaraq az gəlir gətirir. Becərməyə aşağı keyfiyyətli torpaq daxil olduqca xam materialın mübadilə dəyəri yüksəlir. Belə ki, onların istehsalı üçün daha çox əmək tələb olunur. Deməli, çörək bahadır ona görə yox ki, renta ödənilir, renta ödənilir ona görə ki, çörək bahadır. Rikardo fiziokratların "renta (onlar bunu xalis məhsul adlandırır) təbiətin bəxşişidir" fikrinin səhv olduğunu sübut etmişdir. O, həmçinin Smitin də rentaya baxışında ardıcıl olmadığını görə bilmişdir.  Smit dəyərin mənbəyinin əmək olduğunu qəbul etməsinə baxmayaraq, yenə də əkinçilikdən əldə olunan gəlirin bir hissəsinin öz yaranmasına görə təbiət qüvvəsinin hesabına olduğunu israr edirdi. Qeyd etmək lazımdır ki, renta nisbətən məhsuldar olan torpaq sahəsi hesabına torpaq sahibinin payına düşən artıq məhsul deyil. Təbiət rentanın yaranmasında iştirak etmir, o qiymətin səviyyəsini müəyyən etmir. Rikardo yazır ki, "çörəyin dəyəri onun istehsalına sərf olunmuş əməyin kəmiyyətilə tənzimlənir". Deməli, "çörək bahadır ona görə yox ki, renta ödənilir. Renta ödənilir ona görə ki, çörək bahadır...  Əgər torpaq sahibi özünün bütün rentasından imtina etmiş olsaydı belə, çörəyin istehsalına çəkilən məsrəflər, eləcə də çörəyin qiyməti əvvəlki səviyyədə qalmış olardı".

Smitin "əkinçi daha yüksək əmək məhsuldarlığına malikdir, ona görə ki, bu  spesifik sahədə əməklə yanaşı dəyərin yaranmasında

downloaded from KitabYurdu.az

təbiət də iştirak edir" fikrinə Rikardo öz etirazını bildirir. O göstərir ki, "məgər emal sənayesində təbiət insan üçün heç bir şey etmir? Məgər maşınları və gəmiləri hərəkətə gətirən külək və suların gücü sıfıra bərabərdirmi? ... Sənayenin elə bir sahəsini göstərmək olmazmı, təbiət insana əvəzsiz və səxavətlə kömək etməmiş olsun".

Rikardo diferensial rantanın mövcudluğunu qəbul edir və onu ilk dəfə olaraq dəyərin ümumi nəzəriyyəsi əsasında izah edir. Rentanın mənbəyini hər hansı bir səxavətdə deyil, torpağa tətbiq olunan əməkdə görür. O göstərir ki, kənd təsərrüfatı məhsullarının qiyməti pis sahələrdəki əmək məsrəflərilə müəyyən olunur. Orta və yaxşı torpaqlar əlavə gəlir verir, bu həmin torpaqlardakı istehsal xərclərindəki fərq kimi çıxış edir. Əldə olunan əlavə gəlir renta formasında torpaq sahiblərinə çatır. O, mütləq rentanı inkar edir və torpağın münbitliyinin azalması qanununu qəbul edir.

Əmək haqqı məsələsini bilavasitə təhlil edərkən Rikardo yazır ki, bütün cisimlər alınır, satılır və onların kəmiyyəti bazardan asılı olaraq artıb-azala bildiyi kimi əmək də özünün təbii və bazar qiymətinə malikdir. Əməyin təbii qiyməti fəhlələrin yaşaması və saylarını artırıb-azaltmadan nəsillərini davam etdirməsi üçün zəruri olan qiymət hesab olunur. Bu səviyyədə həyat tərzini təmin etməsi üçün fəhlənin özünü və ailəsini yaşada bilmək qabiliyyəti təkcə onun əmək haqqı kimi aldığı pulun miqdarından deyil, həmin adla ala biləcəyi (yaşayış vərdişlərinə görə) zəruri həyat vasitələrinin miqdarından bilavasitə asılıdır. Ona görə də əməyin təbii qiyməti bu şeylərin qiyməti ilə bağlıdır. Bunların qiyməti artdıqca əməyin təbii qiyməti artır, aşağı düşdükcə isə azalır.

Rikardo həmçinin göstərir ki, cəmiyyət inkişaf etdikcə əməyin təbii qiymətində həmişə yüksəlmə meyli vardır. Əmək və xammaldan başqa bütün əmtəələrin təbii qiyməti cəmiyyətin və əhalinin tərəqqisi ilə bağlı olaraq aşağı düşməyə meyl edir.

downloaded from KitabYurdu.az

Əməyin bazar qiyməti tələb və təklif arasındakı təbii təsir nisbətinin dəyişməsilə ona ödənilən həqiqi qiymət hesab olunur. Lakin əməyin təbii qiymətilə bazar qiyməti arasındakı fərqlənmə peşə dəyişirsə dəyişən əmtəələrin qiyməti kimi onunla uyğunlaşma meylinə malikdir.

Beləliklə, Rikardo hesab edir ki, fəhlə öz əməyini satır və əmək haqqını əməyin təbii qiyməti adlandırır. O, əmək haqqının minimum yaşayış vasitələrinin dəyərini keçməməsini qeyd edir. O, Maltusa əsaslanaraq hesab edir ki, əmək haqqı kapitalizmin özündən doğan spesifik qanunları üzündən deyil, ümumi təbii qanun nəticəsində sərt fiziki minimum hüdudlarında qalır. Belə ki, orta əmək haqqı yaşayış vasitələri minimumundan bir qədər artıq olan kimi fəhlələr daha çox uşaq törədib tərbiyə edə bilərlər, bu da əmək bazarında rəqabəti gücləndirmiş olar və əmək haqqı yenidən aşağı düşər. Onun fikrincə əməyin bazar qiyməti onun təbii qiymətindən yüksək olduqca fəhlə özünün çiçəklənən və xoşbəxt vəziyyətinə çatır, ona görə də daha çox artım imkanına malik olur. Əmək haqqının fəhlənin və onun ailəsinin yaşayış vasitələrinin dəyəri ilə müəyyən edilməsi Rikardo tərəfindən öz sələflərindən qəbul edilmişdir. O, Maltusun əhali nəzəriyyəsinin əsas prinsiplərini qəbul edir və əsas etibarilə cəmiyyətin üç əsas sinfinin ilkin gəlirləri olaraq əmək haqqı, mənfəət və renta haqqında Smitin baxışlarını inkişaf etdirmişdir.

Rikardonun fikrincə əməyin bazar qiymətinə tələb və təklif təsir göstərirsə, onun əsasını əməyin təbii qiyməti, yaxud əməyin dəyəri təşkil edir. Onun təsəvvürünə görə əgər çörəyin qiyməti artdığı şəraitdə əmək haqqı artmazsa, fəhlələr acından ölməyə və onların nəsli kəsilməyə başlayar. Bu baxımdan o, dövlətin əmək bazarının fəaliyyətinə qarışması mövqeyindən çıxış edir.

Əhalinin artması, daha çox yaşayış vasitələrinin tələb olunması, qızılın dəyəri, onun miqdarı, əmək məhsuldarlığı, münbit

downloaded from KitabYurdu.az

torpaqların bolluğu, kapital artımı, qiymətlərin dəyişməsi və s. məsələlərə toxunaraq əmək haqqı ilə bunları əlaqələndirməklə Rikardo yazırdı ki, əmək haqqının yüksəlməsi, ümumiyyətlə o zaman baş verir ki, sərvətin və kapitalın çoxalması əməyə yeni tələb yaratsın, bu da qeyri-şərtsiz olaraq əmtəələrin istehsalının artırılması ilə müşahidə olunur. Hər dəfə əvvəlkindən çox miqdarda əmtəələr tələb olunduqda onları əldə etmək üçün lazım olan əmtəələrin dəyərilə müqayisədə onun nisbi dəyəri yüksəlmiş olur. Əgər daha çox qızıl lazım gələrsə, onda onun qiyməti yüksələr, inflyasiyanın qiyməti aşağı düşmüş olar, çünki əvvəlki miqdar qızıl əldə etmək üçün indi daha çox qızıl və digər bütün şeylər zəruri olar. Belə olan halda əmək haqqının artmasına görə əmtəələrin qiymətləri yüksəlmişdir, deməklə biz bilərəkdən ziddiyyətə yol vermiş oluruq. Əvvəlcə biz deyirik ki, tələbin artması nəticəsində, qızılın nisbi dəyəri yüksəlir, sonra isə qiymətlər yüksəldiyi üçün onun nisbi dəyəri aşağı düşür. Məsələnin bu növ qoyuluşu tamamilə bir-birinə uyğun gəlməyən şeydir. Belə ki, əmtəələrin qiymətləri yüksəlmişdir demək, pulun nisbi dəyəri aşağı düşmüşdür demək kimi bir şeydir. Ona görə ki, qızılın nisbi dəyəri əmtəələrlə müqayisədə hesablanır. Əgər bütün əmtəələrin qiymətləri yüksəlmişdirsə onda bu bahalı əmtəələrin alınması üçün lazım olan qızıl xaricdən axa bilməz. Əksinə, belə halda qızıl ölkədən kənara axmış olar və nisbətən ucuz olan xarici əmtəələrin əldə edilməsi üçün istifadə edilmiş olardı.

Beləliklə görünür ki, metalın evdə (ölkədə), yaxud da xaricdə istehsal olunmasından asılı olmayaraq, əmək haqqının yüksəlməsi əmtəənin qiymətini qaldırmır. Əlavə pul miqdarı olmadan – tədavülə əlavə pul kütləsi daxil olmadan eyni vaxtda bütün əmtəələrin qiyməti yüksələ bilməz. Əlavə və ya hər hansı pul miqdarının (qızılın) xaricdən alınması, yaxud daxil olması üçün ölkədə əmtəələr baha

downloaded from KitabYurdu.az

yox, ucuz olmalıdır. Qızılın ixracı və onun alınmasına sərf olunan ölkə əmtəələrinin bütövlüklə eyni vaxtda qiymətlərinin yüksəlməsi bir araya sığa bilməz. Kağız pulların geniş miqyasda istifadəsi vəziyyəti dəyişdirmir. Ona görə ki, kağız pullar qızılın dəyərinə uyğun, yaxud ona müvafiq olmalıdır. Odur ki, onların dəyərinin dəyişməsinə amillər təsir edir ki, metal pulun da dəyərinə təsir etmiş olsun.

Nəticə etibarilə bütün cəmiyyətlərdə əhalinin nisbətən çox hissəsinin rifahını və əmək haqlarını idarə edən qanunlar belədir. Bütün digər müqavilələrdə və razılaşmalarda olduğu kimi əmək haqqının miqdarının müəyyən edilməsi azad bazar rəqabətinin ixtiyarına verilməlidir və heç vaxt qanunvericilik müdaxiləsinin nəzarətində olmamalıdır.

Rikardonun fikrincə yoxsullar haqqında verilən qanunlar onların vəziyyətinin yaxşılaşmasına doğru yox, əksinə, həm yoxsulların, həm də varlıların vəziyyətinin pisləşməsinə doğru aparır. O hesab edir ki, fəhlənin taleyində yoxsulluq böyük bədbəxtlikdir. Bu bədbəxtlik ya ərzaq məhsullarının, yaxud da insan çatışmazlığından irəli gəlir. Ona görə də qeyri-mümkün olan şeyin dalınca qaçmaqla mümkün olan yaxşını da itirə bilərik və yazşı olar ki, bu gücün həddini öyrənək. Bu fikri davam etdirərək Rikardo qeyd edir ki, yoxsulluğun təbiəti özü onun dərmanını göstərir. Yoxsullar haqqında qanunların tətbiqi sferasını getdikcə məhdudlaşdırmaq, onlara asılı olmamağın dəyərliliyini başa salmaq, onları sistemli olmayan, yaxud təsadüfi xeyirxahlığa öyrətmək əvəzinə, onları öz gücünə inandırmaqla biz tədricən nisbi normal və sağlam vəziyyətə gələ bilərik. O, hesab edir ki, yeni yaradılmış dəyər iki hissədən - əmək haqqı və mənfəətdən ibarətdir; əmək haqqı və mənfəət yalnız əks nisbətdə diyişə bilər. Belə ki, əgər əmək haqqı artarsa onda mənfəət aşağı düşür və əksinə, mənfəət artarsa, əmək

downloaded from KitabYurdu.az

haqqı aşağı düşür. Rikardonun bu fikrə gəlməsi heç də təsadüfi olmamışdır. Əmək- dəyər nəzəriyyəsinə əsaslanmaqla o, kapitalistlərin bütün gəlirlərinin - mənfəət, torpaq rentası və faiz vahid bir ümumi əsasa söykənməsini görmüşdür. Baxmayaraq ki, o, izafi dəyər qanunu məsələlərini açmamışdır, amma dəyərin yeganə mənbəyinin əmək olmasına əsaslanmaqla istehsalda iştirak etməyən siniflərin, sosial qrupların gəlirlərinin özgə əməyinin ödənilməyən hissəsinin mənimsənilməsinin nəticəsi olduğunu aydın şəkildə təsəvvür etmişdir. D.Rikardo, A.Smit kimi kapitalizm cəmiyyətində üç əsas sinfin mövcudluğunu - kapitalist, muzdlu fəhlə, torpaq sahibləri müəyyən etmişdir. Lakin Smitdən fərqli olaraq Rikardo bu siniflər arasında iqtisadi ziddiyyət olduğunu görmüş və əmək-dəyər nəzəriyyəsi mövqeyindən onlar arasında "daxili əlaqəni" göstərmişdir. D.Rikardonun bu nöqteyi-nəzəri biri-birinə əks proporsional asılılıqda olan mənfəət və əmək haqqı, eləcə də mənfəət və torpaq rentası konsepsiyasında öz əksini tapır.

Əmək-dəyər nəzəriyyəsi mövqeyindən yanaşmaqla D.Rikardo bölgünün bayağı konsepsiyasını ciddi surətdə rədd edir. O, izafi dəyərin başlıca forması olan mənfəətin təhlilində mühüm elmi nəticəyə gəlir. Lakin o, bu mövqedən onu sübut edə bilmir. O, müəyyən edir ki, mənfəət əmtəənin dəyərinin bir hissəsidir və hər bir dəyər kimi onun da mənbəyi muzdlu fəhlənin əməyidir. Deməli, Rikardo məsələyə bu mövqedən yanaşmaqla mənfəətin istismar mahiyyətini açmış olur, fəhlənin və kapitalistin sinfi mənafelərinin əksliyini görür. Belə ki, Rikardoya görə mənfəət faktik olaraq kapitalist tərəfindən ödənilməyən muzdlu əməyin mənimsənilməsi kimi çıxış edir. Lakin Rikardo əməyin ikili xarakterini (təbiətini) təhlil etmədiyi üçün, əməyin məzmunu, onun ictimai forması açılmadığı üçün əməklə iş qüvvəsi biri-birindən fərqləndirilmir. Rikardoya görə əmək əmtəədir və kapitalistlə muzdlu əməkçinin

downloaded from KitabYurdu.az

sövdələşməsində əmək reallaşır. O, mənfəətə izafi dəyərin konkret bir forması kimi baxmır. Əslində isə mənfəətlə əmək haqqının tərs proporsional asılılığı izafi dəyərlə iş qüvvəsi dəyərinin biri-birindən asılılığına gətirib çıxarır. Belə ki, mənfəət izafi dəyəri iş qüvvəsinin dəyərinə deyil, bütün kapitala (istehsala qoyulan, avans edilən kapitala) nisbəti əks etdirdiyi üçün sabit kapitalın kəmiyyəti dəyişdikdə o da dəyişdiyi kimi, əmək haqqı dəyişdikdə də o nisbət dəyişir. Bu iki amil biri-birinə əks istiqamətdə də dəyişə bilər.

D.Rikardonun mənfəət nəzəriyyəsinin təhlili göstərir ki, mənfəətlə izafi dəyərin qarışdırılması mənfəət nəzəriyyəsi ilə izafi dəyər nəzəriyyəsinin eyniləşdirilməsinə gətirib çıxarır. İkinci tərəfdən o, mənfəəti bizə məlum olan nisbi izafi dəyərlə qarışdırmış olur. İş ondadır ki, Rikardo iş günü müddətinin dəyişməzliyini və eyni zamanda mənfəətin həcminin əmək məhsuldarlığından bilavasitə asılılığını nəzərdə tutur.

D.Rikardo iqtisadi təhlilində elmi cəhətdən haqlı olaraq əmək-dəyər nəzəriyyəsinə (əmtəənin dəyərinin onun istehsalına sərf olunmuş əməklə yaranmasına) əsaslanır. Digər tərəfdən, əməyi əmtəə hesab etməklə belə nəticəyə gəlir ki, mənfəət yalnız qeyri-ekvivalent mübadilənin nəticəsidir. Beləliklə, əgər Rikardo əmək-dəyər nəzəriyyəsi əsasında çıxış edirsə onda o, izafi dəyər nəzəriyyəsini inkar etməli idi. Əksinə, əgər o, izafi dəyər nəzəriyyəsini (mənfəəti) qəbul edirsə onda o, dəyər nəzəriyyəsini inkar etməli idi.

Digər tərəfdən Rikardonun mənfəət nəzəriyyəsində dəyər nəzəriyyəsi ilə orta mənfəət nəzəriyyəsi arasında ziddiyyət yaranır. Belə ki, Rikardo dəyərin istehsal qiymətinə çevrilməsi prosesinə toxunur, onu həll etməyə çalışır. Bunu əmək-dəyər nəzəriyyəsi ilə əlaqələndirməyə cəhd edir. Lakin bu sahədə müəyyən çətinliklərlə rastlaşır. Son nəticədə orta mənfəət qanununu bilavasitə dəyər

downloaded from KitabYurdu.az

qanununa qarşı qoyur və onların arasında ziddiyyət olduğunu qeyd edir, dəyəri istehsal qiymətilə eyniləşdirir. O, orta qiymətlərin dəyərlə uyğun gəlməsini təsadüfi, müstəsna bir hal kimi verir.

Rikardo belə nəticəyə gəlir ki, mənfəət işdə olan işçilərin yaxud onların tutulmasına sərf olunan kapitalın həcminə proporsional olmalıdır. Həqiqətdə isə mənfəətin bütün kapitalın həcminə proporsional olması aydınlaşır. Bununla o, hesab edirdi ki, kapital yeni dəyər yaratmır və bu səbəbə görə mənfəət bütün kapitalın həcminə proporsional olmamalıdır. Ona görə də, bu halda ziddiyyət yaranır və əmək-dəyər nəzəriyyəsinə uyğun gəlmir.

Rikardonun iqtisadi təlimində kapital anlıyışına diqqət yetirərkən sənaye çevrilişi dövründə əmtəə istehsalına sərf olunmuş istehsal vasitələrinin dəyərinin götürülməsi probleminin qoyuluşu böyük əhəmiyyət kəsb edir. Belə ki, bu zaman o, məhsuldar formada külli miqdar kapital yığımı yaratmışdır. Bu məsələyə əvvəllər diqqət yetirilsə də ilk dəfə olaraq problemin qoyuluşunu konkretləşdirmiş və göstərmişdir ki, "Əmtəənin dəyərinə təkcə bilavasitə ona tətbiq edilən əmək deyil, bu əməyə şərait yaradan avadanlığa, maşına, alətlərə, binaya sərf olunan əmək də təsir edir". Lakin Rikardo dövriyyə kapitalının rolunu aydınlaşdırmamışdır. Bu ondan irəli gəlir ki, Rikardonun yaşadığı dövr kapitalın bir tərəfdən əsas və dövriyyə kapitalına, digər tərəfdən isə sabit və diyişən kapitala bölgüsünün aparılmasına ya elmi cəhətdən imkan verməmiş, yaxud da bu onun üçün məqsəd olmamışdır. Bu da öz növbəsində kapitalın üzvi quruluşunu müəyyənləşdirməyə və eləcə də kapitalist iqtisadiyyatının bir sıra mürəkkəb problemlərinin (istehsal qiyməti, mütləq renta, izafi dəyərin konkret formaları, mənfəət normasının azalma meyli qanunu və s.) həlli haqqında müəyyən fikir söylənilməsini çətinləşdirmişdir. Nəticə etibarilə Rikardo kapitalı istehsal vasitələrilə eyniləşdirmişdir.

downloaded from KitabYurdu.az

D.Rikardonun iqtisadi təlimində pul tədavülü və banklar məsələsi mühüm yer tutur. Bu Rikardonun dərin nəzəriyyəçi olması ilə yanaşı, yaşadığı dövrlə də bilavasitə bağlıdır. Belə ki, XYIII əsrin sonu, XIX əsrin əvvəllərində İngiltərədə banknotların qiymətdən düşməsi, onun qızıla dəyişdirilməsinin qadağan edilməsi, qızıl valyutaya qayıtmaq kimi iqtisadi əhəmiyyətli məsələlər müzakirə olunurdu və Rikardo bunlardan kənarda qala bilməzdi.

Rikardo hələ o vaxt pul tədavülü haqqında çox deyildiyini göstərərək yalnız tədavüldə olan pulların kəmiyyətini və onların dəyərini tənzimləyən bəzi qanunların qısa oçerkini verməklə kifayətlənmişdir. Onun fikrincə qızıl və gümüşün dəyəri, eyniylə də bütün digər əmtəələrin dəyəri onların istehsalı və bazara çıxarılması üçün zərüri olan əməyin miqdarına bərabərdir. Qızılın gümüşdən bahalığı ona olan tələbin çoxluğu ilə deyil, qızılın həmin miqdarda gümüşdən əldə edilməsi üçün sərf olunan əməkdən artıq əməyə başa gəlməsi ilə əlaqədardır. İkincisi, ölkədə istifadə oluna bilən pulun miqdarı onların dəyərindən asılıdır. Belə ki, əgər tədavüldə yalnız qızıldan istifadə olunarsa onda onun miqdarı həmin məqsədə istifadə olunan gümüşdən aşağı olar. Yəni qızıl gümüşjən 15 dəfə bahadırsa, onda tədavülə lazım olan qızıl gümüşdən 15 dəfə az olacaqdır. Üçüncüsü, tədavül heç vaxt o qədər bol ola bilməz ki, öz həddindən kənara çıxa bilsin. Çünki tədavül vasitəsinin dəyərini aşağı salmaqla həmin nisbətdə onların kəmiyyətini artırmaq, onların dəyərini artırmaqla isə kəmiyyətini azaltmaq olar. Bununla yanaşı Rikardo İngiltərədə pul kəsilməsi işinə, onun tənzimlənməsinə öz münasibətini bildirir və göstərir ki, tədavül vasitəsi (metal pul nəzərdə tutulur) heç vaxt onların çəkisinin azalmasına bilavasitə proporsional olaraq aşağı salınmamışdır. Bunun da səbəbi odur ki, onların kəmiyyəti heç vaxt metal pulların daxili dəyərinin (çəkisinin) aşağı düşməsinə proporsional olaraq artırılmır.

downloaded from KitabYurdu.az

Rikardonun fikrincə ölkədə pul buraxılışı qaydaya salınmalı və kağız pulların buraxılışı məlum məhdudiyyətlərə və nəzarətə əsaslanmalıdır. Digər tərəfdən, o göstərir ki, hər cür qiymətli metal külçələrinin idxal və ixracına tam azadlıq verilməlidir. Onun fikrincə pulun dəyəri tədavüldə bərqərar olur və onların kəmiyyətindən asılıdır. Belə ki, əgər qızıl pul ölkəyə çox gələrsə onda qiymətlər yuxarı olar, əgər az gələrəsə qiymətlər aşağı olar. Bununla o, ölkədə qızılın toplanmasına müsbət hal kimi baxır və göstərir ki, bu halda qiymətlər yüksəlir, xaricdən ölkəyə mal gətirilməsi faydalı olur. Deməli, ölkənin ticarət balansında qızılla ödənilməli olan vəziyyət yaranır, qızıl ölkədən kənara çıxır, qiymətlərin aşağı düşməsi baş verir. Bu da öz növbəsində xarici malların ölkəyə gətirilməsini məhdudlaşdırır və müvazinət yaranır. Ölkədə qızıl çatışmadıqda vəziyyət əks istiqamət alır və beləliklə, ticarət balanslarını bərabərləşdirən və ölkələr arasında qızılı bölüşdürən avtomatik mexanizm yaranır.

Ümumiyyətlə götürdükdə, Rikardo pul tədavülünün çatışmazlıqlarını göstərməklə yanaşı bazar iqtisadiyyatının inkişaf tələblərinə uyğun gələn pul sistemini hazırlamışdır. O, iqtisadiyyatın inkişafının mühüm şərti kimi sabit pul tədavülünü qəbul edir və bu sabitliyin yalnız qızıla əsaslanan pul sistemində görür. İngilis bankına banknotlar buraxmaq, dövlət vəsaitini idarə etmək hüququ almaq və s. Milli Bank yaratmağı təklif edir. Pul nəzəriyyəsinin əsasına əmək-dəyər nəzəriyyəsini qoyur, qiymətli metallara xüsusi növ əmtəə kimi baxır və onların dəyərini əmək məsrəflərilə müəyyən edir. Digər tərəfdən isə, kağız pul tədavülü ilə qızıl əsasında prinsipial fərq qoymur və hesab edir ki, qızıl da mahiyyət etibarilə dəyərin nişanəsidir və qızıl pullar kağız pula dəyər nişanəsi kimi tam dəyişdirilə bilər. Odur ki, pulu tədavül vasitəsi hesab edir.

downloaded from KitabYurdu.az

D.Rikardonun yaşadığı dövr və ondan da əvvəl İngiltərə üçün xarici ticarət mühüm rol oynamışdır. "Siyasi iqtisadın və vergiqoymanını əsasları" əsərində o, beynəlxalq ticarət məsələlərinə, onun reallaşdırılması amillərinə diqqət yetirmiş, öz iqtisadi mülahizələrini söyləmişdir. Onun fikrincə, xarici ticarətin genişlənməsi ölkədə bilavastə dəyərin məbləğini artıra bilməz, amma bu əmtəə kütləsinin, nəticə etibarilə həyat rahatlıqlarının miqdarının sürətlə artmasına səbəb ola bilər. Göründüyü kimi xarici ticarətin açıq, yaxud da qapalı iqtisadiyyat üçün əhəmiyyət kəsb etmədiyi, əmək haqqına və mənfəət normasına təsir etmədiyi, lakin ölkənin sərvətinin və gəlirinin real olaraq artmasına səbəb olacağı təsdiq olunur. Daha sonra Rikardo ardıcıl olaraq təhlil etdiyi üç növ nemətlər arasındakı fərqləri aydınlaşdırmağa çalışır: ölkə daxilində istehsal edilmiş, daxili istehlak üçün nəzərdə tutulmuş nemətlər-parça, ayaqqabı, taxıl, baş geyimləri və s; ölkə daxilində istehsal edilən, lakin ixrac olunan nemətlər; idxal olunmuş dəbdəbə- zinət, bəzək əşyaları, şərab kimi məhsullara olan tələbi elastik hesab olunur. Mahiyyət ondan ibarətdir ki, əgər idxal olunan əmtəələr əmək haqqına əldə olunan əmtəələrdən ibarət deyildirsə mənfəət norması yüksəlməyəcəkdir. Buna baxmayaraq o, idxal olunan dəbdəbə zinət əşyalarının nisbətən ucuz olmasını, istehlakçı kimi kapitalistlərin qənaət etmələrinə səbəb olmasını və kapital yığımını stimullaşdırması fikrini irəli sürür. Bu da öz növbəsində müqayisəli xərclər "coğrafi əmək bölgüsü" qanununa gətirib çıxarır.

Rikardo demək olar ki, ilk iqtisadçıdır ki, xarici ticarəti daxili ticarətdən ayıraraq xüsusi nəzəriyyə kimi irəli sürür. Kapitalın ölkələr arasında hərəkətə qabil olmaması, əmək-dəyər nəzəriyyəsinin milli sərhədlər vasitəsilə aparılan ticarətə aid edilməməsi bu nəzəriyyənin əsasında durur. Belə hesab edilir ki, xarici ticarətdə ölkələr arasında mənfəət norması bərabərləşir. Belə

downloaded from KitabYurdu.az

olan halda ölkələr arasında ticarət hərəkəti tənzimləyicisinin nə olacağı, barter ticarətinin nə əsasda müəyyən ediləcəyi suallarına cavab axtarılır və müqayisəli xərclər prinsipinə üstünlük verilir. Müqayisəli xərclər dedikdə bu və ya digər əmtəələr üzrə çəkilən xərclərin bərabər, mütləq və müqayisəli səviyyələri nəzərdə tutulur. Rikardoya görə əgər mövcud ölkə həm yulafı, həm də şərabı az xərclə istehsal edirsə, lakin şəraba nisbətən yulafda onun üstünlüyü çoxdursa, o zaman xərclərin müəyyən nisbətində və mübadilənin müəyyən proporsiyalarında onun üçün, yalnız yulaf, başqa ölkə üçün yalnız şərab istehsal etmək hər halda daha faydalı olar. Müqayisəli xərclər prinsipi və ya müqayisəli üstünlük prinsipi bunu nəzərdə tutur. Bu fərdi mənafe ardınca getmək ən təəccüblü formada hamının ümumi rifahı ilə bağlıdır. Eyni zamanda əməksevərliyə stimul yaradır, fərasətliliyi, bacarığı mükafatlandırmaqla, təbiətin bizə verdiyi bütün qüvvələri müxtəlif millətlər arasında ən faydalı, daha da qənaətli əmək bölgüsünə gətirir. Bütövlükdə məhsul kütləsini artırmaqla o ümumi rifahı yüksəldir, ümumi mənafe və birlik naminə bütün sivil millətləri vahid ümumdünya icması ilə bağlamış olur. Lakin Rikardoya görə bu o şərtlə mümkün olar ki, şərab Fransa və Portuqaliyada, çörək Amerika və Polşada, müxtəlif metal məmulatları və digər əmtəələr İngiltərədə hazırlanmış olsun.

D.Rikardonun vergilər haqqında fikirləri də diqqəti cəlb edir. Onun fikrincə vergilər ölkənin torpağı və əməyinin məhsulundan dövlətin sərəncamına daxil olan hissədir və onlar nəticə etibarilə ya ölkənin kapitalından, yaxud da gəlirindən ödənilir. Rikardo kapitala, istehsal vasitələrində təcəssüm edən yığıma əmək kimi baxır. Ölkənin illik istehsalı onun illik istehlakını əsaslı şəkildə qabaqlayarsa, belə deyilir ki, kapital artır. Ölkənin illik istehlakını illik istehsalı ödəmədiyi halda, belə deyilir ki, kapital azalır. Beləliklə,

downloaded from KitabYurdu.az

kapital istər istehsalın artırılması ilə, istərsə də istehlakın (qeyri istehsal istehlakın) azalması nəticəsində arta bilər.

Əgər dövlətin istehlakı əlavə vergilərin alınması nəticəsində artırsa və istehlak istehsalın artırılması yaxud da əhali tərəfindən istehsalın azalması yolu ilə ödənilirsə onda vergi gəlirin üzərinə düşür və milli kapital toxunulmamış qalır. Əgər istehsal artmırsa yaxud əhalinin istehlakı (qeyri-məhsuldar) bütövlükdə azalmırsa, onda vergilər kapitalın üzərinə düşmüş olur. Başqa sözlə, nəzərdə tutulmuş istehsal təyinatlı fonda toxunulur. Ölkənin kapitalı tarazlı (mütənasib) şəkildə azaldıqda onun istehsalı da azalmış olur. Ona görə də xalqın və dövlətin qeyri-istehlak xarakterli xərcləri davam edirsə və əgər illik təkrar istehsal daim azalırsa, onda xalqın və dövlətin resursları artan sürətlə aşağı düşər, nəticə isə dilənçilik və yoxsullaşma ilə bitmiş olar.

Rikardonun fikrincə İngiltərənin timsalında əhalinin artması, əkinçiliyin genişlənməsi, gəmiçilik və sənayenin inkişafı, limanların tikilməsi, ümumiyyətlə qiymətli (burada kapital tutumu nəzərdə tutulur) müəssisələrin tikilməsi həm kapitalın, həm də illik istehsalın artmasına əyani sübutdur. O, qeyd edir ki, əgər vergilər olmasa kapitalın artımı daha da yüksək ola bilər. Bununla Rikardo vergilərin əleyhinə çıxmır və bütün vergilərin ya kapitalın yaxud da gəlirin üzərinə düşdüyünü təkidlə israr edir. Belə ki, əgər vergilər kapitalın üzərinə düşərsə onda ölkənin istehsal fəaliyyətinin həcmini tənzimləyən fond müvafiq olaraq azalmış olur. Əgər vergilər gəlirin üzərinə düşərsə onda ya yığım azalmış olur, yaxud da vergi ödəyicilərini, özlərinin əvvəlki qeyri-məhsuldar (həyati tələbatların ödənilməsi baxımından) istehlakları müvafiq olaraq aşağı salmağa məcbur edir. Bu fikri davam etdirərək Rikardo vergilərin tətbiqi məsələsində göstərir ki, insanların öz ictimai vəziyyətlərini və öz sərvətlərini nail olduqları səviyyədə qoruyub saxlamağa çalışmaları

downloaded from KitabYurdu.az

həmişə onları vergilərin gəlirlərdən ödənilməsinə sövq edir. Ona görə də vergi qoyuluşlarının və dövlət xərclərinin artdığı hallarda insanlar müvafiq olaraq öz kapital və gəlirlərini artıra bilmirlərsə onda rahatlıqları üçün istifadə etdikləri nemətlərin (əşyaların) kəmiyyətini azaltmalıdırlar. Buna görə də yığıma olan səyləri mükafatlandırmaq dövlət siyasətində bir vəzifə kimi qoyulmalıdır. O, kapitalın üzərinə düşə biləcək vergiləri heç bir zaman tətbiq etməməlidir. Belə ki, bu əməyin saxlanması fonduna toxunur və bununla da ölkənin gələcək istehsalını aşağı salmış olur.

İngiltərədə bu siyasətə etinasızlıq göstərilmişdir. Belə ki, ölən adamdan sağ qalan adama mülkiyyətin keçməsində, vergilərin qoyulması və vəsiyyətnamənin təsdiq edilməsində rüsumlar tətbiq olunurdu. Əgər 1 min f. st. mirasa 100 f. st. vergi qoyulmuşsa vərəsə mirası 900 f. st.-qə bərabər hesab edir və həmin verginin öz xərcləri üçün nəzərdə tutduğu gəlir hesabına ödəməyə xüsusi həvəs göstərmir. Odur ki, ölkənin kapitalı azalmış olur. Bununla yanaşı, əgər o, həqiqətən 1 min f. st. almış olsa onda vergi kimi nəzərdə tutulmuş 100 f. st.-qi ödəmək üçün yəqin ki, öz xərclərini həmin miqdarda azaltmış olardı və ölkənin kapitalı toxunulmamış qalardı.

D.Rikardo Adam Smitin fikrinə müraciət edərək göstərir ki, mülkiyyət ölən adamdan sağ qalan adama keçərkən vergilər son nəticədə mülkiyyətin verildiyi şəxsin üzərinə düşür. Torpaq satılarkən vergilər bütövlüklə satanın üzərinə düşür. Satıcı həmişə zərurət üzündən bu addımı atır və ona təklif olunan qiymətə razılaşmalıdır. Satıcı isə demək olar ki, almaq üçün heç vaxt məcburiyyətdə qalmır və ona görə də istədiyi qiyməti verməyi zəruri hesab edir. Digər tərəfdən o, torpağın vergi ilə birlikdə neçəyə başa gələcəyində maraqlı olur və verginin məbləği çox olduqda torpağa daha aşağı qiymət qoyulmsı ilə razılaşır. Ona görə də belə vergilər

downloaded from KitabYurdu.az

həmişə ehtiyacı olan şəxsin üzərinə düşür və odur ki, tez-tez kəskin, incidici mövqe tutmalıdır.

Mülkiyyətin bütün növlərinin, bir əldən digərinə keçərkən ödənilən vergilərin bu mülkiyyət növlərinin kapital dəyərini aşağı salır və bu da öz növbəsində məhsuldar əməyin saxlanılması üçün nəzərdə tutulmuş fondun azalmasına səbəb olur. Bunu əsas götürərək Rikardo hesab edir ki, bu hallar həmişə istər az və ya istərsə də çox səviyyədə xeyirsiz vergilərdir.

D.Rikardonun fikrincə ümumi rifah naminə mülkiyyətin sahibini dəyişmək və mübadiləni hər cür yüngülləşdirmək lazımdır. Belə ki, bu hər cür kapitalın onu tez və nisbətən əlverişli tətbiq edən əllərə düşməsinə yol açar, ölkədə istehsalın artmasına səbəb olar. O, Seyin belə bir fikrini də əsas götürür ki, rüsumlar, vergilər nə qədər ağır olarsa, hər cür razılıqlara, işgüzar fəaliyyətə və ümumi gəlirin artmasına bir o qədər maneçilik edər.

downloaded from KitabYurdu.az

# FƏSİL 10. KLASSİK SİYASİ İQTİSAD MƏKTƏBİNİN DAVAMI VƏ TƏNQİDİ

Kapitalizmin gələcək inkişafı ilə klassik siyasi iqtisad da müəyyən dəyişikliklərə məruz qalmışdır. XIX əsrin 30-50-ci illərinin əvvəllərində iqtisadçılar Smit və Rikardonun davamçıları kimi, onların ideyalarının şərhçiləri kimi çıxış edirdilər. Lakin kapitalizmin inkişafı sinfi mübarizənin - İngiltərədə çartizmin, Lion üsyanının və 1848-ci il inqilabında fransız fəhlələrinin səngər döyüşlərinin və s. kəskin güclənməsi ilə müşayiət olunurdu. Bu şəraitdə kapitalizmin tənqidi, A.Smitin və D.Rikardonun ideyalarının tənqid edilməsi üçün baza yaranırdı.

## §1. S.SİSMONDİ

Jan Şarl Leonar Sismond və Sismondi (1773-1842) İsveçrənin Fransız hissəsində protestant keşişinin ailəsində anadan olmuşdur. O, böyük ədəbi irs qoymuşdur. 1801-ci ildə onun "Tockananın kənd təsərrüfatının tənqidi", 1803-cü ildə "Kommersiya sərvəti haqqında

downloaded from KitabYurdu.az

və ya ticarət qanunvericiliyinə tətbiqdə siyasi iqtisadın prinsipləri"; 1807-ci ildə iki cilddə "İtalyan respublikalarının tarixi" əsərləri çapdan çıxmış, 1819-cu ildə onun "Siyasi iqtisadın yeni əsasları və ya əhali barəsində olan sərvət haqqında" başlıca əsəri, 1837-ci ildə "Siyasi iqtisad üzrə etüdlər", bir sıra əsaslı işləri nəşr olunmuşdur.

Sismondinin sosial-iqtisadi baxışlarının inkişafına iki dövrü ayırd edirlər. Əvvəlcə Sismondi mömin Smitçi olmuş, A.Smitin ideyalarını vicdanla təbliğ etmiş, rəqabət azadlığı və şəxsi mənafelərin azad oyunu uğrunda çıxış etmişdir. Lakin artıq özünün əsas "Siyasi iqtisadın yeni əsasları" əsərində o, bütün bəlaların kökü olan azad rəqabəti kəskin ittiham edir. Sismondinin tələbi iqtisadi azadlıq deyil, dövlət müdaxiləsi olmuşdur. Təsadüfi deyil ki, onun siyasi iqtisad predmetinin yeni tərifi Smit və Rikardodan fərqli olaraq, - "İnsanların maddi rifahının dövlətdən asılı olduğuna görə siyasi iqtisadın predmetini təşkil edir. Təsərrüfat proseslərini təbii kimi şərh edən ingilis klassiklərindən fərqli olaraq, -Sismondi belə hesab edirdi ki, bu proseslər də dövlət tərəfindən yönəldilməlidir.

Siyasi iqtisadın predmetini başqa cür təyin edən Sismondi ingilis klassiklərinin istehsalın istehlakdan ayırmalarını hesab edərək, Smitin və Rikardonun metodunun əleyhinə çıxış etmişdir. O, təcrid edilmiş insanın - Robinzonun istehsalını və istehlakını tədqiqatın çıxış nöqtəsi götürür.

Sismondi öz nəzəriyyəsinin mərkəzində bazarlar problemini, böhranların reallaşdırılmasını qoymuş və cəmiyyətin sinfi strukturu ilə sıx bağlamışdır. Onun fikrincə, iki sinifli "xalis" kapitalizm cəmiyyəti qəddar böhranlara məhkumdur, o qurtuluşu "üçüncü şəxslər"də - ara siniflərində (kəndlilər, kustarlar, sənətkarlar) görür.

Sismondinin dəyər, kapital və resurs nəzəriyyələri iqtisadi təlimlər tarixində özünəməxsus yer tutur. Smit və Rikardonun ardınca Sismondi əməyin sərvətin yeganə mənbəyi olduğunu elan

downloaded from KitabYurdu.az

edərək, əmtəənin dəyərini əməklə müəyyən edir. O, kapitalı istehsal ehtiyatı kimi, sərvətin mənfəət gətirən hissəsi kimi müəyyənləşdirir. Bu tərifdə o, kapitalın istehsal amili kimi nəzərdən keçirən mövqeyində durur. Kapitalın bu cür tərifdən irəli gələrək, Sismondi mənfəətin kapitalın özünün məhsuldarlığının nəticəsi olduğu tərifini verir. Sismondidə mənfəətin başqa şərhləri də – fəhlə əməyinin məhsulundan çıxarılması və ya kapitalistin qənaətkarlığı üçün mükafat kimi kapitalistin gəlirini ifadə edən şərhlər də vardır.

Renta haqqında təlimdə Sismondi özünü fiziokratların tərəfdarı kimi göstərmişdir (renta  torpağın sovqatıdır), o, əmtəə təsərrüfatı və kapitalizm kateqoriyalarının əkinçiliyə keçirilməsini qeyri-mümkün hesab edərək, Rikardonun renta tarixini rədd etmişdir.

Kapitalizmdə aşağı əmək haqqını Sismondi kapitalist münasibətlərilə əlaqələndirmişdir. O, zənn edirdi ki, əmək haqqı fəhlə əməyinin məhsulunun bütün dəyərinə bərabər olmalıdır, o, həmçinin əhalinin artımı ilə əmək haqqı arasında birbaşa əlaqəni də görürdü. Sismondi əhalinin artımını gəlirlər çərçivəsi ilə məhdudlaşdırmağı təklif edir və uşaqların doğulması valideynlərin gəlirləri ilə təmin olunmayıbsa, kilsəni fəhlələr arasında nigahları pisləməyə çağırırdı.

Sismondinin təkrar istehsal və böhranlar nəzəriyyəsi onun bütün iqtisadi təlimi əks olunan güzgüdür, müəyyən mənada bu onun keçmişə qayıdış utopik proqramıdır. Təcrid olunmuş insanın tarixinin bütün bəşəriyyətin tarixi olduğunu hesab edərək, o adi əmtəə istehsalçıları və kapitalist cəmiyyətləri arasındakı fərqi yalnız kəmiyyət fərqində görürdü. O, istehlakı kapitalist istehsalının məqsədi hesab edirdi. Sismondinin reallaşdırma və böhranlar haqqındja şərhi belədir. Bu problemlərə o, birlikdə baxmışdır. O, özünü Smitin və Rikardonun istehsal nəzəriyyəsinin əleyhdarı elan etmişdir. İctimai məhsulun dəyərini gəlirlərə gətirərək, Sismondi

downloaded from KitabYurdu.az

hesab edirdi ki, bütöv istehsal əmtəəsinin reallaşdırılması üçün istehsalın cəmiyyətin gəlirlərinə bütövlükdə uyğunluğu zəruridir. Sismondi yazırdı: "Beləliklə, milli gəlir və illik istehsal qarşılıqlı surətdə tarazlaşır və bərabər kəmiyyət olurlar". Reallaşdırmanı şəxsi istehlaka müncər edirdi və onun rəyincə, kapitalistlər məhz üstəlik dəyəri reallaşdıra bilməzlər, çünki ictimai məhsulun iki hissəsindən əmək haqqını fəhlələr öz istehlakları ilə reallaşdırırlar. Buradan Sisimondi belə nəticəyə gəlir ki, kapital üçün reallaşdırmanın şərtləri üzrə kapitalizmin inkişafı genişləndiyinə görə, daralan xarici bazar zəruridir. O an gələcək ki, kapitalist ölkələrinin inkişafı üçün xarici bazarlar olmayacaq və o zaman kapitalizmin iflası baş verəcək.

Böhranlar nəzəriyyəsi Sismondinin iqtisadi təlimini tamamlayır. O, isitehsal və istehlakın uyğunsuzluğunu böhranların əsas səbəbi hesab edir və böranları istehlakın kifayət qədər olmaması ilə izah edirdi. O zənn edirdi ki, 100 xırda istehsalçı bir kapitalist və 99 fəhlədən xeyli çox istehsal edirlər.

Sismondi kapitalizm yoluna qədəm qoymuş ölkələrin hökumətlərinə kapitalist inkişafını dayandırmaq xahişi ilə müraciət edirdi, oun fikrincə, ümumi rifahı və bolluğü yalnız hökumət təmin edə bilər.

## §2. PYER JOZEF PRUDON

40-60-cı illərdə Fransada fabrik sistemi qalib gəldi və sosial-iqtisadi ziddiyyətlərin kəskinləşməsini doğurdu. Bu dövrün qabaqcıl nəzəriyyəçilərindən biri P.J.Prudon sayılırdı. Bir çox iqtisadi və fəlsəfi - sosioloji xarakterli əsərlər onun tərəfindən yazılmışdır. Bu əsərlərdən ən mühümləri - "Mülkiyyət nədir"? (1840) və "İqtisadi ziddiyyətlər sistemi və ya yoxsulluq fəlsəfəsi" (1846), "Vergi nəzəriyyəsi" (1861) və s.-dir. Sismondi kimi o da kapitalizmi

downloaded from KitabYurdu.az

yaxşılaşdırmağa səy edərək, tənqid edirdi. Prudonu reformizmin və anarxizmin banisi hesab edirdi. Onun nəzəri irsi ziddiyyətlidir və Prudonun iqtisadi nəzəriyyəsinin təhlili çətindir.

Prudon "Mülkiyyət nədir?" kitabında məşhur "mülkiyyət oğurluqdur" tezisini irəli sürmüşdür. Bu müddəanı o, fransız inqilabının görkəmli xadimi Brissodan iqtibas etmişdir. O hesab edirdi ki, mülkiyyət məhvə məhkumdur, belə ki, təbiətə və şüura ziddir. Onun mövcudluğunu Prudon zorakılıq və yalanla bağlayır və buna görə də mülkiyyəti məhv edib, mülkü saxlamağı təklif edirdi ki, yalnız bu zaman yer üzündə pislik yox olacaqdır.

Prudon hesab edirdi ki, fərdi əməyə əsaslanan mülki mülkiyyətin meydana çıxmasına gətirə bilməz. O, mülkiyyəti faizin və mənfəətin yox edilməsi ilə aradan qaldırmağı təklif edirdi. Bu layihəni həyata keçirməyi hökumətin üzərinə qoyurdu. O, şəxsi mülkiyyəti ehtiyacsız yaşayışın əsası hesab edərək, idealizə edirdi.

Prudona görə kateqoriyalar "mütləq şüurun" hərəkəti nəticəsində meydana çıxır və dialektik hərəkət yaxşının və pisin ayrılması ilə nəticələnir, materiya isə onların mexaniki birləşməsini göstərir. Vəzifə – yaxşı tərəfi saxlayıb, pisi aradan qaldırmaqdır. Prudon belə hesab edirdi ki, əmək bölgüsünün, mülkiyyətin, dəyərin, rəqabətin və s. mənfi tərəflərini aradan qaldırmaqla, kapitalist əmtəə təsərrüfatını yaxşılaşdırmaq olar. Belə ki, əmək bölgüsündə yoxsulluğun, işsizliyin artımına aparan pis tərəfi aradan qaldırmaq, sərvətin artmasına kömək edən yaxşını isə saxlamaq; xüsusi mülkiyyətdə – bərabərsizliyə aparan tərəfi aradan qaldırıb, azadlıq və müstəqilliyi təmin edən yaxşı tərəfi saxlamaq lazımdır. O, rentanın müsbət tərəfini torpağa sahib olmaq və ondan istifadə etməkdə bərabərlik yaratmaq qabiliyyətini, torpağın məhsuldarlığının fərqli olması səbəbindən torpaq sahibinin gəliri mənimsəməsini mənfi hesab edirdi.

downloaded from KitabYurdu.az

Prudonda dəyərin şərhi daha orijinaldır. O, etiraf edirdi ki, sərvətin bütün elementlərini yalnız əmək yaradır, lakin eyni zamanda o, mübadilənin də mühüm rolunu göstərirdi. Bu onun "mübadilə dəyəri"nin təhlilindən və "müəyyən edən dəyər" adlandırılan dəyərdən xüsusilə görünür. Prudon hesab edirdi ki, mübadilə dəyərinin yaranması mübadiləni doğuran bir insan tələbatlarının müxtəlifliyi ilə bağlıdır. O, mübadilə dəyərini az tapılanla; istehlak dəyərini bolluqla eyniləşdirirdi, belə ki, az tapılan və bolluq anlayışları bir-birinə əks münasibətdədir, o bunu iqtisadi kateqoriyalara da aid edirdi. O, insanın azad iradəsini bu antitezanın səbəbi hesab edirdi. Mübadilə və istehlak dəyərləri arasındakı ziddiyyətlərin həlli vasitəsi kimi Prudon "müəyyən edən dəyəri" bilavasitə iş saatlarında ifadə olunmuş proporsional dəyəri adlandırmışdır.

O, mübadilənin rolunu ictimai sərvət elementlərinin məlum proporsiyada vahid bütövə birləşməsində, onların "müəyyən edən dəyərə" çevrilməsində və maddi nemətlərin bir hissəsinin uzaqlaşdırılmasında görürdü. Bu mənada həcmlə yol verilə bilən "müəyyən edən dəyər" proporsional dəyər kimi çıxış edir. Prudon hesab edirdi ki, bütün məhsullar müvafiq "müəyyən edən dəyərlə" satılarsa, onda tələblə təklifin uyğunluğu təmin olunacaq və hər kəs öz alıcısını tapacaqdır.

Prudon "müəyyən edən dəyər" nəzəriyyəsi ilə göstərmək istəmişdir ki, heç də hər bir dəyər bazarda reallaşdırılmır. əsl dəyər olmur və bazarda tutulmur. Buradan o belə bir nəticə əldə edirdi ki, dəyəri qabaqcadan müəyyən etməyə səy etmək lazımdır ki, bu məhsul hökmən realizə olunsun və qabaqcadan məlum olmur ki, o, dövriyyəyə düşəcək və istehlak sferasına keçəcək.

Prudon Sismondinin "üçüncü şəxslər"dən istifadə edilmədən "üstəlik dəyər"i realizə etməyən qeyri-mümkünlüyü haqqında

downloaded from KitabYurdu.az

müddəasına şərik idi. Prudon hesab edirdi ki, kapitalistlər xərclərə faiz artırırlar, bunun nəticəsində fəhlələr öz şəxsi məhsullarını buraxa bilmirlər. Prudon faizi istismar gəlirinin əsas forması hesab edərək, həmişə onun əleyhinə çıxış etmişdir.

Prudon kapitalizmi tənqid edərkən, iki sinfin (proletariat və burjuaziya) birləşməsi haqqında ideya irəli sürmüşdür. Onun fikrincə, zəhmətsiz gəlirlərin aradan qaldırılması üçün pulları fəhlə qəbzləri ilə ödəmək zəruridir. Ədalətli mübadilənin təşkilində əsas rol əmtəə istehsalçılarına "fəhlə qəbzlərini" verən xalq bankına ayrılırdı. Buradan onun digər - xırda istehsalçılara və fəhlələrə "müftə" mübadilə ideyası doğurdu. Prudonun arzusu xırda xüsusi mülkiyyətin əbədiləşdirilməsi idi.

Rikardo məktəbinin dağılması mərhələsində onun sonuncu görkəmli nümayəndəsi Con Stüart Mill (1806-1873) hesab edilir.

XIX əsrin 40-cı illərində əmək və kapital arasındakı antaqonizm sənaye inqilabının sona çatması, çartistlərin çıxışları, 1848-ci ilin inqilabi hadisələri ilə daha artıq bərqərar olurdu. Bütün bu hadisələr C.Millin əsərlərində öz əksini tapmışdır. O, londonda anadan olmuşdu, Rikardonun dostu, ingilis iqtisadçısı - rikardoçunun böyük oğlu idi.

C.Milli daha mühüm siyasi - iqtisadi ideyaları 1844-cü ildə çap olunmuş "Siyasi iqtisadın bəzi həll olunmamış problemlərinə aid oçerklər" əsərində öz əksini tapmışdır. 1848-ci ildə o, beş kitabdan ibarət iri həcmli "Siyasi iqtisadın əsasları və onların sosial fəlsəfəyə tətbiqinin bəzi aspektləri" əsərini nəşr etdirir. C.Mill öz dövrü üçün nisbətən qabaqcıl alim və ictimai xadim kimi çıxış etmişdir. 1865-ci ildə o, ümumi ingilis parlamentinin palata üzvü olmuş, əhalinin geniş təbəqələrinin islahatlarını fəal dəstəkləmiş, kişilərin və qadınların hüquq bərabərliyini müdafiə etmiş, mötəbər demokratiyanın genişləndirilməsi uğrunda fikirlərini bildirmişdir.

downloaded from KitabYurdu.az

C.Mill Rikardo təliminin tərəfdarı olub, onun təhlilini siyasi iqtisadda yaranmış vəziyyətə tətbiq etməyə çalışmışdır (Maltusun, Seyin və Sektorun təlimi nəzərdə tutulur). Onun başlıca əsəri olan "Siyasi iqtisadın əsasları" 1890-cı ildə - Marşallın "İqtisadiyyaitın prinsipləri" çap olunana qədər siyasi iqtisad elminin mötəbər ifadəsi hesab edilirdi. Kitabda kapitalizmin tənqidindənsə, XX əsr ingilis leyborizminin iqtisadi və sosial ideyalarının əsasına qoyulmuş fikirləri ən mühüm hesab olunur.

"Siyasi iqtisadın əsasları"nın strukturu onun baxışlarının məntiqi haqqında əyani təsəvvür yaradır. İstehsal, bölgü və mübadilə problemləri birinci, ikinci və üçüncü kitabın müvafiq bölmələrində şərh edilir; dördüncü və beşinci kitablarda o, nəzəri bazanı sosial islahatlar proqramına yaxınlaşdırır, bununla o, kapitalizmin gələcək inkişaf perspektivlərini bağlayır. C.Mill tərəfindən nəzərdən keçirilən sosial-iqtisadi problemlərin tədqiqinin metodologiyası klassiklərdən fərqli olaraq, bölgü və istehsal qanunlarının kəskin surətdə bir-birinə qarşı qoyulmasına əsaslanır. Göstərilənləri əsaslandırmaq üçün o, insan cəmiyyəti təkamülünün müxtəlif pillələrində bu münasibətlərin dəyərlərini mülkiyyət formalarının inkişafı ilə bağlayaraq, bölgü münasibətləri inkişafının tarixinə ekskurs edir.

C.Mill kapitalizmin başlıca kateqoriyalarınını təhlili zamanı bir qayda olaraq, A.Smitin və D.Rikardonun ideyalarını iəkrar edir. Lakin C.Mill faktiki olaraq, dəyərin əmək nəzəriyyəsi ilə əlaqəsini kəsir. C.Milldə yalnız mübadilə dəyəri və dəyər problemləri var, o, bunları "Mübadilə" adlanan üçüncü kitabında təhlil edir. C.Mill istehsal xərcləri nəzəriyyəsi mövqelərinə keçir və hesab edir ki, dəyər istehsal xərclərinin dəyərləri ilə müəyyən edilir. İstehsal xərcləri tərkibinə C.Mill mənfəəti də daxil edir.

Onun qiymətin sorğuya olan təsiri haqqında fikirləri məlum maraq doğurur. C.Mill "sorğunun elastikliyi" anlayışını bilmirdi, lakin

downloaded from KitabYurdu.az

qiymətin dəyişdiyi zaman sorğunun dəyişməsinin bəzi meyllərini xarakterizə etmişdi. Məhsuldar və qeyri-məhsuldar əmək problemini C.Mill bütövlükdə klassik siyasi iqtisad kimi həll etmişdir. Onun şərhində pul-dəyəri istehsal xərcləri ilə müəyyən edilən əmtəədir.

C.Mill kreditə böyük diqqət yetirmiş və ingilis bankına açıq bazarda əməliyyatları genişləndirməyi, uçot stavkalarının tənzimlənməsi üzrə fəal siyasət yeritməyi tövsiyə etmişdir.

"Siyasi iqtisadın əsasları" adlı beşinci kitabında C.Mill infrastrukturun yaradılmasında, elmin inkişafında dövlətin iqtisadi rolunu təhlil edir, sosial təminatın dövlət sisteminə və vergiqoyma problemlərinə böyük əhəmiyyətini qeyd edir.

## §3. NASSAU UİLYAM SENİOR

Senior kənd keşişinin ailəsində anadan olmuşdur. Oksford universitetinii bitirdikdən sonra o, vəkil işləmişdir. 30-40-cı illərdə o, müxtəlif hökumət komissiyalarında fəal iştirak etmişdir.

Seniorun (1790-1864) iqtisadi baxışları "Siyasi iqtisadın başlıca əsasları" (1836) və "Fabrikqanunvericiliyi haqında məktəblər" (1837) əsərlərində ifadə olunmuşdur. "Qənaətkarlıq nəzəriyyəsi" Seniora məxsusdur, Rikardonun əmək haqqında təliminə qarşı o, istehsal dəyərindəki xərclərin əmək və kapital olması, fəhlənin qənaətkarlığı üçün mükafatın əmək haqqı, kapitalistin isə mənfəət olması tezisini qoyurdu.

Senior tərəfindən əmək öz asudə vaxtını və dincliyini itirən fəhlənin fədakarlığı kimi nəzərdən keçirilirdi. Sennor kapitalın yerinə öz kapitalını istehsal vasitələrinə çevirərək, şəxsi istehlakdan özünü saxlayaraq kapitalistin fədakarlığını qoyur.

XIX əsrin 30-cu illərində Böyük Britaniyada 10 saatlıq iş günü uğrunda güclü mübarizə gedirdi. Senior 11,5 saatlıq iş günü ərzində

downloaded from KitabYurdu.az

(iş gününün uzunluğu bu qədərdir) birinci 10,5 saat avans edilmiş kapitalın dəyəri ödənilən, son saatda isə mənfəət yaradılan nəzəriyyə irəli sürmüşdür. Beləliklə, iş gününün 10 saata qədər qısaldılması mənfəətin yox olmasına səbəb olar, bu isə İngiltərənin iqtisadi vəziyyətinə mənfi təsirini göstərərdi, belə ki, sahibkarlarda təsərrüfat fəaliyyəti stimulları itərdi. Marks "Kapital"ın birinci cildində bu ideyanı istehza ilə Seniorun "sonuncu saatı" kimi xarakterizə etmişdir. "Son saat" nəzəriyyəsi o qədər cəfəngiyyat idi ki, sonralar müəllif özü də ondan imtina etmişdi.

## §4. CON RAMSEY MAK - KULLOX

Şotland iqtisadçısı Mak-Kullox (1789-1864) Rikardonun davamçısıdır. Onun baş əsəri olan "Siyasi iqtisadın əsasları" 1825-ci ildə çap olunmuşdur. Mak-Kullox əməyi dəyər mənbəyi hesab edərək, əməyin özünün tamamilə sərbəst şərhini vermişdir. O, əməyin insanlar, maşınlar, heyvanlar və ya təbiətin qüvvələri tərəfindən yerinə yetirilməsindən asılı olmayaraq, onu hərəkətlər və əməliyyatlar növü kimi müəyyən edirdi. Mak-Kulloxun fikrincə, dəyəri yalnız insanlar deyil, həm də heyvanlar, maşınlar, bioloji proseslər və təbiətin başqa qüvvələri işləyir və yaradır. Mak-Kulloxun baxışları XIX əsrin 20-ci illərində yenilik deyildi, hələ 1803-cü ildə Fransada istehsalın üç amili nəzəriyyəsi ilə J.B.Sey çıxış edirdi. Müvafiq olaraq, mənfəət onun şərhində kapital tərəfindən yaradılan dəyər idi.

## §5. TOMAS ROBERT MALTUS

İngiltərədə xırda istehsalçıların müflisləşməsi ilə müşayiət olunan sənaye çevrilişinin genişlənməsi prosesi daha çox xüsusi

downloaded from KitabYurdu.az

mülkiyyətin hökmranlığı ilə bağlanır. T.Maltusun yaradıcılığı əsasən XIX əsrin birinci rübündə formalaşmışdır, lakin onun elmi araşdırmalarının nəticələri müasir iqtisadi nəzəriyyə üçün qiymətlidir.

T.Maltus zadəgan ailəsində anadan olmuşdur. Kembric universitetini bitirdikdən sonra o keşiş, 1807-ci ildən isə kollecdə siyasi iqtisad professoru olmuşdur. 1798-ci ildə çoxsaylı hücumlar predmeti olan "Əhali qanunu haqqında təcrübə" adı altında anonim şəkildə çap etdirilmiş kitabı çıxmışdır. O, 1799-1803-cü illərdə Avropanın bir sıra dövlətlərinə səyahət edir və beş ildən sonra, 1803-cü ildə artıq öz adı ilə kitabın ikinci nəşrini buraxdırır (onun sağlığında cəmi 6 nəşr buraxılmışdır). Sonrakı nəşrlər yeniləşdirilmiş və genişləndirilmiş, nəticədə kitab geniş traktata çevrilmişdir.

Bitkilərin və heyvanların hədsiz çoxalması qabiliyyətinin saxlandığı təbiətlə analogiya üzrə Maltus israr edirdi ki, hər 25 ildə əhalinin 2 dəfə (yəni həndəsi silsilə ilə) artdığı zaman, insanların yaşayış vasitələri ədədi silsilədə olduğundan, tez arta bilməz. Əhalinin yaşayış vasitələrini üstələyən əhali qanunu da məhz çoxalmaq meylindən ibarətdir.

T.Maltusun elmi əsəri bir çox dünya şöhrətli alimlərin metodoloji bazası olmuşdur. V.M.Blauqun[58] hesab etdiyi kimi, nəzəriyyənin yeniliyi və orijinallığı iqtisadi fikir tarixində heç nə ilə müqayisə olunmayan inanılmaz uğur gətirmişdir.

Maltusun əhali nəzəriyyəsi əhali artımının cəmiyyətin ərzaq resurslarından sərt asılılığını müəyyən etdi, yaşayış minimumu ilə müəyyən edilən əmək haqqı nəzəriyyəsini əsaslandırmağa kömək etdi. Maltus öz nəzəriyyəsi ilə klassiklərin siyasi iqtisad haqqında bütün təsəvvürlərinə əsaslanan nə isə bir standart müəyyən etdi. Əhalinin optimal ölçüləri konsepsiyası əhalinin dəyişməsi haqqında

---

[58] V.M.Blauq. İqtisadi fikir retrospektivdə, M., 1994.

downloaded from KitabYurdu.az

mühakimə yürütməyə imkan verir. XIX əsrin ikinci yarısında doğumun aşağı düşməsi iqtisadçıların əhali problemlərinə marağını azaltdı və onlar ikinci dünya müharibəsindən sonra zəif inkişaf etmiş ölkələrdə əhali probleminə hazırlıqsız oldular.

1815-ci ildə T.Maltus elmi araşdırmalarını davam etdirərək, ilk sözləri A.Smitin məşhur "Xalqların sərvətləri"nin sərlövhəsini təkrarlayan daha bir əsər nəşr etdirdi. Bu, "Təbiət və torpaq rentasının artması haqqında tədqiqat" kitabı oldu. O, həmin əsərdə rentanın təbiətindən irəli gələrək, onun formalaşmasının və artımının mexanizmini açmağa, cəmiyyətdə istehsal olunan məcmu məhsulun reallaşdırılmasında gəlirlərin bu növünün əhəmiyyətini əsaslandırmağa cəhd edirdi. Lakin renta və iqtisadiyyatın bəzi başqa problemləri haqqında son mühakiməsini sonradan 1820-ci ildə yürütmüşdür. Həmin ildə Maltus nəzəri-metodoloji cəhətdən Rikardonun bir il əvvəl nəşr olunmuş məşhur "Siyasi iqtisadın əsasları"ndan az fərqlənən "Siyasi iqtisadın əsasları" adlı baş əsərini buraxdı. T.Maltus və D.Rikardo arasında dostluq münasibətləri və bir çox sosial-iqtisadi proqramlar üzrə ümumi fikirlər mövcud idi. Belə ki, Maltus mənfəət nəzəriyyəsinin işıqlandırılmasında, faktiki olaraq D.Rikardonu təkrarlayırdı. Hər iki müəllif sonuncunu qiymətin tərkib hissəsi kimi təsəvvür edirdilər.

Maltusun Rikardodan irəliyə getdiyi əsas aspekt - onun məcmu ictimai məhsulun realizə problemlərinin tədqiqatlarıdır. XIX əsrin əvvəllərində "klassik məktəbin" iqtisadi nəzəriyyəsinin nail olduğu səviyyəyə uyğun olaraq, yığım istehsalın gələcək artımının investisiyalaşdırılmasını təmin edən əsas problem hesab olunurdu. İstehlakdakı mümkün çətinliklər nəzərə alınmırdı və T.Maltus "Prinsiplər"də ictimai məhsulun yaradılmasına və realizə edilməsinə kömək edən "üçüncü şəxslər"i haqqında o dövr üçün gözlənilməz olan müddəanı irəli sürür. Müasir iqtisadi nəzəriyyə nöqteyi-

downloaded from KitabYurdu.az

nəzərindən Maltusun "üçüncü şəxs"lərinin təqdim etdikləri sorğu vasitəsilə tam reallaşmasının mümkünlüyü haqqında konsepsiyası özünü doğrultmadı, lakin o, C.Keynsi antiböhran ideyaları və "səmərəli sorğu" amilləri ilə, "istehsal məhsulunun cəmiyyətin ara təbəqələrində" istehlakında rolu ilə silahlandırırdı.

Maltus dəyərin əmək nəzəriyyəsinə qarşı əmtəənin həmin əmtəəyə alınan əmək dəyərinin Smit tərifi variantını qoymuşdur. Əməyin kəmiyyəti onun canlı maddiləşmiş əməyə və "avans edilmiş kapitala" mənfəəti ilə bu əmtəənin aid etdiyi istehsal xərcləri ilə müəyyən edilir. Məhz "üçüncü şəxs"lər kapitalistlərin mənfəətinin reallaşmasını mümkün edirlər. Mənfəətin "üçüncü şəxs"lərsiz reallaşmasının mümkünlüyü haqqında ideya Sismondidən iqtibas edilmişdi.

Maltusun Rikardoya qarşı çıxması Rikardo təliminin tərəfdarları ilə əleyhidarları arasındakı mübahisələrin başlanğıcını qoymuşdur.

## §6. JAN BATİST SEY

XYIII əsrin sonu - XIX əsrin birinci yarısı - Fransa tarixinin bu dövrü görkəmli hadisələr və böyük sarsıntılarla zəngindir. 1789-cu il - Böyük Fransa inqilabının başlanğıcı, 1799-1815-ci illər - Napoleon Bonapartın Konsulluğu və İmperiyası, 1815-ci il - Burbonların bərpa edilməsi, 1830-cu il - iyul inqilabı, Lui Filippinin konstitusiyalı monarxiyasının qurulması. 1848-ci il - Fevral inqilabı və Respublika elan edilməsi. 1851-ci il - Banopart çevrilişi. 1852-ci il -ikinci imperiyanın əsasının qoyulması.

Siyasi dəyişikliklərlə yanaşı, Fransanın iqtisadiyyatı da dəyişikliklərə məruz qalmışdı. Bu dövrdə sənaye inqilabı genişlənmiş, maşın sənayesi inkişaf etməyə başlamışdı. Burjuaziya cəmiyyətdə üstünlük təşkil edən qüvvə kimi zadəganlığı iqtisadi və

downloaded from KitabYurdu.az

siyasi cəhətdən dəyişdi. Bir çox şeylərdə (xüsusilə maşınların tətbiqində) İngiltərədən geridə qalan Fransa yenə də sənaye çevrilişinin əsas mərhələlərindən sürətlə keçirdi. Paris iri sənaye və maliyyə mərkəzinə çevrilirdi. Səhmdar cəmiyyətlərin sayı və birja sövdələrinin həcmi artır, banklar inkişaf edir, əmanət kassaları yaranırdı.

Fransada XIX əsrin birinci otuz ilində A.Smitin yaradıcı irsininin önəmli davamçısı J.B.Seyin iqtisadi təliminin formalaşdığı və inkişaf etdiyi şərait belə idi.

J.B.Sey 1767-ci il yanvarın 5-də Lionda tacir ailəsində anadan olmuşdur. İqtisadçı - alim kimi J.B.Seyin həyat yolu məlum mənada Fransada XYIII əsrin sonu - XIX əsrin əvvəllərində baş vermiş siyasi hadisələrin təsirilə və qismən 1789-cu ildə öz ölkəsindən fərqli olaraq, təsərrüfatda və siyasi iqtisadda ön plana keçən aqrar problemlərlə deyil, sənaye problemləri keçən İngiltərəyə səfərinin təəssüratları altında formalaşmışdır.

J.B.Seyin ilk nəzəri xidmətlərindən biri əsasən milli əhəmiyyətə malikdir. Məlum olduğu kimi, 1802-ci ildə A.Smitin "Xalqların sərvətləri"nin fransızca tərcüməsinin meydana çıxmasına baxmayaraq, XYIII əsrin ortalarında Fransada ölkənin iqtisadi fikrində hakim vəziyyət tutmaqda davam edən fiziokratik nəzəriyyələr yarandı və geniş yayıldı. Fiziokratizmin yaranmış stereotiplərini yalnız J.B.Sey "Siyasi iqtisad traktatı və ya sərvətlərin yaranması, bölünməsi və istehlakı üsulunun sadə xülasəsi" (1803) adlı öz ilkin, lakin mühüm əsərləri sayəsində aradan qaldıra bilmişdir. 1817-ci ildə o, özünün "Siyasi iqtisadın katekizisi", "Siyasi iqtisad traktatı"nın qısa xülasəsini çapdan buraxmışdır.

1830-cu ildən başlayaraq, J.B.Sey ömrünün son illərində Kollec de Franeda xüsusi olaraq onun üçün yaradılmış siyasi iqtisad kafedrasına başçılıq etmiş, sonradan Frederik Bastianın, Mişel

downloaded from KitabYurdu.az

Şevalyenin, Şarl Donuayanın və başqalarının təmsil etdikləri iqtisadi fikir məktəbinin banisi olmuşdur. J.B.Sey vəfatından bir neçə il əvvəl, öz həyatında yekun işi olan "Praktiki siyasi iqtisadın tam kursu"nu (1828-1830-cu illər) nəşr etdirmişdir. Burada o, hər şeydən əvvəl, iqtisadi liberalizm, kənardan iqtisadiyyata müdaxilə edilməməsi prinsiplərinə əsaslanan iqtisadi nəzəriyyəsinin praktiki əhəmiyyətini əks etdirməyə çalışmışdır.

Jan Batist Sey 1832-ci ilin noyabrında Parisdə vəfat etmişdir.

Başqa klassiklər kimi, J.B.Sey də siyasi iqtisadı dəqiq elmlər nümunəsi üzrə qururdu. Metodoloji planda bu, universal və birinci dərəcəli əhəmiyyətə malik olan qanunların, kateqoriyaların və nəzəriyyələrin qəbul edilməsini bildirir.

J.B.Sey metodologiyası üçün siyasi iqtisadın üç sərbəst hissəsində istehsal, bölgü və istehlakda təsnifləşdirilməsi xarakterikdir, bu onun "Siyasi iqtisad traktatı"nın - "Sərvətlərin necə istehsal edilməsi, bölüşdürülməsi və istehlakı haqqında tədqiqatları"nın hazırlanmasında da öz əksini tapmışdır. Bununla belə, J.B.Seyə görə istehsal, bölgü və istehlak sərbəst və müstəqil bir şey kimi çıxış edir.

J.B.Sey metodologiyası üçün tarixə ziddilik xarakterikdir. Belə ki, "İstehsal" bölməsində başlanğıc anı kimi onda ictimai müəyyən edilmiş istehsal tipi deyil, ümumiyyətlə, maddi nemətlər istehsalı çıxış edir.

J.B.Seyin fikrincə, siyasi iqtisadın böyük praktiki əhəmiyyəti vardır. Dövlət xadimləri görülən tədbirlərin nəticələrini qabaqcadan görmək üçün onun prinsiplərini rəhbər tutmalıdırlar.

J.B.Seyin və onun məktəbinin iqtisadi təliminin nəinki müasirləri, həm də sonrakı dövrün iqtisadçıları arasında çoxlu tərəfdarları və davamçıları olmuşdur. Belə ki, D.Rikardo Seyə hörmət və rəqabətlə yanaşmış, özünün ölümünə qədər onunla intensiv

downloaded from KitabYurdu.az

surətdə məktublaşmışdır. Rikardo qeyd edirdi ki, fransız tədqiqatçıları sırasında siyasi iqtisadı Türqo, Sismondi və Sey zənginləşdirmişdir.

J.B.Sey bazarların, qiymətqoymanın, daxili və xarici ticarətin azadlıq prinsiplərini, azad rəqabəti və proteksionizmin hər hansı təzahürlərinin yolverilməz olduğunu sözsüz qəbul edərək, bu prinsipləri absolyut dərəcəsinə qaldıraraq özünə şübhəsiz, smitçi nüfuzu qazanmışdır. Bunların qəbul edilməsi ilə o, bəşəriyyətə iqtisadi böhranların obyektiv qeyri-mümkünlüyünü qabaqcadan göstərmişdir. J.B.Seyin ictimai məhsulun reallaşdırılması müddəası sonralar "bazarlar qanunu" və ya sadəcə "Sey qanunu" adını aldı və bu "qanun"a nəinki elmi siyasi iqtisadın dayaqları olan Rikardo, Maltus və başqaları, həm də XX əsrin əvvəllərinə qədər iqtisadi fikir məktəblərinin başqa iqtisadçıları da şərik oldular. Helbreytin obrazlı tə:birincə, "Sey qanunu"nun insan tərəfindən qəbul olunub-olunmaması XX əsrin 30-cu illərinə qədər iqtisadçıların dəlillərdən fərqləndikləri əsas əlamət olmuşdur.

Daxili və xarici ticarətdə "Məhsullar məhsullar üçün ödənilir" - J.B.Seyin bazarlar qanununun mahiyyətidir. Bu məşhur fikir tamamlanmış mənada dərin makroiqtisadi təhlilin başlanğıcıdır. Məcmu tələb və təklif bir-birindən asılı olur, yə:ni Seyin qanunu makroiqtisadi təhlildən irəli gələn fikirləri makroiqtisadi göstəricilərə tətbiqindən qoruyur. Ayrıca əmtəə bütün qalan əmtəələrə nisbətən artıqlaması ilə istehsal oluna bilər.

"Seyin qanunu" ondan ibarətdir ki, cəmiyyət tərəfindən iqtisadi liberalizmin bütün prinsiplərinə nail olduqda və riayət etdikdə, istehsal uyğun istehlak doğuracaq, yəni əmtəə və xidmətlərin istehsalı hökmən bu əmtəə və xidmətəlirn sərbəst reallaşdırılan gəlirlərini doğuracaq. "Sey qanunu" bazarda çevik və azad qiymətqoyma iqtisadiyyatın özünü tənzimlənməsinin təminatçısı

downloaded from KitabYurdu.az

olmaqla, təsərrüfat konyukturundakı dəyişikliklərə, demək olar ki, ani reaksiya verməsinə səbəb olacağını güman edən iqtisadi liberalizm konsepsiyasının tərəfdarları tərəfindən bu cür qəbul edilirdi.

Bununla bərabər, Seyin özü "təklif müvafiq tələb yaradır" ifadəsini heç zaman işlətməmişdir, bu ifadə isə Keyns tərəfindən kəşf olunmuşdur. Yəqin ki, o, bu fikrə Seyin bu və ya digər əmtəənin ayrılıqda artıqlaması ilə istehsal oluna biləcəyi, lakin heç zaman bütün əmtəələrin bir dəfəyə istehsal oluna biləcəyi haqqında başlıca fikrini təkzib etmək üçün müraciət etmişdir.

Bizim dövrdə "Sey qanunu" haqqında diskussiya – iqtisadi nəzəriyyədə neoklassik və neoispan istiqamətlərinin tərəfdarları arasındakı diskussiyadır.

Seyin iqtisadi baxışları Maltusun əsərlərində müəyyən əksini tapmışdır. Onlar hər ikisi hesab edirdi ki, əmtəənin dəyəri istehsal vasitələrinə, əmək haqqına və rentaya istehsal prosesində mülkiyyətçi – sahibkarın xərclərindən düzəlir. Smit və Rikardonun davamçıları mənfəət və rentanın yaranmasını fəhlələrin əməyinin dəyərindən tutulmalar kimi, əməyin kapitalla istismarından nəzərdən keçirirdilər. Sey, Maltus davamçıları isə həm əmtəənin dəyərini, həm də cəmiyyətin siniflərinin gəlirlərini birgə əməkdə və bu siniflərin nümayəndələrinin dinc əməkdaşlığında görürdülər. Lakin Sey də Smitdəki kimi dəyərin bir neçə tərifi vardır. Smitin istənilən əmtəənin iki ayrılmaz xüsusiyyətlərini – mübadilə dəyəri və istehlak dəyəri olması müddəasını yadda saxlayaraq, Sey predmetlərin faydalılığı və dəyərlərin qarşılıqlı əlaqəsinin xüsusi əhəmiyyətini qeyd etmişdir. O yazırdı ki, "Dəyərlər predmetin faydalılığının meyarıdır". Bununla da, Sey dəyərin əmtəənin faydalılığı dərəcəsi ilə ölçülməsini ehtimal edirdi, ona qədər bu nəzəriyyəni Türqo və başqaları inkişaf etdirmişdir.

downloaded from KitabYurdu.az

Eyni zamanda, əmtəənin dəyərinin yaradılmasında Sey özünün təklif etdiyi istehsalın üç amili nəzəriyyəsinə böyük əhəmiyyət verirdi. Əmək, torpaq və kapital, onun fikrincə, istehsal prosesində iştirak edərək, dəyərin yaradılmasına xidmət göstərirlər.

Sey üç amil nəzəriyyəsindən irəli gələn üççəhətli düstura uyğun olaraq, "əmək" amilinin fəhlələrin gəliri kimi əmək haqqını, "kapital" amilinin kapitalistlərin gəliri kimi mənfəəti, "torpaq" amilinin isə torpaq sahələrinin gəliri kimi rentanı doğurması, əslində A.Smitin baxışlarının özünəməxsus şərhi olmuşdur. Söhbət ondan gedir ki, Sey cəmiyyətin sinfi strukturunun gəlirlərin müxtəlif növlərinin mənşəyinə və bölüşdürülməsinə təsiri ideyasını Smitdən iqtibas edərək, "dəqiqləşdirmişdir" ki, yuxarıda adları çəkilən amillər ("əmək", "kapital", "torpaq") fəhlələrin, kapitalistlərin və torpaq sahiblərinin gəlirlərinin yaradılmasında müstəqil əhəmiyyətə malikdirlər.

Seydə qeyri-məhdud azad rəqabət şəraitində sahibkarların istehsal amillərinin və cəmiyyətin siniflərini istismar etməsinin mümkünlüyü haqqında hər cür fikir rədd edilir.

Seydə dəyərin üçüncü tərifi də vardır. O israr edirdi ki, predmetin dəyəri müəyyən olunmayana qədər "sərbəst və qeyri-müəyyən"dir. O yalnız mübadilədə müəyyən edilir: bu predmetin dəyərinin ölçü meyarı "üçüncü şəxs"lərin onun mübadiləsi üçün verməyə razılaşdıqları predmetlərin sayıdır. Başqa sözlə, Seyə görə, dəyər tələb və təklifin nisbəti ilə müəyyən edilir.

İctimai məhsulun proporsiyalarında dəyərin gəlirlərə bölüşdürülməsi haqqında məsələ, Seyin fikrincə, müstəqil əhəmiyyətə malik deyildi.

Sey sahibkarın "sənaye qabiliyyətlərinə, istedadına, fəaliyyətinə intizam və rəhbərlik ruhuna görə mükafat əvəzinə daxil olan

downloaded from KitabYurdu.az

mənfəət hissəsi və "kapitalın məhsuldar xidmətləri hesabına aid olan hissəsi arasında məhdudiyyət qoyur."

Sahibkar mənfəətinin əmək versiyası sahibkarlarla fəhlələri birləşdirir, onlar arasında fərq yalnız əmək haqqının ölçüsündədir – səviyyəsinə görə sahibkarın daha yüksək əmək haqqının əsası onun yüksək ixtisaslı əməyidir.

Sey əmək haqqının yüksəldilməsinə qarşı xərclər nəzəriyyəsinə əsaslanaraq, qəti etiraz edirdi – əmək haqqının artımı dərhal əmtəə qiymətlərinin yüksəldilməsini doğurar ki, bundan da, hər şeydən əvvəl fəhlələr zərər çəkirdilər.

Sey təlimində texniki tərəqqi, onun fəhlə sinfinin vəziyyətinə təsiri xüsusi yer tutur. Sey dövründə maşınlar haqqında məsələ bir çox iqtisadçıların diqqət predmetinə çevrilir, bu, sənaye çevrilişinin sürətləndirilməsi ilə izah olunur.

Sey "kompensasiya nəzəriyyəsi"nin əsaslarını qoymuşdur ki, bu nəzəriyyəyə uyğun olaraq, ilk zamanlar maşınların tətbiqi fəhlələri sıxışdırır, sonra onlar məşğulluğun artımını doğurur və məhsulu ucuzlaşdırırlar. Seyin "Satış nəzəriyyəsi" ona əsaslanır ki, hər bir satıcı eyni zamanda alıcıdır və ona görə də, cəmiyyət miqyasında təklif və tələb bərabərləşir və ümumi yenidən istehsal mümkün deyil. O ayrı-ayrı sahələrdə yalnız qismən yenidən istehsalın mümkünlüyünə yol verirdi.

İstehlakçılar Sey tərəfindən cəmiyyətin ən mühüm sinfi kimi xarakterizə olunurlar, ona görə ki, o, – ən çoxsaylıdır, ona görə ki, onun tərkibinə hər növ istehsalçılar daxildir və bu həm sinfin xoşbəxtliyi, həm ümumi rifahı, həm də bütün ölkənin çiçəklənməsini təşkil edir.

## §7. FRİDRİK BASTİA

downloaded from KitabYurdu.az

XIX əsrin 40-50-ci illərində Fransada Bastia (1801-1850) adı xüsusilə məşhur idi.

F.Bastia iri fransız kommersantı ailəsində anadan olmuşdur. İnqilabdan sonra 1830-cu ildə o, Fransanın siyasi həyatında fəal iştirak etmişdir. O barışıq hakimi seçilmiş, departamentin baş məsləhətçisi təyin olunmuş, milli yığıncağın deputatı olmuşdur.

O, özünün parlaq palirletlərində proteksionizmin qızğın əleyhadrı və freytrederçilərin coşğun tələbatçısı kimi çıxış edir.

Onun təliminin başlanğıc nöqtəsi cəmiyyətin şəxsi maraqda və azad mübadilədə təşkili ideyası olmuşdur. O, mübadiləni və heç nəylə məhdudlaşdırılmayan rəqabəti maraqların tam harmoniyasının mənbəyi hesab edirdi. Öz tezisini əsaslandırmaq üçün o, Seyin "xidmətlər nəzəriyyəsi"ndən istifadə edirdi. Lakin seydən fərqli olaraq, o, şəxsi xidmətlərə onların ictimai həyatın əsası sferasında olmasından asılı olmayaraq, üstünlük verirdi. "Xidmət" dedikdə, o, yalnız istehsal prosesindəki real əmək sərfini deyil, həm də kimsə tərəfindən qoyulan hər hansı qüvvəni və ya bu xidmətdən istifadə edənin azad olmasını başa düşürdü, yəni dəyər istehsalına "xidmətləri" həm fəhlələr, həm də kapitalist və torpaq sahibləri göstərirlər.

Bastia B.Kerinin "kapital yığımı qanunu"na əsaslanaraq, əmək və kapital arasında harmoniyanı əsaslandırır. Bastiaya görə, kapitalın artması ilə fəhlələrin payı nəinki mütləq, həm də nisbi, kapitalistlərin payı isə yalnız mütləq artır.

Torpaq rentası isə torpağa qoyulmuş kapitalın faizinin müxtəlifliyinə gətirilir və bununla da əmək və kapitalın harmoniyası və torpaq mülkiyyətçilərinin də sosial harmoniyası ilə tamamlanır.

Bastiaya görə, cəmiyyət öz "xidmətləri" ilə ekvivalent mübadilə aparan müxtəlif siniflərin "harmonik əməkdaşlığıdır" - bu, onun mühüm əsası olan "iqtisadi harmoniyalar"ın (1850) başlıca fikridir.

downloaded from KitabYurdu.az

Bastianın əmək və kapital arasındakı "harmoniya" ideyası bütövlüklə Kerinin tə"liminə əsaslanırdı. "Mənafelər harmoniyası"nın amerikan variantı "Siyasi iqtisadın prinsipləri" (1837-1840) kitabında şərh edilmişdir.

Henri Çarlz Keri - amerikan iqtisadçısıdır. O, iri kitab naşirinin oğlu olmuşdur. Varlandıqdan və iri fabrikant olduqdan sonra o, iqtisadi problemlərə müraciət etmiş və çoxlu iqtisadi əsərlər yazmışdır. Onun "Mənafelər harmoniyası" nəzəriyyəsi ilk dəfə "Siyasi iqtisadın prinsipləri"ndə (1837-1840) şərh olunmuşdur.

Keri harmoniya nəzəriyyəsini özünün baş əsəri olan - "Sosial elmin əsasları"nda daha ətraflı şərh etmiş (1857-1859-cu illər) və bu əsərin daha qısa nəşrində - "Sosial elmin dərsliyi"ndə (1865) xüsusi inkişaf etdirmişdir. Nəzəri quruluşlar və onun praktiki proqramı XIX əsrin birinci yarısında ABŞ-ın tarixi inkişafının xüsusiyyətlərini əks etdirir. ABŞ müstəqil dövlət kimi müstəqillik uğrunda müharibə nəticəsində (1775-1783-cü illər) yaranmışdır. Bu müharibə ABŞ-ın sürətli iqtisadi artımına kömək etmişdir; ABŞ-ın başqa xüsusiyyəti şimal ştatlarının sürətli inkişafından və cənubda plantasiya quldarlığının olmasından ibarət idi ki, bu Şimal və Cənub arasında münaqişəyə səbəb olmuşdur (1861-1865-ci illərin vətəndaş müharibəsi). Amerikan burjuaziyasının spesifik mənafeləri onun ingilis klassik siyasi iqtisadına qarşı kəskin müxalifətçiliyini şərtləndirirdi.

Ona görə də təəccüblü deyil ki, Kerinin əsərlərinin başlıca məqsədi Rikardo nəzəriyyəsinin tənqidindən ibarət idi. Keri "Mənafelər harmoniyası" nəzəriyyəsinin əsasını Rikardonun gəlir haqqında təliminə qarşı yönəldilmiş "bölgü qanunu" təşkil edir. Bu qanuna görə əmək məhsuldarlığının artımı ilə işçilərin payı mütləq və nisbi artır, kapitalistlərin payı isə mütləq artır, lakin nisbi aşağı düşür. Onun fikrincə, əmtəənin dəyəri istehsalın deyil, əmtəənin

downloaded from KitabYurdu.az

təkrar istehsal xərcləri ilə müəyyən edilir; əmək məhsuldarlığının artımı ilə istehsal vasitələrinə fərqlər azalır  ki, bu da kapitalın dəyərinin və faizin, yəni əmək məhsulunun kapital mülkiyyətçisinə ödənilən payının aşağı düşməsinə səbəb olur.

Keri Rikardonun torpaq rentası nəzəriyyəsinə, xüsusilə onun başlanğıc nöqtəsi - keyfiyyətcə pis torpaqların becərilməyə cəlb edilməsinin labüdlüyü haqqında müddəaya qarşı çıxış edir. Keri ABŞ şəraitindən irəli gələrək, özünün pis torpaqlarını yaxşı torpaqlara becərilməsinə keçidin hər yerdə olmasının və deməli, rentanın həm kapitalistlərə, həm də fəhlələrə xeyri olan aşağı düşməsinin baş verməsi nöqteyi-nəzərini Rikardoya qarşı qoymuşdur. Keri faktiki olaraq, torpaq rentasının mövcudluğunu rədd edir, onu əkinçiliyə qoyulmuş kapitala faizin müxtəlifliyi kimi baxırdı, - torpaq sahibləri icarə haqqının torpaq üçün deyil, torpağa çəkilən xərclər üçün alırdı.

Keri özünün ilk əsərlərində azad ticarət uğrunda fikirlər söyləmiş və iqtisadiyyata dövlət müdaxiləsinə qarşı çıxışlar etmişdir. Lakin sonralar amerikan burjuaziyasının mənafelərinin İngiltərə tərəfindən sıxışdırılması və onun dünya bazarında ekspansiyası Kerini proteksionizm mövqelərinə keçməyə sövq etdi. Bu onunla əlaqədardır ki, Keri istehsalçının istehlaka yaxınlığını "mənafelər harmoniyası"nın özüllərindən biri hesab edirdi, İngiltərə isə sənaye inhisarına can atırdı və ona görə də, azad ticarət uğrunda çıxış edirdi. Britariya siyasətinin dağıdıcı təsirini Keri Türkiyə timsalında göstərirdi O İngiltərədən yeganə müdafiə kimi dövlət müdaxiləsini və hökumətin gömrük rüsumlarını elan edirdi. O ABŞ-ın hələ möhkəmlənməmiş sənayesinin möhtac oduğu proteksionizm siyasəti uğrunda çıxış edirdi. Onun A.Smitin və D.Rikardonun sistemlərini kəskin ittiham etməsi bununla izah olunur.

Klassik siyasi iqtisad özünün ən yüksək zirvəsinə D.Rikardonun əsərlərində müvəffəq olmuşdur. Siyasi iqtisadın sonrakı inkişafını

downloaded from KitabYurdu.az

ayıran hüdudlar XIX əsrin 30-cu illəri hesab edilir. Başlanğıc mərhələdə yuxarıda göstərilən iqtisadçılar hələ Smtin və ya Rikardonun davamçıları kimi, onların təliminin şərhçiləri kimi çıxış edirdilər. Lakin sonrakı dövr (XIX əsrin 30-50-ci illəri) artıq klassik məktəblə açıq ayrılıqda xarakterizə olunur.

# FƏSİL 11. K. MARKSIN İQTİSADİ TƏLİMİ

## §1. K.MARKS ALTERNATİV İQTİSADİ TƏLİMİNİN YARADICISIDIR

XIX əsrin birinci yarısı K.Marksın iqtisadi ideyalarının və iqtisadi görüşlərinin təşəkkül tapıb qərarlaşması dövrünün ilk mərhələsidir. Heç də təsadüfi deyildir ki, K.Marksın və onun dostu və silahdaşı F.Engelsin Siyasi İqtisad elmində irəli sürmüş olduqları alternativ iqtisadi ideyalar onlara dünya şöhrəti gətirmişdir.

K.Marks öz əsərlərində siyasi iqtisadın tarixini araşdırmış və burjua siyasi iqtisadının əsas kateqoriyalarının təhlilini vermişdir. Yaradıcılığının bu mərhələsində K.Marks xüsusilə dəyər, istehsal xərcləri, torpaq rentası, kapital, əmək, rəqabət anlayışlarına daha çox diqqət yetirməklə bu kateqoriyalaraı öyrənib tədqiq etmişdir. Qeyd etdiyimiz problemlər, xüsusilə K.Marksın 1844-cü il iqtisadi-fəlsəfi əlyazmalarında öz əksini tapmışdır.

downloaded from KitabYurdu.az

K.Marksın fikrincə cəmiyyətin aparıcı qüvvəsi proletariatdır və proletariat xüsusi mülkiyyəti ləğv edə bilər. Bunun üçün proletariatı yeni ideyalarla, iqtisadi və fəlsəfi ideyalarla silahlandırmaq lazımdır. K.Marks göstərirdi ki, proletariat üçün yeni bir iqtisadi elmi sistemin yaradılması zəruridir.

"İqtisadi – fəlsəfi əlyazmalarında" K.Marks istehsal xərclərinin tərkib ünsürlərini, əmək haqqını, kapitala görə əldə edilən mənfəəti və torpaq rentasını təhlil edir. Lakin bu dövrdə o, A.Smitin, D.Rikardonun və J.B.Seyin əsərlərinin və eləcə də onların iqtisadi fikirlərinin təsiri altında idi. K.Marks əmək və kapital kateqoriyalarına özgəninkiləşdirilmə kimi baxmaqla qeyd edirdi ki, özgəninkiləşdirməyə şüur dairəsində deyil, iqtisadi akt kimi baxmaq lazımdır. Odur ki, kapitalı əməkdən ayırmaq olmaz.

Qeyd edək ki, K.Marksın kapitala və əməyə belə yanaşması öz əsərlərindən fərqli olaraq yeni metodoloji prinsip idi. Məlumdur ki, K.Marksın sələfləri heç bir izahat vermədən xüsusi mülkiyyətdən çıxış edirdilər. K.Marks əksinə olaraq, sərvət və kasıbçılıq arasında ziddiyyət görürdü. O göstərirdi ki, fəhlələr nə qədər çox sərvət istehsal etsələr də, bir o qədər kasıbçılığa yuvarlanırlar.

Belə bir metodoloji prinsip K.Marks üçün sonralar onun "Kapital" əsərində çıxış nöqtəsi olur və K.Marks göstərilən metodoloji prinsipə əsaslanaraq konkretlilikdən abstraktlığa doğru hərəkət edir. Beləliklə, K.Marks kapitalist istehsalı prosesinin və kapital yığımının ümumi qanununun tərkib hissələrinin elmi təhlilini verir.

Yoxsulluq və sərvət arasında olan əksliklərdə K.Marks özgəninkiləşdirmənin müxtəlif növlərini görürdü. O göstərirdi ki, əməyin məhsulu kapitalizm cəmiyyətində özgələşdirilir, istehsal özgələşdirilir, əmək özgələşdirilir, əmək məcburi əməyə çevrilir, fəhlənin əməyi özününki deyil, o, kapitalistə mənsubdur, əmək prosesində fəhlə özünə deyil, başqasına tabedir.

downloaded from KitabYurdu.az

Əməyin və xüsusi mülkiyyətin özgəninkiləşdirilməsinin köməyilə K.Marks bütün iqtisadi kateqoriyaları inkişaf etdirir. Lakin bu məsələlərin həllini o, iki prinsiplə əlaqələndirir:

birincisi, xüsusi mülkiyyətin ümumi mahiyyətinin müəyyən edilməsi – çünki xüsusi mülkiyyət əməyin özgəninkiləşdirilməsinin nəticəsidir;

ikincisi, əməyin özgəninkiləşdirilməsinin mənşəyi. Xüsusi mülkiyyətin mənşəyini tədqiq etmək üçün K.Marks əməyin və kapitalın dialektik əlaqəsini təhlil edir. O belə bir nəticəyə gəlir ki, əməyin özgəninkiləşdirilməsi üçün azad, sərbəst və yaradıcı əməyin olması zəruri şərtdir. K.Marks iqtisadi sisteminin sonrakı inkişafı və təkmilləşdirilməsi onun 1844-cü ildə Parisdə F.Engels ilə olan tanışlığı və sonrakı dostluğu olmuşdur. K.Marks və F.Engels 1845-ci ildə birgə yazdıqları "Müqəddəs ailə və ya tənqidi tarixdən" əsərini çap etdirirlər. Əsər gənc Hegelçilərin əleyhinə yönəlmişdir. Göstərilən əsərdə K.Marks və F.Engels belə bir nəticəyə gəlirlər ki, proletariat özünü iqtisadi cəhətdən azad etməklə cəmiyyətində azad olunması üçün maddi ilkin şərtlər yaradacaqlar.

"Müqəddəs ailə" əsərinin beşinci fəslində K.Marks P.J.Prudonun iqtisadiyat haqqında fikirləri inqilabiləşdirir. Lakin K.Marks onun bə:zi fikirləri ilə razılaşmırdı. Burjua iqtisadçıları xüsusi mülkiyyəti insanpərvərliyin və insan zəkasının nəticəsi kimi izah edirdilər. Prudon isə göstərirdi ki, xüsusi mülkiyyət qeyri-insani münasibətlər nəticəsində yaranmışdır. Buna baxmayaraq Prudon xüsusi mülkiyyətin bəzi formalarına bəraət qazandırırdı. Məhz bu səbəbdəndir ki, K.Makrs burjua siyasi iqtisadının məhdudluğunu aradan qaldırmağa çalışırdı.

XIX əsrin birinci yarısında K.Marks burjua siyasi iqtisadını tənqid edərək Prudondan irəli getmiş və siyasi iqtisadı fəhlə sinfinin mənafeyi baxımından inkişaf etdirmişdir. K.Marks xüsusi

downloaded from KitabYurdu.az

mülkiyyətin tənqidini özgəninkiləşdirilməsi ilə əlaqədə verərək yoxsullar və sərvətlilər arasında olan əksliklәri xüsusi mülkiyyətin inkişafı nəticəsi kimi təhlil etmişdir. O qeyd edirdi ki, əgər varlılar sinfi özgəninləşdirmə şəraitində özlərini yüksək təbəqə nümayəndələri kimi hiss edirlərsə, yoxsullar belə bir şəraitdə özlərini məhv olmuş kimi görürlər. Odur ki, burjua siyasi iqtisadı bu vəziyyəti konservativ hal kimi izah edirlər, bu konservativ antaqonizm və mənafeləri saxlamağa çalışırlar. Lakin bu münasibətlərin dağılması və məhv olmasının tərəfdarıdır.

Beləliklə, K.Marks proletariatın tarixi rolunu əsaslandırmışdır. Proletariatın tarixi rolu dedikdə, xüsusi mülkiyyətin ləğvini nəzərdə tuturdu. Qeyd edək ki, XIX əsrin birinci yarısında K.Marks və F.Engels öz əsərlərində, xüsusilə fəlsəfi baxımdan yazdıqları əsərlərində göstərdiyimiz əsrə uyğun olaraq fəlsəfənin və "həqiqi sosializmin" alman həqiqətilə əlaqəsini açıqlayırdılar və bu fəlsəfənin xırda burjua xarakteri daşımasını tənqid edirdilər. K.Marks və F.Engels tam mənası ilə A.Feyerbaxın ideoloji baxımlarını aradan qaldıraraq tarixi materialistcəsinə anlamaq nəzəriyyəsini irəli sürürdülər.

K.Marks və F.Engels tarixi inkişafa nəsillərin ardıcıl olaraq dəyişməsi mərhələsi kimi baxırlar. Belə ki, bu proses zamanı insanlarla təbiət arasında maddi istehsalla əlaqədar olaraq münasibətlər yaranır ki, bu münasibətlər də məhsuldar qüvvələri ehtiva edirlər. İnsanlarla təbiət arasında və insanların öz aralarında yaranıb təzahür edən münasibətlər nəticəsində yeni nəsillərdə şəkildəyişmə baş verir. Bu konsepsiya onu göstərir ki, tarixi inkişaf obyektiv qanunauyğunluq prosesi daxilində hərəkət edir. A.Feyerbaxın fikirlərindən fərqli olaraq K.Marks və F.Engelsin tarixi inkişaf prosesinə dialektik materializm nöqteyi-nəzərindən yanaşması o demək idi ki, kommunizm fatalizm, yəni abstrakt

downloaded from KitabYurdu.az

təxəyyüllərdən deyil, tarixin konkret inkişafından irəli gəlir. P.Feyerbax isə insanın mahiyyətinə antropoloji baxımdan yanaşırdı.

XIX əsrin əvvəllərində K.Marks və F.Engels birgə yazdıqları "Alman ideologiyası" əsərində göstərirdilər ki, tarix ümumdünya tarixinə çevrilməlidir. Çünki tarixin ümumdünya tarixinə çevrilməsi, fərdin real olaraq azad olması o deməkdir ki, kommunizm cəmiyyətində kollektiv quruluşa əsaslanan, istehsal edənlərin özləri-özlərinə nəzarət edəcək münasibətlər hökm sürəcək. K.Marksın iqtisadi sisteminin və baxışlarının sonrakı formalaşması 1847-ci ildə nəşr etdirdiyi "Fəlsəfə yoxsulluğu" əsəri ilə əlaqədardır. Bu əsərdə Marksın XIX əsrin birinci yarısında apardığı iqtisadi təhlillər və tarixi materialistcəsinə anlamaq ideyaları öz əksini tapmışdır. Eyni zamanda K.Marks bu kitabıda Prudonun xırda burjua və metafizik konsepsiyalarının tənqidini vermişdir. K.Marks bir tərəfdən Prudoun dəyər nəzəriyyəsini, digər tərəfdən isə onun metodunu ("iqtisadi ziddiyyətlər") tənqid edirdi.

K.Marksın iqtisadi görüşlərinin və iqtisadi sisteminin sonrakı formalaşmasında onun mülkiyyət məsələləri barədə Prudonun fikirlərini tənqid etməsi olmuşdur. Əgər "Müqəddəs ailə" əsərində K.Marksın baxışları Prudonun fikirlərindən az fərqlənirdisə "Fəlsəfə yoxsulluğu" əsərində (bu əsəri K.Marks Prudonun "Yoxsulluq fəlsəfəsi" kitabının əleyhinə yazmışdı) isə o tamamilə Prudona əks olan elmi fikirlər irəli sürürdü. Beləliklə, K.Marks Prudona qarşı əks mövqe tutur. O göstərirdi ki, iqtisadi münasibətlər sistemində mülkiyyətdən başlamaq olmaz. Mülkiyyət anlayışı tarixi kateqoriya olsa da onu istehsal münasibətlərindən ayırmaq olmaz. Çünki bütün iqtisadi formasiyalarda mülkiyyət müxtəlif formalarda inkişaf etmişdir. K.Marks daha sonra göstərirdi ki, burjua mülkiyyətinin mahiyyətini müəyyən etmək o deməkdir ki, mülkiyyətin tarixi

downloaded from KitabYurdu.az

inkişafı təhlil edilir. Bu fikir isə, K.Marksın təbirincə desək, burjua istehsalına bəraət vermək deməkdir.

O qeyd edirdi ki, iri maşınlı sənaye proletariatı birləşdirirsə, rəqabət onların arasında olan birliyi zəiflədir. Odur ki, proletariat fəhlə sinfi daxilində rəqabətə son qoymalıdır və kapitalistlərə qarşı mübarizədə onlar birləşməlidirlər.

Göstərdiyimiz dövrdə, fəhlə sinfinin mənafeyi baxımından K.Marksın "Ticarət azadlığı haqqında"kı nitqini klassik misal göstərə bilərik. 9 yanvar 1848-ci ildə Brüsseldə demokratik assosiasiya qarşısında etdiyi nitqində K.Marks göstərdi ki, ticarət azadlığı kapital üçün fəhlə sinfinin şirəsinin və qanının sorulması vasitəsidir və bu vasitə kapitalın artması və proletariatın yoxsullaşması üçün geniş üfüqlər yaradır.

K.Marks qeyd edirdi: Proteksionizmdən fərqli olaraq azad ticarət sistemi obyektiv olaraq kapitalizmin inkişafına təkan verir, sürətləndirir. Lakin ticarət azadlığı proletariat ilə burjuaziya arasında ziddiyyətləri daha da kəskinləşdirir. Ticarət azadlığı sosial inqilabın partlamasına, onun baş verməsinə şərait yaradır. Məhz bu səbəbdəndir ki, ticarət azadlığını K.Marks alqışlayırdı. Onun bu çıxışları "Yeni Reyn qəzeti"ndə çap olunur və bunların əsasında K.Marksın "Muzdlu əmək və kapital" əsəri yaranır. Göstərdiyimiz əsərlə yanaşı 1847-ci ildə o, "Əmək haqqı" kitabçasını yazır. Bu hər iki əsərdə K.Marks muzdlu əməklə kapital arasındakı münasibətləri təhlil etməklə yanaşı, əmək haqqı nədir və onu necə müəyyən etmək olan sualının izahını da verir.

K.Marks yazırdı ki, kapital və muzdlu əmək qarşılıqlı olaraq bir-birini müəyyən edir, qarşılıqlı olaraq bir-birini yaradır və qarşılıqlı olaraq bir-birini tamamlayır. Fəhlələr və kapitalistlər arasında olan mənafe ümumiliyini tənqid edərək K.Marks göstərdi ki, fəhlələrin vəziyyəti istehsal təyinatlı kapitaldan asılıdır, bu

downloaded from KitabYurdu.az

kapitalın artması burjuaziyanın fəhlələr üzərində olan ağalığını artırır. Bu nöqteyi-nəzərdən o, nominal və real əmək haqqını təhlil edirdi və göstərirdi ki, əmək haqqı kapitalizmlə nisbi olaraq artır. Bu proses isə özlüyündə muzdlu əməklə kapital arasında olan ziddiyyətləri aradan qaldırmır. Bu ziddiyyətin aradan qaldırılması üsulu kimi proletar inqilabının baş verməsi zəruriliyi irəli sürülürdü.

F.Engels göstərirdi ki, proletariat inqilab etdikdən sonra aşağıdakı iqtisadi tədbirlər sistemini həyata keçirəcəkdir:

Xüsusi mülkiyyətin məhdudlaşdırılması və onun tədricən sahibkarlardan məhrum edilməsi, əhalinin əksəriyyətinə qarşı çıxış edənlərin varidatının və əmlakının zəbt olunması. Milli mənafelər naminə əməyin təşkili, sənaye ordusunun təşkili, kredit və ticarət-pul sisteminin mərkəzləşdirilməsi, xüsusi bankların bağlanması, milli fabriklərin artırılması, uşaqların dövlət hesabına saxlanması və tərbiyəsi, torpaqdan səmərəli istifadə və s. K.Marks, F.Engelsin yuxarıda qeyd etdiyimiz bütün fikirlərilə razılaşırdı. Belə ki, 29 noyabr-8 dekabr 1847-ci ildə keçirilən Kommunistlər İttifaqının II konqresində proletar partiyası proqramının yazılması K.Marksa və F.Engelsə tapşırılır. Beləliklə, "Kommunist partiyasının manifesti" yaradılır və onun ilk şüarı olan "Bütün ölkələrin proletarları birləşin" şüarı bütün Avropaya yayılmağa başlayır.

1848-1849-cu illərdən başlayaraq proletar sinfi ilk dəfə olaraq elmi cəhətdən əsaslandırılmış proqram sənədi əldə edir. Bu yuxarıda göstərdiyimiz kimi K.Marks və F.Engelsin birgə yazdıqları "Kommunist partiyasının manifesti" əsəri idi. Tarixi materializmi ictimai həyata tətbiq etməklə, K.Marks və F.Engels "Manifest" əsərində belə bir nəticəyə gəlirlər ki, bu günə kimi mövcud olan cəmiyyətlərin mübarizəsi siniflərin mübarizə tarixi olmuşdur. Onlar göstərirdilər ki, maddi istehsal şəraitində baş verən dəyişikliklər

downloaded from KitabYurdu.az

burjuaziyanı və proletariatı yaratmışdır ki, bunlar da bir-birinə qarşı dayanan antaqonist ziddiyyət təşkil edən siniflərdir.

İri sənaye dünya bazarı yaratmışdır və onlar bir-birinə qarşılıqlı olaraq təsir göstərirlər. Sənayenin feodal forması sıxışdırılır, oyuna uyğun olan orta əsr sinifləri ikinci plana keçirilir. Bu möhtəşəm iqtisadi mübarizədə burjuaziya uğur qazanır. Burjuaziya özünə uyğun olan dövlət hakimiyyətini ələ keçirir. Beləliklə, kapitalizm cəmiyyətində dövlət maşını burjuaziyanın mənafeyinə uyğun idarəçilik metodlarından istifadə edir. "Kommunist partiyasının manifesti" əsərində bir də apardıqları tədqiqatlarda K.Marks və F.Engels belə bir nəticəyə gəlirlər ki, 100 ilə qədər hökmranlıq edən burjuaziya çox güclü və inkişaf etmiş məhsuldar qüvvələr, məhdud xarakter daşıyan burjua xüsusi mülkiyyəti ilə bir araya sığmır. Burjua mülkiyyət münasibətləri ilə toqquşan məhsuldar qüvvələr öz ifadəsini böhranlarda tapır. Mövcud böhrandan çıxmaq üçün burjuaziya bir tərəfdən maddi məhsuldar qüvvələrin bir hissəsini məhv edir, digər tərəfdən isə yeni bazarlar zəbt edir, köhnə bazarların isə istismarını daha da dərinləşdirir. K.Marks və F.Engels yazırdılar ki, bundan sonra məhsuldar qüvvələrlə istehsal münasibətləri arasında olan ziddiyyəti aradan qaldırmaq üçün burjua mülkiyyətini ləğv etmək lazımdır. Burjuaziyanın özü bu ziddiyyətləri həll etmək məqsədilə müəyyən şərtlər və şərait yaradır. Digər tərəfdən burjuaziya ilə maşınlaşdırılmış istehsal arasındakı rəqabət fəhlə sinfinin bütün kateqoriyalardan ibarət olan üzvlərinin əmək haqqını minimum səviyyəyə endirir. Öz ümumi mənafelərini müdafiə etmək məqsədilə fəhlə sinfi həmkarlar ittifaqları yaradaraq açıq şəkildə mübarizə aparırlar. K.Marks və F.Engels "Manifest"də yazırdılar ki, hər cür sinfi mübarizə siyaisi mübarizədən başqa bir şey deyildir.

downloaded from KitabYurdu.az

"Manifest"də göstərilir ki, burjua istehsal üsulu şəraitində fəhlə əməyinə görə əmək haqqı alır. Bu əmək haqqı da həyat üçün zəruri olan vəsaitlərin minimumuna bərabərdir. Kommunizmdə isə yığım istehsalın genişlənməsinə, həyat səviyyəsinin daim yaxşılaşmasına xidmət edəcəkdir. K.Marks və F.Engels bu əsərdə yazırdılar ki, burjua cəmiyyətində keçmiş bu gün üzərində hökm edərsə, kommunizm cəmiyyətində isə bu gün keçmiş üzərində hökm edəcəkdir. K.Marks və F.Engels inandırıcı surətdə öz əleyhdarlarına sübut edirdilər ki, kommunizm cəmiyyəti əməyin yaradıcı məhsuldar qüvvəsini məhv etmir, təhsil sistemini aradan qaldırmır, ailə münasibətlərini məhdudlaşdırmır. Əksinə, bütün bunlar kommunizm cəmiyyətində yaradıcı xarakter daşıyacaqlar və hər cürə çatışmazlıqlardan azad olacaqlar.

Beləliklə, qalib gələn proletar inqilabı nəticəsində burjua cəmiyyətinin yerinə sinfi antaqonizmdən və istismardan və xüsusi mülkiyyətdən azad olan assosiasiya gələcəkdir ki, bu assosiasiyada hər bir fərdin sərbəst inkişafı bütün cəmiyyət üzvlərinin sərbəst və azad inkişafına xidmət edəcəkdir.

## § 2. K.MARKS TƏLİMİNİN İQTİSADİ MAHİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

K.Marks öz iqtisadi fikirlərini formalaşdırmaq məqsədilə ciddi olaraq siyasi iqtisad tarixinə dair, iqtisadi tarixə aid olan və burjua həqiqətini özündə əks etdirən əsərlərlə məşğul olmağa başlayır. Belə ki, o, öz iqtisadi nəzəriyyəsini sistem halına salmağa cəhd edir. K.Marks yazırdı ki, mənim məqsədim müasir cəmiyyətin, yəni burjua cəmiyyətinin istehsalını idarə edən qanunları tədqiq etməkdən ibarətdir.

downloaded from KitabYurdu.az

K.Marks ilk əvvəl D.Rikardonun pul nəzəriyyəsinin tərəfdarı idi. Lakin sonralar o pul haqqında nəzəriyyələr barədə prinsipial mövqe tutur. K.Marksın əlyazmalarında göstərilirdi ki, pul ilə dəyər arasında daxili bir əlaqə mövcuddur. Pulun nəzəri təhlili göstərdi ki, pul ümumi əməyin təzahür formasıdır, onu mübadilə dəyəri yaradır. Nə qədər ki, mübadilə dəyəri məhsulun ictimai forması kimi qalır, yəni, əmtəə mövcud olduqca pul da zəruri vasitə kimi qalacaqdır və pulu ləğv etmək olmaz. Əmtəə təsərrüfatının və mübadilənin dərinləşməsi və inkişafı ilə əlaqədar olaraq məhsul kimi əmtəənin təbiəti ilə onun ümumi təbiəti olan mübadilə arasında ziddiyyət mövcud olacaqdır.

Məlumdur ki, əmtəə-pul münasibətləri kapitalizmə qədər mövcud idi, lakin bu əlaqələr tabeçilik xarakteri daşıyırdı və fəaliyyət dairələri məhdud idi. Klassik burjua siyasi iqtisadı ilə müqayisədə K.Marks qeyd edirdi ki, bu məktəbin əksinə olaraq kapitalın inkişafını, onun yaranma mənbəyini dəyər anlayışı ilə, dəyərin pul forması ilə əlaqələndirdi. İqtisadi əlyazmalarında K.Marks ilk dəfə olaraq göstərirdi ki, kapital dəyərdir və mənfəət gətirir.

Kapitalın dialektik təbiətinin K.Marks tərəfindən açılması, kapitalın daimi hərəkətdə, tədavüldə olmasının açılması prinsipial əhəmiyyət kəsb edirdi. Bu münasibətləri burjua cəmiyyətində sadə anlayış deyil, proses halında götürməklə K.Marks kapitalın elmi təhlilini verirdi. Məhz bu baxımdan kapitala tərif verərək K.Marks göstərirdi ki, kapital mübadilə dəyəridir, o tədavüldən öz hərəkətini başlayır və tədavül vasitəsilə mövcudluğunu saxlayır.

K.Marksın müəyyən etdiyi kimi, kapitalın digər tərəfi, onun digər xüsusiyyəti ondan ibarətdir ki, göstərilən proses zamanı kapital əmək tərəfindən istehlak olunmalıdır. Məhz buna görə də kapital öz ilkin kəmiyyətinə nisbətən artmalıdır. Lakin bu proses xüsusi iqtisadi münasibətlər daxilində olmalıdır, yəni kapitalistlə muzdlu işçi arasında olan münasibətlər əsasında baş verməlidir.

downloaded from KitabYurdu.az

Göstərdiyimiz fikrə uyğun olaraq K.Marks kapitalı keçmiş əməklə və canlı əməklə, yəni canlı əməyin subyekti olan muzdlu fəhlənin əməyilə əlaqələndirirdi. O yazırdı ki, istehlak dəyərini yaradan əmək eyni zamanda dəyəri yaradır. K.Marks göstərirdi ki, bu istehlak dəyəri iki prosesi ifadə edir. Birincisi, sadə mübadilə nəticəsində kapitalist özgə əməyinə sərəncam verir, fəhlə isə əməyinin sərfinin ekvivalentini (əmək haqqı) alır, ikincisi, kapitalist yaşadır, o hətta kapitalı artırır.

Digər tərəfdən, K.Marks artıq zəruri və izafi əmək arasında olan fərqi də aşkar edə bilmişdi. Lakin hələlik izafi dəyərlə mənfəət ararsında olan əlaqəni tam aça bilmirdi. İzafi əməklə zəruri əməyi araşdırdıqdan sonra K.Marks izafi dəyəri və mənfəəti elmi baxımdan izah etməyə başlayır. Beləliklə, o, mənfəətin mahiyyəti olaraq qeyd edirdi ki, mənfəət izafi dəyərin çevrilmiş formasıdır, yəni mənfəət izafi dəyərdən törəyir. D.Rikardo izafi dəyərlə mənfəət arasında olan bu münasibəti bilmədiyi üçün K.Marksın iqtisadi fikirləri artıq D.Rikardonun fikirlərini üstələmişdi.

K.Marksın böyük xidmətlərindən biri də ondan ibarətdir ki, o, siyasi-iqtisad elmində sabit və dəyişən kapitalın tam elmi şərhini vermişdir. O qeyd edirdi ki, məhsuldar qüvvələr artdıqca sabit kapitalın hissələri dəyişən kapitala nisbətən tez artır, yəni maşın və avadanlıqların artım tempi əmək haqqı fondunu üstələyir.

Nəhayət, qeyd edək ki, K.Marks irəliyə doğru daha bir addım ataraq göstərirdi ki, kapitalistlərlə fəhlələr arasında spesifik bir münasibət mövcuddur. Bununla da o, kapitalın spesifik təbiətinin elmi xarakteristikasını vermiş oldu. Öz sələflərilə müqayisədə K.Marksın belə bir elmi nəticəyə gəlməsi o demək idi ki, kapitalın nəzəri anlayışında yeni tarixi bir mərhələ kəşf edilmişdi. Digər tərəfdən K.Marks sübut etdi ki, kapital meydana gəlməklə sonrakı inkişafında öz-özünə artan dəyərə çevrilir. Burjua iqtisadçıları

downloaded from KitabYurdu.az

kapitalı yığılmış əmək kimi izah edirdilər. Buradan da belə bir nəticə çıxırdı ki, burjua cəmiyyəti təbii və əbədi istehsal üsuludur.

K.Marks tərəfindən irəliyə doğru atılan addım o demək idi ki, kapitalın tarixi xarakteri xüsusi qeyd edilməklə açıqlanırdı ki, burjua cəmiyyətində yaranan iqtisadi münasibətlər bir-birinə qarşı ilkin şərt kimi, yəni səbəb və nəticə kimi çıxış edirlər. Bu səbəbdəndir ki, kapitalist istehsal üsulu özünə məxsus daxili dialektik inkişafa malikdir.

Qeyd edək ki, K.Marks "Kapital" haqqında bir neçə kitab yazmaq fikrində idi.

Birinci 3 kitabda (kapital, muzdlu əmək və torpaq mülkiyyəti haqqında) K.Marks göstərirdi ki, burjua cəmiyyətinin üç sinfinin yaşamasının iqtisadi şərtləri şərh ediləcəkdir. Axırıncı üç kitabda isə (dövlət, xarici ticarət, dünya bazarı) o tamam yeni fikirlər üzərində dayanacağını vurğulayırdı.

K.Marksın iqtisadi fikirlərinin formalaşmasının yeni mərhələsində o, aşağıdakı problemlər üzərində düşünürdü: necə olur ki, pul kapitala çevrilir? Və ya hansı yollarla pul sahibi (əmtəə sahibi) kapitalist olur:

Göstərdiyimiz suallara cavab vermək məqsədilə K.Marks öz tədqiqatına kapitalın ümumi formulası P-Ə-P-nin təhlilindən başlayırdı. O göstərirdi ki, P-Ə-P münasibətləri, P-Ə-P olan sadə əmtəə tədavülündən irəli gəlir. Bu formulaların daxili ziddiyyətlərinin açılması o deməkdir ki, kapital haqqında yeni iqtisadi nəzəriyyə yaranacaqdı. K.Marks yazırdı ki, pulun həqiqi kapitala çevrilməsi üçün xüsusi əmtəə olan iş qüvvəsinin mövcudluğu vacib şərtdir. Bu da xüsusi bir tarixi şəraitin olmasını tələb edir: fəhlənin şəxsi azadlığı və onun istehsal vasitələrindən ayrı düşməsi.

K.Marksın iqtisadi fikirlərinin formalaşmasının ilkin mərhələsi ilə bu mərhələ ararsında olan fərq ondan ibarət idi ki, bu mərhələdə

downloaded from KitabYurdu.az

iş qüvvəsi əmtəəsinin xarakteristikası üzərində sözün geniş mənasında çox dayanırdı. Burada o daha dəqiq olaraq əmək və iş qüvvəsi arasında olan fərqi artıq açıqlayırdı. Bütün əmtəələrdən fərqli olaraq iş qüvvəsi əmtəəsinin spesifikliyi müəyyən edilirdi.

İlk dəfə olaraq K.Marks spesifik əmtəə olan iş qüvvəsinin dəyərini artıq müəyyən etmişdi. İş qüvvəsinin dəyəri həyat vasitələrinin (yaşayış vasitələrinin) dəyərilə müəyyən edilirdi. O yazırdı ki, iş qüvvəsinin dəyəri müxtəlif ölkələrdə və müxtəlif mədəniyyət şəraitində eyni deyildir.

D.Rikardoya görə əmtəənin istehlak dəyəri iqtisadi kateqoriyaların (mübadilə dəyəri, pul, kapital və s.) sadə ilkin şərtləridir. K.Marks isə göstərirdi ki, iş qüvvəsi əmtəəsinin istehsal prosesi zamanı istehlakı bu iqtisadi münasibətlərin spesifikliyini göstərir və nəticə etibarı ilə izafi dəyər yaradılır. Bu izafi dəyər isə iş qüvvəsi dəyərindən artıqdır.

K.Marksa qədərki siyasi iqtisadda iddia edilirdi ki, əmək və kapital arasında olan münasibətlər "mübadilə" kateqoriyasına əsaslanır və bu çərçivədən kənara çıxmırdı. K.Marks isə ilk dəfə olaraq izafi dəyərin mənşəyinin elmi izahını verirdi. Çünki əməyin alınıb-satılması anlayışını K.Marks iş qüvvəsi əmtəəsinin alınıb-satılması ilə əvəz etdi. Məhz bu səbəbdəndir ki, pulun kapitala çevrilməsi prosesinin təhlilinə iş qüvvəsi əmtəəsi də daxil edilmişdi.

Çünki bu dəyər yeni dəyər yaradır, yeni yaradılan dəyərdə isə izafi dəyər var. Bu izafi dəyər isə kapitalist istehsalının spesifik məqsədini xarakterizə edir. Marks tərəfindən əmək prosesinin və dəyərin artması prosesinin ciddi surətdə elmi baxımdan müəyyən edilməsi sabit və dəyişən kapital anlayfışının açıqlanmasına səbəb oldu. Bu da imkan verirdi ki, kapitalistlər ilə fəhlələr ararsında olan mübadilə münasibətləri dialektikcəsinə başa düşülsün.

downloaded from KitabYurdu.az

K.Marks göstərirdi ki, iş qüvvəsi dəyərinin ödənilməsinə zəruri iş vaxtı uyğun gəlir. İş vaxtının müəyyən hissəsində fəhlə kapitalist üçün işlədiyinə görə bu vaxta izafi iş vaxtı uyğun gəlir. İzafi iş vaxtında fəhlə izafi dəyər istehsal edir ki, bunu da kapitalist özgə əməyinin nəticəsi kimi havayı mənimsəyir. Belə bir anlayış əsasında K.Marks mütləq və nisbi izafi dəyər istehsalının izinə düşə bildi.

İzafi dəyər istehsalını tədqiq edərkən K.Marks belə bir nəticəyə gəlirdi ki, kapitalist münasibətləri o zaman yaranıb meydana çıxır ki, məhsuldar qüvvələr müəyyən inkişaf səviyyəsinə nail olsun, yüksək səviyyəli əmək məhsuldarlığı olsun. Bütün bunları K.Marks təbiətin vergisi deyil, tarixi inkişafın nəticəsi adlandırırdı.

Qeyd edək ki, nisbi izafi dəyər istehsalını K.Marks kapitalın inkişafı ilə, fəhlə kooperasiyası, əmək bölgüsü (manufaktura) və maşınlı istehsalla əlaqələndirirdi: Kooperasiya, manufaktura və maşınlı istehsalı K.Marks belə xarakterizə edirdi: əməyin məhsuldar qüvvəsinin artması ilə nisbi izafi dəyər istehsalı və spesifik kapitalist istehsalının, kapitalist istehsal üsulunun qərarlaşması və inkişaf etməsi əmək prosesinin xüsusiyyətlərinə daim diqqət yetirən K.Marks, xüsusilə maşınlı istehsalın, texnologiyanın tarixinin, istehsal prosesinin texniki tərəflərinin, texnikanın və texnologiyanın daxili ünsürlərinin də elmi şərhini verirdi.

K.Marks burjua siyasi iqtisadının tənqidini qarşısına məqsəd kimi qoymamışdı. Onun məqsədi bu idi ki, burjua siyasi iqtisadını tənqid etməklə, ümumiyyətlə, siyasi iqtisadı bir elm kimi inkişaf etdirsin. O göstərirdi ki, izafi dəyərin mahiyyətini açmaq üçün hökmən dəyər anlayışını təhlil etmək lazımdır. Dəyər onu yaradan əməyin miqdarı ilə müəyyən olunur.

K.Marks göstərirdi ki, dəyər istehsal fəaliyyətilə əlaqədar olaraq təzahür edən münasibətlərdir. Lakin dəyərin daxili aləmi ona sərf olunan əməyin miqdarını ifadə edir. Əmtəənin pula mübadiləsi

downloaded from KitabYurdu.az

hökmən funksional olmalıdır və bu mübadilə prosesində baş verməlidir. Məhz mübadilə prosesində pul yaranır və dəyərin pulla ifadəsi olan qiymət təzahür edir.

K.Marks göstərirdi ki, dəyərin mahiyyətini açmaq üçün dəyər əməyə müncər edilməlidir, izafi dəyər isə izafi məhsulda ifadə edildiyinə görə izafi dəyər izafi əməyə müncər edilməlidir. Bu problemlər burjua siyasi iqtisadında, ziddiyyətli xarakter daşıyırdı. İzafi dəyər münasibətləri ilə əlaqədar olaraq burjua siyasi iqtisadı iki problemi həll edə bilməmişdi. Birinci, dəyər qanunu əsasında kapitalla əmək arasında olan mübadilədə izafi dəyərin mənşəyini; ikinci, dəyər qanunu əsasında orta mənfəətin yaranması mexanizmini.

Burjua iqtisadçılarının fikirlərini tənqid edərkən, K.Marks belə bir nəticəyə gəlirdi ki, A.Smit və D.Rikardo dəyər, izafi dəyər və mənfəət kateqoriyalarının tədqiqi və təhlilində məhdud və birtərəfli analitik metoddan istifadə etmişlər. Bu iqtisadçılar üçün iqtisadiyyatı tədqiq edəndə hadisələrə dialektik yanaşma məhdud idi. Bu iqtisadçılar üçün bütün iqtisadi formalar, o cümlədən, əmtəə, pul, kapital, mənfəət, əmək haqqı, torpaq rentası və i. guya irəlicədən məlum iqtisadi kateqoriyaları olan empirik kateqoriyalar idi. K.Marksın qeyd etdiyi kimi, klassiklər bu kateqoriyalara bu və ya digər obyektiv iqtisadi proseslərin və münasibətlərin nəticəsi kimi baxmırdılar.

İzafi dəyərlə əmək haqqı ararsında olan nisbətə K.Marks ciddi fikir yetirməklə əməyin formal və real olaraq kapitala tabe olması üzərində geniş dayanırdı. O göstərirdi ki, əməyin formal olaraq kapitala tabe olması mütləq izafi dəyər istehsalına uyğun gəlir. O qeyd edirdi ki, muzdlu əmək sahibi özünün və ailəsinin yaşaması üçün zəruri əmək sərf edir və əvəzində əmək haqqı alır. Eyni

downloaded from KitabYurdu.az

zamanda o izafi əmək sərf etməklə izafi məhsul, yəni izafi dəyər yaradır ki, bu izafi dəyəri kapitalist mənimsəyir.

K.Marks göstərirdi ki, əmək bölgüsünə əsaslanan manufaktura əməyi real olaraq kapitala tabe edir və onun nəticəsində nisbi izafi dəyər istehsalı artırılır.

## § 3. "KAPİTAL" ƏSƏRİ, ONUN PREDMETİ VƏ TƏDQİQAT METODU

K.Marks öz iqtisadi əlyazmalarını xüsusi bir cild halında nəşr etdirmək qərarına gəlir. Odur ki, birinci kitabını 27 mart 1867-ci ildə başa çatdırıb Hamburq şəhərinə gəlir və "Kapital"ın birinci cildini kitab nəşriyyatçısı Meysierə təqdim edir. Beləliklə, 1867-ci ilin sentyabr ayında "Kapital" əsərinin birinci cildi nəşr olunur.

Hər şeydən əvvəl "Kapital" əsərində K.Marksın özünün qeyd etdiyi kimi, əsər onun həyat işidir. Onun fikrincə iqtisadi quruluş əsasdır, həllediciidir, müəyyənedicidir və aparıcıdır. Bununla yanaşı siyasi üstqurum iqtisadi quruluş üzərində təşəkkül tapır. F.Engelsin qeyd etdiyi kimi "Kapital" əsəri müasir kapitalizm cəmiyyətinin iqtisadi quruluşunu, yəni kapitalist istehsal üsulunun anatomiyasını öyrənən bir kitabdır.

1848-ci il inqilabının süqutundan sonra K.Marks bir çox burjua cərəyanları ilə və xırda burjua "sosializmi" ilə mübarizə aparmağa başlayır. Belə ki, K.Marks kapitalizmin siyasi iqtisadının bütün ünsürlərini öyrənib təhlil edir. Nəhayət, 1859-cu ildə "Siyasi iqtisadın tənqidinə dair" əsərini yaradır. Bu əsərdə K.Marks gələcək "Kapital" əsərinin əsas müddəalarını inkişaf etdirir. K.Marksın sağlığında "Kapital" əsərinin birinci cildində bilavasitə kapital istehsalı prosesini, ikinci cilddə tədavül prosesini, üçüncü cilddə bütövlükdə götürülmək şərtilə kapitalist istehsalı prosesini

downloaded from KitabYurdu.az

öyrənmişdir. Dördüncü cild "Kapital" əsəri isə iqtisadi nəzəriyyələr tarixinə həsr edilmişdir.

Qeyd edək ki, kapitalın hərəkəti istehsal prosesi ilə başa çatmır, onun hərəkəti tədavüldə tamamlanır. Məhz buna görə də K.Marks kapitalist istehsalına istehsal prosesinin və tədavülün vəhdəti kimi baxmışdır. O yazırdı ki, "kapitalist istehsal üsulunun hökm sürdüyü cəmiyyətlərin sərvəti" külli əmtəə yığını kimi, ayrıca bir əmtəə isə bu sərvətin bəsit forması kimi meydana çıxır. Buna görə də bizim tədqiqatımız əmtəənin təhlilindən başlanır. Deməli, K.Marks əmtəə istehsalına kapitalizm cəmiyyətinin "iqtisadi hüceyrəsi" kimi baxmışdır.

Əmətəənin iki amilinə istehlak dəyərinə və mübadilə dəyərinə baxmaqla yanaşı K.Marks onların arasında olan ziddiyyəti açmış və əməyin ikili xarakterini kəşf etmişdir.

K.Marks əməyin ikili xarakterini - konkret və abstrakt əmək olmaqla, "Kapital" əsərində  kapitalizmin bütün əsas iqtisadi kateqoriyalarının təhlilini vermişdir. K.Marks sübut etdi ki, əmtəə kateqoriyasında kapitalizmin bütün ziddiyyətləri rüşeym halında əks olunmuşdur. Sonrakı tədqiqatında o, bu ziddiyyətləri açmış və həm də inkişaf etdirmişdir.

"Kapital" əsərində K.Marks dəyər formalarını və pulu təhlil etməklə yanaşı bu tədqiqatında mübadilənin geniş tarixi prosesini, əmtəə istehsalının ümumi prosesini, əmtəə istehsalının ümumi xarakter daşımasını və dəyərin pul formasını işıqlandırır. Əmtəə istehsalının və mübadilənin inkişaf nəticəsi olan pulun meydana gəlməsi də "Kapital"da geniş şərhini tapmışdır. K.Marks qeyd edirdi ki, əmtəə tədavülünün son məhsulu olan pul kapitalın ilkin formasına çevrilir. Lakin tarixi inkişafın müəyyən bir mərhələsində onlar kapitala çevrilirlər ki, bunun da nəticəsində "ictimai istehsal prosesinin" xüsusi dövrü başlayır.

downloaded from KitabYurdu.az

K.Marks "Kapital" əsərində göstərirdi ki, kapital tarixi forma daşıyan müəyyən bir ictimai münasibətdir və bu münasibətlər kapitalist istismarını ifadə edir. Belə ki, kapitalın mahiyyətini açmaq ilk dəfə K.Marksa nəsib olmuşdur, çünki o xüsusi bir əmtəə olan işçi qüvvəsi əmtəəsini kəşf etmişdir. K.Marks göstərirdi ki, kapitalist istehsalının ilkin şərtlərindən biri işçi qüvvəsinin alınıb-satılmasıdır. Bu zaman iki qütb üz-üzə dayanır, pul sahibi olan kapitalist və işçi qüvvəsinin sahibi olan fəhlə. Çünki işçi qüvvəsi (fəhlə) istehsal vasitələrindən məhrum edilmiş və özünün iş qüvvəsini zərurət üzündən satır. Sahibkar kapitalist isə istehsal vasitələri, yəni mülkiyyət üzərində mövcud olan inhisarından istifadə edərək muzdlu işçi qüvvəsini istismar edir.

Deməli, kapitalist istehsal prosesi fəhlənin iş qüvvəsinin kapitalist tərəfindən istehlak olunmasıdır, istehsal vasitələrinin sahibləri tərəfindən muzdlu iş qüvvəsinin istismarıdır.

"Kapital" əsərində izafi dəyər istehsalının təhlili göstərir ki, kapital keçmiş əməkdir. K.Marksın təbirincə desək kapital izafi əməyə hərisdir, o qəddarcasına hər cürə sərvətin mənbəyi olan cəmiyyətin iş qüvvəsini mənimsəyir.

K.Marksın bu şah əsərində kapitalın yaranmasının maddi ilkin şərtləri də tədqiq edilmişdir, yəni "Kapital" əsərinin müəllifi ilkin kapital yığımı prosesini də nəzərdən qaçırmamışdır. İlkin kapital yığımı prosesi dedikdə, K.Marks onu nəzərdə tuturdu ki, bilavasitə maddi nemətlər istehsal edənlər, cəmiyyətin sərvətini yaradanlar zorakılıq yolu ilə istehsal vasitələrindən və yaşayış vasitələrindən məhrum edilmişlər. Beləliklə, K.Marks "Kapital" əsərində burjua məddahlarının uydurduğu "guya kapital dinc yolla yaranmışdır" ideyasına növbəti zərbəsini endirmişdir. Deməli, kapitalın dinc yolla meydana gəlməsi tarixi həqiqətlə heç bir uyğunluq təşkil etmir.

downloaded from KitabYurdu.az

"Kapital" əsərində K.Marks nəinki hərtərəfli olaraq izaifi dəyər istehsalını tədqiq etmişdir, o hətta göstərir ki, nisbi və mütləq izafi dəyər istehsal olunur. Bununla əlaqədar olaraq K.Marks "Kapital" əsərində kapitalist istehsalının üç əsas tarixi inkişaf mərhələsini də öyrənmişdir. Bu mərhələlər sadə kapitalist kateqoriyalarından, manufakturadan və iri maşınlı sənaye istehsalı prosesindən ibarətdir. İqtisadi təlimlər tarixi elmində ilk dəfə olaraq K.Marks sübut etmişdir ki, maşınlı istehsal bütün ənənəvi istehsal növlərini inqilabiləşdirir, iri sənaye istehsalı sistemi yaradır. İri maşınlı sənaye istehsalı əsasında əmək real olaraq kapitala tabe etdirilir. Bunun əsasında da kapitalist istehsal üsulunun ziddiyyətləri daha da dərinləşir və kəskinləşir, proletariatın isə həyat səviyyəsi aşağı düşür, yoxsulluq artır. Bu yolla da istismarçı siniflərin sərvəti çoxalır. "Kapital" əsərində göstərilir ki, uzun-uzadı iş günlərinin qısaldılması uğrunda proletariat mübarizə aparır. Kapitalizmin eninə və dərininə inkişafı kapitalizmin ziddiyyətlərini kəskinləşdirir ki, bu da kapitalizmin əsas ziddiyyətinin təzahür etməsinə gətirib çıxarır. Kapitalizmin əsas ziddiyyəti dedikdə, K.Marks istehsalın ictimai xarakteri ilə mənimsəmənin xüsusi kapitalist forması anlayışını nəzərdə tuturdu.

K.Marks göstərirdi ki, kapitalist yığımının ümumi qanunu hər an fəhlə sinfinin mütləq və nisbi yoxsullaşmasını yaradır. Kapitalın təmərküzləşməsi və mərkəzləşməsi kiçik istehsalın iri istehsal tərəfindən sıxışdırılması və s. cəmiyyətdə iki qütbün, iki ziddiyyətli sinfin yaranmasına gətirib çıxarır. K.Marks tərəfindən "Kapital" əsərində verilən kapitalizmin təhlili burjua cəmiyyətində siniflər arasında olan və getdikcə kəskinləşən ziddiyyətlərin təhlili idi. Bununla K.Marks burjua ideoloqlarının irəli sürdükləri kapitalizmdə mənafelərin harmonik ideyasını alt-üst edirdi.

downloaded from KitabYurdu.az

"Kapital" əsərinin ikinci cildində K.Marks kapitalın dövranı və dövriyyəsini öyrənərək kapitalist təkrar istehsalının bütövlükdə götürülmüş halda tədqiqini vermişdir. Burada K.Marks göstərilən problemlərlə əlaqədar olaraq klassik burjua siyasi iqtisadının görkəmli nümayəndələri olan A.Smitin və D.Rikardonun buraxdıqları səhvlərin həm təhlilini vermiş və həm də onların səmərəli fikirlərini inkişaf etdirmişdir.

Klassiklər belə bir fikir irəli sürürdülər ki, gəlir əmək haqqından, mənfəət və rentadan ibarətdir. K.Marks isə göstərirdi ki, əmtəənin dəyəri həqiqətən istehsal vasitələri dəyərindən, işçi qüvvəsinin dəyərindən və izafi dəyərdən ibarətdir. Deməli, K.Marksa görə sabit kapitalın (s) dəyərindən, dəyişən kapitalın (v) dəyərindən və izafi (m) dəyərdən ibarətdir.

Bu prinsipə uyğun olaraq iqtisadi təlimlər tarixində birinci olaraq K.Marks bütün ictimai istehsalı iki bölməyə ayırmışdır:

Birinci bölmə - istehsal vasitələri istehsalı, İkinci bölmə - istehlak şeyləri istehsalı. Hər iki bölmədə istehsal olunan məhsulun, yəni sadə və geniş təkrar istehsalda yaranan məhsulun reallaşdırılmasını K.Marks sxemlər vasitəsilə izah etməklə iqtisad elmində iqtisadi hadisələrin və proseslərin modelləşdirilməsi prinsiplərinin əsasını qoymuşdur.

"Kapital" əsərinin ikinci cildində K.Marks göstərirdi ki, həm sadə, həm də geniş təkrar istehsalda istehsalın külli miqdarda qeyri-normal inkişafı böhranlar yaradır, bu böhranlar iqtisadi inkişafın sabitliyini və ümumi müvazinəti pozurlar, nəticədə isə disproporsional inkişaf yaranır.

"Kapital" əsərinin üçüncü cildində K.Marks mürəkkəb mexanizm olan izafi dəyərin müxtəlif kapitalist qrupları arasında bölüşdrülməsi prosesini tədqiq və təhlil etmişdir. K.Marks göstərirdi ki, belə bir bölgü prosesini orta mənfəət qanunu tənzimləyir.

downloaded from KitabYurdu.az

Beləliklə, sənayeçi kapitalist mənfəət, ticarət kapitalisti ticarət mənfəəti, borc kapitalisti faiz, torpaq sahibləri isə renta əldə edirlər. Bütün istismarçı siniflərin əldə etdikləri bu qeyri-əmək gəlirlərinin mənbəyi muzdlu fəhlənin əməyi ilə yaradılan izafi dəyərdir.

Üçüncü cilddə K.Marksın bu tədqiqatları ilə yanaşı dövlət strukturlarının əldə etdikləri mənfəətin də mənbəyi tədqiq edilir. K.Marks qeyd edirdi ki, burjua dövləti vergilər hesabına varlanır. Göstərilən bütün problemlərlə yanaşı "Kapital" əsərinin müəllifi K.Marks tacir və sələm kapitalının mənşəyini, onların oynadığı rolu, əhəmiyyətlərini və ziddiyyətli cəhətlərinin də təhlilini vermişdir. Sonra isə K.Marks tacir və sələm kapitalına, renta formalarına əsaslanaraq kapitalizmin mənşəyini öyrənrir. Digər tərəfdən K.Marks izafi dəyərin mənfəətə, izafi dəyər normasının mənfəət normasına çevrilməsini və mənfəət normasının azalma meyli qanununu araşdırmışdır. O yazırdı ki, bu qanunun sirri üzərində klassik siyasi iqtisadın nümayəndələri çox düşünmüşlər, lakin heç bir nəticə əldə edə bilməmişlər.

"Kapital" əsərinin dördüncü cildində K.Marks - marksizmə qədərki iqtisadi nəzəriyyələrin tarixini öyrənmişdir. Belə ki, o burjua siyasi iqtisadının iqtisadi fikirlər tarixində oynadığı rolu izah etmiş, "bayağı" (vulqar) siyasi iqtisadın mahiyyətini vermiş, yeni bir siyasi iqtisad məktəbi, marksist siyasi iqtisad elmini yaratmışdır. K.Marks kapitalist istehsal üsulunun meydana gəlib yaranması, inkişaf qanunauyğunluqlarını və bu cəmiyyətin məhv olub getməsi qanunlarının elmi-nəzəri prinsiplərini öz şah əsərində şərh etmişdir.

K.Marks "Kapital" əsərində kapitalist istehsal üsulunu tədqiq edərkən dialektik və tarixi materializm metodundan istifadə etmişdir. K.Marksın bu dialektik metodu ümumi elmi əhəmiyyət kəsb edir. K.Marks kapitalist istehsal üsulunu tədqiq edərkən öz sələflərinin səmərəli ideyalarını götürüb yaradıcı surətdə daha da

downloaded from KitabYurdu.az

zənginləşdirərək inkişaf etdirmişdir. O, konkret materiallar əsasında kapitalist istehsalının ümumi və spesifik qanunlarını kəşf etmiş və bunun əsasında kapitalist iqtisadiyyatının hərəkət mexanizmini tədqiq etmişdir.

Marks təkcə ictimai istehsalın spesifik kapitalist formasını deyil, insan cəmiyyəti həyatının əsasını təşkil edən maddi istehsalın ümumi qanunauyğunluqlarını, ümumi şəraitini, ümumi tərəflərini öyrənmişdir.

K.Marksın dövründə burjua iqtisadçıları maddi istehsalın ümumi və xüsusi cəhətlərini eyniləşdirir və maddi istehsalın ümumi və xüsusi tərəfləri arasında olan fərqlərə fikir vermirdilər. K.Marksa görə bu metodoloji səhv idi. K.Marks hələ öz dövründə burjua siyasi iqtisadının bu metodoloji səhvini dərindən və əsaslı surətdə tənqid etmişdir.

Marksın yaratdığı dialektik metod bütün elmlər üçün eynidir. Lakin bu dialektik tədqiqat metodunun tətbiq edilməsinin obyektiv səbəbi maddi varlığın vəhdətindən və maddi varlığı ifadə edən qanunların vahidliyindən irəli gəlir. Lakin bu vəhdət daxilində hər bir elmin xüsusi tədqiqat metodunun özünün öyrəndiyi obyektiv və ayrı-ayrı problemləri var. Elmin predmeti həmişə inkişaf edir və təkmilləşir. Elmin tədqiqat metodu, tədqiqat üsullarının məcmusudur, həqiqəti dərk etmək vasitəsidir. Elmin metodu vasitəsilə təfəkkür öyrənilən obyekti iqtisadi qanunlar və kateqoriyalar sisteminə daxil edir. Lakin metodologiya nisbi olaraq metoddan fərqlənir, yəni metodologiya metoda nisbətən geniş anlayışdır. Metodologiya dərketmə metoduna və dərketmə metodu olan təlimləri özündə birləşdirir. Bizim fikrimizcə, əgər tədqiqat metodu öz-özlüyündə yaranır və sonra hazır şəkildə gerçəkliyin, müəyyən tərəflərinin öyrənilməsində tətbiq edilir desək, nisbi səhvə

downloaded from KitabYurdu.az

yol vermiş olarıq. Metod tədqiqatın ilkin şərtidir, onun daxili momentləridir.

Hər bir elmin metodunun spesifikliyi birinci növbədə həmin elmin predmetinin xüsusiyyətliliyi ilə müəyyən olunur. Hər hansı bir elmin metodu ümumiliyin və xüsusiliyin vəhdətidir. Ümumilik materialist metodunun məzmunudur, materialist dialektikanın özüdür, ümumilik maddi varlığın vəhdətini və onun ümumi qanunlarının dərk olunmasını ifadə edir.

Marksist siyasi iqtisad yarandığı gündən indiyə kimi dialektik materialist dünyagörüşünün umumi prinsiplərinə əsaslanır. K.Marks "Kapital" əsərində sözardında (ikinci nəşr) yazır ki, mənim bu kitabda tətbiq etdiyim metod materialist dialektikasının səmərəli forması olan dialektik metoddan savayı bir şey deyildir.

Materialist Hegeldə qiymətli nə varsa, K.Marks hamısını götürmüş və qiymətli olanı inkişaf etdirmişdir.

Deməli, iqtisadi hadisələrin və proseslərin inkişafı və daxili əlaqələrinin obyektiv və hərtərəfli təhlilini vermək, iqtisadi proseslərin əsas təmayüllərinin dialektik mahiyyətini müəyyən etmək (yəni iqtisadi proseslərin ziddiyyətliliyini, keyfiyyət müxtəlifliliyini, daima təkrar olunmasını açmaq) iqtisad elmindən dialektikanın etdiyi tələbdir.

Məlumdur ki, vahid dialektik metod iqtisadi tədqiqatlarda konkret üsullar və yollar vasitəsilə tətbiq edilir.

Siyasi iqtisadda mühüm tədqiqat metodlarından biri elmi abstraksiya metodudur, konkretlilikdən abstraktlığa hərəkət və abstraktlılığdan konkretlililiyə keçiddir. Bununla əlaqədar olaraq K.Marks "Kapital" əsərinin birinci cildində yazır ki, iqtisadi formalar təhlil edilərkən nə mikroskopdan, nə də kimyəvi reaktivlərdən istifadə etmək mümkün deyildir. Bunların yerini abstraksiya qüvvəsi tutmalıdır.

downloaded from KitabYurdu.az

Elmi abstrakt metodun iki tərəfi var: birinci, konkret empirik materiallar toplanır, onlar ümumiləşdirilir, ən sadə, adi iqtisadi münasibətlər təsvir edilir; ikinci, abstraktlıqdan konkretliyə yüksəliş, sadə və ümumi iqtisadi kateqoriyalardan daha da mürəkkəb, daha konkret və spesifik kateqoriyaların təhlilinə keçir. Lakin tədqiqatın gedişinin müəyyən bir həddi, mərhələsi olmalıdır. İqtisadi nəzəriyyənin mühüm müddəalarından biri də ondan ibarətdir ki, o öz nəticələrini hansı konkretlilik daxilində izah edir və hansı nəticələrə gəlir. Məsələn, K.Marks "Kapital" əsərində dəyər kateqoriyasını ümumi və abstrakt şəkildə təhlil etməklə bu sahədə öz tədqiqatının istehsal qiymətini öyrənməklə başa çatdırır.

Abstraksiya prosesi hadisələri "xalis şəkildə", təmiz şəkildə götürür. Abstraktlaşdırma (sadə nəzarətetmə, fikrən təsvir etmə) prosesinin nəticəsi elmi anlayışlar, kateqoriyalar, modellər və s.-dir. Abstraksiya hadisələrin müəyyən bir tərəfini ifadə edir, abstrakt metodun tətbiqi gerçəkliyi daha ətraflı, daha dərindən öyrənməyə imkan verir, abstraksiya gerçəkliyin mühüm, əsas tərəfini üzə çıxarır. Məlumdur ki, təfəkkür konkretdən abstrakta yüksələrkən həqiqətdən uzaqlaşmayıb, ona yaxınlaşır. Bütün elmi abstraksiyalar təbiəti daha dərin, daha düzgün, daha dolğun əks etdirir.

Elmi anlayışlar və kateqoriyalar real gerçəklik ifadələridirlər. Müəyyən anlayışlarsız və kateqoriyalarsız elm yoxdur. Konkret gerçəkliyi dərk etsək, onun mahiyyətini və çoxcəhətliyini açmaq üçün konkretlilikdən abstraktlığa, abstraktlıqdan konkretliliyə keçid metodundan istifadə edilir. Konkretdən abstrakta keçid məntiqi bir prosesdir, bu zaman fikir predmetin, hadisələrin, proseslərin, münasibətlərin mahiyyətinə nüfuz edir. Marksın, sözü ilə desək, konkretdən abstrakta keçid seyr edilmiş hadisələrin anlayışlarda ifadə edilməsidir. Konkretdən abstrakta keçiddə isə nəyin qəbul

downloaded from KitabYurdu.az

edilməsini, nəyin qəbul edilməməsini, hadisənin hansı tərəflərindən sərf-nəzər ediləcəyini bilmək lazımdır.

Konkretdən abstrakta keçid tədqiqatın birinci mərhələsidir. Tədqiqatın sonrakı mərhələsi abstraktdan konkretə keçidlə tamamlanır. Elmi anlayışların, kateqoriyaların müəyyən edilməsi tədqiqat prosesində zəruri və vacib şərtdir. Lakin bunlar real gerçəkliyin konkret tərəfini dərk və izah etmək üçün mərhələlərdir.

Elmi anlayışlar, kateqoriyalar konkretin ayrı-ayrı hissələrini, tərəflərini öyrənmək üçün imkan yaradır. Əslində isə məqsəd konkreti bütövlükdə dərk etməkdir. Belə bir dərketmə üçün abstraktdan konkretə keçid metodunda istifadə edilir. K.Marks "Kapital" əsərində elmi abstraksiya metodu vasitəsilə burjua cəmiyyətinin iqtisadi hadisə və proseslərinin mahiyyətini açmış, kapitalist istehsal münasibətlərini tədqiq etmiş, kapitalizmin iqtisadi kateqoriya və qanunlar sistemini yaratmışdır.

## § 4. K.MARKSIN İQTİSADİ TƏLİMİNİN İQTİSADİ TƏFƏKKÜRÜN FORMALAŞMASINDAKI ROLU

K.Marks abstrakt metodu klassik formada "Kapital" əsərinə və özünün digər əsərlərinə tətbiq etməklə burjua cəmiyyətinin iqtisadi hüceyrəsi olan əmtəənin mahiyyətini, onun ikili xassəsini və daxili ziddiyyətlərini açmış, əmtəədə maddiləşən əməyin ikili xarakterini kəşf etmiş, əmtəənin dəyər kəmiyyəti, dəyərin inkişaf formaları və s. haqqında təlimlər sistemi yaratmışdır. Marks abstraksiya metodunu tətbiq etməklə kapital və izafi dəyəri, onların konkret formalarını, sənaye, ticarət, borc kapitalını, borc mənfəəti kateqoriyalarını təhlil etmişdir.

Belə ki, Marks yazır ki, istehsal münasibətlərini, iqtisadi hadisə və prosesləri tədqiq edib öyrənərkən abstrakt metoddan istifadə

downloaded from KitabYurdu.az

edilməsi zəruri şərtdir. İqtisadi hadisə və proseslərin inkişafından və onları öyrənmə dərəcəsindən asılı olaraq bu metodu üç mərhələdə tətbiq etmək olar.

Abstrakt metodun birinci mərhələsində ümumi anlayışların mahiyyətini, onların ictimai, iqtisadi məzmunundan asılı olmayaraq öyrənmək lazımdır. Bu ümumi anlayışlara aşağıdakılar daxil edilir: istehsal, əmək prosesi, istehsal vasitələri, istehsal münasibətləri.

İkinci mərhələ: iqtisadi sistemlərin qanunlarının kəşf edilməsi və onların məzmununun açılması, onların təzahür formalarının və fəaliyyət mexanizmlərinin, praktiki fəaliyyət prosesində bu qanunlardan istifadə olunmasının öyrənilməsi.

Abstraktlaşdırma metodunun üç mərhələyə ayrılmasının əhəmiyyəti ondan ibarətdir ki, abstraksiyanın bu mərhələsindən digərinə keçid prosesində cəmiyyətin iqtisadiyyatında fəaliyyət göstərən hadisələrin mahiyyətini daha dərindən, daha düzgün izah edə bilək.

Bununla birlikdə Marks öz təlimlər sistemini yaradarkən tarixilik və məntiqilik metodundan geniş istifadə etmişdir. Məntiqiliyin və tarixiliyin vəhdəti iqtisadi hadisələrin mahiyyətini dərindən dərk etməyə, qanun və kateqoriyaların daxili məntiqini, onlar arasında olan əlaqə və asılılığı açmağa və ardıcıllıqla şərh etməyə imkan verir.

Tarixilik metodu real iqtisadi münasibətlərin necə, nə cür yaranması və inkişaf ardıcıllığını öyrənir. Məntiqi metod isə obyektiv iqtisadi hadisələrin mahiyyətini, onlar arasında olan möhkəm və sabit əlaqələri açır.

İqtisadi hadisə və proseslərin tədqiqində və şərh edilməsində məntiqilik və tarixilik üzvi əlaqədə götürülür. Məntiqi təhlil dərketmənin obyektiv əsasını təşkil edir. Məntiqi metod fikirlərin düzgün və ardıcıl qurulmasıdır. Məsələn, Marks "Kapital"da belə bir

downloaded from KitabYurdu.az

ardıcıllığa riayət edir: əmtəə-pul-kapital. Bu kateqoriyaların ardıcıl yaranması və inkişafı, eyni zamanda tarixiliyi də özlərində əks etdirir. Məlumdur ki, əvvəl əmtəə yaranır, sonra pul.

Lakin əmtəə təsərrüfatının müəyyən mərhələsində pul kapitala çevrilir. Deməli, məntiqi və tarixilik metodu tələb edir ki, bu və ya başqa bir hadisəni dərk etmək üçün hökmək onun tarixini tədqiq etmək lazımdır.

F.Engels göstərir ki, tarix çox vaxt sıçrayışlarla inkişaf edir. Bu zaman külli miqdarda təsadüflər yaranır və təhlil prosesini çətinləşdirir. Deməli, xalis şəkildə tarixi inkişaf təsadüfi momentlərdən təmizlənməlidir. Bu zaman məntiqi metod iqtisadi hadisələrin, onların mahiyyətinin izahını və onlar arasında olan zəruri daxili əlaqələri açmaq imkanı və inkişaf istiqaməti verir.

"Kapital" əsərinin şərh üsulu göstərir ki, siyasi iqtisadın kateqoriyaları həmişə tarixən ardıcıl olaraq yaranmırlar. Buna misal olaraq Marksın tədqiq etdiyi sənaye kapitalını göstərə bilərik, çünki sənaye kapitalı ticarət və borc kapitalından sonra yaransa da kapitalist istehsal üsulunda sənaye əsas rol oynayır. Ticarət və borc kapitalı sənaye kapitalından asılıdırlar və axırıncının ayrılmış hissələridir. Deməli, buradan belə bir nəticəyə gəlmək olar ki, iqtisadi kateqoriyaları yaranma və meydana gəlmə ardıcıllığı ilə götürməmək də olar. Burada əsas məqsəd ondan ibarətdir ki, iqtisadi kateqoriyaların yaranma ardıcıllığı hansı iqtisadi sistemə daha çox uyğundur.

İqtisadi hadisə və proseslərin elmi surətdə dərk edilməsi vasitələrindən biri də təhlil və sintezdir. İqtisadi hadisələr, proseslər və istehsal münasibətləri sistemi mürəkkəb və çoxcəhətlidir. Bu mürəkkəb və çoxcəhətli hadisələri və prosesləri iqtisadi münasibətlər sistemi içərisində seçmək və ayırmaq, bu çoxcəhətli

downloaded from KitabYurdu.az

hadisə və prosesləri əlaqələndirmək təhlil və sintez metodu ilə mümkündür.

Təhlil metodu nəzəriyyədə o deməkdir ki, iqtisadi münasibətlər sistemi ayrı-ayrı hissələrə ayrılır. Bu zaman ayrı-ayrı hissələr, münasibətlər hərtərəfli tədqiq edilir. Belə bir təhlil ona görə edilir ki, ayrı-ayrı hissələrə ayrılmış münasibətlər içərisində tədqiq edilən hadisə və proseslərin mahiyyətini müəyyən edən tərəflər aşkar edilsin. Təhlil nəticəsində konkretdən abstraktlığa, təsadüfdən zərurətə, hadisədən onun mahiyyətinə keçirilir. Əlbəttə, iqtisadi qanunlar və formalar əsas götürülmür. İqtisadi hadisə və proseslər təhlil edilən zaman bu hadisələrin, proseslərin və iqtisadi qanunların mahiyyəti açılır.

Elmi dərketmənin yüksək mərhələsi sintezdir. Təhlilin son mərhələsi sintezin başlanğıc mərhələsidir. Təhlil zamanı ayrı-ayrı hissələrə ayrılmış tərəflərin bir yerə yığılması, vəhdət, bütöv halına salınması sintez demək deyildir. Əgər təhlil zamanı tək-tək fərdlərdən, konkretlikdən abstraktlığa və ümumiliyə doğru hərəkət edilirsə, sintez zamanı ümumilikdən hadisələrin müxtəlifliyinə, ümumiliyin ayrı-ayrı mövcudluq formalarına doğru hərəkət edilir. Sintez metodunun nəticəsi hadisələrin və proseslərin bütövlüyü və vəhdətidir.

K.Marks sintez dedikdə, təfəkkür prosesinin həqiqi inkişafının konkret formalarını nəzərdə tuturdu. Kapitalist istehsal üsulunu, onun iqtisadi inkişaf qanunlarını K.Marks tədqiq edərkən təhlil və sintez metodundan da geniş istifadə etmişdir.

Abstraktlıqdan konkretliyə keçid prosesinin bütün mərhələlərində təhlil və sintez metodundan istifadə edilməlidir, çünki təhlil sintez üçün şərait, sintez təhlil üçün əsaslar yaradır ki, təhlil daha dərindən aparıla bilsin.

downloaded from KitabYurdu.az

Siyasi iqtisad tədqiqatlarında təhlil və sintezlə yanaşı induksiya və deduksiya metodlarından da istifadə edilir. İnduksiya dedikdə, xüsusi mülahizələrdən ümumi nəticə çıxarmaq üsulu, deduksiya dedikdə isə ümumi mülahizələrədən xüsusi nəticəyə gəlmək nəzərdə tutulur. Bu metod xüsusi və ümumi faktları nisbətən hadisə və proseslərdə ifadə edir. İnduksiya və deduksiya metodundan düzgün istifadə etmək o deməkdir ki, ümumi və xüsusi anlayışlar hansı dialektik əlaqədədirlər. Qeyd edək ki, ümumi yalnız ayrıcada, ayrıcanın vasitəsilə mövcuddur. Hər bir ümumi ayrıcanın hissəciyi və ya tərəfi, yaxud mahiyyətidir. Hər bir ümumi bütün ayrı-ayrı predmetləri yalnız təqribən əhatə edir. Hər bir ayrıca ümumiliyə natamam daxil olur və s.

Deduksiya tədqiqatçını oxşar faktlardan azad edir. Deduksiya elə bir şərait yaradır ki, bu şərait daxilində ancaq əldə edilən nəticələr tətbiq edilir. İnduksiya metodu isə müşahidə və eksperimentlərə əsaslanır. Bu zaman real faktlar əsas, başlanğıc kimi götürülür.

Marks deduksiya və induksiya metodunu siyasi iqtisada dialektcəsinə tətbiq edir. Belə ki, Marks "Kapital" əsərində nəinki külli miqdarda faktiki materialları təhlil edir, o, həmçinin faktiki materialların müşahidəçisi kimi də çıxış edir. Marks yazır ki, tədqiqat gərək materialı ətraflı öyrənsin, onun müxtəlif inkişaf formalarını təhlil etsin, bu formaların daxili rabitəsini izləsin. Ancaq bu iş qurtardıqdan sonra gerçək hərəkət təsvir edilə bilər.

K.Marks deduksiya metodu ilə yanaşı induksiya metodundan da istifadə etmişdir. Məsələn, iş gününü götürək. Deduksiya metodunu tətbiq etməklə K.Marks göstərir ki, iş günü zəruri iş vaxtından çox olmalıdır. Əgər belə olmazsa, kapitalist istehsal üsulu da olmaz. Lakin izafi iş vaxtının uzunluğunu Marks induksiya

downloaded from KitabYurdu.az

metodu ilə müəyyən edir. "Kapital" əsərinin bir çox fəsillərində hər iki metoddan geniş istifadə olunmuşdur.

K.Marks sosializm cəmiyyəti haqqında olan utopik baxışları elmi nəzəriyyəyə və elmi sistemə çevirərək belə qənaətə gəlir ki, bütün cəmiyyətlərin əsasını maddi istehsal təşkil edir. O yazırdı ki, bütün cəmiyyətlərdə məhsuldar qüvvələr maddi istehsalın əsasını təşkil edir. Məhsuldar qüvvələr maddi istehsalın müxtəlif formalarının yaranmasının əsasında dayanır. Digər tərəfdən, məhsuldar qüvvələr istehsal prosesində insanlar arasında olan münasibətlərin inkişaf mərhələlərini təşkil edir. Bu qəbildən olan münasibətlər cəmiyyətin iqtisadi bazisini təşkil edir. İqtisadi bazis üzərində isə cəmiyyətin siyasi, hüquqi və mənəvi münasibətləri təşəkkül tapır.

K.Marks "Kapital" əsərində göstərir ki, iqtisadi qanun hadisələr arasında olan daxili və zəruri əlaqələrdir. O, öz vəzifəsi kimi kapitalist istehsalının təbii qanunlarını tədqiq etməkdə görürdü. Bu qanunlar da K.Marksa görə "dəmir qanunlar" kimi fəaliyyət göstərir. O yazırdı: kapitalist istehsal prosesinin özünə uyğun qanunauyğunluqları var. Bütün mövcud olan tarixi dövrlər siniflərin mübarizəsi dövrü olmuşdur. Siniflərin bu mübarizəsi maddi şəraitə əsaslanır, çünki bütün cəmiyyətlər maddi nemətlər istehsal edirlər. Maddi nemətlər isə insan cəmiyyətinin yaşayıb inkişaf etməsinin əsası, zəruri şərtidir.

K.Marksın ikinci böyük elmi xidməti əmək və kapital arasında olan münasibətlərin elmi baxımdan açıqlanmasıdır. Bu açıqlama isə izafi dəyər nəzəriyyəsinin ümumi məzmununu təşkil edir. İzafi dəyər nəzəriyyəsi haqqında K.Marksın yaratdığı təlim, iqtisadi nəzəriyyənin (siyasi iqtisadın) təməl daşını təşkil edir. İzafi dəyər nəzəriyyəsi haqqında Marksın təlimi proletariat ilə burjuaziya arasında olan münasibətləri açıqlayır və kapitalistlər tərəfindən muzdlu əməyin

downloaded from KitabYurdu.az

istismar olunduğunu sübut edir. İzafi dəyər haqqında K.Marksın təlimi kapitalizm cəmiyyətində sinfi ziddiyyətlərin və sinfi mübarizənin kökünə endirilmiş zərbə idi. K.Marks bu əsərində kapitalizm cəmiyyətini insan əməyinin istismarı baxımından əvvəlki cəmiyyətlərə nisbətən daha çox ifşa edirdi. Çünki Engelsin sözlərilə desək, kapitalizm muzdlu əməyi (iş qüvvəsini) qəddarcasına istismar etmək üçün küllü miqdarda metodlar, üsullar və yollar yaratmışdır. Bu istismar formalarının başında çoxluğu istismar edən azlıq dayanırdı. Xırıda burjuaziya çalışırdı ki, sinfi ziddiyyətə daxil olanlar barışdırıcı mövqe tutsunlar. Onlar iddia edirdilər ki, qeyri-sinfi sosializm siniflər üzərində "üstün" quruluş demokratiya lazımdır. Göstərdiyimiz bu ideya ilə əlaqədar olaraq qeyd edək ki, Marksın "Kapital" əsərində göstərilirdi ki, ümumiyyətlə, kapitalizm cəmiyyətinin əsas qüvvəsi burjuaziya və proletariatdır. Bu ideya o demək idi ki, burjuaziya kapitalizm cəmiyyətinin qurucusudur, bu cəmiyyətin rəhbəridir, lakin kapitalizmin hərəkətverici qüvvəsi proletariatdır. "Kapital" əsərində klassik iqtisadi təlim işlənib hazırlanmışdır. Bu iqtisadi təlim böyük siyasi-iqtisadi və elmi sistemdir. "Kapital" əsərinə qədər kapitalizm haqqında çox əsərlər yazılmışdır. Lakin bu əsərlərin müəlliflərilə müqayisədə K.Marks kapitalizm cəmiyyətinin düzgün elmi şərhini vermişdir. O göstərmişdir ki, kapitalizm keçici xarakter daşıyan istehsal üsuludur.

"Kapital" əsərində K.Marks özünün kəşf etdiyi tarixi materialistcəsinə anlamaq ideyasından istifadə etmişdir. Bu metodla o, kapitalist istehsal üsulunu tədqiq etmişdir. Bu proses daxilində burjua iqtisadçıları əmtəənin əmtəəyə dəyişdirilməsini şeylər münasibəti kimi görürdülər. Bu münasibətlər daxilində olan şeylər prosesini K.Marks insanlar arasında olan münasibət kimi izah edirdi.

K.Marks göstərirdi ki, kapitalist əmtəə təsərrüfatı əmək məhsuldarlığını artırmaqla yanaşı həmin kapitalist istehsalı ilə

downloaded from KitabYurdu.az

ziddiyyətə daxil olur və bu ziddiyyətlər barışmaz xarakter daşıyır. Bununla K.Marks kapitalitst istehsalının ziddiyyətli inkişafının mahiyyətini açmış və sübut etmişdir ki, bu cəmiyyət nə qədər tərəqqipərvər olsa da bir o qədər ziddiyyətli quruluşdur. K.Marks "Kapital" əsərində burjua cəmiyyətinin məhsuldar qüvvələri ilə onun istehsal münasibətlərinin dialektikasını da tədqiq və təhlil etmişdir. O göstərirdi ki, məhsuldar qüvvələrin müəyyən bir inkişaf səviyyəsində kapitalist istehsal münasibətləri yaranmışdır. Sonrakı inkişaf nəticəsində isə kapitalist istehsal münasibətləri məhsuldar qüvvələri ləngidir. Bu prosesin əsasını kapitalizm ziddiyyətlərinin tarixi dərinləşməsi və kəskinləşməsi təşkil edir.

Qeyd edək ki, K.Marksın "Kapital" əsəri təkcə iqtisadi nəzəriyyə üçün deyil, o, eyni zamanda fəlsəfə və tarix üçün əvəzedilməz xəzinədir. "Kapital" əsərində K.Marks özünün yaratdığı və inkişaf etdirdiyi dialektik materializm metodundan istifadə etmişdir. Bu metod öz növbəsində bütün ictimai fənlərdə istifadə olunan metoda çevrildi.

downloaded from KitabYurdu.az

# FƏSİL 12. ALMAN TARİXİ MƏKTƏBLƏRİ

## § 1. ALMANİYADA SİYASİ İQTİSADIN MEYDANA GƏLMƏSİ. F.LİST, ONUN İQTİSADİ BAXIŞLARI. MƏHSULDAR QÜVVƏLƏR NƏZƏRİYYƏSİ

Qərbi Avropanın başqa ölkələrindən fərqli olaraq, Almaniyanın özünün klassik siyasi iqtisadı olmamışdır, bu da hər şeydən əvvəl, onunla izah olunur ki, burjua siyasi iqtisadının meydana gəlməsi üçün kapitalist istehsalının müəyyən yetkinliyinin olmamasıdır. Bununla belə, Almaniya bütün Qərbi Avropa ölkələrindən sonra kapitalist inkişafı yoluna qədəm qoymuşdur. Hətta XIX əsrin birinci yarısında Almaniya hələ də siyasi cəhətdən parçalanmış, iqtisadi cəhətdən geridə qalmış aqrar ölkə olaraq qalırdı. Ölkənin iqtisadi həyatı daxili gömrük maneələrinin bolluğu şəraitində keçir, vahid ticarət qanunvericiliyinin, vahid pul sisteminin, həmçinin vahid ölçü və çəki sisteminin olmaması ilə xarakterizə olunurdu. Almaniyanın iqtisadi birləşməsinin başlanğıcını qoymuş gömrük ittifaqı yalnız 1843-cü ildə yaranmışdır. Almaniyada sənaye çevrilişi, əgər XIX əsrin 40-cı illərində,baş vermişdirsə, lakin İngiltərə artıq güclü sənaye dövləti, kimi o dövr üçün "dünyanın emalatxanası" adlandırılırdı.

O dövrdə Almaniyada xarici ticarətin tam azadlığı hökm sürürdü və bu, gənc milli iqtisadiyyat üçün son dərəcə təhlükəli idi, belə ki, Almaniyanın texniki cəhətdən geridə qalan sənayesi ucuz və keyfiyyətli ingilis manufakturası və başqa fabrik malları ilə rəqabətə davam gətirə

downloaded from KitabYurdu.az

bilmirdi. Bu şəraitdə Almaniya sənayesinin İngiltərə və Fransa tərəfindən tamamilə məhv edilməsi təhlükəsi reallaşırdı.

Alman iqtisadi fikri qarşısında ölkənin yaranmış vəziyyətdən çıxış problemi qoyulurdu. Ölkənin iqtisadi geriliyinin aradan qaldırılması, onun siyasi birləşməsi məsələsinin həlli hər şeydən əvvəl, gənc kapitalist sənayesinə himayədarlıq edən və onun üçün möhkəm gömrük müdafiəsini yaradan, ölkəni birləşdirə bilən milli ideologiya hazırlaya biləcək güclü dövlət hakimiyyətinin yaranmasını tələb edirdi. Bu ideologiya alman millətçiliyi oldu.

Bu ideyalar F.Listin təlimində tam və parlaq ifadəsini taparaq inkişaf etdirildi.

Fridrix List (1789-1846-cı illər) XIX əsrin birinci yarısında alman burjuaziyasının görkəmli ideoloqu idi. XIX əsrin 40-cı illərində Almaniyada yaranmış alman siyasi iqtisad tarixi məktəbinin əsasında məhz onun baxışları dururdu. List kiçik Reytlingen şəhərində, varlı dabbaq ailəsində anadan olmuşdur. O, gənc yaşlarında Vürtemberq krallığının mərkəzi hökumətində işləməyə başlayır. 1817-ci ildə List Tübingen Universitetinin professoru olur. 1819-cu ildə Listin təşəbbüsü ilə Frankfurtda daxili gömrükxanaların ləğv edilməsini və vahid ümumalman proteksiya sisteminin qurulmasını qarşısına başlıca məqsəd qoyan "Alman sənayeçilərinin və kommersantlarının baş assosiasiyası"nın əsası qoyulur. Almaniyada feodal qaydalarının və feodal bürokratiyasının tənqidi üçün hökumət tərəfindən həbs olunmaq təhlükəsi ilə izlənilən List ABŞ-a mühacirət edir. Orada o, varlanıb 1832-ci ildə Amerika konsulu kimi Almaniyaya qayıtmışdı. O vaxtdan da List amerikan iqtisadçısı Hamilton tərəfindən irəli sürülmüş, dövlətin fəal surətdə iqtisadiyyata müdaxiləsini nəzərdə tutan və umummilli bazarın yaradılmasını, milli istehsalın ingilis səviyyəsi rəqabət qabiliyyətinə çatmasına qədər müdafiəsini qarşısına məqsəd qoyan proteksionizm ideyalarını inkişaf etdirmişdir.

1841-ci ildə Listin baş əsəri olan "Siyasi iqtisadın milli sistemi" buraxılır. Bu əsərin mərkəzi ideyası ondan ibarətdir ki, ayrı-ayrı ölkələrin iqtisadiyyatı öz xüsusi qanunları ilə inkişaf etdiyinə görə bütün ölkələr üçün vahid siyasi iqtisad ola bilməz. Hər bir ölkənin öz milli siyasi iqtisad sistemi olmalıdır. Sonuncunun məqsədi, Listin rəyincə millətin müasir

downloaded from KitabYurdu.az

şəraitdə bütün dünyada və xüsusi milli münasibətlərin mövcudluğu zamanı özünün iqtisadi vəziyyətini saxlamaq və yaxşılaşdırmaqdan ibarətdir. List dəfələrlə qeyd etmişdir ki, siyasi (milli) iqtisadın vəzifəsi hər şeydən əvvəl, millətin iqtisadi tərbiyəsindən ibarətdir. List "siyasi iqtisad" terminini əvəz edərək, "milli iqtisad" terminini tətbiq edir. "Milli iqtisad" dedikdə o, inkişaf edən alman burjuaziyası üçün iqtisadi siyasət üzrə tövsiyələr sistemini başa düşür.

Ümumiyyətlə, List ayrı-ayrı ölkələrin iqtisadi inkişafında olan və müxtəlif formasiyaların iqtisadi qanunlarının məzmununu təşkil edən ümumini, tipik və  təkrar olanı rədd edərək, milli xüsusiyyətləri ön plana çəkirdi.

Milli sistemdə List məhsuldar qüvvələr nəzəriyyəsinə, həmçinin onunla əlaqədar əmək bölgüsü və millətlərin təsərrüfat inkişafı mərhələləri haqqında təlimə mühüm yer ayırırdı. List hesab edirdi ki, Almaniya üçün proteksionist siyasət əsasında sənayenin sürətli inkişafı daha mühümdür.

List belə hesab edirdi ki, millətin rifahı var-dövlətin kəmiyyəti ilə deyil, bu sərvəti yaradan məhsuldar qüvvələrin inkişaf dərəcəsi ilə şərtləndirilir. Məhsuldar qüvvələrin tərkib hissəsini o, "əqli kapital"da, yəni onun sərvətin başlıca mənbəyi hesab etdiyi elmdə, incəsənətdə olan nailiyyətlərdə, kəşflərdə, ixtiralarda və s. görürdü.

List başlıca və müəyyənedici məhsuldar qüvvələr dedikdə, fabrik-zavod sənayesini nəzərdə tutmuşdur. List belə hesab edirdi ki, məhz o, nəinki bütün başqa məhsuldar qüvvələri (əkinçilik, nəqliyyat, ticarət və s.) doğurur, həm də ölkənin mənəvi və mədəni tərəqqisinin, həmçinin onun siyasi müstəqilliyinin sadiq rəhnidir.

Millətin iqtisadi inkişaf mərhələləri haqqında təlim də Listə məxsusdur. "Millətin milli-iqtisadi irəliləyiş hərəkatında o, beş əsas mərhələni: 1) vəhşilik halı, 2) çobanlıq, 3) əkinçilik, 4) əkinçilik-manufaktura, 5) əkinçilik-manufaktura-ticarət mərhələlərini ayırmışdır.

Millətlərin təsərrüfat inkişafı mərhələləri haqqında olan təlimdən List öz iqtisadi siyasət konsepsiyasını yaradırdı. List təsərrüfatçılığın idealı kimi beşinci mərhələ üçün xarakterik olan sahələrin birliyini hesab edirdi. Bu inkişaf səviyyəsinə o zaman yalnız İngiltərə çatmışdı. Gənc ölkələrə - Almaniya və ABŞ kimi hələ III və IY mərhələlər arasında olan və təzəcə

downloaded from KitabYurdu.az

irəliyə - sənaye inkişafına tərəf hərəkət edən ölkələrə - gəldikdə isə, dövlətin dəstəyi onun daha qüdpətli və yetkin sənaye dövlətlərinin rəqabətindən milli iqtisadiyyat daxilində gömrük rüsumlarının köməyilə müdafiə köməyi olmadan bu ideala çatmaq mümkün deyil.

List hesab edirdi ki, geridə qalan ölkələri onları qabaqlayan millətlərin səviyyəsinə qaldırmaq üçün yeganə vasitə proteksionist (himayəçilik) siyasətidir. O, proteksionizm sistemini "millətlərin sənaye tərbiyəsi" vasitəsi adlandırırdı. Öz inkişaflarının ilk mərhələlərini yaşayan və sənayenin inkişafı üçün maddi şəraiti olmayan sırf aqrar ölkələrdə isə List proteksionizmi məqsədəuyğun hesab etmirdi.

Listə görə, Almaniya öz məhsuldar qüvvələrini və sənaye gücünü inkişaf etdirməklə birinci dərəcəli sənaye ölkəsi olub İngiltərəni ötər, Asiyada və Afrikada onun müstəmləkələri ola bilər. Gələcəkdə bu ideyalar geosiyasəti əsaslandırmaq üçün nasistlər tərəfindən istifadə olunmuşdu.

Listin ideyaları müasir dövrdə də öz əhəmiyyətini saxlayaraq iqtisadi geriliyini aradan qaldırmağa, siyasi birliyini möhkəmlətməyə can atan, inkişaf etməkdə olan ölkələr üçün xüsusilə aktualdır.

## § 2. K.RODBERTUSUN İQTİSADİ KONSEPSİYASI

Karl Rodbertus - Yagetsov (1805-1875-ci illər) alman iqtisadçısı, hüquqşünas, dövlət sosializmi nəzəriyyəsinin banilərindən biridir.

1848-ci il İnqilabı dövründə Frankfurt parlamentinin üzvü, mədəniyyət və maarif naziri.

Rodbertusun iqtisadi konsepsiyası D.Rikardonun və utopik sosializmin güclü təsiri ilə formalaşırdı, kapitalizmin dərin tənqidindən ibarət idi və eyni zamanda Rodbertus bu konsepsiyada islahatlar yolu ilə sosial problemlərin həlli üçün çıxış edirdi.

Rodbertus D.Rikardonun əmək dəyəri nəzəriyyəsinin tərəfdarı olmasına baxmayaraq, əmtəənin dəyərini bilavasitə fəhlə pulu adlandırılan pulların buraxılması yolu ilə iş vaxtında qanuni olaraq ifadə etməyi təklif edirdi. Beləliklə, onun hesab etdiyi kimi, dövlətin köməyi ilə qiymətin və dəyərin bərabərləşməsinə nail olmaq olardı.

downloaded from KitabYurdu.az

Rodbertus iqtisadi konsepsiyasında mənfəətin nəzəriyyəsi və normalarına, torpaq rentası və fəhlə sinfinin vəziyyəti məsələlərinə toxunurdu.

D.Rikardonun əmək dəyəri nəzəriyyəsindən yalnız əməyin dəyəri doğurduğu haqqında postulatı çıxararaq o, belə nəticəyə gəlir ki, torpağa və kapitala olan mülkiyyət torpaq mülkiyyətçilərinin və kapitalistlərin əməyi ilə yaranmır. Mülkiyyətin bu növlərini Rodbertus "gəlir gətirən, sahiblərinə renta verən, lakin onların öz şəxsi əməyi sərf olunmayan mülkiyyət" kimi müəyyən etmişdir.

Rodbertus "ümumiyyətlə renta" kateqoriyasını tətbiq edir. O, hesab edirdi ki, torpaq rentasının və kapitalist mənfəətinin hökmran xarakteristikası odur ki, hər iki forma zəhmətsiz gəliri təşkil edir. Torpaq rentasının yaranma mənbəyini Rodbertus torpağa olan xüsusi mülkiyyət hesab edirdi. Bundan başqa, o tamamilə düzgün olaraq torpaq rentasının torpağa mülkiyyət obyekti kimi inhisarla əlaqəsini üzə çıxarmışdır.

Rodbertusun "dövlət sosializmi" nəzəriyyəsi xüsusi maraq doğurur.

Rodbertusa görə, insan cəmiyyəti öz təkamülündə üç aşağıdakı mərhələdən keçir: 1) antiklik 2) feodalizm və kapitalizm 3) kommunizm. Bu mərhələlər kapitalizmin inkişaf səviyyəsi və istehsal vasitələrinə mülkiyyətin xarakteri ilə müəyyən edilir. Antikliyin əsasını o dövrün əsas məhsuldar qüvvəsi olan insan-qula olan mülkiyyət təşkil edirdi, feodalizm və kapitalizm dövrləri torpağa və kapitala, kommunizm dövrü isə əməyə və əmək haqqına olan mülkiyyətlə xarakterizə olunur.

Rodbertusun rəyincə, kommunizmin rüşeymləri bəşəriyyətin inkişafının kommunizmə qədərki inkişaf dövrlərində yaranır. Dövlətin isə rolu ondan ibarət olur ki, o son dövrə - kommunizmə təkamül keçidi üçün ideal təşkilatdır.

Rodbertus hesab edirdi ki, ölkənin sosial və iqtisadi problemlərini yalnız dövlət həll edə bilər və həll etməlidir.

Rodbertusun iqtisadi konsepsiyası iqtisad elminin inkişafında mühüm rol oynadı, sonralar isə Almaniyanın yeni tarix məktəbinin nümayəndələri tərəfindən əsas konsepsiya kimi qəbul edildi.

## §3. ALMANİYADA TARİX MƏKTƏBİNİN YARANMASI

downloaded from KitabYurdu.az

## VƏ İNKİŞAFI

Almaniyada tarix məktəbi XIX əsrin 40-cı illərində meydana gələrək, XIX əsrin ortalarında yarandı. Bu məktəb F.Listin iqtisadi təhlilini, həmçinin Almaniyada XIX əsrin əvvəllərində yaranmış hüquq tarix məktəbinin ideya motivlərini qəbul edib inkişaf etdirdi.

Almaniyada iqtisadi fikir tarixini dövrlərə bölərkən 2 tarixi məktəbi ayırırlar: XIX əsrin ortalarında klassik siyasi iqtisada və utopik sosializmə qarşı çıxış edən köhnə tarix məktəbi və XIX əsrin 70-90-cı illərində yaranmış, elmi sosializm nəzəriyyəsinin ziddinə olan gənc tarix məktəbi.

Köhnə tarix məktəbinin baniləri Vilhelm Roşer (1817-1894-cü illər), Bruno Hildebrandt (1812-1898-ci illər) və Karl Knisdir (1821-1898-ci illər).

Hettingen və Leypsiq universitetlərinin professoru V.Roşer iqtisad elminin klassik burjua siyasi iqtisadına qarşı yönəldilmiş tarixi və ya tarixi-fizioloji metodunu işləmişdir. O, siyasi iqtisadı digər ictimai elmlərlə sıx əlaqədə faktları toplamaq, müşahidə olunan təsərrüfat təzahürlərini təsvir etmək və bunları nəzəri ümumiləşdirmələr əsasında deyil, tarixi analogiyaların axtarışı yolu ilə izah etməyə qadir olan milli elm kimi bəyan edirdi.

Roşer 1843-cü ildə buraxılmış "Tarixi metod" nöqteyi-nəzərindən siyasi iqtisad kursunun qısa əsasları" əsərində ilk dəfə tarixi metodun ümumi cizgilərini vermişdir. Roşerin "Xalq təsərrüfatının əsasları" (1854-1894) kitabı da maraq doğurur. Burada o, tarixi metoda müvafiq olaraq, hər bir millətin inkişafını aşağıdakı amillərin: təbiətin, əməyin və kapitalın, dəyişən hökmranlığı ilə əlaqələndirərək, J.B.Seyin üç istehsal amili nəzəriyyəsini şərh edir.

Listin ardınca Roşer müxtəlif xalqların tarixində iqtisadi təzahürlərin təkrarlanmasını və deməli, iqtisadi inkişafın ümumi qanunlarının mümkünlüyünü rədd edirdi. Roşer xalqların təbii fərqlərini, həmçinin onun rəyincə müxtəlif millətlərdə ümumi təsərrüfat tipinin mümkünlüyünü istisna edən qabiliyyətlərinin və inkişaf dərəcələrinin fərqlərini ön plana çəkirdi. Roşer belə hesab edirdi ki, "donun eyni ölçü üzrə tikilmədiyi kimi, bütün xalqlar üçün də eyni iqtisadi ideal ola bilməz".

downloaded from KitabYurdu.az

Roşer cəmiyyətin inkişafının inqilabi yolunu rədd edərək, inkişafın yalnız təkamül formasını qəbul edirdi. İnqilabi çevrilişləri qeyri-qanuni hesab edir, xalqları öz həyat formalarını dəyişdirərkən hər şeyi dəyişdirən zamanı rəhbər tutmağa çağırırdı ki, çox yavaş və tədricən həyata keçirilən dəyişikliklər hiss olunmasın.

Roşer inanırdı ki, hər bir inqilab, onun etdiyi dəyişikliklərə nə qədər ehtiyac olsa belə, böyük bədbəxtlik və xalq həyatını ölüm xəstəliyi olaraq qalır.

Bruno Hildebrandt-alman iqtisadçısı və statistiki, Almaniyanın və İsveçrənin bir sıra universitetlərində siyasi iqtisad professoru. Əsas əsəri iqtisadi təzahürlərin tarixi tədqiqat metodunu irəli sürdüyü "İndinin və gələcəyin siyasi iqtisadı" əsəridir ki, bu kitab 1848-ci ildə nəşr olunub.

1864-cü ildə Hildebrandtın "Natural təsərrüfat, pul təsərrüfatı və kredit təsərrufatı" əsəri işıq üzü görür, burada o, millətin tarixinin aşağıdakı dövrlərə ayrılmasını göstərir: 1) orta əsrlərin təbii təsərrüfatı (natural təsərrüfat nəzərdə tutulur) 2) pul təsərrüfatı 3) kredit təsərrüfatını o, təsərrüfatın ali tipi hesab edirdi, belə ki, kredit kapitalı olmayan işgüzar adamlara sahibkar olmağa imkan verir. Hildebrandt krediti pulların və kapitalın hökmranlığına son qoymağa və müasir kapitalist dünyasını ədalət əsasında dəyişdirməyə qabil olan qüvvə hesab edirdi. Onun fikrincə, kredit təsərrüfatı pul təsərrüfatının antiporu deyil, yalnız gələcək inkişafıdır. Ona görə Hildebrandtın krediti pulların və kapitalın hökmranlığına son qoymağa, onun müasiri olan kapitalist dünyasını ədalət əsasında dəyişəcəyinə qadir olan hər hansı yaradıcı qüvvə kimi təqdim etməsi əsassızdır.

1853-cü ildə Marburq, Freyburq və Heydelburq universitetlərinin professoru, tarix məktəbinin üçüncü nümayəndəsi K.Knisin "Tarixi metod nöqteyi-nəzərdən siyasi iqtisad" kitabı çap olundu ki, burada tarix məktəbinin metodoloji yanaşmalarının sistemli ifadəsi verilmişdi. Onun digər mühüm əsəri iki cildlik "Pul və kredit" (1885-86-cı illər) əsəridir.

Knis də tarix məktəbinin digər nümayəndələri kimi siyasi iqtisad klassik məktəbinin antitarixliyini tənqid edirdi. Cəmiyyətin iqtisadi inkişafının obyektiv qanunauyğunluğu ideyası Knis tərəfindən xüsusi

downloaded from KitabYurdu.az

tənqid olunur. O, təbii qanunların cərəyan etdiyi təbiəti hər hansı qanunların təsirindən azad olan cəmiyyətə qarşı kəskin surətdə qoyurdu.

Knis tarix məktəbinin digər nümayəndələri kimi müxtəlif xalqların tarixində iqtisadi təzahürlərin təkrarlanmasını, bununla da iqtisadi inkişafın ümumi qanunlarının mümkünlüyünü rədd edirdi.

Tarix məktəbi Listin siyasi iqtisada olan baxışını tarixi inkişafda təbiətin müstəsna xüsusiyyətləri, xalqın və onun idarələrinin xarakteri ilə müəyyən edilən milli təsərrüfatı öyrənməyə qadir olan milli elm kimi əks etdirirdi.

Almaniyanın yeni tarix məktəbinin nümayəndələri Q.Şmoller (1838-1917-ci illər), L.Brentano (1844-1931-ci illər) və K.Büxerdir (1847-1930-cu illər).

Yeni tarix məktəbinin rəhbəri Q.Şmoller alman iqtisadçısı və tarixçisi, Almaniyanın dövlət və ictimai xadimi, Qall, Strasburq və Berlin Universitetlərinin professoru olmuşdur.

Şmollerin başlıca əsəri "Xalq təsərrüfatı haqqında ümumi təlimin əsasları" (1900-1904-cü illər) rus dilində tərcüməsi "Xalq təsərrüfatı, xalq təsərrüfatı haqqında elm və onun metodları: təsərrüfat, qayda-qanun və hüquq, əmək bölgüsü"

Şmoller tarix məktəbinin ideyalarına əsaslanaraq iqtisadi təzahürlərə təsviri, empirik yanaşmaya və faktiki materialın toplanmasına üstünlük verərək elmi abstraksiyaların rolunu inkar edirdi.

Şmollerin rəyincə iqtisadçılar kifayət qədər faktiki material toplaya bilmədikləri üçün yalnız bir neçə yarım həqiqət və mübahisəli ümumiləşdirmə irəli sürə bilmişlər. Onlar həmçinin israr edirdilər ki, müasir iqtisad elmi iqtisadi təzahürlərin "Empiriya", "İncə təcrübi öyrənmə" mərhələsindədir. Yalnız çox illər keçdikdən sonra, material yığdıqca təcrübi məlumatların izahının ali səmərəli dövrü gələ bilər.

Şmoller hesab edirdi ki, iqtisadi nəzəriyyənin yaranmasından əvvəl konkret-tarixi tədqiqat aparılmalıdır, beləki, yalnız dərindən, genetik yanaşma sosial təzahürlərin səbəb bağlılıqlarını müəyyən etməyə imkan verir. Şmoller israr edirdi ki, iqtisad elmində tədqiqat obyekti təsərrüfat subyektlərinin niyyətləri, texnikanın inkişaf səviyyəsi, yanaşı fəaliyyət göstərən sosial institutların xarakteri, təbiət və başqa şərtlərdir, belə ki,

downloaded from KitabYurdu.az

iqtisadi subyektlərin hərəkəti müxtəlif amillərin qarşılıqlı təsirinin nəticəsidir. Şmollerin fikrincə, siyasi iqtisada psixologiya, sosiologiya, coğrafiya və s. daxildir, onun normativ xarakteri vardır və etik qiymətlər, praktiki tövsiyələrin mümkünlüyünü açır. O, israr edirdi ki, təsərrüfat həyatı yalnız təbiət və texniki tövsiyələrlə deyil, həmçinin mənəvi amillərlə müəyyən edilir: sərt qayda-qanunsuz nə bazar, nə pul mübadiləsi, nə əmək bölgüsü, nə də dövlət vardır.

Şmoller milli iqtisadda etik prinsipdən irəli gələrək, sosial və sinfi fərqlərin mövcudluğuna bəraət verirdi. O, yazırdı ki, "Biz onları ədalətli hesab edirik, beləki onlar siniflərin keyfiyyətini bərabərliyi və fərqi cəhətdən bizim müşahidələrimizə uyğundur". Şmoller israr edirdi ki, əmlak bərabərsizliyi də çox zəruridir, belə ki, "müvəqqəti səhvlər istisna olmaqla, xalqın hissiyyatı həmişə əməlləri başqaları arasında müəyyən qədər seçilənlərə şərəf, sərvət və vəzifə verir".

Şmoller milli iqtisadiyyatı dəstəkləmək və sinfi ziddiyyətləri yumşaltmaq məqsədilə dövlətin təsərrüfat həyatına fəal müdaxiləsi uğrunda çıxış edirdi.

Siyasi iqtisadın nəzəri problemlərindən imtina edilməsi nəinki Şmollerə, bütün yeni tarix məktəbinə xas idi.

L.Brentano - Breslav, Strasburq, Vyana, Leypsiq və Münxen Universitetlərinin professoru, iqtisadi və sosial siyasət, iqtisadiyyat, tarix, fəhlə hərəkatı məsələləri üzrə çoxsaylı əsərlərin müəllifi. Öz iqtisadi baxışlarında həmçinin iqtisad nəzəriyyəsindən imtina edilməsini təbliğ edirdi. Vyana universitetində mühazirələrlə çıxış edərək (1888-ci il), Brentano ümumi və ya nəzəri iqtisada "iqtisadi hadisələrin bilavasitə müşahidə" vəzifəsini qarşı qoyaraq onun "ikinci dərəcəli əhəmiyyətindən" danışırdı, çünki "siyasi iqtisad bir zaman təbiyyət elmlərinin təbiətdə müşahidə olunan fakt və proseslərin təsvirinə keçməsinin aprior mühakimələrinə əsaslanmalıdır. Brentano belə hesab edirdi ki, iqtisadi həyatın hətta ən sadə təzahürlərinin dəqiq təsviri eqoizmdən olan ən ağıllı deduksiyadan da müqayisəolunmaz dərəcədə daha qiymətlidir".

Qeyd etmək lazımdır ki, iqtisad nəzəriyyəsində abstrakt metoda qarşı mübarizədə həm Şmoller, həm də Brentano klassik məktəbin istehsal münasibətlərinə və deməli kapitalizmin iqtisadi kateqoriyalar məcmusunu

downloaded from KitabYurdu.az

əbədi, dəyişməz elementlər kimi nəzərdə tutan metodoloji zəifliklərindən istifadə etmişlər.

Yeni tarix məktəbinin nümayəndələri müasir kapitalist ölkələrinin təsərrüfat inkişafını tədqiq edərkən bu ölkələrin təsərrüfat quruluşunun dəyişkənliyini sübut etmiş və cəmiyyətin iqtisadi həyatının inkişafının və obyektiv iqtisadi qanunların qanunauyğun xarakterini inkar etmişlər.

Brentano yuxarıda qeyd olunan mühazirədə merkantilistləri hətta siyasi iqtisadın klassiklərindən yüksəkdə tuturdu, belə ki, onun fikrincə, merkantilistlər sənaye və ticarətə dövlət təsirinin müxtəlif üsullarını tədqiq edərək, iqtisadi qanunlar üzə çıxarmağa cəhd etməmişlər.

Yeni tarix məktəbi dəyər, izafi dəyər, kapitalist yığımının tarixi meyli qanununun problemlərini süni və uydurma hesab edərək, klassik siyasi iqtisadın və marksist təliminin kəskin tənqidi ilə çıxış etdi. Şmoller göstərirdi ki, Karl Marksın ümumiləşdirmələri abstrakt anlayışlar və ümumi tarixi - fəlsəfi obrazlardan başqa bir şey deyildir.

Tarix məktəbinin tərəfdarları həmçinin "iqtisadi insanın" marjinalist konsepsiyasına qarşı çıxış edirdilər. Onlar göstərirdi ki, insanın davranışı sosial mühitdən, ictimai münasibətlərdən təcrid olunmuş halda götürülməməlidir, insanı primitiv istehlakçı kimi təsvir etmək olmaz.

1872-ci ildə Q.Şmoller, L.Brentano və A.Vaqner sosial-iqtisadi islahatları praktiki surətdə həyata keçirmək üçün "Sosial siyasət ittifaqı" təşkil etdilər. Bu ittifaq fəhlələrin vəziyyətinin yaxşılaşdırılması üzrə qanunvericilik tədbirlərinin dəstəklənməsi üçün, daha doğrusu: məktəblərdə məcburi tədrisin həyata keçirilməsi (12 yaşına qədər), uşaqların, yeniyetmələrin və qadınların əməyinin dövlət tərəfindən tənzimlənməsi, xəstəlik və bədbəxt hadisələrdən fəhlələrin sığorta edilməsinin təşkili, qocalıq və əmək qabiliyyətini itirmişlər üçün təqaüdün müəyyən edilməsi, istehlak və mənzil kooperasiyasının təşkili üçün yaradılmışdı. Tarix məktəbinin nümayəndələri bu tədbirləri "dövlət sosializmi" adlandırırdılar. Dövlət sosializmi ideyaları Almaniyanın iqtisadi siyasətinə və tarix məktəbinin ayrı-ayrı müddəalarının praktiki surətdə həyata keçirilməsinə güclü təsir göstərdi, dünyada onun nüfuzunu qaldırdı və ayrı-ayrı ölkələrdə onun ideyalarının geniş yayılmasına kömək etdi.

downloaded from KitabYurdu.az

Yeni tarix məktəbinin nümayəndələri arasında mühafizəkar və liberal istiqamətlər seçilirdi. Mühafizəkar istiqamətin rəhbəri Şmoller idi. L.Brentano həmkarlar ittifaqlarının praktiki surətdə geniş inkişafı üçün çıxış etdiyi zaman, Şmoller öz tərəfdarları ilə "Sosial siyasət ittifaqı"nın islahatçılıq fəaliyyətini dayandırmağa çalışırdı. Brentano "Sosial siyasət ittifaqın"da liberal islahatçı qrupu təmsil edirdi ki, bu qrupun məqsədi onların fikrincə, başlıca amili həmkarlar ittifaqının inkişafı olan siniflər dünyasının qurulması idi. Özünün "Fəhlələrin müasir birləşmələri" (1871-1872) 2 cildlik monoqrafiyasında Brentano yazırdı ki, fəhlənin sahibkara satdığı əmtəə (yəni əmək) xüsusi növ əmtəədir. Öz ilkin sahibindən ayrılmaz olduğu üçün fəhlə hər yerdə öz əmtəəsinin dalınca getməlidir, və satış üçün yalnız əməyə malik olduğu üçün də tez-tez onu sahibkara ən əlverişsiz şərtlərlə güzəştə getməli olur. Əməyin alış-satışı sahəsində bir-birindən ayrılmış işçilərin yerinə yaxşı təşkil olunmuş həmkarlar gəldikdə isə vəziyyət kəskin dəyişir.

Brentano yazırdı ki, "Onların sayəsində əməyin ... satıcı kimi fəhlənin və əmtəənin zərərli xüsusiyyətlərinin təsiri aradan qalxır".

Brentano aqrar məsələ üzrə də marksizmin əleyhinə çıxış edirdi. O, sübut edirdi ki, xırda kəndli təsərrüfatı tamamilə möhkəmdir, iri təsərrüfatlar isə yalnız dən təsərrüfatında bəzi üstünlüklərə malikdir. Qalan sahələrdə xırda təsərrüfat daha əlverişli və perspektivlidir, iri təsərrüfatdan sərfəlidir.

Brentano K.Marksın izafi dəyər nəzəriyyəsi ilə də razılaşmırdı. K.Marksa zidd olaraq, Brentano israr edirdi ki, kapitalistin mənfəəti "yeni məhsulda istehsal elementlərinin hamısının birləşməsi yolu ilə, bu elementlərin birləşməsinə qədərki dəyər üzərindəki dəyərin artığından" ibarətdir. Faktiki olaraq, Brentano mənfəəti, onun fikrincə, sahibkarın yaradıcı ruhu olan sahibkarlıq gəlirinə aid edir.

Karl Büher - Derpt, Bazel, Karlsruer və Leypsiq Universitetlərinin professoru tərəfindən "Xalq təsərrüfatının meydana gəlməsi" (1893)-cü il) adlı əsərində təklif olunan bəşəriyyətin iqtisadi tarixinin dövrləşdirilməsi böyük maraq doğurur. Büher təsərrüfatın inkişaf sxemini irəli sürərək onu üç mərhələyə ayırır: "qapalı və ev təsərrüfatı pilləsi" (xüsusi istehlak üçün istehsal, mübadiləsiz təsərrüfat), "şəhər təsərrüfatı pilləsi" (xarici istehlakçı

downloaded from KitabYurdu.az

üçün istehsal və ya bilavasitə mübadilə pilləsi) və "xalq təsərrüfatı pilləsi" (mallar istehlakçıya çatana qədər bir sıra təsərrüfatlardan keçir).

Buherin təsərrüfatın inkişaf sxemi onun fikrincə bəşəriyyətin inkişaf səviyyəsini müəyyən edən mübadilə konsepsiyasına əsaslanır.

Büher mübadilə üsulunu iqtisadi inkişafın əsası hesab edirdi.

Büherin təsərrüfat tarixinin ümumi sxemindən onun sənayenin inkişafının forma və mərhələlərinin təsnifatı doğur. O, göstərir ki, bunun birinci mərhələsi ev, qapalı istehsalla, ikincisi - sifarişlə işləyən sənətkarın işi ilə, üçüncüsü - onun azad bazar üçün işi ilə, dördüncüsü - möhtəkir üçün ev istehsalı ilə, beşincisi - iri fabrik istehsalı ilə üst-üstə düşür.

Yeni tarix məktəbi və onun nəzəri irsi kifayət qədər ziddiyyətli olmuşdur. Şmoller və onun arxadaşları monarxizmlə, iqtisadiyyata güclü əlin yaxşı təsirinə inamları ilə, milliyyətçilik və mühafizəkarlıqla fərqlənirdilər, onlar sağ mühafizəkarların iqtisadi proqramlarının formalaşmasına böyük təsir göstərdilər.

Brentanonun sosial münaqişələrin dinc tənzimlənməsi konsepsiyası ilə olan təlimi isə islahatçı cərəyanlara, sosial məktəblərə, institutsionalizmə, iqtisadiyyatın dövlət-inhisarçı tənzimlənməsi nəzəriyyələrinə yaxın idi.

Bütövlükdə, tarix məktəbinin metodologiyası və ənənələri siyasi iqtisadın gələcək təkamülünə böyük təsir göstərdi.

## §4. VERNER ZOMBARTIN İQTİSADİ TƏLİMİ

Verner Zombart (1863-1941-ci illər) - alman iqtisadçısı, sosioloq və tarixçi, Breslav və Berlin Universitetlərinin professoru Şmollerin şagirdi olub, bir çox fikirlərində siyasi iqtisadın tarix məktəbinin tərəfdarı idi. Lakin Zombart iqtisad elmində tarixi və abstrakt tədqiqat metodlarını birləşdirməyə cəhd edərək, tarix məktəbindən qabağa getmişdir. Və o, buna nail olmuşdur.

Zombartın mühüm əsəri "Müasir kapitalizm"dir, birinci nəşri 1903-cü ildə olmuşdur. Sonralar bu əsər dəfələrlə nəşr olunmuş, yeni nəşrin son cildləri 1928-ci ildə buraxılmışdır.

downloaded from KitabYurdu.az

Zombart bu əsərdə kapitalizm tarixini erkən kapitalizm (XYIII əsrin ikinci yarısında sənaye inqilabına qədər), inkişaf etmiş kapitalizm (birinci dünya müharibəsinə qədər) və gecikmiş kapitalizm kimi inkişaf mərhələlərinə ayıraraq bütövlüklə təhlil etmişdir.

Zombart kapitalizmin iqtisadi inkişaf perspektivlərini nəzərdən keçirərək, "sosial plüralizm" nəzəriyyəsini irəli sürmüşdür. Təsərrüfat formalarının inkişaf tarixindən Zombart belə bir nəticəyə gəlir ki, cəmiyyət inkişaf etdikcə təsərrüfat formaları da artır, belə ki, köhnə formalar itmir, əksinə, yenilərilə yanaşı fəaliyyətlərini davam etdirirlər. Məsələn, orta əsrlərdə Avropada həm kəndli təsərrüfatı, həm biyar - mülkədar təsərrüfatı, həm də şəhər sənətkarlığı paralel mövcud olmuşdur. Sonra kapitalizm yaranmışdır, lakin natural təsərrüfat və sənət mövcud olmaqda davam etmişdir. Zombart belə nəticə çıxarır ki, gələcəyin cəmiyyətində aşağıdakı 6 forma mövcud olacaqdır: kapitalizm, kooperativ təsərrüfat , ictimai təsərrüfat (bura Zombart dövlətə və başqa ictimai təşkilatlara, məsələn, şəhər özünüidarə təşkilatlarına aid olan müəssisələri də daxil edir), natural təsərrüfat, sənət, kəndli təsərrüfatı.

Zombart öz əsərlərində kapitalizmlə sosializmin yaxınlığını sübut etməyə cəhd edirdi. O, deyirdi ki, sabitləşdirilmiş və tənzimlənmiş kapitalizmlə texniki cəhətdən təkmilləşmiş, səmərələşdirilmiş sosializm arasında fərq çox da böyük deyildir və deməli, insanların və insan mədəniyyətinin taleyi üçün təsərrüfatın kapitalistcəsinə, və ya sosialistcəsinə təşkil olunacağı az və ya çox dərəcədə əhəmiyyətsizdir.

Sonralar Zombartın "sosial plüralizm" konsepsiyası kapitalizmin təkamülünün mümkünlüyünü əsaslandıran və müasir kapitalizmi xüsusi və ictimai (dövlət müəssisələri şəklində) təsərrüfatların elementlərinin birləşməsi kimi təsvir edən "qarışıq iqtisadiyyat" nəzəriyyəsinin əsasını təşkil edir.

"Konyukturun sabitləşdirilməsi" haqqında təlim də həmçinin Zombarta məxsusdur. Zombart belə hesab edirdi ki, kapitalizm inkişaf etdikcə ziddiyyətlərin aradan qaldırılmasına, yumşaldılmasına və son nəticədə onların tamamilə itib getməsinə meyl üzə çıxır. Zombart konyunkturun sabitləşməsinə kömək edən bir sıra amilləri irəli sürür: kapitalistlər tərəfindən bazar strukturunun daha dərindən dərk edilməsi,

downloaded from KitabYurdu.az

konyuktur institutlarının yaradılması, səhmdar cəmiyyətlərin təşkili sahəsində dövlətin rolunu tənzimləyən Mərkəzi bankın ağıllı uçot siyasəti və pul dövriyyəsinin şüurlu təşkili və başqaları. Zombartın fikrincə, dövlətin təsirinin güclənməsi iqtisadiyyatda tsiklik dəyişikliklərin hamarlanmasına, böhranların, işsizliyin aradan qaldırılmasına səbəb olur, kapitalizm tənzimlənən kapitalizm olur.

1934-cü ildə V.Zombartın "Alman sosializmi" əsəri nəşr olunur ki, burada o, iqtisadiyyatın dövlət tənzimlənməsi sistemini nəzərdən keçirir. Almaniya üçün "dövlət sosializmi" şəklində olan sosial idealı o, planlı və ya mütəşəkkil kapitalizm kimi təsəvvür edirdi. Dövlət sosializmi modelinin formalaşması üçün Zombart iqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyini əsas hesab edirdi. O, iqtisadiyyatın gələcək inkişafını və millətin rifahının təmin edilməsini iri istehsalın məhdudlaşdırılması, xırda biznesin və əkinçiliyin hər cür dəstəklənməsi ilə bağlayırdı ki, bu da Zombartın fikrincə, labüd olaraq əhalinin deproletarlaşmasına gətirməlidir.

Bundan başqa, Zombart dövlət tənzimlənməsi sistemində sosial münasibətlərin fəhlə və sahibkarlar arasında əmək qanunvericiliyi, tarif müqavilələri, əmək şəraitinə nəzarət formasında tənzimlənməsinə xüsusi əhəmiyyət verirdi. O, belə hesab edirdi ki, nəticədə prioritet ictimai mənafelər əsasında mənafelər harmoniyası müəyyən olunmalıdır.

Sonralar alman sosializminin bir çox elementləri, mərkəzləşdirilmiş idarəetmə, milli iqtisadiyyatın dövlət tərəfindən planlaşdırılması, təsərrüfat sisteminin bütün elementlərinin sərt tabeliyi alman faşist dövlətinin iqtisadi siyasətinin əsasını təşkil etdi.

Zombart öz təlimində təsərrüfat dövrü və təsərrüfat sistemi kimi kateqoriyaları ayırır. Təsərrüfat dövrü dedikdə, Zombart sınaq tədqiqatı obyekti kimi xidmət edən real iqtisadi sistemi nəzərdə tutur. Dövrlərin ayrılması nəzəri cəhətdən formalaşmış modellər - Zombartın fikrincə, 3 qrup elementlə: ruh, forma və mahiyyətlə xarakterizə olunan təsərrüfat sistemləri əsasında həyata keçirilir.

Zombart hesab edirdi ki, inkişaf, təsərrüfat sisteminin təkamülü çoxamilli prosesdir, onun bütün struktur elementlərinin kombinə edilmiş inkişafıdır. İqtisadi inkişafın əsas amili, hərəkətverici qüvvəsi onun sosial-psixoloji səviyyəsi ilə müəyyən olunan təsərrüfat ruhudur.

downloaded from KitabYurdu.az

Kapitalist ruhu, yəni təsərrüfat fəaliyyətinin əsas vadaredici motivi Zombart tərəfindən iki tərkib hissəyə - işgüzarlıq ruhuna və burjua ruhuna ayrılır. İşgüzarlıq ruhu - hər şeydən əvvəl, yeniyə, iqtisadiyyatda yeni kombinasiyaların yaradılmasına, riskə hazır olmaq cəhdidir, maksimum mənfəət almağa cəhddir.

Burjua və ya bürger ruhuna əməksevərlik, sadəlik, qənaətcillik, təsərrüfat bacarıqları, müqaviləyə sadiqlik daxildir.

Formaya sosial, hüquqi, siyasi münasibətlərin məcmusu daxildir, mahiyyət isə maddi-texniki istehsal bazası, texnika və texnologiyadır.

Zombart iqtisadi fikrin inkişafında böyük rol oynamışdır. O, "təsərrüfat" və ya "iqtisadi" sistem kateqoriyalarına tərif vermək və "qarışıq iqtisadiyyat"ın müxtəlif tiplərinin nəzəri modelini yaratmaq cəhdi edənlər arasında birinci olmuşdur. Zombartın iqtisadi sistemlər nəzəriyyəsi iqtisadi mexanizm sferasında səmərəli seçimin ümumi qaydalarını formalaşdırmaq üçün yaranmışdı.

Siyasi iqtisadda tarixi istiqaməti yekunlaşdırarkən, demək olar ki, o özünün müxtəlif ifadə variantlarında iqtisad elminin XIX əsrin sonunda düşdüyü böhrandan çıxmağa, bazar iqtisadiyyatının təhlilinə daha həyati yanaşmalar hazırlamağa cəhd edir. Tarix məktəbinin konsepsiyası praktika tərəfindən qoyulan mühüm məsələlərə cavab tapmaq cəhdi demək idi.

## §5. ALMANİYADA SOSİAL MƏKTƏB VƏ ONUN METODOLOGİYASI

Almaniyada sosial məktəb XIX əsrin sonunda meydana gəlmişdir. Almaniyada, həmçinin ABŞ-da inhisarlar çox sürətlə inkişaf edirdi, birinci dünya müharibəsi illərində isə burada dövlət - inhisarçı kapitalizm sistemi yaranmışdı.

Cəmiyyətin təsərrüfat inkişafında dəyişikliklər, istehsalın sosialistləşdirilməsinə başlanması, iqtisadi hadisələrin təhlilinə sosial yanaşmanın zəruriliyi, Avstriya məktəbinin individualist göstərişlərinin aşkar köhnəlməsi - bütün bunlar mərkəzi sosial problemlərə meyl olan yeni elmi istiqamətin meydana gəlməsinə kömək etdi.

downloaded from KitabYurdu.az

Almaniyada sosioloq və iqtisadçı R.Ştammler (1856-1938-ci illər) və siyasi iqtisad professoru R.Ştolsman (1852-1930-cu illər) oldu.

R.Ştammlerin əsas əsəri "Təsərrüfat və hüquq"dur (1896-cı il), burada o sosial məktəbin fəlsəfi və metodoloji prinsiplərini dürüst ifadə etmişdir. Ştolsman "Sosial kateqoriyalar" (1896-cı il), "Xalq təsərrüfatında məqsəd" (1909-cu il), "Xalq təsərrüfatı fəlsəfəsinin əsasları" (1925-ci il) əsərlərində həm də bu təlimin nəzəri - metodoloji əsaslarını inkişaf etdirmişdir.

Sosial məktəbdə A.Ammonun "Siyasi iqtisadın predmeti və əsas anlayışları" (1911-ci il), "Xalqın rifahı haqqında təlimin əsasları" (1926-cı il), F.Oppengeymerin "Xalis və siyasi iqtisadın nəzəriyyəsi" (1902-ci il), "Sosial məsələ" (1912-ci il), "Kapital olan dəyər və mənfəət" (1922-ci il), F.Petrinin "Marksın dəyər nəzəriyyəsinin sosial məzmunu" (1916-cı il), K.Dilin "Nəzəri və siyasi iqtisad (1916-cı il), "Kapitalizmin hüquqi əsasları" (1929-cu il) əsərləri mühüm yer tutur.

Sosial məktəb yeni tarix məktəbinin varisi olub, onun nümayəndələrinin arxasınca iqtisadi həyatın müəyyənedici amilləri kimi hüquqi və etik normaları nəzərdən keçirirdi. Lakin yeni tarix məktəbindən fərqli olaraq, sosial məktəbin tərəfdarları göstərirdilər ki, iqtisadi münasibətlər müəyyən sosial məzmuna malikdir ki, bu münasibətlərin arxasında insanlar arasında ictimai münasibətlər durur və əsasını iqtisadi hadisələrin təhlilinə sosial yanaşma təşkil edən iqtisadi nəzəriyyə yaratmağa cəhd edirdilər.

Bu məktəbin metodologiyası formanın məzmun üzərində üstünlüyünün qəbul edilməsinə əsaslanırdı.

Ştammler göstərirdi ki, insanlar üzərində əlaqələri məhz hüquq müəyyən edir, Dil isə qeyd edirdi ki, elmi tədqiqatın predmeti yalnız hüquqi iqtisadiyyatdır və sosial həyatda səbəb-nəticə yox, hüquqi qanun hökmranlıq edir. Ştammler hesab edirdi ki, iqtisadi hadisələrdə formanı və məzmunu fərqləndirmək lazımdır: məzmun insanların ictimai əmək bölgüsünə əsaslanan birgə fəaliyyətin, forma isə hüququn, dövlətin, qanunların köməyi ilə həyata keçirilən xarici tənzimlənmədir və sosial təsərrüfat yalnız forma ilə ölçülür.

Sosial məktəb iqtisadi qanunun mümkünlüyünü inkar etməklə çıxış etdi. Bu məktəbin tərəfdarları hesab edirdilər ki, iqtisadi həyatda həlledici

downloaded from KitabYurdu.az

və vahid motivi ayırmaq olmaz və sosial inkişafda qanunlar mövcud deyil. Dil sübut edirdi ki, siyasi iqtisadçı öz nəticələrinin subyektivizmi barədə xəbərdar etməlidir, belə ki, "digər bərabər şərtlər"ə olan isnadlar bir qayda olaraq bərabər olmayıb, qeyri-qanunidir. O yazırdı ki, insan təbiət elmlərilə məşğul olarkən tədqiq edir, sosial elmlərdə isə insan bu və ya digər təsəvvürlərə, məqsədlərə malik olmaqla, öz arzusu ilə yaradır. Sosial məktəbin nümayəndələri hesab edirdilər ki, sosial qanunlar insani motiv qanunlarıdır.

Ştolsman öz əsərlərində milli iqtisadiyyatda məqsədli göstərişlər haqqında xüsusilə yazaraq sübut edirdi ki, ali məqsədi cəmiyyətin bütün üzvlərinin layiqli yaşamasını təmin etməyə qabil olan xalq təsərrüfatında axtarmaq lazımdır.

Sosial məktəbin qiymətqoyma problemlərinə yanaşması da maraq doğurur. Sosial məktəb dəyər probleminin özünü və onun qanununu inkar etməklə çıxış etdi, avstriya məktəbinin əsas postulatlarını qəbul etdi və özünün qiymətqoyma nəzəriyyəsində bölüşdürücü fikri inkişaf etdirdi.

Sosial məktəbin nümayəndələri qiymətin tərifini verəndə tələb və təklif nəzəriyyəsinə əsaslanırdılar. Belə ki, Amon qiymətlərin 3 amilini: tələbi, istehsal əmsalını, ilkin istehsal olunan nemətlərin kəmiyyətini göstərirdi. Oppengeymer israr edirdi ki, mübadilə dəyəri funksiyadır, ikili münasibətlərin-hər bir əşyanın tələb və təklifinin nəticəsidir. İnhisar qiyməti onlar tərəfindən tələb-təklif funksiyası kimi şərh edilirdi.

Ştolsman və Oppengeymer dəyərin bölüşdürücülük nəzəriyyəsini yaratmışlar. Ştolsman hesab edirdi ki, dəyər yalnız bölüşdürücülük prinsipi əsasında başa düşülə bilər, belə ki, o, fəhləyə əmək haqqını, kapitalistə mənfəəti, torpaq sahibinə isə rentanı təmin etməlidir. Ştoltsman göstərirdi ki, dəyər problemi bölüşdürmə problemidir, əməyin özü isə dəyər üçün bölüşdürmə amili kimi əhəmiyyətə malikdir.

Sosial məktəb iqtisad nəzəriyyəsinin gələcək təkamülünə böyük təsir göstərdi. Bu məktəbin tərəfdarları bazar iqtisadiyyatının iqtisadiyyatın sosial islahatlaşdırılması vasitəsilə yaxşılaşdırılması, işçilərin korporasiyalarının təşkili yolu ilə mümkünlüyü müddəasına əsaslanırdılar. Onlar kapitalizmin sosial-iqtisadi ziddiyyətlərinin aradan qaldırılmasının əsas vasitəsini məhz istehsalın dövlət-hüquqi tənzimlənməsində və

downloaded from KitabYurdu.az

bölüşdürülməsində görürdülər. Sosial məktəb sosial antoqonizmlərdən uzaq olan yeni ictimai quruluşun əsasını xüsusi mülkiyyətin gələcək təkamülündə, onun səhmdar mülkiyyətə çevrilməsində, öz fəaliyyətlərini plan üzrə quran inhisarların inkişafında görürdü.

downloaded from KitabYurdu.az

# FƏSİL 13 . MARJİNALİZMİN YARANMASI. AVSTRİYA MƏKTƏBİNİN İQTİSADİ TƏLİMİ

## § 1. MARJİNALİZMİN YARANMASI. AVSTRİYA MƏKTƏBİ-MARJİNALİZMİN İLK NƏZƏRİ MƏKTƏBİDİR

XIX əsrin 70-ci illərində kapitalizmin iqtisad elmində subyektiv-psixoloji istiqamət - marjinalizm meydana gəlmişdir. Marjinalizm - fransız sözü olub, mənası "hədd" deməkdir. Marjinalizm iqtisadi hadisə və proseslərin təhlilində son kəmiyyətə, həddə üstünlük verir, faydalılıq həddi, məhsuldarlıq həddi, gəlirlilik həddi, məsrəf həddi və s. bu kimi iqtisadi kateqoriyaları öz tədqiqatının mərkəzində saxlayır. Marjinalizmin ideyalarının ilkin yaradıcıları və tədqiqatçıları Avstriyanın paytaxtı Vyana Universitetinin professorları Karl Menger (1840-1921), Yevgeni Bem-Baverk (1864-1914) və Fridrix Vizer (1851-1926) olmuşlar. Məhz həmin səbəbdəndir ki, bu cərəyanın çox mühüm bir hissəsi hazırda Avstriya məktəbi adı ilə məşhurdur. Bununla yanaşı həmin məktəbin İngiltərədə Uilyam Stenli Cevons, İsveçrədə Leon Valras, Fransada Şarl Jid və s. kimi görkəmli tərəfdarları və davamçıları olmuşlar.

Avstriya məktəbi nümayəndələrinin və onların davamçılarının tədqiqatlarının əsas məzmunu odur ki, burada fərdin psixologiyası ictimai münasibətlərin əsasında saxlanılır, məhdud resurslar şəraitində subyektin öz mövcud tələbatlarını ödəmək üçün iqtisadi qərarları, davranışı əsas tədqiqat obyektinə çevrilir. Avstriya məktəbinin yaranması hər şeydən əvvəl o dövrdə geniş yayılmış klassik məktəbin bir sıra iqtisadi baxışlarının, başlıcası isə K.Marksın dəyər və izafi dəyər nəzəriyyəsinin tənqidi zərurətindən irəli gəlmişdir.

Avstriya məktəbi qarşısında dayanan ən mühüm məqsəd məhsulların faydasının (istehlak dəyərinin) istehlakçı tərəfindən müqayisə edilməsi yolu ilə onun arzu və istəyini, ilk növbədə hansı tələbatlarının ödənməsinə üstünlük verəcəyini aşkar etməkdir.

Avstriya məktəbi belə hesab edir ki, istehlakçının davranışını başa düşmək üçün onun həvəsləndirici motivlərinin necə əmələ gəldiyini və növbələşdiyini tədqiq etmək lazımdır. Bunun üçün isə suyun, çörəyin,

downloaded from KitabYurdu.az

paltarın, mənəvi sərvətin dəyərini istehlakçının mövqeyindən qiymətləndirmək tələb olunur. Yalnız bu yolla onun bazarda necə çıxış edəcəyini, bu məhsullardan hansını, hansı ölçüdə, hansı ardıcıllıqla almağa çalışacağını bilmək olar.

Avstriya məktəbinin dəyər haqqında təliminin əsasında faydalılığı iqtisadi inkişafın əsas amilinə çevirən "faydalıq həddi" adlanan nəzəriyyə dayanır. Bu nəzəriyyəyə görə əmtəənin dəyərini onun son ədədinin faydalığı, yəni mövcud əmtəə ehtiyatı şəraitində insanın öz əhəmiyyətinə görə axırıncı yerdə dayanan, mühüm olmayan tələbatını ödəyən son əmtəə vahidinin faydalığına verilən subyektiv qiymət müəyyən edir. "Son faydalıq" kimi səciyyələnən bu nəzəriyyəyə görə faydalıq özü də iki amildən asılıdır. Bu, əvvəla, tələbatın intensivliyidir, yəni tələbat nə qədər çox olarsa, məhsulun faydalığı da bir o qədər yüksəkdir; ikincisi isə məhsulun az tapılması, yəni nadirliyidir. Başqa sözlə desək, məhsula nə qədər az təsadüf edilərsə, onun faydalığı da bir o qədər yuxarıdır. Buna uyğun olaraq tələbatın ödənilməsi hüdudu bilavasitə mövcud nemətlərin kəmiyyətindən asılı olaraq bu və ya digər istiqamətdə dəyişilə bilər. Lakin tələbat özü də sabit kəmiyyət olmadığı üçün, o həmin dəyişikliyə də təsir edir.

"Faydalıq həddi" nəzəriyyəsinin başlıca məzmunu dəyərin yeganə mənbəyinin əməkdən və yaxud məlum üç amildən (əməkdən, torpaqdan və kapitaldan) ibarət olmasını tənqid etməklə bağlıdır. Bu nəzəriyyəyə görə əmtəə dəyəri onu yaradan əməyin kəmiyyətindən deyil, (məlum olduğu kimi, marksizmin əmək-dəyər nəzəriyyəsi məhz belə bir müddəadan çıxış edir), əsasən əmtəənin istehlak dəyəri və onun tələbata nisbətən nadirliyindən asılıdır. Avstriya məktəbi belə hesab edir ki, dəyər hər hansı bir xərclərlə deyil, yalnız son faydalığın səmərəsi ilə ölçülə bilər. Bu faydalıq insanın sərəncamında olan məhsulun kəmiyyəti artdıqca azalmağa doğru meyl edir.

Qeyd etmək lazımdır ki, Avstriya məktəbi tərəfindən aparılan tədqiqatın mərkəzində dayanan bir sıra iqtisadi problemlər həmin məktəbin yaranmasından əvvəllər də müxtəlif iqtisadi fikirlər və məktəblər tərəfindən bu və ya digər səviyyədə öyrənilmiş və təhlil olunmuşdur. Belə ki, məhsulun faydalığı ilə bilavasitə əlaqədar olan istehlak dəyəri, tələbat

downloaded from KitabYurdu.az

və tələb məsələlərinə hələ qədim dövrlərdə Ksenofont və Aristotel, orta əsrlərdə F.Akvinski, İbn-Xəldun və digərlərinin iqtisadi baxışlarında geniş yer verilmişdir.

Əmtəənin istehlak dəyəri (faydalığı) məsələsinin təhlili xüsusilə kapitalizm dövrünə qədəm qoymaqla və klassik məktəb tərəfindən sərvətin mənbəyinin mübadilədə deyil, istehsalda axtarılmasına keçilməklə daha da genişlənmişdir. Bununla belə klassik məktəb istehlak dəyərini mübadilə dəyərinin vacib şərti hesab edirdi və ona görə də bu anlayışı fərdi cəhətdən deyil, ümumi baxımdan öyrənirdi, tələbi (faydalığı) təklifdən, istehsal xərclərindən doğan törəmə iqtisadi forma kimi nəzərdən keçirirdi. Bu məktəbin nümayəndələri belə hesab edirdilər ki, tələb yalnız məhsul istehsal olunduqdan və bazarda təklif edildikdən sonra yaranır. Nəticədə tələb istehlak etmək arzusundan deyil, istehlak etməyin mümkünlüyündən doğur.

Düzdür, məhsulun dəyərinin subyektiv psixoloji baxımdan qiymətləndirilməsi probleminə klassik məktəbin məşhur nümayəndələrindən olan D.Rikardonun tədqiqatında müəyyən qədər rast gəlinir. Lakin o, şeyin faydalığını təkrar istehsalı mümkün olmayan sərvətlərlə - nadir rəsm əsərləri, kitablar, heykəllər, tarixi və mədəniyyət abidələri, qədim sikkələr və s. əlaqələndirir. Rikardonun fikrincə, əksər sərvətlər əməyin nəticəsi olduğu üçün onların dəyəri də istehsallarına çəkilmiş əmək sərfi ilə müəyyən olunur.

Məhsulun dəyərinin müəyyən edilməsində subyektiv-psixoloji amilin rolu məsələsi Fransa fiziokratizmi ideyalarının davamçısı A.Tyurqonun iqtisadi baxışlarında da öz əksini tapmışdır. O, özünün "Sərvətin yaradılması və bölüşdürülməsi haqqında düşüncələr" əsərində məhsulun obyektiv və subyektiv dəyərlərini biri-birindən fərqləndirməyə çalışırdı. Tyurqoya görə subyektiv dəyər məhsulun sahibi tərəfindən ona verilən qiymətdir. Obyektiv dəyər isə bazarda tələb və təklif, habelə bir sıra digər səbəblər nəticəsində yaranır. O yazırdı ki, mübadiləyə daxil olan hər bir məhsulun dəyəri qarşı tərəflərin tələbatı, arzusu və imkanları, habelə məhsulun nadirliyi ilə müəyyən edilir. Başqa sözlə, Tyurqonun fikrincə, əmtəənin dəyərinin əsasını onun faydalığının və istehlak dəyərinin alıcı və satıcı tərəfindən subyektiv şəkildə qiymətləndirilməsi təşkil edir.

downloaded from KitabYurdu.az

Tyurqo ilə yanaşı digər fransız iqtisadçısı Kondilyak Avstriya subyektiv-psixoloji məktəbinin yaranmasından hələ 100 il əvvəl, yəni 1776-cı ildə bu məktəbin əsas təməl prinsiplərindən olan faydalıq haqqında yazırdı ki, o, ayrıca bir məhsula birdəfəlik, həmişəlik bağlanmış bir məfhum deyil. Faydalıq məhsulun yararlılığı onun tələblərə cavab verə bilməsi səviyyəsi ilə əlaqədar olan baxışları əks etdirir. Bizim tələbat artıb - azaldıqca məhsulun dəyərliliyi (faydası) də genişlənir və ya məhdudlaşır.

Şübhəsiz, Avstriya məktəbinin əsas ideyalarının formalaşmasında XIX əsrin əvvəllərində yaşamış istedadlı alman iqtisadçısı German Henrix Qossenin çox mühüm rolu olmuşdur. Onun 1854-cü ildə çapdan çıxmış "İctimai mübadilə qanunlarının və insan fəaliyyətinin buradan irəli gələn qaydalarının inkişafı" haqqında əsərində məhsulun "son faydalığı" haqqında iki mühüm prinsip əks olunmuşdur ki, onlar da müasir iqtisad elmində Qossenin I və II qanunları adlanır. I qanuna görə subyektin sərəncamında olan nemətin kəmiyyəti artdıqca onun hər bir əlavə vahidinin son faydalığı da aşağı düşür, həmin sərvətlə təmin olunma həddindən artıq olduqda isə (son həddə çatdıqda) faydalıq sıfra çatır. Qossenin II qanununda göstərilir ki, istehlakın (tələbin) optimal quruluşu bütün əldə edilə bilən nemətlərin faydalığının tarazlığı şəraitində mümkün olur.

Qossenin fikrincə, konkret tələbatı ödəyən məhsulun kəmiyyətcə hər bir artımı özündən əvvəlki "nüsxəyə" nisbətən daha az faydalıdır. İqtisadi resursların məhdudluğu şəraitində isə insanın ən vacib tələbatının ödənilməsinə xidmət edən "məhsulun son nüsxəsi" vardır. Buradan isə belə bir nəticə çıxarılır ki, məhsulun qiyməti fərdin tələbatını ödəmək üçün vacib olan "son nüsxənin" faydası ilə ölçülür, deməli, əmtəənin dəyəri onun son faydalığı ilə müəyyən olunur.

Yeri gəlmişkən qeyd edək ki, Qossenin qanunları nəinki marjinalizmin Avstriya məktəbinin, eləcə də onun sonrakı iqtisadi məktəb və cərəyanların makroiqtisadi nəzəriyyəsində geniş istifadə olunmuşlar.

Nəhayət, Avstriya məktəbinin iqtisadi köklərindən danışarkən alman İ.Q.Tyunenin "Təcrid olunmuş dövlət" (1826), fransızlar A.O.Kurnonun "Sərvət nəzəriyyəsində riyazi prinsiplərin tədqiqi" (1838) və

downloaded from KitabYurdu.az

J.Dyupyuinin "İctimai işlərin faydalığının ölçülməsinə dair" (1844) əsərlərini və s. vurğulamaq lazımdır.

Göstərilənlər sübut edir ki, Avstriya məktəbi özbaşına, birdən-birə yaranmamışdır. Subyektiv iqtisadi məktəbin təşəkkülündə yuxarıda adları çəkilmiş tədqiqatçıların, habelə bir çox digərlərinin iqtisadi baxışlarının və əsərlərinin mühüm rolu və əhəmiyyəti olmuşdur.

Avstriya məktəbinin ən fərqləndirici cəhətlərindən biri məhsulun qiymətinin formalaşması üçün mühüm rol oynayan amillərdən biri olan tələbə olan münasibətdir. Təklif amilinin mühüm rolundan çıxış edən klassik məktəbdən fərqli olaraq Avstriya məktəbi belə hesab edirdi ki, məhz tələb (faydalıq) istehsalın (təklifin) parametrlərini müəyyən edir. Buna görə də o, əsas diqqəti təklifin deyil, ayrı-ayrı iqtisadi subyektlərin irəli sürdüyü tələbin öyrənilməsinə yönəltmişdir. Bu məktəbə görə tələbin subyektiv kəmiyyəti sərvətin faydalığından asılıdır. Həm də faydalıq mütləq yox, nisbi anlayışdır. Bu, hər bir ayrıca subyektin konkret şəraitdə konkret tələbi, bu tələbi ödəmək üçün zəruri məhsulların kəmiyyəti və həmin məhsulların subyekt tərəfindən psixoloji baxımdan qiymətləndirilməsi və əldə edilməsi imkanları ilə bilavasitə əlaqədardır.

Avstriya məktəbinin əsas tədqiqat istiqamətlərindən biri də iqtisadi və qeyri-iqtisadi sərvətlərin bir-birindən fərqləndirilməsidir. Bu zaman onlar belə bir metodoloji prinsipdən çıxış edirlər ki, tələbatların kəmiyyəti qeyri-məhduddur və onlar müxtəlif gərginliyə malikdir, cəmiyyətin malik olduğu sərvətlərin kəmiyyəti isə məhduddur. Buna uyğun olaraq hər hansı bir tələbatın ödənilməsinə xidmət edən, lakin tələbatlarla müqayisədə kəmiyyətcə az olan sərvətlər (məsələn, qızıl) iqtisadi sərvətlərdir. Bunun əksinə olaraq bəzi sərvətlər (məsələn, hava, su və s.) təbiətdə qeyri-məhdud həcmdədirlər. Onlar istənilən qədər istehlak edilə bildikləri üçün qeyri-iqtisadi sərvətlərdirlər.

Avstriya iqtisadçıları göstərirlər ki, suya tələbat böyük olsa da onun "faydalıq həddi" çox aşağıdır, çünki insanların suya olan tələbatı xeyli dərəcədə ödənilir. Lakin qızılın "faydalıq həddi" suyun faydalıq həddinə nisbətən yüksəkdir. Ona görə də qızılın qiyməti suya nisbətən yüksəkdir.

Avstriya məktəbi belə hesab edir ki, iqtisadi sərvətlər tələbin tam ödənilməsi üçün kifayət etmədiyindən bu tələb ödənilməmiş qalacaqdır.

downloaded from KitabYurdu.az

Belə hallarda isə insanlar az mühüm olan tələbin ödənilməsindən imtina edəcəklər. Beləliklə, tələbin ödənilməsi hüdudu bilavasitə mövcud sərvətlərin kəmiyyətindən asılı olaraq bu və ya digər istiqamətdə dəyişilə bilər.

Avstriya məktəbi nümayəndələrinin öz tədqiqatlarında istifadə etdikləri ilkin metodlarından biri robinzonçuluqdur. Kimsəsiz adada yaşayan adamın təsərrüfatında nə istismar, nə antaqonist ziddiyyətlər, nə iqtisadi böhranlar, nə də işsizlik yoxdur. Avstriya məktəbinin tənqidçiləri bunu əsas götürərək hələ vaxtilə iddia edirdilər ki, bu məktəbin nümayəndələri Robinzonçuluq metodundan təsərrüfatına xas olan xüsusiyyətləri kapitalist iqtisadiyyatına tətbiq etməyə çalışırlar. Bununla belə göstərmək lazımdır ki, Avstriya məktəbinin nümayəndələri Robinzonçuluq metodundan istifadə etməklə hər bir fərd tərəfindən məhsulların subyektiv cəhətdən qiymətləndirilməsi xüsusiyyətini açıb göstərməyə çalışırdılar. Bundan əlavə onlar öz tədqiqatlarını daha da dərinləşdirərək konkret subyektiv baxışlara malik olan insanı sonralar ictimai münasibətlər şəraitində təhlil edirlər, fərdin subyektiv-psixoloji xüsusiyyətlərinin mübadilə, bazar şəraitində, tələbatına üyğun məhsul seçilməsi prosesində necə və nə dərəcədə təzahür etdirdiyini öyrənirlər.

## § 2. K.MENGER - MARJİNALİZMİN AVSTRİYA MƏKTƏBİNİN BANİSİDİR

Əvvəldə göstərildiyi kimi, Avstriya məktəbinin ilkin yaradıcılarından biri K.Menger olmuşdur. O, "Xalq təsərrüfatı haqqında elmi prinsiplər", ictimai elmlərin, xüsusən "Siyasi iqtisadın metodları haqqında tədqiqat" (1883) və s. əsərlərin müəllifidir. Bununla belə onun son faydalıqla bağlı nəzəri baxışları əsasən "Siyasi iqtisadın əsasları" (1871) əsərində irəli sürülmüşdür. Bu əsərdə K.Menger Avstriya məktəbi nümayəndələri içərisində ilk dəfə sərvətin faydalığının onun az tapılmasından (nadirliyindən) asılılığını göstərməyə çalışmış, faydalığın azalması prinsipini əsaslandırmışdır. Bu prinsipə üyğun olaraq məhsulun dəyəri təklifin həcmindən asılıdır və onun sərəncamda (ehtiyatda) olan son vahidinin, yəni az vacib olanının faydası ilə müəyyən olunur.

downloaded from KitabYurdu.az

Son faydalılıq prinsipinə tərif verərək K.Menger göstərirdi ki, onun nəzəriyyəsi sərvətlər və insanlar arasında olan münasibətlərə həsr edilmişdir. Bu münasibətlərdə isə ən mühüm məsələ hər hansı bir məhsulun tələbatlar sırasında tutduğu yerdir.

K.Menger tədqiqatının metodoloji bazasının fərqli xüsusiyyətlərindən birini mikroiqtisadi təhlil və fərdiyyətçilik təşkil edir. İqtisadi proseslərə belə bir mövqedən yanaşmaq ona cəmiyyətin iqtisadi münasibətlərini təcrid olunmuş (əlahiddə) şəkildə təsərrüfatçılıq edən subyekt baxımından təhlil etməyə imkan vermişdir.

K.Mengerin tədqiqatının əsas cəhətlərindən birini də iqtisadi nemətlərin ayrı-ayrı səviyyələrə bölgüsü təşkil edir. Onun fikrincə insanın ən zəruri, məsələn, ərzağa olan tələbatlarının bilavasitə ödənilməsi ilkin səviyyəli nemət üzərində sərəncam verməyi müəyyən edir. İkinci, üçüncü və daha uzaq səviyyəli nemətlərə malik olmaq üçün isə onları dolayı yollarla tələbatların ödənilməsinə cəlb etmək lazımdır. Menger yazırdı ki, əgər biz yüksək səviyyəli nemətlərə malik deyiliksə, həmin nemətlərin heç birini öz tələbatımız üçün istifadə edə bilmərik. Məsələn, çörək istehsalı üçün (yüksək səviyyəli nemət üçün) ikinci səviyyəli nemətlərə (yanacağa və suya) malik olmasaq, hətta digər zəruri nemətlərin mövcudluğu şəraitində də çörək istehsal edilə bilməz. Onun fikrincə, ilk əvvəl yüksək səviyyəli nemətlər istehlaka daxil olur. Yalnız müəyyən vaxt keçdikdən sonra bu nemətlər dəyişikliyə uğrayaraq daha aşağı səviyyəli sərvətlərə çevrilirlər. Menger qeyd edirdi ki, yüksək səviyyəli nemətlər əsasən istehsal üçün vasitələr şəklində çıxış edirlər.

Avstriya məktəbi üçün mühüm olan problemlərdən biri məhsulun qiymətinin əmələ gəlməsi ilə bağlıdır. Bu məktəb qiymətin əmələ gəlməsi prosesinin insanların iradə və şüurundan asılı olmayaraq obyektiv iqtisadi qanunların təsiri altında formalaşması haqqında marksizm nəzəriyyəsinə əks çıxır. Avstriya məktəbinə görə qiymət əmtəənin alıcı və satıcıları tərəfindən irəli sürülmüş subyektiv fikirlərinin toqquşması nəticəsində yaranır.

Məhsulun qiyməti haqqında bəhs edərək K.Menger göstərirdi ki, o nemətlərə birdəfəlik xas olan cəhət deyildir. Qiymət bizim tələbatımızın ödənilməsi səviyyəsindən asılı olaraq belə bir cəhət kəsb edir. Öz

downloaded from KitabYurdu.az

mövqeyini sübuta yetirmək üçün K.Menger səhradakı vahəni misal göstərir. O yazır ki, buradakı suyun miqdarı insan tələbatını tam ödədiyi bir şəraitdə dəyər (qiymət) kəsb etmir. Əksinə, suyun miqdarı kəskin şəkildə azalarsa və onun hər hansı bir miqdarı vahənin konkret sakininin tələbatını ödəmək üçün zəruri olarsa, bu halda suyun hər hansı bir səviyyəsi də müəyyən qiymət kəsb edəcəkdir. Deməli, iqtisadi nemətin dəyəri insan tərəfindən tələbatların ödənilməsi prosesində aşkara çıxır. Bu halda insan həmin nemətlərin həcmindən asılılığını hiss edir. Beləliklə, yalnız qeyri-iqtisadi sərvətlər insanlar üçün heç bir qiymət kəsb etmir.

K.Menger məhsulun qiymətinin mübadilənin vacib momenti olması və mübadilədə məhsulların qiymətlərinin ekvivalentliyi haqqında klassik məktəbin fikrini də tənqid etmişdir. Bu barədə o belə yazırdı: "Qiyməti öyrənən tədqiqatçılar iki nemətin kəmiyyətcə bir-birinə bərabərliyinin səbəbini öyrənmək üçün xeyli zəhmət sərf edirlər. Bəziləri bunun səbəbini həmin sərvətlərə çəkilən əməyin, digərləri isə istehsal xərclərinin bərabərliyində görürlər. Hətta bu zaman belə bir mübahisə də yaranırdı ki, məhsullar ekvivalent olduqlarına görə bir-birinə bərabərdirlər, yoxsa bir-birilə mübadilə edildikləri üçün ekvivalentdirlər? Əslində isə heç bir yerdə iki məhsulun dəyəri heç zaman bərabər olmur".

K.Menger mübadilə kateqoriyasının məzmununu qarşı tərəflərin hər biri üçün sərfəli olan, lakin heç də ekvivalent olmayan fərdi akt kimi səciyyələndirirdi. O göstərirdi ki, dəyər (qiymət) insanların sərəncamında olan, onların həyatını və rifahını təmin edən nemətlər haqqında subyektiv mülahizəsidir. Dəyər təkcə öz məzmununa görə deyil, həm də həcminə görə subyektivdir.

Qeyd etmək lazımdır ki, K.Menger tərəfindən mübadilənin və dəyərin (qiymətin) bu cür subyektiv izahı sonralar Avstriya məktəbinin digər nümayəndələrinin tədqiqatları üçün də çıxış nöqtəsini təşkil etmişdir.

## §3. Y.BEM-BAVERKİN VƏ F.VİZERİN İQTİSADİ BAXIŞLARI

Avstriya məktəbinin son faydalıq nəzəriyyəsi K.Mengerdən sonra Bem-Baverk tərəfindən dərinləşdirilmiş və zənginləşdirilmişdir. Bem-

downloaded from KitabYurdu.az

Baverkin müvafiq subyektiv-iqtisadi baxışları onun əsasən "Təsərrüfat nemətlərinin qiymət nəzəriyyəsinin əsasları" (1886), "Kapital və mənfəət" (1884), "Kapitalın pozitiv nəzəriyyəsi" (1889), "Marksist sistemin başa çatması" (1890) və s. əsərlərində əks olunmuşdur.

Bem-Baverkin tədqiqatı üçün əsasən aşağıdakı istiqamətlər xasdır:

- təkcə fərdi mübadilənin deyil, bütövlükdə bazar kateqoriyalarının, o cümlədən istehsal və bölgü sferalarının sistemli tədqiqatı əsasında subyektiv və obyektiv dəyər anlayışlarının bir-birindən fərqləndirilməsi və bu əsasda qiymətin subyektiv baxımdan səciyyələndirilməsi;
- istehsal xərclərinin sahibkar tərəfindən subyektiv qiymətləndirilməsi və mövcud sərvətlərin gələcəyin və hazırkı dövrün sərvətlərinə bölünməsi əsasında "Gözləmələr nəzəriyyəsi"nin irəli sürülməsi.

Mübadilə prosesini tədqiq edərkən Bem-Baverk yazırdı ki, ictimai mübadiləyə daxil olan hər kəs üç əsas prinsipdən çıxış etməlidir. Birincisi, mübadilə fayda gətirməlidir, yəni alqı-satqı zamanı əldə edilmiş məhsulun faydası satılmış məhsulun faydasından daha çox olmalıdır; İkincisi, mübadilənin hər bir iştirakçısı çalışır ki, onu özü üçün daha faydalı şərtlərlə həyata keçirsin; üçüncüsü isə, faydanın yüksək səviyyədə olmadığı hallarda mübadilədən imtina etməkdənsə, onu az fayda ilə həyata keçirmək daha münasibdir.

Bem-Baverk Qossenin qanunlarından istifadə edərək istehlak dəyəri kimi mübadilə dəyərinin də məhsulların son faydalığı ilə subyektiv cəhətdən müəyyən olunduğunu sübut etməyə çalışırdı. O, subyektiv və obyektiv dəyər anlayışlarını bir-birindən fərqləndirmişdir. Subyektiv dəyər məhsulun alıcı və satıcı tərəfindən fərdi qiymətidir. Obyektiv dəyər isə bazarda rəqabət şəraitində formalaşan mübadilə nisbətidir. Məhz bu obyektiv və subyektiv dəyərlərin mübadilə prosesində qarşılaşdırılması nəticəsində məhsulun qiyməti meydana çıxır. Bem-Baverk qiymətin əmələ gəlməsi prosesini aşağıdakı kimi təsvir edir: əgər bazarda bir alıcı və bir satıcı olarsa, bu halda rəqabət olmur. Bu zaman alıcının təklif etdiyi subyektiv qiymətin maksimum, satıcının qiymətinin isə minimum səviyyələri mövcud olacaq, real qiymət bu hüdudlarda tərəddüd

downloaded from KitabYurdu.az

edəcəkdir. Şübhəsiz, burada əmtəənin qiyməti alıcı və satıcıların sövdələşmə bacarığından asılı olaraq bu və ya digər istiqamətdə dəyişə bilər. Lakin bazarda bir satıcıya qarşı öz aralarında rəqabət aparan bir neçə alıcı dayanarsa, bu halda rəqabət mübarizəsində qalib gələn alıcının qiyməti minimum, ən ağır şəkildə məğlub olan alıcının qiyməti isə maksimum hədd kimi müəyyən ediləcəkdir. Beləliklə, qiymət, qalib gələn alıcı ilə məğlub olan alıcının verdikləri qiymətin hüdudları daxilində müəyyən edilmiş olur. Nəticədə qiymət mübadilə zamanı əmtəənin alıcı və satıcı tərəfindən irəli sürülmüş subyektiv fikirlərinin toqquşmasından yaranır.

Bem-Baverkin tədqiqatında dəyər - insanların sərəncamında olan nemətlərin faydalığı haqqında onların fikirləridir və o, insan şüurundan kənarda mövcud deyildir. Bu zaman dəyər həmin nemətlərin son kəmiyyətinin faydası ilə ölçülür. Həmin müddəanı sübuta yetirmək üçün o, meşədə tənha yaşayan insanın təsərrüfatını və onun psixologiyasını tədqiq etmişdir. Bu zaman fərz edilir ki, həmin adam beş kisə taxıla malikdir. Birinci kisə onun yeməklə bağlı ilkin həyati tələbatının ödənməsinə, ikinci kisə istehlakı daha da yaxşılaşdırmağa, insanın səhhəti və qüvvətini qorumağa, üçüncü kisə çörəkdən ibarət olan yeməyə ət məhsulunun da əlavə edilməsi məqsədi ilə quşlar saxlamağa və yedirtməyə, dördüncü kisə çörəkdən araq çəkməyə, beşinci kisə isə öz səsi ilə tənha insana zövq verən tutuquşunu yemləməyə sərf edilir. Belə bir şəraitdə hər bir kisə taxılın subyektiv qiymətini müəyyən etmək zərurəti yaranır. Bem-Baverkin fikrincə, məhsul vahidinin qiyməti onun daha lazımsız, az əhəmiyyətli olan tələbatının ödənilməsi üçün zəruri olan son məhsulun faydası ilə ölçülür. Buna görə də məhsulları mübadilə etmək istərkən "tənha sakin" tutuquşunu yemləmək üçün istifadə edilən axırıncı kisə taxıldan imtina edəcəkdir. Buradan isə Bem-Baverk belə bir nəticə çıxarır ki, subyektiv qiymət mübadilə prosesində insanın malik olduğu nemətin ən az faydasından asılıdır, son faydalıq isə nemətlərin kəmiyyəti və fərd tərəfindən istehlakın intensivliyi ilə müəyyən edilir. Beləliklə, qiyməti təhlil edərkən Bem-Baverk belə bir nəticəyə gəlir ki, o, əvvəldən axıradək nemətlərin subyektiv qiymətləndirilməsinin nəticəsidir.

downloaded from KitabYurdu.az

Bem-Baverkin iqtisadi tədqiqatlarının əsas istiqamətlərindən birini də "gözləmələr nəzəriyyəsi" təşkil edir. Həmin nəzəriyyəyə görə bütün sərvətlər iki yerə bölünürlər. Bunlardan birincisi şəxsi tələbatların ödənilməsinə xidmət edən istehlak nemətlərindən, ikincisi isə istehsal vasitələrinin aid edildiyi istehsal sərvətlərindən ibarətdir. Bem-Baverk göstərirdi ki, istehsal nemətləri öz müstəqil dəyərinə malik deyillər, belə ki, insan tələbatını bilavasitə ödəmirlər. Bem-Baverk onları "gələcək sərvət" adlandırır, həmin sərvətlərin faydasını isə "hazırkı sərvət" kimi çıxış edən istehlak nemətlərinin faydası ilə müəyyən edirdi. Kapitalist iqtisadiyyatı şəraitində hazırki sərvətin əldə edilməsində fəhlənin aldığı əmək haqqının müstəsna əhəmiyyətindən çıxış edərək onu "hazırkı sərvət" kimi səciyyələndirirdi. Bem-Baverkin mənfəət və faiz haqqında düşüncələri də bilavasitə onun "Gözləmələr nəzəriyyəsi" ilə müəyən edilir. Konkret olaraq onun "Kapital və mənfəət" əsərində sahibkarın mənfəət əldə etmək hüququ sübut edilir və o, faizə müncər olunur. Bem-Baverk göstərirdi ki, insanlar öz istehlakında bu gün istifadə etdikləri hazırki sərvətlərə daha çox üstünlük verirlər, belə ki, hazırki dövrdə onların səmərəsi gələcək sərvətlərin səmərəsindən daha çoxdur. Nəticədə faizin (mənfəətin) mənbəyi kimi hazırki və gələcək sərvətlərin qiymətləndirilməsindəki fərq çıxış edir, faiz özü isə sahibkarın gözləməsinin nəticəsində yaranır. İş ondadır ki, kapitalist hər hansı bir məbləğdə kapital avans edərkən gələcək sərvət naminə hazırkı sərvətdən imtina edir. O, bu sərvəti reallaşdırmağı gözlədiyi üçün mənfəət əldə edir.

Bem-Baverk yazırdı ki, hazırkı sərvətlərdən daha səmərəli istifadə olunması gələcəkdə daha çox sərvət əldə etməyə imkan verir. Belə bir fikri sübut etmək üçün Bem-Baverk Robinzonun təsərrüfat fəaliyyətinə müraciət edərək göstərirdi ki, əgər o, vaxtının bir hissəsini meyvənin toplanması və balıq ovu ilə yanaşı əmək alətlərinin hazırlanmasına da sərf edərsə, bu halda onun cari istehlak sərvətlərinin ehtiyatı ilk dövrdə azalacaqdır. Lakin hazırlanmış əmək alətləri Robinzona gələcəkdə daha çox istehlak sərvətləri əldə etməyə imkan verəcəkdir.

Bununla belə Bem-Baverk subyektivizm prinsiplərinə sadiq olan insanları sabah deyil, məhz bu gün sərvət almağa sövq edən aşağıdakı üç səbəbin olduğunu göstərirdi: Birincisi, cəmiyyətdə hər bir vaxt çoxlu sayda

downloaded from KitabYurdu.az

aztəminatlı insanların mövcudluğu; ikincisi, cəmiyyətdə kifayət səviyyədə zəif iradəli insanların olması; üçüncüsü, insanların hazırkı dövrdə daha çox fayda götürməyə can atmaları, belə ki, onlar belə hesab edirlər ki, gələcəkdə istehsalın nəticəsi aşağı düşə bilər.

Beləliklə, deyilənlər sübut edir ki, Avstriya məktəbinin son faydalıq nəzəriyyəsi Bem-Baverkin tədqiqatlarında yeni-yeni cəhətlərlə daha da zənginləşdirilmişdir.

Əvvəldə göstərildiyi kimi, Avstriya məktəbinin görkəmli nümayəndələrindən biri də Fridrix Fon Vizer olmuşdur. Vizerin son faydalılıqla bağlı fikirləri onun "İqtisadi qiymətliliyin mənşəyi və əsas qanunları" (1884), "Təbii qiymətlilik" (1899) və "İctimai təsərrüfat nəzəriyyəsi" (1914) əsərlərində tədqiq olunmuşlar.

Avstriya məktəbi nümayəndələri arasında ilk dəfə Vizer "qossen qanunları", "son faydalıq", "əvəzetmə" kimi anlayışları işlətmişdir. Bundan əlavə, o ilk dəfə olaraq məcmu faydalığın müəyyən edilməsi üsulunu axtarıb tapmağa cəhd etmişdir. Bu məqsədlə sərvətin son faydalığını həmcins sərvətlərin kəmiyyətinə hasili kimi hesablamağı təklif edir ki, bu da iqtisad elmində məcmu faydalığın müəyyən edilməsinin multiplikativ üsulu adlanır. Bu barədə Vizer belə yazır: "Faydalığın hesablanmasının əsas qanunu göstərir ki, məhsulun hər bir vahidi son faydalığa uyğun olaraq müəyyən edilir. Bu qanunu biz son faydalıq qanunu və yaxud daha qısa desək son qanun adlandıracağıq".

Vizer göstərir ki, məhsulların dəyəri istehsal xərclərinin dəyəri ilə, istehsal xərclərinin dəyəri isə son sərvətin faydalığı ilə müəyyən edilir. Belə bir mövqedən çıxış edərək o, istehsal xərclərini qurban verilmiş və ya alternativ fayda kimi qiymətləndirir. Yeri gəlmişkən qeyd edək ki, belə bir müddəa iqtisad elmi tarixinə "istehsal xərcləri qanunu" və yaxud "Vizer qanunu" adı ilə daxil olmuşdur. Həm də Avstriya məktəbi bu qanunu bütün sərvətlərə şamil etmiş, yalnız hava, su, torpaq və s. bu kimi "sərbəst sərvətlər" adlandırdığı nemətlərə aid etməmişdir. Vizer həmin qanunu aşağıdakı kimi şərh edir: "Hər hansı bir sərvətin real dəyəri bu sərvətin istehsalına yönəlmiş resursların köməkliyi ilə istehsal edilə biləcək digər sərvətlərin əldə olunmayan faydalığıdır... Faydalıq haqqında düşünərək "xərcləri" unudan hər bir kəs sadəcə olaraq yalnız bir istehsalın faydası

downloaded from KitabYurdu.az

haqqında düşünür, başqasının faydası haqqında isə unudur". Vizer qeyd edirdi ki, xərclər (məsrəflər) dəyəri müəyyən etmir, əksinə, bu axırıncı müstəqil surətdə mövcud olur və xərcləri sanksiyalaşdırır.

Vizerin tədqiqatının mühüm istiqamətlərindən biri də "əvəzetmə" nəzəriyyəsi ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, Avstriya məktəbinin yaradıcısı K.Menger sərvətin yaradılması prosesində iştirak edən istehsalın üç amilinin - əməyin, kapitalın və torpağın ayrı-ayrılıqda rolunu və əhəmiyyətini bir-birindən seçib ayırmamışdır. Mengerdən fərqli olaraq Vizer istehsalın üç amili konsepsiyasından çıxış edir və göstərirdi ki, bu amillərin əlaqələndirilməsini öyrənmək, sonra isə hər bir amilin digəri ilə əvəz ediləcək hissəsini müəyyən etmək lazımdır. Onun fikrincə əvəzetmənin vəzifəsi bir çox səbəblər içərisindən qoyulmuş məqsədə uyğun olan və buna görə də praktiki əhəmiyyət kəsb edən həlledici səbəbləri axtarıb tapmaqdan ibarətdir. Buradan isə Vizer belə bir nəticəyə gəlirdi ki, əvəzetmə gəlirin amillər üzrə bölünməsini faydalığının hesablanması aktından başqa bir şey deyildir. Öz iqtisadi tədqiqatında xüsusi mülkiyyətin səmərəliliyi məsələsinə də yer verən Vizer onu təsərrüfatçılığın məzmunu ilə müəyyən edirdi. Bu mövqeyi sübuta yetirmək üçün o, xüsusi mülkiyyətin səmərəsini aşağıdakı üç şərtlə əlaqələndirir: birincisi, öz mülkiyyətini digər iddiaçılardan qorumaq üçün təsərrüfat nemətlərinin xərclənməsinə qənaətlə yanaşmanın zəruriliyi; ikincisi - "mənimki" və "səninki" məsələlərinin fərqləndirilməsinin vacibliyi; üçüncüsü isə mülkiyyətin təsərrüfatçılıqla istifadəsi üçün hüquqi təminatın vacibliyi.

Vizerin son faydalıqla bağlı iqtisadi görüşlərinə yekun vuraraq göstərməliyik ki, onlar bütövlükdə marksizmin əmək-dəyər nəzəriyyəsinə qarşı yönəlmişdir. Əmək-dəyər nəzəriyyəsinə iqtisadi-praktiki baxımdan qiymət verərək Vizer yazırdı ki, dəyəri bu cür (yəni, marksizm nəzəriyyəsi əsasında) başa düşdükdə gələcəyin dövləti bircə gün də olsa iqtisadiyyata rəhbərlik edə bilməz.

## §4. AVSTRİYA MƏKTƏBİNİN ƏHƏMİYYƏTİ

downloaded from KitabYurdu.az

Avstriya məktəbinin məzmunu və xüsusiyyətləri haqqında yuxarıda deyilənlər onun iqtisad elminin inkişafı üçün mühüm əhəmiyyət kəsb etdiyini və vacib xidmətləri olduğunu sübut edir. Konkret olaraq bu xidmətlər əsasən aşağıdakılardan ibarətdir:

Birincisi, Avstriya məktəbi ilk dəfə olaraq iqtisad elminə son faydalıq anlıyışını gətirmişdir. Əgər klassik məktəbə görə məsrəflər son nəticəni müəyyən edirsə, Avstriya məktəbinə görə nəticə (son məhsulun faydalığı) məsrəfləri (istehsal resurslarının qiymətlərini) müəyyənləşdirir;

İkincisi, insandan kənarda dayanan obyektiv iqtisadi amilləri iqtisadi təhlilin mərkəzində saxlayan klassik məktəbdən fərqli olaraq Avstriya məktəbi əsas diqqətini fərdlərin iqtisadi fəaliyyətini yönəldən subyektiv psixoloji qərarlarının və davranışlarının öyrənilməsinə yönəltmişdir. Nəticədə o, iqtisad elminin həqiqətən şəxsiyyətin mənafeyinə xidmət etməsi, insana doğru çevrilməsi üçün şərait yaranmışdır.

Üçüncüsü, öz tədqiqatında orta kəmiyyətlərlə çıxış edən klassik məktəbin əvəzinə Avstriya məktəbi iqtisadi tədqiqatda son kəmiyyətlərdən istifadənin əsasını qoymuşdur. Sonradan bu prinsip universal xarakter kəsb etmiş və faydalıq nəzəriyyəsi çərçivəsindən xeyli kənara çıxmışdır.

Şübhəsiz, Avstriya məktəbinin iqtisadi baxışlarında bir sıra metodoloji çatışmazlıqlar və dəqiqsizliklər vardır. Bu baxımdan Avstriya məktəbinin ən əsas çatışmazlığı klassik məktəb tərəfindən dəyərin məsrəflər əsasında müəyyən olunmasını əvvəldən axıradək səhv hesab etməsidir. Qeyd etmək lazımdır ki, Avstriya məktəbi bazar subyektləri arasında, əsasən son məhsulun faydasını özü üçün qiymətləndirən alıcının (istehlakçının) subyektiv davranışını müəyyən etməyə imkan verir və beləliklə də bazar mexanizminin yalnız bir ünsürü olan tələbin mövqeyindən çıxış edir. Lakin məlumdur ki, bazarın digər vacib subyekti satıcıdır (istehsalçıdır), onun isə mal və xidmətlər təklifi ilə bağlı bir sıra problemləri vardır. Həmin problemlərin əsasında isə ictimai məsrəflər və iqtisadi resursların qiyməti dayanır. Deməli, vahid bazar problemlərinin öyrənilməsi üçün ictimai məsrəflərlə (klassik məktəb) və faydalığı (Avstriya məktəbi) birləşdirmək, məsrəfləri və nəticəni vəhdət halında tədqiq edən ümumi bir nəzəriyyə yaratmaq lazımdır. İqtisad elmində bu vəzifə ilk dəfə XIX əsrin axırlarında neoklassik istiqamətin əsas

downloaded from KitabYurdu.az

nümayəndəsi, vahid bazar nəzəriyyəsinin ilkin yaradıcısı A.Marşall tərəfindən yerinə yetirildi və həmin istiqamətin digər tərəfdarları C.Klark, K.Viksel, F.Edcuort, L.Valras və s. tərəfindən daha da inkişaf etdirildi.

downloaded from KitabYurdu.az

# FƏSİL 14. NEOKLASSİK İQTİSADİ TƏLİM

## §1. A.MARŞALL NEOKLASSİK İQTİSADİ CƏRƏYANIN YARADICISIDIR

XIX əsrin sonu XX əsrin əvvəllərində mə'lum olduğu kimi dünya kapitalist iqtisadiyyatında ciddi dəyişikliklər baş verdi. Kapitalizm öz fərdi fəaliyyətini genişləndirib, ictimai xarakter almağa başladı. Belə şəraitdə baş verən iqtisadi hadisələrə klassik yanaşmaq metodundan fərqli olaraq, yeni yanaşma metodları baş verdi. İqtisadi hadisələr təkcə əmək-dəyər baxımından deyil, subyektiv psixoloji və faydalılıq baxımından qiymətləndirilməyə başladı. İqtisadi tədqiqatların belə yanaşılması görkəmli ingilis iqtisadçısı Alfred Marşallın (1842-1924) əsərlərində aparılmağa başlanmışdır.

Kembric universitetinin professoru A. Marşallın "İqtisad elminin əsasları" (1890), "Sənaye və ticarət" (1922) əsas iqtisadi əsərləri kimi "son faydalılıq", "son məhsuldarlıq" ideyaları öz əksini tapmışdır.

Neoklassik elmi cərəyanın görkəmli banilərindən hesab olunan A. Marşall iqtisad elmində klassik iqtisadi nəzəriyyə ilə marjinalizmin inqilabi nailiyyətlərini sıxı surətdə birləşdirən görkəmli iqtisadçıdır.

İlk dəfə olaraq siyasi iqtisadı "ekonomiks" termini ilə əvəz etməklə, iqtisadi nəzəriyyəni praktika ilə qrafik metodla, riyazi yolla birləşdirməyə cəhd göstərən görkəmli mütəfəkkirlərdəndir.

Siyasi iqtisadın predmetinin rifah halının maddi əsasının yaradılması və istifadə olunması fəaliyyətindən ibarət olduğunu qeyd edir. Avstriya iqtisadçılarından başlamış siyasi iqtisadın predmetinin iki müstəqil obyektə bölünməsini makroiqtisadiyyat və mikroiqtisadiyyatdan ibarət olduğunu əsaslandırır.

İqtisadiyyatın hərəkətverici qüvvələri sırasına iqtisadi sərbəstliyə və rəqabətə üstünlük verən A.Marşall iqtisadi məqsədlərin formalaşması prosesini əsaslandırır.

Marşall iqtisadi təliminin əsasında, ilkin marjinalistlər göstərdikləri bazarın tələb, təklif və qiymət amilləri arasındakı funksional asılılıq əlaqəsini nəzərə almaqla, o göstərmişdir ki, bu əlaqə sadə xarakter daşımır. O

downloaded from KitabYurdu.az

göstərdi ki, qiymətin aşağı düşməsi ilə tələb artır. Lakin qiymətin aşağı düşməsi ilə təklif də aşağı düşür, qiymətin artımı ilə isə artır.

Ona görə də A. Marşall, sabit və yaxud müvazinatlı elə qiymətin olmasını göstərirdi ki, o tələb və təklif üst-üstə düşdüyü nöqtə ilə tuş gəlsin. Beləliklə, kəmiyyət qiymətləndirilməsinin əhəmiyyətini iqtisadiyyata gətirən Marşall, onun kasıb və dövlətlilər üçün daşıdığı əhəmiyyəti göstərmişdi. "Ekonomiks" adı ilə iqtisadi nəzəriyyəyə dəqiq elmlər kimi baxan Marşall, göstərirdi ki, iqtisadi həyata siyasi təsirlərdən, dövlət müdaxiləsindən kənar baxmaq lazımdır.

A.Marşall "Ekonomiksin prinsipləri" adlı əsəri ilə iqtisad elmində "müvazinatlı qiymət" anlayışı ilə bazar iqtisadiyyatında baş verən bütün funksional dəyişikliklərin sistemli yanaşma üsulunun əsasını yaratdı.

İqtisadi fikir tarixində ən görkəmli şəxsiyyətlərdən olan Alfred Marşall 1842-ci ildə Londonda bank işçisi ailəsində olmuşdur.

Atası Ulyams Marşall öz xarakterinə görə olduqca sərt, qəti və qəddar xarakterli, protestant ruhlu dindar bir şəxs idi. Onun sərt rəftarı ən çox qadınlara, xüsusən həyat yoldaşına idi. Təsadüfi deyildir ki, o hətta "kişilərin hüququ və qadınların borcu" adlı traktat da yazmışdır.[59]

Atasının olduqca ciddi həyat tərzini qəbul etmiş Alfred Marşall da olduqca çalışqan, zəhmətkeş bir gənc kimi təmkinliyi, düşüncəliyi və dərrakəliyi ilə fərqlənirdi.

Təhsil aldığı məktəbdə 1861-ci ildə üçüncü yer tutan Alfred o dövrdəki şərtlərə görə, artıq özünə Oksford kollecinin təqaüdünü almaq hüququnu təmin etmişdir.

Sonralar üç illik aspirantura təhsili üçün də belə təqaüdün alınması hüququnu əldə etmişdir. Oğlunu belə zəngin biliklə ruhani görmək istəyən atasından fərqli olaraq, Alfred daha perspektivli həyat yolu axtarmağı üstün tuturdu.

Ona görə də qədim dilləri öyrəndiyi Oksforddan Kembric universitetinin riyaziyyat fakültəsinə keçməyi qət etdi. Təhsil haqqının ödənilməsinə dayısı Çarlizin köməyi sayəsində, artıq o 1865-ci ildə riyaziyyat üzrə ikinci yeri tutdu.

---

[59] Bax. C. M. Keyns "Alfred Marşall 1842-1924. A. Marşallın "Prinüipı gkonomeçeskoy nauki" əsərində I M. 1993. səh. 5-50.

downloaded from KitabYurdu.az

1866-ci ildə Marşallın Ruhani Con Qrautun təsis etdiyi klubda iştirakı və onun mənəviyyatın fəlsəfəsi mühazirələrini dinləməyi, onda ciddi mənəvi dünyagörüşünün dəyişilməsinə səbəb olur.

C.L.Milin "Kamiltonun fəlsəfəsinin tədqiqi" və C. Darvinin "Növlərin mənşəyi" əsərləri A. Marşallın fəlsəfi dünyagörüşünə ciddi təsir göstərir və etikaya meyl göstərir.

Məhz etika problemlərinin tədqiqi ilə o, iqtisad elminə gəlmişdir. Bu istiqamətdə C. S. Milin "Siyasi iqtisad" əsərinin ona böyük təsiri olur. Eləcə də 1868-ci ildə Almaniyaya Kantın əsərlərinin orijinaldan oxumaq fikri ilə səfəri də onun iqtisadi dünyagörüşünün formalaşmasına təsir göstərir.

Marşalın iqtisadi görüşlərinin samballı şəkildə formalaşmasına təsir göstərən əsas cəhətlər kimi, artıq Smitin iqtisadi sisteminin, Rikardonun iqtisadi təliminin və Milin iqtisadi ideyalarının İngiltərə təhsil sistemində aparıcı mövqedə durması xüsusi təsir göstərmişdir.

Eyni zamanda Almaniyada formalaşmış fəlsəfi baxışların mövcud olması Marşallın iqtisadi hadisələrin tətbiqindəki mövqeyinə ciddi təsir göstərmişdir. Eyni zamanda Almaniyada formalaşmış tarixi məktəb nümayəndələrinin, xüsusən Romerin iqtisadi görüşləri Marşalda ciddi elmi maraq yaratmışdı.

Fransanın "fiziokratlar" məktəbinin nümayəndələrinin, eləcə də kəmiyyət nəzəriyyəsinin yaradıcılarının əsasən Kurnonun fikirləri ona iqtisadi hadisələrin izahını yeni metodla, qrafik üsulla şərh etməyə imkan vermişdir.

Marşalın riyazi təfəkkürü, fəlsəfi baxışı, iqtisadi düşüncəsi onda yeni bir iqtisadi nəzəriyyənin formalaşmasına imkan verir.

Marşalın iqtisadiyyat sahəsindəki ilkin tədqiqatları 1867-ci ildə başlayır və 1883-cü ilə qədər davam edərək bitkinləşir. A.Marşall da Kembric universitetindəki həm müəllimlik, həm də tədqiqatçılıq fəaliyyəti ona 1875-ci ildə "Pul, kredit və ticarət" adlı əsərini yazmasına imkan verir.

Bir cəhəti də qeyd etmək lazımdır ki, Marşalın iqtisadi görüşlərinin formalaşması elə bir dövrü əhatə edirdi ki, o dövrdə siyasi iqtisad sahəsində artıq özünə həyat vəsiqəsi almış sanballı əsərlər dərc olunmuşdur.

downloaded from KitabYurdu.az

C. S. Milin 1848-ci ildə ilk dəfə dərc olunan əsəri 1871-ci ildə 7-ci dəfə düzəlişlərlə təkrar nəşr olunmuşdu. 1868-ci ildə K. Marksın "Kapital" əsəri meydana çıxmışdı.

1871-ci ildə Cevonsun "Siyasi iqtisad nəzəriyyəsi" əsəri, 1871-ci ildə Mengerin "Xalq təsərrüfatı haqqında elmin əsasları" və s. dərc olunmuşdu.

Digər tərəfdən, Mill və Rikardonun iqtisadi nəzəriyyədə elmi nüfuzları olduqca böyük idi. Lakin riyazi təfəkkür tərzini iqtisadi dillə izah etmək Marşalın ən böyük arzusu idi və özünün qeyd etdiyi kimi, bu onda 1835-ci ildə dərc olunan Kurnonun "Sərvət nəzəriyyəsinin riyazi prinsipləri" əsərini oxuduğu zaman baş qaldırmışdır.

Rikardonun bir sıra təlimlərini, daha aydın və ümumiləşmiş şəkildə riyazi dilə çevirən Marşall, eyni zamanda meydana çıxan yeni iqtisadi konsepsiyalara, xüsusən alman iqtisadçıları Romerin, Marksın, Lassalın fikirləri onu ciddi elmi axtarışlar etməyə məcbur etmişdi.

O qeyd edirdi ki, sosialistlərin məqsəd qoyduqları insanların qeyri-bərabərliyinin əsası olduğunu xüsusi mülkiyyətin məhv edilməsi probleminin həlli nə qədər çətin olduğunu görə bilməmişlər.

Bu məqsədlə o biznesin praktiki sahələri və zəhmətkeş sinfinin həyatı ilə daha yaxından məşğul olmağa başlamışdır. Xarici ticarətin rolunun tədqiqatına da geniş yer verməyə başlamışdır. Bu istiqamətdə Amerikadakı proteksionist siyasətin mahiyyətini aydınlaşdırmağa cəhd göstərmişdir. Lakin vaxtı ilə tələbəsi olmuş, həyat yoldaşı Meri Peyli ilə "Sənayenin iqtisadiyyatı" əsərini yazması bu işi yarımçıq qoyur.

Marşalın iqtisadi nəzəriyyəsinin meydana gəlməsinə əsas təsiri Milin, Rikardonun, Kurnonun əsərləri olmuşdur. Eyni zamanda Alman iqtisadçısı Roşerin tədqiqat üsulunun da onun iqtisadi fikirlərinin formalaşmasına təsir göstərmişdir.

Marşall qeyd edirdi ki, bizim təbiət haqqındakı təsəvvürlərimiz istər mənəvi, istərsə də maddi sferalarda olsun, sadəcə məcmu kəmiyyətlərə aid etmək olmaz, onlar artan kəmiyyətlərə yönəldilməlidir. Çünki, şeyə olan tələb, daimi funksiya daşıyır. O cümlədən tələbin, "son həddi", sabit müvazinat şəraitində bu şeyin istehsalı onun artan dəyərinə uyğun olaraq bərabərləşir.

downloaded from KitabYurdu.az

Beləliklə, ilk dəfə olaraq o özünün iqtisadi hadisələrin tədqiqində qrafik metodun tətbiqi ideyasını əsaslandırır. Bu dövrdə artıq Cevons, Marşalın olduqca ləng tətbiq etdiyi məvhumları ardıcıl olaraq öz əsərlərində dərc etdirir. Məsələn, faydalılıqla bağlı hədd, son hədd, sonuncu kimi məvhumları qeyd etmək olar.

Lakin, Cevons əgər iqtisadi hadisələrin şərhini zahiri, tələm-tələsik göstərirdisə, lakin, Marşall bu hadisələrin baş verməsi səbəbləri, onların daxili motivləri haqqında düşünürdü.

Nəhayət, qrafik metod vasitəsi ilə iqtisadi ideyalarını şərh edən Marşall, 1890-cı ildə 6 kitabdan ibarət "Ekonomiksin prinsipləri" əsərini dərc etdirir. İlk dəfə olaraq riyazi üsullarla, qrafik metodla iqtisadi nəzəriyyəni praktika ilə əlaqələndirməyə cəhd göstərir. Siyasi iqtisad elminin adını ekonomikslə əvəz etmədən əsaslandırır. Düzdür, belə mövqe onu Cevonsun mövqeyi ilə uyğunlaşdırırdı. Çünki Cevons da siyasi iqtisadı ekonomikslə əvəz etməyi qeyd edirdi.

Nəzəri məsələlərin həllində qrafik metodunun, tətbiqinə xüsusi əhəmiyyət verən Marşall qeyd edirdi ki, belə vəziyyət hadisələrin daha aydın, sadə və mükəmməl mənimsənilməsinə səbəb olar.

Bundan əlavə, tələb və təklifin müvazinatına xüsusi əhəmiyyət verən Marşall göstərirdi ki, onların kəmiyyətlərinin dəyişilməsi qiymət problemindən asılıdır. Qiymətin miqyasının dəyişilməsini isə o iki amillə "son faydalılıqla" və "istehsal xərcləri" ilə əlaqələndirir. "Son faydalılıqla" istehsal xərclərini tələb və təklif vasitəsi ilə birləşdirən Marşall qeyd edirdi ki, belə şəraitdə alıcının verdiyi qiymət, əmtəənin faydalılığından asılı olaraq məhsulun maksimum dəyərini müəyyən edir. İstehlakçının məhsula verdiyi qiymət, əgər onun faydalılığı ilə əlaqədardırsa, lakin istehsalçının satdığı məhsulla qoyduğu qiymət isə istehsal xərcləri ilə əlaqədardır.

Alıcı və satıcıların məhsulların qiymətləndirilməsi ilə bağlı gəldikləri nəticə bazar qiymətini müəyyən edir.

Kembric məktəbinin başçısı hesab olunan Marşall, eyni zamanda iqtisad elminə "tələbin elastikliyi" məvhumunu gətirdi. Tələbin elastikliyini, əmtəələrə olan tələb kəmiyyətinin qiymət səviyyəsindən asılılığı kimi müəyyən edən Marşall, artan mövcud ehtiyac tələbi ilə qiymətin

downloaded from KitabYurdu.az

artmasını və ya ehtiyacın azalma dərəcəsi ilə qiymətin artması arasındakı nisbəti şərh edirdi.

Beləliklə, Kembric məktəbinin nümayəndələri uzun müddət iqtisadi hadisələrin şərhində "tələbin elastikliyi" məvhumundan istifadə etməklə tələbin qiymətin dəyişilməsindən funksional asılılığını əsas götürdülər.

Qeyd etmək lazımdır ki, Kembric universitetində 1868-ci ildə müəllim işləyən 1885-ci ildə "Siyasi iqtisad" kafedrasına başçılıq edən Marşalın iqtisadi ideyaları onun mühazirələrində söylənilirdi. Bu baxımdan onun ideyaları dərc olunmamışdan əvvəl, artıq tələbələr arasında əzbər söylənilirdi.

Yeri gəlmişkən demək lazımdır ki, Marşalın pul nəzəriyyəsi ilə bağlı irəli sürmüş olduğu ideyaları mühazirələrinin məhsulu idi. Pul nəzəriyyəsi ilə bağlı irəli sürmüş olduğu fikirlər 1886-cı ildə ticarətdə və sənayedə böhranla bağlı Kral komissiyasında dərc etdirdiyi məcmudakı verdiyi cavablarda öz əksini tapmışdır.

Marşall kəmiyyətli pul nəzəriyyəsini ümumi dəyər nəzəriyyəsinin tərkib hissəsi kimi formalaşdırdığını göstərirdi. O qeyd edirdi ki, pulun dəyəri, bu bir tərəfdən onun təklif funksiyasıdır, digər tərəfdən ona olan tələb funksiyasıdır və o, əmtəələrin orta ehtiyatları ilə ölçülür.

Marşall göstərirdi ki, iqtisadi tsiklin müşayiət etdiyi qiymət səviyyəsinin tərəddüdü, əhalinin ehtiyatda saxlamaq istədiyi, "sərəncamda olan" həcmin tərəddüdlüyünə uyğun gəlir.

"Real" faiz dərəcəsi ilə "pul" faiz dərəcəsi arasındakı fərqi şərh edən Marşall göstərirdi ki, bu fərq, pulun dəyərini tərəddüd etdiyi şəraitdə kredit tsiklinə uyğun gəlir.

Sonralar bu fikrini ekonomiksin prinsipləri əsərinin 6-cı kitabında ətraflı şərh edir.

Marşalın mühüm ideyalarından biri də kredit sistemində əlavə pul təklifinin qiymətlərə olan təsirinin səbəb əlaqələrinin, eləcə də uçot əlaqələrinin oynadığı rolu göstərməkdir. İlk dəfə olaraq 1887-ci qızıl və gümüş komissiyasına verdiyi göstərişlərdə də tələbələrə oxuduğu mühazirələrdə, daha sonralar 1899-cu ildə Hindistanın pul sistemi komitəsinə verdiyi göstərişlərdə də bu məsələyə toxunmuşdur.

downloaded from KitabYurdu.az

Məhz Marşalın Kembric universitetində oxuduğu mühazirələr onun ilkin iqtisadi ideyalarının məkanı olmuşdur. Bu baxımdan onun ayrı-ayrı iqtisadi fikirləri Kembric məktəbinin formalaşmasına səbəb olmuşdur.

Rikardo nəzəriyyəsinin daha da inkişaf etdirən Maltus xarici ticarətlə bağlı "paritet alıcılıq qabiliyyəti" adlı ideya irəli sürdü. Müqayisəli üstünlükləri prinsipi ilə ölkələr arasındakı xarici ticarət əsaslandırılırdısa, lakin onların valyutadəyişmə kursunun müəyyənləşdirilməsi açıq qalmışdı. Çünki, metal pulların fəaliyyət göstərdiyi şəraitdə xarici ticarətin aparılması çətin deyildi. Lakin, ictimai əmək bölgüsünün dərinləşdiyi, texniki tərəqqinin iqtisadiyyatda aparıcı rol oynadığı bir şəraitdə ölkələr arasındakı mal mübadiləsi dönərli valyuta əsasında aparılmasını tələb edirdi. Bununla əlaqədar Marşallın "paritet alıcılıq qabiliyyəti" nəzəriyyəsində ölkələr arasında qarşılıqlı olaraq qeyri-dönərli valyutaların dəyişilmə kursu müəyyənləşdirildi. O göstərirdi ki, V ölkəsi qeyri dönərli kağız pula malikdir (deyək ki, rubl) hər ölkədə qiymət, pul kütləsinin həcmi ilə onun yerinə yetirdiyi funksiyalar arasındakı nisbətlə müəyyənləşdiriləcək. Rublun qızıldakı qiyməti ticarətin gedişatını müəyyənləşdirəcək. Bu eyni ilə A ölkəsinin qızıl qiyməti ilə V ölkəsinin rubl qiyməti arasındakı nisbəti də təyin edəcək.

Maraqlı fikirlərdən biri də indekslərin "Zəncirvari" metodla tərtib edilməsidir.

Marşalın irəli sürdüyü mühüm ideyalardan biri də qızıl-gümüş standartlarına əsaslanan tədavülə kağız pulların buraxılması məsələsi idi. Bu istiqamətdə də o Rikardonun qənaətli  və möhkəm pulların tədavülə buraxılması fikrinə əsaslanmışdı. Lakin o qeyd edirdi ki, adi bimetalizm hər şəraitdə alternativ metalizm meylini təzahür etdirəcəkdir. Marşall göstərirdi ki, mənim alternativ planımın mahiyyəti ondan ibarətdir ki, sadəcə olaraq qızıl və gümüş külçələri müəyyən çəkidə əridib hazırlasınlar. Tutaq ki, 2000 qramlıq gümüş, 100 qramlıq qızıl külçələr hazırlansın. Belə şəraitdə hökumət hər vaxt həmin külçələrin qeyd olunmuş müəyyən

downloaded from KitabYurdu.az

qiymətdə alınmasına və satılmasına hazır olduğuna təminat verməlidir. Bu planın reallaşmasına hər hansı bir ölkə, başqa bir ölkə ilə razılaşmadan istədiyi vaxt başlaya bilər. Marşalın pul nəzəriyyəsi ilə bağlı fikirləri o qədər tutarlı və sadə görünürdü ki, o heç vaxt onların hər hansının qəbul etməsini təkid etmirdi. Bununla əlaqədar onun pul təklifinin tənzimlənməsi ilə əlaqədar dediyi fikir çox təqdirəlayiqdir. O, qeyd edirdi ki, pul təklifinin, onun sabitliyi məqsədi ilə tənzimlənməsi beynəlxalq deyil, milli olmalıdır.

Öz yaradıcılıq ənənələrinə sadiq qalan Marşall göstərdi ki, iqtisad elmi konkret həqiqətlərin məcmusu olmayıb, o sadəcə konkret həqiqətlərin açılması üçün bir vasitədir.

İqtisadi hadisələrin təhlilinin aparılması üçün bir vasitə kimi nəzərdə tutulması, Kembric məktəbinin inkişafına və onun tədrici müvazinat və ya təkamül nəzəriyyəsi əsasında formalaşmasına şərait yaratmışdır. O qeyd edirdi ki, artıq qarşılıqlı əlaqədə və qarşılıqlı təsirə malik olan iqtisadi hadisələrin səbəbini təmkinlə təhlil etməli və onların müşahidə olunacaq nəticələrini göstərmək lazımdır. 1907-ci ildə "Prinsiplərin" 5-ci nəşri ərəfəsində A.Marşall qeyd edirdi ki, mən, artıq 1885-ci ildə bu əsəri 3 cilddə dərc etdirmək istəyirdim. I. "Sənayenin və ticarətin fəaliyyət göstərməsinin müasir şəraiti"; II. "Kredit və məşğulluq"; III. "Hökumətin iqtisadi funksiyaları".

Lakin buna baxmayaraq bu istiqamətdə "Prinsiplər" əsəri yazılmasa da, o öz ideyasını 77 yaşında ikən 1919-cu ildə nəşr etdirdiyi "Sənaye və ticarət" əsərində qismən də olsa reallaşdıra bilmişdir. Üç kitabdan ibarət olan bu əsərin I kitabı, "Sənayeləşmənin və ticarətin hazırkı problemlərinin bəzi kökləri". Burada sənayeləşmə prosesinin tarixi və onun İngiltərədə, Fransada, Almaniyada və ABŞ-da XIX əsrin ikinci yarısında gedən meyllər və bu istiqamətdə onların liderlik uğrundakı mübarizələri şərh edilir.

"Biznesin təşkilində hakim meyllər" adlandırılan II kitabda biznesin təkamül yolu, onun tarixi şəraiti eləcə də XIX əsrin ikinci yarısında biznesin təşkili ilə bağlı mütərəqqi meyllərin istiqamətləri izah edilmişdir. Əgər I kitabda iqtisadi inkişafın milli miqyasının ölkələr üzrə qısa xülasələri şərh

downloaded from KitabYurdu.az

edilirdisə, II kitabda göstərilən ölkələrin texniki-iqtisadi inkişafının maddi əsasları və imkanları izah edilirdi. III kitab "İnhisarçı meyllər və onların ictimai rifah halı ilə əlaqəsi". Artıq Marşall burada həmin dövrdə inhisarın iqtisadi formaları olan trestə, kartelə, kombinata, eləcə də nəqliyyata aid olan problemlər tədqiq edilmişdir.

Beləliklə də bu əsərində Marşall artıq olduqca çox böyük bir ümumiləşmə edir. Avropada XIX əsrin sonunda formalaşmış kapitalizmin fərdi formasının dəyişilməsi və cəmiyyətin mənafeyinə uyğun gələn formaya qədəm qoyması labüdlüyünü sübut edir.

Beləliklə də Marşall göstərdi ki, iqtisadi davranış və onun nəticəsi, eləcə də biznesin təşkili forması daima dəyişilən istiqamətdə fəaliyyət göstərir.

Əsərin elmi əhəmiyyəti haqqında Keyns göstərirdi ki, bu əsəri oxumağa başlayan kəs heç olmazsa iqtisadiyyat haqqında nəsə bilməlidir.[60] Çünki, əsərdə o qədər müdrik, samballı ideyalar var ki, ondan hər bir tədqiqatçı istənilən çıxış nöqtəsini əldə edə bilər. Məhz bu baxımdan iqtisadiyyatı təzə öyrənməklə onu artıq müəyyən səviyyədə öyrənmiş şəxs üçün Marşalın iqtisadi ideyaları öz əhəmiyyətini əks etdirə bilər.

Nəhayət Marşall 1922-ci ildə 80 yaşında ikən özünün sonuncu iri miqyaslı "Pul, kredit və ticarət" əsərini yazır. Marşall burada pul və xarici ticarət nəzəriyyələri sahəsində əməli töhfəsini verir. Burada pulun xarici ticarətdə əlaqədar aktivliyin dönərliyi, tədavülü şərh edilir və onun cəmiyyət səviyyəsində daşıdığı əhəmiyyət göstərilir.

1924-cü ildə ömrünü başa vuran Marşall "Tərəqqi: onun iqtisadi şərti" adlı əsər yazmaq istəyi ona qismət olmur. Onun "Rifah halı" nəzəriyyəsini, məşğulluq, iqtisadi inkişaf nəzəriyyəsini şagirdləri olan görkəmli iqtisadçı alimlər Piqu və Keyns inkişaf etdirib, onu Marşall zəkası ilə bəhrələnmiş ideyalar ilə zənginləşdirirlər.

## §2. "EKONOMİKSİN PRİNSİPLƏİ" ƏSƏRİ A.MARŞALIN İQTİSADİ NƏZƏRİYYƏSİNİN ƏSASIDIR

[60] Marşallın göstərilən əsəri. I cild. səh. 43.

downloaded from KitabYurdu.az

İqtisadi təfəkkür tərzinin formalaşmasının yeni istiqamətini müəyyən edən Marşall nəzəriyyəsinin ümumi prinsiplərini əhatə edən "Ekonomiksin prinsipləri" əsəri, iqtisadi fikir tarixinin yeni mərhələyə qədəm qoyduğunu əks etdirdi.

"Ekonomiksin prinsipləri" əsəri iqtisad elmi sahəsində uzun illər istifadədə olan Milin "Siyasi iqtisadın əsasları" əsərinə bir növ kölgə salmağa başlamışdır. XIX əsrin sonunda üzə çıxan bu əsər haqqında o qədər müsbət rəylər mövcud idi ki, sözün əsil mənasında Marşall XX əsrdə yeni siyasi iqtisad məktəbinin yaradıcısı kimi qələmə verilirdi. Marşall "Ekonomiksin prinsipləri" əsərində (gələcəkdə bunu "Prinsiplər" əsəri adlandıracağıq) Rikardoya və Cevonsa nəsib olmayan bir məsələ həll edildi. Bu da dəyərin mahiyyətinin müəyyənləşdirilməsində müvafiq olaraq tələbin və istehsal xərclərinin oynadığı rolun üzə çıxarılması ilə bağlıdır.

A. Marşalın sağlığında səkkiz dəfə nəşr olunan "Prinsiplər" əsəri, ona böyük şöhrət qazandırmaqla, klassik məktəbə xas olan ideyaları yeni təfəkkür tərzi ilə təkmil rəqabət şəraitində bazar iqtisadiyyatının fəaliyyət mexanizminə xas olan qanunauyğunluqları üzə çıxardı. Bu qanunauyğunluqlar 3 cilddən ibarət olan 6 kitabda ardıcıl şərh olundu. Xronoloji olaraq, eklektik formada da olsa iqtisadi problemlərin qoyuluşuna diqqət yetirsək, aydın olur ki, müəllif əsas diqqətini tələb, təklif və qiymətlə bağlı fəaliyyət göstərən amillərin qarşılıqlı əlaqəsini tədqiq edir. Əmtəələrin dəyərinin tələb və təklif müvazinatı ilə sıx əlaqədə olduğunu göstərməklə, "son hədd" prinsipi əsasında tələb faydalılıq və istehsal xərcləri nəzəriyyəsini əsaslandırmışdır.

Dörd kitabı əhatə edən birinci cilddə Marşall I kitabın tədqiqat obyekti kimi iqtisad elminin ilkin şərhini verir. O iqtisad elmini, sərvəti və insanın bir hissəsini öyrənən elm olduğunu göstərir. Bəşəriyyətin dini və iqtisadi qüvvələrin tə'siri altında formalaşması tarixini, yoxsulluğun mənşəyi və aradan qaldırılması yollarını tədqiq edir.

Maşınlı sənaye və xarici ticarətin inkişaf etdiyi şəraitdə rəqabətin, sərbəst sahibkarlığın fəaliyyət xüsusiyyətləri və meylləri şərh edilir.

Marşall, iqtisad elminin predmetini, insan fəaliyyətinin kəmiyyətlə müəyyənləşən və pulda ifadə olunan stimul və motivasiya ilə

downloaded from KitabYurdu.az

əlaqələndirərək, ümumiləşmiş nəticələrdə əks olunduğunu qeyd edir. İqtisadiyyatla bağlı ən adi məşğuliyyətində şüurlu seçimlə əlaqədar olduğunu göstərir.

İnsan həyatının yalnız bir sferasını öyrənən iqtisad elminin real vəziyyəti, şəraiti və mühiti əks etdirən bir proses olduğunu qeyd edən Marşall, eyni zamanda bunları iqtisadi ümumiləşmələr və qanunlar əsasında aparır.

İqtisadi qanunların mahiyyətini təbii qanunlar əsasında, xüsusən bioloji qanunlar əsasında şərh edən Marşall göstərirdi ki, onlar təbii qanunlara nisbətən az dəqiq və daha mürəkkəb xarakter daşıyırlar. Birinci kitabın sonuncu fəsli iqtisadi tədqiqatların qayda və məqsədlərinə həsr edilərək göstərilir ki, bütün iqtisadi ümumiləşmələr və ya qanunlar praktiki məsələlərlə daha çox bağlı olmalıdır. Elmin predmeti çərçivəsində aparılan tədqiqatların heç bir stimullaşdırıcı rola malik olmadığı göstərilir.

Bir neçə əsas iqtisadi məvhumların şərhinə və izahına həsr edilmiş ikinci kitabda, yenə də iqtisad elminin, tələbatın ödənilməsi vasitəsi və cəhd göstərməsinin nəticəsi kimi sərvətin öyrəndiyi qeyd edilir.

Ayrı-ayrı əmtəələrin və şeylərin öz xüsusiyyətlərini və tə'yinatını dəyişdiyinə görə onların təsnifatının aparılması çətinliyi diqqət mərkəzinə gətirilir.

İqtisad elminin, gündəlik həyat tərzinin müşahidəsi praktikasına üstünlük verməsi ilə məşğul olmağı tövsiyə edən Marşall, göstərirdi ki, onun tətbiq olunan məvhumları dəqiq müəyyənləşdirilməlidir.

Sərvət anlayışının texniki və maddi tərəflərini göstərən Marşall qeyd edirdi ki, o hər şeydən əvvəl malik olmaq istədiyimiz şeylərdən ibarət olub, insanın birbaşa və ya dolayı tələbatını ödəyir. Lakin hər bir belə şeyi sərvət saymaq olmaz.[61]

İstədiyimiz şeyləri və ya ne'mətləri Marşall maddi və ya şəxsi və qeyri-maddi ne'mətlərə bölürdü. O, göstərirdi ki, maddi ne'mətlər faydalı maddi şeylərdən ibarət olub, onlar sərəncam vermək və istifadə etmək hüququnu onlardan qazanc götürməyi və ya gələcəkdə qazanc əldə etməyi əks etdirir.

---

[61] Бах. А. Маршалл. Принципы Экономической науки. I. М. 1993 с. 112.

downloaded from KitabYurdu.az

Sərvət anlayışı, hər cür şəxsi sərvətlərin daxil olduğundan ona geniş baxan Marşall onda fərdi və kollektiv sərvətin layını müəyyənləşdirmişdir.

Milli və kosmololit sərvəti fərqləndirən Marşall, sərvətə sahib olmanın hüquqi əsasını şərh etmiş, onun dəyər anlayışı ilə sıx əlaqədar olduğunu göstərmişdir. O, Smitin dəyərin mahiyyətinə olan ikinci münasibətini, yə'ni onun hər hansı bir predmetin faydalılığını, bə'zən də onun başqa ne'mətlərin alınması qabiliyyətini əks etdirdiyini misal çəkir. Bununla da dəyərin mahiyyətinə olan öz şəxsi mülahizəsini belə ifadə edir: "... dəyər anlayışı nisbidir, konkret yerdə və konkret vaxtda iki şey arasındakı münasibəti bildirir".[62]

Sərvətin mahiyyətindən sonra Marşall ardıcıl olaraq istehsalı, istehlakı, əməyi, əhalinin yaşayış vasitələrini tədqiq edir. Göstərir ki, insan hər cür maddi şeyləri deyil, ancaq faydalı olanları istehsal və istehlak edir. Məhsularlıq anlayışını da faydalılıq baxımından şərh edərək, qeyd edir ki, "ilkin olaraq onu, istehsal vasitələrini və uzunmüddətli tələbatın mənbələrini əks etdirən anlayış kimi başa düşmək lazımdır".[63]

"Ən zəruri yaşayış vasitələri" ilə məhsuldarlıq anlayışlarını müqayisə edərək Marşall göstərir ki, "Layiqli həyat" şəraitinin yaradılması, müxtəlif iqlim şəraitləri, yaşayış tərzi və adətlərindən asılı olduğundan bir halda yaşayış vasitələrini artıq, digər halda isə çatışmaz edir. Ona görə də məhsuldarlıq işçinin özünün saxlanılması ilə əlaqədar meydana gəlir. Bu baxımdan Marşall qeyd edirdi ki, zəhmətkeşlərin hər cür təbəqəsinin əmək haqqı, onların yüksək əmək məhsuldarlığını tə'min etməlidir. Ən zəruri yaşayış vasitələrini qiymətləndirərkən mövcud yeri və vaxtı nəzərə almaq lazımdır.

Marşall ən böyük elmi xidməti kimi, onun insan həyatı üçün zəruri olan yaşayış vasitələri səviyyəsindən az istehlak etməli, itkilərin törənməsinə səbəb olduğunu göstərməsidir. İstehlak üçün zəruri olan şeylərin ödənilməsindən məhrum olma məhsuldarlığı aşağı salmaqla qənaətə deyil, itkiyə səbəb olur. Bununla yanaşı ən'ənəvi zəruri yaşayış vasitələrinin, yə'ni içki və tütün mə'mulatlarına, dəbdə olan paltarlara,

---

[62] A. Marşall. Göstərilən əsəri. səh. 120.
[63] A.Marşall. Göstərilən əsəri. səh. 129.

downloaded from KitabYurdu.az

modaya üstünlük verilməsi çox yerlərdə onun məhsuldarlıq elementinə çevrilməsinə səbəb olur. Beləliklə, "məhsuldarlıq anlayışını", "ən zəruri", "zəruri", "layiqli" həyat vasitələri prizmasından tədqiq edən Marşall belə qənaətə gəlir ki, onun özü əmək məhsuldarlığının artması ilə bağlı meydana gəlir. Əmək məhsuldarlığının səviyyəsinə tə'minat verən yaşayış vasitələrindən az istehsal etmənin, qənaətə deyil, itkiyə səbəb olduğunu qeyd edən Marşall gəlir və kapital konsepsiyasını əsaslandırır.

Sənaye-ticarət kapitalının inkişafı ilə əlaqədar olaraq pul gəlirlərinin artımını əlaqələndirən Marşall qeyd edir ki, hər hansı bir işlə məşğul olan adam belə nominal gəliri əldə etməsinə qadirdir.

Sahibkarlıq nöqteyi-nəzərincə "xalis gəlir", "faiz", "mənfəət", "xalis qazanc", "idarəetmə gəliri", "saxta renta" kimi anlayışlar şərh edilir.

Kapital anlayışını konkret və ümumi formada şərh edən Marşall göstərirdi ki, birinci şəraitdə ona Smitin göstərdiyi kimi əmlakın o hissəsini aid etmək olar ki, ondan gəlir əldə etmək mümkündür. Lakin, ümumi şəkildə götürdükdə istehsal amillərindən üçündən, torpaq, əmək və kapital kimi milli gəlirin yaradılmasındakı rolu üzə çıxartmaq mümkündür.

İqtisad elmində formalaşan baxışları nəzərə alan Marşall göstərirdi ki, adətən "kapital" və "sərvət" anlayışlarının istər-istəməz sinonim ifadələr kimi işlədilir. Ancaq nəzərə almaq lazımdır ki, kapital anlayışından istehsal amilləri haqqında söhbət edərkən istifadə etmək lazımdır. Sərvət anlayışından isə istehlak predmetləri və şeylərində əks olunan və müəyyən zövqü ödəyən istehsal nəticələri barəsində danışarkən istifadə etmək lazımdır.

III kitab tələbat və onların ödənilməsinə həsr edilmişdir.

Bu kitabın əvvəlki kitablarla olan əlaqəsini şərh edən müəllif, daha ətlaflı şəkildə tələb və təklif məsələlərinə xüsusi diqqət yetirilir.

Tələbat və fəaliyyət arasındakı əlaqəni tədqiq edən Marşall göstərirdi ki, insanın müxtəlif şeylərə olan tələbatının artması onları hüdudsuz edir. Tələbatın artımı eyni zamanda şeyin faydalılığı ilə bağlı olub insanların istəyindən irəli gəlir. Tələbatın hüdüdsuz xarakter daşımasına baxmayaraq, ayrılıqda hər bir tələbatın nisbi mə'nada son həddi var. Bu insan naturasından irəli gələrək şeyin ümumi faydalılığı ilə bağlı olub, onun hər birini ehtiyata çevrilməsi ilə onun faydalılığının aşağı düşməsinə

downloaded from KitabYurdu.az

səbəb olur. Faydalılığın azalması qanununu onun "son hədd" prinsipi ilə əlaqədar olduğunu şərh edən Marşall qeyd edir ki, son faydalılıq, faydalılığın elə kəmiyyətini təşkil edir ki, onun hazırlanması məqsədəuyğun hesab olunur. Beləliklə hər bir adamın, hər hansı şeyin faydalılığının azalması, onun mövcud kəmiyyətindən hər vahid artımı ilə müşahidə olunur.

Faydalılığın azalması qanununu qiymət vasitəsilə izah edən Marşall göstərir ki, hər hansı məhsula, məsələn çaya olan daimi tələb baxımından onun alınması kəmiyyətini izah edir. Qeyd edir ki, alıcının hər funt çay üçün ödəməyə hazır olduğu qiymət, bu onun tələbin son qiymətidir. Beləliklə aydın olur ki, faydalığının azalması qanunu özünü, insanın hər hansı bir şeyi daha çox istifadə etdiyi şəraitdə digər şərtlər daxilində onun az miqdar hər əlavə vahidi üçün ödəməyə hazır olduğu qiymət azalacaqdır. Başqa sözlə ona tələbin son qiyməti azalacaqdır.

Pulun son faydalılığını izah edən Marşall, onun dövlətli adam üçün deyil, kasıb üçün daha çox əhəmiyyət daşıdığını qeyd edir. Bu baxımdan da hər hansı şeyin alınmasına olan həvəsin artması üçün onun böyük faydalılığa malik olması zəruridir. Bu dövlətlilər üçün deyil, kasıblar üçün nəzərdə tutulmalıdır.

Tələb haqqında tam təsəvvürə malik olmaq üçün Marşall qeyd edir ki, müxtəlif qiymətlərə təklif olunan hər hansı əmtəənin alınması üçün alıcının bunlardan hər birini almağa hazır olduğu kəmiyyət vasitəsilə müəyyən etmək olar. Belə şəraitdə tələbin artmasına xüsusi əhəmiyyət vermək lazımdır. Lakin, tələbi bir kəmiyyətlə deyil, qiymət siyahısında insanın almağa hazır olduğu müxtəlif kəmiyyətlər vasitəsilə daha dəqiq izah etmək olar. Beləliklə, əmtəələrin müxtəlif qiymətlərlə müxtəlif kəmiyyətli tələbin formalaşması prosesi və tələb əyrisinin əmələ gəlməsi izah edilir. Fərdi tələbi izah etdikdən sonra o, məcmu tələbi izah edir və bununla da tələb qanununun mahiyyətini şərh edir.

Marşall göstərir ki, tələbin fərdi və məcmu xarakter daşımasından irili-xırdalı bazarların fəaliyyət göstərməsindən asılı olmayaraq bir ümumi tələb qanunu fəaliyyət göstərir. Onun da mahiyyəti ondan ibarətdir ki, nə qədər satılmaq üçün çox məhsul nəzərdə tutulubsa, ona bir o qədər aşağı qiymət qoyulmalıdır ki, o özünə alıcı tapa bilsin.

downloaded from KitabYurdu.az

Əmtəələrin kəmiyyətinə olan tələb onların qiymətinin aşağı olduğu şəraitdə artacaq, qiymətlər yüksəldikcə isə aşağı düşəcək.

Lakin qiymətin aşağı düşməsi ilə tələbin artması arasında eyni qəti nisbəti gözləmək mümkün deyil.[64] Bu meyli xarakter daşıyaraq müxtəlif nisbətlərdə müşahidə oluna bilər.

Eyni zamanda biz görürük ki, fərdin hər hansı bir əmtəəni almaq istəyi, bərabər şəraitdə həmin təklif olunan əmtəənin hər vahid artımı ilə aşağı düşəcəkdir.

Marşall bu prosesi tələbatın elastikliyi adlandırmaqla, eyni zamanda tələbin elastikliyini də müəyyən edir. O qeyd edir ki, ayrıca bir adamın tələbində nə baş verirsə, bu bütün bazarın tələbində də baş verir. Marşall tələbin elastikliyi (cəld reaksiya) ilə bağlı belə ümumiləşmə edir: bazarda tələbin elastiklik dərəcəsi, onun həcmi mövcud qiymətlərin aşağı salınması ilə nə ölçüdə artacaq və yaxud mövcud qiymətlərin artımı ilə o nə qədər azalacaq.

Müxtəlif istehlak növlərinin seçilməsinə həsr edilmiş fəsildə müəllif, cari və gələcək dövr üçün tələbatın ödənilməsi üçün vəsaitlərin bölgüsünü izah edir.

Dəyər və faydalılıq fəslində qiymət və faydalılığın qarşılıqlı əlaqəsi şərh edilir. Eyni zamanda istehlak artıqlığı ilə fərdin tələbi arasındakı əlaqə də izah edilir. Burada istər kasıb, istərsə də dövlətli adamlar üçün eyni istehlak şeylərinin, məsələn, çayın və duzun daşıdığı əhəmiyyət nəzərdə tutulmaqla onların bərabər proporsiyada fəaliyyət göstərdiyi qeyd olunur və burada qiymətin faydalılığın real ölçüsünə çevrilməsi prosesi izah edilir.

Maddi ne'mətlərin insanların rifah halının yaxşılaşmasındakı rolu izah edən müəllif qeyd edir ki, mülkiyyətdən fərqli olaraq varlıların orta təbəqəsini və yoxsulların əldə etdiyi gəlir səviyyələri onların rifahları ilə olan əlaqə bir başadır. Çünki, insanın öz gəlirindən olan tələbatının ödənilməsi, yaşayış vasitələrinə malik olduğu ondan başlanır. Sonradan gəlirinin hər faiz artırılması ilə yaşayış vasitələrinin çoxaldılmasına səbəb olur.

Bu da belə bir tezisi əsaslandırır ki, insanlar yaşadıqlarına görə işləyirlər, lakin işlədiklərinə görə yaşamırlar.

[64] Marşall göstərilən əsəri. I cild. səh.163.

downloaded from KitabYurdu.az

İstehsal amillərinə həsr edilmiş ideyalar demək olar ki, Marşall iqtisadi tə'liminin əsasıdır. Çünki, o burada istehsal amillərinə, torpağa, əməyə, kapitala olan ən'ənəvi klassik baxışla ilk dəfə olaraq o bu amillər cərgəsinə təşkili də daxil etmişdir. Eyni zamanda istehsal amillərinə, özündən əvvəlki baxışlara nisbətən tamamilə fərqli şəkildə yaşamır. O göstərir ki, ümumiyyətlə, istehsalın iki amili mövcuddur: təbiət və insan. Kapital və təşkilat insan fəaliyyətinin nəticəsidir və təbiət vasitəsi ilə həyata keçirilir. İnsanın və təbiətin mövcud qüvvəsi və xüsusiyyəti şəraitində bilik və təşkilati işlər sərvət artımının səbəb və nəticəsi kimi üzə çıxır.

İnsan hər cür şəraitdə istehsal problemlərinin məqsədinə və amilinə çevrilir. Eyni zamanda o, istehlak probleminə də aiddir. Bunlardan irəli gələn problemlər "bölgü və mübadilə" üçün ikili əhəmiyyətə malikdirlər.

Əməyin əsas motivi hər şeydən əvvəl hər hansı maddi qazancı əldə etmək istəyidir. Buna görə də əmək özü özünü mükafatlandırsa da lakin onunla əldə olunan qiymət onun təklifini tənzimləyir.

Torpaq amilinin mahiyyətini şərh edərkən Marşall onun məhsuldarlığına diqqət yetirir və onun mexaniki və kimyəvi üsullarını fərqləndirir. İnsan qabiliyyətinin əksinin xüsusiyyətlərinin dəyişilməsinə qadir olduğu sübut olunur. O qeyd edirdi ki, hər şəraitdə əlavə kapital və əməkdən əldə olunan gəlir gec və ya tez azalır.

Torpağın məhsuldarlığının azalmasını əmək və kapital tətbiqi baxımından izah edir və son e'mal həddinin verimini şərh edir. İzafi məhsulun rentaya olan münasibəti müəyyən edilir. Bu əsasdan da Marşall qeyd edir ki, hər cür məhsuldarlığın ölçüsü, müəyyən məkan və vaxtla uzlaşdırılmalıdır.

Hər cür şəraitdə məhsuldarlıq ölçüsü nisbi xarakter daşıyır.

Əhali artımının tarixi doktorinasını tədqiq edən Marşall əsas diqqətini Maltus nəzəriyyəsinə yetirir. Maltus nəzəriyyəsində texniki tərəqqinin rolunun nəzərə alınmamasını qeyd edən Marşall göstərir ki, bunu heç də ona irad tutmur. Əksinə bu əsasdan kəbin kəsmək və doğum əmsallarını müəyyənləşdirir. İqlim şəraitinin, yaş həddinin, yerli adət-ən'ənələrin əhali sakinliyinə olan tə'siri, eləcə də kənd və şəhər yerlərində

downloaded from KitabYurdu.az

əhali artımı amillərini müəyyən etməklə İngiltərə əhalisinin tarixini tədqiq edir.

Əhalinin sağlamlığı, mövcud yaşayış vasitələrinin səviyyəsi, peşə tərkibi də öyrənilir. Zəiflərdən imtina olunmanın təbiətini şərh edərkən Marşall göstərirdi ki, məhz əhalinin sağlam və güclü hissəsinin artımı üçün geniş məkanın yaradılmaması zəiflərin yaşamasına səbəb olur.

Təhsilin, peşə hazırlığının, əhalinin artımındakı rolu qeyd olunur və onun milli kapitala çevrilməsi istiqaməti göstərilir.

Sərvətin artımını tədqiq edən Marşall qeyd edir ki, kapitalın az tətbiq olunan olduqca bahalı növləri, olduqca gəlirlidir və onların yığıma yönəldilməsi sür'ətlidir. Təhlükəsizliyi əmanətin mühüm şərti hesab edən Marşall, pul iqtisadiyyatının inkişafını tədqiq edir. Pulun artımı sahibkarlıq qabiliyyətinin məhdudluğu əmanət işinin təşkilinə olan diqqətin artmasını qeyd edir. Üstəlik gəlirin kapitaldan əldə olub olmamasından asılı olmayaraq yığım mənbəyi kimi qeyd edən Marşall, eyni zamanda onun dövlət yığımında təşkil etdiyini göstərir. Bu istiqamətdə kooperativ hərəkatının müxtəlif formalarının üstünlüyə malik olduğu da qeyd olunur.

Beş fəsildə ardıcıl olaraq istehsalın təşkili problemi tədqiq edilir. İstehsalın təşkilinin onun səmərəliliyinə və məhsuldarlığına olan tə'siri məsələlərini tədqiq edən Marşall əmək bölgüsünün maşınlı istehsalın əhəmiyyətini qeyd edir.

İstehsalın təşkilində ayrı-ayrı rayonlarda ixtisaslaşdırılmış istehsalın təmərküzləşməsinə üstünlük verilməsini qeyd edir.

İstehsalın təşkili prosesində iri miqyaslı istehsalın xüsusi rol oynadığını qeyd edən Marşall onun mahiyyətini e'mal sənayesinin timsalında izah edir və onun xammal qənaətindəki üstünlükləri göstərilir. Eyni zamanda müxtəlif istiqamətlərdə iri miqyaslı istehsalla firmaların müqayisəsini verir. Onların müxtəlif istiqamətlərindəki fəaliyyətləri tədqiq edilir.

İstehsalın təşkili prosesində müəyyən müəssisənin idarə olunmasına xüsusi üstünlüyün verilməsini qeyd edən Marşall ilk dəfə olaraq onun istehsalın dördüncü amilli kimi qeyd edir.

İstehsalın təşkili ilə idarə olunmasını fərqləndirən Marşall göstərir ki, sahibkarlıq qabiliyyəti əsasən idarəetmə prosesində meydana gəlir.

downloaded from KitabYurdu.az

İstehsalın təşkilindən baş çıxardan, xüsusi fərdi qabiliyyətə malik olub, risk etməyi bacaran biznesmenlərin fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artırılması, xüsusi fəaliyyət növü kimi qiymətləndirilir.

Kapitala sahib olmayıb, ona qabiliyyəti ilə sərəncam verən biznesmenin əldə etdiyi gəlirin miqyasının artırılması mütərəqqi demokratik ölkələrin ən böyük iqtisadi nailiyyəti olduğu qeyd olunur.

İqtisadiyyatda "daimi verimi tə'min etməklə" artmaqda olan "verimə" keçidin tə'min olunması kollektiv məhsuldarlığın yüksək artımının nəticəsi olduğu qeyd olunur.

Marşall V kitabında tələbin, təklifin və dəyərin ümumi münasibətlərin tədqiqinə həsr edir. Bazarlar haqqında mə'lumatla başlanan kitab, onun məkan baxımından həddinin, ölçüsünün, təşkilinin müəyyənlədirilməsinə diqqət yetirir.

Konkret olaraq tələb və təklif arasındakı nisbəti tədqiq edir və onun fərdi səviyyəsini ilkin olaraq müəyyənləşdirən istək və cəhd arasındakı müvazinatı şərh edir. Göstərir ki, təsadüfi barter mal mübadiləsi şəraitində tam müvazinat fəaliyyət göstərmir. Lakin müstəsna hallarda belə proses baş verə bilər və onu  taxıl bazarı timsalında izah edir və göstərir ki, burada müvəqqəti olsa da müvazinata nail olmaq olur. Çünki taxıl bazarında bir qayda olaraq pula olan tələbat geniş şəkildə dəyişmir, lakin əmək bazarında belə dəyişiklik həddindən artıq yüksəkdir.

Normal tələb və təklif şəraitində müvazinatı tədqiq edən Marşall göstərir ki, o tədrici xarakter daşıyır. İstehsal xərclərinin firma səviyyəsində təhlil etməklə onun tədrici müvazinat üçün daşıdığı əhəmiyyət qeyd olunur. İstehsal xərclərinin istehsal amillərinin əvəz olunması ilə əlaqədar dəyişikliklərinin tələb və təklifin tədrici müvazinatına olan tə'siri göstərilir. Təklif şkalası ilə tələb qiyməti arasındakı müvazinatın kəmiyyət müvazinatı və qiymət müvazinatı ilə bağlılığı izah olunur. Bununla əlaqədar qeyd olunur ki, təklif olunan məhsulların qiyməti ilə onların real istehsal xərcləri arasında möhkəm sıxı əlaqə fəaliyyət göstərmir. Ona görə də firma tələb səviyyəsini nəzərə almaqla "vaxtın müddəti ilə" müvazinatın normal vəziyyətini yaratmalıdır.

Faydalılığın dəyərə olan tə'siri qısa müddətli xarakter daşıyırsa, lakin istehsal xərcləri isə vaxtın müddəti ilə bağlıdır.

downloaded from KitabYurdu.az

İnvestisiyanın resursların bölgüsünə olan tə'siri müxtəlif səviyyələrdə ev təsərrüfatı, sahibkarlıq fəaliyyəti, dövlət təsərrüfatı şəraitindəki xüsusiyyətləri göstərir. Bu istiqamətdə son istehsal xərcləri ilə dəyər arasındakı nisbətin öyrənilməsindəki çətinlik izah edilir.

"Əvəz olunmanın" son həddin müvazinat nöqtəsinin tapılması üçün olan əhəmiyyətinin müəyyənləşdirilməsi vacib cəhət kimi qeyd olunur.

Göstərilir ki, məhz əvəz olunma vasitəsi ilə müvazinatı bərpa etmək və ya yaratmaq olar. Əvəz olunma ideyasının təkcə istehlak şeyləri alternativ son həddinə deyil, eyni zamanda onun istehsal amilləri üçün tətbiq olunmasının xüsusi əhəmiyyəti var.

Əsərin V fəslində normal tələb və təklifin müvazinatını uzun və qısa müddət ərzində müəyyənləşdirilməsi ideyası demək olar ki, müvazinat prosesinin fasiləsiz xarakter daşıdığını göstərir.

Nəzərə almaq lazımdır ki, vaxt amillinin bütün iqtisadi problemlərdə roluna diqqətin yetirilməsi olduqca mürəkkəb məsələlərdəndir. Bu problemlə əlaqədar Marşall tədqiqatında ilk dəfə olaraq xarici və daxili, əsas və əlavə istehsal xərcləri arasında fərqin qoyulması ideyasını da irəli sürmüşdür.

Əsərin sonrakı dörd fəslində son istehsal xərclərini tədqiq edən Marşall onun dəyərə olan nisbətini aydınlaşdırır. Burada da son istehsal xərclərinin formalaşmasının ümumi prinsipləri, onun əsas və əlavə hissələrinin məhsulun dəyərinə olan nisbəti eləcə də onun məhsulun tələb və təklifinə olan tə'siri öyrənilir.

Xalis məhsulun mahiyyəti ilə əlaqədar Marşall olduqca tutarlı əsasla qeyd edir ki, əmək haqqı, mənfəət, renta, gəlirin formaları kimi onlar məhsulun həqiqi mahiyyətini əks etdirir. Bununla yanaşı o qeyd edir ki, təbiət elmlərində olduğu kimi, iqtisad elmində də onun elementlərinə xalis şəkildə rast gəlmək mümkün deyildir.

Ona görə də xalis məhsul anlayışı da nisbi xarakter daşıyır.

Renta və diferensial renta arasındakı fərqin və uyğun cəhətləri göstərən Marşall qeyd edir ki, onların gəlir forması kimi mövcud olması hər şəraitdə torpağın məhdudluğu ilə əlaqədardır. Rentanın, pis torpaqların mövcud olması ilə əlaqədar meydana gəlməsini qeyd etməklə yanaşı, eyni zamanda pis torpağın son hədd kimi mövcudluğunu göstərir

downloaded from KitabYurdu.az

və istehsalın pis amillərinin olması, yaxşı amillərdən rentanı artırmır, əksinə onu azaldır.

Kənd təsərrüfatında son istehsal xərclərinin dəyərə olan nisbətini müəyyən etməklə onun mövcud əkin sahələrində və yeni salınan əkin sahələrində kəsb etdiyi xüsusiyyətlər izah edilir. Eyni zamanda belə bir ümumiləşmə edilir ki, müxtəlif məhsuldarlıq səviyyəsinə malik olan torpaq sahələrin mgvcud olması renta ilə törədilir. Lakin istehsal prosesi şəraitində renta, istifadə olunan resursa görə üstəlik dəyər kimi görsənir. Bu da məhsullara olan tələbin artımı və təklif olunan əməyin yüksəlməsi ilə əlaqədardır.

Kənd təsərrüfatında rentanın əmələ gəlməsi ilə şəhərlərdə onların yaranması arasındakı fərqli cəhətləri qeyd edən Marşall burada gedən rəqabət prosesinin xüsusiyyətlərini vergiyə cəlb olunması cəhətləri şərh edir.

Rentanın əmələ gəlməsi, istehsal xərclərinin həddinin müəyyən edilməsi, Marşala normal mənfəətin əldə olunması mexanizmini müəyyən etməyə imkan vermişdir. O qeyd edirdi ki, əmtəənin normal istehsal xərclərinə, onun istehsalı ilə bağlı edilən riskə görə elə haqq daxil edilməlidir ki, o istehsalçının xərcini, itirdiklərini, sə'y və bacarığını əhatə edən mənfəətin yaradılmasına imkan yaratsın. Bu baxımdan müxtəlif maraq dairələrinə uyğun olaraq görəcəkləri hər hansı bir iş üçün (dəmir yollarının su kəmərlərinin və s.) birgə xərc çəkmələrinə səbəb olur. Əsərdə torpaq sahələrinin qiyməti, icarə haqqlarının müəyyən olunması, tikinti işlərinin aparılması və eyni torpaq sahələrində onlarla bağlı rəqabətin aparılması, torpağa olan tələbin formalaşması prosesi də şərh edilir. Maraqlı məsələlərdən biri də normal tələb və təklifin müvazinatı məsələsini, verimin artımı qanunu və maksimum ödəmə prinsipi çərçivəsində şərh olunmasıdır. Burada normal tələb və təklifin daimi azalan və artan verim şəraitindəki xüsusiyyətlərini, vergi səviyyəsini, istehsalın miqyasını, istehsal xərclərinin həcmi təhlil edilir.[65]

İnhisar nəzəriyyəsinə həsr edilmiş V kitabın XIV fəsli inhisarçının məhsulların kəmiyyətindən və müəyyən etdiyi qiymət səviyyəsindən əldə

---

[65] Bax. Marşall-prinsiplər. Əsəri II cild səh. 159-174.

downloaded from KitabYurdu.az

etdiyi qazancla əhalinin aşağı qiymətlərdən əldə etdiyi qazanc müqayisə edilir.

İnhisar şəraitində tələblə təklif tarazlaşdırılır ki, inhisarçı öz məhsulunu xalis gəlir gətirdiyi halda reallaşdırır. Xalis gəlirin tərkibinə normal mənfəət, kapitalın istifadə olunmasına görə faiz və ziyana görə sığorta daxil edilir. Əgər adam özü öz istehsalını idarə edirsə, onda idarə etməyə görə gəlir çox halarda inhisar gəliri formasını alır.

İstehsal olunan əmtəələrin kəmiyyətindən asılı olmayaraq inhisara görə verginin müəyyənləşdirilməsi istehlakın miqyasını ixtisar etmədiyini göstərən Marşall, qeyd edir ki, belə şəraitdə inhisar gəlirinin məbləği dəyişilir.

Ona görə də verginin tətbiqi inhisarçının fəaliyyətinin dəyişdirilməsinə tə'sir göstərir. Hətta əgər bu vergi proporsional olaraq inhisar gəliri ilə tətbiq olunsa da elə ciddi dəyişiklik baş verməyəcəkdir. Lakin, bu vergi istehsal olunan məhsula görə tətbiq olunsa, onda, inhisarçı istehsalının miqyasını dəyişdirməyə məcbur qalacaqdır.

İnhisar qiyməti ilə rəqabət qiymətini müqayisə edən Marşall göstərir ki, əgər inhisarçı istehsalçı, bazara çıxartdığı əmtəənin təklif qiyməti, bu əməyə olan tələb qiyməti ilə uyğun gələrsə, onda o inhisarçı gəlirindən məhrum olar.

Çünki, inhisarçı gəlirinin maksimum səviyyədə tə'min edən əmtəələrin kəmiyyətin həmişə az olur. Onda elə görünə bilər ki, mövcud inhisar şəraitində istehsal olunan əmtəələrin kəmiyyəti həmişə az olur, lakin onun istehlakçı üçün qiyməti, olmadığı şəraitdəkindən yüksəkdir.

İş burasındadır ki, istehsal bir əldə cəmləşdiyi şəraitdə mövcud istehsal xərclərinin məbləği, adətən bir neçə rəqabət aparanlara nisbətən az olur.

Çünki, rəqabət aparanlar öz mövcud mövqeylərini möhkəmlətmək diqqəti cəlb etmək, tamamilə məcmu xərclərini artırmağa məcbur olurlar. Xüsusən müxtəlif növlü reklam xərclərini buna misal çəkmək olar. Lakin iri istehsal da müxtəlif qənaətlərin həyata keçirilməsinə, texnoloji təkmilləşdirməyə, yenilikçiyə nail olmaq imkanlarına malik olurlar.

Əgər dəmir yolu bir inhisarçının əlindədirsə, onda onun xidmətindən istifadə edənlərin ona tələbi artdıqca "inhisar gəlirinin

downloaded from KitabYurdu.az

qiyməti" azalır. Ancaq inhisar prosesi pozularsa, dəmir yolunda rəqabət baş verərsə, belə şəraitdə köhnə dəmir yolu kompaniyası sərnişin daşınmasını aşağı taariflərlə həyata keçirtmək məcburiyyətində qalırlar. Deməli, inhisar xammal prosesi ilkin şəraitdə inhisar gəlirinin artımına, rəqabətin əmələ gəlməsinə səbəb olursa, sonrakı şəraitində inhisar gəlirinin azalmasına və rəqabətin dərinləşməsinə və azalan inhisar gəliri həcmində həmin məhsuldan və xidmətindən istifadə edənlər qazanırlar və onlar daha çox faydalana bilirlər.

Göründüyü kimi Marşall bununla sübut edir ki, inhisar iqtisadi məsələləri həll etmir, əksinə onların praktiki həlli məsələsini qaldırır.[66]

Əsərin sonuncu, XV fəsli tələb və təklif müvazinatı nəzəriyyəsinin ümumi xülasəsinə həsr edilmişdir.

Burada yenidən bazarlar haqqında, tələb və təklifin müvəqqəti və normal müvazinatı barədə, vaxt amilinin rolu ilə əlaqədar xülasələr qeyd edilmişdir.

Marşall "Prinsiplərin" iqtisadi tədqiqatının sonuncu VI kitabı milli gəlirin bölgüsünə həsr edilmişdir.

Bölgü prosesinin, işçilərlə kapital və torpaq sahibləri arasındakı gedişatı vasitəsilə öyrənən Marşall onun fiziokratlar və klassik məktəb nümayəndələri tərəfindən qəbul edilmiş formasına öz münasibətini bildirmişdir.

Gəlirlərin formalaşmasında əsas yer tutan əmək haqqının müəyyən edilməsində konkret iqtisadi şəraitin nəzərə almağın vacibliyini qeyd edən Marşall, artıq ona qədər mövcud olan "əmək haqqının dəmir qanunu" tezisinə həyat səviyyəsinin dəyişilməsi ilə diqqətin verilməsini göstərir.

Bununla əlaqədar maddi ne'mətlərin bölgüsü forması kimi əmək haqqının, Rikardonun, Milin, Maltusun və digər iqtisadçıların bu istiqamətdə göstərdikləri fikirlərin sadəliyini qeyd edən Marşall, göstərir ki, bu məsələ olduqca mürəkkəbdir.

Əməyə və kapitala olan tələbin məhsuldarlıq nöqteyi-nəzərincə tədqiq edən Marşall, belə qənaətə gəlir ki, ilkin bölgü əgər normal əmək

---

[66] Marşall. Göstərilən əsəri. II cild. səh. 183.

downloaded from KitabYurdu.az

məhsuldarlığı ilə əlaqədardırsa, lakin sonrakı törəmə bölgü, əmək məhsuldarlığının yüksəldilməsi ilə əlaqədar olmalıdır. İstehsal amillərinin təklifinə tə'sir göstərən amillərin, eyni zamanda tələbə və bölgüyə də tə'sir göstərir. Bu istiqamətdə də istifadə olunan amillərin hər birinin son həddini və son məhsuldarlığını aydınlaşdırır və o göstərir ki, yalnız belə şəraitdə tələb və təklif arasında dəyişiklik baş verə bilər. Əmək və kapitala olan tələb və təklifin dəyişilməsi, onların tətbiqinin son məhsuldarlığından asılılığı, rəqabət şəraiti ilə bağlı olduğu qeyd olunur.

Marşall belə bir fikirə əsaslanır ki, kapitalın məhsuldarlığı ondan əldə olunan gəlirin ölçüsündən asılıdır.[67] Çünki kapital tətbiqi, insan əməyindən ucuz başa gəlirsə, onda sahibkar işçilərin bir qismini işdən xaric etmək məcburiyyətində qalır və ya əksinə. Ona görə də kapitalın rəqabəti ilə bu ya digər maşının hər hansı bir sahədəki tətbiqi rəqabətini fərqləndirmək lazımdır. Əgər maşın hər hansı konkret əmək növünü əvəz edə bilərsə, lakin kapital ümumiyyətlə əməyi əvəz edə bilməz. Lakin bir formadakı əməyi başqa formadakı əməklə əvəz olunmasına şərait yarada bilər. Bu da qısa müddətə əmək nəticələrinin gözləməsini, uzun müddətli gözləmə ilə əvəz olunmasına səbəb olacaq.

"Milli gəlir" və "milli dividend" anlayışlarını şərh edən Marşall göstərir ki, sonuncunun əhəmiyyəti yeni tələbatların ödənilməsi üçün nəzərdə tutulacaq milli gəlirin bölgüsü üçün əhəmiyyətlidir.

İstehsal və istehlak korrelyasiyasını tədqiq edən Marşall qeyd edir ki, məhsulların iqtisadi tə'yinatından asılı olaraq milin dividend, məcmu xalis məhsulun həcmi ilə uyğun gələ bilər.

Əmək haqqının səviyyəsinin artımını əmək məhsuldarlığının yüksəldilməsi ilə əlaqələndirən Marşall qeyd edirdi ki, bərabər şərait daxilində hər hansı sahədə xalis əmək məhsuldarlığının yüksəldilməsi, digər sahələrdə real əmək haqqının yüksəldilməsinə səbəb olur.[68] Bunu ayaqqabı istehsalı timsalında şərh edir.

Müxtəlif kateqoriyalı işçilər arasındakı münasibətə toxunan Marşall, göstərir ki, idarəetmə qabiliyyəti təklifinin artımı fiziki əməklə məşğul olanların əmək haqqını yüksəldir.

---

[67] Marşall. Göstərilən əsəri. II cild. səh. 223.
[68] Bax. Marşall. Göstərilən əsəri. II cild. səh. 243.

downloaded from KitabYurdu.az

Belə şəraitdə təkmil rəqabətin rolu, bazarın ideal vəziyyəti nəzərə alınmalı, risk etməyin həddi müəyyənləşdirilməlidir.

Kapital və əmək arasındakı rəqabətə toxunan Marşall göstərir ki, onların tətbiqi sferasından asılı olaraq uzun və qısa müddətli gözləmələri arasındakı həddi nəzərə almaq lazımdır. Kapital artımı onun tətbiqinin son istehsal xərclərini azaldır və real əmək haqqını yüksəldir.

Beləliklə də, qeyd olunur ki, işçilərin gəlirlərinin səviyyəsi avans edilmiş kapitalın həcmindən asılıdır.

Kapital və əmək münasibətini əhatə edən bölgü sistemi göstərir ki, onda bu iki amilin qarşılıqlı fəaliyyəti olduqca əhəmiyyətlidir. Çünki kapital tətbiqi sferasını nəzərə almadan əmək tətbiqi haqqında danışmaq əslində bölgü nəzəriyyəsindən uzaqlaşmaq deməkdir. Əməyin enerjisindən, çevikliyindən asılı olaraq kapitalın bol nəticəsi əldə edilir və ondan asılı olaraq əmək nəticələri də qiymətləndirilir. Kapital və əmək arasındakı əməkdaşlığa xüsusi əhəmiyyət verən Marşall göstərdi ki, bu bir növ əyrici ilə toxucunun əməkdaşlığına bənzəyir. Hər birinin çiçəklənməsi, digərinin enerji və gücündən asılıdır. Halbuki, bunların hər biri müvəqqəti, bə'zən də daimi başqasının hesabına milli dividendlərdən bir qədər artıq pay ala bilərlər. Lakin müasir dünyada xüsusi sahibkarlıq vəziyyəti elədir ki, hərənin az bir miqdar əldə etdiyi kapital, ona gözləmək imkanı vermir. Çünki, onlar bu az kapitalla böyük bir sənayeləşmə mexanizminin qarşısında dururlar.

Kapital sahibləri ilə fəhlələrin maraq işləri onlara yaxınlaşır və uzaqlaşır. Ona görə də idarə edənlər həm kapital sahiblərindən həm də fəhlələrdən möhkəm yapışıb, kapitalın və əmək haqqının artırılması və öz sahibkar mənfəətlərinin yüksəldilməsi uğrunda əzmlə çalışırlar.

Bu istiqamətdə əməyə görə gəlir, kapitala görə faiz və mənfəət, sahibkarlıq qabiliyyətinə görə mənfəət, torpaq rentası, torpaqdan istifadə etmə ətraflı şəkildə tədqiq edilir.

Əvvəlki səkkiz fəslin qısa xülasəsini şərh etməklə Marşall bölgüyə bir daha ümumi səpkidə yanaşır.

Bölgü sistemində və onun tənzimlənməsində istehsalın müxtəlif maddi və insan amillərinin rolunun nəzərə alınması, onların qarşılıqlı tə'sirə mə'ruz qalmasının diqqət mərkəzində saxlanılması zərurəti qeyd

downloaded from KitabYurdu.az

olunur. Beləliklə də kapitalın necə artması hesabına, iş qüvvəsindən nə cür istifadə etmək imkanları haqqında problemin diqqət mərkəzində saxlanılması, onların əmək məhsuldarlıqlarının yüksəldilməsi göstərilir. Son hədd məhsulunun müəyyən edilməsi, işçilərin işlə tə'min olunması, son məhsuldarlığın nəzərə alınması bölgü prosesi üçün vacibliyi şərh edilir.

Kapitalın və əməyin tətbiqinin miqyası əsasında ümumi tərəqqinin müəyyən olunması, onun milli gəlirin səviyyəsinə tə'siri tədqiq olunur. Xarici ticarətin, emal sənayesinin inkişafı kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı əmək məsrəflərinin azaldılması tərəqqinin həm səbəbi, həm də nəticəsi kimi qeyd olunur.

Tərəqqi ilə həyat səviyyəsi arasındakı əlaqəni göstərən Marşall "Ümumi qaydalar" əsasında milli gəlirin əldə olunmasına və bölgüsünü şərh edir və sosial tərəqqinin istiqamətlərini izah edir.

VI kitab Azad sənayenin və sahibkarlığın artımı, iqtisad elminin inkişafı, iqtisad elminin predmeti və metodu, iqtisad elmində abstrakt düşüncələrdən istifadə, kapitalın mahiyyəti, barter ticarəti və s. əlavələrlə yekunlaşır.

## §3. C.KLARK - NEOKLASSİK NƏZƏRİYYƏNİN AMERİKAN MƏKTƏBİNİN BANİSİDİR

Neoklassik iqtisadi nəzəriyyənin formalaşmasında Amerikan məktəbinin xüsusi rolu olmuşdur. Onun yaradıcısı Con Beyts Klark (1847-1938) hesab olunur. O, ABŞ-nın Rod-Aylend ştatının Providens şəhərində anadan olmuşdur. ABŞ-ın Amhert kollecini bitirdikdən sonra ali təhsilini Avropa Universitetlərində almışdır. Əvvəlcə Almaniyanın Heydelberq Universitetində, sonra isə İsveçrənin Surix Universitetində təhsil almışdır. Özünün iqtisadi baxışlarının formalaşmasında Heydelberqdə təhsil aldığı vaxt ona dərs demiş alman Karl Knisin böyük tə'siri olduğunu qeyd etmişdir.

ABŞ-a qayıdandan sonra əsasən müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. 1872-1895-ci illər ərzində amerikanın bir sıra kolleclərində iqtisadiyyat professoru kimi fəaliyyət göstərmişdir. Onun tələbələri

downloaded from KitabYurdu.az

sırasında sonralar ABŞ-da çox sanballı iqtisadçı hesab olunan T.Veblendə olmuşdur. 1895-1923-cü illər ərzində Kolumbiya Universitetində dərs demişdir.

İqtisad elminə olan böyük məhəbbəti və istəyi onun Amerikada iqtisadçılar assosiasiyasının yaradılması ideyasına gətirib çıxardı. Göstərmək lazımdır ki, bu assosiasiyanın fəaliyyəti ABŞ-da iqtisad elminin nəzəri, həm də praktiki istiqamətdə inkişaf etməsinə səbəb olur. C.Klark 1893-1895-ci illər ərzində Amerika iqtisadçılar assosiasiyasının prezidenti kimi fəaliyyət göstərir.

Əgər XIX əsrin sonunda İngiltərədə ən görkəmli iqtisadçı A.Marşall hesab olunurdusa, ABŞ-da da öz iqtisadi baxışlarına görə C.Klark hesab olunurdu. Lakin Klarkın öz Avropalı həmkarından fərqi ondan ibarət idi ki, o iqtisadi hadisələri kompleks və sistemli şəkildə deyil, konkret şəkildə öyrənməyə üstünlük verirdi. Bununla əlaqədar olaraq o öz ideyalarını bölgü vasitəsi ilə şərh etməyə üstünlük vermişdir.

Beləliklə, Klarkın özünün iki əsərini "Sərvətin fəlsəfəsi" (1886) və "Sərvətin bölgüsü" (1889) yaradır.

"Sərvətin bölgüsü" Klarkın iqtisadi baxışlarının tərənnüm edən əsas əsər kimi ona dünya şöhrəti gətirir. Ona həm ABŞ-da həm də Avropada şöhrət gətirən bu əsər keçmiş SSRİ-də 1934-cü ildə və Rusiyada 1992-ci ildə nəşr edilmşdir.

C.Klark "Sərvətin bölgüsü" əsərinin məqsədi kimi göstərir ki, "İctimai gəlirin bölgüsü" ictimai qanunlarla tənzimlənir. Əgər bu qanun heç bir maneəyə rast gəlməzsə, onda hər bir istehsal amilinə yaratmış olduğu sərvət məbləğini verərdi.

XXVI fəsildən ibarət olan bu əsər öz strukturu e'tibarı ilə olduqca spesifikdir. Onun spesifikliyi onunla müəyyən olunur ki, əvvəla əsərin ilk iki fəslində demək olar ki, bütün iqtisadi ideyaların yığcam xülasəsi verilir. İkincisi, hər bir elmi xülasə faktlarla, şərhlərlə, ilyustrativ materiallarla əsaslandırılır. Üçüncüsü, müəllif elmi diskussiya girməyəcəyini qeyd etsə də, lakin özü olduqca tutarlı disskussiya üçün material vermişdir.

Əsərin təhlilinə keçməzdən əvvəl göstərməliyik ki, Klark öz iqtisadi baxışlarını, sonralar yazmış olduğu "Əmək haqqının elmi qanunun

downloaded from KitabYurdu.az

qurulmasının mümkünlüyü" (1899), "İnhisarlar problemi" (1901), "İqtisadi nəzəriyyənin mahiyyəti" (1907) əsərlərində daha da inkişaf etdirmişdir.

Klarkın elmi müddəalarının "Sərvətin bölgüsü" əsərində daha ümumiləşdirilmiş şəkildə verildiyindən Amerikan iqtisadi məktəbinin metoloji mənbəyi öz başlanğıcını məhz bu əsərdən götürmüşdür.

Klarkın konsepsiyasına görə ictimai gəlirlər "təbii qanunlarla" tənzimləndiyindən, hər bir sosial qrup, ədalətlilik prinsipinə görə pay almaq imkanına malik olur.

Klark göstərir ki, cəmiyyətin illik gəliri üç mühüm hissəyə ayrılır. 1) Əmək haqqının ümumi məbləğinə, 2) Faizin ümumi məbləğinə, 3) Məcmu mənfəət məbləğinə.

Müvafiq olaraq bu gəlirlər əməyi, kapitalı və istehsalı təşkil edənlərin sərəncamına keçir. Klark mənfəətin gəlir növü kimi mahiyyətini həm kapitalist, həm də sahibkar baxımından çox incəliklə fərqləndirir. O göstərir ki, mənfəət kapitalistə, sahibkarın sərəncam və istifadəsinə vermiş olduğu maşın və avadanlıqlarına görə, sahibkara isə istehsal amillərinin birləşdirilməsi qabiliyyətinə görə, istehsala yenilik gətirmək və təşkilatçılığına görə çatır. Mənfəətin sahibkarlara çatacaq səviyyəsinin rolunu, Klark xüsusi qeyd edir və göstərir ki, məhz onun dərəcəsi istehsal amillərinin qarşılıqlı əlaqəsinin səmərəliliyini əks etdirir. Klarkın hər istehsal amilinə görə məhsuldan müvafiq pay əldə etmək me'yarını faydalılığın azalmasında görür. Faydalılığın azalmasını istehsal amilləri üzrə tədqiq edən müəllif belə qənaətə gəlir ki, bazar sistemi üçün istehlakçının mövqeyi nəzəriyyəsindən, istehlakçı tələbi nəzəriyyəsindən daha çox istehsal amillərinin seçilməsi nəzəriyyəsi daha çox əhəmiyyət daşıyır. İstehsal amillərinin seçilməsi həm məhsulların faydalılıq həddini, həm də son məhsuldarlıq həddini müəyyən etmək olar. Beləliklə də, hər bir sahibkar elə tətbiq olunacaq amillər qrupunu tapmağa çalışmaq istəyir ki, onların vasitəsi ilə minimum xərclə maksimum gəlir əldə etmək mümkün olsun.

Klark göstərirdi ki, əmək haqqının bazar səviyyəsi mövcuddur və o "təbii qanunla müəyyən edilir. Onun məbləğinin sahibkardan istər bicliklə, istərsə də tərsliklə əldə etmək imkanı" məhsuldarlıq səviyyəsinə görə məhduddur. Məhsuldarlıq isə tətbiq olunan amillərin kəmiyyətindən

downloaded from KitabYurdu.az

asılıdır. Burada da istifadə olunan hal vahid amillər son məhsuldarlığı müəyyən edici rol oynayır.

Konkret misal əsasında Klark bunu belə izah edir. İki amil götürülür. Əgər bu amillərin biri dəyişilməz qəbul olunsa, onda digər tətbiq olunan amilin kəmiyyətinin artımı ilə az gəlir gətirəcək. Bu əmək və kapital amili vasitəsi ilə izah olunur. Əmək onun sahibinə əmək haqqı, kapital isə mənfəət gətirir. Əgər dəyişilməz kpitalla əlavə işçi tutulursa, onda gəlir işçilərin sayına görə proporsional artmayır. Çünki, hər sonra tutulan işçinin məhsuldarlığı aşağı düşəcəkdir. Sonuncu və ya əlavə tutulan işçinin məhsulu aşağı məhsuldarlıq kimi əmək haqqının kəmiyyətini müəyyən edəcəkdir. Bu yalnız sonuncu işçi deyil, bütün digər işçilərə də şamil olunacaq. Belə analoji təhlil axırıcı buğda kisəsinin son faydalılığı ilə bağlı da aparılır. Burada vacib olan bir cəhəti nəzərə almaq lazımdır ki, əgər bir fəhlə eyni vaxtda bir deyil, bir neçə dəzgaha, məsələn, 3 dəzgaha xidmət göstərirsə, bu o demək deyil ki, məhsuldarlıq əvvəlki dəzkahda olduğu səviyyədə artacaq. Yaxud avtomobil mühərrikinin gücü iki dəfə artırılarsa, bu o demək deyil ki, qət olunan məsafəyə iki dəfə tez çatılacaq. Burada məsafəni tez qət etmək olar, lakin mühərrikin gücünün iki dəfə artımından asılı olaraq, ora iki dəfə tez çatmaq olar.

Klarkın konsepsiyasına görə əmək haqqı sonuncu əməyin məhsulu ilə uzlaşır. Muzdla tutulan işçilərin də həddi, sahibkar üçün onun gəlir gətirmə səviyyəsi ilə müəyyən olunur. Restoranda 30 xidmətçi çalışa bilər, lakin 36 nəfərlə xidmət daha tez gedə bilər. Əlavə 6 işçi restoranda xidmət səviyyəsini yüksəldirsə, lakin onun sahibinə heç bir əlavə gəlir gətirmir. Belə şəraitdə ümumi əmək haqqı fondu, sonuncu məhsul kimi çıxış edir. Əmək haqqının işçilərin sayına olan hasili, gəlir səviyyəsini müəyyən edir. Əmək haqqı fondu ilə yaradılmış məhsulun və ya əldə edilmiş gəlirin fərqi, sahibkar gəlirinin həddini müəyyən edir. Deməli, işçilərin sayının hər dəfə artımı, sahibkarın əldə edəcəyi payın azalmasına səbəb olacaqdır.

Beləliklə, sonuncu işçi öz əməyinin tam məhsulunu əldə edir. Sahibkarlın mövqeyi baxımından isə əlavə işçinin tutulması, əlavə gəlir gətirməyərək, eyni zamanda heç bir ziyan vermədən "təfavütsüz zonasına" daxil olur. Əlavə işçinin tutulması o vaxta qədər davam edir ki, əməyin son məhsulu "normal" əmək haqqı səviyyəsi ilə bərabərləşir.

downloaded from KitabYurdu.az

Bunu Klark gəlirin əmələ gəlmə sxemi vasitəsi ilə izah edir.




Burada SD=EA bərabər olması son məhsulun normal əmək haqqı səviyyəsinə bərabər olduğu zonası əks etdirir. Bu bərabərlikdən yuxarı hissə sahibkarlığın gəlir faizinin həddini normal səviyyəyə qədər həddinin dəyişilməsi mümkünlüyünü əks etdirirsə, aşağı hissə isə son faydalılıq həddinin aşağı düşməsini əks etdirir.

Əməyin məhsulu Klarka görə o vaxt işçiyə tam çata bilər ki, eyni zamanda o həm işçi olsun, həm də kapitalist. Lakin işçi və kapitalist müxtəlif simalardır. Ona görə də əmək haqqının mənşəyi e'tibarilə nə qədər əməyə məxsus olduğunu müəyyən etmək qeyri mümkündür. Belə şəraitdə məhsulun əldə olunmasına kömək göstərmiş maşın və avadanlıqlar, orada çalışanlara məxsus olacaqdır. Klarkın ideyasına görə əmək haqqının səviyyəsini rəqabət bərabərləşdirir. Bazar qiymətləri "daimi standartlar" ətrafında tərəddüd edir. Müxtəlif ixtisas sahiblərinin əmək haqqı səviyyəsindəki fərqlər kəskin ola bilər. Məsələn, cərrahın bir saatlıq əmək haqqı, sürücünün və ya dərzinin bir aylıq əmək haqqına bərabər ola bilər. Lakin kəskin fərqlənməni yalnız rəqabət əsaslandıra bilər.

Faizin mənşəyi ilə əlaqədar Klark analoji olaraq belə misallardan istifad edir. O, göstərir ki, əgər işçilərin sayı dəyişilməz qəbul olunarsa, onda əsas kapitalın (dəzkahların sayı) sayının artımı ilə, tətbiq olunan kapitalın məhsuldarlığının azalmasına uyğun olaraq aşağı düşəcək. Kapital sahibi, "sonuncu vahid"in gəlirinə uyğun olaraq öz gəlir payını və ya faizini əldə edəcək.

downloaded from KitabYurdu.az

Bununla belə Klark gəlirlərin bölgüsünün həm mikro, həm də makro səviyyədə aparılmasını fərqləndirir. Belə fərqləndirmə yolu ilə bölgü vasitəsi ilə sosial nəticələri əsaslandırır. Bununla da Klark sübut edir ki, əməyin heç bir istismarı mövcud deyildir. Əgər işçinin əmək haqqı, sonuncu işçinin minimum məhsuluna bərabərdirsə, onda işçilərin artımı səviyyəsində onun səviyyəsi obyektiv olaraq aşağı düşməlidir. Mənfəət isə "dinamik vəziyyətə" uyğun olaraq, yə'ni sahibkarın istehsalın yenilikçisi kimi fəaliyyət göstərdiyindən arta bilər. Yeniləşmə prosesi, mənfəətin səviyyəsinin qorunmasına görə sür'ətlə gedə bilər. Belə sür'ətli proses istehsal amillərinin məhsuldarlıq səviyyəsinin dəyişilməsinə uyğun olaraq seçilməsini zərərləşdirir. Məhsuldarlıq həddi, gəlirlərin bölgüsündə əsas və müəyyənedici amilə çevrilir. Bununla da məhsuldarlıq həddi elmi nəzəriyyəyə çevrilir.

Son məhsuldarlıq nəzəriyyəsi istehsal amillərinə qiymətin əmələ gəlməsini əks etdirir. Hər amilə olan qiymət, onlara olan tələbə uyğun olaraq formalaşır. Belə formalaşma prosesi Klarka, bütün istehsal amillərinin eyni mənşəli olma fikrinə gətirir. O, belə hesab edir ki, hər bir amil məhsulun istehsalında və yaradılmasında səmərəli funksiyasına uyğun olaraq öz gəlirini və ya öz payını əldə edir.

Klarkın məhsuldarlıq həddi konsepsiyasının xüsusiyyəti ondan ibarətdir ki, bölgü nəzəriyyəsi istehsal amillərinin məsrəfinə, qoyuluşuna görə deyil, hər amildən alınan nəticəyə görə formalaşır.

C.Klark iddia edirdi ki, cəmiyyətin bu formada mövcudluğu və bu cür yaşamaq ehtimalı mübahisəlidir. Çünki, cəmiyyətin üzərində bir ittiham dolanmaqdadır. Bu ittiham ondan ibarətdir ki, əmək istismar olunur. Əgər bu ittiham sübut olunsa idi, onda hər bir vicdanlı insan sosialist olmalı idi. Hər bir əsl iqtisadçının borcu bu ittihamı yoxlamaqdır. Ona görə də C.Klark bütün gücünü kapitalizmin sosial ədalət prinsipini sübut etməyə sərf etmişdir.

Bu məqsədlə Klark tədqiqatın özünəməxsus metodunu seçmişdir. O, iqtisad elmini 3 (üç) bölməyə ayırmışdır.

Birinci bölmə "universal qanunların" axtarışına həsr olunmuşdur. Təcrid olunmuş təsərrüfatı və istehsakçıların psixologiyasını tədqiq edərək, Klark üç "universal qanun" kəşf edir.

downloaded from KitabYurdu.az

1). Faydalılıq həddi qanunu.

2). Spesifik məhsuldarlıq qanunu.

3). Məhsuldarlıq azalması qanunu.

İqtisad elminin ikinci bölməsini o, iqtisadiyyatın statik vəziyyətindəki təhlilinə, üçkünc bölməni isə onun dinamikasının qanunlarının öyrənilməsinə həsr etmişdir.

Klarkın iqtisadi baxışları sisteminə xas olan daxili zəiflik, onun statika və dinamika haqqında tə'limində əyani olaraq əks olunmuşdur. Bu tə'limi siyasi iqtisada o, nəzəri mexanikadan gətirmişdir. Burada ön plana o, statika problemlərini qoyur, və iqtisadi qanunları "müvazinat qanunları" şəklində təsvir edirdi. İnkişaf prosesini o müvazinatın bir səviyyədən digər səviyyəyə keçməsi kimi təqdim edir, bütün dəyişiklikləri ancaq kəmiyyət dəyişikliklərinə aid edirdi.

İqtisadi dinamikanı şərh edən Klark göstərir ki, belə şərait müvazinatın pozulmasının əsas səbəbidir. Məhz belə vəziyyətdə müvazinatın bir vəziyyətdən digər vəziyyətə keçməsi baş verir. Müvazinatın pozulmasının əsas səbəbini Klark sahələr arasındakı disproporsiya ilə tələb və təklif arasındakı uyğunsuzluqla əlaqələndirirdi. Bununla yanaşı o, müvazinatın pozulmasına xarici təsadüfi amillərin də tə'sir göstərdiyini qeyd edirdi.

Müvazinatın pozulması səbəblərini, eləcə də onun bərpa olunması imkanlarını siyasi iqtisadın statik qanunlarında görən Klark göstərirdi ki, dinamika statik vəziyyətin davamıdır. Beləliklə də, o göstərirdi ki, müvazinatın statik vəziyyətdə baş verməsi səbəblərini izah etməkdən ötəri, mütləq iqtisadi dinamikanı təhlil etmək lazımdır. Beləliklə də, Klark göstərirdi ki, müvazinatın dolğun şərhi, onun iqtisadiyyatda gedən inkişaf prosesləri ilə əlaqədar öyrənilməsi ilə bağlıdır.

Bir cəhəti də xüsusi qeyd etmək lazımdır ki, Klark müvazinat prosesinin şərhində J.B.Seyin istehsal amilləri nəzəriyyəsindən istifadə etmiş, onların sərvətinin artımındakı rolunu göstərmişdir.

Eyni texnoloji proseslərə, eyni akt və materiallara əsaslanan və eyni məhsul növü buraxan istehsalda heç vaxt əldə olunan ne'mətlərin kəmiyyətini nə artırmaq olar, nə də ki, azaltmaq olar. Eyni ilə bu proses əgər torpaq sahələrinə, yaxud da fabriklərə şamil edilirsə, belə şəraitdə

downloaded from KitabYurdu.az

istehsalın sosial-statik vəziyyəti dəyişməz qalır. Çünki, məhsuldar orqanizm öz formasını dəyişməz saxlayır. Ona görə də sərvətin artımında, mövcud istehsal şəraitində, mövcud texniki səviyyədə tətbiq olunan əməyin kəmiyyətində mütləq dəyişikliklər etmək lazımdır. Çünki, bir-birindən asılı olan e'mal və hasil sahələri, eləcə də tələb və təklif eyni bərabərlikdə fəaliyyət göstərmir.

Əslində statik vəziyyətdə hərəkətin qapalı sistemi müşahidə olunur. Burada müvazinatlı və iqtisadiyyatın sabit prosesi əks olunur. Lakin iqtisadiyyatın müvazinatlı və sabit prosesi böyük iqtisadi dinamik güclə rastlaşır ki, bu da onun miqyasının dəyişməsinə səbəb olur. Klark iqtisadi dinamikanın olduqca tə'sirli gücünü görərək, çox uzaqgörənliklə qeyd etmişdir ki, "dünyanın normal sərvəti və əmək haqqının təbbi səviyyəsi, indikindən 2000-ci ildə qat-qat yüksək olacaqdır". Bunun da başlıca səbəbini Klark iqtisadiyyatı qeyri-sabit vəziyyətə gətirən dinamik şəraitlə əlaqələndirirdi. Dinamik şəraiti formalaşdıran beş amil qrupunu Klark xüsusi qeyd edərək göstərdi ki, məhz belə halda cəmiyyət dinamik vəziyyəti alır və ilkin olaraq mövcud sosial strukturaya tə'sir göstərir. Dinamik şəritin amillərini Klark belə göstərirdi: birincisi, əhalinin artımı, ikincisi, kapitalın artımı, üçüncüsü, istehsal metodlarının yaxşılaşdırılması, dördüncüsü, sənaye müəssisələrinin formalarının dəyişilməsi, beşincisi, daha məhsuldar müəssisələrin köhnə və az məhsuldarlı müəssisələrə nisbətən yaşaması.

Bu amillərin hər biri cəmiyyətin dinamik inkişafının əsas səbəbi olmaqla, onun statik vəziyyətindən çıxmasının başlıca istiqaməti kimi qiymətləndirirdi.

Rikardonun və onun davamçılarının statik dünya yaradılması ideyalarını, düşünülməmiş cəhd kimi qeyd edən Klark göstərirdi ki, XX əsrin axırlarında insanlar cəmiyyətin dinamik vəziyyətə gətirən amillərin rolunu dəqiq və doğru dərk edib, qiymətləndirə biləcəklər. Belə şəraitdə "iqtisadi dinamikanın xalis nəzəriyyəsi" meydana gələcək və hər cür dəyişikliklərə mə'ruz qalan amillərin keyfiyyət halı özünü əks etdirəcəkdir.

"Universal qanunlar" axtarışında Klark robinzon metoduna üz tutaraq inandırmağa çalışırdı ki, guya hətta ibtidai insan belə kapitalla əməliyyatlar həyata keçirməlidir. Doğrudur burada o, "sosial kapitalı"

downloaded from KitabYurdu.az

nəzərdə tuturdu. İctimai istehsalı o, ayrıca firma təkin bir orqanizma bənzədirdi. Müafiq olaraq, ictimai istehsalda tətbiq olunan kapital "sosial kapital" termini adı altında bütöv bir tam (vahid) şəklində nəzərdən keçirilirdi.

Qiymət nəzəriyyəsinin əsasına Klark "məhsuldarlıq həddi qanunu" qoymuşdur ki, bu da Avstriya məktəbinin tərtib etdiyi faydalılıq həddi nəzəriyyəsinin dəyişdirilmiş variantından başqa bir şey deyildir. Klark nə kimi yenilik təklif edirdi.

Klark subyektivçilikdən yaxa qurtarmaq üçün təklif edirdi ki, ne'mətin iqtisadi faydalılığını "avstriyalılar" və Marşall yazdığı kimi fərdlər deyil, alıcılar qrupu müəyyən etməlidir. Bundan başqa qeyd olunurdu ki, əmtəənin qiymətliliyi onun ayrı-ayrı xüsusiyyətlərinin faydalılıqlarının cəminə bərabərdir, çünki qiymətin müəyyən olunması zamanı bütövlükdə əmtəənin faydalılığı deyil, onu təşkil edən hissələrin faydalılığı nəzərə alınır, belə ki, hər bir əmtəə özündə müxtəlif faydalılıqların nümunəsini əks etdirir. Beləliklə, Klark alıcılar qrupunu və hər əmtəədəki rəngarəng faydalılığı xüsusilə ayırd edirdi. Öz müddəalarını əsaslandırmaq üçün o, müxtəlif əmtəələrə qiymətlərin qoyulması misalları gətirmişdir. Belə ki, yaxta çoxsaylı faydalılığa malik olan bir əmtəə kimi nümayiş etdirilirdi. Bunlardan birincisi, insanı suda saxlamaq qabiliyyətinə malik olan quru ağacın faydalılığıdır; ikincisi, taxta parçasının köməyi ilə insanın suda hərəkətini mümkün edir; üçüncüsü, insanın quru qalmasına kömək edir; dördüncüsü, yelkəslərin köməyi cəld və təhlükəsiz hərəkəti tə'min edir; beşincisi, insanın estetik zövqünü və tələbatlarını ödəyir. Burdan belə nəticə alınır ki, bu beş xassənin cəmi, özlüyündə qayığın malik olduğu "faydalılıqlar bağlaması"nı əks etdirir. Klarkın fikrincə, qiymətin ayrı-ayrı fərdlər tərəfindən deyil, alıcılar qrupu tərəfindən müəyyən olunması səbəbindən beş faydalılığın hər biri müəyyən qrup alıcılar üçün "son həddə" malik olacaq. Belə ki, bə'zi qrup alıcılar var ki, yalnız quru ağacı, digərləri odun parçasını, üçüncülər yelkənli qayığı və s. alacaqdır. Yalnız beşinci qrup alıcılar özgələrinə görə bütün qayğı ala bilərlər. Əgər əvvəlki qrup alıcılar almasaydı, yaxtanın hər bir "faydalılıq bağlaması"nın qiymətini bir alıcı ödəsəydi, onda o, 1000 dollar xərcləməli olardı. 1500 dollar quru ağac üçün, 300 odun parçası üçün, 100 dollar - üçüncü

downloaded from KitabYurdu.az

faydalılıq üçün, 75 dollar - yelkənli qayığın keyfiyyəti üçün və yalnız 25 dollar - yaxtanın komfortuna görə, çünki, estetik tələbat burada ən az faydalılığa malikdir. Bu, guya ki, ona görə baş verir ki, quru ağacın son faydalılığı suyun üzərində qalmaq istəyən alıcılar tərəfindən yalnız 5 dollarlıq qiymətləndirilir. Odun parçasının son faydalılığı üçüncünün 15 dollar ... və nəhayət yaxtanın son faydalılığı, əvvəlki kimi, 25 dollardır. Bütün bu qiymətlərin cəmi yaxtanın ictimai qiymətini verir (75 dollar).

Klark "faydalılıq həddi nəzəriyyəsini təbliğ etməklə yanaşı, özünün "sosial faydalılıq" nəzəriyyəsini yaratmışdır ki, bu nəzəriyyəyə görə, insanın tələbatının ödənilməsi bu tələbatın vacibliyindən irəli gəlir. Onun fikrincə, ədalətlilik prnsipi cəmiyyətin ictimai gəlirinin düzgün bölüşdürülməsindən asılıdır. O, belə hesab edir ki, "hər kəsə öz yaratdığını vermək" ədalətlilik prinsipinin qanuni ifadəsidir. Klark ictimai gəlir bölgüsünün təbiət qanunu əsasında idarə edilməsini iddia edərək, göstərir ki, bölgü istehsal amillərinin (əmək, kapital və torpaq) rolu əsasında həyata keçirilir, nəticə də ictimai gəlirin bölgüsündə fəhlə öz əməyinin yaradılmış məhsulu, kapitalist isə kapitalının "məhsulunu" almış olur. Klarka görə, ictimai gəlirin bölgü prinsipi bilavasitə istehsal amillərinin yə'ni əməyin kapitalın və torpağın fəaliyyəti nəticəsində meydana çıxan və alınan payın kəmiyyəti də istehsal amillərinin "məhsuldarlıq həddinə" uyğun olur.

Klark cəmiyyətin iqtisadi qanunlarını öyrənən siyasi iqtisadi təbiət qanunlarının fəaliyyəti ilə, o cümlədən "torpaq məhsuldarlığının azalması" qanunu ilə əlaqələndirməyə çalışırdı. O, bu qanunu yalnız torpağa aid etməyib həm də əməyin və kapitalın məhsuldarlığının azalmasına aid edərək, özünün məhsuldarlıq həddi" nəzəriyyəsini irəli sürür. Burada o, göstərdi ki, "əmək məhsuldarlığının azalması" qanunu universal xarakterli olduğundan bütün təsərrüfatlarda fəaliyyət göstərir. Bu qanuna görə kapital və avadanlığın həcmi dəyişmədiyi halda, fəhlələrin sayı artarsa, onda işə yeni cəlb edilən fəhlələrin əmək məhsuldarlığı özündən əvvəlki fəhlələrin məhsuldarlığına nisbətən ardıcıl surətdə azalması ilə nəticələnir.

Klark əmək haqqı səviyyəsini müəyyən edirkən "məhsuldarlığı həddi" nəzəriyyəsinə əsaslanaraq göstərir ki, əgər müəssisədə 5 fəhlə varsa, birinci fəhlənin faydalılığı ikinci fəhləyə nisbətən və eləcə də ikinci fəhlənin faydalılığı üçüncü fəhləyə nisbətən daha yüksək olacaqdır. Klark

downloaded from KitabYurdu.az

faydalılığı müəyyən edərkən "məhsuldarlıq həddi"ni əsas götürür və onu faydalılığın ölçüsü hesab edir. Buna görə də o, əmək haqqını da sonuncu fəhlənin "məhsuldarlıq həddi" ilə müəyyən edir. Klarkın məntiqi ilə, pis istehsal şəraitində işləyən və yalnız öz istehsal xərclərini ödəyən fəhlələr ən məhsuldar fəhlələrdir. Klark iddia edir ki, əgər fəhlələrin sayının dəyişmədiyi müəssisələrdə kapitalın miqdarı artarsa, onda kapitalın işə tətbiq edilən hər bir hissəsi əvvəlki kapital artımına nisbətən az miqdarda yeni məhsul yaradacaqdır.

"Məhsuldarlıq həddi" nəzəriyyəsində Klark mənfəət səviyyəsinin əmək haqqı səviyyəsi kimi məhsuldarlıqdan asılı olduğunu sübut etməyə çalışırdı. Lakin onun fikrincə, əhalinin artımı kapital artımına nisbətən daha sür'ətli olduğu üçün bu qanun məhz fəhlələrin payına tə'sir edir və buna görə də, sonuncu əmək vahidinin yaratdığı məhsul bütün fəhlələrin əmək haqqı səviyyəsini müəyyən edən ölçü vasitəsi olur.

Klarkın "Əmək və kapitalın məhsuldarığının azalması qanunu" haqqında yürütdüyü fikir, onun "statik müvazinat" nəzəriyyəsi ilə üzvi surətdə bağlıdır. O, cəmiyyətin "statik müvazinatdan" çıxıb, dinamik müvazinata keçməsinə tə'sir göstərən müxtəlif amillərin rolunu xarakterizə edərək göstərir ki, cəmiyyətin dinamik müvazinata keçməsinə əhali artımı, kapital yığımı, istehsalın yeni təşkili, yeni sənaye sahələrinin yaranması və insan tələbatının dəyişilməsi amilləri tə'sir göstərir. Klakın fikrincə, cəmiyyətin müvazinatının pozulmasına tə'sir göstərən başlıca səbəb əhalinin artımı və kapital yığımıdır. O, statik müvazinat nəzəriyyəsi ilə cəmiyyətdə baş verən texniki tərəqqini inkar edərək, bunun əsasında özünün maltusçu "əmək haqqı" qanununu irəli sürmüşdür. Məsələn, Klark əmək haqqının aşağı səviyyəyə düşməsi və işsizlərin (Ehtiyat əmək ordusunun) yaranması səbəbini əhalinin sür'ətli artımında görürdü.

Siyasi iqtisadın iki mühüm bölgüsü olan statika və dinamika haqqında tə'limi, Klark "Öhdələnmə və bölgü" nəzəriyyəsini tərtib edərkən istifadə etmişdir. Bu nəzəriyyədə o, kapitalizmdə istismarın olmadığını və gəlirlərin ədalətli olduğunu sübut etməyə çalışırdı. Bu məqsədlə Klark "Spesifik məhsuldarlıq qanunu" formalaşdırmışdır. O, burada istehsalın dörd amilini göstərmişdir.

1. Pul formasında kapital;

downloaded from KitabYurdu.az

2. Kapital nemətləri (istehsal vasitələri və torpaq);

3. Sahibkarın fəaliyyəti;

4. Fəhlələrin əməyi.

Daha sonra o, qeyd edirdi ki, istehsalın hər bir amili spesifik məhsuldarlığa malik olub, gəlir yaradır, özü də hər bir sahibkar sahibi olduğu amildən meydana gələn gəlir payını alır. Belə ki, kapital bankrə faiz gətirir, kapital ne'mətlər rentanı yaradır, sahibkarın fəaliyyəti ona mənfəət (sahibkar mənfəəti) gətirir, əmək isə fəhləyə əmək haqqını tə'min edir. Gördüyünüz kimi, əsas ideya burada bə'zi modifikasiya ilə Seyin "xidmətlər nəzəriyyəsindən" götürülmüşdür.

Modifikasiya bundan ibarət idi ki, Klark Seydən fərqli olaraq, kapitalı bir amil kimi deyil, iki amil kimi (pul kapitalı və kapital ne'mətləri) nəzərdən keçirirdi. Daha sonra o qeyd edirdi ki, statika şəraitində sahibkar mənfəəti mövcud deyildir. Çünki, azad rəqabət guya ki, orta mənfəətin yenidən bölgüsünə deyil, onun tam ləğv edilməsinə gətirib çıxarır. Bu müddəanı sübut etmək üçün Klark o şəxsləri sahibkar adlandırdı ki, onların kifayət qədər iş qabiliyyətləri olsa da, şəxsi kapitala malik deyillər.

Klark kapitalist iqtisadiyyatının inhisarlaşması prosesini də nəzərdən qaçırmamışdır. "İqtisadi nəzəriyyənin mahiyyəti" əsərində, o, inhisarların özünə məxsus tənqidi ilə çıxış etmişdir və inhisarları soyğunçuluqda vətərəqqinin qarşısını almaqda ittiham etmişdir.

Beləliklə, C.Klark "Amerikan məktəbinin" neoklassik məktəbinin yaradıcısı kimi cəmiyyət həyatında istehsal amillərini seçilməsinə uyğun olaraq faydalanma həddini müəyyən etmişdir.

Eyni zamanda təklif nəzəriyyəsin neoklassik mahiyyətinin dərk olunmasına dair tə'lim yaratmışdır. Son məhsuldarlıq tə'limi istehsalın təşkil və idarə olunmasının optimal variantının seçilməsi və əsaslandırmasına və uyğun inkişaf modelinin tətbiq olunmasına istiqamət vermişdir.

## §4. V.PARETONUN İQTİSADİ TƏLİMİ

Görkəmli neoklassik iqtisadi nəzəriyyənin nümayəndəsi, riyazi məktəbin nəzəriyyəçisi, L.Valrasın tələbəsi və onun "lozan məktəbi" üzrə

downloaded from KitabYurdu.az

davamçısı Vilfredo Pareto (1848-1923) müvazinat nəzəriyyəsinin optimal xarakterini tədqiq etmişdir. Özündən əvvəlki sələflərindən fərqli olaraq iqtisadi hadisələrin səbəb nəticə əlaqələrindən tamamilə imtina edir. Onun üçün Cevonsun və Valrasın öyrənməyə cəhd etdikləri qiymətin, son faydalılığın, tələbin, təklifin və xərclərin qarşılıqlı əlaqə daşımasının heç bir əhəmiyyəti yoxdur. Pareto əsas diqqətini "xalis" iqtisadi nəzəriyyənin yaradılmasına yönəldir.

İqtisadi hadisələrin gedişatında "məntiqi metoddan" deyil, "riyazi" metoddan istifadə edir.

Onun 1898-ci ildə dərc etdirdiyi iki cildlik "Siyasi iqtisad kursu" və 1906-cı ildə dərc etdirdiyi Siyasi iqtisadın təlimi əsərlərində ümumi müvazinat nəzəriyyəsini əsaslandırmışdır.

V.Pareto da iqtisadi təhlilin marjinalist ideyalarından çıxış edərək ümumi müvazinatın problemlərini öyrənmişdir. Məhz Paretonun bu sahədəki tədqiqatı, onun marjinalizmin ikinci cərəyanın yaradıcısına çevrilmişdir.

V.Pareto iqtisadi hadisələrdə funksional mövqeyə üstünlük verərək ümumi müvazinatı öyrənmişdir. Xüsusən faydalılıqdan (tələbatdan) imtina edərək, göstərirdi ki, bu hal heç də mübadilənin gedişatının əsas səbəbi deyil. İqtisadi sistem və eləcə də iqtisadi müvazinatın baş verməsi üçün tələb (istehlak) və təklif (istehsal) elementləri əsas götürülür.

Ümumi tarazlıq üçün tələb və təklifin uyğun olaraq istehlak və istehsalın oynadığı rolu əsas götürən V.Pareto "xalis" iqtisadi nəzəriyyə ideyasına sadiq qalaraq hesab edirdi ki, gəlirlərin bölgüsündəki qeyri-bərabərlik onların sinfi xarakterindən irəli gəlmir. Bu qeyri-bərabərliyin əsas səbəbi istehsaldır. O yazırdı ki, "Yoxsul siniflərin" rifah halının artımı hər şeydən əvvəl istehsalın problemidir. Yoxsul siniflərin vəziyyətinin yaxşılaşdırmasının ən düzgün vasitəsi-sərvətin üstün artırılmasıdır.

"Siyasi iqtisadın tə'limi" əsərində V. Pareto faydalılığı kəmiyyətcə xarakterizə olunmasının ən'ənəvi baxışlarını şəxslər arası faydalılığın müqayisəsini inkar etmişdir. İlk dəfə olaraq maksimum ictimai fayda məvhumunu əsaslandırmışdır. İqtisadi ədəbiyyatlarda maksimum ictimai fayda "Pareto optimumu" kimi adlandırılır.

downloaded from KitabYurdu.az

Maksimum ictimai faydaya nail olunmasının əsas me'yarını da Pareto resursların düzgün bölüşdürülməsində görürdü.

Pareto optimumu o vaxt baş verir ki, hər hansı dəyişikliyin qiymətləndirilməsi ya hamının rifah halının yaxşılaşmasını, ya hamının rifah halını pisləndirməməklə heç olmasa bir nəfərin rifah halının yaxılaşdırmasını əks etdirir.

Pareto ümumi müvazinata nail olunmasının optimallığını da məhz tələb və təklif eləcə də istehlak və istehsal arasında elə uyğunluqla və ya bərabərliklə görürdü ki, nəticədə burada maksimum ictimi fayda əldə olunsun.

Ümumi müvazinatın optimalığı onda əks olunur ki, belə şəraitdə nə istehsal prosesinə əlavə əmtəə və xidmətlər gətirilməsi ilə, nədə hər hansı fərdə ziyan gətirən mübadilənin aparılması ilə nail olmaq mümkün deyil. "Pareto optimumunun" həyata keçirilməsi, məhz mənfəətin maksimum həddə çatdırılmasında optimal qərarların qəbul olunması ilə bağlıdır.

Bir cəhəti də qeyd etmək lazımdır ki, V.Paretonun optimal müvazinat nəzəriyyəsində əsas yeri həm ayrı-ayrı fərdlərin həm də əhalinin rifah halının yaxşılaşdırılması tutur. Rifah halının yaxşılaşdırılması, əgər hər hansı dəyişiklik şəraitində baş verirsə və belə halda heç kəsin vəziyyəti pisləşmirsə, bu hal optimal müvazinata nail olunmaq kimi götürülür. Əgər iqtisadiyyatda gedən dəyişikliklər birinin vəziyyətinin yaxşılaşmasına, digərinin vəziyyətinin pisləşməsinə səbəb olursa, deməli, maksimum ictiami fayda əldə olunmur. Bu vəziyyət qeyri optimal hesab olunur. Çünki, ictimai rifah halı fərdi rifah halı ilə qiymətləndirilir.

V.Pareto optimal müvazinat prosesinin təkgə azad rəqabət şəraitində deyil, eyni zamanda müxtəlif tipli inhisarlaşdırılmış bazarlar şəratində də öyrənir. Gösətərmək lazımdır ki, ümumiyyətlə, müvazinatı inhisarçılıq şəraitində öyrənən ilk iqtisadçı kimi V.Paretonu hesab etmək olar. İqtisadi asılılıqları əks etdirən ümumi müvazinatın optimal səviyyəsini müəyyən etməklə V.Pareto iqtisadi nəzəriyyənin bu sahədəki problemlərinin həlli istiqamətini müəyyən etmişdir. Bu da müasir mərhələdə V.Leontyevin qeyd etdiyi kimi bazar mexanizmi nəzəriyyəsinin, firma və ev

downloaded from KitabYurdu.az

təsərrüfatının davranış qaydalarının təhlil olunması istiqamətləri ilə sıxı surətdə bağlıdır.

# FƏSİL 15. C.M.KEYNSİN İQTİSADİ NƏZƏRİYYƏSİ

## § 1. C.M.KEYNS - MÜASİR DÖVRÜN GÖRKƏMLİ İQTİSADÇISIDIR

İqtisadi tərəqqinin gedişində makroiqtisadi proseslərin öyrənilməsi və bununla əlaqədar olaraq yeni elmi müddəaların üzə çıxarılması və iqtisadi sistemin formalaşması üçün onun metodoloji əsaslarının yaradılması olduqca vacib və aktual bir məsələdir. Bununla əlaqədar olaraq qeyd edə bilərik ki, Con Meynard Keynsin (1883-1946-cı illər) ideyası altında formalaşmış makroiqtisadi nəzəriyyə, məhz bu baxımdan əhəmiyyətlidir. Kembric məktəbinin ən böyük nümayəndələri olan A.Marşallın və A.Piqunun tələbəsi və davamçısı olmuşdur. Lakin Keynsin elmi dünyagörüşü, iqtisadi sxemləri o qədər əhatəli və zəngin idi ki, o, öz sələflərindən uzaqlaşıb, tamamilə yeni bir nəzəriyyə yaratdı.

Göstərmək lazımdır ki, elə bir nəzəriyyəçi tapmaq olmaz ki, istər Keynsə qədər, istərsə də ondan sonra həyatda onun qədər mübahisəyə səbəb olan müxtəlif istiqamətli ideyaları olsun.

Keynsin nəzəriyyəsi, gələcək tədqiqatların həm mənbəyi, həm də istiqamətləndiricisi olub. Təsadüfi deyil ki, Keynsin makroiqtisadi təhlilini əsas göstərməklə iqtisadi tənzimlənməni həyata keçirmək üçün milli hesablar sisteminin işlənib hazırlanması zəruriliyi meydana gəlmişdir.

downloaded from KitabYurdu.az

Keynsin nəzəriyyəsindən asılı olaraq, iqtisadi artım, iqtisadi tsikl, iqtisadi müvazinət nəzəriyyələri formalaşmış, antiinflyasiya, defisitli maliyyələşmə kompensasiyaları öz tətbiqi sferalarını tapmışdır.

XX əsrin 20-ci illərinin sonu, 30-cu illərin əvvəllərində Qərbi Avropa ölkələrini, ABŞ-ın, eləcə də bütün kapitalist dünyasını bürümüş böhranlar, bu ölkə iqtisadçılarını bir növ şok vəziyyətinə salmışdır. Belə ki, ölkələrin iqtisadiyyatı elə bir vəziyyətə düşmüşdür ki, təkcə istehsal olunmuş məhsulların reallaşmaması ilə yanaşı, işsizlik sürətlənmiş, inflyasiya səviyyəsi görünməmiş dərəcədə qalxmışdır. Ən aparıcı kapitalist ölkələri hesab olunan ABŞ-da, Böyük Britaniyada, Almaniyada istehsalın səviyyəsi sürətlə aşağı enmiş, işsizlərin sayı gündən-günə çoxalmışdı.

Klassik nəzəriyyəni rəhbər tutmuş iqtisadçıların əksəriyyəti mövcud vəziyyətin müvəqqəti xarakter daşıdığını göstərirdilər. İqtisadiyyatın böhranlı vəziyyətə düşməsinin, "Böyük tənəzzül"ün əsl səbəblərini izah edə bilmirdilər. Belə ki, bəzi iqtisadçılar bunun səbəbini tələbin səviyyəsinin həddindən aşağı düşməsi ilə, bəziləri ifrat istehsalın baş verməsi ilə, digərləri kapital qoyuluşunun həcminin aşağı düşməsi ilə, eləcə də, vergi-kredit sisteminin mütərəqqi rolunun azalması ilə izah edirdilər.

Cəmiyyətin aparıcı işgüzar adamları, sahibkarlar, biznesmenlər vəziyyətin çıxış yolu barədə aramsız düşünürdülər. Çünki ən fəlakətli cəhət bu idi ki, kapitalist dünyasını işsizlik tamam bürümüşdür. Halbuki, bu dövrlərdə sosialist sisteminin aparıcı dövləti olan SSRİ-də işsizlik tamamilə aradan qaldırılmışdı. Əslində böhran iqtisadi sferadan çıxıb ölkələrin siyasi, ideoloji, sosial sahələrini də bürüyürdü. Belə bir şəraitdə elə bir nəzəriyyəyə ehtiyac duyulurdu ki, o iqtisadi böhranların aradan qaldırılması yollarını göstərməklə, ölkələrdə mövcud olan bazar sisteminin daha əsaslanmış şəkildə fəaliyyət göstərməsinə imkan yaratmalı idi.

Belə bir vaxtda görkəmli ingilis iqtisadçısı Con Meynard Keynsin 1936-cı ildə Londonda dərc etdirmiş olduğu "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" əsəri sözün əsl mənasında iqtisad elmində böyük inqilab etmiş oldu. Bu əsər ona böyük şöhrət gətirməklə ilk dəfə olaraq Qərbi Avropa ölkələrində, eləcə də ABŞ-da dövlət səviyyəsində iqtisadiyyatın sabitləşməsinin nəzəri-metodoloji əsasını qoydu.

downloaded from KitabYurdu.az

Lap gənc yaşlarından birja oyunlarından böyük qazanc əldə edən C.Keyns, eyni zamanda Böyük Britaniya hökumətinin tərkibində məsləhətçi idi. O, bir sıra praktiki əhəmiyyətli iqtisadi siyasət sahəsində əməli tövsiyələri ilə də böyük müvəffəqiyyətlər əldə etmişdir. Fitri istedadı, dərin elmi məntiqi, nəzəri-metodoloji hazırlığı ilə seçilən C.Keyns alim - iqtisadçılar arasında ilk Lord titulunu almışdır ki, bu da ona Londonda parlamentin yuxarı palatasının iclaslarında iştirak etmək huququ verirdi.

C.Keyns 1883-cü ildə Kembricdə məntiq və iqtisadi nəzəriyyə professoru ailəsində anadan olmuşdur.

Atası Con Nevila Keyns Kembricdə məntiq və iqtisadiyyatdan dərs deyirdi. Kembric Universitetinin nəzdindəki kollecdə 1902-1906-cı illərdə təhsil alan C.Keyns, o dövrün ən məşhur iqtisadçı alimi A.Marşallın mühazirələrini dinləmişdir. Klassik məktəb ənənələrindən olan "Siyasi iqtisad" fənni adı məhz həmin illərdə A.Marşallın təşəbbüsü ilə dəyişdirilərək "Ekonomiks" adı ilə əvəz edilmişdir.

1906-1908-ci illərdə müstəmləkə ölkələri üzrə nazirliyin, Hindistan üzrə idarəsində əvvəl hərbi işlərdə, daha sonra gəlirlər, statistika və ticarət şöbəsində işləmişdir.

Geniş riyazi və iqtisadi biliyə malik olan C.Keyns 1908-ci ildə A.Marşalın dəvəti ilə Karol kollecinə, iqtisadi problemlər üzrə mühazirə oxumağa dəvət olunur.

Müəllimi A.Marşala böyük məhəbbət və ehtiramı ilə o, orada həm iqtisadiyyatdan, həm də riyaziyyatdan mühazirələr oxuyur. Demək olar ki, 1909-1915-ci illər ərzində həmin kollecin daimi işçisi kimi fəaliyyət göstərir.

İlk elmi məqaləsini 1909-cu ildə "İndeks metodu" adı altında dərc etdirir. F.Edjortun redaktoru olduğu "İqtisadiyyat jurnalı"nda, onu 1912-ci ildə bu vəzifədə əvəz edir. Demək olar ki, ömrünün axırına qədər bu vəzifəni özündə saxlayır. 1913-1914-cü illərdə Hindistanın Maliyyə və pul tədavülü üzrə Kral komissiyasının üzvü olur. Həmin bu illərdə Krallığın iqtisadiyyat cəmiyyətinin katibi vəzifəsində təsdiq olunur.

Elm aləmində ilk dəfə olaraq ona şöhrət qazandıran 1913-cü ildə dərc etdirmiş olduğu "Hindistanın pul tədavülü və maliyyəsi" əsəri olmuşdur.

1915-1919-cu illərdə Britaniya xəzinədarlığında beynəlxalq maliyyə problemləri ilə məşğul olur.

downloaded from KitabYurdu.az

1919-cu ildə dərc etdirmiş olduğu "Versal sülh müqaviləsinin iqtisadi nəticələri" əsəri ona dünya şöhrəti gətirir.

Qələbə çalmış ölkələrin iqtisadi siyasəti ilə razılaşmayan C.Keyns hər cür iqtisadi blokadanın əleyhinə çıxır. Xüsusən də Sovet Rusiyasına qarşı tətbiq olunan iqtisadi blokada ilə əlaqədar Paris sülh konfransındakı çıxışında qeyd etmişdir ki, "biz o qədər Rusiyanı deyil, daha çox özümüzü blokadaya salırıq".[69]

Dövlət idarələrində müvəqqəti işlərini dayandıran Keyns, Kembric Universitetində müəllimlik fəaliyyətini gücləndirir. Bunun nəticəsində o, bir-birinin ardınca tutarlı əsərlər dərc etdirir. 1921-ci ildə "Ehtimal haqqında traktat", 1923-cü ildə "Pul islahatı haqqında traktat", 1926-cı ildə "Azad sahibkarlığın sonu", 1930-cu ildə "Pul haqqında traktat" əsərlərini dərc etdirir və nəhayət, özünün ən məşhur əsərini 1936-cı ildə yazır.

C.Keyns aktiv ictimai - siyasi həyata 1929-cu ildə qayıdır və elə həmin ildən hökumətin maliyyə və sənaye komitəsinin üzvü təyin edilir. İkinci dünya müharibəsi ərəfəsində Britaniya xəzinəsinin məsləhətçisi təyin edilir.

O, 1942-ci ildə İngilis banklarının birinin direktoru təyin olunur. 1944-cu ildə Bretton-Vuddakı valyuta konfransında Beynəlxalq Valyuta Fondunun və Beynəlxalq Bərpa və İnkişaf Bankının yaradılması planının hazırlanması işində öz ölkəsinin baş nümayəndəsi təyin edilir.

1945-ci ildə o yenidən ingilis maliyyə işinə rəhbərlik edir.

C.Keynsin bu qısa xronoloji tərcümeyi-halına diqqət yetirərkən aydın olur ki, onun irəli sürdüyü ideyalar XX əsrin iqtisad elmində böyük irəliləyişlər etdi və o hazırda bir sıra ölkələrin iqtisadi siyasətinin müəyyən edilməsində əvəzsiz rol oynamışdır. Özünün qeyd etdiyi kimi "mütəfəkkir iqtisadçıların və siyasətçilərin ideyaları, onların səhv və düz olmasından asılı olmayaraq düşündükdən daha çox böyük əhəmiyyətə malikdir.

Həqiqətən dünyanı idarə edən yalnız onlardır.[70]

C.Keynsin iqtisadi fikrinin ən dəyərli cəhəti ondan ibarətdir ki, bazar iqtisadiyyatına sırf təkmilləşən, özü-özünə tənzimlənən bir mexanizm kimi

---

[69] Я.С.Ядигаров, "История экономических учении", М.1996, стр.214

[70] Кейнс Дж.М. "Общая теория занятости, процента и денег", М.1993, стр. 432

downloaded from KitabYurdu.az

baxmamış, əksinə onun təbiətinə vaxtaşırı xronoloji böhran törədici elementlərlə əhatə olunduğunu sübut etmişdir. Kapitalist iqtisadiyyatının sərbəstliyini, o çatışmaz cəhəti kimi qeyd etmiş və onun mütləq dövlət tərəfindən idarə olunması zəruriliyini sübuta yetirmişdir. İlk dəfə olaraq yüz ildən yuxarı davam edən A.Smitin "İqtisadi sistemi"ndə mühüm yer tutan "azad bazar" ideyasının "tənzimlənən bazar" ideyası ilə əvəz olunması oldu. Digər tərəfdən, əgər 30-cu illərdə Kapital dünyası asılmaq təhlükəsi altında idisə, C.Keyns özünün "səmərəli tələb" nəzəriyyəsi qayçısı ilə onu xilas etdi.

Ölkə iqtisadiyyatının artım səviyyəsini və maksimum məşğulluğa nail olunması mənbəyini dövlət müdaxiləsində görən Keyns ideyasının zənginliyi, bu günlər yeni iqtisadi sistem quran müstəqil dövlətlər üçün, o cümlədən Azərbaycan Respublikası üçün müstəsna əhəmiyyəti vardır.

C.Keynsin iqtisadi təliminin metodoloji əhəmiyyəti ondan ibarətdir ki, o cəmiyyətdəki bütün iqtisadi hadisələrini mikroiqtisadi yanaşma ilə makroiqtisadi təhlil edərək ilk dəfə kapitalist iqtisadiyyatının makroiqtisadi təhlilini vermişdir. İqtisadi təfəkkür tərzinin formalaşmasında psixoloji qanunların rolunu üzə çıxarmışdır. Xüsusən "səmərəli tələb"in əmələ gəlməsində dövlətin stimullaşdırıcı imkanlarını göstərmişdir.

İşsizliyin aradan qaldırılmasına görə hər cür əmək haqqının azaldılması metodlarının əleyhinə çıxmışdır. Müəyyən işsizlik səviyyəsini saxlamaqla, tam məşğuliyyətin həyata keçirilməsi istiqamətlərini müəyyən etmişdir. İstehsal miqyası ilə istehlakın miqyası arasındakı birbaşa əlaqəni izah etməklə, gəlirlərin artım səviyyəsini göstərmişdir. İstehlak səviyyəsi ilə gəlirlərin səviyyəsi arasındakı fərqin, ümumi işsizliyin azalması nəticəsində psixoloji qanunların təsiri nəticəsində sonuncunun xeyrinə dəyişildiyi istiqamətini əsaslandırmışdır.

İnvestitsiyanın artımı ilə gəlirlərin artımı arasındakı birbaşa əlaqənin mahiyyətinin əsaslandırılması C.Keyns nəzəriyyəsinin ən incə və tutarlı istiqamətlərindəndir.

İndi isə diqqətimizi Keyns haqqında dünyanın görkəmli iqtisadçı alimlərinin söylədikləri mülahizələrə yönəldək.

downloaded from KitabYurdu.az

**P.Samuelson**

"Keyns hərtərəfli istedadlı adam olub, riyaziyyat, fəlsəfə və ədəbiyyat sahəsində məşhur idi. O elə iqtisadçı idi ki, həm özü üçün, həm də Kembric Kral kolleci üçün qazanmağı bacarırdı. Onun 1936-cı ildə dərc olunmuş "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyələri" əsəri bizim yüz illiyin iqtisadi fikrinə güclü təkan verdi və güman ki, klassik əsər kimi uzun müdət yaşayacaqdır".

**S.Xarris**

"Keyns iqtisadi nəzəriyyənin skeletini yaradıb. Başqalarına ora qan əlavə eləmək qalıb və bu proses bizim günlərdə də yüksək sürətlə artmaqda davam edir".

**Don Patinkin**

"Müasir iqtisadi ideyalar tarixində Keynsin "Ümumi nəzəriyyə"si təkcə makroiqtisadiyyatda etdiyi inqilabi yeniliyi ilə deyil, eləcə də tənqid və diskussiya ilə onun inkişafını müşahidə edən "əfsanəvi proses" kimi əhəmiyyətlidir".

**K.R.Makkonnell və S.L.Bryu**

"Keyns klassik nəzəriyyəni tənqid etməklə iqtisadi təlimdə makroiqtisadi məsələlərə dair böyük inqilab etdi. Keyns müasir məşğulluq nəzəriyyəsinin ilkin banisidir".

**V.Leontyev**

"Keyns inqilabına, onun ideyasının paradoksal təbliğinə diqqət yetirəndə aydın olur ki, məhz bunun sayəsində Qərb iqtisadiyyatı öz yönümünü köklü olaraq dəyişə bilib".

**Y.Kornai**

"Keynsin ideyaları, şübhəsiz ki, iqtisadi siyasəti müəyyən edənlərə daha çox təsir göstərmişdir. Əgər sosial inkişaf əsas yaratmasaydı, siyasətçiləri Keynsin təkliflərinə müraciət etdirməyi məcbur etməsəydi, onun elmi ideyaları da bu qədər güclü təsirə malik olmazdı".

downloaded from KitabYurdu.az

**M.Blauq**

"Keynsin ideyalarını, qiymətləndirərkən, onların bəzilərini qəbul etmək olar, bəzilərini isə yox, lakin sərbəst bazar iqtisadiyyatının tam məşğulluğa tam nail olunmaq qabiliyyətinə malik olmadığı ideyasını birmənalı qəbul etmək lazımdır. Çünki Keyns nəzəriyyəsinin əsas dərsi, əmək haqqının çevik olmaması iqtisadi deyil, siyasi fenomendir".

Keyns nəzəriyyəsi ilə əlaqədar bir çox iqtisadçıların müddəalarını misal çəkmək olar. Lakin onların bəziləri ilə tanışlıq bunu qeyd etməyə imkan verir ki, C.M.Keynsin "Ümumi nəzəriyyə"si... XX əsrin iqtisad elmində dönüş nöqtəsi oldu. Bunun nəticəsində müasir mərhələdə bu nəəriyyəyə əsaslanaraq bir sıra dövlətlər öz iqtisadi siyasətlərini qururlar.

## § 2. MƏŞĞULLUQ SƏVİYYƏSİ VƏ SƏMƏRƏLİ TƏLƏB. "ƏSAS PSİXOLOJİ QANUN"

Keynsin iqtisadi fikrinin ardıcıllıqla öyrənilməsi, onu neoklassik məktəbin nümayəndələrindən fərqləndirən xüsusiyyətlərinin üzə çıxarılması diqqət mərkəzində duran məsələlərdəndir.

Keynsə qədərki siyasi iqtisadda iqtisadi proseslərin təhlil edilməsinə mikroiqtisadi səviyyədə yanaşılırdı. İqtisadi proseslərin izahı və təhlili başlıca olaraq firma səviyyəsində, xüsusən onun xərclərinin aşağı salınması, mənfəətin səviyyəsinin maksimum həddə çatdırılması ilə bağlı olub, tələb və təklifin özü-özlüyündə tarazlanacağı fikri üstünlük təşkil edirdi. Belə nəzərdə tutulur ki, bu iqtisadi proses azad rəqabət şəraitində baş verir. Firmanın səmərəli fəaliyyət göstərilməsi ilə iqtisadiyyatın bütöv şəkildə fəaliyyət göstərməsi eyniləşdirilirdi. Firmanın istifadə etdiyi və mənimsədiyi bütün istehsal resursları, o cümlədən iş qüvvəsi də bütöv iqtisadiyyat səviyyəsi ilə eyniləşdirilrdi. Belə şəraitdə uzunmüddətli işsizliyin əsaslandırılması, heç cür kapitalist iqtisadiyyatının üstünlüklərini əhatə etmirdi. Nəticədə inkişaf etmiş bazar sistemi ölkələrində xronoloji işsizliyin artımı müşahidə olunurdu. Ümumi sosial gərginliyi artırmaqla bu iqtisadi proses, bütövlükdə cəmiyyəti böhrana, tənəzzülə yuvarlayırdı.

downloaded from KitabYurdu.az

Belə mikroiqtisadi metoda qarşı Keyns özünün makroiqtisadi metodunu qoydu. Artıq tədqiqat və tədqiqin mərkəzində milli gəlir, əmanətlərin yığımı, investitsiyanın həcmi, istehlak və gəlirlərin səviyyəsi dururdu.

Makroiqtisadi metoda görə ayrı-ayrı firmanın əldə etdiyi nailiyyətlər, heç də cəmiyyətin nailiyyəti kimi qiymətləndirilə bilməz. Onların arasında hər şəraitdə ziddiyyət baş verə bilər. Ümumi iqtisadi proporsiyaları bərpa etməklə, xüsusən məcmu tələblə məcmu təklif arasındakı müvazinatı təmin etməklə cəmiyyətdə gedən dərin böhran törədici amilləri aradan qaldırmaq olar.

İnkişaf etmiş kapitalist iqtisadiyyatında böhran törədici amillərin rolunun aradan qaldırılması üçün ilk dəfə olaraq Keyns neoklassiklərdən fərqli olaraq belə qənaətə gəldi ki, bütün məsələlərin həllini yalnız resursların təklifi istiqamətində axtarmaq düzgün deyil. Halbuki, neoklassik məktəbin nümayəndələri belə hesab edirdilər ki, resursların məhdudluğu, nadirliyi maksimum məhsul istehsalındakı səmərəli istifadəsi iqtisadiyyatda müəyyənedici rola malikdir. Lakin Keyns sübut edirdi ki, bu resurslar vasitəsilə hazırlanan məhsullara olan tələb vasitəsilə, onların reallaşdırılması ilə onların səmərəsini yüksəltmək olar. Hər bir təklif avtomatik olaraq tələb törədir, qanunauyğunluğunu tənqid edir. Keyns göstərdi ki, bu heç də belə deyil. İlkin yerə o səmərəli tələbi qoydu və göstərdi ki, onu formalaşdıran amilləri və onların dinamikasını diqqət mərkəzində saxlamaq lazımdır. Xüsusən səmərəli tələbin baş verməsi üçün istehsalı və məşğulluğun hər cür tərəddüdlü vəziyyətini əsaslandıran amilləri üzə çıxartmaq lazımdır. Ona görə də ilkin olaraq istehsalın miqyası ilə məşğulluğun səviyyəsi arasındakı qarşılıqlı əlaqə öyrənilirdi.

Bəllidir ki, məşğulluğun səviyyəsi, işsizliyin amilləri klsassiklərin diqqətini cəlb etmirdi. Elə hesab edilirdi ki, artıq işsizliyin aradan qaldırılmasına əmək haqqının aşağı salınması ilə, əlavə işçilərə olan ehtiyacın ödənilməsinə isə əmək haqqının məbləğinin artırılması ilə nail olmaq olar. Əslində əmək bazarındakı vəziyyəti, birbaşa əməyin ödənilməsi dinamikası ilə əlaqələndirmək yolu ilə qaydaya salmağı tövsiyə edirdilər. Əmək haqqının aşağı salınması ilə sahibkarlar istehsal xərclərini aşağı salmaqla, məhsul buraxılışını yüksəldirdilər ki, bu da onların yığılıb

downloaded from KitabYurdu.az

qalmasına səbəb olurdu. Onlar belə hesab edirdilər ki, istər əmtəə bazarında, istər əmək bazarında, istərsə də pul bazarında azad rəqabət şəriatində bir ümumi tənzimləyici olan qiymət fəaliyyət göstərir. Qiymətin hərəkəti isə resursların bölgüsünü təmin etməklə bütün bazarlarda baş verəcək uyğunsuzluqların aradan qaldırılmasına səbəb olacaq. Məsələnin zahiri, empirik formada belə qoyulması məqbul hesab edilsə də, lakin iqtisadiyyatda gedən dərin və üzvi əlaqəli proseslər, onun gedişatında ciddi və görünməz əngəlliklər törədir. Məhz buna görə də Keyns klassiklərin əmtəə və xidmətlərin istehsalı, resursların bölgüsü və istifadəsindəki mövqelərini ciddi tənqid edir. Onun göstərdiyi kimi problemin belə həlli yolunun müəyyənləşdirilməsi olduqca yayındırıcı və sxematikdir. Onun fikrinə görə əmək haqqının azaldılması heç də işsizliyin aradan qaldırılmsı yolu deyildir. Çünki işdən kənarlaşdırılmış fəhlələr, hətta aşağı əmək haqqı ilə də iş tapa bilmirlər. Həmkarlar ittifaqı əmək haqqının aşağı salınmasının əleyhinə çıxış edirlər. Sahibkarlar heç nəyə məhəl qoymadan istehsalın həcmini azaltmaqla, işçilərin xeyli hissəsini işdən azad edirlər. Cəmiyyətdə gedən belə bir vəziyyət makrosəviyyədə ziddiyyətli hal alır. Bu da klassiklərin mövqeləri ilə tamamilə uyğun gəlmirdi. Çünki onların fikrincə, işsizlik ola bilməz, ona görə ki, o heç cür baş verməməlidir. Əmək haqqının səviyyəsindəki dəyişikliklə real iqtisadi həyatdakı vəziyyəti qaydaya salmaq ənənəvi üsulu öz həyatiliyini əks etdirə bilmədi.

Keyns çoxlarının qəbul etdiyi və bazar mexanizminin əbədi qanunu kimi hesab etdikləri "Sey qanunu"nu ciddi tənqid etdi. Sey belə hesab edirdi ki, istehsal özü gəlirləri formalaşdırmaqla tələb və təklif arasındakı uyğunluğu təmin edir. Bu da hər cür əmtəə və xidmətlərin ifrat istehsalını aradan qaldırır. Uyğunsuzluqlar yalnız ayrı-ayrı məhsular və əmtəələr qrupu üzrə baş verə bilər ki, bu da zahiri səbəblərlə əlaqədar ola bilər. Burada heç bir daxili qarşılıqlı əlaqələrin pozulması, yaxud mövcud təsərrüfat mexanizminin qeyri-təkmil olmasından söhbət gedə bilməz. Çünki tələb və təklif arasındakı nisbət gedişatı hər şəraitdə və hər bir vəziyyətdə iqtisadiyyatın bütün əlaqələrinin normal vəziyyətdə olmasına qadirdir.

downloaded from KitabYurdu.az

Keyns göstərirdi ki, belə bir mövqe pulsuz, natural mübadilə üçün xarakterik ola bilər. Robinzon Kruzonun mübadiləsiz təsərrüfatı ilə real iqtisadiyyatın tələblərini eyniləşdirmək olmaz. Pulun rolunu heç cür nzərə almamaq olmaz. Çünki məhsullar sadəcə olaraq "əmtəə-əmtəəyə" prinsipi ilə mübadilə edilmir. Onlar alınır və satılır. Burada pul həlledici rol oynayır. Əgər tələb istehsal olunan məhsuldan azdırsa, onda uyğunsuzluq baş verir, məhsulların bir hissəsi satılır, ümumi ifrat istehsal baş verir. Qiymətlər tələb və təklifin uzlaşmasını çatdıra bilmir. Çünki cəmiyyətdə əmək haqqının aşağı salınması ilə, işsizlərin sayının çoxalması ilə "pul çatışmazlığı" mövcuddur.

Belə şəraitdə çox qəribə bir mənzərə əmələ gəlir. Tələbin artması ilə qiymətlər yüksəlir, lakin onun azalması ilə o əvvəlki səviyyədə qalır. Əmək haqqını da artıq aşağı salmaq olmaz. Çünki əmək haqqı, minimum yaşayış səviyyəsini əhatə etdiyindən, onun aşağı salınmasına fəhlələr və həmkarlar ittifaqı ciddi müqavimət göstərirlər. Digər tərəfdən əmək haqqının həddindən artıq aşağı salınması sahibkarların özlərini də qane etmir. Çünki belə şəraitdə onlar yüksək ixtisaslı işçilərini itirə bilərlər.

Digər tərədən bir firmanın nailiyəti, digər firmaların uğursuzluğunun aradan qaldırılması deyil. Normal fəaliyyət göstərən bir neçə firma, heç də bütövlükdə iqtisadiyyatın uğurlu fəaliyyət göstərməsini əks etdirmir. Əgər hər yerdə kütləvi şəkildə əmək haqqının səviyyəsi aşağı salınarsa, onda əhalinin alıcılıq qabiliyyəti aşağı düşəcəkdir və əmtəələrə olan tələbi azaldacaqdır. Bu da öz növbəsində klassiklərin göstərdiyi kimi işsizlərin azalmasına deyil, yüksəlməsinə səbəb olacaqdır. İstehsal daha sürətlə öz miqyasını azaldacaq ki, bu da işini itirənlərin sayının çoxalmasına səbəb olacaqdır.

İqtisadiyyatın istehsal və məşğulluğa görə real vəziyyətini təhlil edən Keyns belə qənaətə gəlir ki, bu göstəricilərin dinamikası təklif amillərindən deyil, tələb amillərindən asılıdır. Diqqət mərkəzində tələb və onun kəmiyyətini müəyyən edən amillər durmalıdır.

İctimai istehsalın və məşğulluğun detallaşdırmış şərhini, Keyns istehlak və əmanət yönümü ilə əlaqədar gedən iqtisadi proseslər vasitəsi ilə göstərir.

downloaded from KitabYurdu.az

Keyns iqtisadi hadisələri makrosəviyyədə öyrənərək məşğulluğun ümumi əsasının məhz cəmiyyətdə istehsal ediləcək milli gəlirin həcmindən asılı olduğundan sübuta yetirilməsidir.

Keyns göstərirdi ki, məşğulluğun artımı ilə milli gəlir də artır, deməli, istehsalın səviyyəsi də yüksəlir. Digər tərəfdən istehsalın miqyasının genişləndirilməsi, bu əsasdan da məşğulluğun təmin edilməsi, investisiyaların səviyyəsindən bilavasitə asılıdır. Sahibkarlar investisiyanı o vaxta qədər axtarırlar ki, kapitalın "son səmərəlilik" həddi faizi səviyyəsinə enir. Burada kapitalın rentabellik səviyyəsi mənfəət normasından asılı olaraq dəyişildiyindən, onun "son səmərəliliyi", faiz norması ilə çox vaxt uyğun gəlmir. Ona görə də Keyns göstərirdi ki, çətinliyin mənbəyi kapitalın rentabelliyinin aşağı düşməsi, faiz normasının sabit qalması ilə əlaqədardır. Bu cəhət yeni investisiyanın, o cümlədən yeni məşğulluğun məhdud həddini müəyyən edir. Kapitalın "son səmərəlilik" həddinin azalmasını Keyns, kapitalın ümumi kütləsinin artması ilə, eləcə də gələcək gəlirlərdə sahibkar kapitalistlərin inamının itirilməsi psixologiyası ilə əlaqədardır.

Keynsin ümumi məşğulluq nəzəriyyəsi ilə əlaqədar olaraq onu göstərmək olar ki, məşğulluğun ümumi həcmi üç amil qrupundan asılıdır:

1."İstehlak yönümü" ilə;

2.Kapital qoyuluşunun "son səmərəliliyi" ilə;

3.Faiz norması ilə.

Cəmiyyətin inkişafı, onun maddi nemətlər bolluğunun əldə etməsi məcmu tələbin səviyyəsindən asılıdır. Ümumiyyətlə, məcmu tələb haqqında danışarkən qeyd etmək lazımdır ki, o iki hissəyə ayrılır: istehlakçı tələbinə və yaxud şəxsi istehlakçı tələbatına və investisiya tələbatına və ya istehsal istehlakı tələbatına. Məcmu tələb - bu pul tələbidir.[71] İstehlak şeylərinə olan məcmu pul gəlirindən və onun xərclənməsindən asılıdır. Pul gəlirlərinin kütləsi istehlakın həcmindən asılıdır. İstehlakın artması isə milli gəlirin həcminin yüksəldilməsindən asılıdır. Bu asılılıqlar sistemində Keyns özünün məşhur "Əsas psixoloji qanunu"nu kəşf edir. O göstərirdi ki, əsas psixoloji qanun ondan ibarətdir ki, adamlar belə bir qayda olaraq gəlirlərin artımı ilə öz istehlaklarını

---

[71] С.А.Бартенев, Экономические теории и школы, М.1996, стр. 175

downloaded from KitabYurdu.az

yüksəldirlər, lakin gəlirlərin artımının ölçüsü səviyyəsində deyil, əmanətlərin artırılması meylinə imkan verən həcmdə yüksəldirlər.[72]

Yəni adamlar gəlirləri yüksəldikcə şəxsi istehlak tələbatını artırmaqla eyni zamanda daha çox əmanət şəklində yığılacaq investisiya tələbatlarının yüksəldilməsinə daha çox meyillidirlərsə, əmanətlərin artımı meyli adamların istehlakçıdan istehsalçıya çevrilmək imkanının genişləndirilməsinə imkan verir.

Aydındır ki, gəlirlərin artımı ilə tələb artır və istehlaka yönəldilən xərclər də yüksəlir. Lakin bu heç də o demək deyil ki, xərclərin artımı gəlirlərin artığı həcmində və məbləğdə yüksəlir. Halbuki, klassik məktəbin nümayəndələri, neoklassiklər göstərirdilər ki, məhsulun bütün dəyəri, bir başa və ya dolayı yolla yeni məhsulların alınmasına xərclənməlidir. Çünki adamların gəlirləri əmtəə və xidmətlərin alınmasına sərf edilir. Bu mövqeyi ciddi tənqid edən Keyns belə qənaətə gəlir ki, adamlar əldə etdiyi gəlirlərini heç də bütövlükdə əmtəə və xidmətlərin alınmasına sərf etmirlər. Pullarının bir hissəsini əmanət şəklində özlərində saxlayırlar.

Belə şəraitdə məcmu xərclər iki qismə ayrılır. Bir hissəməcmu gəlirlərin əmtəə və xidmətlərin alınmasına yönəltdiyi məbləği, digər hissə isə əmanət şəklində saxladığı məbləği əks etdirir. Deməli, gəlirlərin artımı ilə məcmu xərclərin artımı uyğun gələ bilər. Məcmu xərclərin artımındakı adamların meyli əmtəə və xidmətlərin alınmasına deyil, əmanətlərin yığılmasına yönəlir. Sxematik olaraq bunu aşağıdakı kimi göstərmək olar:




Keynsin gəldiyi fikirə görə istehlakın səviyyəsini müəyyən edən əsas amil gəlirlərdir. Əmanətlərin məbləği gəlirlərin məbləği ilə istehlakın

---

[72] Дж.М.Кейнс, Общая теория занятости, проценты и денег, М.1978 г., стр.157.

downloaded from KitabYurdu.az

səviyyəsi arasındakı fərqdən ibarətdir. Əmanətin həcmini əmtəə və xidmətlər olan məbləğ tənzimləyir. Lakin Keyns nəzəriyyəsinə qədər belə hesab edilirdi ki, istər əmanətlərin, istərsə də ümumi kapital yığımının səviyyəsini faiz norması müəyyən edir.

Pul kütləsi nəinki qiymətin səviyyəsinə təsir göstərir, eyni zamanda işgüzarlıq aktivliyinə ciddi təsir göstərməklə həm gəlirlərin həcminin, həm də tələbin dinamikasını müəyyən edir. Bu prinsipə əsaslanan Keyns belə qənaətə gəlir ki, ümumiyyətlə, iqtisadi inkişaf üçün nağd şəkildə olan pul ehtiyatı olmalıdır.

Pul tələbinin mövcudluğu şəraitində Keyns onun daha çox likvidliyə və yaxud "xərclənmə üstünlüyünə" malik olmasını əsaslandırırdı. Bununla da, faiz dərəcəsi ilə bağlı olmayan bir sıra amillərin rolunu göstərdi. Xüsusən istehlak və gəlir arasındakı əlaqə şəraitində pul gəlirlərinin həm sərbəst şəkildə, həm də əmtəə və xidmətlərin alınmasına görə xərclənməsi, həm də ehtiyat kimi əmanətlər formasında yığılmasını şərh edən Keyns sübut edirdi ki, cəmiyyətin həyatında pul kütləsinin fəaliyyətinin özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur.

Şəxsi istehlak üçün istifadə olunan vəsaitlər gəlirlərin artımı ilə yüksəlir. Qeyd etdiyimiz kimi, onlar gəlirlərin yüksəldiyi nisbətdə artmır.

Keynsin göstərdiyi kimi buna səbəb "əsas psixoloji qanun"un fəaliyyət göstərməsidir. Belə ki, gəlirlərin yüksəlməsi, sərvətin artması ilə adamların şəxsi istehlaka olan meyli azalır. Adamların belə davranışı onların əmanətlərə olan meyllərini yüksəldir.

İstehlak səviyyəsinin (s), gəlirlərin həcminə (ü) olan nisbəti Keyns, özünün məşhur əsərində (s/ü) istehlak yekunu adlandırır. İstehlak səviyyəsinin artımını (s), gəlirlərin artımına (ü) olan nisbəti (s/ü) istehlakın son yönümü adlandırır.

"Son" yönümü adlandırmaqda məqsəd ondan ibarətdir ki, əlavə gəlir kimi görünən onun artım səviyyəsinin istehlaka və əmanətə gedən hissələrinin bölgüsünün göstərilməsidir.

"Yönüm" və ya "meyl" ona görə adlanır ki, şəxsi istehlakın artımının ləngidilməsi və əmanətə olan meylin artması şəxsin özünün fərdi subyektiv davranışından irəli gəlir. Subyektiv xarakterli istehlak yönümü məcmu şəkildə onu sabit vəziyyətə salır.

downloaded from KitabYurdu.az

Bu əsasdan cəmiyyətdə belə iqtisadi psixoloji vəziyyət əmələ gəlir ki, gəlirlərin yüksəlməsi ilə onlar öz istehlaklarını artırırlar, lakin bu artımın ölçüsü fərqlənir. Nə qədər gəlirlər sürətlə yüksəlsə, adamlar şəxsi istehlaka yönəltdikləri hissəni azaldırlar, lakin əmanətlərə gedən hissəsini yüksəldirlər. Bu proses cəmiyyətin hakim əsas psixoloji qanunu kimi hal alır.

Adamların öz şəxsi istehlaklarının ödənilməsinə olan meyli o vaxt güclənir ki, onun və ailə üzvlərinin təxirəsalınmaz tələbatları meydana gəlir. Belə tələbatlar ödənildikcə tədricən bu meyl azalır ki, bu da əldə olunan gəlirlərin bir hissəsinin əmanət şəklində yığıma yönəldir. Deməli, bu prosesin daimi xarakteri o vaxt mövcud ola bilər ki, rifah halı və yaxud yaşayış səviyyəsi müəyyən həddə çatmış olsun.

Məhz bununla əlaqədar olaraq Keyns nəzəri-metodoloji mövqeyi baxımından əsaslandırdı ki, "cəmiyyətin psixologiyası" heç də iqtisadi qanunlardan az əhəmiyyətə malik deyildir. Ona görə də Keyns birmənalı qeyd edirdi ki, dövlət xadimlərini klassik siyasi iqtisad ruhunda tərbiyə etmək heç də onları sərvətin artırılması yolunda hər hansı yaxşı bir yolun göstərilməsi deyildir. Əksinə onlara iqtisadi proseslərin iştirakçılarının psixoloji yönümünü göstərməklə, eləcə də məşğulluğun genişləndirilməsinin investisiyadan asılı olduğu qanununu sübuta yetirməklə, cəmiyyətin sabit inkişafa nail olmağın yolunu göstərmək olar.

## § 3. "KAPİTALIN SON SƏMƏRƏLİLİYİ". ƏMANƏT VƏ İNVESTİSİYA. FAİZ NƏZƏRİYYƏSİ

Kapitalizm cəmiyyətinin yalnız üstünlüklərinin deyil, onun çatışmazlığına səbəb ola bilən cəhətlərini tədqiq edən Keyns onun həyatiliyini möhkəmləndirdi. Belə cəhətlərdən birini Keyns "Kapitalın son səmərəliliyinin" aşağı düşməsi hesab edirdi. O göstərirdi ki, mövcud kapital nemətinin hər əlavə vahid növünün, istehsal xərclərinə olan nisbəti kimi özünü əks etdirən kapitalın son səmərəliliyi gələcək qazanc gətirmək məqsədilə aşağı düşür. [73] Kapital kimi o hər cür gəlir və mənfəət gətirən

[73] C.M.Keyns, Göstərilən əsəri, səh.199-211

downloaded from KitabYurdu.az

şeyləri qəbul edirdi. O göstərirdi ki, kapital da öz məhdudluğu və yaxud nadirliyi baxımından mənfəət gətirir. Kapitalın həcminin artması ilə onun səmərəliliyi aşağı düşür. Keyns göstərirdi ki, elmi-texniki tərəqqinin inkişafı və kapital yığımının sürətlə artımı şəraitində təkcə bir nəslin dövründə kapitalın son səmərəliliyini sıfra endirmək olar.

Ona görə də kapital yığımında onun investisiyalaşma səviyyəsinə xüsusi diqqət verməyin zəruriliyini qeyd edirdi. Çünki məcmu tələbin stimullaşdırıcı amili investisiyadır. Onları istehlakçı tələbatının çatışmayan hissəsini doldurmalıdır. Yəni bu o deməkdir ki, investisiyanın artımı tələbi stimullaşdırmaqla onun tədiyə olunma qabiliyyətini yüksəldəcək. O da öz növbəsində möşğulluğun yüksəlməsinə səbəb olacaq. Bununla da milli gəlirin həcminin artımı baş verəcək. Lakin nəzərə almaq lazımdır ki, yığımın kapitalın investisiyaya yönəldilməsi müəyyən tərəddüdlərlə bağlıdır. Qeyd olunduğu kimi gəlirlərin artımı ilə əmanətlərin məbləği də yüksəlir. Lakin bu o demək deyildir ki, həmin nisbətdə də investisiya olunma imkanı baş verir. Əmanətlərin artımının investisiyaların artımına təlqin edilməsi məcburi deyil. Əmanətlərlə investisiyaların bərabərliyi pozulur. Bunun da səbəbi əmanətlərin və investisiyanın dinamika və səviyəsinə müxtəlif amillərin təsir göstərməsidir. Əgər investisiyanın həcmi dəyişən səviyyəli faiz dərəcələrindən, vergi qoyuluşundan, kapitalın gözlənilən rentabelliyindən, konyukturanın vəziyyətindən asılıdırsa, ancaq əmanətlər minimum yaşayış səviyyəsindən, istehlak səbətinin həcmindən, istehlakçıların zövqündən, gözləmə mövqelərindən və s.-dən asılıdır. Təkcə bir cəhəti də qeyd etmək lazımdır ki, faiz dərəcələrinin səviyyəsi əmanət və investisiyaya müxtəlif cür təsir göstərir. Faiz dərəcəsinin artımı ilə əmanətlərin məbləği artırsa, lakin investisiyaların həcmi azalır və əksinə. Deməli, faiz dərəcələri əmanət və investisiyaların bərabərsizliyinin həm əsas səbəbidir, həm də kapital tətbiqində qeyri-adi vəziyyət törədəndir. Keynsə qədər iqtisadçılar ənənəvi olaraq belə hesab edirdilər ki, kapital tətbiqində nə qədər qənaətçillik olsa, bir o qədər tərəqqi və iqtisadi artım baş verə bilər. Belə bir meylin qoyulması və iqtisadiyyata şamil edilməsi mütərəqqi bir proses kimi göstərilib və əsaslandırılırdı. Lakin Keyns sübut etdi ki, hər cür qənaətcilliklə əldə olunan qənaətlərlə istənilən nəticəni əldə etmək olmur, əksinə müəyyən müddətdən sonra

downloaded from KitabYurdu.az

onun qarşısını alır. Qənaətcillik hesabına şəxsi istehlakı azaltmaqla əmanətləri artırmaq olar. Lakin investisiyaları yüksəltmək olmur. Çünki iqtisadiyyatın mövcud vəziyyətində qənaətlərin səmərəli tətbiqi məkanının olması investisiyaların məbləğinin azalmasına səbəb olur. Çünki işsizliyin artımı, səmərəli tələbin olmaması, istehsalın səmərəliliyinin aşağı olması əmanətlərin hər vasitə ilə qorunmasına səbəb olur, onun investisiya olunmaq meylini zəiflədir. Keynsə qədərki iqtisadçılar bir cəhətə xüsusi diqqət verməlidirlər ki, əmanəti istehlakçılar, investisiyanı isə istehsalçılar həyata keçirirlər.[74] Əmanət və investisiyanın həyata keçirilməsində istehsalçı və istehlakçılar arasında reallaşdırılma baş vermir. Ona görə də Keyns sübut etdi ki, əmanətlərin investisiyaçıya çevrilməsi üçün, məsələn, makroiqtisadi səviyyədə həll olunmalıdır.

Yəni səmərəli tələbin baş verməsi üçün investisiya məsələsi dövlət tənzimlənməsinin əsas obyekti olmalıdır.

Mənfəətin səviyyəsi bir sıra amillərin təsiri nəticəsində aşağı düşdüyündən investisiya artımını ləngidir. İnvestisiyanın artım sürəti bilavasitə gözlənilən mənfəət səviyyəsindən asılıdır. Mənfəət normasının dəyişməsi investisiyanın artım sürətinə təsir göstərir. Mənfəət normasının aşağı düşmə meyli isə kapitalın məhsuldarlığının azalma qanunu ilə əlaqədardır. Kapital yığımının əvvəlki dövrlərindəki səviyyəsindən asılı olaraq mövcud resurslar investisiya olunmaq əvəzinə müxtəlif qiymətli kağızlar formasında əmanətə çevrilir. Nəzərə alınsa ki, faiz dərəcələri yüksək səviyyədə saxlanılsa gəlir və mənfəətdən əldə edilənləri avadanlıqların, maşın və cihazların alınmasına, zəruri ehtiyatların yaradılması meylindən vəsaitlərin əmanətə çevirmək yönümü daha çox üstünlük təşkil edir. Deməli, belə şəraitdə mövcud pul resursları iqtisadiyyatın inkişafına deyil (yəni investisiyaya deyil) əmanətlərin yığılmasına yönəldilir.

İnvestisiya bir qayda olaraq gözləmələrdən, risk etməkdən, onun məqsədyönlü istifadə olunmasından asılı olduğundan Keyns göstərirdi ki, belə şəraitdə mütləq məcmu tələbin həcmini genişləndirmək lazımdır.

---

[74] Брагинский С., В.Певзнер Я.А., Политическая экономия, дисскуссионные проблемы пути обновления. М.1991, стр.158

downloaded from KitabYurdu.az

Belə olmazsa investisiyanın ehtiyatlılığı və gözləmə mövqeyinə keçməsi onun daha çox nəğd vəsaitlərin əldə olunmasına üstünlük verilməsi meylini gücləndirəcək. Potensial istehsalçı, potensial istehlakçıya çevriləcək. Ona görə də Keynsə görə potensial investorların stimullaşdarılması işində dövlət mütəmadi iş görməlidir. İnvestisiyanı əmanətlərlə müqayisə edəndə onların arasındakı nisbəti araşdıran Keyns belə qənaətə gəlir ki, onların arasındakı bərabərlik cəmiyyətin iqtisadi həyatında olduqca mühüm rola malikdir. O hesab edirdi ki, investisiya ilə əmanətlərin bərabərliyi ümumi iqtisadi müvazinətı müəyyən edir. Bu fikrin əhəmiyyəti hər yeni iqtisadi sistem yaratmaq istəyən, o cümlədən iqtisadiyyatı böhrandan xilas etmək istəyən ölkələr üçün olduqca böyükdür.

Keyns birmənalı olaraq göstərirdi ki, müasir iqtisadiyyatda aşağı düşməyə meyl edən heç bir sərbəst qiymət hərəkəti mövcud deyil, ona görə də faiz dərəcələrini də bu istiqamətdə qurmaqla investisiyanı iqtisadiyyata cəlb etmək imkanını artırmaq olar. Bir qayda olaraq mənfəət norması faiz dərəcəsindən üstün olmalıdır. Lakin onun həddi o dərəcədə mümkün olmalıdır ki, pulunu istiqraz olunmağa verənlər onları özlərinə saxlamasınlar. Çünki iqtisadiyyatda baş verən qeyri-normal vəziyyət pulu olanları, hər ehtimala qarşı onları özlərində saxlayacaqlar ki, bu da iqtisadiyyatda yaranacaq defisitlik nəticəsində böhran əmələ gətirəcəkdir.

Keynsin elmi xidmətlərindən biri də onun faizlə əlaqədar olaraq irəli sürdüyü fikirlərlə bağlıdır. Əgər Keynsə qədər faiz dərəcəsinə, xüsusən onun səviyyəsinə, bir o qədər əhəmiyyət verilmirdisə lakin, o "səmərəli tələb"in həyata keçirilməsində faiz dərəcələrinin oynadığı rolu göstərə bilmişdir. Faizə o, bilavasitə pulların isteqraza verilməsi ilə əlaqədar olaraq əldə olunan haqq kimi baxırdı. Mənfəət kimi faizin də iqtisadiyyatda oynadığı müstəqil rolu göstərməklə yanaşı, onun həddinin, iqtisadi artım üçün daşıdığı əhəmiyyət göstərirdi ki, Keynsə görə faizin məbləği likvidlikdən və tədavüldəki pulların kəmiyyətindən asılıdır. Faizin məbləği likvidliklə düz, tədavüldəki pulların kəmiyyəti ilə əks nisbətdədir. Faizin səviyyəsi ilə əlaqədar Keyns göstərirdi ki, onun çox yüksək olması, cəmiyyətin ən böyük bəlasıdır. Onun səviyyəsi mənfəət səviyyəsindən yüksək olmamalıdır.

downloaded from KitabYurdu.az

Keynsin faiz nəzəriyyəsinin mərkəzində, faiz normasının aşağı salınması tələbi durur. Faiz norması "səmərəli tələbin" hərəkətinə birbaşa təsir göstərdiyindən onun dərəcələrinin makroiqtisadi səviyyədə tənzimləmək lazımdır. Çünki əgər faiz dərəcəsi yüksəkdirsə, sahibkarların mənfəəti ondan yüksək deyilsə, onda onlar likvidlik prinsipinə əsasən, öz vəsaitlərini istehsala deyil, banklara yönəldəcəklər. Əgər faiz dərəcəsi aşağıdırsa onda pul şəklindəki real kapitallar istehsala yönəldiləcək.

Keynsə görə faiz norması, müəyyən müddət ərzində pul sahiblərinin likvidlikdən imtina etdiklərinə görə əldə etdikləri mükafatdır. Sərvətin pul formasında saxlanılması əlverişli və çevik olduğundan, Keyns onu likvidlik adlandırır. Çünki pul sahibləri hər şəraitdə onlara gəlir gətirən vəsaitlərini istədikləri şəkildə istifadə edə bilərlər. Əgər faiz dərəcələri çox tərəddüdlü vəziyyətdə deyilsə, pul resurslarından istifadəyə görə əldə olunan vəsaitlər gəlirə çevrilir.

Keynsə görə faiz, sırf psixoloji fenomenindən irəli gəlir. Lakin bununla yanaşı faiz, iqtisadi həyatda pul resurslarının, istehsal fazalarının əlaqələndirilməsindəki rolu həddindən artıq böyükdür. Məhz bununla əlaqədar Keyns pul-kredit tənzimlənməsinin kapitalist təkrar istehsalı üçün oynadığı rolu göstərdi.

Faiz nəzəriyyəsindən belə qənaətə gəlmək olur ki, pul təklifinin həcminin dəyişməsi təkrar istehsala miqyasını dəyişən investisiya prosesinə ciddi təsir göstərir.

Pul təklifinin həcmi eyni zamanda pul bazarındakı psixoloji vəziyyəti dəyişib faiz normasının aşığı düşməsini təmin etməlidir. Lakin pul təklifinin həcmi, faiz normasının aşağı dərəcəsi ilə uzlaşmalıdır ki, o işgüzar aktivliyi aradan qaldırmamalıdır. Digər tərəfdən əgər pul təklifi, faiz dərəcələrini aşağı sala bilmirsə, deməli, pul-kredit tənzimlənməsi öz gücsüzlüyünü göstərir.

Belə şəraitdə pul tələbinin Keynsin fikrinə görə məruz qaldığı üç mühüm cəhəti diqqət mərkəzində saxlamaq lazımdır. Birincisi, əmtəə-pul tədavülündən irəli gələn tələbatı, ikincisi, bu tələbatdan irəli gələ biləcək ehtiyatı, üçüncüsü, görünməz xərclənməyə yönəldiləcək pul vəsaitlərinə görə alverçi mövqeyinin mövcud olmasını.

downloaded from KitabYurdu.az

## §4. MAKROİQTİSADİ TƏNZİMLƏNMƏ PROQRAMI. MULTİPLİKATOR KONSEPSİYASI

İqtisadiyyatın makro səviyyədə tənzimlənməsi əsasında onun səmərəliliyinin yüksəldilməsi sahəsində bütün bazar sistemli ölkələr üçün ən uğurlu nəzəriyyə, Keynsin irəli sürmüş olduğu proqram oldu. Özünün qeyd etdiyi kimi cəmiyyət həyatında etmək istədiyi inqilab həqiqətən baş verdi. Nəzəriyyədə edilən bu inqilab sadəcə iqtisadi siyasəti dəyişdirmədi, eyni zamanda gələcək dövrlər üçün makroiqtisadi tənzimlənmə sahəsində təkmilləşdirmə aparma işinin əsasını qoydü. Bununla belə, Keyns elə bir əsərin müəllifidir ki, "hamı ondan sitat gətirir, lakin heç kim onu oxumur".[75]

Keynsin makroiqtisadi tənzimlənmə sahəsindəki irəli sürmüş olduğu proqramdan əsasən aşağıdakı istiqamətləri qeyd etmək lazımdır.

Birincisi, faiz dərəcələrinin tənzimlənməsi ilə pul-kredit siyasətinin həyata keçirilməsi. Kreditlər üçün alınan faiz dərəcələrinin azaldılması ilə kredit alanların sayının artmasına olan meylini gücləndirmək. Belə şəraitdə kreditlərin dəyəri ilə kapital qoyuluşlarından gözlənilən mənfəət arasındakı fərq və "kapitalın son səmərəliliyi" yüksələr. Beləliklə, sahibkarlar pul vəsaitlərini qiymətli kağızlara deyil, istehsalın yüksəldilməsinə yönəldəcəklər. Lakin faiz dərəcələrinin aşağı salınmasını yeganə yol hesab etməyən Keyns göstərirdi ki, praktiki olaraq elə bir vəziyyət yarana bilər ki, pul kütləsi təklifinin artımı ilə faiz dərəcələrini aşağı salmaq dayanar. Bununla da likvidlik əmələ gələr. Yəni ucuz kreditlər üçün nəzərdə tutulan faiz dərəcələrinin həddindən artıq aşağı olması pul sahiblərini daha ehtiyatlı tərpənməyə sövq edəcəkdir.

İkinci istiqamət kimi, büdcə siyasətini qeyd etmək olar. Səmərəli tələbin baş verməsi üçün, eləcə də onun stimullaşdırılması üçün Keyns dövlət xərclərinin artırılmasını təklif edidi. Bu xərclərin tərkibində əsasən dövlət investisiyasının və əmtəələrin alınması üçün dövlət sifarişinin verilməsinin başlıca yer tutması nəzərdə tutulurdu. Eyni zamanda vergilərin də məbləğinin azaldılması təklif olunurdu. Lakin xərclərin

[75] М.Блауг, "Экономическая мысль в ретроспективе", М.1994, стр 628

downloaded from KitabYurdu.az

yüksəldilməsi ilə vergilərin azaldılması prinsipində üstünlüyü Keyns büdcənin xərc hissəsinə verirdi. Beləliklə də hesab edilirdi ki, büdcənin xərc hissəsinin artımını gələcəkdə yeni vergiyə cəlb olunma mənbələri ilə ödəmək yolu ilə tə"min etmək olar. Yeni vergilərin mənbəyi istehsalın genişləndirilməsi və məşğulluğun artırılması olacaqdır.

Dövlətin investisiyanın təşkilinə görə əsas məsuliyyəti öz üzərinə götürməsi, ictimai məqsəd və vəzifələrdən irəli gələn bir sıra işlərin görülməsini zərurilşdirəcək. Yəni kommunal işlərin görülməsi, yolların salınması, yeni resurs mənbələrinin mənimsənilməsi imkanı genişlənəcək.

Tələbin səmərəliliyinin artırılması ilə əlaqədar dövlətin iqtisadiyyatın tənzimlənməsi sahəsində iki, pul-kredit və büdcə istiqamətlərini fərqləndirən Keyns, üstünlüyü ikinciyə verirdi. O göstərirdi ki, istehsalın aşağı düşdüyü şəraitdə pul-kredit siyasətinin əsasında duran faiz norması iqtisadiyyata heç bir müdaxilə edə bilmir. Deməli, belə şəraitdə əsas diqqət faiz dərəcələrinin aşağı düşməsinə deyil, büdcənin xərclənməsinə yönəldilməlidir. Dövlətin elə xərclərini artırmaq lazımdır ki, onlar firmalarda investisiyalaşmanı stimullaşdırırlar.

Keynsin irəli sürdüyü tənzimləmə proqramından belə nəticəyə gəlmək olar ki,mənfəət normasının yüksəldilməsi üçün faiz səviyyəsinin aşağı həddini saxlamaqla, dövlət xərclərini investisiya olunmaq istiqamətində yüksəltmək və bu əsasdan da istehsalın miqyasını və məşğulluğun kəmiyyətini genişləndirmək lazımdır.

Keyns dövlətin iqtisadiyyatın tənzimlənməsində büdcə siyasətini birbaşa, pul-kredit siyasətini isə dolayı metod hesab edirdi.

Keynsin tənzimlənmə istiqamətində üçüncü cəhd kimi tam məşğulluq siyasətini də qeyd etmək lazımdır. Müəyyən işsizliyin saxlanılması ilə tam məşğulluğun həyata keçirilməsini Keyns sosial təminat sisteminin əsas xətti hesab edirdi. Həddindən artıq işsizliyin böyük bəlaya çevriləcəyi və onun aradan qaldırılması zəruriliyi qeyd olunurdu. Bununla əlaqədar uzunmüddətli kreditlərin verilməsi sisteminin inkişaf etdirlməsi, yardımların ödənilməsi proqramının işlək mexanizmindən istifadə olunması tövsiyə edilirdi.

Nəhayət, dövlət tənzimlənməsinin sonuncu istiqaməti kimi, onun ədalətlilik funksiyası ilə bağlı olan məsələnin həyata keçirilməsidir. Son

downloaded from KitabYurdu.az

dərəcə aşağı gəlir əldə edən əhali qrupunun mənafelərinin qorunması üçün gəlirlərin yenidən bölgüsü mexanizmindən istifadə məsələsinin də ön plana çəkilməsi tövsiyə edilirdi. Gəlirlərin yenidən bölgüsü siyasəti də aşağı tə"minatlı əhalinin də tələbini yüksəldə bilər. Nəhayət, ümumiyyətlə bütün alıcıların pula olan tələbatları yüksələr. Bu da cəmiyyətdə istehlak yönümlülük meylini gücləndirər.

Keynis nəzəriyyəsinin tərkib hissəsi olan multiplikator[76] konsepsiyası iqtisadi fikrin, (xüsusən investisiya ilə bağlı) formalaşmasında müstəsna rol oynamışdır. Multiplikator, investisiya vasitəsilə iqtisadi proseslərin yüksəldilməsi istiqamətini xarakterizə edir. Məqsədyönlü səmərəli tələbin əldə olunması üçün investisiyanın, ümumi məşğulluğun artımında xüsusi rol oynayır. Çünki investisiyanın və məşğulluğun səviyyəsi cəmiyyətdəki istehlak tələbatını artırmalıdır. Keyns istehsalın genişlənməsinin investisayanın artımı vasitəsilə həyata keçirilməsini, bunun da əlavə işçilərin cəlb olunmasına səbəb olacağını göstərməklə məşğulluğun, milli gəlirin və istehlakın yüksəlməsi prosesini şərh etmişdir. Belə ki, məşğulluğun ilkin yüksəldilməsi yeni investisiyaların tətbiqi ilə baş verir. Sonradan əlavə cəlb olunan işçilərin tələbinin ödənilməsi, əlavə məşğulluğun artımı baş verir. Əlavə məşğulluğun artımı əmsalını Keyns multiplikator adlandırmışdır. Multiplikator investisiyanın artımı ilə məşğulluq və gəlir arasındakı nisbəti əks etdirir. Bu yolla əldə olunan səmərə, multiplikator səmərəsi adlanır. Yəni investisiyanın artımı, özünün ilkin tətbiqi həcmindən çox məbləğdə milli gəlirin artımına səbəb olur.

Keyns multiplikator formulasını belə şəkildə göstərmişdir:

K= Üw/ Yw

Burada K-multiplikator əmsalı,

Üw-gəlirin artımı,

Yw-investisayanın artımı.

Multiplikator konsepsiyasına xüsusi diqqət yetirən Keyns qeyd edirdi ki, bu termini iqtisadi nəzəriyyəyə 1931-ci ildə R.F.Kan daxil etmişdir.

Lakin, R.F.Kanın xarakterizə etdiyi "məşğulluq multiplikatoru nəzəriyyəsi" idi. Bu da mikro səviyyədə başlıca olaraq investisiyaya cəlb

[76] Multiplikator sözü-vurulan, çoxalan, yüksələn mənasını verir.

downloaded from KitabYurdu.az

olunmuş sahə daxilində, aparılan məcmu məşğulluğu əks etdirirdi. Keyns özünün "investisiya multiplikatoru" adlandırdığı konsepsiya vasitəsilə ümumi investisiya məbləğinin artımı ilə gəlirin məbləğini və onun hər K dəfə investisiyanın artımından üstün artığını göstərdi.

Multiplikator səmərəsini ilkin olaraq ictimai işlərin təşkil olunması ilə məşğulluğun yüksəldilməsi timsalında göstərmişdi.

İctimai işlərin genişləndirilməsi ilə məşğulluğun artımının ictimai işlərə cəlb olunacaq işçilərin artımından qat-qat üstün artacağı müşahidə olunur. Bu isə sahələrarası qarşılıqlı əlaqənin mövcud olmasından asılıdır. Məsələn, dəmir yollarının salınması üçün cəlb olunmuş işçilərin istehlak şeylərinə olan tələbatları artacaqdır. Bu da öz növbəsində həmin sahələrdə istehlak şeyləri istehsalını genişləndirməklə əlavə məşğulluğa və həmin sahənin digər sahələrin məhsullarından asılı olduğu üçün orada istehsalın və əlavə məşğulluğun artmasına səbəb olacaq. Bu zəncirvari qarşılıqlı əlaqənin gedişatı ilkin multiplikator səmərəsindən asılıdır.

İnvestisiyanın artımı ilə gəlirlərin yüksəlməsi arasındakı qarşılıqlı əlaqə multiplikatorun ölçüsünü müəyyən edir.

Keyns multiplikatorun ölçüsünü "Son istehlak yönümü ilə" əlaqələndirirdi. "Son istehlak yönümü" isə istehlaka olan xərclərin gəlirlərin artımına olan nisbəti kimi müəyyən edilir.

Keyns göstərirdi ki, "nə qədər son istehlaka olan meyl" çox olarsa, bir o qədər multiplikator yüksək olar. Deməli, nəticə etibarilə məşğulluğun səviyyəsi yüksələr.

Yuxarıda göstərilən formula vasitəsilə Keyns ABŞ-ın iqtisadiyyatı üçün aparmış olduğu hesablamalara əsasən belə qənaətə gəlmişdir ki, burada multiplikator əmsalı 2,5-ə bərabərdir. Bu o deməkdir ki, gəlirin artımı 2,5 dəfə investisiyanın artımından çox olacaqdır.

Aparılan elmi tədqiqatlar sübut edir ki, dünyanın inkişaf etmiş ölkələrində multiplikator əmsalı 2 və 3 arasında tərəddüd edir. 80-cı illərdə ABŞ iqtisadiyyatında investisiyaların artımı 2,5 dəfə milli gəlirin artımına səbəb olmuşdur./Km = 2,5/[77]

---

[77] С.А.Бартенев, Экономические теории и школы. М.1996, стр.184

downloaded from KitabYurdu.az

Keyns ideyasının həyatiliyini çox misallarla sübut etmək olar. Sadəcə olaraq onun multiplikator konsepsiyasının dolğunluğu, onun iqtisadi inkişaf sahəsində oynadığı rolun inkar edilməzliyinə dəlalət edir.

Keyns göstərirdi ki, "Biz elə qoyulmuş qanun hesab edə bilərik ki, onun vasitəsi ilə bilavasitə investisiya ilə əlaqədar olan məşğulluğun artımı baş verir. Bununla da istər-istəməz istehlakçı üçün istehsal edən sənaye sahələri stimullaşdırılmalıdır. Beləliklə, bu da ümumi məşğulluğun artımına gətirib çıxarmalıdır.[78]

Multiplikator səmərəsinin baş verməsi üçün bir sıra müəyyən şəraitin olması vacibdir. Hər şeydən əvvəl o, özünü istifadə olunmayan istehsal avadanlıqlarının və sərbəst işçi qüvvəsinin mövcudluğu şəraitində göstərir. Bundan əlavə, iqtisadiyyatın sahə, ərazi, təkrar istehsal strukturunun nəzərə alınması. Nəhayət, iqtisadi artımın mövcud olması. Bir qayda olaraq, multiplikator səmərəsi iqtisadiyyatın tənəzzülü şəraitində deyil, artdığı şəraitdə baş verir.

Multiplikator səmərəsini Keyns, ilk növbədə dövlət büdcəsi ilə əlaqələndirərək, onun ictimai işlərə xərclənməsi hissəsi ilə əlaqələndirirdi. Lakin burada hər cür məşğulluq xatirinə deyil, səmərə verə biləcək istiqamətdə ictimai xərcləri artırmaq lazımdır. O göstərirdi ki, ola bilər ki, xəzinədarlar köhnə boş butulkalara banknotları doldurub, fəaliyyət göstərməyən kömür şaxtalarına doldursunlar. Üstünə də şəhərin zibilliyini salsınlar.

Sonra şəxsi bir təşəbbüskarlıq nəticəsində ən yaxşı üsullarla həmin banknot tutumlarını ordan çıxartmaq işi irəli sürülsə, ola bilsin ki, birbaşa işsizlik tamamilə aradan qalxsın.

Dolayı tərəfdən isə cəmiyyətdə real gəlirləri artıra bilər, kapitalın həcmini, əvvəlkilə müqayisədə daha çox yüksəldər. Ona görə də yaşayış evlərinin və s. tikilməsi daha məqsədəuyğundur.

Keynsin multiplikator konsepsiyası əsasında müasir şəraitdə iqtisadiyyatın dövlət tənzimlənməsinin həyata keçirilməsi üçün iqtisadi siyasətlər müəyyənləşdirilir. Multiplikator səmərəsinin mahiyyətini dərk etmək, onun çoxsaylı qarşılıqlı əlaqələr prinsipinin nəzərə alınması, iqtisadi

---

[78] Keyns C.M., "Göstərilən əsəri", səh.182-185.

downloaded from KitabYurdu.az

inkişafını təmin etmək istəyən hər bir ölkə üçün vacib əhəmiyyətə malikdir.

## §5. KEYNS NƏZƏRİYYƏSİNDƏ QİYMƏT VƏ İNFLYASİYA. KEYNSÇİLİK VƏ ONUN ƏSAS CƏRƏYANLARI

İqtisadi siyasətində iqtisadiyyatın milli xarakterini qəbul edən Keyns öz tədqiqatlarında pul nəzəriyyəsinə xüsusi diqqət yetirmişdir. Ölkədə pul kütləsinin artırılmasının tərəfdarı olan Keyns onların istehsalda investisiya olunması üçün aşağı faiz dərəcələri ilə tətbiq olunması imkanlarını göstərirdi. Bununla yanaşı o qeyd edirdi ki. pul çatışmazlığı işsizliyin əsas səbəbidir. Pul kütləsinin artırılması, faiz dərəcələrinin aşağı salınmasını göstərən Keyns eyni zamanda qiymətlərin yüksəldilməsini də təklif edirdi. Bunu da xüsusən ticarətin və istehsalın genişləndirilməsinin mümkün amili hesab edirdi.

İnflyasiya ilə əlaqədar o göstərirdi ki, nə qədər ki, istehsal amillərinin tam məşğulluğu yoxdur, onların istifadə olunması səviyyəsi, pulun kəmiyyətinə uyğun olaraq dəyişiləcək, yox əgər oların tam məşğulluğu varsa, onda qiymətlər, pul məbləğinə uyğun dəyişiləcək.

Lakin səmərəli tələb, mövcud natamam məşğulluq şəraitində də, pul kütləsinə uyğun proporsiyada dəyişməyəcək. Çünki onun dəyişilməsi üç elementin uzlaşmasından asılıdır. Birincisi, likvidlik qrafikindən. Bu faiz normasının aşağı düşməsindən asılı olaraq, əlavə pul kəmiyyətini nağd saxlamaq istəyənləri əks etdirir. İkincisi, son səmərəlilik qrafikindən. Bu mövcud faiz normasının aşağı düşməsi ilə investisiyanın yüksəldilməsini əks etdirir. Üçüncüsü, multiplikatorlu investisiya qrafikdən. Bu mövcud investisiyanın artımının, bütövlükdə səmərəli tələbin yüksəlməsini əks etdirir.[79]

Resursların istifadə olunması səviyyəsi yüksəldikcə, onların səmərəliliyi aşağı düşəcək, istehsal xərclərinin kəmiyyəti yüksələcək. Bundan əlavə, müxtəlif növ istehsal olunan məhsulların elastiklikləri müxtəlif olduğundan, onların bir qisminin təklif olunması, resursların tam

[79] C.M.Keyns, Göstərilən əsəri, səh.370-375.

downloaded from KitabYurdu.az

istifadə olunmasına qədər qeyri-elastik olacaq. Eyni zamanda resursların tam cəlb olunmasına qədər əmək haqqının artımı meyli, ayrı-ayrı işçilər üçün müxtəlif səviyyədə baş verəcək. Bütün bunları nəzərə alan Keyns qeyd edirdi ki, "mövcud istifadə olunmamış resurslar və qiymətlər şəraitində, biz sabit qiymət əvəzinə, praktiki olaraq resursların tam istifadə olunduğu şəraitdə pul məbləğinin proporsional şəkildə artan qiymətləri müşahidə edəcəyik. Bu qiymətlər məşğulluğun artımı ilə tədricən artır."[80]

Keyns qiymət nəzəriyyəsində, yəni pul kəmiyyətinin dəyişməsi ilə qiymət səviyyəsinin dəyişməsi arasındakı nisbəti, onlara təsir göstərən bütün mürəkkəb amillər qrupunun təhlili ilə aparırdı.

Mürəkkəb tədqiqat modelinə keçən Keyns göstərirdi ki, hər cür pul təklifinin artımı, qiymətlərin artımı ilə əmək haqqının yüksəldilməsi, istehlakın və məşğulluğun artımı həddi arasında fəaliyyət göstərəcək. Yəni pul təklifi yüksəldikcə, cəmiyyətin həyatında iki mühüm, bir-birini əsaslandıran və tədricən bir-biri ilə bir araya sığmayan iki meyar baş verir. Bir tərəfdən hamının istədiyi əmək haqqının yüksəlməsi, istehsalın miqyasının və məşğuluğun artması baş verir. Digər tərəfdən çoxlarının istəmədiyi, lakin labüd iqtisadi proseslərdən doğan qiymətlərin yüksəlməsi baş verir. Bu əsasdan da o, mütləq inflyasiya ilə yarım inflyasiyanı fərqləndirir. Burada əsas meyar məşğulluq səviyyəsi götürülür. Yəni tam məşğulluq şəraitində səmərəli tələbə cavab olaraq baş verən inflyasiya yarımçıq formada qəbul edilir.

Səmərəli tələbə görə əmək haqqının artımı ilə əmtəə və xidmətlərin qiymətlərinin artımını fərqləndirən Keyns göstərirdi ki, heç vaxt onlar eyni proporsiyada baş vermir. Burada o, qiymətlərin daha üstün artımı meylini göstərirdi. Uzun bir müddət ərzində qiymətlər həmişə artım istiqamətində dəyişilir.

Keyns qeyd edirdi ki, qiymətlərin sabitliyi və ya qeyri-sabitliyi uzun müddət üçün əmək haqqı vahidinin artım sürətinin istehsalın səmərəliliyinin artım sürətinə nisbətən üstünlüyü meylindən asılıdır.

Buradan da belə qənaətə gəlmək olar ki, Keyns öz əsərində istehsal xərcləri inflyasiyası nəzəriyyəsinin əsasını qoymuşdur. Yəni qiymətlərin artımı, tam məşğulluğu qədər baş verən əmək haqqının yüksəldilməsindən

---

[80] Yenə orada, səh. 376.

downloaded from KitabYurdu.az

asılıdır. Ona görə də o, əmək haqqının hər vahidinə düşən səmərəli tələbi hesablamağa cəhd göstərirdi. Bununla da real səmərə ilə əmək haqqının artımına yönəldilmiş pulu fərqləndirirdi.

Keynsə qədərki, yeni klassik nəzəriyyədə tələbin və məşğulluğun artımının əsas mənbəyi əmək haqqının aşağı salınması hesab edilirdi. Bu meyli çox ətraflı tədqiq edən Keyns belə qənaətə gəlmişdi ki, ona o vaxt nail olmaq olar ki, səmərəli tələb parametrini əhatə edən üç amili, istehlaka yönümlülüyü, kapitalın son səmərəliliyini və faiz normasının aşağı düşmə meylini eyni vaxtda əhatə etmiş olsun. Lakin əmək haqqının aşağı salınması səmərəli tələbi yalnız o vaxt əhatə edir ki, o zaman faiz norması aşağı düşmüş olsun. Belə aşağı salınma səmərəsi isə yalnız pul təklifinin artımı sahəsində aparılan bank siyasətindən asılıdır. Keyns göstərirdi ki, bir halda ki, vəziyyət belədir onda əmək haqqının aşağı salınmasının nə mənası var. Çünki onun aşağı salınması bir çox sosial çətinlikləri törədir. Halbuki, bank siyasəti vasitəsi ilə faiz normasını aşağı salmaqla səmərəli tələbin artımına nail olmaq olar.

Bütün bunları nəzərə alan Keyns sübut etdi ki, səmərəli tələbin artımına əmək haqqının aşağı salınması deyil, onun sabit saxlanılması ilə nail olmaq olar.

Keynsin irəli sürmüş olduğu ideyalar elmi cəhətdən nə qədər tutarlı və metodoloji baxımından nə qədər dərk olunan olsa da, o bazar sistemli ölkələrin iqtisadçıları arasında birmənalı qəbul olunmadı. Onun "səmərəli tələb" nəzəriyyəsi, iqtisadiyyatın makro səviyyədə dövlət tənzimlənməsi, məşğulluq, faiz dərəcəsi, əmək haqqı, inflyasiya, pul-kredit və büdcə-vergi siyasəti, iqtisadi artım, böhranlar, iqtisadi tsikl və s. haqqında irəli srmüş olduğu ideyaları bir sıra ölkələrdə iqtisadçılar tərəfindən  qəbul edilsə də, lakin onlar ona öz tənqidi mülahizələrini də bildirirdilər. Lakin Keynsin irəli sürmüş olduğu iqtisadi konsepsiya, D.Rikardo, K.Marks, L.Valras və A.Marşallda olduğu kimi, onu da tənqid hədəfinə çevirdi. Bütün tənqidlərə baxmayaraq dövr keçdikcə onun iqtisadi konsepsiyası öz həyatiliyini göstərirdi. Bu əsasdan da keynsçilik bir iqtisadi cərəyan kimi mövcud olmağa başlayır. Keynisçilik vahid bir istiqamət olmayıb, öz tətbiqində üç cərəyana bölünür. Birincisi, radikal islahatçı cərəyanı, başlıca olaraq inhisarçı dövlət kapitalizminin mənafeyini müdafiə edir. İkincisi, liberal

downloaded from KitabYurdu.az

cərəyan, bunlar da inhisarçılığı müdafiə etməklə kapitalist iqtisadiyyatının sabitliyini başqa vasitələrdə axtarmağa üstünlük verirlər. Üçüncüsü, sol keynsçilərdir ki, onlar da iqtisadi inkişafı əsaslı səmərəli tələb səviyyəsinə təsir göstərən milli gəlirin bölgüsündə görürlər.

Bu proses Keyns nəzəriyyəsinin keçən son 60 ili ərzində davam etmiş və onu müasir keynsçilik cərəyanına gətirib çıxarmışdır. Keynsin nəzəriyyəsi ilə müasir keynsçilik üst-üstə düşmür. Bütün elmi istiqamətlərdə olduğu kimi Keyns nəzəriyyəsi sadəcə təkrar olunmamış, ondan metodoloji əsas kimi istifadə olunmaqla, inkişaf etdirilmişdir. Bununla əlaqədar Keynsin özündə olmayan, oldüqca mütərəqqi elmi konsepsiyalar meydana gəlməyə başlamışdır.

Müasir keynsçilik cərəyanı haqqında danışarkən burada əsasən iki ölkənin ABŞ və Fransa iqtisadçılarının adını qeyd etmək lazımdır.

Amerikada Keyns nəzəriyyəsinin davamçılarından S.Xarrisi, E.Xanseni, C.Klarkın və b. qeyd etmək olar. Onlar öz əsərlərində Keynsin işsizlik və böhran, multiplikator, iqtisadiyyatın tənzimlənməsi və dövlətin həlledici rolu haqqındakı əsas müddəalarını qəbul etməklə, iqtisadiyyatda yeni cərəyan kimi, konkret spesifik şəraitə uyğun öz elmi konsepsiyalarını gətirdilər.

Bazar iqtisadiyyatının ən üstün cəhəti kimi nəzərdə tutulan özü-özünə tənzimlənmə ideyasını, Keyns öz "səmərəli tələb" nəzəriyyəsi ilə birləşdirərək sübut etdi ki, iqtisadi resurslardan yalnız dövlətin iqtisadiyyata müdaxiləsi ilə daha səmərəli istifadə etmək olur. Məhz bu əsasdan da Amerika məktəbinin nümayəndələri göstərdilər ki, iqtisadi konyukturadan asılı olaraq dövlət öz xərclərindən manevredici formada istifadə edə bilər.

Belə ki, iqtisadiyyatın yüksəldiyi şəraitdə investorlar məhdudlaşır. Lakin aşağı endiyi şəraitdə yüksəlir. Bununla əlaqədar olaraq dövlət büdcəsinin iqtisadi artımın, iqtisadiyyatın tənzimlənməsinin əsas mexanizmi olduğunu göstərirdilər.

Dövlət büdcəsinin formalaşmasında vergilərin rolunu nəzərə alaraq, Keyns nəzəriyyəsinə tamamilə əsaslanaraq, amerikan iqtisadçıları hesab edirdilər ki, əhalidən tutulan vergilərin məbləği 25 faiz və bir qədər ondan çox ola bilər.

downloaded from KitabYurdu.az

Keyns nəzəriyyəsində multiplikator prinsipi əsas yer tuturdusa və o, gəlirlərin artım səviyyəsinin investisiyalardan asılılığını göstərirdisə, lakin Amerika keynsçiləri əvvəlcə E.Xansen, sonra C.Klark və b. iqtisadiyyatda yeni akselerator prinsipini gətirdilər. Akselerator prinsipi multiplikator prinsipinin əksi olaraq, gəlirlərin artımı ilə investisiyanın artımını əks etdirir. Burada əsas diqqət istehsal müddətinə verilərək maşın və avadanlıqların genişlənməsi prosesi ilə əlaqədar irəli gələn real investisiyaya olan tələbin artması nəzərdə tutulur. Əgər multiplikator kapital qoyuluşunun artımı ilə müşahidə olunursa, lakin akselerator gəlirlərin artımının kapital qoyuluşunun yüksəldilməsi meyli ilə xarakterizə olunur.

Müasir təkrar istehsal nəzəriyyəsinin əsasında demək olar ki, amerikan iqtisadçılarının irəli sürdüyü akselerator prinsipi üstün yer tutur.

Qərbi Avropa ölkələrində faşist Almaniyası ilkin olaraq Keynsin iqtisadiyyatın dövlət tənzimlənməsi ideyasını qəbul etdi. Faşist nazir Y.Şaxt göstərirdi ki, Keynsin nəzəriyyəsi, milli-sosialist iqtisadiyyatının əsaslandırılması üçün olduqca yararlıdır. Lakin faşizmin təcavüzkarlığı, bu nəzəriyyənin ölkə iqtisadiyyatına tətbiq olunmasına əngəl törətdi.

Lakin 40-cı illərin əvvəllərində Fransa iqtisadi fikrində keynsçilik yer tutmağa başladı. Əgər bir sıra iqtisadçılar Q.Arden, P.Mendes-Frans, Keynsin nəzəriyyəsini heç bir düzəliş olmadan qəbul edirdilərsə, lakin F.Perru və b. dövlətin iqtisadiyyata müdaxiləsi ideyasını tənqidi şəkildə qəbul edirdilər. Xüsusən yeni investisiyaların stimullaşdırıcı vasitəsi hesab olunan borc faizinin tənzimlənməsini vacib hesab etmirdilər. Bununla əlaqədar fransız iqtisadçıları iqtisadiyyatın planlaşdırılmasına üstünlük verirdilər. Planlaşma ilə iqtisadiyyatın strukturuna və müvafiq artım sürətinə, eləcə də fasiləsiz investisiya prosesinə nail olmağın mümkünlüyünü sübut edirdilər.

Lakin bu planlaşmanı indikativ formada, yalnız dövlət sektorunda iqtisadiyyatın uzunmüddətli proqnozlaşdırılması ilə əlaqələndirirdilər. Heç cür kooperativ planlaşdırmaya yol verməməyi təklif edirdilər. Yəni iqtisadiyyatın həm dövlət, həm kooperativ, həm də xüsusi sektorunu vəhdət şəklində əhatə edən imperativ planlaşdırma direktiv, sosialist xarakter daşıdığından, onu iqtisadiyyata tətbiq etmək olmaz.

downloaded from KitabYurdu.az

1950-ci illərdən başlayaraq Massaçust Texnoloji Universitetinin professoru Evsey Domar və Oksford Universitetinin professoru Robert Xarrod Keynsin iqtisadiyyatın dövlət tənzimləməsi mümkünlüyünü və imkanlarını nəzərə alaraq iqtisadi artım sürətinin daimi mexanizmini təmin edən yeni nəzəriyyə işləyib hazırladılar.

İqtisadiyyatda  dinamik müvazinətın qorunması üçün bütün istehsal güclərindən və əmək resurslarından istifadə olunmasına əsaslanan daimi iqtisadi artım sürəti nəzəriyyəsi, Keynsin iqtisadi konsepsiyasından irəli gələn ən mütərəqqi elmi istiqamətdir.

Keyns nəzəriyyəsi, təkcə bir cərəyan kimi, yalnız 30-cu illərdən başlayaraq iqtisadi proseslərin tədqiqində tətbiq olunmaqla hüdudlanmayıb. 70-ci illərdən başlayaraq bu cərəyan yeni keynsçilik istiqamətlərində formalaşmağa başlamışdır. Düzdür, əvvəllər postkeynsçilik nəzəriyyəsi istiqamətində tədqiqatlar aparılırdısa, lakin 70-ci illərin sonundan başlayaraq yeni keynsçilik nəzəriyyələri meydana gəlməyə başladı. Bu nəzəriyyədə  Keynsin qeyri-müvazinət modeli əsas yer tuturdu. Yeni keynisçilik nəzəriyyəsində qeyri-müvazinətlik, Valrasın ümumi müvazinətə konsepsiyası əsas götürülürdü. Burada bazar növlərinin qarşılıqlı əlaqədə olması və eyni vaxtda dəyişikliklərə məruz qalması ilə izah olunurdu ki, bu Keynsin qeyri-müvazinətlə bağlı gəlmiş olduğu fikri təsdiqləyirdi.

Bu istiqamətdə aparılan tədqiqatlar böyük uğur qazanmasa da, lakin nominal qiymətlərlə əmək haqqının sərt qovuşdurulması qeyri-müvazinətə və işsizliyə səbəb olacağı ideyası bir daha əsaslandırıldı.

Keyns nəzəriyyəsinə dəyərli töhfələr gətirən iqtisadçılardan Nobel mükafatı laureatları C.Tobini, F.Xanini, R.Lukası, C.Stiqlisi və b.-nı qeyd etmək olar.

Yeni keynsçilik nəzəriyyəsini neokeynsçilik nəzəriyyəsindən fərqləndirmək lazımdır. Çünki neokeynsçilik nəzəriyyəsinin nümayəndələri, müharibədən sonrakı illər ərzində iqtisadi tsikl və artım sahəsində tədqiqat aparanlar idilər.

Yeni keynsçilik nəzəriyyəsində əsas istiqamətlərdən biri də inhisarçılıq və qeyri-təkmil informasiya şəriatində iqtisadi proseslərin gedişatının qəbul olunmasıdır. İnhisarçılıq elementlərinin meydana

downloaded from KitabYurdu.az

gəlməsini bir qayda olaraq yeni keynsçilik nəzəriyyəsinin nümayəndələri istehsal olunan məhsulların yekcins olmaması ilə izah edirdilər.

Ümumiyyətlə, keynsçilik öz fəaliyyətinə görə üç istiqamətə bölünür: postkeynsçilik, neokeynsçilik və yeni keynsçilik.

Keynsçilik nəzəriyyəsinin əsas aparıcı istiqaməti postkeynsçilikdir. Belə ki, bu cərəyanın nümayəndələri "Keyns inqilabının əhəmiyyətini" hər vasitə ilə müdafiə edərək onu neoklassik səviyyəyə qaldırırlar.

Postkeynsçilik cərəyanının ən görkəmli nümayəndələrini Con Robinsonu, Nikalas Kaldoru və Pyer Sraffanı hesab etmək olar. Postkeynsçiliyə baxış, 1956-cı ildə iki iri sanballı işin dərc olunmasına təsadüf edir. Bunlardan biri C.Robinsonun dərc etdirdiyi "Kapital yığımı" əsəri və N.Kaldorun dərc etdirdiyi "Bölgünün alternativ nəzəriyyəsi" əsərləridir. 1960-cı ildə P.Sraffanın dərc etdirdiyi "Əmtəə vasitəsi ilə istehsal olunan əmtəələr" əsəri postkeynsçilik istiqamətinin bir cərəyan kimi tam formalaşmasına səbəb oldu.

Postkeynsçilik cərəyanının nümayəndələri Keyns inqilabını başa vurmaq üçün onun makroiqtisadi nəzəriyyəsinə əsaslanmaqla yanaşı, eyni zamanda iqtisadi proseslərin izahına qiymətqoyma və bölgüdən istifadə etməyə də xüsusi diqqət yetirirdilər.

Postkeynsçilik öz ideyasına, metodologiyasına və tədqiqat obyektinə görə üç istiqamətə bölünür. Bunlar monetar, kaletskiçilik və neorikardoçuluq istiqamətləridir.

Monetar postkeynsçiliyin əsas xüsusiyyəti, iqtisadiyyatda pulun rolunun gücləndirilməsi ilə bağlıdır. Pulun iqtisadiyyatda oynadığı müstəsna rolu nəzərə alınmaqla təkrar istehsal prosesinin artım və miqyasına olan təsir öyrənilmişdir. Keynsin pulun istehsalın miqyasına və məşğulluğun səviyyəsinə olan təsiri əsas meyar kimi qəbul edilmişdir.

Bu cərəyan əsasən ABŞ-da, İngiltərədə, Kanadada geniş vüsət almışdır.

Kaletskiçilik postkeynsçiliyin fərqləndirici xüsusiyyəti, Polşa iqtisadçısı Kaletskinin səmərəli tələbin qeyri-təkmil rəqabət şəraitində öyrənilməsi ideyasının əsas götürülməsi ilə əlaqədar olduğunun göstərilməsidir.

downloaded from KitabYurdu.az

80-cı illərdə meydana gələn bu cərəyan əsasən İngiltərədə, Kanadada, Avstriyada, İtaliyada geniş yayılmışdır. Bu cərəyanın nümayəndələri Kaletskinin ardıcılları kimi, makroiqtisadi nəzəriyyənin mikroiqtisadi aspektlərinə üstünlük verirlər. Onlar əvvəla, Marşall elementlərini qəbul etmirlər. Halbuki bu cəhət monetar postkeynsçilikdə üstünlük təşkil edirdi. İkincisi, təsərrüfat dinamikası, qısamüddətli və tsiklik şəkildə götürülərək real vəziyyətə uyğun öyrənilir. Üçüncüsü bölgü proseslərinin təhlili sırf sinfi mübarizəyə uyğun aparılır.

Postkeynsçilik cərəyanının üçüncü istiqaməti olan neorikardoçülüğün fərqləndirici xüsusiyyəti Keynsin səmərəli tələb nəzəriyyəsinin, Rikardonun dəyər nəzəriyyəsi ilə birləşdirilməsi ideyasından ibarətdir.

Neorikardoçülüğün başlıca olaraq İtaliyada geniş yayılmasına baxmayaraq, o İngiltərədə və Hindistanda da öyrənilmişdir. Bu istiqamətin nümayəndələri, Keyns nəzəriyyəsinin gəlirlərin və istehsalın səviyyəsini müəyyən edən əmanətlərlə investisiya arasında olan nisbət ideyasını əsas götürürlər.

Bununla yanaşı bu istiqamət üçün əsas cəhət müvazinətin müəyyənləşdirilməsi prinsipinin üstünlük təşkil etməsidir. Müvazinətın baş verməsi əsasən tələb və təklif arasında deyil, istehsal və bölgü şəraitlərinin uzlaşdırılmasında görülür. Müvazinətin özü isə iqtisadiyyatın bütün sektorları üçün vahid və ya eyni mənfəət normasını müəyyən etməklə, ona vahid əmək haqqı səviyyəsinin yaradılması kimi baxılırdı. Əmək haqqının bu səviyyəsinin isə istehsalın həcminə və məşğulluğun səviyyəsinə təsir göstərdiyi qeyd edilirdi.

Ümumiyyətlə, keynsçilik cərəyanının İngiltərədə, İtaliyada, Fransada, Kanadada və digər ölkələrdə geniş yayılmasına baxmayaraq, o əsasən ABŞ-da inkişaf etmişdir. Xüsusən bu istiqamətdə A.Xaninin və S.Xarrisin tədqiqatlarını qeyd etmək olar.

A.Xansen (1887-1975) "İqtisadi tsikllər və milli gəlir", "Keyns nəzəriyyəsinin rəhbər tutulması", "60-cı illərin iqtisadi problemləri" əsərlərində, S.Xansen (1897-1974) isə "Con M.Keyns iqtisadçı və siyasi xadim" əsərində Keyns nəzəriyyəsini inkişaf etdirmişlər. Onların tədqiqatları neokeynsçilik adı almışdır.

downloaded from KitabYurdu.az

Neokeynsçilik üçün əsas xarakterik əlamət mövcud dövlət quruculuğu şəraitində işsizliyin və böhranın səbəblərini və onun iqtisadiyyatın dövlət tənzimlənməsi üçün daşıdığı əhəmiyyəti göstərməkdən ibarətdir. Bundan əlavə neokeynsçilik üçün xüsusi kapitalist bölməsinin inkişafını təmin etməkdən ötrü dövlət sifarişlərinin verilməsi xüsusiyyətlərinə diqqətin artırılması başlıca istiqamət kimi qəbul edilir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, keynsçilik nəzəriyyəsi postkeynsçilik, neokeynsçilik, yeni keynsçilik istiqamətində inkişaf etsə də, onların bir ümumi cəhəti vardır ki, o da Keyns nəzəriyyəsinin mövcud şəraitə uyğun olaraq inkişaf etdirilməsinə imkanın yaradılmasından ibarətdir.

Keynsin iqtisadi artım nəzəriyyəsi demək olar ki, artım nəzəriyyəsi sahəsində ediləcək bir sıra mühüm ümumi müddəaların əsaslanmasına imkan yaratmışdır. Bu istiqamətdə bir-birindən asılı olmayaraq ingilis iqtisadçısı R.Xarrodun və Amerika iqtisadçısı E.Domarın gəldikləri nəticələri xüsusi qeyd etmək lazımdır. Amerika iqtisadçısı D.Xemberqin təbirincə demiş olsaq, R.Xarrodun və E.Domarın artım modelləri, Keyns modeli çərçivəsində aparılan ilk ümumiləşmələri əks etdirən tədqiqatlardandır.

Belə ki, onların "iqtisadi dinamika" artım prosesini müəyyən edən amillərin rolunu qısa müddətdən uzun müddətə keçirə bilmişlər. Əgər Keynsin modelində milli gəlirin müvazinətinin formalaşması şəraiti əks olunursa, lakin R.Xarrodun və E.Domarın modelində milli gəlirin artım sürətini təmin edən müvazinətli və ya sabit məcmu şərtləri əks olunur.

İqtisadi artım nəzəriyyəsi mahiyyət etibarilə belə şəraitdə iki qrup amillərlə rastlaşır.

Birinci qısa müddət ərzində milli gəlirin sabit artım sürətini müəyyən edən şərtləri müəyyənləşdirmək, ikincisi isə bu vəziyyətdən asılı olan uzunmüddətli artıma imkan verən şərtləri əsaslandırmaq.

Sabit, daha doğrusu, qeyri-sabitli dinamik müvazinətli artım, əgər Keyns nəzəriyyəsi üçün xarakterik hal idisə, lakin Xarrod və Domar isə bu prosesi bilavasitə kapital qoyuluşu ilə və texniki tərəqqinin səviyyəsi ilə əlaqələndirirdilər.

downloaded from KitabYurdu.az

Artıq qeyd etdiyimiz kimi, Keyns modelində artım problemi əmanət və investisiyanın nisbəti prizmasında öyrənilirdi. Əmanət və investisiya arasındakı müvazinət, dinamik müvazinəti xarakterizə edirdi.

Lakin Xarrod milli gəlirin artım sürəti ilə kapital qoyuluşunun artım süoəti arasındakı nisbətlə milli gəlirdəki əmanətlərin payı arasmındakı müvazinəti əsas götürmüşdür.

Xarrod qeyd edirdi ki, faktiki iqtisadi artım sürəti çox adamların cəhətlərindən və səhvlərindən asılı olaraq formalaşır.

Lakin hər bir artım, təbii artım səviyyəsi ilə hüdudlaşmalıdır. Bu da əhalinin artımından, mövcud iş qüvvəsinin təklifindən və istesalın texniki şəraitindən asılıdır.

Beləliklə, Keyns modelindən irəli gələn artım nəzəriyyələrini tədqiq edən iqtisadçılar belə qənaətə gəlmişlər ki, artım prosesinə imkan verən bütün amillər qarşılıqlı əlaqədədirlər. Bu da bir-birindən asılı olan iqtisadi əlaqələrin təkrar istehsalı sahəsində yeni istiqamətlərin meydana gəlməsinə səbəb olmuşdur.

Bütün bu deyilənləri ümumiləşdirib belə qənaətə gəlmək olar ki, Keyns səmərəli tələb nəzəriyyəsinin istehsalın, məşğulluğun tənzimlənməsinin keyfiyyətcə yeni konsepsiyasını yaratdı.

Bununla da o, birincisi, kapitalist iqtisadiyyatı üçün, ona qədər xas olan özü-özünü tənzimlənmə prinsipini rədd etdi. Göstərdi ki, kapitalist iqtisadiyyatında böhranlar baş verir. Səbəbi istehsal güclərindən, eləcə də əmək resurslarından tam istifadə olunmamasıdır. Sübut etdi ki, kapitalist iqtisadiyyatının müvazinətli inkişafı üçün təkcə bazar elementləri kifayət etmir.

İkincisi, o əsaslandırdı ki, cəmiyyətdə milli sərvətin artımı ilə, səmərəli tələbi qorumaq həm çətinləşir, həm də günün ən vacib məsələlərinə çevrilir. Gəlirlərin artımı, adamların əmanətlərə olan meylini gücləndirir.

Üçüncüsü, o sübut etdi ki, əmanətlərlə investisiyanı fərqləndirmək lazımdır. Çünki kapital yığımında əsas rolu əmanətlər deyil, investisiya oynayır. Əmanətlərlə investisiya arasında müvazinəti yaratmaq əslində iqtisadi aktivliyi təmin etmək deməkdir. Əgər əmanətlər investisiyadan azdırsa, iqtisadi aktivlik aşağı düşür. Əks istiqamətdə isə, yəni əmanətlər

downloaded from KitabYurdu.az

investisiyadan çox olarsa, onda iqtisadi aktivlik yüksəlir. Çünki hər bir əmanətin real məşğulluq səviyyəsindən, faiz dərəcəsindən asılı olaraq investisiya olunmaq imkanı var.

Dördüncüsü, makroiqtisadi təhlillə əlaqədar olaraq, onun irəli sürmüş olduğu ideyalar, müasir iqtisadi siyasətin formalaşmasına, xüsusən müasir keynsçilik cərəyanın qüvvətlənməsinə səbəb oldu.

Beşincisi, Keynsin iqtisadi ideyaları təkcə klassik bazar sistemli ölkələr üçün deyil, eyni zamanda bazar iqtisadiyyatına keçən ölkələr üçün də xüsusi əhəmiyyət kəsb edir. Ona görə də dünyanın bir sıra ölkələri öz milli iqtisadi inkişaf konsepsiyalarında Keynsin makroiqtisadi tənzimlənmə nəzəriyyəsindən irəli gələn ideyalardan da istifadə edirlər. Hazırda Azərbaycanda iqtisadi inkişaf prosesinin həyata keçirilməsində Keyns nəzəriyyəsindən irəli gələn müddəalardan istifadə olunur.

downloaded from KitabYurdu.az

# FƏSIL 16. NEOLIBERALIZM

## §1. NEOLİBERALİZMİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

Neoliberalizm müasir neoklassik nəzəriyyələrin bir istiqamətidir. Neoliberalizm ideyaları hələ XX əsrin 20-30-cu illərində meydana gəlməyə başlamış və getdikcə inkişaf edərək bütöv bir təlimə çevrilmişdir. Bu təsadüfi olmayıb, həmin dövrdə cəmiyyətdə baş verən yeni keyfiyyət dəyişiklikləri ilə bağlı idi. Belə ki, inkişaf etmiş ölkələrin iqtisadiyyatlarında inhisarlar hökmranlıq etməyə başlamış, azad rəqabət aradan qalxmış, iqtisadi tənəzzül dərinləşmiş, işsizlik artmış və nəhayət 1929-1933-cü illərin iqtisadi böhranı kapitalist dünyasını lərzəyə salmışdı. Belə bir şəraitdə bu vaxta qədər hakim kəsilən A.Smitin dövlət müdaxiləsi olmadan iqtisadiyyatın öz-özünə tənzimlənməsi ideyası özünü doğrultmadığı üçün tənqidə məruz qaldı. İqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyi, onun forma və metodları haqqında yeni təlimə ehtiyac yarandı və dövlətin makroiqtisadi tənzimləmə sistemini əsaslandıran Keynsçilik meydana gəldi. Həmçinin bu dövrdə marksizmin ideyalarının bəzi ölkələrdə (keçmiş SSRİ ölkələri) reallığa çevrilməsi də iqtisadi fikrə müəyyən təsir göstərə bilmişdi.

Beləliklə, bu dövrdə iqtisadi fikir tarixində neoliberalizmlə yanaşı keynsçilik və marksizm də mövcud olmuş və sonrakı iqtisadi nəzəriyyələrin formalaşmasına öz təsirini göstərmişdir. Yaranan bu yeni nəzəriyyə və konsepsiyalar iqtisadi hadisə və proseslərə, iqtisadiyyata

downloaded from KitabYurdu.az

dövlətin təsirinin, müdaxiləsinin məqsədi, hüdudu, forma və metodlarına görə fərqli baxışları ilə səciyyələnmişdir.

Müəyyən cəhətlər üst-üstə düşməsinə baxmayaraq, neoliberalizm bu nəzəriyyələrdən əsaslı dərəcədə fərqlənmişdir. Belə ki, iqtisadiyyata dövlətin fəal müdaxiləsini qəbul edən Keyns və onun ardıcılları investisiyalar, dövlət sifarişləri, vergilər və s. kimi iqtisadi vasitələrin köməyi ilə istehsal prosesini tənzimləməyi əsas götürürdülər. Bu isə azad rəqabəti müəyən qədər məhdudlaşdırdığı üçün Keynsçiliyə alternativ olan iqtisadi liberalizm ideyaları yenidən canlanmağa başladı və neoliberalizm formasında çıxış etdi. Neoliberalistlər inhisarçılığın və rəqabətin tənzimlənməsi yolu ilə azad rəqabət üçün əlverişli şərait yaratmağı əsas götürməklə iqtisadiyyata dövlət müdaxiləsinin obyektini dəyişdirdilər.

Neoliberalistlər həm də marksizmə, dirijizmə qarşı əks mövqedən çıxış etmişlər. Belə ki, 20-30-cu illərdə iqtisadi fəaliyyətdə qiymətlərin və gəlirlərin tənzimlənməsi maddi və maliyyə resurslarının bölgüsü üzərində dövlət nəzarəti mövcud olduğundan dövlət iqtisadiyyatı inhisarçı formada idarə edirdi. Buna görə də onlar əks olaraq total inhisarçılığa qarşı dövlət müdaxiləsinin forma və metodlarını dəyişdirməyi, dövlətin təsərrüfat prosesinə təsirinin strategiya və taktikasının yenidən işlənməsini, bazar iqtisadiyyatının əsaslarının aktiv müdafiə edilməsini zəruri saymışlar.

Neoliberalizm bir iqtisadi cərəyan kimi klassik liberalizmin və neoklassik məktəbin ideyalarını özündə birləşdirmişdir. Belə ki, şəxsi marağa əsaslanaraq iqtisadi fəaliyyətə dövlətin məhdud təsirini qəbul edən (A.Smit) liberalizm inkişaf edərək və təkmilləşərək yeni bir nəzəriyyəyə çevrilmişdir. Öz-özünü tənzimləmə, passiv dövlət siyasəti kimi köhnəlmiş liberalizm ideyaları onların şəxsində yeni şəraitə uyğunlaşdırılmışdır. Onların arasında ümumi cəhət xüsusi mülkiyyətin hərtərəfli möhkəmləndirilməsi və həvəsləndirilməsi əsasında formalaşan fərdi azadlıq ideyasının qəbul edilməsi olmuşdur.

Bu ümumi cəhətlə yanaşı bunlar arasında müəyyən fərqli cəhətlər də olmuşdur. Klassik liberalistlər iqtisadiyyata dövlətin müdaxiləsini inkar edir, burada dövlətin rolunu "gecə mühafizəçisi" kimi qəbul edirdilər (V.Repke). İqtisadiyyatın bazar mexanizmi ilə öz-özünə idarə olunmasını əsas götürməklə dövlətin rolunu ancaq azad rəqabət üçün şərait

downloaded from KitabYurdu.az

yaradılmasında görürdülər. Neoliberallar isə iqtisadiyyata dövlətin müdaxiləsinin daha da fəallaşmasını təklif edirlər və hazırkı şəraitdə bunun qaçılmaz olduğunu göstərirlər. Onlar həm də iqtisadi hadisə və proseslərin makroiqtisadi təhlilini əsas götürürlər.

Neoklassiklərin metodologiyasında üstün yer tutan marjinalizm ideyasını o qədər də əsas saymayan müasir neoliberalistlər təsərrüfat subyektlərinin fərdi fəaliyyətlərini deyil, kollektiv institutların, dövlətin, iri korporasiyaların və inhisarların fəaliyyətini öyrənən institutsional problemlərin tədqiq olunmasını vacib hesab edirlər. İqtisadi sistemlərə sosial, tarixi, texnoloji şərtlərin təsiri ilə fərqlənən daim dəyişən bir sistem kimi baxırlar.

Həmçinin iqtisadi hadisələrin gedişinə uyğun olaraq neoliberalistlərin yanaşmalarında müəyyən dəyişikliklər baş verir. Bütün təsərrüfat subyektlərində azad rəqabətin təmin olunması üçün dövlət müdaxiləsini zəruri hesab edən neoliberalistlər arasında dövlətin hansı iqtisadi prosesdə iştirakı haqqında vahid fikir olmamışdır. Lakin istər azad rəqabəti, istərsə də sosial bazar təsərrüfatını qəbul edən yanaşmalarda bir ümumi cəhət ondan ibarət olmuşdur ki, xüsusi mülkiyyətin üstünlüyü şəksiz qəbul edilir. Onlardan bir qismi (Berri, Larner, F.Xayek) mütləq azadlıq tərəfdarı olmaqla dövlətin rolunu inkar edirlər. Ayrı-ayrı şəxslərin mikrosəviyyədə qəbul etdikləri qərarlara daha üstünlük verirlər. Digərləri (M.Armak, Q.Murdal, A.Ryustov, F.Xayek) iqtisadi fəaliyyətdə dövlətin iştirakına daha həssas yanaşaraq onun rolunu inhisarçılığın və rəqabətin tənzimlənməsində, bir başqaları (V.Oyken, L.Erxard) sosial sahənin tənzimlənməsində, digər bir qismi isə (M.Fridmen) pul-kredit sahəsində tənzimlənmədə görürlər.

Neoliberal istiqamətin müasir nümayəndələri (Olseviç) qeyd etmişdir ki, müharibədən sonra kortəbii, azad rəqabət, bazar rəqabəti ilə əvəz olunmuşdur. Bazar rəqabətində inhisarçılıq, sosial ziddiyyətlər dəqiq qanunvericilik yolu ilə tənzimlənir. Ciddi əmək və sosial təminatın həyata keçirilməsi yolu ilə rəqabət mexanizminin şüurlu surətdə yenidən qurulması baş verir ki, bu da sosial bazar təsərrüfatının formalaşmasına şərait yaradır.

downloaded from KitabYurdu.az

Neoliberalizmin metodologiyasının xüsusiyyəti bundan ibarətdir ki, onlar bazar təsərrüfatının formalaşması üçün əsasən iqtisadi fəaliyyətin hüquqi əsası kimi xüsusi mülkiyyətin mövcudluğunu, sahibkarlıq fəaliyyətini və azad rəqabəti əsas sayırlar. Xüsusi mülkiyyətin, xüsusi sahibkarlığın inkişafı məqsədilə dövlət tənzimlənməsini zəruri hesab edirlər. Ümumiyyətlə, onların iqtisadi sistemi azadlıq prinsipinə əsaslanır. Azadlıq dedikdə isə, şəxsiyyətin azadlığı, iqtisadi azadlıq, azad sahibkarlıq, ticarət azadlığı, azad bazar təsərrüfatını başa düşürlər. Bu əsasda göstərirlər ki, sahibkar konkret fəaliyyət növünü özü seçməlidir. Dövlətin vəzifəsi isə sahibkarı istiqamətləndirmək yox,, ona kömək etmək, onun rast gəldiyi maneələri aradan qaldıraraq yolunu təmizləməkdir. Təsərrüfat subyektlərinin iqtisadi azadlığı üçün dövlət azad rəqabətə şərait yaratmalı və lazım gəldikdə ona nəzarət etməlidir. Bununla iqtisadi hadisə və proseslərə makrosəviyyədə yanaşmağa və öyrənməyə cəhd edirlər.

Neoliberalistlər iqtisadiyyatda baş verən tənəzzül, işsizlik, durğunluqların səbəbini azad rəqabətin inhisarçılıqla əvəz olunmasında görürlər. İnhisarçılıqla bərabər iqtisadiyyatda inflyasiya hallarını da təhlükəli hesab etmişlər. Keynsin kəsirli büdcə vasitəsi ilə maliyyələşdirmə tədbirlərinin, dövlətin investisiya fəaliyyətinin azad bazar təsərrüfatı üçün əks nəticə verdiyini göstərirlər. İqtisadi tarazlığa nail olunması üçün pul tədavülünün sabitliyini, dövlət büdcəsinin gəlir və xərclərinin tarazlaşdırılmasını təklif edirlər. Həmçinin sosial sahədə də müəyyən tədbirləri - minimum əmək haqqının təminatlılığı, qadın və uşaq əməyindən istifadənin məhdudlaşması, xeyriyyə tədbirlərinin genişlənməsi - vacib hesab edirlər. Buradan da iqtisadi azadlığın təmin olunması üçün hər cür inhisarçılığa, o cümlədən də xüsusi mülkiyyətin inhisara alınmasına qarşı çıxırlar.

İqtisadiyyatın liberallaşdırılmasını ön plana çəkən neoliberalistlər təsərrüfatçılığın səmərəli forması kimi bazarın hərtərəfli inkişafını iqtisadi artımın əsas vasitəsi hesab edirlər. Azad bazar təsərrüfatının inkişaf edərək sosial bazar təsərrüfatına çevrilməsini yeni şəraitə uyğunlaşan bir təsərrüfat modeli kimi qəbul etmiş və bunu inkişafın təbii tarixi prosesi adlandırmışlar.

downloaded from KitabYurdu.az

Neoliberalistlər öz iqtisadi baxışlarını əsaslandırmaq üçün iqtisadi siyasət proqramı da işləyib hazırlamış və bunu həyata keçirməyə çalışmışlar. Hələ 30-cu illərin əvvəllərində vahid elmi-praktik proqram hazırlamağa cəhd etmiş, 1938-ci ildə isə Parisdə keçirilən beynəlxalq konfransda yaratmış olduqları nəzəriyyənin ümumi prinsiplərini bəyan etmişlər. Xüsusi mülkiyyətin üstünlüyü, alqı-satqı azadlığı, sərbəst qiymətqoyma, bazar təsərrüfatında azad rəqabətin təmin olunmasında dövlətin rolu, dövlətin qanunvericilik qaydaları və s. məsələlər ön plana çəkilmişdir.

Neoliberalizmin ideyaları Qərbi Almaniyada Adenaur-Erxard hakimiyyəti dövründə praktiki olaraq həyata keçirilmişdir. Neoliberalizmin görkəmli nümayəndələrindən olan V.Oyk  en tərəfindən işlənib hazırlanmış sosial bazar təsərrüfatı modeli (azad bazar və sosial bərabərlik) iqtisadi siyasətdə daha bir görkəmli neoliberalist Erxard tərəfindən həyata keçirilmiş və müsbət nəticələr vermişdir. 1965-ci ildə Xristian Demokratlar İttifaqının Qurultayında bu proqramın müvəffəqiyyətlə başa çatdırılması nəticəsində ölkədə formalaşmış cəmiyyətin yaradılması elan edilmişdir.

## §2. QƏRBİ ALMANİYADA NEOLİBERALİZM. V.OYKENİN "TƏSƏRRÜFATIN TİPLƏRİ" VƏ "SOSİAL BAZAR TƏSƏRRÜFATI" NƏZƏRİYYƏLƏRİ

Neoliberalizm nəzəriyyəsi bir neçə istiqamətdə inkişaf etmişdir və ümumi metodologiyaya malik olan müxtəlif məktəbləri özündə birləşdirir. Bunlardan əsasları Frayburq (V.Oyken), L.London (F.Xayek) və Çikaqo (M.Fridman) məktəbləridir. Fransada neoliberalizmin nümayəndələri Ryuef, M.Alle və b. olmuşlar.

downloaded from KitabYurdu.az

Neoliberalizm ilk olaraq klassik formada Qərbi Almaniyada "Ordoliberalizm"[81] cərəyanı kimi meydana gəlmiş və Frayburq məktəbi adı altında fəaliyyət göstərmişlər. İlkin nümayəndələri alman iqtisadçıları V.Repke, A.Ryustov, V.Oyken, L.Erxard, X.Qraman-Dert, L.Miki, K.Qestrix, F.Luts və s. olmuşlar.

Frayburq məktəbinin nəzəriyyəçiləri özlərini ordoliberallar (üçüncü yol tərəfdarları) adlandırmışlar. Onlar azad rəqabətə, azad bazar təsərrüfatına, ümumi metodologiyaya malik olan xüsusi mülkiyyətə müsbət mövqedən yanaşmışlar. Azad əmtəə təsərrüfatının mövcud olması və fəaliyyət göstərməsi üçün iqtisadiyyata dövlət müdaxiləsini məhdud həddə məqbul hesab etmişlər. Belə bir mövqe özünün əksini Frayburq məktəbinin aşağıdakı tezisində tapmışdır: "Təsərrüfat planlarının dövlət planlaşdırılması lazımi dövlət planlaşması və təsərrüfat proseslərinin tənzimlənməsi isə lazımsızdır".

Frayburq məktəbinin nümayəndələri V.Repke və A.Ryustov neoliberalizmin ilkin tədqiqatçılarından olmuşlar. Alman iqtisadçısı V.Repke öz iqtisadi görüşlərini "Tələb və təklifdən kənarda" "Humanist cəmiyyət", "Alman məsələsi" adlı əsərlərində ifadə etmişdir. O, "tələb və təklifdən kənarda" əsərində göstərir ki, hər bir cəmiyyətin, iqtisadi quruluşun başlıca problemləri iki yolla həll edilir. Bunlardan biri tələb, təklif, rəqabət və azad qiymətlər vasitəsilə fəaliyyət göstərən bazar sistemi, digəri isə problemlərin böyük əksəriyyətini dövlətin köməyi ilə həll edən inzibatçılıq sistemidir. İnzibati-amirlik sistemi, planlı təsərrüfatı şəxsi təşəbbüsü boğduğu, istehlakçıların tələbini nəzərə almadığı üçün bazar sistemi ilə bir araya sığmır. Buradan da bazar sistemini təsərrüfat həyatını tələb-təklif, rəqabət və azad qiymət mexanizmi vasitəsilə tənzimlənən iqtisadi sistem adlandırır. Həmçinin, bazar təsərrüfatı istehlakçıların şəxsi mənafeyi naminə, bütün cəmiyyətin mənafeyi naminə ayrı-ayrı fərdlərin və bütün təsərrüfat planlarını əlaqələndirir. O öz tədqiqatında sübut etməyə çalışır ki, bazar təsərrüfatı planlı təsərrüfata nisbətən səmərəli və məhsuldar təsərrüfat sistemidir. Bazar təsərrüfatının ikinci dayaq sistemi kimi xüsusi mülkiyyəti hesab edir. Onun fikrincə azad bazar təsərrüfatı -

[81] Qeyd: Ordo alman sözü olub bazar təsərrüfatı ilə təbii quruluş sözlərinin vəhdətindən yaranmışdır.

downloaded from KitabYurdu.az

kollektivçiliyə qarşı fərdiçilik, mərkəzi hakimiyyətə qarşı azadlıq, mərkəzləşməyə qarşı qeyri-mərkəzləşmə, təşkilatçılığa qarşı müstəqillikdir.

Daha çox humanist cəmiyyət tərəfdarı olan Repke "Humanist cəmiyyət" əsərində belə cəmiyyəti öz-özünü tənzim edən, iqtisadi sərbəstliyə malik olan qeyri-mərkəzləşmiş, kollektiv bir cəmiyyət kimi təsvir edir. Həmçinin belə bir humanist cəmiyyətin əsasını sosial bazar təsərrüfatının təşkil edəcəyini qeyd edirdi. "Beynəlxalq bazar təsərrüfatı" , "iqtisadi humanizm , iqtisadi inteqrasiya" və s. nəzəriyyələrini sosial bazar təsərrüfatı ideyasına daxil edirdi. Bir sıra tədqiqatçılardan fərqli olaraq V.Repke inhisarların mövcudluğunu inkar etmir,azad və humanist cəmiyyət naminə inhisarlara qarşı çıxış edirdi.

Başqa bir alman iqtisadçısı A.Ryustov da iqtisadi azadlığın təmin olunması üçün hər cür inhisarçılığı inkar edir və onların əleyhinə olur. Yaşadığı cəmiyyəti kapitalizmin, sosializmin, azad bazar təsərrüfatının mövcud olduğu bir cəmiyyət kimi qəbul edir. Azad bazar təsərrüfatını planlı təsərrüfatın əksi hesab edir. Neoliberalizmi liberalizmin fundamental yeniləşməsi kimi qələmə verir. Beləliklə, ilk neoliberalistlər müəyyən həddə qədər dövlət müdaxiləsi qalmaqla iqtisadiyyatda sərbəst əmtəə təsərrüfatının həyata keçirilməsinə şəraitin yaradılmasını məqbul hesab etmişlər.

Qərbi Almaniyada neoliberalizmin yaradıcılarından biri də Frayburq Universitetinin professoru Valter Oyken (1891-1950) hesab olunur. O uzun illər Frayburq Universitetinin kafedra müdiri işləmiş, öz ardıcılları ilə Qərbi Almaniyada nəşr olunan illik "Ordo" jurnalında neoliberalizmin ideyalarını bütün ölkələrdə yaymışdır. Hazırda Frayburqda V.Oyken adına elmi-tədqiqat institutu fəaliyyət göstərir.

V.Oygen "Təsərrüfatın ideal tipləri", "Milli iqtisadiyyatın əsasları" "İqtisadi siyasətin əsas prinsipləri" kitablarında bütün tarixi dövrlərdə təsərrüfatın əsas tipləri, iqtisadiyyatın bazar təşkilinin üstünlükləri və "iqtisadi qayda" nəzəriyyəsini işləyib hazırlamışdır.

"Milli iqtisadiyyatın" əsasları adlı əsərində cəmiyyətin inkişafının müxtəlif tarixi mərhələləri, o cümlədən kapitalizmi müəyyən bir iqtisadi sistem kimi qəbul edən marksist iqtisadi məktəbin ictimai-iqtisadi formasiya anlayışını inkar edərək göstərmişdir ki, təsərrüfat mərhələləri

downloaded from KitabYurdu.az

anlayışı doğru deyildir. "Təsərrüfat mərhələsi" anlayışına qarşı "Təsərrüfat qaydası" anlayışını irəli sürür və bunu keçmişdə və hazırkı dövrdə gündəlik təsərrüfat proseslərinin idarə edilməsinin konkret baş verdiyi formaların məcmuusu kimi müəyyən edir. Onun fikrincə, Qədim Yunanıstan və Qədim Romanın, orta əsr Almaniyasının təsərrüfat qaydaları müxtəlifdir. Hətta XX əsrin əvvəllərində və ortalarında da onlar eyni məzmuna malik deyillər. Konkret təsərrüfatçılıq elementləri (əmək bölgüsü, pul, qiymət, mənfəət, əmək haqqı, kredit) təsərrüfatın təşkili formasından asılı olaraq müxtəlif üsulla birləşir. Beləliklə, iqtisadi sistemin müəyyən edilməsində mülkiyyətin rolunu əhəmiyyətli hesab etmir. Cəmiyyətin sosial və təsərrüfat - siyasi məsələlərinin həllini mülkiyyətin quruluşu ilə əlaqələndirməyi səhv hesab edir.

V.Oyken iqtisadi fəaliyyəti sadələşdirən iki xarakterik təsərrüfat tipinin mövcud olduğunu göstərmiş və bunları təsərrüfat fəaliyyətinin təşkilinin müxtəlif üsulları hesab etmişdir. Bütün təsərrüfatları fəaliyyətlərini mərkəz vasitəsilə tənzimləyən və mübadilənin olmadığı mərkəzi idarəetmə təsərrüfatına və əmtəə mübadiləsini, tələb və təklifi, puldan istifadəni bazar vasitəsilə əlaqələndirən bazar təsərrüfatına bölmüşdür. Mərkəzdən idarə olunan təsərrüfatlara Qədim Misir ehkamlarını, Roma quldarlıq təsərrüfatlarını, orta əsr feodal təsərrüfatını və planlı sosialist təsərrüfatını aid edir və bunların xüsusi və kollektiv mülkiyyət formalarında fəaliyyət göstərdiyini qeyd edirdi. Bazar təsərrüfatına isə sərbəst, azad bazarı daxil edir və göstərir ki, çoxsaylı fərdi təsərrüfatlar öz iqtisadi fəaliyyətlərini bazar əsasında uzlaşdırır. Bu iki iqtisadiyyat tipinin uzlaşması və konkret tarixi şəraitdə birinin üstünlük təşkil etməsini mümkün saymışdır. Həmçinin bunların heç birinin xalis formada fəaliyyət göstərmədiyini qeyd etmişdir.

V.Oykenin fikrincə, real iqtisadiyyatda bu iki təsərrüfat tipi öz fəaliyyətlərində müxtəlif formalar kəsb edir. Birinci halda, məhsulların istehsalı mərkəzi hakimiyyətin əmr və göstərişləri əsasında həyata keçirildiyi üçün iqtisadiyyatın idarə edilməsi total mərkəzləşməyə əsaslanır. İkinci halda mərkəzi idarəetmə hakimiyyəti istehlak şeylərinin azad mübadiləsini həyata keçirir. Burada istehlak şeylərinin mübadilə yolu ilə bölgüsündə istehlakçıların təsir imkanları qalır. Üçüncü halda istehsal

downloaded from KitabYurdu.az

üçün lazım olan şeylər müstəsna olmaqla digər nemətlərin istehlak seçimi sərbəstdir.

Buradan da V.Oykenin ideal təsərrüfat tipinin xüsusi forması kimi sosial bazar təsərrüfatının rüşeymləri görünür. Onun təbirincə sosial bazar təsərrüfatı bu iki təsərrüfat tipi arasında orta təsərrüfat tipidir. Onun xarakterik cəhətlərinə gəldikdə isə orta yolun iqtisadi siyasəti kimi hər şeydən əvvəl xüsusi mülkiyyətə əsaslanan azad bazar təsərrüfatıdır. Burada iqtisadi fəaliyyət sferasına daxil olan sahibkarlar iqtisadi azadlığa malik olduqları üçün iqtisadi fəaliyyət növlərini özləri seçir və bu fəaliyyət sahəsinə tam cavabdehlik daşıyırlar. Bu da istehlakçıların azad seçiminə, alqı-satqı azadlığının təmin olunmasına səbəb olur.

V.Oyken sosial bazar təsərrüfatının əsas elementi kimi azad rəqabəti müdafiə edir. Göstərir ki, azad rəqabət əmək məhsuldarlığını artırır, texniki tərəqqini inkişaf etdirərək iqtisadi artıma səbəb olur. Azad rəqabətin təminatçısı isə dövlət olmalıdır. Çünki rəqabət mübarizəsində məğlub olanlar müflisləşir, aradan çıxır və bu inhisarçılıq yaradır. İri inhisarlar rəqabətin səviyyəsinə, xarakterinə, sürətinə təsir göstərə bilirlər. Bu kortəbii tənzimlənmə tələb təklif əsasında tarazlı bazar qiymətinin yaranmasını pozur və iqtisadiyyatı böhrana aparır. Ona görə də bazar sistemini xilas etmək üçün dövlət "təşkil olunmuş bazara" üstünlük verir. Lakin dövlət ancaq müəyyən həddə, yəni inhisarların hökmranlığı nəticəsində iqtisadiyyatda baş verən hərcmərclik zamanı, və rəqabətin tənzimlənməsi zəruri olduqda iqtisadiyyatı müdafiə etməlidir.

V.Oyken bazar sisteminin normal fəaliyyət göstərməsini qiymət mexanizmindən də asılı hesab edir. Göstərir ki, əgər qiymətqoyma azad surətdə, bazarın tələb təklifinə uyğun olaraq həyata keçirilirsə onda istehsal da ictimai tələbata uyğunlaşır. Səmərəli qiymət sistemi həm də iqtisadi ehtiyatların səmərəli bölgüsünə imkan verir.

Onun fikrincə, stabil bazar təsərrüfatı həmçinin stabil pul tədavülünə əsaslanmalıdır. Stabil pul tədavülü qiymət azadlığı, inhisarsız əmtəə təsərrüfatıdır. Həmçinin idxal ixrac üzərində dövlətin himayəçiliyi inhisarçılıq yaratdığından xarici ticarətdə açıq bazar prinsipinin qorunmasını bazar təsərrüfatının səmərəliliyi üçün şərt sayır.

downloaded from KitabYurdu.az

V.Oyken səmərəli bazar iqtisadiyyatının formalaşması üçün düzgün iqtisadi siyasətin də vacibliyini qeyd etmişdir. Düzgün iqtisadi siyasət kimi iqtisadi artımın, məşğulluğun yüksək səviyyəsinin daim təmin olunması, bazar qaydalarının yeniləşməsi üçün dövlətin iştirakını vacib bilmişdir.

V.Oyken "İqtisadi siyasətin prinsipləri" əsərində göstərir ki, təbiətdə və insan həyatında baş verən təbii qaydalar çoxdan həyata keçilir. İqtisadi fəaliyyət sahələri müxtəlif və fasiləli olduğu üçün bu sahələrin fəaliyyətini nizamlayan "İqtisadi qaydalar" mövcud olur. "İqtisadi qayda" dedikdə təsərrüfatçılıq elementləri arasında tənzimləyici münasibətləri və struktur təşkilini əlaqələndirən qaydaların, normaların məcmuusunu nəzərdə tutur. Burada da iqtisadi fəaliyyətin müvəffəqiyyətinin təmin olunması üçün iqtisadi siyasətin iki mərhələdə həyata keçirilməsini təklif edir. Belə ki, iqtisadi inkişaf proqramında ilk növbədə təsərrüfatçılıq qaydalarının (hüquqi, siyasi, sosial) yaradılmasına, təşkilinə və təkmilləşdirilməsinə diqqət yetirilməlidir. O bu zaman onu əsas götürür ki, təsərrüfatçılıq qaydaları hüquqi və siyasi qaydalarla yanaşı mövcuddur. Hüquqi və sosial siyasi qaydalar iqtisadi fəaliyyət üçün əsasdır. İqtisadi qaydalar öz-özünə yaranmır, bunu dövlət yaratmalıdır. Dövlətin iqtisadi siyasəti iqtisadi proseslərin tənzimlənməsinə, təsərrüfat istehsal fəaliyyətinə deyil, iqtisadi siyasətin hüquqi bazasının inkişaf qanunlarının hazırlanmasına, iqtisadi qaydaların yaradılmasına yönəldilməlidir.

İqtisadi inkişafın sonrakı mərhələsində qəbul olunan qaydalardan asılı olaraq iqtisadi tərəqqinin tələblərinə uyğun gələn siyasət işlənib hazırlanmalıdır. Dövlət həmçinin spesifik sosial siyasət işləyib hazırlamaqla və həyata keçirməklə iqtisadi, siyasi və sosial vəzifələri uzlaşdırmalıdır. Başqa sözlə, ölkədə məşğulluğu təmin etməli, ailələrin gəlirlərindəki fərqləri azaltmalı, sosial təminatı və müəssisələrin idarə edilməsində işçilərin iştirakını təkmilləşdirməlidir. Bunlar isə təsərrüfat müstəqilliyinin təmin olunması və optimal qərarların həyata keçirilməsi üçün əlverişli stimullardır.

Beləliklə, V.Oygen iqtisadi nəzəriyyə və iqtisadi siyasəti vəhdət halında götürmüşdür. Onun sosial bazar təsərrüfatı nəzəriyyəsi sosial ədaləti təmin etmək üçün inhisar və rəqabətin tənzimlənməsidir. Dövlətin

downloaded from KitabYurdu.az

iqtisadi siyasətinə isə azad bazarı və azad rəqabəti bir başa və dolayı yolla tənzimləmək üçün hüquqi normaların yaradılmasını aid edir.

Qeyd etmək lazımdır ki, sosial bazar təsərrüfatı anlayışı ilk dəfə Qərbi Almaniyada Federal İqtisadiyyat Nazirinin dövlət katibi Alfred Müller-Armaqın "Təsərrüfat idarəçiliyi və bazar təsərrüfatı" kitabında azad bazar prinsipi ilə sosial bərabərlik prinsiplərinin uzlaşması kimi ifadə olunmuşdur. O sosial bazar təsərrüfatının əsasını dövlətin sosial problemlərin həllində həyata keçirdiyi fəal sosial siyasətdə görürdü. Onun sözlərinə görə sosial bazar təsərrüfatının məqsədi təsərrüfat subyektlərinin azad təşəbbüskarlığını sosial tərəqqi ilə əlaqələndirmək və azad rəqabət çərçivəsində sosial problemləri daha hərtərəfli həll etməkdir.

Müller-Armak qeyd edirdi ki, bazar təsərrüfatının kortəbii, öz-özünə tənzimlənməsi inhisarların yaranmasına və gəlirlərin bölgüsündə kəskin bərabərsizliyə gətirib çıxarır. Bazar təsərrüfatının bu mənfi nəticələrini aradan qaldırmaq üçün dövlət inhisarları nəzarətdə saxlamaq, rəqabəti gücləndirmək üçün institutsional tədbirlər görməlidir. Yəni dövlət elə iqtisadi və sosial siyasət həyata keçirməlidir ki, milli gəlirin bölgüsü və yenidən bölgüsü zamanı gəlirlərdəki kəskin fərqləri aradan qaldırmaq mümkün olsun. Bunun üçün mütərəqqi vergiqoyma vasitəsilə toplanan vəsaitlər - azimkanlı ailələr arasında bölüşdürülməli, uşaqların saxlanması, mənzil tikintisi, mənzil haqqı üzrə sosial ödəmələrə, xəstəliyə, işsizliyə görə ödəmələrə, təhsilə, səhiyyəyə, infrastruktura çəkilən xərclərə sərf olunmalıdır.

Müller-Armak dövlət xərclərinə və vergi siyasətinə sosial tarazlaşmanın amili kimi baxırdı. Bazar təsərrüfatında sosial ədalət prinsipinin pozulmaması üçün dövlətin iqtisadiyyata müdaxiləsini zəruri hesab edirdi. Onun fikrincə, belə halda sosial bazar təsərrüfatı iqtisadi səmərəliliklə sosial ədaləti üzvi surətdə əlaqələndirir.

Müller-Armak belə hesab edir ki, sosial bazar təsərrüfatı insanların tələbatlarının ödənilməsinə yönəldilən bir iqtisadiyyatdır. O yazırdı ki, istehlakçılar öz tələbatlarına uyğun olaraq müxtəlif məhsullara tələb irəli sürürlər. Sahibkarlar isə bu tələbatı ödəmək üçün fəaliyyətlərini bu istiqamətə yönəldirlər, eyni zamanda mənfəət əldə etməyə çalışırlar. Mənfəət təsərrüfatın idarəedilməsi fəaliyyətinin nəticəsidir. Deməli,

downloaded from KitabYurdu.az

mənfəət naminə istehsal etmək, həm də insanların tələbatının ödənilməsi deməkdir.

Beləliklə, A.Müller-Armak sosial bazar təsərrüfatının azad bazar təsərrüfatından fərqli xüsusiyyətlərini belə şərh edir ki, sosial bazar təsərrüfatında dövlət:

-həmişə azad rəqabətin təmin olunmasını stimullaşdırır;

-gəlirlərdəki kəskin fərqləri aradan qaldırmaq üçün onların yenidən bölgüsünü tənzimləyir;

-tam məşğulluğa, qiymətlərin sabit səviyyəsinə nail olmaq üçün fəal konyuktur siyasəti həyata keçirir;

-cəmiyyətin hər bir üzvünün mülkiyyət sahibinə çevrilməsinə şərait yaradır.

Qeyd etmək lazımdır ki, Müller-Armağın sosial bazar təsərrüfatı ideyası sonralar V.Repke, V.Oyken, L.Erxardın əsərlərində inkişaf etdirilərək, sosial bazar təsərrüfatı modelinə çevrilmiş və müasir dövrdə bir çox ölkələrin iqtisadi siyasətində istifadə olunmağa başlanmışdır. Bu gün bu model Skandinaviya ölkələrində, İtaliyada, Fransada, Yaponiyada və s. geniş yayılmışdır.

## § 3. L.ERXARDIN İQTİSADİ İSLAHATLARI. "FORMALAŞMIŞ CƏMİYYƏT" KONSEPSİYASI

Neoliberal istiqamətdə xüsusi maraq doğuran şəxs Frayburq məktəbinin başqa bir nümayəndəsi Lyudviq Erxard (1897-1977) olmuşdur. O, sosial bazar təsərrüfatı konsepsiyasına əsaslanaraq iqtisadi islahatların praktiki olaraq həyata keçirilməsinin müəllifi olmuşdur.

L.Erxard sosial bazar təsərrüfatının əsas elementi kimi hər şeydən əvvəl azad rəqabəti müdafiə edirdi və bunu belə bir tezislə ifadə etmişdir: "Rəqabət hər yerdə harada mümkündürsə, tənzimləmə harada zəruridirsə". Lakin azad bazar təsərrüfatının öz-özünə fəaliyyət

downloaded from KitabYurdu.az

göstərməsinin qeyri-mümkünlüyünü də dərk etmişdir. İqtisadiyyatda dövlətin rolunu, funksiyasını futbol meydançasında hakimin roluna bənzətmişdir. Onun sözlərinə görə, cəmiyyət futbol meydançası, üzvləri oyunçular, dövlət isə hakim rolunda çıxış edir. Dövlətin vəzifəsi oyunda iştirak etmək şərtilə oyun qaydalarına nəzarət etmək, üzvlərin mənafeyini uzlaşdırmaqdır. Sosial bazar təsərrüfatının saxlanması üçün dövlət azad bazar qaydalarına əməl etməlidir. Yəni inhsarçılığa yol vermədən qiymət üzərində nəzarəti, xüsusi mülkiyyətin qorunmasını təmin etməlidir. Deməli, sosial bazar təsərrüfatı bir tərəfdən iqtisadi azadlığın, digər tərəfdən sosial ədaləti və sosial müdafiəni təmin edən prinsiplərin vəhdətidir.

L.Erxard sosial bazar təsərrüfatı nəzəriyyəsinin həyatiliyini təcrübədə tətbiq edərək sübut etmişdir. Belə ki, Qərbi Almaniyanın II Dünya müharibəsi zamanı böhranlı vəziyyətini təhlil edərək bir sıra islahatlar aparmışdır. O dövrdə istehsal güclərinin üçdə iki hissəsinin işləməməsi, milli məhsulun həcminin əhalinin pul vəsaitlərindən on dəfələrlə geri qalması, qiymətlərin fasiləsiz artımı, natural mübadiləyə keçilməsi Qərbi Almaniyada kəskin böhrana səbəb oldu. Bu vəziyyətdən çıxmaq üçün uzun müddət mübahisə getmiş və nəhayət Erxardın rəhbərliyi ilə hərtərfli islahat planı (Hamburq) hazırlanmış və həyata keçirilməyə başlanmışdır. İlk növbədə 1948-ci ildə pul və qiymət islahatına başlandı. Ardınca bank və valyuta islahatının ardıcıl həyata keçirilməsi sayəsində alman markasının kursu qalxdı. Nəticədə pul kütləsinin həcmi dəfələrlə ixtisar olundu, qiymətlərin yüksəlməsi dayandı və inflyasiyanın yeni təzahürünün qarşısı alındı.

Eyni zamanda iqtisadiyyatda struktur diyişikliyin aparılması üçün (Marşall planı) dövlətin bəzi sənaye sahələrinə, xüsusilə də kömür, metallurgiya, elektrik enerjisi sahələrinə kömək məqsədilə sahibkarlara vergi güzəştləri tətbiq edildi. Həmçinin islahatları həyata keçirmək üçün xarici ölkələrdən iqtisadi yardım, kömək şəklində yanacaq, ərzaq, taxıl və s. məhsullar əldə edildi. Avropa Proqramı fondundan güzəştli şərtlərlə kreditlər alındı.

Qeyd etmək lazımdır ki, islahatların müvəffəqiyyəti düzgün iqtisadi siyasətlə bərabər ölkədaxili amillərin: ölkədə olan maddi bazanın qorunub

downloaded from KitabYurdu.az

saxlanmasından, ucuz iş qüvvəsi hesab olunan qadın və uşaq əməyindən istifadə edilməsindən və s.-dən də asılı olmuşdur. Nəticədə bu islahatlardan geniş və bacarıqla istifadə olunması iqtisadiyyatın dirçəlməsinə səbəb oldu. L.Erxardın bu xidmətləri Alman hökuməti tərəfindən yüksək qiymətləndirildi - əvvəlcə iqtisadiyyat üzrə direktor, 1949-cu ildə isə iqtisadiyyat naziri təyin olundu. Onun bu islahatlarından Cənubi Koreyada, Tayvanda, İspaniyada və başqa ökələrdə müvəffəqiyyətlə istifadə olunmuşdur.

Adenaur-Erxard hökuməti müharibədən sonra (1957) sosial-bazar təsərrüfatının ikinci mərhələsinin başlandığını qeyd etdi. 1965-ci ildə Xristian Demokratlar İttifaqının Qurultayında artıq Almaniyada formalaşmış cəmiyyətin qurulmasını elan etdi. Erxardın özü isə 1949-1963-cü illərdə federal Kanslerin müavini, 1963-1966-cı illərdə isə respublika kansleri vəzifəsinə irəli çəkildi.

İqtisadçıların fikrincə, L.Erxardın sosial bazar təsərrüfatı modelini yüksək artım tempini təmin edən sosial siyasət proqramı hesab etmək olar. Bu proqram həmçinin sahibkarların müdafiə olunmasını orta təbəqənin həyat səviyyəsinin yüksəldilməsi üçün şərait yaradılmasını və bununla da sosial ziddiyyətlərin yumşaldılmasını, dövlətlə işçilər arasında iqtisadi fəaliyyətin optimal nisbətinin tapılmasını nəzərdə tuturdu.

L.Erxardın "formalaşmış cəmiyyət" nəzəriyyəsi sosial bazar təsərrüfatı nəzəriyyəsinin məntiqi davamı idi. Onun fikrincə, "formalaşmış cəmiyyət" daha yaxşı təbii iqtisadi qaydaların mövcud olduğu bir cəmiyyətdir ki, buna da sosial bazar təsərrüfatı vasitəsilə nail olmaq mümkündür. O, bu konsepsiyanı sosializm sisteminə qarşı qoyur və göstərir ki, onun əsas prinsipi sinfi mübarizə yox, bütün qrupların və mənafelərin əməkdaşlığıdır, əsas cəhəti isə cəmiyyətin və dövlətin vəhdətidir, gələcək tərəqqi naminə birləşməsidir.

L.Erxard "Hamı üçün rifah" (1956) əsərində formalaşmış cəmiyyəti ümumi rifah dövləti adlandırır və bu səviyyəyə çatmaq üçün müxtəlif mərhələlərdən keçildiyini qeyd edir.

Cəmiyyətin tarixi inkişafının I mərhələsini (XIX əsr) siniflərin mövcudluğu və onların mübarizəsi ilə xarakterizə olunduğu üçün sinfi cəmiyyət mərhələsi adlandırır.

downloaded from KitabYurdu.az

II mərhələni müxtəlif qrupların arasında fikir mübadiləsinə əsaslanan plyuralizm mərhələsi adlandırır.

III mərhələni isə şəxsi əmək qabiliyyəti və məhsuldarlığı ilə şərtlənən cəmiyyət üzvlərinin məhsuldar ittifaqı mərhələsi hesab edir. Erxard yazırdı ki, ümumi rifahın təmin olunması dövlətin vəzifəsidir. Əgər dövlət ümumi rifahın qoruyucusudursa, onun daşıyıcısı isə iqtisadiyyatın dinamik inkişafının mərkəzində dayanan sahibkardır. Ümumi rifah üçün məsuliyyətin ağırlığı da məhz sahibkarın üzərinə düşür.

L.Erxardın "formalaşmış cəmiyyət" nəzəriyyəsində əsas müddəalardan biri də cəmiyyətin hər bir üzvünün mülkiyyət sahibi olması ideyasıdır. O göstərir ki, Almaniyada hər bir vətəndaş əmək haqqının yığılması hesabına əldə etdiyi səhmlərlə istehsal vasitələrinin mülkiyyətçisinə çevrilə bilir və getdikcə səhmdar kompaniyalarının iştirakçısı olur. Beləliklə, ümumi rifah yaxşılaşır və formalaşmış cəmiyyət yaranır.

Ümumiyyətlə, sosial bazar təsərrüfatı nəzəriyyəsi və "formalaşmış cəmiyyət" konsepsiyası sosializmə qarşı yönəlmişdi. Sosializmin bir sistem kimi dağılması və bu ölkələrdə bazar iqtisadiyyatı qurulması istiqamətində aparılan islahatlar bu fikirlərin doğruluğunu sübut edir.

Qeyd etmək lazımdır ki, sosial bazar təsərrüfatı nəzəriyyəsi və onun təzahür forması olan "formalaşmış cəmiyyət" milli çərçivədə fəaliyyət göstərən bir model olmamışdır. Beynəlxalq aləmdə Avropa ölkələrində bu model təsərrüfat və sosial sahələrin inkişafı üçün rəhbər tutulmuş və uzun müddət iqtisadi siyasətə çevrilmişdir. Sosial bazar təsərrüfatı nəzəriyyəsi müasir İsveç məktəbi (B.Ümen, Q.Mürdal, E.Lundberq, A.Lindbel, R.Bekman, E.Vesterlind və s.) tərəfmndən də qəbul olunmuşdur. Onlar dövlət tənzimlənməsinin yeni təzahürlərindən çıxış edərək dövlət və xüsusi bölmənin vəhdətindən ibarət olan qarışıq iqtisadiyyat tərəfdarı olmuşlar. Onların fikrincə xüsusi müəssisələr, təşkilatlar, istehlakçılar, dövlət tənzimlənməsinə məruz qalsalar da istehsal, investisiya, istehlak və s. məsələləri özləri həll etməlidirlər. (R.Bekmand, E.Vesterlind) A.Lindberq 70-ci illərdə dövlətin iqtisadiyyata müdaxiləsinin fəal tərəfdarı olmuşdur. Neoliberal istiqamətin başqa bir nümayəndəsi B.Ümen dövlətin iqtisadiyyata müdaxiləsini bərabər şərtli rəqabətin təmin olunmasında

downloaded from KitabYurdu.az

zəruri sayırdı. Q.Murdal qeyd edirdi ki, kortəbii tənzimlənən bazar təsərrüfatına dövlətin təsiri onu ziddiyyətlərdən və çatışmamazlıqlardan azad edir və onu tənzimlənən iqtisadiyyata çevirir. Bundan başqa İsveç neoliberilistləri dövlətin məşğulluq sahəsində, gəlirlərin bərabərləşdirilməsində, sosial sığorta sistemi, birbaşa və dolayı vergilərin tənzimlənməsi sahəsində tədbirlərini də qəbul edirdilər.

"Sosial bazar təsərrüfatı" nəzəriyyəsinin yayılmış ölkələrindən biri də İtaliya idi. İtaliyada bu nəzəriyyənin tərəfdarları (F.Brambilli, F.Arqibuci, F.Momilyano, F.Viti və s.) onu iqtisadiyyatın dövlət tənzimlənməsi ilə sosial islahatçılığın vəhdətinə əsaslanan yeni bir sistem kimi xarkterizə etmişlər. Bununla yanaşı bu nəzəriyyəni qəbul etməyən iqtisadçılar (M.Fanno, D.Manikenla, L.Eynaudi və s.) dövlət müdaxiləsi nəticəsində iqtisadiyyatın səmərəsinin aşağı düşməsini göstərirlər. Ümumi rifah dövlətin himayə edilən kasıba bənzədirlər.

Neoliberalizmin "sosial bazar təsərrüfatı" nəzəriyyəsindən Yaponiyada da istifadə edilmişdir. Yapon neoliberalizminin nümayəndəsi T.Nisiyama "Neoliberalizmin prinsipləri" (1978) adlı kitabında son dövrlərdə Yapon iqtisadiyyatının dinamik inkişafının zəifləməsinin səbəbini dövlətin iqtisadiyyata müdaxiləsi nəticəsində xüsusi bölmənin fəaliyyətinin məhdudlaşmasında görür. Hökumətin müdaxilə etdiyi sahələrə təkrar istehsalın təmin olunması, ekoloji problem, ictimai xidmətlərin təşkili, istehsal və sosial infrastrukturunun yaradılmasını aid edir.

Qeyd etmək lazımdır ki, 70-75-ci illər Almaniyada baş verən böhran, dövlət borcunun artması, "sosial bazar təsərrüfatı" nəzəriyyəsini müəyyən dəyişikliyə uğratdı. Yeni nəzəriyyəçilər (P.Qlots, K.Bidenkopf, M.Migel təklif edirdilər ki, dövlət sosial xərcləri (mənzil tikintisinə, kənd təsərrüfatına, təhsilə və ictimai nəqliyyata xərcləri) azaltmalı, xüsusi sahibkarlığın həvəsləndirilməsinə yönəldilən maliyyə vəsaitlərini artırmalıdırlar, həmçinin pensiya sığortasından fərdi sığortalara keçilməlidir.

1990-ci ildə Şərqi Almaniyanın Qərbi Almaniyanın tərkibinə daxil edilməsi ilə "sosial bazar təsərrüfatı" yenidən iqtisadi quruluş kimi qəbul edildi və Erxardın "formalaşmış cəmiyyət" konsepsiyası iqtisadçılar

downloaded from KitabYurdu.az

tərəfindən (L.Şrutse, V.Riyk, R.Vilhelm) yenidən inkişaf etdirildi. Azad bazar, sosial bazar təsərrüfatı və formalaşmış cəmiyyət əsasında yeni bir konsepsiya - "qlobal cəhətdən tənzimlənən bazar təsərrüfatı" konsepsiyası (K.Şiller) yarandı. O neoliberalizm nəzəriyyəsi ilə keynsçiliyin sintezi kimi xarakterizə edilir. Bu konsepsiya iqtisadi artım, bazar təsərrüfatı çərçivəsində sosial kompensasiyalar ideyalarını özünə birləşdirirdi. Lakin iqtisadiyyatın sosial baxımdan tənzimlənməsi ideoloji məsələ olduğu üçün neoliberalizmin bu ideyası qüvədən düşməmiş və dövlətin iqtisadi siyasətində öz geniş əksini tapmışdır.

## § 4. F.XAYEKİN İQTİSADİ-FƏLSƏFİ BAXIŞLARI. "GENİŞ QAYDA" NƏZƏRİYYƏSİ

Neoliberalizmin görkəmli nümayəndəsi, müasir neoliberalizmin banisi hesab olunan London məktəbinin iqtisadçısı Fridrix Avqust fon Xayek (1899-1992) Avstriyada anadan olmuşdur. O Vyana Universitetini bitirmiş, 30-cu illərdə siyasi və hüquqi elmlər üzrə elmi dərəcə almış, yeni Avstriya məktəbinin liderlərindən birinə çevrilmişdir. Sonralar, 1931-ci ildə London məktəbində dərs demiş, 1952-1962-ci illərdə Çikaqo Universitetinin professoru olmuşdur. 70-ci illərdə Keynsin makroiqtisadi nəzəriyyəsinin böhranı F.Xayekdə onun ideyalarına maraq oyatmışdır.

F.Xayek ictimai fikir tarixində fəlsəfə, psixologiya, sosiologiya məsələləri ilə məşğul olmuş, əsasən də iqtisadi nəzəriyyənin fəlsəfi problemlərinə daha çox diqqət yetirmişdir. "Pul nəzəriyyəsi və iqtisadi tsikl" (1923), "Qiymət və istehsal" (1931), "Mənfəət, faiz və investisiya" (1939), "Kapitalizmin xalis nəzəriyyəsi" (1941), "Quldarlığa gedən yol" (1944), "Azadlıq Konstitusiyası" (1960), "Hüquq qanunauyğunluqları və azadlıq" (1979) əsərlərində bazar qaydalarının iqtisadi, fəlsəfi, hüquqi və siyasi əsaslarını işləyib hazırlamışdır. Onun bu xidmətləri müqabilində iqtisadiyyat üzrə Nobel mükafatına (1974) layiq görülmüşdür.

F.Xayekin təsərrüfat fəaliyyətinin təşkili üçün işlədiyi sosial iqtisadi ideyaları çoxcəhətlidir. İqtisadi dünyagörüş, insanların iqtisadi davranışı, mikroiqtisadi təhlil, iqtisadi tədqiqatlarda makro və mikro iqtisadi təhlilin

downloaded from KitabYurdu.az

əlaqələndirilməsi, iqtisadi qayda və səmərəlilik məsələləri onun tədqiqatının əsas mövzuları olmuşdur.

F.Xayekin nəzəriyyəsinin əsasını iqtisadi elmlərin dərk olunması prosesi təşkil edir. Göstərir ki, iqtisadi hadisələrdə dəyişikliklər baş verdiyi üçün, onlar qeyri-müəyyən və qeyri-bərabər inkişaf edirlər.İqtisad elmi bu hadisələri proqnozlaşdırır və inkişaf meyllərini izləyir. Buradan da F.Xayek insan biliyinin məhdudluğundan iqtisad elminin predmetini, məqsəd və vəzifələrini müəyyən etməyə çalışır. Belə hesab edir ki, iqtisad elmi iqtisadi mənafenin təmin edilməsi üçün iqtisadi ehtiyatlardan daha səmərəli istifadə edilməsi probleminin tədqiqi ilə məşğul olmalıdır.

F.Xayek belə hesab edir ki, cəmiyyətin təşkili və inkişafı, yenidən qurulması plan əsasında deyil, daxili hərəkətin nəticəsində, təkamül yolu ilə baş verir. Cəmiyyəti təşkil edən insanlarda şüurlu şəkildə yox, daxili qanunauyğunluqlardan çıxaraq fəaliyyət göstərirlər. İnsan şüuru müəyyən dərəcədə hadisələr arasındakı əlaqəni başa düşür, ancaq onları idarə etmək olmaz. O bunu insan biliyinin məhdudluğu ilə əlaqələndirir. Göstərir ki, insan biliyi, əqli, zəkası məhduddur. Həmçinin biliyin bir hisəsi şəxsidir, başqasına ötürülə bilmir. Fərdi bilik konkret məlumatların məcmuusu deyil, dəyişən şəraitdə insanlara kömək edən vasitədir.

F.Xayekə görə biliyin tam olmaması, məhdudluğu onların insanlar arasında səpələnməsinə, bölüşdürülməsinə gətirib çıxarır. İctimai əmək bölgüsü nəticəsində iqtisadi hadisələr haqqında məlumatlar da müxtəlif şəxslər arasında bölüşdürülür. Bu da iqtisadi dünyagörüşün, iqtisadi təfəkkürün müxtəlifliyinə səbəb olur. Belə halda problemlərin əlaqəli şəkildə həllinin zərurilyi yaranır. Beləliklə o insan biliyini iqtisadi hadisə və proseslərin müşahidə edilməsinin, öyrənilməsinin, mənimsənilməsinin fasiləsiz prosesi hesab edir.

F.Xayek "geniş qayda" nəzəriyyəsində cəmiyyətin daxili qanunauyğunluqlar əsasında inkişafından çıxaraq A.Smitin "gözə görünməz əl" nəzəriyyəsinə oxşar bir fikir irəli sürür. Göstərir ki, bir-birilə əlaqəsi olmayan insanlar arasında geniş fəaliyyət mübadiləsi baş verir. Öz məqsədlərini güdən hər bir fərdin öz maraqları naminə göstərdiyi fəaliyyəti başqa fərdlərin, təsərrüfatların iqtisadi maraqlarının reallaşması üçün şərt olur. Nəticədə müxtəlif fəaliyyətli insanlar arasında geniş

downloaded from KitabYurdu.az

əlaqələr "geniş qayda" yaranır. Bu qaydalar kortəbii və şüurlu ola bilər. Öz-özünə yaranan qaydalar təkamül yolu ilə yaranıb, inkişaf etdiyi üçün cəmiyyətin inkişafının təbii prosesidir. Burada daha əsas məlumatların vaxtında toplanması və istifadə edilməsidir. Daxili səbəblərdən törəyən qaydalar insan şüurunun deyil, insan fəaliyyətinin nəticəsidir.

Liberalizmin başlıca ideyasını təşkil edən iqtisadi azadlıq, insan azadlığı F.Xayekin iqtisadi fəlsəfi baxışlarının əsas prinsipini təşkil edir. "Quldarlığa gedən yol" kitabında insanların iqtisadi azadlığına böyük əhəmiyyət verir və göstərir ki, yalnız bu halda insanlar öz biliklərini səmərəli tətbiq edə bilərlər. Azadlıq isə dövlət tərəfindən məhdudiyyətlərin və məcburiyyətlərin ləğvi deməkdir. Bu azadlıqdan imtina edilməsini geriyə-diktaturaya doğru, quldarlığa doğru qayıtmaq kimi qiymətləndirmişdir.

İqtisadi azadlığın yeganə əsasını xüsusi mülkiyyətdə görən F.Xayek dövlətin iqtisadiyyata hədsiz müdaxiləsini bu azadlıqların pozulması kimi qəbul edir. Buna görə də dövlət müdaxiləsinin genişlənməsinə qarşı çıxır, bütün sahələrdə onun fəaliyyətinin məhdudlaşdırılmasını təklif edir. Dövlətin rolunu yalnız sosial sahədə, pensiya və yardımların verilməsində görürdü. Onun təhsil, mənzil, sosial sistemində fəaliyyətini inzibati idarəçilik hesab edir.

F.Xayekin metodologiyasının ümumi xarakteri ondan ibarət olmuşdur ki, iqtisadi və sosial hadisələrin öyrənilməsində ayrı-ayrı təsərrüfatların, fərdlərin fəaliyyətlərinin təhlil edilməsinə üstünlük verilmişdir. O, makroiqtisadi təhlili qəbul etməmiş, ona mənfi yanaşmışdır. Göstərmişdir ki, mikroiqtisadi proseslərin təhlil olunması və başa düşülməsi bütövlükdə iqtisadiyyatın funksiyasını başa düşmək üçün kifayətdir. Xırda islahatlar başlıca dəyişikliklərin əsasıdır. F.Xayek fərdçiliyə üstün yer verməsinə baxmayaraq insanların davranışlarının müəyyən qaydalara uyğunlaşdırılmasını lazım bilmişdir. Onun fikrincə bu qaydaların formalaşması heç kimin nəzarət edə bilmədiyi təkamül prosesidir.

Lakin təsərrüfat sistemlərinin uzunmüddətli inkişaf istiqamətləri də onun diqqət mərkəzində olmuş və təsərrüfat qərarlarının qəbul olunmasında qeyri-mərkəzləşmə prinsipinə əsaslanan bazarlar arasında

downloaded from KitabYurdu.az

qarşılıqlı əlaqəni əks etdirən ümumi tarazlığın modelini işləyib hazırlamışdır. Burada istehsal amillərinin mülkiyyətçisi və istehlakçısı kimi ev təsərrüfatı, istehsal amillərinin və xidmətlərinin istehsalçıları və alıcıları kimi isə firmalar çıxış etmişlər. (Kapitalizmin xalis nəzəriyyəsi). Beləliklə, iqtisadi tədqiqatlarda mikro və makro təhlili əlaqələndirmişdir.

F.Xayekin təhlil etdiyi sahələrdən biri də bazar qaydalarının iqtisadi, fəlsəfi, hüquqi və siyasi əsaslarının işlənməsidir. Maddi nemətlərin istehsalında, bölüşdürülməsində və istehlakçılara çatdırılmasında bazar qaydalarının yenidən işlənməsi və tədqiq olunmasını birləşdirərək göstərmişdir ki, bazar sistemində iqtisadi subyektlər arasında məlumatların daha tez toplanması və səmərəli istifadə edilməsi mümkün olur. Bunun nəticəsində insanların bilikləri də genişlənir. Əgər insanlar məlumatları vaxtında toplaya bilmirlərsə onda öz mənafelərini fəaliyyətləri ilə əlaqələndirə bilmirlər.

F.Xayek bazar qaydasının iqtisadi tərəfi kimi məhsulların qiymətini əsas götürür. Göstərir ki, bazar qiyməti bazar subyektləri üçün operativ geniş informasiya mənbəyidir. Bunun vasitəsilə fəaliyyətlər biri-biri ilə əlaqələndirilir. Biliklərin genişlənməsi və yeni biliklərin axtarışına maraq isə rəqabət yaradır. Burada o, bazar mexanizminin ikinci əsas elementi kimi rəqabətə əsas üsütünlük verir.

F.Xayek bazarın fəlsəfi anlamını işləyib hazırlayır. Hər şeydən əvvəl göstərir ki, rəqabət yığılmış, toplanmış biliyin üzə çıxarılması, aşkar edilməsidir. Eyni zamanda rəqabət bu biliklərin iqtisadi ehtiyatların operativ variantlarının və yeni texnologiyanın səmərəli təşkilinin, istifadə edilməsinin axtarılmasına yönəldilməsidir. Yəni insanlar müəyyən məqsədə çatmaq üçün qeyri-müəyyən ehtiyatların səmərəli üsullarını axtarmağa məcbur olurlar və beləliklə insanların fəaliyyətləri genişlənir və təkmilləşir. Bazarın "görünməyən əli" ilə cəmiyyətdə səpələnmiş əməkdən daha səmərəli istifadə olunur. Biliklərin, fəaliyyətlərin səmərəli əlaqələndirilməsi isə ehtiyatların səmərəli bölüşdürülməsinə səbəb olur.

Beləliklə, F.Xayek ancaq bazar iqtisadiyyatı şəraitində ehtiyatların səmərəli bölgüsünün mümkün olduğunu irəli sürür. Daxil olan məlumatları kifayət qədər və tam mənimsəməyən mərkəzi planlaşdırma qiymətin, tələbin elastikliyindən asılılığını həyata keçirə bilmir, bazarın

downloaded from KitabYurdu.az

tələbinə, bazardakı dəyişikliyə daha tez və məhsuldar reaksiya verə bilmir. Buna görə də sosializmin məqsədinin faktiki olaraq həyata keçmədiyini qeyd edir.

F.Xayek bazar qaydalarında sosial bərabərsizliklərin mövcudluğunu qəbul edir və bunu belə əsaslandırır ki, rəqabət mübarizəsində insanların fəaliyyəti üzə çıxır, müəyyən olur. Belə ki, rəqabət mübarizəsinin nəticəsində insanların fəaliyyətinin müxtəlifliyi onların gəlirlərində qeyri-bərabərlik yaradır ki, bu da qanunauyğun bir prosesdir.

F.Xayek həmin dövrlərdə başlıca kapitalist dövlətlərinin iqtisadiyyatlarında mövcud olan inflyasiya probleminə də biganə yanaşmamış, onun səbəblərini və tənzimlənməsi yollarını özünəməxsus formada izah etmişdir. "Pul nəzəriyyəsi və iqtisadi tsikl" əsərində göstərir ki, iqtisadiyyatın ayrı-ayrı sahələri bazarda qiymət dəyişikliyinə müxtəlif cür reaksiya verdiyindən hər bir əlavə pul təklifinə qiymətlər müəyyən vaxtlarda - nisbətən tez və ya gec reaksiya verirlər. Nəticədə qiymətlər nisbətində qeyri-bərabərlik yaranır ki, bunu da inflyasiyanın mənbəyi hesab edir. Bundan çıxış yolunu dövlətin pul buraxılışı üzərində inhisarçılığını aradan qaldırmaqda və pulun qısamüddətə ixtisarında görür.

F.Xayek iqtisadiyyatın struktur quruluşunun pozulmasını işsizlik, inflyasiya halları ilə əlaqəli olduğunu qeyd edir və özünün tsiklin pul-kredit nəzəriyyəsində bunu təhlil edir. Göstərir ki, istehsalda əmək haqqı ilə istehlak şeylərinin qiymətləri arasında dəyişiklik baş verir. İstehlak şeylərinin qiymətinin qalxması real əmək haqqını aşağı salır.Nominal əmək haqqının artırılmasına çalışan insanlar nəticədə əmək təklifini artırır ki, bu da iş qüvvəsi bazarında gərginlik yaradır. Bu halda dövlətin kənardan süni müdaxiləsini inkar edərək, ancaq qiymətlər nisbətinin möhkəmliyinin bərpa olunmasını tövsiyə edir.

Eyni zamanda istehlak şeyləri ilə bərabər istehsal vasitələrinin də qiymətlərinin dəyişməsinin istehsalın quruluşuna mənfi təsirini qeyd edir və göstərir ki, bunlar son nəticədə iqtisadi artım tempini zəiflədir. Bunun səbəbini süni kredit faizinin genişlənməsində görür. Belə ki, süni kreditlər investisiya prosesini genişləndirir, maliyyə ehtiyatlarının istehsal vasitələrinə yönəldilməsi əlavə ehtiyatlar cəlb etməyə imkan verir, bu isə

downloaded from KitabYurdu.az

onların qiymətini qaldırır. Resurs ehtiyatı daha çox istehsal vasitələrinə yönəldiyindən istehlak şeyləri nisbətən az istehsal olunur. İstehsal vasitələri istehsal edən sahələrdə əmək haqqının artımı istehlak şeylərinə ehtiyacı artırır və bu sahənin istehsalı məhdud olduğundan qiymətlərin qalxması baş verir, nəticədə bu sahənin də inkişafı üçün şərait yaranır.Xayekə görə əgər kreditin süni stimullaşdırılması dayandırılarsa mövcud ehtiyatlar yenidən bölüşdürülməli olur, bu da azad surətdə baş vermir. Bəzi sahələrdə qiymətlərin qalxması nəticəsində iqtisadi ehtiyatların artıqlığına gətirib çıxarır. Bu isə iş qüvvəsinə olan tələbi aşağı salır.

Qeyd etmək lazımdır ki, F.Xayekin tarazlıq konsepsiyası da fərdlərin iqtisadi azadlığının təmin olunmasına yönəldilmişdir. Burada dövlətin rolunun genişləndirilməsinin əleyhinə çıxır. Bazar qaydalarının öz-özünə tənzimlənməsini ən səmərəli sosial sistem hesab edir. Cəmiyyət üzvləri arasında sosial ədalət axtarılması fikrini qəbul etmir və buna cəhdi smmiittğbğ, inkişafın ilkin mərhələsinə qayıtmaq kimi qələmə verir.

## §5. A.MİZESİN NEOLİBERALİST BAXIŞLARI

Neoliberalizmin görkəmli nümayəndələrindən biri də Çikaqo məktəbinin iqtisadçısı Lyudviq fon Mizes (1881-1973) olmuşdur. O, F.Xayeklə birlikdə həm də Avstriya məktəbinin davamçısı hesab olunur.

L.Mizes Avstriyada anadan olmuş, Vyana Universitetində təhsil almış, orada işləmiş, professor dərəcəsinə yüksəlmişdir. 1940-1969-cu ildən isə Nyu-York Universitetində beynəlxalq iqtisadi münasibətlər kafedrasında çalışmışdır. Özünün iqtisadi baxışlarını "Pul və kredit" nəzəriyyəsi (1912), "Sosializm" (1922), "Bürokratiya" (1944), "İnsan fəaliyyəti: iqtisadiyyat haqqında traktat" (1949), "Nəzəriyyə və tarix" (1957) əsərlərində şərh etmişdir.

Qeyd etmək lazımdır ki, XIX əsrin sonlarında əvvəllər nəzəri bilik səviyyəsində olan Qərb iqtisadi fikri ilə marksist iqtisadçıları arasında mərkəzi planlaşdırma və bazarın rolu haqqında mübahisələr real sosializmin mövcudluğu ilə daha da kəskinləşmişdi. Sosialist nəzəriyyəçiləri bazarsız, əmtəəsiz, mərkəzdən idarə edilən cəmiyyətin

downloaded from KitabYurdu.az

üstünlüyünü sübut etməyə çalışırdılar. Qərb iqtisadçıları isə bazar sisteminin çatışmazlıqlarını aradan qaldırmaq üçün dövlətin tənzimləyici rolunu qəbul edirdilər. Həmçinin kapitalist ölkələrinin iqtisadiyyatlarında baş verən dəyişikliklər-korporativ mülkiyyət formalarının üstünlük təşkil etdiyi qarışıq sistemin yaranması, dövlətin tənzimləyici fəaliyyəti, sahibkarlığın genişlənməsi - yeni iqtisadi ideyaların yaranmasını zəruri edirdi. Ona görə də Mizes (Xayeklə birgə) bazar qanunlarının fəaliyyətinin aradan qalxdığı mərkəzi idarəetmədə iqtisadi ehtiyatlardan səmərəli istifadənin mümkün olub-olmaması kimi mühüm problemlərin müzakirəsinə qoşuldu.

L.Mizes 1936-cı ildə yazdığı "Sosializm" əsərində sosializmin təhlili və tənqidçisi kimi çıxış edir. İstehsal vasitələri üzərində ictimai mülkiyyət və planlı iqtisadi tənzimləmə şəraitində ehtiyatların səmərəli bölgüsünün mümkün olub-olmaması məsələsinə dəqiqlik gətirir. Göstərir ki, mərkəzi idarəetmədə planlı tənzimləməyə iqtisadi ehtiyatların səmərəli bölgüsü baş verə bilmir. Ümumi bir qanunauyğunluq kimi ehtiyatların səmərəli bölgüsü yalnız əmtəə istehsalına və bazar münasibətlərinə əsaslanan cəmiyyətdə mümkündür. Yəni bazar mexanizminin köməyi ilə tələb və təklifin uyğunlaşması əsasında yaranan obyektiv qiymətlər ehtiyatların səmərəli bölgüsünə səbəb olur. Bununla da, o, qiymətin əmələ gəlməsi və iqtisadi ehtiyatlardan səmərəli istifadə olunması prosesində bazar mexanizminin üstün rolunu əsaslandırır, sosializmi qeyri-səmərəli bir iqtisadi sistem adlandırır.

Eyni zamanda L.Mizes tənzimlənən iqtisadiyyatda səmərəli iqtisadi fəaliyyəti təmin etmək üçün istehlakçıların azad seçiminin, tələbinin, zəruriliyini qeyd etmişdir. Bazar sistemində tələbatlara uyğun olaraq ehtiyatların bölgüsü mexaniki olaraq baş verir. Sosializmdə isə dövlət tərəfindən müəyyən olunan qiymətlər tələb və təklifi əks etdirmədiyi üçün istehslın inkişafı istiqamətini tuta bilmir, bu isə iqtisadi tarazlığı pozur.

L.Mizes burada insanların iqtisadi mənafeyini də ön plana çəkir. Göstərir ki, sahibkarlar öz mənfəətləri naminə istehsal edirlərsə bu son nəticədə ictimai tələbatların ödənilməsinə xidmət edir.

L.Mizes iqtisadi liberalizm prinsipindən çıxış edərək iqtisadiyyata dövlətin müdaxiləsini zəruri hesab etmirdi. Müasir cəmiyyətdə təsərrüfat

downloaded from KitabYurdu.az

subyektlərinin tam tarazlığına əsaslanan səmərəli iqtisadi siyasət kimi xüsusi mülkiyyəti, əmək bölgüsünü və azad mübadiləni əsas sayırdı. Azad rəqabət vasitəsilə bazarın daim fasiləsiz fəaliyyət göstərməsi üçün dövlətin müəyyən qanunlar çərçivəsində fəaliyyətini, xüsusi sahibkarlığın stimullaşdırıcı rolunu qəbul edirdi.

## § 6. FRANSADA NEOLİBERALİZM

Fransada neoliberalizm ideyaları dirijizm cərəyanının ifadəçisi kimi çıxış etmişdir. Fransa neoliberalistlərinin fərqli xüsusiyyəti ondan ibarət olmuşdur ki, onlar iqtisadiyyatın dövlət tənzimlənməsini qəbul edən Keyns və onun tərəfdarlarının fikirlərini qəbul etməmişlər. Lakin özləri də idarəetmədə inzibati prinsipləri əsas götürmüşlər və beləliklə onun forma və üsullarını fərqləndirmişlər.

Fransa neoliberalizminin əsas nümayəndəsi J.M.Ryuef 20-30-cu illər ərzində klassik ortodoksal liberalizmi müdafiə etmişdir. O, tələb və təklif əsasında yaranan azad bazar qiymətlərini iqtisadi tarazlığın əsası hesab etmiş, azad rəqabəti iqtisadiyyatın tənzimləyici mexanizmi adlandırmış, bazar sivilizasiyasına əsaslanan sosial qaydalara üstünlük vermişdir.

J.M.Ryuef iqtisadi hadisələrin kəmiyyət əlaqələrini və keyfiyyət dəyişikliklərinin təhlilini verməyə çalışmışdır. Cəmiyyətin sosial fərdlərdən təşkil olunduğunu qeyd edərək iqtisadiyyatın öyrənilməsində sosial fərdlərin müqayisəli təhlilində mühüm metod kimi riyazi modelləşdirmədən istifadə etmişdir.

J.M.Ryuef cəmiyyətdə mövcud olan işsizliyin səbəbini -real əmək haqqının miqdarından asılılığını - qanunauyğun şəkildə ifadə etmişdir. Bununla əlaqədar olaraq işsizliyi aradan qaldırmaq üçün əmək bazarının fəaliyyətini tənzimləməyi, xüsusilə də həmkarlar ittifaqlarının fəaliyyətini məhdudlaşdırmağı təklif edirdi. Ryuefə görə əmək haqqının aşağı düşməsi onların istehlak bazarını məhdudlaşdırır, reallaşma problemini kəskinləşdirir, təkrar istehsalı pozur, nəticədə nəinki işsizlik azalır, əksinə artır. Ona görə də uzun müddətə insanların real gəlirlərinin aşağı düşməsini qəbul etmir.

downloaded from KitabYurdu.az

Ryuefin əmək bazarında sərbəst qiymətlərin yaranması fikri sonralar neoklassik artım nəzəriyyəsinin ideyasına çevrilmişdir. O, cəmiyyətdə iqtisadi tarazlığın yaradılmasında azad bazarın rolu ilə yanaşı indikativ planları əlavə vasitə kimi hesab etmişdir. Fransa neoliberalistlərinin fərqli xüsusiyyətlərindən biri də bu olmuşdur.

## FƏSİL 17. MONETARİZM

### §1. MONETARİZMİN NƏZƏRİ VƏ METODOLOJİ

downloaded from KitabYurdu.az

## ƏSASLARI

XX əsrin 30-cu illərində yaranmış neoliberalizm cərəyanı xüsusi bir elmi istiqaməti kimi ABŞ-da meydana gəlmişdir.

Məlum olduğu kimi həmin dövr, yəni 20-30-cu illər, kapitalist iqtisadiyyatında geniş dəyişikliklərlə müşayiət olunurdu. Birinci dünya müharibəsindən sonra dünyanın siyasi-iqtisadi mənzərəsinin dəyişməsi, kapitalist iqtisadiyyatının ümumi böhranlar dövrünə qədəm qoyması iqtisadi tədqiqatlarda böyük dəyişikliklər tələb edirdi. Yeni dövr kapitalist iqtisadiyyatının özü-özünü tənzimləyə bilən bir sistem olmasını iflasa uğratdı və sübut etdi ki, iqtisadiyyatın dövlət tənzimlənməsi hökmən lazımdır. Belə bir şəraitdə iqtisadçılar qarşısında mühüm problem, təsərrüfatın dövlət tənzimi tədbirləri, onun miqyasının müəyyən olunması dururdu. Bu problemin həlli üzrə siyasi iqtisadda iki böyük cərəyan, keynsçilik və neoliberalizm formalaşmağa başladı.

Neoliberalizm əsasən AFR, Fransa, ABŞ, Avstriya, İsveçrə, İngiltərə, İtaliyada inkişaf edirdi. Monetarizm isə neoliberalizmin ABŞ da bir qolu kimi formalaşdı. Monetarizmin kökləri müəyyən səviyyədə Çikaqo məktəbi ilə bağlıdır. 1956-cı ildə Milton Fridmen monetarizmin özünəməxsus manifesti hesab olunan "Pulun kəmiyyət nəzəriyyəsi yeni formalaşdırma" məqaləsində elan etdi ki, onun təlimi öz kökləri ilə Çikaqo Universitetində müxtəlif illərdə fəaliyyət göstərmiş iqtisadçıların - Q.Saymons, L.Minte, F.Nayt, C.Vinerin işlərilə bağlıdır. Fridmen göstərirdi ki, onların işləri geniş nəşr olunmamış, əsasən "şifahi ənənə" şəklində söhbətlərdə, mühazirələrdə davam etmişdir. Məhz burada müasir monetarizmin bünövrəsini təşkil edən kəmiyyət nəzəriyyəsinin dəqiqləşdirilmiş və reallığa daha uyğun olan variantı yaranmışdır.

Məşhur nəzəriyyəçi və iqtisadi fikir tədqiqatçısı D.Patikin M.Fredmenin məqaləsində adları çəkilən Çikaqo məktəbinə xas iqtisadçılarının baxışlarını geniş araşdırmış, bu alimlərin yazılı işlərini təhlil etmiş və müəyyən etmişdir ki, 30-40-cı illərdə Çikaqo Universitetində N.Fişerin mübadilə eyniliklərinə əsaslanan və pul kütləsi ilə qiymətlər səviyyəsinin bilavasitə əlaqəsini əsas tutan kəmiyyət nəzəriyyəsi mövcud olmuşdur. Fridmen nəzəriyyəsi ilə kəmiyyət nəzəriyyəsinin digər Kembric

downloaded from KitabYurdu.az

variantını (hansı ki, sonralar Keyns tərəfindən likvidliyin üstünlükləri və təsərrüfat agentlərinin kassa qalıqlarına öyrənilmiş tələbi nəzəriyyəsinə çevrilmişdir) inkişaf etdirmişdir. Patikinin fikrincə Fridmen konsepsiyası Kembric variantının uzunmüddətli təkamülünün həlqələrindən biri və müasir keynsçi pul nəzəriyyəsinin mürəkkəbləşdirilmiş variantıdır. Patikin nəinki xüsusi Çikaqo ənənəsinin mövcudluğunu inkar edir, hətta Fridmen təhlilinin Keynsin pul nəzəriyyəsi ilə sıx əlaqədar olduğunu göstərir. Bu fikirlər bir çox iqtisadçı alimlər tərəfindən təsdiqlənmişdir. Monetar əksinqilabının mənbələrini araşdıran N.Conson təsdiq edir ki, Çikaqo Universitetinin şifahi ənənəsi Fridmenin "kəşfidir".

60-cı illərin sonlarında Fridmen xüsusi iqtisadi məktəbə başçılıq edirdi. Onun "Sosial elmlərin beynəlxalq ensiklopediyası"(1968) üçün yazdığı kəmiyyət nəzəriyyəsi haqqındakı məqalədə və "Monetar analizin nəzəri əsasları" (1970) işində artıq Çikaqo məktəbi xatırlanmır. Bundan başqa o təsdiq edir ki, onun konsepsiyası keynsçi likvidliyin üstünlükləri nəzəriyyəsinin təhlilinin güclü təsiri altındadır. Elə həmin dövrdə başqa bir işdə Fridmen öz doktrinasının tarixi köklərini, 30-40-cı illərin Çikaqo iqtisadçıları ilə bağlı olduğu haqqında məsələ qaldırır. Öz nəzəriyyəsinin Keyns ideyaları ilə bağlılığını inkar edir. Çikaqo məktəbinin mübahisələri beləliklə bitməz olaraq qalıb. Bir çox müəlliflər (D.Moqqriq, S.Hauson və b.) təsdiq edirlər ki, Çikaqo məktəbinin xüsusi pul nəzəriyyəsi olmayıb. Başqaları, məsələn, C.Tavles göstərir ki, Çikaqo iqtisadçılarının işlərində kəmiyyət nəzəriyyəsinə xüsusi yanaşma (pulun tədavül sürətinin dəyişməsinə əsaslanan) halları vardır. Bu əsasda Tavlas göstərir ki, pulun Fridmen nəzəriyyəsi onun Çikaqo müəllimlərinin kəmiyyət nəzəriyyəsi dairəsindəki baxışlarının inkişaf edən davamıdır. K.Brunner tərəfindən 1968-ci ildən iqtisad elminə gətirilən monetarizm termini Çikaqo məktəbi terminini əvəz etdi və hazırda bu cərəyan monetarizm adı ilə tanınır.

Monetaristlər "Pulun mənası var" şüarını irəli sürmüşlər və bu onların təliminin özünəməxsus simvoluna çevrilmişdir. Kəmiyyət nəzəriyyəsinin yeni variantının yaradıcıları bu simvolda xüsusi məna görürlər. Onlar pulu yalnız iqtisadi amil kimi deyil, təsərrüfat sisteminin baş mərkəzi elementi kimi qiymətləndirirlər. Bu element iqtisadi konyukturanın vəziyyətini və bütün təkrar istehsal prosesini müəyyən

downloaded from KitabYurdu.az

edir. Monetaristlər "sabit pul" nəzəriyyəsini fəal təbliğ edirlər. Onlar iqtisadi böhranların əmələ gəlməsinin əsas səbəbini pulun sabitliyinin pozulmasında görür, pul sabitliyi və ümumtəsərrüfat konyukturası arasında möhkəm səbəbiyyət asılılığı yaradırlar.

Pul sferasının tənzimlənməsinə dair bir sıra məsələlər hələ monetaristlərdən əvvəl Amerika iqtisadçısı K.Uorberton tərəfindən qoyulmuşdur. O, "pul tarazsızlıqları" nəzəriyyəsi ilə çıxış edirdi. Bu nəzəriyyə konyukturanın tsiklik inkişafının köklərini pul "şokları", pul dövriyyəsində tələb və təklif tarazsızlıqlarına əsaslanırdı. Lakin Uorberton tsiklik monetar nəzəriyyəni kəşf etməmişdir. O, özü təsdiq edirdi ki, tarazlığın klassik nəzəriyyəsi öz inkişafı yolunda pul sferasının balanslaşdırılmasını təmin edən şərtlər yerinə yetirilmədikdə də cəmiyyət tarazsızlıq nəzəriyyəsi ilə birgə irəli getmişdir. Uorberton bu nəzəriyyənin elementlərini D.Yumun, H.Sttvurdun, T.Coplinin, Q.Tortonun və b. iqtisadçıların tədqiqatlarında axtarıb tapır. O, pulun tarazsızlıqları nəzəriyyəsini yeni statistik məlumatlarla əsaslandırır. 1946-cı ildə o, - "pul çatışmazlığı bu iqtisadi depressiyaların meydana gəlməsinin və kiçik enmələrin böyük böhranlara çevrilməsinin əsas səbəbidir" - monetaristlərin əsas mühakiməsini formalaşdırmışdır. Bu zaman "pul çatışmazlığının" günahı mərkəzi bankın siyasəti ilə bağlanırdı.

Keyns ideyalarının hökm sürdüyü zaman Uorbertonun baxışları diqqəti cəlb etmədi. Yalnız 60-cı illərdə monetaristlər Keyns doktrinasına qarşı güclü tənqidə başlarkən Uorbertonun tədqiqatı və onun pul tarazsızlıqları nəzəriyyəsindən istifadə etdilər.

Amerika iqtisadçısı C.Dorn yazırdı: "Monetar məktəbin banisi olan Fridmen pul tarazsızlıqları nəzəriyyəsinin bir çox mühakimələrini qəbul etdi. O, iqtisadi aktivliyin tərəddüdlərinin meydana gəlməsində qaydasız pul dəyişikliklərinin həlledici rol oynaması ideyasını və qiymət korrektlərinin yeni qiymət tarazlığına keçiddə təxirəsalma faktoru kimi dayandırılmasının vacibliyini qəbul etdi".

M.Fridmen monetarist doktrinasının əmələ gəlməsində və təsdiq olunmasında aparıcı rol oynamışdır. O, monetarizmin əsas müddəalarını formalaşdırmışdır. Monetar istiqamətin digər üzvləri: F.Keyçen, D.Meyzelman, K.Brunner, A.Meltser, D.Leydler, A.Şvarts əsasən şərhçi və

downloaded from KitabYurdu.az

öz rəhbərlərinin ideyalarının məşhurlaşdırıcı rolunda çıxış etmişlər. Lakin monetarizmin mənbəsinin belə "personlaşdırılması", onu bir nəfərin "övladı" kimi qəbul etmək olmaz. Monetarizm müəyyən dövrün məhsulu, iqtisadiyyatda vacib dəyişikliklərə spesifik reaksiyadır. Qeyd etmək yerinə düşər ki, yarandığı on il müddətində bu cərəyan tanınmamışdır. Həmin illərdə kapitalizmin iqtisadiyyatı artım dövrü yaşayırdı. Bu dövr Keyns nəzəriyyəsinin nüfuzunun möhkəmlənməsi ilə müşayiət ounurdu. Onun tərəfdarları yüksək konyukturanı dövlətin fəal siyasətinin, tələbin stimullaşdırılmasının nəticəsi kimi qəbul edirdilər. 60-cı illərin ikinci yarısında ABŞ-ın Vyetnamda apardığı müharibə ölkə iqtisadiyyatına güclü təsir göstərdi. İqtisadi resursların hərbi məqsədlərə istifadəsi, ölkə iqtisadiyyatının hərbi rejimə uyğunlaşdırılması, dövlətin məqsədlərinin yerinə yetirilməsi üçün dövriyyədə artıq pul kütləsi buraxılışı makroiqtisadi göstəricilər güclü təsir etdi. Büdcə kəsirinin kəskin artdı, inflyasiya,  əmtəə qiymətlərinin artımı gücləndi. Monetaristlərin mövqeyi belə bir şəraitdə möhkəmləndi və populyarlaşdı.

Monetarist doktrina bir neçə mərhələ keçmişdir. İlkin mərhələdə, 50-ci illərin ikinci yarısı və 60-cı illərin əvvəlləri, əsas qüvvə pulun kəmiyyət nəzəriyyəsinin yeni variantının işlənməsinə yönəldilmişdi. Bu  variantda pul sabit tələb funksiyası kimi ifadə olunmuşdur. Belə funksiya möhkəm və etibarlı proqnozlaşdırılmış pulun dövriyyə sürətinin analoqu, pul kütləsi və nominal (pul) gəlir modelinin əsas həlqəsi idi.

Antikeynsçi cərəyan kimi çıxış edən monetarizm hər an onun mövqelərinə hücum edir, mühakimələrinin əsaslarını tənqid edirdi. Monetar baxışların məşhurlaşmasının əsas səbəbi də kapitalist iqtisadiyyatının inkişafı gedişində, dövlət tənzimlənməsi prosesində keynsçiliyin qüsurlarının təzahürü idi. 1963-cü ildə M.Fridmen və D.Meyzelmanın əsas tənqid obyekti Keyns modelinin açar elementi olan investisiya multiplikatorunun  tənqid geniş əks-səda tapdı.. Müəlliflər investisiya multiplikatorunu şərh edərkən sübut etməyə çalışırdılar ki, bu modelə görə "pulun mənası yoxdur". Onlar göstərirdilər ki, bu nəticə Keynsin təlimindən alınmır. Lakin praktikada bir çox keynsçilər belə hesab etməyə meyillidirlər ki, investisiyalar faiz dərəcələrinin dəyişməsinə təsir etmir və diqqətlərini nəzəriyyənin sadə mühakiməsinə yönəldərək pul

downloaded from KitabYurdu.az

ehtiyatlarını nəzərə almırlar və onu keçmiş nöqsanların qırıntıları kimi nəzərdən keçirirlər. Fridmen və Meyzelman xüsusi test hazırlayırlar. Məqsəd ondan ibarətdir ki, iki göstəricidən investisiya multiplikatoru (onlara görə, gəlir kütləsinin və ya istehlak xərclərinin investisiyalara nisbəti) və pulun dövriyyə sürəti ("gəlirlərin və ya istehlak xərclərinin pul ehtiyacına nisbəti"), hansı milli gəlirin dinamikasını daha etibarlı surətdə proqnozlaşdırmağa qadirdir. Hesablamalar nəticəsində müəlliflər monetar modelinin Keynsçi modeldən üstün olduğunu sübut etməyə çalışırdılar.

Monetaristlər uzun müddət "fienalizm" adlandırdıqları keynsçi siyasətlə mübarizə aparmışlar. Onların fikrincə, Keynsin fiskal siyasətində görülən tədbirlər müəyyən vaxtdan sonra real nəticələrə səbəb olur. Buna görə də, görülən tədbirlər iqtisadi şəraitin dəyişməsi ilə əlaqədar olaraq mənfi təsir də göstərə bilər. Sonralar monetaristlər tərəfindən "sıxışdırılıb çıxarma effekti" adlanan nəzəriyyə yaradıldı. Bu nəzəriyyəyə görə təsərrüfatdan, dövlət investisiyalarının genişlənməsindən nə qədər qazanırsa, bir o qədər xüsusi investisiyaların ixtisarından itirir.

70-ci illərin ortalarında monetarist-keynsçilik qarşıdurması təsərrüfat siyasəti praktikasında inkişaf etməyə başladı. Monetarizmin nümayəndələrindən biri Q.Conson bu haqda yazır: "Yeni ideyalar intellektual dairələri öz elmi dəyərlərinə görə fəth etmir. Hər şey onun mövcud ortodoksiyanın həll edə bilmədiyi problemi həll edə bilməsindən asılıdır". 70-ci illərin sonu 80-ci illərin əvvəllərində monetarizmin şöhrətlənməsinə onun təkliflərinin iqtisadi siyasətdə istifadə olunması səbəb oldu. Mərkəzi banklar praktiki fəaliyyətlərində monetarist pul qaydalarının müxtəlif variantlarını işlətməyə başladılar. Tələbin idarə olunması, fəallıq siyasəti öz əhəmiyyətini itirdi. Siyasətin yeridilməsində "tədriciliyə" və "gecikdirmələrə" doğru dönüş yarandı. Pul kütləsinin "sıxılması", kreditin məhdudlaşdırılması ilə əlaqədar siyasət genişləndi.

70-ci illərdə İngiltərə təsərrüfatını xarakterizə edən M.Desan yazır: "Çox nadir hallarda müşayiət etmək olar ki, xüsusilə dövlət siyasəti sahəsində, nəzəri arqumentlər belə sürətli və dağıdıcı qələbə qazanırlar. Necə ki, bunu monetaristlər Keynsin tələb siyasətinə qarşı edirlər".

Sonralar, 70-ci illərin ortalarında kapitalist ölkələrində genişlənən inflyasiya böyük dağıntılara səbəb oldu. Keynsçiliyin inflyasiyasının mənfi

downloaded from KitabYurdu.az

nəticəsini nəzərə almamaları onların mövqelərini zəiflətdi. Monetaristlərin inandırıcı görünən inflyasiya nəzəriyyəsi ilə sabit valyuta kursu ilə çıxış edən mövqeyi bu zaman daha da güclənir. Lakin monetaristlərin geniş nüfuz qazanmasının əsas köklü səbəbi kapitalist təkrar istehsal şərtlərinin dəyişməsi və kapitalist ölkələrinin idarəetmə dairələrinin strateji xətti dəyişməyə məcbur olması oldu. Bu dövr kapitalist ölkələrində iqtisadi artım tempinin nəzərə çarpacaq dərəcədə zəifləməsi, çoxlu xoşagəlməz amillərin vacib xammal növlərinin çatışmaması, enerji resurslarının qıtlığı rəqabəti genişləndirir, daxili və xarici bazarda satışı məhdudlaşdırırdı. İstehsalın və əməyin məhsuldarlığının azalması son nəticədə mənfəət normasının azalmasına gətirib çıxartdı. Belə bir şəraitdə Keynsin tam məşğulluq şüarını, monetaristlərin pulun sabit alıcılıq qabiliyyəti şüarı əvəz edir. Dövlət siyasətində tələbin stimullaşdırılmasından imtina edilir, dövlət tənzimi dairələri məhdudlaşdırılırdı. Monetarizm "yeni konservatizmin" mühüm tərkib hissəsinə çevrilir. Hazırda monetarizm konservativ doktrinalar ittifaqının mühüm tərkib hissəsi hesab edilir. Bu ittifaqa monetarizmlə yanaşı ekonomiks, yeni klassik cərəyan və s. (o cümlədən, səmərəli gözləmə nəzəriyyəsi) daxil edilir.

## §2. NEOLİBERALİZM VƏ MONETARİZM: FƏRQLƏR VƏ ÜMUMİ CƏHƏTLƏR

XX əsrin 20-30-cu illəri dünya ölkələrinin iqtisadiyyatında böyük dəyişikliklərlə müşayiət olunurdu. Cəmiyyətdə baş verən iqtisadi dəyişikliklər iqtisadi nəzəriyyədə də dəyişikliklər tələb edirdi. Artıq uzun illər ərzində siyasi iqtisadda aparıcı rollardan birini oynamış liberalizm cərəyanı öz qüvvəsini itirmişdi. Əsas iqtisadi problemlərin həllində yeni münasibətlərdə müxtəlif cərəyanlar formalaşırdı. Bunlara liberalizmin davamçısı kimi tanınan neoliberalizm və siyasi-iqtisadda yeni cərəyan olan keynsçiliyi göstərmək olar. Hər iki cərəyanın tədqiqat mərkəzində "tənzimlənən iqtisadiyyat" problemi dururdu. Onların ən mühüm fərqləri də bu problemə necə yanaşmalarından yaranmışdı. Keynsçilik dövlət tənzimini tam müdafiə edir və ona hər hansı bir məhdudiyyət qoymurdu. Neoliberalistlər isə əvvəlcə dövlət tənziminin tam əleyhinə çıxsalar da

downloaded from KitabYurdu.az

sonralar onu qəbul etməyə məcbur oldular. Neoliberalistlər kapitalizmin tərəddüdlü inkişafını, baş verən böhranları dövlət tənzimi prinsiplərinin düzgün müəyyən olunmasında, dövlət tənzimi sərhədlərini düzgün müəyyənləşdirilməməsində görürdülər. Neoliberalistlərin əsas şüarı, "azad sahibkarlıq", "sosial bazar təsərrüfatı" idi. Onların fikrincə bazar iqtisadiyyatı tam azad rəqabətə əsaslandıqda daimi yüksələn inkişafa malik olmalıdır. Lakin insanların psixoloji meylləri rəqabətin pozulmasına, inhisarlaşmağa meyl yaranmasına səbəb olur ki, bu da sistemin inkişafında dissproporsiyaya - işsizlik, inflyasiyaya və s. səbəb olur. Beləliklə, dövlət tənziminin əsas məqsədi, bu pozulmaların qarşısını almaq, mükəmməl rəqabəti təmin etməkdən ibarət olmalıdır.

Neoliberalizmin ilk nümayəndələrindən biri olan Amerika iqtisadçısı Uolter Limpman "Azad şəhər" kitabında liberalizmin ənənələrini müəyyən şəkildə davam etdirir və dövlət tənziminin yeni prinsiplərini əsaslandırır. Limpmanın fikirləri neoliberalizmdə mühüm rol oynamışdır. Hətta 1938-ci ildə Parisdə keçirilmiş neoliberalların konfransı onların tərəfindən "Uolter Limpman kollokkviumu" adlandırmışdır. Məhz, bu kollokkviumda neoliberallar tam təsdiq etdilər ki, kapitalizm iqtisadiyyatı özünü müstəqil tənzimləməyə malik deyil və dövlətin rolu inkar edilməzdir. Neoliberalizm inkişaf etmiş kapitalist ökələrində sürətlə inkişaf etdi. Müxtəlif ölkələrdə onun öz xüsusiyyətləri ilə fərqlənən cərəyanları formalaşmağa başlandı.

Neoliberalizm bu adla Almaniya Federativ Respublikasında geniş yayılmışdır. Fransada neoliberal dirijizm, Avstriya və İsveçrədə neomarjinalizm, İngiltərədə neoindividualizm, Amerika Birləşmiş Ştatlarında monetarizm kimi neoliberalist cərəyanları formalaşır.

Monetarizm öz xüsusiyyətləri ilə başqa neoliberalist cərəyanlardan daha çox fərqlənirdi. Bu fərqlər 70-ci illərdən daha çox artmış və monetarizm öz təkamülü ilə elə bir səviyyəyə çatmışdır ki, hazırda onu yeni konservativ doktrinalar ittifaqına aid edirlər. Lakin başlıca iqtisadi nəzəriyyə məsələlərinə baxışda monetarizm neoliberalizmlə həmfikirdir. Hələ neoliberalizm yarandığı dövrdə onun aparıcı nümayəndələri olan alman iqtisadçıları V.Repke, A.Ryustov, V.Oyken və s. fəal surətdə başqa cərəyanları, onların nəzəriyyələrini tənqid edir, öz nəzəriyyələrinin əsaslandırılmasında bu metoddan istifadə edirdilər. Onlar K.Marksın dəyər

downloaded from KitabYurdu.az

nəzəriyyəsini qeyri-təcrübi, həmfikir nəzəriyyəsi kimi qiymətləndirdilər. Dəyər nəzəriyyəsini bir şəxsin ağlının məhsulu hesab edirdilər. Bu fikir monetarizmin banisi M.Fridmen tərəfindən də təsdiqlənir. Onun fikrincə dəyərin mənbəyini əmək nəzəriyyəsi ilə izah etmək, dəyərin mənbəyini insan əməyində görmək yanlışdır. İnsan ona görə insandır ki, onun şüuru var. Necə ki, insanı onun psixologiyası müəyyən edir, dəyərin mənbəyi də məhz psixologiyada axtarılmalıdır. İnsanın bütün fəaliyyəti həyatdan zövq almağa yönəlmişdir. Bütün proseslərin: müharibələrin, istehsalın, sərvət yığımının və s. mənbəyi - məhz zövqün ödənilməsi ilə bağlıdır. Hər hansı bir şeyin dəyəri ona nə qədər insan əməyi sərf olunmasında deyil, onun insan zövqünü nə dərəcədə ödəməyə qabil olmasında və insanın onu necə qiymətləndirməsindədir.

Qərbi Almaniya neoliberalistləri dəyərin izahına psixoloji aspektlərin öyrənilməsi nöqteyi-nəzərindən yanaşırdılar. Oyken məhsulların dəyərini onların istehlak prosesində müxtəlif əhəmiyyətləri ilə əlaqələndirir. Məhz bu aspektdən neoliberalistlər bazar iqtisadiyyatının "xüsusi siqnallar sistemini" əsaslandırırlar. Onların fikrincə sahibkar, istehsalçı bazarı öyrənərək istehsalçıların tələbatını, zövqünü müəyyən edir və buna uyğun məhsul istehsal edir. Beləliklə, məhsul hələ bazara çıxmazdan, əvvəl, yəni əmtəə olmazdan əvvəl onun dəyəri sahibkar tərəfindən müəyyən olunur. Bazarda isə əmtəələrin qiyməti formalaşır. Göründüyü kimi, neoliberalistlərin fikrincə dəyər subyektiv bir amildir. Qeyd etmək lazımdır ki, dəyərin psixoloji aspektdən izahı təkcə neoliberalistlərə, o cümlədən monetaristlərə xas olan əlamət deyil. Lakin bu fikir müasir iqtisadi nəzəriyyələrdə, o cümlədən keynsçilikdə də eyni cür izah olunur.

Neoliberalizmin pul və pul tədavülünə dair fikirləri onların dövlət tənzimlənməsinin metod və prinsipləri ilə sıx əlaqədardır. Pulla bağlı nəzəriyyələrdə neoliberalizm və monetarizmin əsas fərqləri meydana çıxır. Həm neoliberalistlər, həm də monetaristlər təsərrüfat həyatında pulu yüksək qiymətləndirir. Neoliberalistlərin fikrincə kapitalist iqtisadiyyatında disproporsiyalar qiymətlərin pula qarşı güclü hissiyyatı ilə əlaqədardır. İqtisadi problemlərin əsas səbəbini pulun sabitsizliyi ilə əlaqələndirir və pulun sabitsizliyinin də xeyli dərəcədə bankların fəaliyyəti

downloaded from KitabYurdu.az

ilə əlaqədar olmasını söyləyirlər. Oyken pul sabitsizliyini izah edərkən bunu, bankların "pul saraylarına" çevrilməsi ilə əlaqələndirir. Onun fikrincə, bank prezidentinin tərəddüdləri pul dövriyyəsində hiss olunur, pul kütləsinin tərəddüdlərinə səbəb olur. Yəni bank kreditinin artması pul kütləsini artırır, azalması isə əksinə azaldır. Pul kütləsinin artıb-azalması ilə uyğun olaraq qiymətlərin artması isə kreditə tələbi artırır. Oykenin fikrincə belə əlaqə iqtisadi problemlərin: böhranların, işsizliyin yaranmasına aparıb çıxarır. "Sosial bazar təsərrüfatında" bu problemin qarşısını almaq üçün sabit pul tələbi təklif olunur. Sabit pul tələbi problemi o dövrdə, o cümlədən indiki nəzəriyyələrdə də mühüm problemdir.

Neoliberalistlərdən fərqli olaraq monetaristlər pulu təkcə təsərrüfatın əhəmiyyətinin faktoru kimi deyil, onu daha vacib bir şey kimi nəzərdən keçirirlər. Monetaristlərin fikrincə pul bütün təsərrüfatı öz ətrafında fırladan maqnit oxudur. Pul problemi başlıca iqtisadi problem hesab olunur və bütün digər problemlər pul tələbində, pul tədavülündə baş verən dəyişikliklərin nəticəsi kimi qiymətləndirilir. Neoliberalistlər kimi monetaristlər də "sabit pul" ideyasını irəli sürürlər. Lakin monetaristlər buna çatmağı başqa yolla həyata keçirirlər. Monetaristlərin əsas məqsədi pul təklifini sabitləşdirməkdən ibarətdir. Onlar 1929-1933-cü illər Böyük Depressiyanın əsas səbəbini məhz bununla əlaqələndirir, əsas günahı ABŞ Federal Ehtiyatlar Sistemində görürlər. Onların fikrincə FES ölkənin pula tələbini düzgün müəyyənləşdirə bilməmiş, dövriyyədə pul azlığı yaratmışlar. Onlar pul təklifindəki dəyişiklikləri istehsalın, milli gəlirin dinamikasına təsir edən yeganə vacib amil hesab edirlər. Onlar xüsusi hesablamalarla dövriyyədəki pul kütləsinin illik artımının mümkün olan səviyyəsini müəyyən edirlər.

Neoliberalistlərin tədqiqat mərkəzində duran əsas problemlərdən biri iqtisadi böhranlar problemidir. Məlum olduğu kimi neoliberalizm kapitalizmin ümumi böhranı adlanan bir dövrdə yaranmışdır. Həmin dövr neoliberalistlərin qarşısında xüsusi məsələ qoymuşdur: böhranların səbəbini araşdırmaq və onlara qarşı tədbirlər sistemi hazırlamaq. Neoliberalistlərə görə böhranlar iqtisadiyyatın daxili ziddiyyətlərinin nəticəsi deyil. O qeyri-iqtisadi amillərlə bağlıdır. Qeyri-iqtisadi amillərə neoliberalistlər əsasən psixoloji motivləri aid edirlər. Onların fikrincə

downloaded from KitabYurdu.az

böhranlar yalnız kapitalizmə aid deyil, istənilən cəmiyyətdə məxsus olan normal bir haldır. Onlar böhran sözünü bir iqtisadi termin kimi iqtisadi nəzəriyyədən çıxarır, "böhran nəzəriyyəsini" "konyuktura nəzəriyəsi" ilə daha doğrusu, "kapitalizmin tərəddüdsüz inkişaf" nəzəriyyəsi ilə əvəz edirlər. Neoliberalistlərin fikrincə böhran adlandırılan iqtisadiyyatın bu dəyişiklikləri sadə konyuktura dəyişiklikləridir. Qeyd etmək lazımdır ki, hazırda müasir Qərb iqtisadi nəzəriyyəsində böhran termini işlədilmir. Hətta 1929-1933-cü illər böhranı "Böyük depressiya" adlandırılır.

Monetaristlərin tsikl nəzəriyyəsi neoliberalistlərdən fərqli olaraq, başqa cürdür. Düzdür, neoliberalistlər kimi monetaristlər də tsiklik inkişafı qanunauyğun normal hal kimi hesab edirlər. Ancaq tsiklik inkişafın səbəbinin müəyyənləşdirilməsində onların baxışları fərqlənir. Monetaristlər tsiklik inkişafı, iqtisadi tərəddüdləri pul kütləsində baş verən tərəddüdlərlə əlaqələndirirlər. Neoliberalistlər isə əsas səbəbi psixoloji motivlərdə: rəqabətdən kənarlaşmaya və inhisarçılığa meyl, sərvət yığımı və s. əlaqələndirirlər. Onların fikrincə bu amillər son nəticədə bazar təsərrüfatının tənzimlənmə mexanizmini pozur ki, bu da əsas iqtisadi problemlərlə müşayiət olunur. Neoliberalistlər dövlət tənziminin geniş dairə əhatə etdiyi bir şəraitdə tsiklik inkişafın aradan qaldırılmasını qeyri-mümkün hesab edir.

Neoliberalistlərin nəzəriyyəsində riyazi modellər üstünlük təşkil edir. Fransa neoliberalisti J.L.Ryufin fikrincə bu metod kapitalist iqtisadiyyatının kəmiyyət qanunauyğunluqlarını aşkar etməyə imkan verir. Lakin bütöv nəzəriyyə yaratmaq üçün o, keyfiyyət tərəfi olan nəzəri əsaslandırmalarında xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edir. O, işsizliklə real əmək haqqının düz mütənasib asılı olan modelini verir. Eyni fikri monetaristlər də təsdiq edirlər. Onların hər ikisinin kökündə məhsuldarlığın azalması qanunu durur. Ryuef işsizliyin qarşısının alınması üçün əmək bazarını kristallaşdıran amillərin qarşısını almağı təklif edir. Monetaristlərin fikrincə işsizlik insanların məcburi deyil, təbii meylidir. İşdən azad olunmuş adam daha aşağı şərtləri qəbul etsə yenidən işləyə bilər. Hər iki cərəyan həmkarlar ittifaqının fəaliyyətinin işsizliyin artmasına səbəb olduğunu təsdiq edir. Onların əmək haqqını artırmaq cəhdləri kapitalist mənfəət normasının azalmasına səbəb olur. Ryuefin tarazlıq

downloaded from KitabYurdu.az

modelinə görə tarazlıq azad bazar qiymətlərinin təsiri şəraitində baş verir. O dövlətin iqtisadi tənziminin genişlənməsinin təsərrüfat mexanizminin pozulmasına səbəb olan amil hesab edir. Dövlətin əsas iqtisadi siyasəti azad bazar qiymətlərinin qarşılıqlı fəaliyyətini təmin etməkdən ibarətdir. Monetaristlərə görə isə əsas iqtisadi siyasət pul kütləsinin sabit, dəqiq müəyyən olunmuş artımını müəyyən etməkdən ibarətdir.

Azad qiymətlər modeli neoliberalizmin əsas modellərindən sayılır. Model konform və qeyri-konform müdaxilələri əsaslandırır. Konform dövlət müdaxiləsi aşağıdakılardır: valyuta devalvasiyası; qoruyucu rüsumlar; iş vaxtının (bayramların) müəyyən olunması, normal qiymətləri bərpa məqsədi ilə qiymət tənzimi, qızılın qiymətinin sabitləşdirilməsi, verilənləri süni dəyişməklə gəlirin dolayı bölgüsü, gəlirə vergi qoymaqla gəlirin düz üsulla bölgüsü. Qeyri-konform müdaxilə tədbirləri: valyuta təsərrüfatının məcburi aparılması; klirit siyasəti, xarici investisiyaların qadağan olunması, qiymətlərin və mənzil ödəmələrinin dondurulması; minimum əmək haqqı, dotasiyaların verilməsi və s. X.Kosslerin fikrincə, dövlət tənzimində konform və ya qeyri-konform tədbirlərin seçilməsi, onların pozulmuş bazar mexanizmini nə dərəcədə düzəltməyi vəd edilməsindən asılıdır. Digər alman neoliberalisti L.Erxardın fikrincə, iqtisadiyyatda dövlət tənziminə vacib tələb yaranmayınca dövlət belə tədbirlərdən istifadə etməməlidir. Müasir alman neoliberalizmi üçün "neoklassik sintezi" alman variantı, neoliberalizmin və keynsçiliyin birləşməsi xarakterikdir. Bu monetarizmlə daha çox dövr nəzəriyyələrində, xüsusi iqtisadi artım nəzəriyyəsində meydana çıxır.

Monetaristlər iqtisadi artımı pul kütləsinin artımına bağlayır. Neoliberalistlər iqtisadi artımın qlobal tənzimlənməsini təşkil edirlər. Müasir neoliberalistlər üçün planlaşdırma xüsusi əhəmiyyət kəsb edir. Alman iqtisadçısı Leylerin fikrincə sosial bazar təsərrüfatı ondan çox uzaqdır. Belə bir təsərrüfat, yəni müasir bazar iqtisadiyyatı xüsusi planlaşdırma tələb edir. Onlar qlobal tənzimlənmənin əsas elementlərini aşağıdakıları hesab edirlər.

-Məqsəd layihələri və yönəlmə göstəriciləri şəklində dövlət planlaşdırması;

-Orta tezlikli maliyyə planlaşdırması;

downloaded from KitabYurdu.az

-Dövlət pul-kredit siyasəti;

Şübhəsiz ki, müasir neoliberalistlər həm monetarizmdən, həm də öz sələflərindən uzaqlaşmışlar. Buna görə də onları "neoklassik sintez" adlandırırlar.

## §3. MONETARİZMİN HƏYATA KEÇMƏ MEXANİZMİ VƏ TƏKAMÜLÜ

Monetarizmin fəaliyyətinin ilk dövrü Yumun kəmiyyət nəzəriyyəsinin yeni variantının işlənməsindən ibarətdir. Monetarist kəmiyyət nəzəriyyəsi ənənəvi variantdan əhəmiyyətli dərəcədə fərqlənirdi. Problemə ümumi yanaşma, metodologiya, alınmış nəticələr xeyli fərqlənir. Yeni monetaritst variantın banisi M.Fridmen nəzəriyyənin təkmilləşdirilməsinə dair onun mikro əsasının möhkəmləndirilməsindən başlayır. O, əvvəlki variantlarda olduğu kimi makroiqtisadi nəticələr əldə etməyə tələsmir.

Tədqiqatın ilk mərhələsində kassa qalıqlarına tələb problemini araşdırır. Ayrı-ayrı təsərrüfat subyektlərinin pula tələbini müəyyənləşdirir, sonra alınmış nəticələri bütün təsərrüfata aqreqatlaşdırma nəticəsində məcmu pul tələbini müəyyən edir. Fridmen öz nəzəriyyəsini pula tələb nəzəriyyəsi adlındırır. Pula tələbin müəyyən edilməsi məsələsi monetaristlər və keynsçilər arasında mübahisənin əsasını qoyur. Keynsdə pula tələb tezdəyişən və proqnozlaşdırıla bilməyən təsərrüfat agentlərindən asılı olan bir amildir. Monetaristlərə görə isə pula tələb ən pis iqtisadi şəraitdə belə sabitdir. Məhz pulun bu cür sabitliyinə təsərrüfat mexanizminin sabitliyinin ən vacib amili kimi baxılır.

Monetarist kəmiyyət nəzəriyyəsi, kəmiyyət nəzəriyyəsinin Kembric variantına yaxındır. Orada pula tələb istehlakçı seçiminin xüsusi halı kimi qiymətləndirilir. Azalan məhsuldarlıq prinsipinə əsaslanan bu variantda resurs ehtiyatlarının aktivlərin alternativ növləri arasında optimal bölgüsü əsaslandırılır. Fridmenin nəzəriyyəsi "potfel modellər" nəzəriyyələri sırasına daxildir.

Pula tələb modeli qurularkən 2 tip təsərrüfat agenti: ev təsərrüfatları və kapitalist firmaları tədqiq edilir. Ev təsərrüfatları üçün pul sərvət

downloaded from KitabYurdu.az

yığımının bir forması, kapitalist firmaları üçün isə kapital aktividir. Hər iki halda pul hərəkətdə axın kimi deyil, ehtiyat kimi yığılan və qarşılıqlı dəyişilə bilən aktivlərin portfeli kimi nəzərdən keçirilir. Keynsdən fərqli olaraq onun portfelində hər cür aktiv: səhm, istiqraz, mal ehtiyatları, "insan kapitalı" və s. var. Portfelin əsas elementi puldur. O sahibinə ödənişləri həyata keçirməyə imkan yaradır. Gözlənilməz hadisələrin qarşısının alınmasına təminat verir. Bu növdən gözlənilən daxilolmalar tələb mənliyi ilə ifadə olunur. Burada pulun qiymətliliyi, alıcılıq gücü, qiymətlər səviyyəsi ilə tərs asılılıqdadır.

İkinci agent kapitalistlərdir. Bu dövriyyədə pul keyfiyyətcə başqa rol oynayır. Burada kəmiyyəti nəzərə alınmayan amillərin təsir dairəsi genişləndirilir. Model başqa cərəyanların nümayəndələri tərəfindən kəskin tənqid edilir, reallığa uyğun olmayan model kimi baxılır. Həqiqətən, modelin reallaşma mexanizmini izah edərkən Fridmen abstraksiyaya yol verir. Məsələ ondadır ki, iqtisadi agentin müxtəlif amillərinin dinamikası kassa qalıqlarına tələbə tamamilə müxtəlif təsir edə bilər. Fridmen bu müxtəliflikləri mütləq nəzərə almır. O tələb funksiyasının yayılması ilə əlaqədar mürəkkəblikləri nəzərə almır. Aqreqatlaşdırmanın son nəticəsini bir çox dəyişənlərin təsiri ilə bağlayır. Məsələn, ayrı-ayrı iştirakçıların inflyasiya gözləmələri müxtəlif cürdür. Burada o, yüksək abstraksiyaya əsaslanır. Onun fikrincə bu onu bütün müxtəlifliklərin hesablanmasından azad edir. Monetarist nəzəriyyəyə görə pul emissiyası avtonom, təsərrüfat mexanizmdən kənarda formalaşır. Pul tələbi qeyri-elastikdir. Pul tələbinin qeyri-elastikliyini sübut etməyə çalışaraq monetaristlər özlərinin mühüm bir fikrini faiz normalarının dəyişməsinin pul tələbinə təsir etmədiyini əsaslandırırlar. Əksinə, Keynsin nəzəriyyəsində faiz normasının dəyişməsi pul tələbində və ümumiyyətlə, təsərrüfatda əhəmiyyətli dəyişikliklərə səbəb olan amil kimi qiymətləndirilir.

Keynsə görə işsizliyin mövcud olduğu hər vaxt pul kəmiyyətinin dəyişməsi məşğulluğun və istehsalın səviyyəsinə təsir edir. Fridmen problemin belə qoyuluşunu bəyənir. Ancaq deyir ki, müasir analitik aparat problemi belə həll etməyə imkan vermir. Bundan belə bir formul əldə edir ki, gəlir pul ifadəsində nominal pul kəmiyyətinin dəyişməsini əks etdirir.

downloaded from KitabYurdu.az

Monetarist pul dinamikasının şərhi 1958-ci ildə Fridmenin nəşr etdiyi əsərində əks olunmuşdur. O, 1870-1954-cü illərdə ABŞ-da pulun dövriyyə sürətinin uzunmüddətli və tsiklik dinamikasını şərh edir. Qəribə və çətin izah olunan bir fenomen irəli sürülür. Müəllifə görə, pul sürətinin və Ümumi Milli Məhsulun dəyişməsi konyuktura tsiklinin hüdudları ilə üst-üstə düşür. Pul aktivlər portfelinin ən ətalətli elementidir. Pula tələb adi (ölçülən) nəşr ilə deyil, onun möhkəm hissəsinin sabit nəşr ilə ölçülür.

Monetarizmdə bazar təsərrüfatı, onun strukturu haqda nəzəriyyələr xüsusi yer tutur. A. Xesenin sözləri ilə desək, monetarizmin əsas fikri ondan ibarətdir ki, xüsusi təsərrüfat öz əsasında möhkəmlənir və resursların Paretto ruhunda optimal bölgüsünə uyğun olaraq məhsul həcmi ilə qiymətlər dəsti yaratmağa meyllidir. Baxar qüvvələri daim tələb - təklif tarazlığına doğru çəkir. Monetaristlər bu nöqteyi-nəzərdən çıxış edərək Keynsin məcburi işsizlik nəzəriyyəsinə qarşı çıxırlar. Keynsdən fərqli olaraq monetaristlər iqtisadi artımın hüdudlarını, məşğulluq səviyyəsini tələblə yox, istehsal imkanları ilə əlaqələndirirlər. Onların fikrincə rəqabətin fəaliyyət göstərdiyi bazar mexanizmi resursların optimal istifadəsini təmin etməyə qabildir. Monetaristlərin bu fikri A. Smitin "görünməyən əl" prinsipi ilə uyğunluq təşkil edir. Bazar tarazlığının əsas modellərinin qurulmasında monetaristlər Valras modelindən geniş istifadə edirlər. Fridmen işsizliyin ümumi səviyyəsini müəyyən edərkən Valrasın ümumi tarazlıq sistemindən istifadə edir. Bununla belə Fridmen Valras modelini tənqid edir. Onu ideallaşdırılmış model hesab edir.

Monetaristlərin əsas tədqiqat obyektlərindən biri tsikl və böhranlar problemidir. Tsiklin monetar nəzəriyyəsi hələ əvvəllər Rişer, Şvarts, Brunner və s. iqtisadçılar tərəfindən əsaslandırılmışdır. Lakin onlar tsiklin inkişafını bank kreditləşməsi ilə əlaqələndirirlər. Monetaristlər isə pul kütləsinin və ümumi iqtisadi göstəricilərin dəyişməsi ilə, ümumi iqtisadi statistik korrelyasiya əlaqəsinə diqqət yetirirlər. Bu əlaqə pul və iqtisadi aktivliyin əlaqəsi kimi qiymətləndirilir. Onlar Keyns nəzəriyyəsindəki kimi pulun təkrar istehsalın "real" elementlərinə təsirini qəbul edirlər. Lakin bunu müvəqqəti hesab edirlər Son nəticədə pul neytraldır. Onun son effekti qiymətlərin dəyişməsində əks olunur. Onlar pulu xəyalı bir şey,

downloaded from KitabYurdu.az

pərdə kimi qiymətləndirir, onu "real" istehsal üçün qeyri-mövcud hesab edirlər.

Monetaristlərin tsikl nəzəriyyəsi onların 1963-cü ildə nəşr etdirdikləri üç əsərdə öz əksini tapır. Birinci iş M.Fridmen və D.Meyzelman tərəfindən hazırlanır. Onlar avtonom xərclər və pul kütləsinin dəyişməsinin iqtisadiyyata təsirini əks etdirən test hazırlayırlar. Əsərdə 1897-1958-ci illərin böyük həcmli statistik məlumatları verilib. Əsas məqsəd keynsçi və monetarist modelləri müqayisə etmək və monetarist modelin üstünlüyünü sübut etməkdən ibarət idi. Hesablama iki istiqamətdə: istehlak və avtonom xərclərinin münasibəti (keynsçi mövqe), pul kütləsi və istehlak xərcələrinin münasibəti (monetarist mövqe) inkişaf edir.

İkinci iş M.Fridmen və A.Şvartsın nəşr etdirdikləri "Pul və işgüzar tsikl" kitabıdır. Əsər 1867-1960-cı illərdə ABŞ iqtisadiyyatında pul ehtiyatlarının dəyişməsinin tsiklik xarakterinin şərhi ilə başlanır. Əsərin əsas məqsədi monetarist tsikl nəzəriyyəsinin əsas tezisini, pul kütləsinin tərəddüdlərinin uyğun olaraq, iqtisadi tərəddüdlərə səbəb olmasını faktorlarla əsaslandırmaqdan ibarət olub. Müəlliflər 1867-1960-cı illərdə pul kütləsinin dinamikasını həmin dövrün tsiklik dövriyyədə olan pul kütləsinin azalması ilə üst-üstə düşdüyünü əsaslandırırlar. Belə ki, 1873-1879-cu illərdə iqtisadi böhran dövründə pul kütləsinin 4,9% azalması müşahidə olunmuşdur. Tsiklik inkişafda pulun rolu iki istiqamətdə şərh edilir. Birinci funksiya  dərin enmələrdə özünü göstərir. Bu zaman pul tam əks rol oynayır. Pul miqdarında tərəddüdlər konyukturaya öz təsirini müəyyən vaxt intervalında göstərirlər. Yüksəliş zamanı bu interval maksimum 18 ay, enmələrdə isə 12 ay olur. Ayrı-ayrı tsikllərdə qabaqlama vaxtı müxtəlif olur. Buna əsaslanaraq monetaristlər dövlətin keynsçi konyuktura siyasətini pisləyirlər. Məsələn: göstərirlər ki, enmənin başlanğıcında tətbiq olunan tədbir öz təsirini tsiklin öz xüsusiyyətləri ilə fərqlənən başqa bir dövrdə göstərə və tam əks-təsir edə bilər.

Üçüncü iş Fridmen və Şvartsın "ABŞ-ın monetar tarixi, 1867-1960" kitabı idi. Müəlliflər göstərilən dövrə aid böyük statistik məlumatların araşdırılması əsasında doqquz bölmədən ibarət nəticə əldə edilir. Hər bölmədə müəyyən göstəricinin (gəlir, qiymət, dövriyyə sürəti və s.) dinamikası, bütün göstəricilərin isə nominal şərhlə münasibəti müəyyən

downloaded from KitabYurdu.az

olunur. Müəlliflərin fikrincə heç bir göstərici, pul miqdarını çıxmaqla konyukturaya hiss edilən təsir etməmişdir. Yalnız tədavüldə olan pul miqdarının dəyişməsi iqtisadi aktivliyi müəyyən edən amil olmuşdur.

Monetarizmin əsas iqtisadi cərəyanlarından biri kimi formalaşmağının və indi də mövcud olmasının əsas səbəbi onun keçmə mexanizminin olmasıdır. Monetaristlər yalnız statistik faktlarla əsaslandırılmış nəzəriyyə və modellər irəli sürmür. Həm də onun praktiki tətbiqi mexanizmlərini təklif edirlər. Monetarist tədqiqatının ilkin mərhələsi pul və onun təsərrüfatda rolu haqda nəzəriyyələrin yaranması və inkişaf etdirilməsidirsə, sonrakı mərhələdə pul kütləsindəki diyişikliklər, onların iqtisadiyyata təsiri araşdırılır. Burada əsas məsələ pul kəmiyyətinin dəyişikliklərinin əsas səbəblərinin araşdırılmasından ibarətdir.

"ABŞ-ın monetar tarixi, 1867-1960" əsəri monetaristlərin əsas tezislərindən birini, pulun dövriyyə sürətinin sabit olmasını faktlarla əsaslandırır. Göstərilən 93 ildə pulun dövriyyə sürəti hər il orta hesabla 1% azalıb. Müəlliflər göstərirlər ki, doğrudan da müxtəlif illərdə dövriyyə sürətində müxtəlif sıçrayışlar olub: məsələn: 1880-1915-ci illərdə 4.97-dən 1.9-a enib: sonrakı on ildə 1.1-2.5 intervalında tərəddüd edib. Lakin dəqiq müəyyən edilmiş meylə malik olmayıb 1946-cı ildən artmağa başlayıb və 1960-cı ildə 1.69-a bərabər olub. Alınan nəticələrdən biri də odur ki, pul ölkədə əhali tərəfindən sərvət əşyası kimi yığılır. Onlar müxtəlif dövrlərdə bu pulun miqdarını da hesablamağa cəhd edirlər.

Pul kəmiyyətinin dəyişməsinin iqtisadiyyata təsiretmə mexanizmi monetarizmin ən zəif nöqtəsi hesab edilir. Əsas ideya ondan ibarətdir ki, pul kəmiyyətinin dəyişiklikləri aktivlər portfelinin struktur dəyişməsinə səbəb olur. İqtisadi tsikl aktivlərin ümumi balansının tətbiqinin nəticəsi kimi qiymətləndirilir. Məsələnin belə şərti iqtisadçılar tərəfindən kəskin tənqid edilir. Fridmen 70-ci illərin əvvəlində pul mexanizmini yenidən işləməyə cəhd edir. Yenə də diqqət mərkəzində aktivlər portfeli durur. Fridmen sxemi aşağıdakı kimidir:

Aktiv nisbətlərinin dəyişməsi əvvəlcə sabit qiymətlərlə nominal və real iqtisadi göstəricilərə təsir edir. Keynsçilər də bu fərqlər nəzərə alınmır. Monetaristlərdə isə bu xüsusi vacib əhəmiyyətlidir.

downloaded from KitabYurdu.az

Əsas diqqət təsərrüfat agentlərinin qiymətlərin dəyişməsinə reaksiyası durur. Qiymətlərin tərəddüdü kassa qalıqlarına tələbi dəyişdirir. Hansı ki, pul vahidinin nominal kəmiyyətinə yox, alıcılıq qabiliyyətinin faktiki kəmiyyətinə yönəlir. Tədavül iştirakçıları buna yığmaqla və əksinə, pulu malların və ya maliyyə aktivlərinin alınmasına sərf etməklə cavab verirlər. Bunlar hamısı cari qiymətlərlə nominal gəlirdə əks olunur. Pul impulslarının son effktlərinin bölünməsinə gəldikdə isə Fridmen pul hərəkatının yalnız müxtəlif dövrə intervallarda təsirini hesablayır. Uzunmüddətli dövrdə pul neytraldır, təsərrüfata təsir etmir. Çox qısa müddətə isə pul dəyişikliklərinin təsiri ola bilər, ancaq o tezliklə qiymətlər sisteminin yeni bazar şəraitinə uyğunlaşması ilə öz təsirini itirir. Bu məsələdə Fridmen neoklassiklərlə, xüsusən A.Marşalın "bazar disproporsiyalarının baş verdiyi şəraitdə qiymətlər təsərrüfatının təshihini həyata keçirən əsas əlamətdir" fikri ilə razılaşır. Fridmen göstərir ki, qiymətlərin və nominal gəlirin dəyişməsi həmişə pul təklifinin dəyişməsi ilə əlaqədardır. Pul kütləsinin dəyişməsi bütün portfel balansının yenidənqurulmasına səbəb olur. Əsas effekt özünü qiymətlər dairəsində göstərir. Bununla monetarist nəzəriyyədə bir problemin, inflyasiyanın şərhinə körpü salınmış olur. İnflyasiya problemi monetarist nəzəriyyədə aşağıdakı kimi şərh edilir:

1) İnflyasiyanın vahidi və vacib səbəbi nominal pul kütləsi artımının məhsul kütləsi artımı ilə müqayisədə daha sürətlə getməsi;

2) Uzunmüddətli dövrdə pullar neytraldır. Pul impulslarının (pul kütləsində dəyişikliklər) effekti yalnız qiymətlərin ümumi dinamikasında əks olunur. "Real" dəyişənlərə (istehsal həcmi, investisiya, məşğulluq və s.) təsir etmir. Qısa dövrdə isə pul kütləsinin artım tempinin dəyişməsi istehsala və məşğulluğa təsir edə bilər. Lakin bu effekt uzun sürməyəcək, müəyyən vaxtdan sonra real göstəricilərin artım tempi çıxış səviyyəsinə qayıdacaq.

3) Monetarist inflyasiya modelində inflyasiya gözləmələrinə xüsusi yer ayrılır. Onlar keçmiş qiymət dinamikasına aid proqnozlarda olunmuş səhvləri nəzərə almaqla formalaşdırılır: İnflyasiyaya aid monetarist baxışlar iki mərhələ keçib: birinci mərhələdə inflyasiyanın meydana gəlməsi, inkişaf mexanizminə diqqət yönəldilir. İkinci mərhələyə

downloaded from KitabYurdu.az

inflyasiyaya və işsizlik problemlərinin əlaqəsinə dair araşdırmalar aiddir. İnflyasiya probleminin şərhində əsas rolu monetaristlərin qabaqcıl nümayəndələrindən biri F.Keynen oynamışdır. O, 50-ci illərin ortalarında müxtəlif ölkələrdə qiymətlərin dinamikasının xüsusiyyətlərini araşdırır. Araşdırma nəticəsində Birinci və İkinci dünya müharibəsindən sonra güclü inflyasiya olmuş ölkələrdə (Almaniya, Avstriya, Macarıstan və s.) hiper inflyasiya dövrü üçün xarakterik olan kassa qalıqlarına tələblə qiymətlərin gözlənilən artım tempi arasında möhkəm statistik qarşılıqlı əlaqə müəyyən edir. Keynen pul tələb formulu ilə tədqiqat aparır. Məlum olduğu kimi, monetarist pul tələbində qiymət gözləmələri ilə yanaşı digər dəyişmələr, sərvətin real ehtiyatı, cari gəlir və s. aktivlər ifadə olunur. Keynen belə nəticəyə gəlir ki, güclü hiper inflyasiya şəraitində bütün bu amillər, qiymətlərin gözlənilən dəyişmə tipindən başqa, əhəmiyyətli rol oynamır

60-cı illərin sonlarına qədər monetarist inflyasiya nəzəriyyəsi inflyasiyanın iqtisadiyyatın pul sektorunda natamam tarazlıq kimi nəzərdən keçirirdi. 70-ci illərin əvvəlləri əsas makroiqtisadi problemlərə, inflyasiya və işsizliyə hər iki cərəyan, monetarizm və keynsçilik tərəfindən geniş araşdırmalar aparılır. Məhz bu məsələlər bu iki cərəyanın mübahisəsinin xüsusilə kəskinləşməsinə səbəb olur. Əsas mübahisə Fillips əyrisinə dair idi. Məlum olduğu kimi F.Fillips 50-ci illərin sonlarında 1861-1957-ci illərdə İngiltərədə əmək haqqı səviyyəsi ilə işsizlik normasının statistik əlaqəsini aşkar etmiş və qrafik təsvirini vermişdir.Keynsçilər Fillipsin metodologiyasından istifadə edərək işsizlik və inflyasiyanın əlaqəsinin, staqfilyasiyanın təsvirini verirlər. Fridmen "Pul-kredit siyasətinin rolu" məqaləsində Fillips əyrisini və keynsçilərin fikrini kəskin tənqid edir, işsizliklə inflyasiyanın heç bir əlaqəsinin olmadığını elan edir. Fridmen Keynsin effektiv tələbin çatışmasından yaranan "məcburi" işsizlik nəzəriyyəsini inkar edir. Monetarizmə görə işsizlik azad xarakterikdir, adamların azad seçiminin nəticəsidir. Əgər işdən azad olunmuş adamlar öz ixtisaslarını, yaşayış yerlərini dəyişməyə razı olsalar, daha az əmək haqqı ilə qənaətlənsələr işləməyə bilərlər. İşsizliyin şərhində Fridmen əsas diqqəti bazar tarazlığı probleminə yönəldir. O, işsizliyin təbii səviyyəsi anlayışını irəli sürür. Friksion və struktur işsizlik növlərini ayırır. İşsizliyin təbii səviyyəsinin bazarın struktur səviyyəsinin xüsusiyyətləri, müxtəlif bazar

downloaded from KitabYurdu.az

deformasiyaları: əmək resurslarına tələbat haqda məlumatın olmaması, boşalmış iş yerlərinin hamıya vaxtında məlum olmaması və s. ilə əlaqədar olduğunu əsaslandırır. Bu səviyyə sabit deyil, o, müxtəlif sosial qrupların fəaliyyətindən, inzibati siyasətdən və s.-dən asılıdır. Dövlətin sosial siyasəti (minimum əmək haqqı səviyyəsi, işsizlərə müavinətlərin verilməsi və s.) həmkarlar itifaqlarının əmək haqqını artırmaq tələbləri işsizlik səviyyəsinin artmasına səbəb olur.

İnflyasiya nəzəriyyəsinin digər əsas həlqəsi inflyasiya gözləmələridir. Keyns modelində təsərrüfat agentləri bir qayda olaraq əmək haqqının nominal səviyyəsinə səmtləşirlər. Daha doğrusu, onlar qiymət artımını nəzərə almır və nominal gəlirin artımı ilə kifayətlənirlər. Monetarist sxemində isə adamlar öz xərclərində yalnız real əmək haqqı dərəcələrini nəzərə alır, daha doğrusu, həmişə pulun qiymətinin dəyişməsi nəticəsində alıcılıq qabiliyyətinin dəyişməsinə əsaslanırlar.

Monetaristlərin Fillips əyrisinin tənqidi bu fərqlərlə bağlıdır. Fridmen yazır: "Fillips öz modelini nominal qiymətlərin səviyyəsinin sabit qalacağının gözlənildiyi bir dünya üçün yazıb". Qiymətlərin sürətlə artdığı şəraitdə təsərrüfat agentlərinin davranışı dəyişir. Gözləmələr mühüm rol oynayır. Monetarist yanaşma qiymət gözləmələrinin adaptiv ifadə olunmasından ibarətdir. Bu zaman keçmiş gözləmələrin faktiki səviyyəsindən fərqlənməsi "səhvlərdən nəticə çıxarma" diqqət mərkəzindədir. Monetaristlərin fikrincə qiymət qalxmaları əvvəlcədən düzgün gözlənilirsə, inflyasiya effekti sıfır olacaq. Pulun təsərrüfata stimullaşdırıcı təsirini bərpa etmək üçün gözlənilməz inflyasiya lazımdır.

Monetarist inflyasiya konsepsiyasında inhisarların qiymətlərə təsiri də araşdırılır. İnhisarların yüksək qiymətlər qoymasının qiymətlərin ümumi strukturuna təsiri müəyyənləşdirilir. Onlar müəyyən etmişlər, qiymətlərin geniş dairəsi bazar tələbinin dəyişməsinə reaksiya vermir. Bunun günahı inhisarçı sahə kompaniyalarında görülür. Onlar belə qiymətləri "inzibati qiymətlər" adlandırır. "İnzibati qiymətlər" məsələsi 70-ci illərdə xüsusilə ciddiləşir. Bu dövr inhisar qiymətlərinin xüsusilə genişlənməsi ilə müşayiət olunurdu. ABŞ konqresi məsələyə diqqət yetirir. Müəyyən edilir ki, poladəritmə kompaniyaları tərəfindən 50-ci illərin sonunda və 60-cı illərin əvvəlində qiymətlərin dəyişməsinə və inflyasiyaya

downloaded from KitabYurdu.az

güclü stimul yaratmışdır. Beləliklə, 70-ci illərin əvvəllərindən başlayaraq, monetarizmə diqqət artırdı. Onun problemləri düzgün şərh etməsi və inandırıcı həll mexanizmləri verməsi get-gedə bir cərəyan kimi tanınmasına şərait yaradırdı.

Monetarizm yarandığı dövrdən onun liderləri ödəmə balansı və valyuta kursu məsələlərinə xüsusi diqqət yetirirlər. Fridmen 1953-cü ildə nəşr etdirdiyi "Çevik valyuta kursunun xeyrinə dəlillər" kitabında Beynəlxalq Valyuta Sisteminin köklü islahatlarını əsaslandırır. Bu islahatlar qəti müəyyən edilmiş valyuta kurslarının ləğv edilməsinin və qızılın azad ticarətə keçməsini təmin etməli idi. Bu ABŞ-ın dünya qızıl ticarətində hakim rol oynamasına şərait yaratmışdı. Lakin tezliklə bu siyasət ABŞ iqtisadiyyatında mənfi nəticələrini göstərdi. ABŞ-ın qızıl ehtiyatı tükəndi. Ödəmə balansının vəziyyəti çətinləşdi. Monetaristlər beynəlxalq iqtisadi münasibətlərin mərkəzdən idarə edilməsinə qarşı çıxır. Bunu dövlətin iqtisadiyyata yersiz qarışmasının bir əlaməti kimi qiymətləndirirdilər. Onların çıxışları bu məsələdə ABŞ rəhbərliyinə qarşı güclü müxalifətin yaranmasına səbəb oldu. Fridmen problemi həll etmək üçün iki metod irəli sürür.

1) Avtomatik fəaliyyət göstərən beynəlxalq qızıl standartı.

2) Xüsusi əməliyyatlarla müəyyən olunan dövlət tənzimi olmadan azad üzən valyuta kursları sistemi. Fridmen əsas məsələni ödəmə balansının problemlərinin həll edilməsində elə bir mexanizmdən istifadə edilməsində görürdü ki, həmin mexanizm azad bazar qüvvələrinə dünya ticarətində şəraitin dəyişməsinə cəld, effektiv cavab verməyə imkan yaratsın. Fridmenin islahat modeli aşağıdakı kimi şərh edilir:

·Qəti müəyyən edilmiş qızıl standartının ləğvi;

·ABŞ-da xüsusi şəxslərin qızıla malik olmasını qadağan edən qanunun ləğvi;

·ABŞ-ın daxili dövriyyəsində qızıl təminatının ləğvi;

·ABŞ banklarında bütün qızılın azad bazar qiymətləri ilə satışı;

·Digər valyutalarla ABŞ valyutasının qəti müəyyən olunmuş paritetlərinin ləğvi;

·Digər ölkələrə öz valyutalarını ABŞ valyutasına nisbətdə saxlamağa imkan yaratmaq.

downloaded from KitabYurdu.az

Bunların çoxu ABŞ və Beynəlxalq Valyuta Fondu tərəfindən bir müddətdən sonra qəbul edildi. 1973-cü ildə Bretton- Vuds razılaşmasına son zərbə vuruldu. Üzən valyuta kurslarına keçildi. 1976-cı il Yamayka konfransında ehtiyat valyuta SDR elan edildi. Lakin SDR özünü doğrultmadı. İndi beynəlxalq miqyasda ehtiyat valyuta rolunu əsasən ABŞ dolları oynayır.

Faktiki olaraq, ölkələr monetaristlərin azad üzən valyuta kursları prinsipinə əsaslanmadılar. Bütün ölkələrdə milli valyutanın kursuna ciddi nəzarət edilməyə başladı.

70-ci illərin əvvəllərində monetarizm məktəbi çərçivəsində dəyişikliklər baş verir, məktəb daxilində əmək bölgüsü yarandı. Bu zaman iki qrupa ayrılma baş verir.

I qrup monetarizmin daxili aspektlərinin işlənməsinə, cilalanmasına diqqətini yönəldir (Fridmen, Keysen, Brunner).

II qrup xarici iqtisadi münasibətlər, xarici sektorla daxili təkrar istehsal mexanizminin qarşılıqlı əlaqəsinə diqqətini yönəldir. (Q.Conson, R.Madell, A.Paffer, R.Dornbum, A.Svoboda, M.Mdssa, M.Mayiz). Onların demək olar hamısı Çikaqo Universitetinin tələbələri idi.

"Beynəlxalq monetarizmin" əsas yaradıcıları Q.Conson və R.Madell sayılır. "Beynəlxalq monetarizmin" əsas tezisi ondan ibarətdir ki, dünya valyuta bazarının konyukturasının yaranmasında əsas rolu pul oynayır. Xarici iqtisadi prosesləri izah etmək üçün daxili bazarda pul tələb-təklif əlaqəsindən istifadə etmək lazımdır. Q.Consonun fikrincə ödəmə balansına xüsusi şərh verirlər. Onu xarici əməliyyatların cəmi kimi deyil, xarici hesablaşmalarda bütün ödənişlərin və daxilolmaların saldosu kimi nəzərdən keçirirlər. Saldo ölkə mərkəzi bankının ehtiyatlarının dəyişməsi ilə üst-üstə düşür. Ehtiyatlar pul emissiyasının mənbəyi olduğundan daxili pul tədavülü ilə xarici hesablaşmaların əlaqəsi yaradılır. Bu əsasla da ödəmə balansını "pul hadisəsi" kimi qiymətləndirirlər.

"Beynəlxalq monetarizmin" əsas problemlərindən biri Ümumdünya inflyasiya nəzəriyyəsidir. Bu məsələ ilə məşğul olanlar iqtisadi nəzəriyyəçiləri qlobalistlər adlandırırlar. Qlobalistlər pul tarazlığına ümumdünya çərçivəsində tam şəkildə baxırlar. Consona görə dünyada yalnız bir dünya pulu var. Dünya tarazlıq səviyyəsinə o, tələbin dəyişmə

downloaded from KitabYurdu.az

tempi ilə beynəlxalq valyuta ehtiyatları təklifinin dəyişməsinin münasibəti kimi baxır. Dünya inflyasiyası R.Mandell, A.Svoboda tərəfindən inkişaf etdirilmiş və müasir dövrdə də davam edir.

## §4. MÜXTƏLİF ÖLKƏLƏRDƏ MONETAR SİYASƏTİN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

70-ci illərin ortalarında monetarist sxemləri bir çox ölkələrdə praktiki olaraq istifadə edilməyə başlandı. Kapitalist bankları monetarist "hədəfləmə" siyasətindən geniş istifadə etməyə başladılar. "Hədəflər"-qarşıda duran dövrdə göstəricilərin dəyişməsinin dəqiq hüdudlarının müəyyən edilməsi və ona əməl edilməsindən ibarət idi. Qərbi Almaniya Bundes bankı 1974-cü ildə bank ehtiyatlarının və nəğd pulların 12 aylıq artım dəqiqələrini müəyyən etdi. Həmin ildə İsveçrədə pul aqreqatı olan $M_1$-in nəğd pullar mərkəzi bankda ehtiyat hesabları artımının yol verilən həddi, İtaliyada yeni kreditlərin ümumi həcmi müəyyən olundu. 1975-ci ildə Kanadada $M_1$-in "hədəflənməsi" həyata keçirildi. 1976-cı ildə Böyük Britaniyada, 1977-ci ildə Fransada pul kütləsinin müxtəlif böyük və kiçik göstəriciləri üçün "hədəflər" müəyyən olundu. Niderland, İspaniya və s. ölkələr də bu siyasətə qoşuldular. Bu siyasətin həyata keçirilməsinin bütün ölkələrdə əsas məqsədi inflyasiyanın qarşısının alınması idi. Onlar iqtisadiyyatda sabitlik yaratmaq üçün monetarist məsləhətlərindən geniş istifadə edirlər. Lakin analiz göstərir ki, ölkələrin heç biri monetar siyasəti "təmiz" şəkildə tətbiq etmirdilər. Dövlət Mərkəzi Bank rəhbərlikləri daim manevr üçün özlərinə fəaliyyət azadlığı saxlayırdılar ki, gözlənilməz hadisələr baş verdikdə qarşısını almaq mümkün olsun. Buna görə hər yerdə "hədəfləmə" siyasəti müəyyən məhdudiyyətlərlə həyata keirilirdi. Belə yanaşma monetarist sxemlərinin məzmunsuzlaşmasına səbəb olurdu ki, son nəticədə də monetaristlərin özləri dediyi kimi lazımi nəticələr əldə edilmirdi. Monetarist sxemlərinin dövlət siyasəti praktikasında təhriflə istifadəsi monetaristlər tərəfindən məzəmmətli qarşılanırdı. Hadisələrin bu cür inkişafı son nəticədə monetarist dairələr və ABŞ Federal Ehtiyat Sistemi rəhbərliyi arasında kəskin mübahisənin yaranmasına səbəb oldu.

downloaded from KitabYurdu.az

Monetarist siyasət xüsusilə iki ölkədə ABŞ-da və Böyük Britaniyada həyata keçirilmişdir.. Qalan ölkələr qeyd etdiyimiz kimi, monetar siyasətdən dövlət siyasətində antiinfliasion tədbir kimi istifadə etmiş və tezliklə mənfi nəticələr verdiyindən əl çəkmişlər. 1979-cu ildə konservatorların başda, Marqeret Tetçer olmaqla Böyük Britaniyada hakimiyyətə gəlməsi dövləti iqtisadi siyasət strategiyasında kəskin dönüşə səbəb oldu. Ölkə proiritetlər sistemində əmtəə qiymətlərinin sabitləşdirilməsi ön plana çəkildi. Qərb ziyalı dairəsinin sol radikal dairəsi adından çıxış edən Q.Xoçmen "Azad bazarın konservatizmi" kitabında yazır: "1945-ci ildən İngiltərə iqtisadi siyasətində Keynisçi "interlyüdeya" nəzərə çarpırdı. 1979-cu ildə konservatorların hakimiyyətə gəlməsi ilə, harda ki, M.Tetçer baş nazir oldu, vəziyyət kökündən dəyişdi. Keyns öz "taxtından" düşürüldü. İqtisadi siyasətdə sağa doğru nəzərə çarpan dönüş yarandı. Keyns "erası uzaqda qaldı". Monetarizmə gəldikdə isə müəllif yazır: "Monetarizm 1974-1979-cu ilərdə leyborist hökumətində tərəfdarlar tapdıqdan sonra ön plana keçdi: Tetçer ştatının döyüş himninə çevrildi". Konservatorlar tezliklə ölkəni düşdüyü durğunluq vəziyyətindən çıxarmağı, əmək məhsuldarlığının tempini yüksəltməyi, qiymət artımının yavaşıdılmasını vəd edirdilər. Bunun üçün vergilərin azaldılma proqramı hazırlandı, xüsusi firmaların fəaliyyətinin dövlət tənzimlənməsi məhdudlaşdırıldı, kapital qoyuluşunun həvəsləndirilməsi və s. istiqamətlərdə tədbirlər görülməyə başlandı. Hökumətin əsas məqsədi inflyasiyanın dayandırılması idi. 1976-cı ildə Böyük Britaniya leyborist hökuməti Beynəlxalq Valyuta Fonduna 4 milyard funt-sterlinq borc istəməklə müraciət edərkən Beynəlxalq Valyuta Fondu dövlət qarşısında şərtlər qoydu. Bu şərtləri həyata keçirmək üçün dövlət monetar siyasətdən istifadə etməli oldu. Leyborist hökuməti BFV-yə göndərdiyi məktubda vəd edirdi ki, büdcə xərcləri məhdudlaşdırılacaq, istiqraz vasitələrinə dövlət sektorunun tələbləri azaldılacaq. Mz aqreqatının 1976-77-ci illərdə artımı 9-13% hüdudlarında olacaq. Bu artıq pul kütləsi artımının məhdudlaşdırılması monetarist sxeminin əsas elementi idi. Bu siyasət kütləsinin tənzimlənməsi siyasəti əsasən Mz aqreqatının yol verilən tərəddüdlərinin müəyyən olunması, başqa sözlə, "hədəfləmə" siyasəti ilə həyata keçirilirdi.

downloaded from KitabYurdu.az

Bu aqreqata tədavüldəki nəğd pullar və banklardakı bütün depozit qalıqları (funt-sterlinqlə) aid edilir. Mz-ün artımının müəyyən olunmuş dəyişmə hüdudları 1976-77-də 9-13%, 1978-də 8-12%, 1979-81-də 7-11% olmuşdur. Ancaq göstərilən illərin çox hissəsində Mz-ün faktiki artımı müəyyən olunmuş hüdudları aşırdı. Məsələn, 1980-ci ilin fevralından 1981-ci ilin aprelinə Mz-yn artımı, 18,5%, 1981-dən, 1982-nin aprelinə müəyyən olunmuş 6-10%-ə qarşı 14,5 olmuşdur. Statistik məlumatlardan belə çıxır ki, Tetçer hökuməti həqiqətdə pul, "sıxması" həyata keçirmir. Lakin Mz-ün "hədəfləmə" siyasəti pul kütləsində dəyişikliklərə səbəb oldu.

80-ci illərin əvvəllərində Mz-ün ixtisarı əhali arasında əmanət qoyuluşları həcminin genişləndirilməsi ilə ödənilirdi. Buna görə də 1980-81-ci illərdə Böyük Britaniyada pul kütləsinin dar aqreqatları $M_1$ (nəğd pul mərkəzi bankda ehtiyyat hesabları) və $M_2$-nin (nəğd pullar cari hesablaşmalarda qalıqlar) "hədəflənməsi" həyata keçirilməyə bahlandı. Bu aqreqatların artımı kəskin azaldıldı ki, bu da pul "sıxma" siyasətinin həyata keçirildiyini sübut edir.

Büdcə siyasətində böyük dəyişikliklər həyata keçirildi. Şəxsi gəlirdən vergi dərəcələri azaldıldı. Eyni zamanda digər vergilər artırıldı ki, ümumi nəticədə vergi yükü artdı. Bu siyasət Milli Gəlirin əhalinin az təminatlı hissəsinin xeyrinə bölünməsini daha da artırmalı idi. Əmtəələrin çox hissəsinə əlavə vergi dəyəri artırılırdı ki, bu da mənfəət normasının azalmasına səbəb oldu. Bununla belə inflyasiya dayandırıldı və inflyasiyanın dayandırılması ölkəyə nəzərə çarpan itkilər bahasına başa gəldi.

ABŞ iqtisadi siyasətində monetarizmə doğru strateji dönüş hakimiyyətdə R.Reyqanın gəlməsi ilə baş verdi. Reyqan indi Qərbdə reyqanomika adlandırılan geniş iqtisadi proqram həyata keçirməyə başladı. Reyqan proqramı xüsusilə, vergilərin azaldılması əhalinin az təminatlı hissəsinin rifahını nəzərdə tuturdu. 1981-82-ci illərdə Konqres korporasiyaların mənfəətinə vergini azaltdı. 1960-cı ildə bu mənbədən gəlir büdcə gəlirinin 23,2%-i idisə, 1980-də 12,5%, 1983-dö 6,6% oldu.

Sosial proqramın təmini üçün vergilər artırıldı. 1960-cı 15,9% (ümumi büdcə gəlirində xüsusi çəkisi) idisə, 1980-ci ildə 30,5%, 1983-cü ildə 35,5% oldu. Hərbi xərclər artırıldı. 1978-ci ildə 104,5 milyard dollardan

downloaded from KitabYurdu.az

1985-ci ildə 252,7 milyard dollara çatdı. Bu büdcə kəsirinin kəskin artmasına səbəb oldu. Amerika iqtisadçıları təklifə yönəlmiş Reyqan iqtisadi siyasətinin aşağıdakı əsas xüsusiyyətlərini qeyd edirlər:

1) İqtisadiyyatın dövlət tənzimi sosial proqramlara xərclərin dondurulması və ixtisarı hesabına məhdudlaşdırıldı. Hərbi xərclər artırıldı.

2) Xüsusi sahibkarlıq sektorunun dövlət tənzimlənməsi miqyasları əhəmiyyətli dərəcədə ixtisar edildi.

3) Federal Ehtiyat Sistemi pul kütləsinin artım tempini qeyri-inflyasiyon və iqtisadi artımı kifayət qədər təmin edən səviyyədə saxladı.

4) 1981-ci ildən başlayaraq şəxsi gəlirdən və korporasiya mənfəətindən vergi dərəcələri kəskin ixtisar olundu. 1986-cı ildə vergi elə quruldu ki, vergi ödəyənlərin gəlirlərinə verginin hüdud dərəcəsi 50%-dən 28%-ə endirildi. Reyqan proqramın inflyasiyanın zəiflədilməsinə nail oldu. Qiymətlərin ümumi artımı 1980-cı ildə 13,5%-dən 1981-ci ildə 10,4%-ə və 1983-cü ildə 3,2%-ə endirildi. Sonrakı illərdə inflyasiya səviyyəsi nisbətən aşağı oldu. 1979-80-ci illərdə Federal Ehtiyatlar Sistemi (FES) pul kütləsinin artımını məhdudlaşdırmaq üçün bir sıra tədbirlər həyata keçirir: FES iri bankların ehtiyat öhdəliyinə yeni norma əlavə edir. Kreditin məhdudlaşdırılması həyata keçirilir. Bu tədbirlər pul kütləsinin artımını dayandırır. 1980-ci ilin martında $M_1$-in artımı "hədəfə" çatdırılır.

Beləliklə, monetar siyasətin əsas tələbi pul kütləsi artımının məhdudlaşdırılması ABŞ-da həyata keçirilir. Aparılan kredit siyasəti faiz dərəcələrinin xeyli azalmasına səbəb olur.

Monetarizmə xüsusi diqqətin vacibliyini sübut etmək üçün müasir dövrdə onun nüfuzunu göstərmək kifayətdir. Dünya iqtisadi ədəbiyyatında elə bir əsərə rast gəlmək mümkün deyil ki, orada monetarizm xüsusi diqqət mərkəzində olmasın, onun əsas müddəaları şərh olunmasın. Məsələn, çox populyar olan K.Makkonelli və L.Bryunun "Ekonomiks" kitabında nəzəri baxışlar keynsçi və monetarist mövqelərin müqayisəsi əsasında nəzərdən keçirilir. Monetarizmin müasir şəraitdə necə nüfuza malik olmasını 80-cı illərdə İsveçrənin Sürix universitetində professor B.Freemin başçılığı ilə keçirilmiş beynəlxalq sorğu sübut edir. ABŞ, Almaniya Federativ Respublikası və Avstriyanın 931 nəfər ən görkəmli iqtisadçıları bu sorğuda itirak etmişlər. Göndərilmiş cavabların

downloaded from KitabYurdu.az

ümumi nəticələrinin monetarist ideyalara uyğunluğu sübut edilmişdir. "İnflyasiya sırf pul hadisəsidirmi?" Sualına 49% mənfi cavab verir. Fransa 10%, Avstriya 58%, İsveçrə 20% bu tezisi inkar edir. Göründüyü kimi İsveçrə ən çox "monetarist ruhlu" ölkədir.

Monetarist konsepsiyalar müxtəlif ölkələrdə iqtisadi problemlərin həllində resept kimi uğurlu istifadə olunmuşdur. Son illərdə respublikamızda aparılan antiinflyasion pul siyasəti monetarist siyasətin tətbiqinə misaldır. Nəinki respublikamızda, həmçinin digər yeni müstəqillik əldə etmiş dövlətlərdə monetar siyasət öz nəticələrini vermişdir. Göründüyü kimi monetarizm bir elmi nəzəriyyə kimi özünü doğruldur.

downloaded from KitabYurdu.az

# FƏSIL 18. İNSTİTUSİONAL-SOSİOLOJİ İSTİQAMƏT

## §1. SOSİAL İNSTİTUSİONALİZMİN MEYDANA GƏLMƏSİ VƏ MAHİYYƏTİ

İnstitusionalizm iqtisadi fikirlər tarixində xüsusi mövqeyi və yeri olan, XIX əsrin birinci yarısı və XX əsrdə təşəkkül tapan iqtisadi bir məktəbdir. İnstitusionalizmin əsasını iqtisadi inkişaf proseslərini və onların mahiyyətini qeyri-iqtisadi baxımdan şərh etmək təşkil edir.

İnstitusionalizm ən çox ABŞ-da yayılmışdır. İnstitusionalizmin əsasını amerikan iqtisadçısı T.Veblen qoymuşdur. Lakin bu məktəbin ən görkəmli nümayəndələri amerikan iqtisadçıları U.Hamilton (o institusionalizm termininin müəllifidir), C.Kommons, U.Mitçell, C.Gelbreyt olmuşlar. İnstitusionalizmin meydana gəlməsinin səbəbi ideoloji və praktiki tələbatın dəyişməsi ilə əlaqədardır. Çünki bu dövrdə kapitalizm azad rəqabətin hökm sürdüyü şəraitdən inhisarçılığa keçirdi.

İnstitusionalizmin nümayəndələri kapitalizmin iqtisadi qanunlarının mahiyyətini açmadan onları bir plyuriya kimi öyrənir, lakin müxtəlif sosial hadisələri sistemləşdirərək bu sosial hadisə və prosesləri "institusiya" adlandırmışlar. İnstitusionalizm termini bu məktəbin nümayəndələri üçün mərkəzi kateqoriya idi və onun nümayəndələri bütün hadisə və proseslərə sosial anlayış nöqteyi-nəzərindən yanaşırdılar.

İnstitusionalizm kapitalizmi yeni şəraitə - inhisarçılığa uyğunlaşdıran bir vasitə kimi fəaliyyət göstərirdi. Göstərdiyimiz dövrdə kapitalizm cəmiyyətində yeni tarixi şərait yaranmışdı: istehsalın kapitalistcəsinə ictimailəşdirilməsi dərinləşirdi, inhisarçılıq artırdı, mülkiyət dövlətləşdirilirdi, yəni mülkiyyət münasibətlərinə dövlət daha çox nüfuz edirdi. Belə bir şəraitdə iqtisad elminə olan tələb də artırdı.

Digər tərəfdən isə "təkmil rəqabət" və "bazar müvazinəti" konsepsiyası arxa plana çəkilirdi, burjua dövləti də iqtisadi sahələrdə olan nüfuzunu daha da gücləndirirdi. Bu kateqoriyaları institusionalizmin nümayəndələri aşağıdakı kimi izah edirdilər: sosial hadisələr həm bazis, həm də üstqurum xarakteri daşıyırlar. Onlar buraya vergiləri və ailələri, dövləti və həmkarlar ittifaqlarını, rəqabəti və inhisarları, xüsusi mülkiyyəti

downloaded from KitabYurdu.az

və maliyyə sistemini və s. daxil edirdilər. Digər tərəfdən, institusionalizmin nümayəndələri iddia edirdilər ki, sosial hadisələrin əsasını müxtəlif formalı psixoloji, hüquqi, etnik, texniki və digər münasibətlər təşkil edir.

İnstitusionalizmin görkəmli nümayəndəsi olan Qamilton yazırdı ki, institusiya ictimai qrupların adət və ənənələrini yazmaq üçün ən gözəl simvoldur. Təfəkkürün dərk etdiyi bu hadisələr və proseslər (sosial amillər) sosial qrupların adət və ənənələrini əks etdirmək məqsədilə istifadə edilən ən yaxşı üsuldur. Qamilton iddia edirdi ki, ictimai adətlər insanların təsərrüfat fəaliyyətini nizamlayır. Real həqiqətdə insanların əxlaqı, mənəviyyatı və adətləri iqtisadi münasibətlərin formalarına təsir etsə də heç bir zaman onun mahiyyətini müəyyən etmirlər. Bundan əlavə, göstərilən adət və ənənələr hökmran olan ictimai-istehsal münasibətlərinin xarakteri ilə müəyyən olunurlar.

İnstitusionalizm iqtisadi proseslərin vahid bir tərifini vermir. Veblen isə belə bir iqtisadi əsasın insanların psixologiyası olduğunu iddia edir. Veblen təkcə insanların psixologiyası ilə məhdudlaşmayıb buraya bioloji və antropoloji amilləri də daxil edir. Mitçell isə iqtisadi proseslərin əsasını müəyyən qrup insanların qeyri-iqtisadi amillərində axtarır. R.Eli bu mənbəyi etikada, Helbreyt isə texnikada axtarır. Helbreyt praktiki məsələləri həll etmək üçün texnikanın sistematik şəkildə tətbiqini əsas götürür.

Real həyatda institusionalizmin metodologiyası "sosial psixologiya"nın metodologiyasına əsaslanır. İnstitusionalizm sosial-iqtisadi hadisələrin izahında Avstriya siyasi iqtisad məktəbindən fərqli olaraq fərdi "psixologiyadan" deyil qrupların "psixologiyasından" çıxış edirlər. Bununla da institusionalistlər burjua siyasi iqtisadını xüsusi fərdi sahibkarlığa istiqamətləndirirlər. Bu o deməkdir ki, institusionalistlər inhisar birliklərini və dövlət -inhisarçı kapitalizmi müdafiə edirlər.

İqtisadi proseslərə "sosial psixologiya" nöqteyi- nəzərindən yanaşan institusionalistlər iqtisadi həyatın müəyyən hadisələrini öyrənməklə marjinalistlərin metodologiyasını tədqiqat obyektindən çıxarmışdılar.

İnstitusionalizmin metodologiyasının digər xüsusiyyəti də ondan ibarətdir ki, ictimai inkişaf formalarının inqilablar yolunu inkar etməklə təkamül inkişaf üsuluna üstünlük vermələridir. Bununla da

downloaded from KitabYurdu.az

institusionalizm burjua siyasi iqtisadında olan tarixi məktəbin varisləri və davamçıları kimi çıxış edirdilər. Bununla birlikdə institusionalistlər "Avstriya və tarixi məktəbin" metodologiyasından fərqli olaraq kapitalizmin XX əsrdə olan sosial-iqtisadi hadisə və proseslərini öyrənirdilər.

İnstitusionalistlər dövlət-inhisarçı kapitalizmi "inzibati kapitalizm" adlandırırdılar. Dövlətin iqtisadi həyata nüfuz etməsi" institusionalistlər" tərəfindən istehsal üzərində "sosial nəzarətin" tətbiq edilməsi kimi izah olunur. Və ya da institusionalistlər bu prosesi nizamlanan iqtisadiyyat adlandırırdılar.

İnstitusionalizmin nümayəndələri, göstərirdilər ki, kapitalist iri inhisarları əslində iri istehsaldır və bu iri istehsal sosial məqsədlər güdür.

XX əsrdə kapitalist iqtisadiyyatında inhisarların yaranması sinfi ziddiyyətləri kəskinləşdirirdi. Bu prosesin məntiqi inkişafını dərk edən institusionalizmin nümayəndələri burjua cəmiyyətində sinfi bölgü əleyhinə, sinfi antoqonizm əleyhinə çıxaraq "institusiya" kateqoriyasından istifadə edirdilər. Kapitalist istehsal üsulunun iki tərəfini - məhsuldar qüvvələrlə istehsal münasibətləri arasında olan fərqi "institusiya" kateqoriyası vasitəsilə aradan götürməyə çalışırdılar.

"İnstitusiya" kateqoriyası vasitəsilə institusionalizmin nümayəndələri siyasi iqtisadın predmetini başqa təmayülə istiqamətləndirirdilər. İnstitusionalizmin nümayəndələri belə bir ideya irəli sürürdülər ki, kapitalizmin iqtisadi qanunlarına sosial, hüquqi, etik proseslər təsir göstərir. Onlar bu təsirin səbəblərini açmağa çalışırdılar.

İnstitusionalizmin fəlsəfəsi praqmatik fəlsəfə idi. Odur ki, institusionalistlər inzibati kapitalizmin iqtisadi siyasəti üçün praktiki tövsiyələr işləyib hazırlayırdılar. İqtisadiyyata dövlətin qarışmasının ümumi problemlərini, məsələn, istehsalda "beyinlər tresti" yaratmaq, texniki ixtisası olanların güclü təsir göstərməsi (texnokratiya nəzəriyyəsi) nəzəriyyələrini bu məktəbin nümayəndələrindən olan Veblen yaratmışdır. Kommonsun əsərlərinin də bir hisəsi kapitalizmin hüquqi üstqurumunun təsir dairəsinə, inzibati formaların kapitalizmin iqtisadi münasibətlərinə təsirinin və üstqurumun təşkilati formalarının tədqiqatına həsr edilmişdir.

downloaded from KitabYurdu.az

Mitçell isə kapitalizmin qaydalarını öyrənmək və bu qaydalara bəraət qazandırmaq məqsədilə statistik üsullar işləyib hazırlamışdır.

İnstitusionalizmin praktiki inkişaf istiqamətləri, onların kapitalizmin mexanizminin avtomatik olaraq itirilmiş müvazinətinin bərpa olunması konsepsiyası nümayəndələrinin tənqid etmələri (məsələn, "azad sahibkarlığın" əsaslarının tənqidi), iqtisadi proseslərin kəmiyyət baxımından təhlilinə, tətbiqi iqtisadi tədqiqatlara diqqəti artırmaları, iqtisadi proseslərin dövlət tərəfindən nizamlanması məsələlərinin qoyuluşu institusionalizmi C.M.Keynisin gələcək ideyalarına yaxınlaşdırırdı və Keynsçiliyin sələflərinə çevirirdi.

İnstitusionalizm dörd istiqamətdə inkişaf edirdi: 1)psixiki-bioloji istiqamət. Bu istiqamətin başında Veblen dururdu və onlar "sosial darvinizm" konsepsiyasını təbliğ edirdilər; 2) sosial-hüquq cərəyanı. Bu cərəyanın rəhbəri Kommons idi; 3) emprik inkişaf. Emprizmin rəhbəri isə Amerika konyukturşünaslıq məktəbinin görkəmli nümayəndəsi Mitçell idi; 4) sosioloji cərəyan. Bu cərəyanın nümuyəndəsi Helbreyt idi.

Veblenin "sosial darvinizm" mövqeyi tarixən Q.Spenserin vulqar cəhdləri ilə əlaqədar idi. Q.Spenser insanların tarixinə bioloji qanunauyğunluqları yaymağa çalışırdı. Cəmiyyətin təkamülünün hərəkətverici qüvvələrini "irrasional psixologiyaya" söykənən sosial qrupların bir-birləri arasında olan mübarizədə görən Veblen iddia edirdi ki, bioloji fərdlərin mövcudluğu və yaşamaları təbii seçmə qanunauyğunluqlarına əsaslanır. Bu qanunauyğunluqları o sosial-iqtisadi hadisələrin öyrənilib şərh olunmasına tətbiq etməyə çalışırdı. Veblen tamahkarlıq, acgözlük, bədxərclik, israfçılıq, inhisarçı biznesin qəddarlığı əleyhinə çıxış edirdi. Veblenə görə biznes fəaliyyətinin dairəsi "keçmiş siniflərin" (inhisarçı burjuaziyanın) maksimum mənfəət əldə etmək üçün etdiyi maliyyə maxinasiyasıdır. O biznesə qarşı sənayeləşdirməni qoyurdu və iddia edirdi ki, real fəaliyyət sahəsi istehsaldır, çünki maddi nemətlər ancaq istehsal prosesində yaradılır.

Faktiki olaraq Veblen "sənaye" dedikdə iqtisadiyyatın qeyri-inhisar sahəsini nəzərdə tuturdu və bu konsepsiyanı istehsalın məqsədi kimi təqdim edirdi. Veblen tərəfindən "sənayenin" belə ideallaşdırılması onu texnokratlara yaxınlaşdırırdı.

downloaded from KitabYurdu.az

İnstitusionalistlər iddia edirdilər ki, cəmiyyətdə gedən sosial dəyişikliklər texnikanın sosial-iqtisadi strukturda yaratdığı irəliləyişlərlə birbaşa əlaqədardır. Məhz bu metodoloji prinsiplərə əsaslanan yeni nəzəriyyələr - sənaye cəmiyyəti, konvergensiya, sənayeləşdirmədən sonrakı cəmiyyətlər konsepsiyaları yaranmışdır.

## § 2. İNSTİTUSİONALİZMİN AMERİKA MƏKTƏBİ

Amerikan institusionalizminin ən görkəmli nümayəndələri T.Veblen, C.Kommons və U.Mitçell olmuşlar.

Veblen 1923-cü ildə özünün "Absenteist mülkiyət və yeni dövrdə sahibkarlıq" (iştirak etməyən mülkiyyət) adlı sonuncu kitabını çap etdirir. Müəllif bu kitabda göstərir ki, tam şəkildə baxıla bilən mülkiyyət korporasiyalardadır, bu təsis fəaliyyəti daşıyır, fond sərvəti ilə ehtikarlıq edir. Bu onlara imkan verir ki, yeni siyasət həyata keçirsinlər, istehsalı məhdudlaşdırmaqla qiymətləri maksimuma qaldırsınlar və süni olaraq əmtəə çatışmazlığı yaratsınlar.

Veblen bu əsərində "biznes sistemini" ittiham edir. Guya ki, istehsal sistemi mənfəət əldə etmək məqsədinə qulluq edir. Korporasiyaların mənfəət ardınca qaçması ölkənin sərvətindən yırtıcılıqla istifadə etməyə gətirib çıxarır ki, bu da ictimai mənafelərdə ziddiyyət törədir. Veblen eyni zamanda maliyyə oliqarxiyasının siyasətini də tənqid atəşinə tutur, "tənbəl sinfin" sərvətinin əleyhinə çıxır, "tənbəl sinif" dedikdə Veblen maliyyə oliqarxiyasının nümayəndələrini, "absenteist mülkiyyət" sahibləri olan kapitalistləri, öz müəssisələrini idarə edənləri nəzərdə tuturdu.

Xüsusi bir metodoloji prinsip institusionalizmin nümayəndələrini birləşdirir: siyasi iqtisadın predmetinin geniş mənada izah edilməsi, yəni fənnlərarası yanaşma. Onların praktiki tövsiyələri də eyniyyət təşkil edir. Belə bir yanaşma o deməkdir ki, kapitalist iqtisadiyyatı üzərində "sosial nəzarətin" olmasını tələb etmək.

"Fənnlərarası yanaşma" dedikdə institusionalizm onu nəzərdə tutur ki, qeyri-iqtisadi hadisələr hesabına iqtisadi nəzəriyyə geniş mənada izah edilsin. Bu konsepsiya C.Kommonsun əsərlərində xüsusi yer tuturdu.

downloaded from KitabYurdu.az

C.Kommons Amerika fəhlə sinfinin hərəkatının tarixini, həmkarlar ittifaqlarının yaranmasını, Amerika məhkəmə üsulunu yazmışdır.

C.Kommons mülkiyyətin iqtisadi məzmununu açmaq əvəzinə mülkiyyəti hüquqi münasibətlər əsasında tədqiq edirdi. Əmək və kapital arasında olan konfliktli hadisələri öyrənərkən C.Kommons iqtisadiyyat üzərində hüquqi münasibətlərə üstünlük verirdi.

C.Kommons dəyər kateqoriyasını tədqiq edərkən yenə də ilkin hüquqi münasibətlərə əsaslanırdı. O dəyərə belə bir tərif verirdi: bu gün mövcud olan gəlirin gələcəkdə qiymətləndirilməsinə dəyər deyilir. C.Kommonsa görə dəyər razılıqla, sövdələşmə yolu ilə yaranır. Dəyər kəmiyyətini o istehsalla deyil hüquqi qaydalarla, hüquqi üsullarla əlaqələndirirdi. Kapitalizmin hüquqi əsaslarını o məhz belə bir hüquqi münasibətlərdə görürdü.

Müəyyən hallarda ABŞ-ın Ali məhkəməsinin iqtisadi həyata qarışmasını, məsələn məhkəmənin qərarı ilə kapitallaşmış mənfəət hesabına səhmlərin kurslarının qaldırılmasını tədqiq edən C.Kommons iddia edirdi ki, hüquqi üsullar iqtisadi fəaliyyət üzərində nəzarət edir və bu prosesi o səmərəli hesab edirdi. Lakin C.Kommons yaddan çıxarırdı ki, iqtisadi fəaliyyətin hər hansı bir sahəsində gedən dəyişiklik istehsalla əlaqədardır, bu dəyişikliklər istehsal dairəsində olan dəyişikliklərin nəticəsidir.

Siniflərin mənafeyi anlayışını ayrı-ayrı qrup halında olan adamların mənafeyinə qarşı qoyan C.Kommons siniflərin antoqonist ziddiyyətlərini qəbul etmirdi. O göstərirdi ki, mənafelər toqquşa bilər, belə bir toqquşmanı isə həmkarlar ittifaqlarına daxil olan qruplara aid edirdi. C.Kommonsa görə bütün konfliktləri aradan qaldırmaq olar, müxtəlif ictimai qrupların mənafelərini barışdırmaq mümkündür. Belə konfliktlərin və mənafelərin həllini o kapitalist mülkiyyətini saxlamaq şərtilə "kollektiv müqavilələrin" bağlanmasında görürdü.

O iddia edirdi ki, kapitalizmin ziddiyyətlərinin yumşaldılması məqsədilə burjua dövləti mühüm rol oynamalıdır. C.Kommons təklif edirdi ki, dövlətin rolunun aktivləşdirilməsi məqsədilə proporsionallıq əsasında müxtəlif mənafelər hökuməti yaradılmalıdır. Onun fikrincə

downloaded from KitabYurdu.az

qanunvericilik və müxtəlif hökumət komissiyalarının islahatları hesabına yaranan bütün konfliktləri ləğv etmək mümkündür.

C.Kommons işsizliyin dövlət sığortası üzrə ilk qanununun hazırlanmasında yaxından iştirak etmişdir. Onun konsepsiyasının xülasəsi bundan ibarət idi ki, burjua dövləti kapitalist iqtisadiyyatına nəzarət etməli və onu tənzimləməlidir.

Dövlətin iqtisadi proseslərə nüfuzunun artması barədə C.Kommonsun əldə etdiyi nəticələr "inzibati kapitalizm" dövrünün real şəraitinə tam uyğun gəlirdi. Lakin dövlətin iqtisadi məsələlərə qarışmasının tam mahiyyətini C.Kommons tələb olunan səviyyədə işıqlandıra bilmirdi. Çünki o, ön plana dövlətin qanunvericilik fəaliyyətini keçirirdi. Ona görə, hökumət komissiyası yarana biləcək bütün ziddiyyətləri həll etmək qabiliyyətinə malikdir.

Qeyd edək ki, dövlətin (Kommonsun dövründə) iqtisadiyyata nüfuz etməsinin iqtisadi əsasları var idi. Buraya aşağıdakılar daxil edilir: inhisarçı kapitalizmin artması, inhisarların gücünün dövlətin gücü ilə qovuşması, büdcə vasitəsilə milli gəlirin xeyli hissəsinin yenidən bölüşdürülməsi və s.

C.Kommonsun bu konsepsiyası xeyli sonralar siyasi iqtisad elmində çox geniş yayılmağa başladı və bunun əsasında "ümumi rifah dövləti", "kütləvi istehlak cəmiyyəti" və digər bu qəbildən olan nəzəriyyələr yaranmağa başladı.

Burjua dövlətinin "sosial nəzarət" rolunu oynamasının digər variantını irəli sürən "institusionalizm" nümayəndəsi U.Mitçell olmuşdur. O, siyasi iqtisadın predmetini və qarşısında duran vəzifələri haqqında bir çox fikirlər irəli sürmüşdür. U.Mitçell insanların iqtisadi davranışının psixoloji qanunauyğunluqları barədə də maraqlanırdı.

Mitçellin iqtisadi konsepsiyasında "pul təsərrüfatı institutu" nəzəriyyəsi xüsusi yer tutur. Mitçellə görə cəmiyyətlərdə pul müstəqil rol oynayır və iqtisadi fəaliyyətin əsas hərəkətverici qüvvəsidir. Belə bir konsepsiyanı irəli sürən Mitçell iqtisadi nəzəriyyənin qarşısında duran vəzifələri formalaşdıraraq qeyd edirdi ki, pul iqtisadi nəzəriyyənin köküdür, iqtisadi nəzəriyyə isə pul tədavülü ilə insanların davranışı arasında olan əlaqələri öyrənir.

downloaded from KitabYurdu.az

İnstitusionalizmin digər nümayəndələri kimi, U.Mitçell də induktiv tədqiqat metodundan istifadə edərək iqtisadi tədqiqatlara tənqidi yanaşmışdır. O göstərirdi ki, iqtisadi nəzəriyyə real həqiqəti adekvat olaraq işıqlandırmalı və formal məntiq ilə məhdudlaşmaq olmaz. Onun fikrincə nəzəriyyə faktları izah etməlidir. Mitçell öz tədqiqatlarında aktiv surətdə statistik metoddan istifadə edir, dəqiqliyi, konkretliliyi öz əsərlərinə tətbiq edirdi.

Mitçell kapitalist təsərrüfatının konkret təhlilini verir, hər şeydən əvvəl onun bu konkretliliyi pul tədavülü dairəsinə şamil edilirdi. Onun tədqiqatları empirik xarakter daşıyırdı və institusionalizmdə yaratdığı istiqaməti empirizm adlandırmaq olar. Faktiki rəqəmlərin riyazi üsulla işlənməsi metoduna U.Mitçell üstünlük verirdi.

U.Mitçellin metodundan proqnozlaşdırma prosesində də istifadə edilmişdir. Burjua siyasi iqtisadında Mitçellin proqnozlaşdırma metodundan istifadə edilərək kapitalist təsərrüfatında baş verə biləcək gələcək proseslərin kəmiyyət dəyişiklikləri öyrənilmişdir. Onun bu proqnozlar metodu əsasında "Harvard barometri" yaradılmışdır ki, bu "barometr" kapitalist təsərrüfatının gələcək vəziyyətindən xəbər verirdi. Lakin 1929-1933-cü illərdə baş verən böhran Mitçellin bu metoduna son qoydu.

U.Mitçell iqtisadi tsikillər sahəsində də xeyli tədqiqatlar aparmışdır. Praktiki olaraq kapitalist konyukturası haqqında Mitçellin təklifləri özünü doğruldurdu. Kapitalist tsikillərini xarakterizə edən bir çox amilləri Mitçell istehsala deyil, tədavül sferasına, birinci növbədə qiymətə, səhmlərin kursuna və s. aid edirdi.

U.Mitçell də digər institusionistlər kimi dövlətin iqtisadiyyata nüfuz etməsini dəstəkləyirdi. Bu məqsədlə də dövlətin kapitalist iqtisadiyyatına "sosial nəzarət" etməsi üçün bir neçə variant irəli sürmüşdü. Məsələn, o da 1923-cü ildə işsizlik haqqında dövlət sığorta sisteminin yaradılmasını irəli sürmüşdü. Bu o dövr üçün radikal və cəsarətli bir hal idi.

İlk dəfə olaraq Mitçell kapitalist "planlaşdırmasının" zəruriliyini irəli sürmüşdü. O göstərirdi ki, "planlaşma" kapitalizmdə daima və ardıcıl həyata keçirilməlidir. Bu məqsədlə də o xüsusi dövlət orqanının yaradılmasını təklif edirdi.

downloaded from KitabYurdu.az

Eyni zamanda Mitçell göstərirdi ki, belə planlaşdırma indikativ, təklifedici xarakter daşımalı və xüsusi biznesi məhdudlaşdırmamalıdır. Mitçellin planlaşdırma haqqında irəli sürdüyü fikirlər əslində "sosial liberal planlaşdırma" konsepsiyası idi. O təklif edirdi ki, iqtisadiyyatı proqnozlaşdırmaq və antiböhran tədbirlər həyata keçirilməlidir. Eyni zamanda o göstərirdi ki, pul tədavülü mexanizmi korrektə (təshih) edilsin, məşğulluq səviyyəsi və işsizlik üzrə sığorta dövlət tərəfindən tənzimlənsin, bunun üçün uyğun dövlət idarələri yaradılsın.

1932-ci ildə A.Berlinin və Q.Minzinin "Müasir korporasiyalar və xüsusi mülkiyyət" kitabı nəşr edildi. Kitab bütövlükdə Veblenin ideyaları əsasında yazılmışdı. Kitabda sənaye korporasiyalarının rolu və yeri tədqiq edilirdi. Müəlliflər həmən kitabda korporasiyaların strukturu, mülkiyyətin bilavasitə istehsalı idarə edənlərdən ayrı düşməsi məsələləri təhlil edilmişdir. Statistik faktlar əsasında Berli və Minz sübut edirdilər ki, ABŞ iqtisadiyyatında iri korporasiyaların rolu artır, istehsal və kapital yüksək sürətlə mərkəzləşir və təmərküzləşir.

Bununla belə Berli və Minz lazımi səviyyədə kapitalist inhisarlarının fəaliyyətinin müəyyən cəhətlərini də tənqid edirdilər.

Məşhur Amerika iqtisadçısı və sosioloqu S.Çeyza özünün "Texnokratiya" (1933) kitabında yazırdı ki, iqtisadiyyatda proletariatın əhəmiyyəti azalır. Veblen sayağı qeyd edirdi ki, proletariatın üstünlüyü zəifləyir, gələcək cəmiyyətdə texniki - mühəndis ziyalıları çox da mühüm rol oynamayacaqlar.

"Böyük depressiya" dövründə institusionalistlərin ideyalarına ABŞ dövlət xadimləri də, o cümlədən Ruzvelt riayət edirdi. Depressiyaya qarşı mübarizədə A.Berli, Q.Minz, R.Taqvell hökümətin tədbirlərində yaxından iştirak etmiş və böhranlar əleyhinə bir çox proqramlar işləyib hazırlamışlar. Məsələn, prezident Ruzveltin "beyinlər tresti" proqramına Minz daxil edilmişdi. O, ABŞ mili resursları sənaye bölməsi Komitəsinin direktoru idi. Sonralar Minz milli resursların planlı idarə olunması İdarəsinin məsləhətçisi olmuşdu.

Digər tərəfdən, Kommonsun ideyaları, o cümlədən onun "qarşılıqlı sosial güzəştlər", müxtəlif ictimai qrupların mənafelərinin barışdırılması fikirləri Ruzveltin "yeni kurs" siyasəti proqramında öz əksini tapmışdır.

downloaded from KitabYurdu.az

17 may 1933-cü ildə prezident Ruzvelt Konqresə göndərdiyi məktubunda sahibkarlarla fəhlələrin əməkdaşlıq etməsini zəruri hesab edirdi. 16 iyun 1933-cü ildə ABŞ iqtisadiyyatının bərpa olunması qərarında göstərilirdi ki, ümumi rifah mənafeyi nöqteyi-nəzərindən Konqress çalışır ki, "əmək fəaliyyətinin birləşdirilməsini həyata keçirsin və həvəsləndirsin, sahibkarlar da bu prosesə hökmən cəlb edilsin. Bu məsələlər hökümət tərəfindən qəbul edilsin və nəzarətə alınsın".

Belə bir böyük və geniş proqramın, dövlətin iqtisadi siyasətini həyata keçirmək məsədilə dövlət büdcəsi hesabına kapitalist inhisarlarına, kartellərə, kənd təsərrüfatı istehsalını nizamlayan dövlət orqanlarına, əmək və kapital münasibətlərinin nizamlanmasına, ictimai işlərin təşkilinə subsidiyalar (yardımlar) ayrılması zəruri hesab edilirdi.

Yeni qanunlar qəbul edilmişdi: fermerlərə subsidiyalar verilirdi. Bütün bu tədbirlər iki məqsəd güdürdü: 1) iqtisadi böhranı aradan qaldırmaq; 2) sosial ziddiyyətləri müvəqqəti yumşaltmaq üçün maliyyə kapitalının hökmranlığını möhkəmləndirmək.

Hökumətin fəaliyyətinə bəraət qazandırmaq məqsədilə Ruzveltin "yeni kursu" ətrafında geniş siyasi kompaniya aparılırdı. Dövlətin iqtisadi həyata qarışması, iqtisadiyyata nüfuz etməsi nəticəsində həqiqətən də ABŞ-da işsizlik ordusu azalmışdı, 1934-1935-ci illərdə istehsalın həcmi artmışdı.

Beləliklə, 1929-1933-cü illərdə institusionalizmin mərkəzi ideyası olan "kapitalist iqtisadiyyatı üzərində dövlət nəzarəti" konsepsiyası leqallaşdırılmışdı.

## §3. QEYRİ-MÜVAZİNƏTLİ BAZAR PROBLEMİ VƏ DÖVLƏTİN İQTİSADİ ROLU

Yeni klassik məktəb nəzəriyyəsinin əsasını təkmil rəqabət nəticəsində yaranan qiymətlər mexanizminin yaratdığı müvazinətlilik konsepsiyası təşkil edir. Lakin real həyatda baş verən iqtisadi hadisələr və proseslər tələb edirdi ki, iqtisadi fikirlər sistemində yeni konsepsiyalar yaradılsın. Elə bir nəzəriyyə tələb olunurdu ki, bu nəzəriyyə bazar sisteminin fəaliyyətini və funksiyasını daha real həyati hadisələr baxımından işıqlandıra bilsin, bazarın üstünlüklərinin nədən ibarət

downloaded from KitabYurdu.az

olduğunu açıqlasın və aşkar edə bilsin ki, dövlət nə zaman, hansı şərait daxilində iqtisadi təshihlər həyata keçirə bilsin, bazar mexanizminə nüfuz edə bilsin.

Bununla əlaqədar olaraq iqtisadçı-alimlərin diqqətini pul sistemi cəlb edirdi. Qeyd edək ki, pul haqqında nəzəriyyənin yaranmasının digər əsas səbəbi ikinci dünya müharibəsindən sonra kapitalist təsərrüfatını sarsıdan inflyasiya prosesi olmuşdur. Görkəmli iqtisadçı - alimlərdən A.Marşall, A.Piqu, C.X.Robertson, eyni zamanda C.M.Keyns öz sonrakı əsərlərində pul kəmiyyəti haqqında Kembric variantı yaratmışdılar. Bu nəzəriyyə "kassa qalığı" konsepsiyası da adlanırdı.

Pul kəmiyyəti haqqında olan nəzəriyyənin əsas ideyası ondan ibarət idi ki, pul kütləsinin bilavasitə dəyişməsinin qiymətlərin səviyyəsinə təsiri dəyişməz qalırdı. Kembric məktəbinin gətirdiyi yenilik ondan ibarət idi ki, bu konsepsiya haqqında olan təhlilin mərkəzi kapitalist firmalarının kassasında qalıb yığılan nağd pul idi. Digər tərəfdən, Kembric məktəbinin tədqiqatçılarının diqqətindən müxtəlif adamlarda olan, keçmiş gəliri pul formasında saxlayan və bölüşdürən, başqa üsulla belə puldan istifadə edən şəxslər də kənarda qalmamışdı.

Davamlı, sabit pulun dövlət tərəfindən qorunması cəhdi Kembric məktəbinin nümayəndələri tərəfindən belə izah olunurdu ki, elastik qiymətlər sistemi daxilində bu pul iqtisadi sistemin müvazinətini bərpa etmək vasitəsidir. Belə bir konsepsiya neoklassik məktəbin iqtisadi təhlillərinin başlanğıc nöqtəsini, ilkin şərtini təşkil edirdi.

Bu nəzəriyyəyə görə qiymətlərin qalxıb-enməsi dəfinə kimi qızıl pulun yığılmasının real qiymətinin dəyişməsinə səbəb olur. Real pulun (qızılın) qiymətinin dəyişməz saxlanması məqsədilə (əgər qiymətlər qalxarsa) subyektlər öz gəlirlərinin pulla ifadəsini artırmağa cəhd edəcəklər. Bu məqsədlə də subyektlər pulun istehlaka istiqamətləndirilən hissəsini ixtisara salacaqlar, əksinə, pulun tezavrsiya (pulun əmanət bankına və ya banka qoyulmayıb evdə saxlanması) hissəsi azalar və istehlaka yönəldilən hissəsi artar.

Gəlirlərin pul hissəsinin real dəyərinin saxlanmasına çalışan Kembric məktəbinin nümayəndələrinin belə bir variantı əmtəə bazarında müvazinətin bərpa olunmasının avtomatik nizamlanması kimi izah

downloaded from KitabYurdu.az

edirdilər. Onlar göstərirdilər ki, qiymətlərin artması istehlakı aşağı endirir, tələbi azaldır, qiymətlər də, nəhayət, aşağı düşür. Lakin, ümumiyyətlə qiymətlərin enməsi tələbin artmasını stimullaşdırır. Bu konsepsiya sonralar "Piqu səmərəsi", "real kassa qalığının səmərəsi" adlandırıldı və müasir neoklassik nəzəriyyəçilər bu kateqoriyadan geniş istifadə etməyə başladılar.

XX əsrin dördüncü rübündə iqtisadi tsikillər haqqında monetar nəzəriyyə yarandı. Bu nəzəriyyənin əsasını C.M.Keynsin müasiri R.Xoutri qoymuşdu. O göstərirdi ki, iqtisadi tsikl xalis pul hadisəsidir, bu hadisə pul tələbinin qalxıb-enməsi və kredit münasibətləri ilə əlaqədardır.

R.Xautri göstərirdi ki, iqtisadi yüksəliş şəraitində pul tələbi artanda banklar kredit verməklə onu stimullaşdırırlar, eyni zamanda banklar verdikləri borc üçün az faiz tələb edirlər. Belə bir kumulyativ (ziddiyyətlərin düyünləşdiyi nöqtə) şəraitdə iqtisadiyyatda olan canlanma qiymətlərin artmasını tezləşdirir, bunun da nəticəsində banklar ehtiyatlı olmağa çalışırlar. Çünki, banklar faiz normasının artmasından qorxaraq krediti məhdudlaşdırırlar. İqtisadi aktivlik bunun nəticəsində qəsdən aşağı endirilir və bu proses də kumulyativ xarakter daşıyır.

Belə bir kumulyativlik nəticəsində qiymətlər qalxır və pulun dövretmə sürəti artır. Bu nəzəriyyə əsasında Xautri belə bir nəticəyə gəlir ki, işgüzar aktivliyin tsiklik qalxıb-enməsini aradan qaldırmaq və ya da ağıllı pul-kredit siyasəti aparmaqla onu yumşaltmaq olar.

20-ci illərdə ABŞ-da bir qrup aktiv iqtisadçılar meydana gəldi. Bu iqtisadçılar bazar sabitliyinin pul-kredit siyasətinin köməyi ilə təmin edilməsinin tərəfdarı idilər. Onlar pul-kredit siyasətinin elə bir şəraitdə həyata keçirilməsini istəyirdilər ki, belə bir şərait daxilində qızıl standartının tələblərindən bu siyasət azad olsun. Bu qrupun lideri İrvinq Fişer idi. O göstərirdi ki, iqtisadi sabitliyin əsas şərti qiymətlərin davamlı olmasındadır. Buna da pul siyasəti vasitəsilə nail olmaq olar.

İngilis iqtisadçısı A.Piqu özünün "İqtisadi rifah nəzəriyyəsi" kitabında ictimai rifahın optimallaşdırılması problemlərini təhlil edirdi. Abstrakt faydalılıq nəzəriyyəsini real həqiqətə çevirməyə cəhd göstərən A.Piqu (eyni zamanda o ictimai faydalılığın meyarını (kriteriya) da

downloaded from KitabYurdu.az

müəyyən etmək istəyirdi) faydalılığı "milli dividenti" (milli gəliri) kəmiyyətinin statistik ölçüsünün müqayisəsini verməyə cəhd edirdi.

A.Piqunun fikrincə "milli gəlir" maddi rifah halının əsas göstəricisidir. O qeyd edirdi ki, maddi rifah təkcə "milli gəlirin" səviyyəsi və artım sürəti ilə deyil, onun bərabər bölüşdürülməsilə də əlaqədardır. A.Piqunun fikrincə "milli gəlirin" bərabər bölüşdürülməsi ümumi rifah halının əsas amillərindən biridir.

A.Piqu iddia edirdi ki, dövlətin funksiyalarından biri də milli gəlirin yenidən bölüşdürülməsi olmalıdır. O, bazar mexanizminin və azad rəqabətin təkmilləşdirilməsinə şübhə ilə yanaşırdı. A.Piqu göstərirdi ki, bazar mexanizmini poza biləcək ciddi və sabit səbəblər mövcuddur, bunlar fərdi və ictimai mənafelər arasında ziddiyyət yaradaraq maddi rifahın ümumi səviyyəsini aşağı salır.

Belə səbəblərdən birini A.Piqu inhisarların yaranmasında görürdü. İnhisarları o, iri istehsalın yaranması ilə əlaqələndirirdi. İri istehsal isə, A.Piquya görə, bazar üzərində nəzarət edir, istehsalın miqyasının genişlənməsinə qənaət edir, realizə ediləcək məhsula olan tələbin elastikliyini məhdudlaşdırır.

A.Piqu yazırdı ki, inhisarlar və inhisar rəqabəti qiymətləri artırır, investisiyanın səviyyəsini aşağı salır ki, bunlar da "milli gəlirin" ümumi səviyyəsinə təbii ki, mənfi təsir göstərir. Məhz buna görə də inhisarçı təmayüllərin dövlət tərəfindən məhdudlaşdırılması zəruridir.

Dövlətin iqtisadi proseslərə qarışmasının ikinci mühüm şərtini A.Piqu xarici effektdə görürdü, yəni bu o demək idi ki, xüsusi adamların fəaliyyəti effektli olmalıdır, firmalar bazarda effektli fəaliyyət göstərməlidirlər və i.

A.Piqu dövlətin iqtisadiyyata nüfuz etməsinin iki yolunu - dolayısı və birbaşa - görürdü. Dövlətin iqtisadiyyata dolayısı nüfuz etməsi (vergilər, subsidiyalar) "xarici effekt"in arzuolunmaz nəticələrinin aradan qaldırılmasına xidmət etməlidir (sadə rəqabət şəraiti zamanı). A.Piqu yazırdı ki, sadə rəqabət şəraitində tamahkar mənafelər təzahür edir və fiskal xarakter daşıyan inhisarlar öz effektliyini itirir.

downloaded from KitabYurdu.az

Trestlər əleyhinə olan qanunçuluğu A.Piqu müsbət qiymətləndirirdi. Lakin bunu da o, az effektli tədbir hesab edirdi. Odur ki, bə"zi müəssisələrin birləşməsini A.Piqu faydalı hesab edirdi.

A.Piqunun ideyasına görə, o sahələrdə ki, inhisarlar tez və maneəsiz yarana bilər həmin sahələrə də dövlət nüfuz etməli və bu sahələri dövlət öz siyasəti vasitəsilə tənzim etməlidir. Dövlətin iqtisadiyyata belə nüfuz etməsi o deməkdir ki, qiymətlər və rüsumlar nəzarət altına alınmalıdır.

## §4. İQTİSADİ MƏNAFELƏRİN AHƏNGDARLIĞI

İqtisadi təlimlər tarixinin, xüsusilə Amerika iqtisad məktəbinin əsas istiqamətlərindən biri iqtisadi nəzəriyyələrin ahəngdarlığı konsepsiyasıdır. Bu nəzəriyyənin görkəmli nümayəndələri - ABŞ-da Q.Ç.Keri, Fransada isə F.Bastia idilər.

F.Bastia fikirlərini özünün əsəri olan "İqtisadi harmoniya" (1850) kitabında şərh etmişdir Bu kitabında və digər əsərlərində F.Bastia yazırdı ki, sosial ziddiyyətlər yoxdur və müasir cəmiyyət (onun yaşadığı əsr) ən gözəl təkmilləşdirilmiş, möhkəm, ümumdünyəvi və ədalətli assosiasiyadır. O, dəyərin obyektiv məzmununu (dəyərin əmtəə istehsalı prosesində yaradılması) inkar edirdi. F.Bastia dəyəri dəyərlilik kateqoriyası kimi izah edirdi. O iddia edirdi ki, dəyərlilik mübadiləyə daxil olan iki xidmət arasındakı münasibətdir. F.Bastia yazırdı ki, dəyərlilik anlayışı o zaman meydana gəlmişdir ki, insan öz yaxın adamına müraciət edərək bunu mənim üçün et, mən də sənin üçün sənə zəruri olanı edərəm.

F.Bastia sübut etməyə çalışırdı ki, istehsal dəyər yaratmaq xidməti göstərsə də bu prosesdən kapitalistlər, fəhlələr və əkinçilər kənara çıxmırlar. Çünki fəhlələr, kapitalistlər və əkinçilər istehsal dairəsində bir-birlərinə xidmətlər göstərirlər. F.Bastiaya görə kapitalistin gəliri olan mənfəət kapitalın istehlakının bir hissəsi olub kapitalistə mükafat kimi verilir, yəni kapitalın istehlak olunmayan hissəsi ona pay şəklində çatır. Torpaq rentasını isə o, kapitala olan faiz hesab edirdi.

F.Bastia iddia edirdi ki, torpağa qoyulan kapital əkinçilərin və onların əcdadlarının göstərdiyi xidmətlərə renta gətirir Çünki əkinçilər

downloaded from KitabYurdu.az

alicənab hərəkət edərək torpağı becərirlər, ona qayğı göstərirlər, nəticədə də renta alırlar.

F.Bastia iqtisadi harmoniya kateqoriyasını həm istehsala, həm də bölgü münasibətlərinə tətbiq edirdi. Bununla Bastia qət edirdi ki, məhsul yaradılan zaman kapitalistin payı aşağı düşür, fəhlənin payı isə artır. Onun fikrincə harmoniyanı ancaq o poza bilər ki, dövlət insanlar arasında olan münasibətlərə qarışsın. O, rəqabətin məhdudlaşması əleyhinə çıxış edirdi, sahibkarlıq fəaliyyətinə tam azadlıq verilməsinin tərəfdarı idi. Onun bu ideyaları o demək idi ki, kapitalizmin inkişafına heç nə maneəçilik etməməlidir.

İqtisadi mənafelərin ahəngdarlığı (harmoniya) nəzəriyyəsinin digər variantı ABŞ-da meydana gəlmişdi və onun yaradıcısı Q.Ç.Keri idi. O, özünün çoxsaylı əsərlərində təkcə kapitalizmə deyil, ABŞ-ın cənubunda mövcud olan qul əməyinə də bəraət qazandırırdı.

Q.Keri sübut etməyə çalışırdı ki, cəmiyyətdə həqiqi və əsl mənafeylərin hamısının tam ahəngdarlığı mövcuddur. Onun mənafelərin harmoniyası nəzəriyyəsinin əsasını "Bölgü qanunu" təşkil edirdi. Q.Keri yazırdı ki, "elmin müəyyən etdiyi qanunlar içərisində ən gözəl qanun o qanundur ki, bu qanun insan cəmiyyətində bütün siniflərin real və həqiqi mənafelərinin tam ahəngdarlığını müəyyən edir".

Q.Keri özünün "Mənafeylərin ahəngdarlığı" (1878) kitabında göstərirdi ki, təbii ahıngdarlıq əhali artımının idarə olunmasında təzahür etdiyi kimi, yaşayış vasitələrində, hökmdarların həyat tərzində də, lendlordların, icarədarların, kapitalistlərin, fəhlələrin, plantasiya sahiblərinin və qulların həyatında da təzahür edir.

F.Bastiadan fərqli olaraq Q.Keri proteksionizmi müdafiə edirdi. Q.Kerinin mənafelərin ahəngdarlığı konsepsiyasının sosial təyinatı ondan ibarət idi ki, o, sahibkarları və plantasiya sahiblərini, fermerləri və digər sinifləri müdafiə edirdi.

İqtisadi mənafelərin ahəngdarlığı nəzəriyyəsinin tərəfdarlarından biri də ABŞ iqtisad məktəbinin nümayəndəsi F.Uoker idi. O, XIX əsrin ikinci yarısında yaşamışdır.

F.Uoker öz əsərlərində yazırdı ki, mənfəət əmək haqqından çıxılan hissə deyildir. Çünki mənfəət bütövlükdə sahibkarlar tərəfindən yaradılır.

downloaded from KitabYurdu.az

F.Uokerin fikrincə, mənfəət rentadır və onun kəmiyyəti sahibkarın bacarığından, qabiliyyətindən asılıdır. F.Uokerə görə fəhlələr əmək haqqı alırlar ki, bu da onların əməyinə bərabərdir.

Mənafelərin ahəngdarlığı nəzəriyyəsinin təbliğ edilməsində daha incə metoddan istifadə edən XIX əsrin ikinci yarısında yaşayan Amerika iqtisadçısı Q.Corc olmuşdur. Onun fikrincə, iqtisadi böhranların, işsizliyin və əhali kütlələrinin yoxsulluğunun səbəbi heç də kapitalizmin mahiyyətindən və məzmunundan irəli gələn qanunlar deyildir. Belə bir vəziyyətin olması torpaq mülkiyyətinin təmərküzləşdirilməsinin nəticəsidir. Torpaq mülkiyyətinin təmərküzləşdirilməsi prosesində sahibkarlar ictimai tərəqqinin məhsulu olan rentanı mənimsədikləri üçün ahəngdarlıq pozulur.

Mənafelərin ahəngdarlığı nəzəriyyəsini sonralar Amerika iqtisadçı - alimi B.Klark inkişaf etdirmişdir. O, özünün "Sərvətin bölüşdürülməsi" (1899) kitabında yazırdı ki, əmək haqqı əməyin son məhsuldarlığı ilə, faiz ilə kapitalın son məhsuldarlığı ilə müəyyən olunur.

B.Klarkın irəli sürdüyü fikirlərin məzmunu bundan ibarət idi ki, mənafelərin pozulmaması əmək haqqı, faiz, mənfəət, sağlam fikir prinsipi əsasında müəyyən edilməlidir.

## § 5. İCTİMAİ İNKİŞAF NƏZƏRİYYƏSİ

İctimai inkişaf nəzəriyyəsi 20-30-cu illərin iqtisadi təlimlər tarixində xüsusi yer tutur. İctimai inkişaf nəzəriyyəsinin görkəmli nümayəndəsi İ.Şumpeter olmuşdur.

Şumpeter nəzəriyyəsinə demək olar ki, 20-30-cu illərdə mövcud olan siyasi iqtisad problemlərinin əksəriyyəti daxil edilmişdi. Onun ideyaları institusionalizmin daha da inkişaf etdirilməsinə təkan vermişdir.

Şumpeter müəyyən bir vaxt ərzində müvazinətlik nəzəriyyəsindən uzaqlaşsa da bu nəzəriyyəyə dəfələrlə qayıtmış və statika konsepsiyasından daha geniş istifadə etmişdir.

Şumpeterin fikrincə müvazinətlilik vəziyyətindən çıxan sistem yenidən həmin vəziyyətə qayıdır, elmin vəzifəsi isə sistemin müvazinətlilik vəziyyətindən çıxıb yenidən ona qayıtmasının səbəblərini açmaqdan ibarət

downloaded from KitabYurdu.az

olmalıdır. O, öz tədqiqatının mərkəz nöqtəsi kimi sistemin inkişafı və bu sistemə təsir edən amillərin öyrənilməsini seçmişdi.

O, kapitalist iqtisadiyyatının inkişafı və fəaliyyəti mexanizmini bütövlükdə öyrənmişdir. Özünün "İqtisadi inkişaf nəzəriyyəsi" (1911) kitabında öz məqsədini dəfələrlə açıqlayaraq göstərirdi ki, mən belə bir suala cavab verməyə çalışıram ki, tez-tez dəyişdirilən qüvvələr hesabına iqtisadi sistem nə cürə istehsal edir.

O, belə bir dəqiqliyə riayət edirdi: prosesin dövranı daxilində iqtisadi sistem sadə təkrar istehsala (statikaya) uyğunlaşır və eyni zamanda inkişafın pozulması və dəyişilməsi dövranı zamanı dinamikaya uyğunlaşır.

Yeni məhsulların yaranması, istehsalın yeni metodlarının üzə çıxması, yeni satış bazarlarının mənimsənilməsi, yeni xammal mənbələrinin əldə edilməsi, bütövlükdə bazar mühütünün dəyişməsi, yeni "istehsal kombinasiyalarının" yaranmasını Şumpeter iqtisadi dinamikanın səbəbi və mahiyyəti kimi şərh edirdi.

İnkişafı təhlil edərkən Şumpeter yazırdı ki, inkişaf trayektoriyanı dəyişir, bu dəyişmə dövran prosesində baş verir. Belə bir dəyişmə müvazinətin vəziyyətini pozur ki, trayektoriya müvazinət istiqamətində hərəkət etməli olsun. Lakin hər cürə dəyişiklik müvazinəti poza bilmir. Müvazinətə, Şumpeterin fikrincə, iqtisadiyyatda baş verən kortəbiilik və diskresion (öz istəyilə hərəkət etmə) amillər təsir edir.

Şumpeter dinamik dəyişikliklərin səbəbini təhlil edərkən o, öz diqqətini istehsal amilləri üzərində cəmləşdirir.

Şumpeterin konsepsiyasına görə inkişafın hərəkətverici qüvvəsi sahibkarlardır (sahibkarçılıqdır). O, sahibkarlığa istehsal və ticərətlə məşğul olanları daxil edirdi.

Şumpeter inadkarcasına "kapitalistlər" ilə "sahibkarlar" arasında fərq qoyurdu. Sahibkar dedikdə, Şumpeter göstərirdi ki, sahibkar o şəxs deyil ki, onun nəyi isə var, sahibkar o adamdır ki, onun xüsusi keyfiyyətləri - təşəbbüskarlığı, hörməti (avtoriteti), bacarıcı, qabiliyyəti, gələcəyi görməyi, risk etməyə hazırlığı var. O, sahibkarlığı xarakterizə edərkən doğru olaraq göstərirdi ki, yuxarıdakı sadalanan amillər hər cür sosial sinifdə ola bilməz.

Şumpeterin fikrincə sahibkarlıq funksiyasını o adamlar yerinə yetirə bilərlər ki, onlar və onların ailələri uğurla çıxış edirlər. Eyni zamanda belə

downloaded from KitabYurdu.az

adamların sinfi mənafelərinə sahibkarlıq cavab verməlidir. Sahibkarlıqla məşğul olanlar xüsusi stil yaratmalı, xüsusi əxlaqi keyfiyyətlərə və estetik zövqlərə malik olmalıdırlar. Lakin onun fikrincə, bütün sosial siniflərdə belə keyfiyyət yoxdur. Sahibkar ətraf mühitdə ona qarşı olan maneələrlə üzləşə bilər. Belə maneələri aradan qaldırmaq üçün sahibkarda güclü ruh və enerji olmalıdır.

Şumpeterin konsepsiyasında kredit məsələlərinə də xüsusi diqqət verilir. Onun fikrincə kredit elə bir iqtisadi rıçaqdır ki, onun vasitəsilə mövcud istehsal amillərindən istifadə etməklə "yeni istehsal kombinasiyaları", yəni yeni məhsul növləri, yeni istehsal sahələri yaratmaq olar. Buradan da Şumpeter təsərrüfatın inkişafında bankların xüsusi rolunu qeyd edir.

Şumpeter ancaq kapitalın pul formasını qəbul edir. Onun fikrincə istehsal vasitələrinə çevrilən avans olunmuş kapital öz spesifik funksiyasını itirir, onlar fondlar kimi mövcud olurlar ki, sahibkar da bunun hesabına əldə etdiyi istehsal vasitələrinin hesabını verir. Şumpeterin fikrincə, bu artıq kapital deyil, əmlakdır.

Şumpeter göstərir ki, kapital həmişə tədiyə vasitəsi kimi çıxış edir. Lakin bütün tədiyə vasitələri kapitalın spesifik funksiyalarını yerinə yetirə bilmir. Kapitalın dövranı prosesində tədiyə vəsaitləri xalis texniki funksiyaları yerinə yetirirlər.

Tədiyə vasitələri kapital funksiyasını sahibkarın əlində olanda yerinə yetirir. Çünki bu zaman istehsalın strukturu dəyişir. Məhz buna görə də kapital bazarı pul bazarıdır.

İctimai inkişaf nəzəriyyəsində mühüm yerlərdən birini sahibkar mənfəəti tutur. Şumpeter yazırdı: inkişafsız sahibkar mənfəəti yoxdur, mənfəətsiz isə inkişaf yoxdur. Sahibkar gəliri hər-hansı bir gəlirdən üstündür, sahibkar mənfəəti inhisar xarakteri daşıya bilər, lakin belə bir mənfəət uzunmüddətli ola bilməz. Əgər novatorluq forması istehsalda yox olarsa, istehsal ənənəvi istehsala çevrilərsə o zaman mənfəət yox ola bilər,

İqtisadiyyatın tsiklik inkişafını Şumpeter novatorluqla da əlaqələndirir. O, özünün "İqtisadi tsikillər" (1939) kitabında çalışırdı ki, üç tipli olan tsikillər arasındakı əlaqələri aydınlaşdırsın. O, tsikllərə belə yanaşırdı: uzunmüddətli (Kondratyev), klassik (jyuqlar) və qısamüddətli

downloaded from KitabYurdu.az

tsikllər (Kitçina). Onun fikrincə bütün bu tsikllər yeni qaydalarla, yəni yeni texnikanın tətbiqi ilə əlaqədardırlar. Məsələn, bir formada olan yeniliyin tətbiqi sahibkara yenilik gətirir, o da yüksək mənfəət əldə edir. Bunun da nəticəsində yüksəliş başlayır. Lakin bu yenilik getdikcə öz əhəmiyyətini itirir, səhvlər və düzgün olmayan hesablamalar iflasa gətirib çıxarır, mənfəət aşağı düşməyə başlayır.

Belə ki, depressiyalar dövrü başlayır, bu depressiyalar yeni kəşflərə qədər davam edir.

1942-ci ildə Şumpeterin "Kapitalizm, sosializm və demokratiya" kitabı çapdan çıxır. Bu kitab kapitalizmin tarixi taleyini özündə əks etdirən bir əsərdir. Eyni zamanda bu kitab onun tədqiqatlarının məntiqi ümumiləşdirilməsidir.

Şumpeter kapitalizmin sahibkarlıq mahiyyətini belə anlayırdı: kapitalizmin inkişafını kim müəyyən edir, bu sistemi kim hərəkətə gətirir.

Şumpeterə görə belə bir qüvvə sahibkar-novatordur, sahibkar-novator isə pul kapitalının gücü ilə öz tarixi funksiyasını yerinə yetirir.

Bu səbəbdəndir ki, o, kapitalizmi dar mənada başa düşürdü, yəni kapitalizm dedikdə, Şumpeter xüsusi sahibkarlıq sisteminin klassik tipini nəzərdə tuturdu. Sərvətin yığılması, onun institusionalizmi, iri korporasiyaların yaranması, dövlətin iqtisadiyyata nüfuz etməsinin güclənməsi-Şumpeterə görə dağılmağın rəmzi idi. Məhz buna görə də kapitalist sistemini böhran bürüyür və nəticədə kapitalizm öz daxili uğurları əsasında məhv olur.

Qeyd edək ki, sahibkarın yeni şərait daxilində funksiyası getdikcə institusionalizmləşdirilir. Texniki tərəqqi təşkil olunmuş ixtisaslı komandalar tərəfindən idarə olunur və gələcəkdə nə cür fəaliyyət göstərəcəyi proqnozlaşdırılır. Keçmiş biznes avantürası yox olur. İnnovasiya (yeni texnikanın tətbiqi) deporsionalizasiya olunur. Şumpeter məhz bu prosesdə kapitalizmin mahiyyətini axtarır. Belə ki, Şumpeterin fikrincə, dəyərliliyin yeni sistemi yaranır, mədəniyyət və təfəkkürün xarakteri dəyişir. Ziyalıların rolu getdikcə artır, onlar "biznesin mədənişləşməsini" tələb edirlər. Şumpeterə görə bütün bu proseslər-yeni sivilizasiyadan xəbər verir ki, bunu da o sosializm adlandırırdı.

downloaded from KitabYurdu.az

## §6. İNHİSARÇI RƏQABƏT PROBLEMİ

Bu nəzəriyyə inhisarçı bazar sisteminin mahiyyətini, onun məzmununu və strukturunu öyrənən konsepsiyadır. İnhisarçı bazar rəqabəti nəzəriyyəsini ABŞ institusionalizminin görkəmli nümayəndəsi E.Çemberlin 30-cu illərin əvvəllərində yaratmış və Qərbi Avropa iqtisadçıları bu konsepsiyanı inkişaf etdirmişlər.

İnhisarçı rəqabət problemini siyasi iqtisad elminin müxtəlif cərəyanlarının nümayəndələri: N.Kaldor (Böyük Britaniya), C.Neyman, O.Morgenştern, R.Triffin, U.Folner, R.Dorfman, U.Baumol, R.Kyuin (ABŞ) daha da inkişaf etdirmişlər.

İnhisarçı rəqabət nəzəriyyəsinin anlayış və kateqoriyalar sistemi müasir kapitalist bazar rəqabətinin ünsürləri ilə inhisarların ünsürlərinin çulğalaşması ideyaları əsasında təşəkkül tapmışdır. Bu nəzəriyyənin məqsədi firmaların bazar strategiyasına xidmət edir və firmaların yüksək mənfəət əldə etməsinə yönəldilmişdir.

Firmaların bazar strategiyası inhisarçı rəqabət nəzəriyyəsini qeyri-təkmil rəqabət nəzəriyyəsi ilə birləşdirir. Lakin Qeyri-təkmil rəqabət nəzəriyyəsindən fərqli olaraq inhisarçı rəqabət nəzəriyyəsi inhisarlarla bazar münasibətləri arasında olan əlaqələri tədqiq edir. Lakin belə bir proses zamanı başqa istehsalçılar kənarda qalırlar, yəni bu istehsalçılar kölgə altına alınırlar.

İnhisarçı bazar rəqabəti konsepsiyasını yaradan nəzəriyyəçilər kapitalist təsərrüfatına "sülh" daxilində rəqabət edən inhisarlar kimi baxırlar. Buradan da bu nəzəriyyəçilər belə bir nəticəyə gəlirlər ki, guya inhisarların hökmranlığı çox gecikmiş, kapitalist təsərrüfatına inhisarlar çoxdan nüfuz etməli idi.

Azad rəqabətin hökm sürdüyü kapitalist təsərrüfatından və bu dövrün iqtisadi proseslərini öyrənən siyasi iqtisad nümayəndələrindən fərqli olaraq inhisarçılıq dövrünün alimləri kapitalist iqtisadiyyatının təhlilinə daha real yanaşırdılar. Onlar bazarın və bazar üçün istehsal edən firmaların fəaliyyətini mövcud olan mühüt baxımından öyrənməyə çalışırdılar.

downloaded from KitabYurdu.az

Qeyd edək ki, inhisarlar haqqında samballı nəzəriyyəni Böyük Britaniya alimi A.Marşall yaratmışdı. O, siyasi iqtisadda Kembric məktəbinin əsasını qoymuşdu və müxtəlif vəzifələrdə işləmişdi. A.Marşall özünün "Siyasi iqtisadın prinsipləri" (1890) kitabı ilə məşhurlaşır və bu kitab İngiltərə məktəblərində dərslik kimi tədris edilmişdir.

A.Marşall öz nəzəriyyəsində son faydalılıq anlayışını istehsal xərcləri ilə birləşdirir və göstərirdi ki, tələbatlar və istehsal xərcləri bir-birlərini tamamlayırlar. O göstərirdi ki, dəyər mübadilə prosesində iki şeyin bir-birinə olan münasibətidir və o tələb və təkliflə müəyyən olunur. Əslində A.Marşall qiyməti yaradan amilləri təhlil edirdi.

Siyasi iqtisadın bir çox problemləri ilə yanaşı A.Marşall inhisarları da öyrənmişdir. XIX əsrin ikinci yarısının şəraiti ilə əlaqədar olaraq o, "xalis" ticarət - sənaye inhisarlarını və azad rəqabəti təhlil etmişdir.

Bununla yanaşı inhisarçı bazar rəqabəti nəzəriyyəsinin nümayəndələri tədqiqat obyektinə yanaşmada antitarixçiliyi aradan qaldıra bilməmişlər, rəqabət dövründə təsadüfən meydana gələn inhisarlar arasındakı fərqi izah etməmişlər, ticarət-sənaye inhisarları ilə kütləvi surətdə yaranan inhisarların qanunauyğunluqlarını təhlil edə bilmirdilər. Digər tərəfdən, inhisarçı bazar rəqabəti nəzəriyəçiləri təsadüfən yaranan, geniş(dolğun) və ümumi inhisar formasında əldə edilən mənfəətin prinsipial tərəflərini tədqiq etməmişlər.

İnhisarçı rəqabət nəzəriyyəçiləri öz konsepsiyalarının əsasını "mübadilə nəzəriyyəsi" (teoriə menovoy konüepüii) konsepsiyasında görürdülər. İnhisarçı rəqabət nəzəriyyəçiləri A.Marşallın və lozanna məktəbinin yaratdıqları qiymətin əmələ gəlməsi prosesinin metodologiyasını, bazar mübarizəsi, sahələrdaxili və sahələrarası qarşılıqlı əlaqələri mənimsəmiş və öz konsepsiyalarına daxil etmişdilər. Lakin bütün bu iqtisadi əlaqələri onlar tədqiq edərkən dəyər münasibətlərini sərf-nəzər edirdilər.

İnhisar rəqabəti nəzəriyyəçilərinin diqqət mərkəzində korporasiyalar üçün praktiki cəhətdən mühüm olan mübadilə probleminin inkişafı dururdu. Bu nəzəriyyənin məqsədi, yəni əsas tədqiqat obyekti bazarla istehsal inhisarlarının fəaliyyəti arasında olan qarşılıqlı əlaqələrin

downloaded from KitabYurdu.az

optimallaşdırılması, kütləvi surətdə ixtisaslaşmış məhsul istehsal edənlərin arasında olan rəqabət münasibətlərini öyrənmək idi.

İnhisarçı bazar rəqabəti nəzəriyyəçiləri öz tədqiqatlarında başlanğıc kimi qiymətin əmələ gəlməsini götürürdülər və bu problemi rəqabətli xərclərlə əlaqələndirirdilər. Buraya onlar inhisarların əldə etdikləri bərabər mənfəət normasını da əlavə edirdilər.

İnhisarçı bazar rəqabəti nəzəriyyəçiləri inhisar qiymətini belə izah edirdilər: inhisar qiyməti elə bir qiymətdir ki, bu qiymət inhisarlara "yüksək" mənfəət gətirir. Əldə edilən bu adi yüksək mənfəət istifadə olunmayan istehsal gücündən asılı olmayaraq tətbiq olunan bütün artıq kapitalın əsasında yaradılır.

Bir neçə əmtəə növü istehsalı üzrə ixtisaslaşmış hər bir iri firma çalışır ki, istehlakçılar ancaq onlardan məhsul alsınlar. Çünki, belə firmalar reklam, ticarət markaları, patent üzərində inhisar və s. istəmirlər. Nəticə etibarilə bazarda həmin əmtəələr üzərində rəqabət aparan inhisarların təsiri artır və hər bir inhisarçı bazarın müəyyən hissəsini öz təsiri altına alır. Lakin belə inhisarlar həmişə qorxu altında olurlar, çünki onlar qorxurlar ki, digər istehsalçılar həmin məhsullardan istehsal edə bilər.

ABŞ-ın məşhur iqtisadçı alimi E.Çemberlinin fikrincə məhsul istehsalı üzrə ixtisaslaşdırılmış hətta kiçik firmalar belə inhisarçıdırlar. Deməli, həm iri inhisarları, həm də təsadüfən yaranmış xırda istehsalçıları E.Çemberlin inhisarçı adlandırır.

E.X.Çemberlin Ayova, Miçiqan və Harvard Universitetlərində oxumuş, yüksək təhsil görmüş, Amerika və Avropa Universitetlərinin fəxri elmlər doktoru olmuşdur. Bir çox vəzifələrdə də işləmişdir. Müxtəlif sahələr üzrə elmi-tədqiqat işləri aparmışdır: kapitalist bazarlarında inhisarlar və rəqabət nisbətinin təhlilini, 20-30-cu illərdə isə inhisarçı rəqabət nəzəriyyəsini işləyib hazırlamışdı. O, dövlətin iqtisadiyyata nüfuz etməsi və həmkarlar ittifaqı əleyhinə çıxış etmiş, azad rəqabətin tərəfdarı olmuşdu.

Qeyri-diferensial (bir-birindən fərqlənən), lakin standart əmtəə bazarını tədqiq edən E.Çemberlin inhisarların istehsalın təmərküzləşməsi ilə olan əlaqəsini qəbul edirdi. İstehsalın təmərküzləşməsi və kontragentlərin azalması Çemberlinin fikrincə, bazarda olan satıcılar öz

downloaded from KitabYurdu.az

istehsallarının həcminin qiymətlərə təsirini artıq dərk edirlər. Bu prosesə rəqabətə daxil olanların əks tədbirləri də təsir edir. Bu zaman inhisar qiyməti və mənfəət inhisarçıların razılığa gəlmədiyi bir şəraitdə də yarana bilər.

İnhisarçı rəqabət nəzəriyyəsinin əsasını son faydalılıq və istehsal xərcləri nəzəriyyəsi təşkil edir. Mənfəətin orta mənfəət və inhisar mənfəəti formasında bölüşdürülməsini bu nəzəriyyənin nümayəndələri, xüsusilə E.Çemberlin bazarla əlaqələndirirdilər.

E.Çemberlinə görə mənfəətin yaranması və bölüşdürülməsi qanunu, əmək haqqı, renta inhisar şəraitində (xalis rəqabət ilə müqayisədə) tamam başqa məna daşıyır. Belə bir ideya əsasında E.Çemberlin inhisar istismarını qəbul etmirdi, yəni inhisarçılıq şəraitində istismar olmur.

## § 7. C.ROBİNSON VƏ U.ROSTOU

XX əsrin 20-30-cu illərində siyasi iqtisad elmində müxtəlif nəzəri və əməli istiqamətlər yaranmışdı. Bu nəzəriyyələrdən biri də qeyri-təkmil rəqabət nəzəriyyəsi idi. Qeyri-təkmil rəqabət nəzəriyyəsi bazarı öyrənir, bazarda inhisarların hökmranlığını qəbul edir, onların bazar qiymətlərinin formalaşmasında rolunu təhlil edir və xırda mülkiyyətçiliyi müdafiə edirdi.

İnhisarçı rəqabət nəzəriyyəsindən fərqli olaraq, qeyri-təkmil rəqabət konsepsiyasının nümayəndələri inhisardaxili rəqabəti təhlil etmirdilər. Onların tədqiqat obyekti əsas etibarilə inhisarlarla qeyri-inhisar istehsalçılarının toqquşması zamanı qiymətin yaranması prosesini öyrənmək idi.

Qeyri-təkmil rəqabət nəzəriyyəsinə görə cari mənfəətin maksimuma çatdırılması (müxtəlif kontragentlər vasitəsilə) inhisarların fəaliyyətinin əsas xarakteristikasıdır və onlar üçün bu proses bir həvəsləndirici səbəbdir. Bu nəzəriyyənin nümayəndələrinin ideyalarına görə (A.Piqu) rəqabətin daxili qanunları istehsalın və kapitalın təmərküzləşməsi prosesini yaradır və nəticə etibarilə sahələr inhisarı yaranır və azad rəqabət aradan qalxır. Lakin 1929-33-cü illərdə baş verən iqtisadi böhran inhisarların qeyri-sabitliyini sübut etdi.

downloaded from KitabYurdu.az

Belə bir prosesi müşahidə edən C.Robinson inhisar qiyməti nəzəriyyəsini işləyib hazırladı. Qeyri-təkmil rəqabət nəzəriyyəsinə görə qiymətlərin qalxması hesabına inhisar mənfəətinin əldə edilməsi bir neçə xırda firmanın olmasını tələb edir və bu firmaların arasında razılığın olması zəruridir. Bu firmalar eyni zamanda məcmu kapitaldan təcrid olunmalıdırlar. İnhisarların mənfəəti bərabər mənfəətlərdən fərqli olmalıdır və orta mənfəət normasını ötməlidir.

Qeyri-təkmil rəqabət nəzəriyyəçiləri iddia edirdilər ki, inhisarların yaranması kapitalist iqtisadiyyatının kortəbii tənzimlənməsini pozur və buna görə də dövlət iqtisadiyyata nüfuz etməlidir. Qeyri-təkmil rəqabət nəzəriyyəçilərinin bu fikirləri C.M.Keynsin dövlətin iqtisadiyyata qarışmasının zəruriliyi nəzəriyyəsi ilə üst-üstə düşürdü.

Qeyri-təkmil rəqabət nəzəriyyəçilərinin başqa nümayəndələri (O.Efferts, A.Landri) iddia edirdilər ki, yüksək mənfəət ardınca qaçmaq (qeyri-təkmil rəqabət şəraitində) səmərəli (rentabelli) artıq istehsala (cəmiyyətdə arzu olunmayan tələb) və ya da xammalın, işçi qüvvəsinin qəddarcasına tükənməsinə gətirib çıxarır.

C.Robinsona görə "qeyri-təkmil" rəqabət termini öz əhəmiyyətini artıq itirmişdir, çünki inhisarların yaranması istehsalı məhdudlaşdırır. Bununla da qiymətlərin artması təmayülü yaranır. Qeyri-təkmil rəqabət, C.Robinsona cörə, kütləvi istehsal inhisarıdır, əmək məhsuldarlığını artırır. Odur ki, inhisarlar istehsalın və onun səmərəliliyinin artması kimi şərh edilirdi.

C.Robinson göstərirdi ki, inhisarlar "sosial ədalətsizlik" təmayülü yaradırlar, yəni həddən artıq istehsal amilləri istismar olunur. Məhsul istehsalı vahidi artdıqca istehsal amilləri - əmək, kapital və torpaq istismara daha çox məruz qalırlar. İnhisarçıların seriyalı istehsalı artdıqca istehsal amilləri üzərində qiymətlər qalxır, istehsal xərcləri azalır və kompaniyalar orta mənfəətdən artıq mənfəət əldə edirlər.

C.Robinson göstərirdi ki, həmkarlar ittifaqlarının fəaliyyəti nəticəsində inhisar müəssisələrində əməyin qiyməti qalxır və eyni zamanda minimum əmək haqqında olan qanunvericilik də dəyişir. "Əmək üzərində xərclər" artdıqca onun yeni istehsal amillərilə əvəz olunması meydana çıxır, bu da öz növbəsində işsizliyin yaranmasına səbəb olur.

downloaded from KitabYurdu.az

ABŞ-ın digər məşhur alimi P.Samuelsonun fikrincə inhisarlaşdırılmayan sahələr "xəstədir", bu sahələrdə həddən artıq kiçik kapitallar fəaliyyət göstərirlər, istehsal xərcləri çoxdur, mənfəət isə aşağı səviyyədədir Bu səbəbdəndir ki, inhisarlar və oliqopoliyalar zəifdirlər, iqtisadi və sosial baxımdan onlar aşağı səviyyədədirlər, yəni təkmil deyillər. Odur ki, qiymətlər qalxır və istehsal ixtisar olunur.

E.Çemberlin göstərirdi ki, qeyri-təkmil o rəqabət ola bilər ki, (hətta "xalis rəqabət" şəraitində) inhisarlar və inhisar rəqabəti qiymətləri hər hansı bir əlamət daxilində o dəqiqə mövcud müvazinətin səviyyəsinə qaytara bilsin. Digər Amerika alimi C.Gelbreyt iddia edir ki, iqtisadi və sosial nöqteyi-nəzərindən qeyri-təkmil rəqabət hətta xırda biznes şəraitində ticarət-sənaye inhisarı kimi çıxış edə bilər.

Qeyri-təkmil rəqabətin təzahür formasını C.Gelbreyt risqin böyük olmasında, qeyri-müəyyənlikdə, itkilərdə, iflasda və işsizlikdə görürdü. Onun fikrincə, rəqabət o zaman təkmil olur ki, "yetkin" inhisarlara keçilsin, bu yetkin inhisarlar maksimum mənfəət ardınca qaçmasınlar, risqi minimuma endirsinlər və sabit artım tempi təmin etsinlər.

İqtisadi fikir tarixinin inkişaf istiqamətlərindən biri də oliqopoliyalar haqqında yaranan konsepsiyadır. Oliqopoliya termini xalq təsərrüfatı sahələrinin bazar strukturunu ifadə edir.. Oliqopoliya dedikdə bir qrup firmaların istehsalı və satışı inhisara alması nəzərdə tutulur. Oliqopoliyalar bir-birilə qeyri-qiymət rəqabəti aparırlar. Əslində oliqopoliyalar və rəqabət bir-birilə çuğlamış (qarışmış) olurlar. Oliqopoliya terminini ilk dəfə iqtisad elmində T.Mor və merkantilistlər istifadə etmişlər. O dövrdə ticarət inhisarları bir-birilə rəqabət aparırdılar.

Oliqopoliya terminini daha geniş mənada işlədən və bu haqda konsepsiya yaradan E.Çemberlin olmuşdur. Çemberlinə görə oliqopoliya rəqabət aparan inhisarların təsadüfi formasıdır.

Oliqopoliya bazarın üç faktiki vəziyyətini ehtiva edir: 1) oliqopoliya dedikdə, kapitalist bazarının strukturu nəzərdə tutulur ki, burada o dövr üçün xarakterik olan ticarət-sənaye inhisarları hökmranlıq edir; 2) oliqopoliya qısamüddətli və keçici xarakter daşıyan bazardır ki, burada bir neçə tədarükçü (mal verən, təchiz edən) bazarda hökmran mövqe tutmaq üçün razılığa gəlmədən rəqabət aparırlar; 3) oliqopoliya kütləvi məhsul

downloaded from KitabYurdu.az

istehsal edən bazar strukturudur ki, burada korporasiyalar qrupu ("piramida") hakimdir və dərin ixtisaslaşmaya malikdirlər. Bu inhisarlar qeyri-ekvivalent yolu ilə inhisar mənfəəti əldə edirlər. Çünki belə inhisarlarda istehsalın və əməyin təşkili yüksək səviyyədə olur.

E.Çemberlin, P.Samuelson, R.Dorfmanın fikrincə oliqopoliyalar şəraitində qiymət inhisarlar səviyyəsində müəyyən olunur. Hər bir oliqopolist nəzərdə tutur ki, onun məhsulu üzərində olan qiymət aşağı düşərsə bu digər oliqopolistlərə də təsir edər və nəticədə böyük itki baş verər. Odur ki, iri inhisar iştirakçıları qrup şəklində iri kompaniyalarda mövcud olan qiymətləri nəzərə alaraq öz müəssisələrində olan qiymətləri onlara uyğunlaşdırırlar. Oliqopoliyalarda olan rəqabət bu zaman qeyri-qiymət rəqabətinə çevrilir.

Reklamlara xeyli xərc çəkməklə oliqopolistlər bazarda öz mövqelərini möhkəmləndirməyə çalışırlar, alıcılara xidmətlər göstərməklə onlara güzəştlər də edirlər. Oliqopolistlər rəqabət silahı kimi az yüklənmiş istehsal güclərinə artıq xərc çəkirlər. Bu zaman istehsal xərcləri artsa da kənardan olan rəqabətin öz sahələrinə daxil olmasının qarşısını alırlar, nəhayət etibarilə əlverişli bazar konyukturasından istifadə etmək imkanı əldə edirlər.

Belə bir proses oliqopolistlərin istehsal xərclərinin satış qiymətinə yaxınlaşdırır və kompaniyalar, adi, yəni normal mənfəət əldə edirlər. Buraya istifadə olunmayan istehsal gücü də daxil edilir və nəticədə avans olunmuş bütün kapitala normal mənfəət təmin olunur.

Xırda burjua siyasi iqtisadının nümayəndələri inhisarları tənqid edir və onları ticarət - sənaye inhisarları ilə eyniləşdirərək cəmiyyət tərəfindən nəzarətin olmasını tələb edirlər.

C.Helbreyt göstərir ki, oliqopoliyalar (yetkin korporasiyalar) maksimum mənfəət əldə etməyə cəhd göstərmirlər. Onlar çalışır ki, istehsalın artımı sabit olsun və bazarda öz yerlərini genişləndirsinlər. Onun fikrincə oliqopoliya şəraitində rəqabət korporasiyaları məcbur edir ki, elmi-texniki kəşflərdən intensiv istifadə etsinlər.

50-ci illərin sonunda ABŞ-ın məşhur alimi U.Rostou "İqtisadi artımın mərhələləri" nəzəriyyəsini irəli sürmüşdür. O göstərirdi ki, "artım mərhələləri" qarşılıqlı əlaqədə olan müxtəlif amillərlə müəyyən olunur.

downloaded from KitabYurdu.az

Buraya U.Rostou - aşağıdakı sxemanı daxil edirdi: iqtisadi artım istehsal və texnikadan başlayaraq siyasi, ideoloji və psixoloji amilləri əhatə edir. İnkişafın səviyyəsini o sənaye, texnika, bütövlükdə təsərrüfat, elm, kapitalı milli gəlirdə yığım hissəsilə əlaqələndirirdi. Lakin, iqtisadi inkişafın bu mühüm göstəricilərini U.Rostou sosial-iqtisadi münasibətlərdən (mülkiyyət formalarından) ayırırdı. O, eyni zamanda cəmiyyətin sinfi bölgüsünü professional əmək bölgüsü ilə əvəz edirdi.

U.Rostou "iqtisadi dəyişiklikləri" insanların qeyri-iqtisadi nəticələrdən (aqibətlərdən) əl çəkməsi ilə əlaqələndirir və göstərirdi ki, insanlar subyektiv seçmələr və qərarlar qəbul edərək iqtisadi dəyişikliklər yaratmışlar. Bir mərhələnin digəri ilə əvəz olunması, Rostouya görə, iqtisadiyyatın aparıcı bölməsinin təsirilə olmuş, bu proses zamanı bir çox sahələr yüksək templə inkişaf etmiş və nəticədə xalq təsərrüfatının artmasına (yığım normasının səviyyəsi də daxil olmaqla) səbəb olmuşdur.

U.Rostouya görə iki tip cəmiyyət mövcud olmuşdur: "ənənəvi" (kapitalizmə qədər) və sənaye cəmiyyəti (industrial - kapitalizm). Lakin tarixi inkişaf iqtisadi artımın beş mərhələsi ilə xarakterizə olunur: irəliləyişin ilk mərhələsinə hazırlıq, yəni "keçid cəmiyyəti"; irəliləyiş mərhələsi və sənayenin inkişafına keçid; sənaye cəmiyyəti, o, buraya nümunə kimi "ingilis-amerika" cəmiyyətini daxil edir; kütləvi istehlak cəmiyyəti.

U.Rostou bu cəmiyyətlərin xüsusiyyətlərini belə xarakterizə edir: ənənəvi cəmiyyət kənd təsərrüfatının hakim mövqe tutmasına və əmək məhsuldarlığının aşağı səviyyəsinə əsaslanır. Bu mərhələdə o yığım üçün maddi əsas görmür. Keçid cəmiyyəti və irəliləyiş mərhələsi ciddi olaraq bir-birindən fərqlənmirlər. Lakin bu mərhələlərin hər birində əmək məhsuldarlığı artır, kənd təsərrüfatı dağılır, istehsal infrastrukturları (yollar, nəqliyyat tikililəri və s.) yaranır. Nəhayət sənaye inqilabı baş verir və genişlənməyə başlayır. İstehsal metodları radikal olaraq dəyişir.

U.Rostou göstərirdi ki, ilkin vaxtlarda yığım norması milli gəlirdə, məsələn, 5% idisə sənaye inqilabı onu 10%-ə çatdırır. "Sənaye cəmiyyəti" isə onunla xarakterizə olunur ki, yığım norması milli gəlirdə 20%-ə çatır. Sənaye cəmiyyətlərində isə həlledici rolu iri maşınlı sənaye, xüsusilə ağır sənaye sahələri oynayır.

downloaded from KitabYurdu.az

U.Rostou yazırdı ki, cəmiyyət "yetkin texnika" səviyyəsinə çatdıqda kütləvi istehlak mərhələsinə daxil olur. Çünki bu mərhələdə cəmiyyətin istehsal potensialı millətin istehlakına xidmət edir, istehsal sahələri uzun müddət istehlak oluna biləcək məhsullar istehsal edir.

70-ci illərdə U.Rostou yeni bir konsepsiya ilə - iqtisadi artımın altıncı mərhələsi nəzəriyyəsi ilə çıxış etdi. Altıncı mərhələ dedikdə U.Rostou "keyfiyyətli həyat axtarışlarını", aparıcı rol oynayan xidmət sferasını nəzərdə tuturdu.

## § 8. "MÜVAZİNƏTLİ QÜVVƏLƏR" VƏ "SƏNAYE CƏMİYYƏTİ" NƏZƏRİYYƏLƏRİ. PLAN VƏ BAZAR

50-ci illərdə ABŞ-nın görkəmli filosof-alimi C.Gelbreyt özünün "Amerika kapitalizmi. Müvazinətli qüvvələr konsepsiyası" kitabını çap etdirdi. Bu nəzəriyyənin çıxış nöqtəsi ondan ibarət idi ki, müasir kapitalizm iri korporasiyaların əlində cəmləşən və təmərküzləşən iqtisadi güc bazar mexanizmi rəqabəti vasitəsilə kapitalizmi öz-özünə nizamlaması vasitəsini itirmişdir.

C.Helbreytə görə iri korporasiyalar sözün geniş mənasında güclü inhisar təsirinə məruz qalmışlar və inhisar gəliri getdikcə dar çərçivəyə alınır. O göstərirdi ki, az miqdarda olan satıcılar rəqabətin gücü ilə fantastikaya (ximera) çevrilirlər. Təkmil rəqabətin gücü ilə bir-birinə əks olan satıcı-inhisarlarla alıcı -inhisarlar arasında müvazinətli qüvvələr yaradır. Lakin onların mənafeləri bir-birinə ziddir: inhisarçı -satıcılar çalışırlar ki, baha satsınlar, inhisarçı -alıcılar isə ucuz almağa cəhd göstərirlər.

C.Helbreyt yazırdı ki, hər iki tərəfdən olan qüvvələr razılıq əsasında müvazinət yaradırlar və belə bir müvazinətli qüvvələr prosesi müasir kapitalizmi nizamlayan həlledici amilə çevrilir. Məhz buna görə də müasir kapitalizm inhisarların yaranmasının qarşısını almamalıdır. Xalq təsərrüfatının bütün sahələrində, xüsusilə pərakəndə ticarət sahəsində inhisarların yaranmasına dövlət şərait yaratmalıdır.

Bu səbəbdəndir ki, C.Helbreyt antitrest qanunvericiliyinə qarşı çıxırdı. Çünki antitrest qanunları müvazinətli qüvvələrə qarşı durur və

downloaded from KitabYurdu.az

onlara maneçilik törədir. Lakin o belə bir fikri də vurğulayırdı ki, yüz faizli inhisarlar haqqında olan qanun qüvədə qalsın. Ticarət və sənaye sahələrində olan belə inhisarlara tam oliqopoliya hüququ verilsin (yəni tam azadlıq).

C.Helbreytin konsepsiyasına görə iqtisadiyyatda "müvazinətli inhisar qüvvələri" nə qədər güclü çıxış etsələr iqtisadiyyatın da öz-özünü avtomatik idarə edilməsi güclənər və nəticədə isə iqtisadiyyata ümumi nəzarət məhdudlaşar, planlaşmaya da ehtiyac qalmaz. O iddia edirdi ki, "müvazinətli qüvvələrin" fəaliyyətinə heç kim maneəçilik etməsə o zaman dövlətin iqtisadiyyata nüfuz etməsinə ehtiyac qalmaz.

C.Helbreyt eyni zamanda onu da qeyd edirdi ki, "müvazinətli qüvvələr" bəzən lazımi səviyyədə fəaliyyət göstərmir, bəzən də elə hallar olur ki, heç fəaliyyət göstərmir. Onda dövlətin iqtisadiyyata qarışması zəruridir. Buradan belə bir nəticəyə gəlmək olar ki, C.Helbreytin fikrincə, dövlət də "müvazinətli qüvvələr" kimi çıxış edir. Onun fikrincə, həmkarlar ittifaqları da "müvazinətli qüvvələr" kimi çıxış edir, çünki həmkarlar ittifaqının iş qüvvəsinin satışı üzərində inhisarı mövcuddur.

Qeyd edək ki, "müvazinətli qüvvələr" konsepsiyası mahiyyət etibarilə tələb və təklif arasında olan münasibətləri ifadə edir və üç halda fəaliyyət göstərmir: 1) tələb təklifi üstələyəndə (kapitalist tsiklinin yüksəliş fazasında). Bu zaman alıcılar arasında rəqabət güclənir və qiymətlər qalxır. C.Gelbreyt qəbul edir ki, alıcıların "müvazinətli qüvvələri" tələbin artması ilə yox olur. 2) təklif tələbi üstələyən zaman (iqtisadi böhranlar dövrü): bu proses daxilində satıcılar arasında olan rəqabət kəskinləşir, kartel tipli müqavilələr öz əhəmiyyətini itirir və qiymətlər aşağı düşür. Və ya da inhisarlar süni olaraq istehsalı azaldırlar. Bu zaman qiymətlər ya əvvəlki səviyyələrində saxlanılır, ya da qiymətlər qaldırılır. 3) Dövlətin simasında inhisarlar yaranır, dövlət inhisarlardan hərbi vəsaitlər və materiallar alır.

C.Helbreytə görə belə vəziyyət bazarda qiymətlərə güclü təsir göstərir və nəticədə qiymətlər aşağı düşür. Bu proses hərbi resurslar istehsalı üçün daha səciyyəvidir.

Real həqiqətdə silahlanma prosesində qiymətlər artır. Müasir kapitalizmdə xüsusi inhisarlar ziddiyyət təşkil etmirlər, çünki dövlət xüsusi inhisarlarla əməkdaşlıq edirlər.

downloaded from KitabYurdu.az

Qeyd edək ki, iri miqyaslı sənaye sahələrində olan inhisarlaşma (avtomobil, tütün və s.) bütün pərakəndə ticarəti əlinə alır, inhisarlaşmayan və nisbətən az inhisarlaşan sahələrdə (kənd təsərrüfatı, ağac emalı, kömür sənayesi və s.) və inflyasiya şəraitində "müvazinətli qüvvələr" yaranmır.

ABŞ kənd təsərrüfatında külli miqdarda olan fermer təsərrüfatları ölkə miqyasında təmərküzləşən sənaye inhisarlarına qarşı dururlar. İri inhisarlar bir tərəfdən kənd təsərrüfatı maşınlarının satıcıları kimi, digər tərəfdən isə kənd təsərrüfatı xammalının alıcıları kimi çıxış edirlər. Bu münasibətlə C.Helbreyt qeyd edir ki, Amerikanın kənd təsərrüfatında "müvazinətli qüvvələri" yaratmaq cəhdi uğur qazanmır, çünki təchizat kooperasiyaları ABŞ-da fermerləri birləşdirə bilmir. Ölkə miqyasında birləşə bilməyən fermerlər arasında rəqabət də güclənir.

C.Helbreytin "müvazinətli qüvvələr" nəzəriyyəsi rəqabət mübarizəsini əvəz etmir. Rəqabət bazar sistemində daima fəaliyyət göstərir, lakin inhisarlar rəqabətə müqavimət göstərsə də rəqabət iqtisadiyyatın hərəkətverici qüvvəsi kimi qalırlar.

Burjua siyasi iqtisadının nəzəriyyəçiləri "sənaye cəmiyyəti" konsepsiyası da yaratmışdır. Bu nəzəriyyəyə görə ön plana maşınlı texnika və iri sənaye istehsalı keçirilir. Bununla əlaqədar olaraq inkişaf etmiş kapitalizm sistemi ilə sosialist (keçmiş) ölkələri eyni tipli "sənaye cəmiyyətləri" adlandırılır. "Sənaye cəmiyyətləri" nəzəriyyəsi 50-ci illərdə meydana gəlmişdir. Bu konsepsiyanın yaradıcıları C.Helbreyt, U.Rostou, R.Aron, S.Kuznets və başqalarıdırlar.

"Sənaye cəmiyyətləri" nəzəriyyəsinin yaradıcıları insan cəmiyyətinin inkişafının əsasını texniki iqtisadi amillərdə görürlər. Məsələn, U.Rostou (bu haqda ətraflı şərh bu fəslin dördüncü paraqrafında vermişik) göstərir ki, artıq kapitalizmdə "Ümumxalq rifah dövləti" mövcuddur. U.Rostou azad rəqabətin hökm sürdüyü dövrdə olan "sənaye cəmiyyəti " ilə "müasir sənaye cəmiyyəti" arasında heç bir fərq görmür. Burada inhisarçılıq şəraitində fəaliyyət göstərən sənaye cəmiyyəti nəzərdə tutulur.

Fransız alimi R.Aron göstərir ki, sənaye cəmiyyətləri inkişafın mərhələləridir, eyni zamanda coğrafi, tarixi və demokratik amillərin inkişafı olduğu üçün hər bir mərhələnin özünə uyğun olan müxtəlif sosial-iqtisadi strukturları vardır.

downloaded from KitabYurdu.az

R.Aron belə bir nəticəyə gəlir ki, cəmiyyətin sənayeləşdirilməsinin həlledici amili maşın texnikasının tərəqqisi və əmək məsuldarlığı əsasında sənaye istehsalının artmasıdır. O, kapitalizmi və sosializmi "sənaye cəmiyyətinin" iki müxtəlif forması alandırmışdır.

Amerika alimi C.Helbreyt "sənaye cəmiyyətinin" əsasını ənənəvi olaraq istehsalın üç amili nəzəriyyəsində görür. O, istehsalın üç amili nəzəriyyəsini "sənaye sisteminə" uyğunlaşdırır. C.Helbreyt iddia edir ki, bir zamanlar torpaq istehsalın əsas amili idi, buna görə də bütün iqtisadi və siyasi hakimiyyət torpaq sahiblərinin əlində olmuşdur. Sonralar isə belə bir amil kapital oldu və sonralar kapital az tapıldığı üçün, nisbi artıqlığa malik olduğuna görə həlledici istehsal amilini ixtisaslı adamlar qrupu, istehsalı təşkil edənlər (hakimiyyət də bu adamlara məxsusdur) oynamağa başladılar.

C.Helbreytin fikrincə hakimiyyət "texniki strukturların" əlindədir. O qət edirdi ki, ixtisaslaşmış biliklər və onların koordinasiyası (əlaqələri) iqtisadiyyatın həlledici amili rolunu oynayır.

C.Gelbreyt belə bir nəticəyə gəlir ki, müasir kapitalizmin ziddiyyətləri tam mənası ilə aradan qaldırıla bilər və nəhayət kapitalizm səmərəli planlaşdırma sisteminə, "adekvat sənaye" sisteminə keçə bilər (bu haqda ətraflı fikir aşağıda veriləcəkdir).

20-30-cu illərdə iqtisadiyyata dövlətin nüfuz etməsi tərəfdarları ilə mühüm gücə malik olan, dərin intellektual ənənələri olan neoliberal məktəb, konservativ iqtisadi fikir nümayəndələri arasında mühüm əhəmiyyət kəsb edən fikir mübadiləsi gedirdi.

Şumpeter kimi, neoliberallar da cəmiyyətdə baş verən yeni təmayülləri - iri korporasiyaların artmasını, sahibkarların funksiyalarının institusionallaşdırılmasını, dövlət nəzarətini - kapitalizm sisteminin dağılması kimi qiymətləndirirdilər. Onlar azad rəqabət vasitəsilə müəyyən olunan bazar strukturlarının əsaslarının qırılmasından qorxurdular. Eyni zamanda onlar istəmirdilər ki, dövlətin nizamlayıcı fəaliyyəti olsun. Onlar bir də belə bir ideyadan qorxurdular ki, mərkəzləşdirilmiş planlı sistem yarana bilər.

İqtisadçı - liberallar isə aşağıdakı mühüm və prinsipial problemi müzakirə edirdilər: bazarın planlaşdırma tərəfindən inkar edildiyi şəraitdə

downloaded from KitabYurdu.az

resurslardan səmərəli istifadə etmək olarmı? Mübahisələr 30-cu illərdə daha da dərinləşmişdi. Bu qəbildən olan ideyaların səbəbkarları L.Mizes və F.Xayek idilər.

Onlar belə bir fikir irəli sürürdülər: tarixi formalardan fərqli olmayaraq hər bir cəmiyyətdə ümumi iqtisadi qanunauyğunluqlar fəaliyyət göstərir. Bu qanunauyğunluqlar əmtəə istehsalına və bazar münasibətlərinə əsaslanır. Onların fikrincə tələb və təklifin bazar mexanizmi vasitəsilə bir-birinə uyğunlaşması əsasında qiymətin əmələ gəlməsi qiymətlərin obyektiv surətdə yaranmasının yeganə vasitəsidir və bunun əsasında da resursları səmərəli bölmək olar.

Neoliberalizmin nümayəndələri olan iqtisadçılar iddia edirdilər ki, iqtisadiyyatın mərkəzdən (bazarın iştirakı olmadan) səmərəli surətdə nizamlanması qeyri-mümkündür, çünki həm təmərküzləşdirilmiş hakimiyyətin, həm də planlaşdırıcı orqanların qiymətin simasında olan heç bir meyarı (kriteriya) yoxdur.

Onların fikrincə qiymət tələbin həqiqi həcmini müəyyən edir və bunun da əsasında resursların optimal bölgüsü həyata keçirilir. Neoliberalların fikrincə o yerdə ki, azad bazar yoxdur, orada qiymət mexanizmi də yoxdur, qiymət mexanizmi olmadan iqtisadi hesablamalar sistemi də ola bilməz. Onların fikrincə, qiymət mexanizmi olmasa mərkəzdən həyata keçirilən planlaşdırma sistemi qeyri-səmərəlidir. Neoliberallar yazırdılar ki, minlərlə əmələ gələn qiymətlər bir-birinə qeyri-proporsionaldır, bu qiymətlər tələbin elastiklik normasından asılı olacaqlar. Eyni zamanda qiymətlərə istehsalın yerləşdirilməsi və istehsal metodlarının dəyişməsi təsir edəcəkdir.

İqtisadçı-neoliberallar sosializm üçün bir mühüm və prinsipial əhəmiyyət kəsb edən fikir də irəli sürmüşdülər: istehlak seçiminin azadlığını nə cür təmin etməli, səmərəli iqtisadi fəaliyyət stimulunu nə cürə qorumalı, belə bir sistemdə texniki tərəqqini necə təmin etməli.

Qeyd edək ki, Mizes və Xayek qiymətin əmələ gəlməsi prosesində bazar mexanizminin rolunu və resurslardan səmərəli istifadə olunmasını düzgün qiymətləndirirdilər. Lakin bazarın təshih edilməsini, nizamlanan bazar sisteminin ola biləcəyini, müxtəlif bazar strukturlarının fəaliyyət göstərə biləcəyini qəbul etmirdilər.

downloaded from KitabYurdu.az

Azad rəqabət dövrünün kapitalizmini ideallaşdıraraq azad sahibkarlığa qayıtmaq istəyən neoliberallara (xüsusilə Mizes və Xayek) kapitalizmdə baş verən transformasiya hadisələri maneəçilik edirdi. Bu hadisələrə aşağıdakıları daxil etmək olar: mülkiyyətin korporativ formasının hökmranlığı şəraitində kapitalizmin qarışıq iqtisadiyyat sisteminə keçməsi, dövlətin nizamlayıcı fəaliyyəti, sahibkarlığın təşkilində plüralizm, rəqabətin və planlaşdırmanın bir-birini məhv etməməsi, rəqabətin və planlaşdırmanın yeni tipli bazar yaratması və s.

Neoliberalların belə bir fikrini də vurğulamaq məqsədə uyğun olardı ki, onlar iqtisadiyyatın nizamlanmasını və planlaşdırılmasını tənqid etsələr də, ümumiyyətlə, dövlətin iqtisadiyyata nüfuz etməsinin əleyhinə çıxış etmirdilər. Neoliberallar göstərirdilər ki, dövlətin məqsədyönlü hazırlayacağı tədbirlər rəqabətə əsaslanan bazarın funksiyasının fasiləsiz həyata keçirilməsinə xidmət etməlidir.

Neoliberallar göstərirdilər ki, hər hansı bir dəyişikliyə uyğunlaşan xüsusi təşəbbüs barədə olan dəyişməz qanunçuluğa, tələb olunan mühitə uyğunlaşan mərkəzləşdirilmiş idarəçilik arasında olan fərqi diqqət mərkəzindən qaçırmaq olmaz. Onların fikrincə, elə bir metod işləyib hazırlamaq lazımdır ki, bu metod daxilində "oyun qaydalarına" riayət edilsin və bu qaydalar xüsusi kapitalın fəaliyyəti üçün də "xarici şəraiti" təmin etsin.

İnstitusionalizm məktəbinin mühüm istiqamətlərindən biri də "iqtisadi bərabərlik" və iqtisadi tarazlıq nəzəriyyəsidir. İqtisadi bərabərlik dedikdə, bütün cəmiyyət üzvlərinin eyni hüquqi münasibətlər daxilində iqtisadi bərabərliyi, iqtisadi tarazlıq dedikdə isə təkrar istehsal prosesinin mexanizminin təhlil edilməsi nəzərdə tutulur.

İqtisadi tarazlıq nəzəriyyəsinin əsasını üç konsepsiya - son faydalılıq, son məhsuldarlıq və tələb-təklif təşkil edir. İqtisadi tarazlıq nəzəriyyəsinin iqtisadi-riyazi modelləri tərtib edilir ki, bu modellər də son faydalılıq, son məhsuldarlıq, tələb və təklif nəzəriyyələrinin təhlilinə əsaslanan sintezlərə söykənir.

Yuxarıda qeyd etdiyimiz kimi, iqtisadi tarazlıq nəzəriyyəsini Amerika alimləri C.Xiks və P.Samuelson, Qərbi Avropa iqtisadçıları F.Edcuort, U.Cevons, A.Marşall yaratmışlar. Bu nəzəriyyə siyasi iqtisadın

downloaded from KitabYurdu.az

Lozan məktəbi ilə əlaqədardır. Digər tərəfdən, iqtisadi tarazlıq nəzəriyyəsi yeni klassik (neoklassik) məktəbin sintezinə əsaslanır.

Sosial-iqtisadi baxımdan iqtisadi tarazlıq nəzəriyyəsi istehlakçının, müxtəlif siniflərin və sosial qrupların vəhdətinə, müəyyən iqtisadi hadisələrin sabitliyinə və ya da bu iqtisadi sabitliyin qismən dəyişməsinə əsaslanan konsepsiyadır.

İqtisadi tarazlıq nəzəriyyəsi iqtisadi - riyazi modelləşdirmə nöqteyi-nəzərindən dəyişən kəmiyyətlərin qarşılıqlı olaraq yerinə yetirilməsinin müəyyən edilməsi amillərinə söykənir. Belə bir şərait daxilində iqtisadi tarazlıq maksimum və ya minimum vəziyyətində olan iqtisadi göstəricilərlə xarakterizə olunur.

İqtisadi tarazlıq nəzəriyyəsi aşağıdakı sosial-iqtisadi strukturlarla müəyyən olunur: bir tərəfdən istehsal amilləri - əmək, kapital və torpaq qruplaşdırılır; digər tərəfdən isə kapitalistlər, fəhlələr və torpaq sahibləri və ya mülkiyyətə malik olmayan bilavasitə sahibkarlar, yəni istehsalı təşkil və idarə edənlər. Belə bir struktur məhsulun bütün sferalarda - əmtəə bazarlarında reallaşdırılmasının əsasını təşkil edir və eyni zamanda hər bir strukturun tələb və təklifinin formalaşdırılmasının özünəməxsus mənbələri var; məsələn, 1) hər bir sahibkar üçün maksimum mənfəət mənbəyi; 2) hər bir istehlakçının öz gəliri daxilində maksimum faydası; 3) hər bir istehlakçının gəlirinin və onun istehlak şeyləri üzərində olan tələbinin bərabərliyi; 4) istehsal amilləri vahidlərinin verdiyi gəlirin bərabərliyi və ya proporsionallığı, onların son məhsuldarlığı; 5) tələb və təklifin bərabərliyi.

Ümumi iqtisadi tarazlıq haqında ilk konsepsiyanı M.Valras yaratmışdır. M.Valrasın yaratdığı iqtisadi tarazlıq barədə olan riyazi modeli abstrakt xarakter daşıyır. İqtisadi tarazlıq haqqında yaradılan M.Valrasın abstrakt-riyazi modeli məhsul istehsalının bütün çeşidlərini özündə əks etdirir, tələb və təklifi tam mənası ilə nəzərə alar (məhsul çeşidləri üzrə); digər tərəfdən, hər bir əmtəə üzrə tələb və təklifin bərabərliyi bütün əmtəələrin qiymət funksiyası əsasında müəyyən olunur. Nəticə etibarilə əmtəələrin miqdarı ilə onların qiyməti arasında olan qarşılıqlı təsir nəticəsində tələb və təklif bərabərləşir.

Siyasi iqtisad elmində M.Valrasın bu modelini təkmilləşdirmək üçün bir neçə cəhdlər həyata keçirilmişdir. M.Valrasın modelinin

downloaded from KitabYurdu.az

təkmilləşdirilmiş variantını Xiks-Allen yaratmışlar ki, ümumi tarazlığı burada üç qrup tənlik sistemi müəyyən edir: Birinci tənlikdə hər bir istehlakçının gəlirinin məhdud kəmiyyət daxilində onun maksimum fayda əldə etməsi işıqlandırılır. İkinci tənlikdə istehsal olunan məhsulun miqdarının və xarakterinin məhdudluğundan asılı olaraq hər bir sahibkarın maksimum mənfəət əldə etməsi şərh edilir. Üçüncüdə isə əmtəələrin bütün çeşidləri üzrə tələb və təklifin bərabərləşməsi əsasında mənfəətin satış və alış qiyməti arasında olan fərq kimi formalaşması ifadə olunur.

Beləliklə, qeyd edək ki, ümumi iqtisadi tarazlıq sistemi bütün sahibkarlar üçün olan optimal mənfəət ilə bütün istehlakçılar üçün olan optimal faydalılıq arasında əldə olunan uyğunluğa əsaslanır.

İtisadi tarazlığın mühüm tərəflərindən biri də tələb və təklif kateqoriyalarıdır. Tələb və təklif bazar iqtisadi sisteminin ünsürü olub bazarda, əmtəə tədavülü dairəsində fəaliyyət göstərir.

Tələb dedikdə, bazara çıxarılan əmtəələrin istehlakı, təklif dedikdə isə satılmaq üçün bazara gətirilən əmtəələr nəzərdə tutulur. Tələb və təklif bazarın hərəkətverici qüvvəsidir. Təkrar istehsal prosesində tələb və təklifin belə bir rolu onun yerinə yetirdiyi iqtisadi və sosial funksiyalar ilə müəyyən olunur. Tələb və təklifin funksiyalarından biri, istehsalın inkişafı və bu inkişaf prosesində istehsal amillərinin proporsional bölüşdürülməsini aşkar etməkdən ibarətdir. Bütün istehsal sahələrində təzahür oluna biləcək disproporsionallıq bazarda, tələb və təklif əlaqələrində özünü büruzə verir.

Tələb və təklif arasında olan uyğunsuzluq tədavül prosesinə mənfi təsir göstərir və nəticədə həm ümumi iqtisadi tarazlıq, həm də bazar tarazlığı pozulur.

Tələb və təklifin iqtisadi funksiyalarından biri də ondan ibarətdir ki, bu qanun (tələb və təklif qanunu) bazar qiymətlərini, daha dəqiq desək, bazar qiymətlərinin bazar dəyərinə yaxınlaşması və ya uzaqlaşmasını nizamlayır. Tələb və təklif təkrar istehsalın başlanğıcı və sonu arasında əlaqələndirici funksiyanı da yerinə yetirir. Tələb və təklifin belə bir funksiyası istehsal ilə istehlak arasında olan bazar münasibətlərini ifadə

downloaded from KitabYurdu.az

edir. Tələb və təklif eyni zamanda satıcılar ilə alıcılar arasında olan münasibətləri də əks etdirir.

Qərb iqtisadi fikir tarixində tələb və təklif nəzəriyyəsi xüsusi yer tutur. Bu nəzəriyyəyə görə, yuxarıda qeyd etdiyimiz kimi, əmtəənin dəyəri və qiyməti tələb və təklifin dəyişməsi ilə müəyyən olunur. Məsələn, əgər tələb təklifi üstələyərsə, qiymət artar, əksinə, təklif tələbdən artıq olarsa o zaman qiymətlər aşağı düşər.

Belə bir konsepsiyanın yaranması əmək-dəyər nəzəriyyəsi ilə əlaqədardır. Çünki bu konsepsiyanın yaradıcıları tələb və təklifi mübadilə sferası və bazar münasibətlərilə bağlayırlar.

Tələb və təklif nəzəriyyəsinin ilk yaradıcılarından biri J.B.Sey olmuşdur. J.B.Sey qiyməti və dəyəri həm tələb və təklifin arasında olan nisbətlə, həm də faydalılıqla əlaqədar olaraq izah edirdi. İngilis iqtisadçısı Q.D.Makleod dəyəri bazar qiyməti ilə əvəz edərək belə bir nəticəyə gəlirdi ki, qiymət hər-hansı bir hadisə daxilində tələb və təklifə tabedir. M.Valras isə bu konsepsiyanı riyazi metodlarla əlaqəli şəkildə izah edirdi.

M.Valrasa görə tələb və təklif arasında olan nisbət qiymətin əsas amili idi.

Bir çox Qərb iqtisadçı - alimləri, o cümlədən K.Menger, E.Bem-Baverk, F.Vizer, A.Marşall tələb və təklif nəzəriyyəsini son faydalılıq və istehsal xərcləri nəzəriyyələrilə əlaqələndirirdilər.

Bu nəzəriyyənin davamçısı kimi 70-ci illərdə P.Samuelson çıxış edirdi. O, A.Marşallın nəzəriyyəsini inkişaf etdirərək göstərirdi ki, tələb və təklif istehsal xərcləri və son faydalılıq nəzəriyyələrindən asılıdır. P.Samuelson bu nəzəriyyəni neoklassik sintez adlandırırdı. P.Samuelson iddia edirdi ki, istehsal xərcləri qiymət sisteminə təsir etdiyi kimi təklifə də həmin dərəcədə təsir göstərir.

downloaded from KitabYurdu.az

# FƏSİL 19. AZƏRBAYCANDA İQTİSADİ FİKRİN İNKİŞAFI

## §I. XIX ƏSRİN İKİNCİ YARISINDA AZƏRBAYCANIN İQTİSADİ FİKRİ

XIX əsrin ikinci yarısında yaşamış mütəfəkkir və yazıçıların əsərlərində maarifçilik və milli dirçəliş ideyaları üstünlük təşkil edir. Bu ilk növbədə M.F.Axundovun, H.B.Zərdabinin, N.B.Vəzirovun və başqalarının iqtisadi görüşlərində özünü büruzə verir. Həmin dövrün mütəfəkkirləri öz zəmanəsinin tələblərinə uyğun olaraq Azərbaycanın iqtisadiyyatında və mədəniyyətində geriliyin səbəblərini araşdırır, milli dirçəliş yollarını tapmağa və göstərməyə çalışırlar. Bu dövrün mütərəqqi ziyalıları qəzet məqalələrində ("Əkinçi qəzeti"), fəlsəfi və ədəbi əsərlərində İslam Şərqinin, o cümlədən Azərbaycanın ictimai-iqtisadi həyatındakı geriliyin, primitivliyin, vaxtı keçmiş qaydalara aludəçiliyin başlıca səbəblərini xalqın

downloaded from KitabYurdu.az

savadsızlığında, xurafat və cəhalətin beyinlərdə kök salmasında və s.-də axtarırdılar.

Bununla yanaşı həmin dövrdə Azərbaycanın görkəmli maarifçi xadimləri milli şüurun və milli iqtisadiyyatın yüksəldilməsi üçün mühüm nəzəri və əməli təkliflər yürütmüşlər. Onlar Avropanın qabaqcıl iqtisadiyyatına və texnikasına yiyələnməyi tövsiyə edir, əkinçiliyin, maldarlığın, ticarətin yeni üsullarla qurulmasını və idarə edilməsini təbliğ edirdilər.

M.F.Axundov və N.B.Vəzirov Qərb iqtisadçılarının əsərlərindəki nəzəri fikirlərdən istifadə etmiş, onların Azərbaycanda da inkişaf etdirilməsinin tərəfdarları olmuşlar. Bu "İqtisadiyyat" və onun əhatə etdiyi hadisə və proseslərdə öz əksini tapmışdır. Buna baxmayaraq o dövrdə çar imperiyasının müstəmləkəçilik siyasəti və onun acı nəticələri ən çox Azərbaycan iqtisadiyyatının birtərəfli inkişafında və onun malik olduğu zəngin resursların sorulub aparılmasında özünü göstərirdi.

XX əsrdə baş verən ictimai-siyasi hadisələr isə Azərbaycanda xeyli jurnal, qəzet və sair mətbuat orqanlarının yaranmasına, milli partiya və cərəyanların meydana çıxmasına təkan vermişdir. Bu dövrün zəngin mətbuatının, böyük mütəfəkkir, alim, şair, yazıçı və ictimai xadimlərinin gördüyü işləri, irəli sürdükləri ideya və fikirləri iqtisad elmi və onun tarixi baxımından araşdırmaq, öyrənmək tələb olunur.

Azərbaycanda iqtisadi fikrin inkişafına həsr olunan bu mövzuda XIX əsrin ikinci yarısında Azərbaycanın iqtisadi fikri, XX əsrin əvvəllərində və sonrakı illərdə marksist iqtisadi təliminin Azərbaycanda yayılması və iqtisadi ədəbiyyatda şərhi, başa vurduğu XX əsrin 50-60-cı və 70-80-cı illərində Azərbaycan iqtisadçıları tərəfindən iqtisadi qanunların fəaliyyəti və istifadə mexanizminin tədqiqi, habelə XX əsrin 90-cı illərində və bazara keçid dövründə Azərbaycanın iqtisadi fikrindəki dəyişiklik, onun iqtisadi ədəbiyyatda, dövlət siyasətində əksi məsələləri şərh edilir.

XIX əsrin ikinci yarısında Azərbaycan xalqının həyatında iqtisadi fikir və ideyalar məzmunca zəngin, miqyasca daha ətraflı olmuşdur. Azərbaycan xalqının həyatının rəngarəngliyi iqtisadi fikrin özünün rəngarəngliyinə və zənginliyinə səbəb olur. Bu da bütövlükdə iqtisadi fikrin müxtəlif cərəyan və istiqamətlərə bölünməsində əks olunur. Deməli,

downloaded from KitabYurdu.az

bu haqda olan mənbələrə[82] əsasən iqtisadi fikir və cərəyanları aşağıdakı üç qrupa bölmək olar:

birinci qrupa, iqtisadi fikrin antifeodal istiqaməti və cərəyanları;

ikinci qrupa, iqtisadi fikrin klassik burjua, xırda burjua cərəyan və istiqamətləri;

üçüncü qrupa isə marksist-leninçi iqtisadi fikir və cərəyanlar aid edilməlidir.

XIX əsrin ikinci yarısında Azərbaycanın iqtisadi fikiri M.F.Axundov (1812-1878), H.B.Zərdabi (1837-1907), N.B.Vəzirov (1854-1926) və başqa görkəmli mütəfəkkirlərin adı ilə bağlıdır. Onlar ölkədə sənayenin inkişaf etdirilməsi, kooperativ birliklər və kənd təsərrüfatı banklarının təşkili, istehsal və həvəsləndirmə metodlarının yaxşılaşdırılması, işçilərin ixtisas səviyyəsinin yüksəldilməsinə dair sırf iqtisadi səciyyəli ideyaların müəlliflərindəndirlər.

XIX əsrin ikinci yarısından Azərbaycan mütəfəkkirlərinin iqtisadi-sosial fikirləri başlıca olaraq demokratik səciyyə ilə özünü nümayiş etdirir. Bu öz növbəsində həmin dövrdə yaşamış mütəfəkkir və yazıçıların əsərlərində maarifçilik və milli dirçəliş ideyalarında üstünlük təşkil edirdi. Bu baxımdan da M.F.Axundovun, H.B.Zərdabinin və N.B.Vəzirovun iqtisadi fikir və baxışları xüsusi əhəmiyyət kəsb edir.

Bu dövrün mütəfəkkirləri qəzet və məqalələrində ("Əkinçi" qəzeti), fəlsəfi və ədəbi əsərlərində ən çox Azərbaycanın iqtisadi inkişafının fikir və ideyalarını tərənnüm edərək o dövrdə istehsal (məhsuldar) qüvvələrin artırılması, xalqın və onun müxtəlif zümrələrinin böyük əksəriyyətini təşkil edən kəndlilərin həyat səviyyəsi, xalqın həqiqi azadlığı naminə söylənilən iqtisadi-sosial fikirlər, xalqın mütərəqqiliyə doğru tərəqqisini ifadə edən ideyalar idi.

Bunların hamısı barədə söylənilən iqtisadi-sosial fikirlər obyektiv səviyyəyə və keyfiyyətə malikdir. Yeri gəlmişkən bir daha qeyd edək ki, həmin mütəfəkkirlər iqtisadiyyat üzrə mütəxəssislər olmadıqları üçün onlardan bu sahənin peşəkarlığı səviyyəsində tələbkarlıq etmək düzgün olmaz. Şübhəsiz onlar həmin dövrün ictimai inkişafının iqtisadi qanunauyğunluqlarını bu sahənin peşəkar mütəxəssisləri kimi verə

---

[82] Bax: Azərbaycan iqtisadiyyatı, Bakı, 1998, səh.34-35.

downloaded from KitabYurdu.az

bilməzdilər. Lakin bununla belə onlar cəmiyyətin iqtisadi-sosial həyat hadisələrini və proseslərini izləyir, yeri gəldikcə onları öz əsərlərində məharətlə əks etdirmişlər. Onların əsərlərində çoxlu terminlərin, iqtisadi kateqoriyaların adı çəkilir. Həm də bunlar sadəcə olaraq qeyd olunmur, daşıdıqları məna əksər hallarda ətraflı izah olunur.

Bunlardan iqtisad elmi, o cümlədən siyasi-iqtisad, məhsuldar qüvvələr, mülkiyyət münasibətləri, natural təsərrüfat, istehsalın məqsədi, həyat səviyyəsi, tələbat, istehsal, əmək, əmək bölgüsü, kollektiv əmək, dəyər, kapital, əmtəə, bazar, tələb və təklif, faiz, ssuda (borc), maliyyə, böhran, iflas, vergi, mənfəət, rəqabət, qənaət, istismar və s. bir çox iqtisadi anlayışları göstərmək olar.

Azərbaycanın məşhur yazıçı - dramaturqu, filosofu və ictimai xadimi olan M.F.Axundov 1812-ci ildə Şəki şəhərində anadan olmuş, 1878-ci ildə Tiflisdə vəfat etmişdir. O, 1834-cü ildə Tiflisdə Qafqaz canişininin dəftərxanasında tərcüməçi vəzifəsində işləməklə bərabər, eyni zamanda Azərbaycan və fars dillərində dərs deyir və ədəbi yaradıcılığa başlayır. 1850-1856-cı illər arasında 6 komediya yazıb-yaradıb. Dahi mütəfəkkir bu əsərlərdə Azərbaycanın sosial-iqtisadi həyatını bu və ya digər dərəcədə əks etdirmişdir.

M.F.Axundov "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara") komediyasında bəzi qiymətli iqtisadi fikirlər yürüdür. O, 1857-ci ildə yazdığı "Aldanmış Kəvakib" povestində Azərbaycanda feodal-patriarxal münasibətlərinin dağılması prosesinə və dövlət qurumunun demokratikləşdrilməsinə dair ideyalar irəli sürür. Onun çoxsaylı əsərləri sırasında "Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktub və Cəlalüddövlənin ona göndərdiyi cavab məktubu" (qısa adı "Kəmalüddövlə məktubları") traktatı xüsusi ilə ayrılır. Bu və başqa əsərlərində o, dərin, fəlsəfi ideyalar nümayiş etdirməklə bərabər, o dövrün sosial-iqtisadi fikirlərinin işıqlandırılması sahəsində qiymətli töhfə vermişdir.

M.F.Axundov əhalinin, bütövlükdə ölkənin yoxsulluq və dilənçiliyini kütlələrin mədəni geriliyində və savadsızlığında, ölkənin təsərrüfat həyatının pozulduğunda, iqtisadiyyatın müxtəlif sahələrinin idarə edilməsinin yaramaz şərait və üsullarında görürdü. O, kənd

downloaded from KitabYurdu.az

təsərrüfatı, əkinçilik, ticarət, maldarlıq, bostançılıq və s. işlər haqqında düzgün təsəvvür olmadığına görə, təsərrüfatı yaxşı idarə etməyə kömək edə bilən kitabların yoxluğuna acıyırdı.

"Üç məktub"un müəllifi ölkənin iqtisadi inkişafı üçün yolların qaydaya salınmasına böyük əhəmiyyət verirdi. Bu haqda o yazırdı: "... millət və rəisi - millət hərgiz dərk edə bilmir ki, məmləkətin abad olmağa və ticarətin rəvacı və millətin fəqrdən azad olmağı üçün təmiri-türüq əlzəm və sailin birisidir".[83]

Maddi nemətlərin istehsalı üçün ictimai əməyin düzgün bölgüsü və ölkənin əmək ehtiyatlarından tam istifadə edilməsinin zəruriliyi haqqında məsələ M.F.Axundovun diqqətindən yayınmamışdır. Onun fikrincə, İranda iqtisadi gerilik nəticəsində, buna görə də əmək ehtiyatlarından tam istifadə etməyin mümkün olmaması nəticəsində bir çox adamlar qazanc dalınca başqa ölkələrə getməyə və "yad ölkələrdə alçaldıcı həyat keçirməyə" məcbur olurlar.

M.F.Axundov özünün "İnsan tələbatları haqqında" adlı əsərində ictimai əməyin düzgün bölgüsü məsələsini ictimai əməyin müxtəlif sahələri arasında müəyyən proporsiyanın nəzərə alınması məsələsi ilə bağlayırdı. O, düzgün olaraq belə hesab edirdi ki, bu prinsipin pozulması zəruri olan yaşayış vasitələrinin bəzilərinin çox, digərlərinin isə az istehsal edilməsinə səbəb olur.

M.F.Axundovun iqtisadi tədqiqatı sübut edir ki, o, kapitalizmdə istehsalla istehlak arasındakı ziddiyyəti başa düşür və onun fikrincə burjua ölkələrində istehsal edilən əmtəələrin miqdarı xalq kütlələrinin tələbindən artıq olur ki, bu da mütləq böhrana gətirib çıxarır. Özünün "Hekayət" əsərində yazır ki, "Altmış il bundan əqdəm Firəngistanda, xüsusən ingilis məmləkətində... xalq biaram karxanalar yapmağa və sənaye işlətməyə iqdəm edib az müddətdə külli - aləmin ehtiyaclarına kafi miqdardan bəməratib ziyadə əqmişə və əmtəə hazır edib, Firəngistanda və sair əqalimdə hərə şəhərin bazar və karvansaralarını ənva və əqsam əşya ilə doldurdular. Və bu aləmin məalından saf qafil idilər və hərgiz xəyallarına

---

[83] M.F.Axundov, Əsərləri, II cild, Bakı, 1961, səh.24

downloaded from KitabYurdu.az

xütur etmirdi ki, bu işin nəticəsi aqibət ərbabi-tənxahın iflasına bais olacaqdır".[84]

Lakin kapitalizmin inkişaf qanunları haqqında məlumatı olmadığına görə, o, ifrat istehsal böhranlarının əsas səbəbini aça bilməmişdir. Onun fikrinə görə bu böhranlar sadəcə olaraq istehsalla istehlak arasında uyğunsuzluq nəticəsində meydana gəlmişdir.

M.F.Axundovun əsərlərində cəmiyyətdə bərabərlik ideyası mühüm yer tutur. Adamların yoxsulluq və məhrumiyyətlərinin səbəbini zəhmətkeşlərin mülkiyyətinin müstəbidlər tərəfindən mənimsənilməsində görür və bu işdə varlı sinfin sadiq xidmətçiləri kimi ruhaniləri günahlandırırdı. Onun fikrincə müstəbid və ruhanilər zorakılıq və xalq malını talan etməyə qadirdilər. Bu səbəbdən də o, zəhmətkeşlərin ruhən və cismən azad edilmələri zəruriyyətini tələb edirdi. Lakin M.F.Axundovun ictimai inkişafın qanunlarını dərk etmək sahəsində dünyagörüşünün məhdudiyyəti ona, zəhmətkeşlərin mülkiyyət hüququ ideyalarını necə və hansı əsaslar üzərində həyata keçirməyi başa düşməyə imkan verməmişdir. Bununla belə, həmin məsələnin qoyuluşunda onun böyük xidməti olub və Azərbaycanda ictimai-iqtisadi fikrin inkişafında mühüm əhəmiyyət kəsb etmişdir.

1860-cı illərin ortalarından başlayaraq rus inqilabçı demokratlarının və Qərbi Avropa maarifçilərinin qabaqcıl ideyalarının qüvvətli təsiri altında dahi mütəfəkkir zəhmətkeş kütlələr üçün xalis maarifpərvər və müdrik hökmdarın insanpərvərliyinə inamı haqqında öz əvvəlki ideyasını rədd edir. O, öz ideyalarında daha prinsipial olur. Əgər "Aldanmış Kəvakib"in meydana çıxdığı dövrdə o, zülm edənlərlə zülmkarlar arasında sazişə gəlməyi mümkün hesab edirdisə, "Üç məktub" əsərində isə o, bu məsələdə daha kəskin və düzgün mövqe tutur.

Beləliklə, Axundov özünün 1871-ci ildə Mirzə Yusif Xana məktubunda yazırdı ki, "zülmü yox etmək üçün iki vasitə vardır: ya zülmkar zülm etməkdən əl çəkməli, ya da məzlumlar zülmə dözməyərək özləri onu məhv etməlidirlər. Ağıl söyləyir ki, zülmü yox etmək üçün başqa yollar yoxdur... on min illərlə mütəfəkkirlər, alimlər, şair zülmkarlığı yox etmək üçün zülmkara nəsihət etməyi və məsləhət verməyi kifayət

[84] M.F.Axundov, əsərləri, II cild, səh. 255.

downloaded from KitabYurdu.az

görürdülər. lakin çoxlu təcrübə göstərir ki, belə cəhətlər faydasızdır və bu yolla yer üzündə zülmü məhv etmək olmaz... Deməli, zülmü yox etmək üçün zalıma nəsihət vermək lazım deyil, əksinə, məzluma demək lazımdır ki, nə səbəbə sən qüvvə və bacarıqda zülmkardan qat-qat üstün olduğun halda, ona acizanə dözürsən? Oyan və zülmü alt-üst et".[85]

M.F.Axundov patriarxal - feodal quruluşunun az ömür sürəcəyinə möhkəm inanır və zəhmətkeşlərin qanını soranlara müraciət edərək, zülm edilən xalqın kəskin intiqamı ilə onları qorxudurdu. Nəcib ideyalarla ruhlansa da o, yenə xalq işinə hansı sinfin rəhbərlik edəcəyini göstərə bilmirdi. Bütün bunlar göstərir ki, dahi mütəfəkkir özünün şər və haqsızlığa qarşı çoxillik mübarizəsi nəticəsində "üç məktub"un yarandığı dövrdə demokratik-maarifçi cəbhəsində duran böyük mütəfəkkirdir.

Beləliklə, XIX əsrin ikinci yarısında Azərbaycanın ictimai-iqtisadi geriliyi dahi mütəfəkkirə iqtisadi fikir və ildeyaları tam aşkarlamağa imkan vermirdi. M.F.Axundovun iqtisadi baxışlarının məlum tarixi məhdudiyyətləri ona, ictimai ideyaların xarakterinin ictimai varlıq tərəfindən müəyyən edildiyini və bu ideyaların yaranması mənbəyini cəmiyyətin maddi istehsal şəraitində axtarmaq lazım gəldiyini başa düşməyə imkan verməmişdir. Məhz buna görə də o, özünün parlaq ideyalarına və mütərəqqi cəhdlərinə baxmayaraq, zəmanəsinin bir çox vacib ictimai-iqtisadi problemlərini düzgün həll edə bilməmişdir.

M.F.Axundovun ardıcılı və müasiri olan H.B.Zərdabi Azərbaycanın maarifpərvər demokratı, publisisti və ictimai xadimi kimi əsərlərində, məqalələrində xalqımızın iqtisadi-sosial həyatına dair çoxlu qiymətli fikirlər söyləmişdir.

XIX əsrin ikinci yarısında Azərbaycan xalqının iqtisadi fikrini dərindən öyrənmək üçün M.F.Axundovla yanaşı, görkəmli maarifçi, ictimai xadim, publisist və pedaqoq H.B.Zərdabinin iqtisadi görüşləri böyük əhəmiyyət kəsb edir. O, 1865-ci ildə fizika-riyaziyyat fakültəsini müvəffəqiyyətlə bitirdiyi Moskva Universitetinin yetirməsidir. H.B.Zərdabi Rusiyada inqilabi hərəkatın gücləndiyi və Çernışevskinin xalqı qüdrətli səsi ilə üsyana çağırdığı illərdə ideyaca möhkəmlənmişdir.

---

[85] Bax: Ş.F.Məmmədov, "M.F.Axundovun dünyagörüşü", Bakı, 1962, s.182.

downloaded from KitabYurdu.az

H.B.Zərdabi iqtisadi inkişaf və burjua münasibətlərinin sürətlə genişləndiyi və cəmiyyətin ziddiyyətlərinin son dərəcə kəskinləşdiyi bir şəraitdə yaşayıb yaratmışdır. O, 1842-ci ildə Zərdabda anadan olmuş və 1907-ci ildə Bakıda vəfat etmişdir. 1866-cı ildə Moskva Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinin ədəbiyyat şöbəsini bitirmişdir. O, məşhur demokratik "Əkinçi" qəzetinin banisi və redaktoru olmuşdur. Bu qəzetin 1875-1877-ci illərdə, yəni qısa müddətdə, cəmi üç il fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycanın mədəni həyatında çox böyük rolu və əhəmiyyəti olmuşdur. O bir neçə vaxt "Kaspi" qəzetinin redaktoru da olmuş və "Həyat", "Dəbistan" (Bakı), "Obzor", "Novoe obozrenie" (Tiflis), "Zemledelçeskaya qazeta" (Peterburq), və başqa qəzet redaksiyaları ilə fəal əməkdaşlıq etmiş, çoxsaylı məqalələr çap etdirmişdir. Bu məqalə və yazılarında o, özünün hərtərəfli biliyini və demokratik görüşlərini parlaq surətdə təcəssüm etdirmişdir.

Bu dövrdə Bakı sürətlə Qafqazın ən böyük sənaye mərkəzinə çevrilirdi ki, həmin illərdə sənayeinin yaranması və neftçilər ordusunun inqilabi hərəkatının artması H.B.Zərdabinin iqtisadi görüşlərinin formalaşmasına və inkişafına bilavasitə təsir göstərmişdir. Öz dünyagörüşü etibarilə maarifçi demokrat olan H.B.Zərdabi bütün şüurlü fəaliyyəti dövründə xalqın maariflənməsi uğrunda və Azərbaycanda iqtisadiyyatın, mədəniyyətin inkişafı uğrunda gərgin mübarizə aparmışdır. Onun elmi fəaliyyətinin mərkəzində zəhəmtəkeşlərin ağır ictimai-iqtisadi vəziyyəti və bu vəziyyətdən çıxış yollarını axtarmaq məsələsi olmuşdur.

H.B.Zərdabinin iqtisadi görüşləri əsasən onun çıxardığı və redaktoru olduğu "Əkinçi" qəzetinin səhifələrində öz əksini tapmışdır. O dövrdə ölkədə ictimai-iqtisadi geriliyin əsas səbəbini o, Azərbaycanın sənaye cəhətdən geriliyində görürdü. Onun göstərdiyi kimi doğma ölkə iqtisadi cəhətdən əcnəbi dövlətlərdən asılıdır. Bu da ölkədə istehsal edilən ipəyin, pambığın, yunun tacirlər tərəfindən ucuz qiymətə əcnəbilərə satılmasına və xaricdə isə əcnəbi müəssisələrdə həmin xammallardan hazır məhsul istehsal olunmasına, sonra həmin məhsulların Azərbaycanda satmaq üçün qaytarılmasına və baha qiymətə satılaraq əcnəbilərin böyük mənfəət götürməsinə şərait yaradırdı.

downloaded from KitabYurdu.az

Bakının sənaye müəssisələrinin sürətlə əcnəbilərin öz əllərinə keçirmələri faktı da H.B.Zərdabinin diqqətindən yayınmamışdır. O, 1906-cı ildə "Həyat" qəzetinin beşinci nömrəsində nəşr edilmiş məqaləsində həyəcanla qeyd edirdi ki, ticarət sahəsində ağalıq edən əcnəbilər onun vətənin bir çox müəssisələrini də öz əllərinə keçirmişlər. Əcnəbi inhisarlarının Bakı neft mənbələri sahəsində həyata keçirdikləri işğalçı siyasətlərini nəzərdə tutaraq o, acı hisslərlə yazırdı: "Mədəni qonşular hər gün irəliyə addımlayaraq bizim mülk və malımızın ağaları olurlar. Tezliklə biz onların rəncbərləri və mallarını daşıyan arabaçılar olacağıq".[86]

Həmin illərdə Nobel, Rotşeld, Vişad və b. əcnəbi sahibkarlar Sabunçu, Suraxanı, Balaxanı və s. neft sahələrini daha çox öz əllərinə keçirirdilər. Onlar bu yerlərdə yaşayanları öz arabaçı və qara fəhlələrinə çevirirdilər. Əcnəbilərin qul ağalığından vətəni azad etmək üçün o, öz həmvətənlərinə (milli sahibkarlara) və fabriklər, zavodlar açmağı təklif edirdi.

H.B.Zərdabi təsərrüfatın bütün sahələrində, o cümlədən əkinçilikdə maşınlı texnikanın tətbiq edilməsi arzusu ilə yaşayırdı. O, texnikaya əməyi yüngülləşdirən və onun məhsuldarlığını artıran mühüm amil kimi baxırdı. Buna görə də o Bakı-Tiflis dəmir yolu tikintisinin böyük iqtisadi əhəmiyyətini düzgün qiymətləndirmişdir.

H.B.Zərdabi Azərbaycanın iqtisadi inkişafı üçün Avropa ölkələrinin təcrübəsindən istifadə etməyin böyük əhəmiyyətini göstərmişdir. O, yerli tacir və sənayeçiləri avropalılar kimi müxtəlif şirkətlər yaratmağa dəvət edirdi. Bu halda o yazırdı: "Əcnəbi tacirlər elm ilə ticarət etdiyinə külli nəfhilər götürürlər. Məsələn, böyük şirkətlər və kompaniyalar bina edib külli dadisətədlər edərlər, buxar gəmiləri və qeyri-saxlarlar, maşınlar bina edirlər".[87]

H.B.Zərdabi kəndin ağalarını və kənd təsərrüfatının normal inkişafına böyük bəla olan möhtəkir və sələmçilərin barışmaz düşməni idi. O, möhtəkirlərə böyük nifrət bəsləyərək yazırdı: "Elə ki, kənd təsərrüfatı məhsullarının yığımı başlayır, möhtəkirlər quzğun kimi kəndlərə daraşır, məzənnə qoyur və məhsulları almağa başlayırlar: borclular müqavilə üzrə

---

[86] Bax. "Həyat" qəzeti, 1905, №5
[87] Bax. "Əkinçi" qəzeti, 1876, 27 may.

downloaded from KitabYurdu.az

öz borclarını ödəmək üçün məhsullarını onlara məzənnə ilə verməli olurlar. Heç olmasa onların özlərinin müəyyən etdiyi məzənnə ilə alver vicdanla düzgün olsa idi yaxşı olardı. Lakin burada ölçüdə, çəkidə hesabda nə qədər istəsəniz fırıldaq var".[88]

Kənd əkinçilərinin həyatını yüngülləşdirmək üçün H.B.Zərdabi onlara məsləhət görürdü ki, barama, pambıq və b. məhsulları möhtəkirin xidməti olmadan, münasib qiymətə satmaq üçün müxtəlif şirkətlər təşkil etsinlər. O, kəndlilərə məsləhət görürdü ki, sələmçilərə qarşı mübarizə etmək üçün pay qoymaqla ipotek bankları yaratsınlar. O, öz əsərlərində kooperasiyanın müxtəlif formalarının üstünlüyündən danışarkən kənd əkinçilərini birgə əməyə dəvət edirdi. H.B.Zərdabi heç yerdə torpaq və istehsal vasitələri üzərində xüsusi mülkiyyətin ləğv edilməsi və onların ictimailəşdirilməsi zərurətindən bəhs etməmişdir. O, sadəcə olaraq zəhmətkeşləri birgə istifadə etmək üçün öz istehsal vasitələrini birləşdirməyə dəvət edirdi. Buna görə də kollektivizm haqqındakı ideyaları onun bazar təsərrüfatına müsbət münasibət bəslədiyini göstərirdi.

H.B.Zərdabinin iqtisadi görüşlərində kollektiv əmək və təsərrüfatın birgə idarə edilməsi haqqındakı fikri mühüm yer tutur. O, əmək və istehsalın ictimai xarakterini qeyd edərək maddi nemətlər yaradılmasının əsas şərtlərini insanlar arasındakı ünsiyyət, birlik və qarşılıqlı razılıqda görürdü. O göstərirdi ki, əks-təqdirdə, insanların yaşaması üçün vəsait əldə etmək mümkün deyildir. H.B.Zərdabi insanlar arasında ictimai əmək bölgüsünün təşkilinə yüksək qiymət verir və hesab edirdi ki, bunsuz bu və ya digər istehlak predmetlərinin istehsalını lazımi dərəcədə qaydaya salmaq mümkün deyildir. Ölkədə əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə və adamların işlə təmin olunmasına, ölkədə köçərilərin oturaq həyata keçirilməsi problemlərinə müstəsna dərəcədə böyük əhəmiyyət verirdi. Onun fikrincə oturaq həyat tərzinə keçmək cəhdlərində köçərilər dövlət torpaq idarələri tərəfindən hər cür maneələrə rast gəlirlər.

Beləliklə, H.B.Zərdabi əsərlərində irəli sürülmüş bir sıra qiymətli nəzəri müddəalar içərisində onun tələbin səviyyəsi ilə əmtəələrin qiymətləri arasındakı qarşılıqlı əlaqə haqqındakı fikri böyük elmi maraq doğurur. Otkup sisteminin ləğvindən sonra Bakı neftinin qiymətinin

---

[88] Bax. "Kaspi" qəzeti, 1899, 15 dekabr.

downloaded from KitabYurdu.az

kəskin dəyişilməsini və neft yataqları olan torpaqların azad satılmasına keçidi şərh edərək göstərirdi ki, tələbin səviyyəsi əmtəələrin qiymət səviyyəsini müəyyən edir. O, həm də dəyər qanunu,  hərəkət mexanizmi məsələlərinə toxunur və onu düzgün başa düşdüyünü nümayiş etdirir.

XIX əsrin II yarısında Azərbaycanda iqtisadi fikrin görkəmli nümayəndələrindən biri də N.B.Vəzirovdur. H.B.Zərdabi kimi o da vətən sənayesinin inkişaf etdirilməsi, kooperativ birliklər və kənd təsərrüfatı banklarının təşkili, istehsal və həvəsləndirmə üsul və metodlarının yaxşılaşdırılması, işçilərin ixtisas səviyyəsinin yüksəldilməsinə dair sırf iqtisadi səciyyəli ideyaların müəlliflərindən biri hesab edilir.

XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Azərbaycanın görkəmli maarifçilərindən, dramaturq və publisist olan N.B.Vəzirov 1854-cü ildə Şuşa şəhərində anadan olmuş və 1926-cı ildə vəfat etmişdir. O, 1878-ci ildə Petrovski-Razumovski adına Moskva Əkinçilik Akademiyasını (indiki Tmiryozev adına Kənd Təsərrüfatı Akademiyasını) bitirmişdir.

O, çoxlu sayda dram əsərləri yazmışdır ki, bu əsərlərdə N.B.Vəzirov o dövrdə Azərbaycan kəndində feodal-patriorxal münasibətlərinin qalıqlarından bəhs etmiş və ona qarşı fikrini bildirmişdir. O, tüfeylilərin, xalqı soyanların Bakı neftini vəhşicəsinə soyub aparanların həyatını, bəzi iqtisadi münasibət məsələlərini real təsvir etmişdir. O, iqtisadi təmayüllü "Əkinçi" (1875-1877) qəzetinin səhifələrində siyasi iqtisadın bir çox problemlərinə diqqət yetirmiş və hətta bu elmin predmetinə tərif vermişdir.

H.B.Zərdabi siyasi iqtisadı "elmi dadistel" (kommersiya haqqında elm) hesab etmişdirsə, N.B.Vəzirov "bəhrəm zəhmətlik elmi" (həmzəhmətlik elmi), "elmi qənaət pometiki" (vaxta qənaət sənətkarlığa dair elm) adlandırmışdır.

Azərbaycanın digər görkəmli maarifçi xadimləri kimi N.B.Vəzirov da mili şüurun və milli iqtisadiyyatın yüksəldilməsi üçün mühüm nəzəri və əməli təkliflər də irəli sürmüşdür. O, Avropanın qabaqcıl texnologiyasına və texnikasına yiyələnməyi tövsiyə edərək, əkinçiliyin, maldarlığın, ticarətin yeni üsullarla qurulmasını və idarə edilməsini təbliğ etmişdir.

M.F.Axundov kimi o da öz əsərlərində Qərb iqtisadçılarının əsərlərindən, nəzəri fikirlərindən istifadə etmiş, onların Azərbaycanda da

downloaded from KitabYurdu.az

inkişaf etdirilməsinin tərəfdarı olmuşdur. Onun əsərlərində "İqtisadiyyat" elminin öyrəndiyi predmet və onun əhəmiyyəti də öz əksini tapmışdır.

## §2. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MARKSİST İQTİSADİ TƏLİMİNİN AZƏRBAYCANDA YAYILMASI VƏ İQTİSADİ ƏDƏBİYYATDA ŞƏRHİ

Tarixi inkişafın bu mərhələsi artıq keçilmiş bir yoldur. Onun məzmunu, sosial-iqtisadi inkişafda olmasına dair fikirləri mövcuddur. XX əsrin 20-30-cu illərində Azərbaycanın iqtisadi fikir tarixində marksist iqtisadi təliminin də özünəməxsus yeri vardır.

Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olduğu ilk dövr, yəni 20-30-cu illər onun iqtisadi fikir tarixinin ayrılmaz tərkib hissəsidir. Bu dövrdə Azərbaycanın həyatının bütün sahələrində - iqtisadiyyat, elm, mədəniyyət və incəsəntdə böyük dəyişikliklərin baş verməsi ilə səciyyələnir. Müəyyən mənfi meylləri və nəticələri ilə bərabər 20-30-cu illərdə Azərbaycanda iqtisad elminin inkişafında, milli iqtisadçı kadrların hazırlanmasında, iqtisadi təfəkkürün formalaşması və inkişafında böyük əhəmiyyət kəsb edir.

Bu dövrdə Azərbaycanda başlanğıcı ADR dövründə qoyulmuş iqtisadi təmayüllü elm və tədris ocaqlarının meydana gəlməsi işi geniş vüsət almışdır. Belə ki, 1922-1923-cü illərdə Azərbaycanda M.Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutunun nəzdində iqtisad fakültəsi açılır və onun yanında iqtisadi tədqiqatlar aparan "Elmi iqtisadi cəmiyyət" də fəaliyyət göstərməyə başlayır.

1928-ci ildə isə Azərbaycan Dövlət Universitetinin nəzdində iqtisad fakültəsi və Sosialist Uçotu İnstitutu, 1930-cu ildə isə Azərbaycanda Sosial-İqtisad İnstitutu təşkil olunmuşdur. Yenə həmin illərdə Ticarət və Kooperasiya İnstitutu, Sovet quruculuğu və Hüquq institutları fəaliyyət göstərməyə başlayır. 1937-ci ildə bu institutlar və fakültələr birləşdirilərək K.Marks adına Xalq Təsərrüfatı İnstitutu yaradılır. 1959-cu ilə qədər bu institut fəaliyyət göstərir. Bu böyük iqtisadi tədris ocağının iqtisad elminin ayrı-ayrı sahələri üzrə dərs vəsaitlərinin, o cümlədən ilk dəfə Azərbaycan

downloaded from KitabYurdu.az

dilində "Siyasi iqtisad" dərsliyi və ixtisaslı kadrların hazırlanmasında müstəsna rolu olmuşdur.

20-ci illərdə Azərbaycanda marksist iqtisadi təliminin yayılması üçün elmi-tədqiqat işləri aparan "Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyət" (1923-cü ildə) fəaliyyətə başlayır. Bu cəmiyyətin nəzdində iqtisadiyyat bölməsi fəaliyyət göstərmişdir. Həmin cəmiyyətin əsasında isə 1929-cu ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu təşkil olunmuşdur. 1932-ci ildə isə keçmiş SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan şöbəsinə çevrilmişdir. Bu şöbənin əsasında 1935-ci ildə SSRİ EA-nın Azərbaycan Filialı, onun nəzdində isə iqtisadiyyat və coğrafiya sektoru təşkil olunmuşdur. Bu sektor Azərbaycanın xalq təsərrüfatının inkişafı ilə bağlı olan iqtisadi və coğrafi problemlərinin öyrənilməsində xüsusi rolu olmuşdur. Sonrakı dövrdə (1945-ci ildə) Azərbaycanın SSR EA-nın yaranması və onun nəzdində iqtisadiyyat və coğrafiya bölməsinin fəaliyyətə başlaması ilə Azərbaycanda iqtisadi fikrin inkişafı daha böyük miqyas almışdır. Belə ki, Azərbaycanın mühüm təsərrüfat sahələrinin, xüsusən də neft sənayesinin problemlərinə dair tədqiqat işləri hazırlanıb, çap olunur.

Demək olar ki, Azərbaycanda iqtisadi fikir tarixinin bu mərhələsində iqtisadi təmayüllü çap orqanlarının geniş şəbəkəsi yaradılır və 20-30-cu illərdə Azərbaycanın iqtisadi fikrində marksist iqtisadi təliminin inkişafında müstəsna rol oynamışdır. Bu illərdə Azərbaycan iqtisadi fikir tarixində marksist iqtisadi təliminin inkişafında, xüsusən də aşağıdakı çap orqanları (jurnallar) mühüm əhəmiyyət kəsb edir. Məsələn, "Narodnoe xozyaystvo" (1920-1921), "Azerbaydjanskoe neftyanoe xozyaystvo" (1921-1930), "İzvestiya Azerbaydjanskoqo statistiçeskoqo upravleniya" (1921-1924), "Azerbaydjanskaya kooperasiya" (1921-1923), "Kooperativ işi" (1923-1925), "Əkinçi" (1921-1924), "Yeni kənd" (1925-1929), "Ekonomiçeskiy vestnik" (1921-1926), "Ekonomiçeskiy vestnik Azerbaydjana" (1926-1930), "Azərbaycan Ali İqtisadi Şurasının əxbarı" (1921-1926), "İqtisadi xəbərlər" (1926-1931) və s.

XX əsrin 20-30-cu illərində ilk dəfə olaraq Azərbaycanda milli iqtisadçı kadrların əsərləri çap olunmağa başlanır. həmin illər Azərbaycanda iqtisadi fikrin inkişafında böyük rol oynayan və indi də

downloaded from KitabYurdu.az

əhəmiyyətini itirməyən bu cür əsərlərdən biri M.H.Vəliyevin (Baharlı) "Azərbaycan təbii-coğrafi, etnoqrafik və iqtisadi mülahizat" (1921-ci il) kitabıdır. Bu kitabda Azərbaycan iqtisadiyyatının nəinki tarixi keçmişi haqqında, həm də perspektivləri haqqında maraqlı iqtisadi fikirlər öz əksini tapmışdır. Həmin kitabın Azərbaycanda marksist iqtisadi təliminin inkişafında böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq o 1993-cü ildə təkrar nəşr olunmuşdur.

20-30-cu illərdə nəşr olunan digər bir qiymətli kitab Y.V.Çəmənzəminlinin "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" (1921-ci ildə İstanbulda nəşr olunub) kitabıdır. Onu da deməliyik ki, Azərbaycanın bütövlükdə coğrafiyası, onun əyalətləri, təbii və iqtisadi resursları, neft, mis, ipək, yun və xalı, balıq və kürü istehsalı haqqında kitabda verilən məlumatlar, aparılan tədqiqatlar və təhlillərin indiki dövr üçün də mühüm əhəmiyyəti vardır. Həmin kitab 1993-cü ildə nəşr olunmuşdur. Bu illərdə Azərbaycanda iqtisadi fikrin yayılması və iqtisadi ədəbiyyatda şərhində əvəzsiz xidməti olanlar sırasına H.Dadaşov, Q.Sultanov, Ə.Fərəcov, B.Həsənbəyov, M.Ağayev, Ə.Qasımov, M.Mustafayev və b. daxildirlər.

Deməli, XX əsrin əvvəllərində və sonrakı dövrdə Azərbaycanda marksist iqtisadi təliminin yayılması və iqtisadi ədəbiyyatda əks olunmasında, milli kadrların hazırlanması, ümumiyyətlə, nəzəri və konkret iqtisad elmlərinin inkişafı respublikada iqtisadi tədris ocaqlarının və xalqın iqtisadi təfəkkürünün formalaşmasında bir çox rus alimlərinin - A.İ.Şikov, V.A.Udintssev, D.M.Qolovkin, T.L.Berin, K.İ.Sofronoviç, P.K.Juze, A.A.Trivus və b-nın böyük əməyi olmuşdur.

Həsən Dadaşovun "SSRİ təsərrüfatında izafi əmək məsələsinə dair" (1927-ci il), B.Həsənbəyovun "Marksın dəyər nəzəriyyəsi" (1930-cu il), Ə.Fərəcovun "Ümumi dəftərdarlıq" (1928-ci il), "Mühasibat uçotu teoriyası (1940-cı il), T.L.Berinin "Vilyam Petti" (1929-cu il), Q.Sultanovun "Azərbaycan sənayesinin bəzi sahələrinin inkişafının qısa oçerki" (1923-cü il), "Siyasi iqtisadın predmeti" (1929-cu il), "Yağ-piy sənayesi və onun perspektivləri" (1928-ci il), "N.İ.Sofranoviçin "Tuqan Baranovskinin bazar nəzəriyyəsi və onun tənqidi" (1930-cu il), M.Mustafayevin "Siyasi iqtisadın vəzifələri" (1932-ci il) əsərləri və i. a. həmin dövrün marksist iqtisadi təliminin yaranması və inkişafında mühüm rolu olmuşdur.

downloaded from KitabYurdu.az

Bütün bunlar XX əsrin əvvəllərində və sonrakı illərdə Azərbaycanda marksist iqtisadi təliminin yayılmasında və inkişafında, eləcə də ölkəmizdə iqtisadi tədris ocaqlarının yaranması və iqtisadi tədris mərkəzlərinin fəaliyyətə başlaması nəticəsində milli iqtisadçı kadrların formalaşmasına səbəb olmuşdur. Bu da həmin dövrdə və sonrakı illərdə Azərbaycanın xalq təsərrüfatının ayrı-ayrı sahələrinin və bütövlükdə iqtisadiyyatının inkişafı üçün şərait yaratmışdır.

## §3. XX ƏSRİN 50-60 VƏ 70-80-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN İQTİSADÇILARI TƏRƏFİNDƏN İQTİSADİ QANUNLARIN FƏALİYYƏTİ VƏ İSTİFADƏ MEXANİZMİNİN TƏDQİQİ

XX əsrin 50-60-cı illərində Azərbaycanda iqtisadi tədqiqatların miqyası genişlənmişdir. Bu illərdə daha dərin elmi iqtisadi tədqiqatların aparılması üçün geniş imkanlar yaranır. Həmin illərdə Azərbaycanda iqtisadçı kadr potensialı güclənir, iqtisadi elmi-tədqiqat mərkəzlərinin şəbəkəsi daha da genişlənmişdir.

Müharibədən sonrakı dövr - iqtisadi münasibətlərin təkmilləşdirilməsi problemi həmişə olduğu kimi iqtisad elminin tədqiqat obyekti olmuşdur. Burada məqsəd Azərbaycan iqtisadçıları tərəfindən məhsuldar qüvvələrin inkişafına daha aktiv təsir göstərə biləcək formanı tapmaq və bununla da mövcud iqtisadi münasibətləri əks etdirən obyektiv iqtisadi qanunlarının fəaliyyəti və istifadə mexanizmini tədqiq etməkdən ibarət idi.

Bu məqsədlə də 1958-ci ildə iqtisadiyyat sektoru Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutuna çevrilmişdir. 1962-ci ildə Azərbaycanda Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu yaradılır. Burada da kənd təsərrüfatı sahəsində bir çox problemlər tədqiq olunur. 1965-ci ilin əvvəllərində isə Azərbaycan Dövlət Plan Komitəsi nəzdində İqtisadiyyat institutu təşkil olunmuşdur.

1966-cı ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutu açılır və getdikcə ölkədə iqtisadçı kadrların hazırlanmasının mühüm mərkəzinə çevridir.

downloaded from KitabYurdu.az

Deməli, XX əsrin 50-60-cı illərində Azərbaycanda iqtisadi fikrin inkişafında mühüm səciyyəvi cəhət iqtisad elminin differensiyasiyasıdır. Bu bütün dünyada olduğu kimi Azərbaycanda da nəzəri iqtisadın (siyasi iqtisadın), sahə və sahələrarası iqtisad elmləri də yaranmış və inkişaf etmişdir. Həmin dövrdə Azərbaycanda da iqtisadi fikrin nümayəndələri olan iqtisadçı kadrlar arasında ixtisaslaşma getmişdir. Azərbaycan iqtisadiyyatının profilinə uyğun olaraq: aqrar iqtisad elmi, neft iqtisadiyyatı, məhsuldar qüvvələrin yerləşdirilməsi və nəqliyyat iqtisadi əlaqələri, təkrar istehsal, o cümlədən işçi qüvvəsinin təkrar istehsalı məsələlərinə dair tədqiqatlar (dissertasiyalar), məqalə və kitablar dərc olunmuşdur. Habelə siyasi iqtisad, iqtisadi təlimlər  və xalq təsərrüfatı tarixi üzrə xüsusi tədqiqatlar aparılır və iqtisadçı şərqşünaslar formalaşmışdır.

Azərbaycanda iqtisadi fikrin inkişafında görkəmli alim Ə.Sumbatzadənin böyük xidməti olmuşdur. O, Azərbaycan xalqının köçəri olması həm də Bakı (müstəsna) olmaqla ümumilikdə Azərbaycanın kapitalizm formasiyasını keçməməsi fikrini qeyri-elmi olmasının tarixi faktlarla əsaslandırılması bu problemlərə görkəmli alimin özünün "XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı" adlı əsərində cavab vermişdir. Azərbaycan qəzalarının timsalında kənd təsərrüfatının demək olar ki, bütün sahələrini tədqiq edərək qətiyyətlə sübut edir ki, Azərbaycanda tarix boyu üzümçülük, əkinçilik, ipəkçilik, pambıqçılıq, tütünçülük və digər aparıcı sahələrdə əmtəə istehsalı və muzdlu əmək üstünlük təşkil edir. Bu da kapitalizmin kənd təsərrüfatında əsas başlıca göstəricisi demək idi. Görkəmli alim həmin əsərdə Azərbaycan xalqını köçəri adlandıranlara da tutarlı cavab verir. O, maldarlıq təsərrüfatının xarakterini təhlil edərək Azərbaycan maldarlarının yaz və yayda yaylağa, qışda isə qışlağa köçmələrini əsas götürüb onları köçəri adlandıran XIX əsr müəlliflərindən fərqli olaraq, bunu köçəriliyin əlaməti deyil, düzgün olaraq Azərbaycanın təbii-coğrafi şəraiti ilə izah etmiş, bununla da azərbaycanlıların köçəri xalq olmaması nəticəsinə gəlmişdir. Ə.Sumbatzadə XIX əsrdə Azərbaycanın ictimai-iqtisadi fikir tarixinin bütün mənzərəsinin elmi təhlilini vermiş və bu vacib, ümdə problemin həlli, yəni həmin dövrdə Azərbaycanda sənaye həyatının öyrənilib tədqiq edilməsində mühüm rolu olmuşdur.  Burada

downloaded from KitabYurdu.az

1964-cü ildə "Elm" nəşriyyatı tərəfindən dərc olunan "XIX əsrdə Azərbaycan Sənayesi" adlı əsəri xüsusi əhəmiyyəti kəsb edir.

Deməli, 50-60-cı illərdə Azərbaycanda göstərilən sahələr üzrə elmi iqtisadi məktəblər yaranıb fəaliyyət göstərməyə başlayır. Həmin dövrdə Azərbaycan iqtisadçılarının böyük bir qrupu siyasi iqtisadın aktual problemləri ilə məşğul olmuşlar. Bura: H.Dadaşov, B.Axundov, Ə.Qasımov, M.H.Sultanov, Y.Məmmədov, H.Şirinov, F.Əmikişiyev, Ə.Heydərzadə, Q.Heydərov, Ə.Axundov, Q.Sadıqov, T.Vəliyev, S.İbadov, R.Qarayev və b.-nı aid etmək olar.

XX əsrin 50-60-cı illərində Azərbaycanın görkəmli iqtisadçıları tərəfindən iqtisadi qanunların fəaliyyəti və istifadə mexanizminin tədqiqinə aid fikirlər söyləyərək B.Axundov tərəfindən tələbatın artması qanununun ilk tədqiqatçısı olduğunu qeyd etməliyik.

B.Axundovun qeyd etdiyi kimi "Tələbatın artması qanununun fəaliyyətinin ən mühüm ictimai istehsalın artması ilə cəmiyyətin, onun üzvlərinin tələbatı arasında hər bir konkret dövrə xas olan müəyyən nisbətdən ibarətdir".[89] Göründüyü kimi tələbatın artması qanununun fəaliyyət gücü kütlənin tələbatının onun istehsalına nisbəti ilə, yəni əhalinin rifahının əldə edilmiş səviyyəsi ilə ölçülür. Bu nisbət məlum olduğu kimi daim dəyişir. Lakin heç bir zaman tam tarazlaşmır. Çünki, bir qayda olaraq, "tələbat istehsalın və istehlakın həcmindən" həmişə irəlidə gedir. Onu da qeyd edək ki, kütlələrin tələbatının ağlauyğun şəkildə formalaşmasını öyrənmək və tələbatı düzgün və mütənasib olaraq nəzərə almaq iqtisadi nəzəriyyənin çox mühüm vəzifəsidir. Bunun üçün də ilk növbədə Ümumi Daxili Məhsulda (ÜDM) istehlak və yığım arasında optimal nisbətin müəyyən olunması vacibdir.

B.Axundovun fikrincə - tələbatın artması qanununun başlıca fəaliyyət mexanizmi cəmiyyətin əsas iqtisadi ziddiyyətlərindən, yəni bütün cəmiyyətin və onun ayrı-ayrı üzvlərinin hədsiz dərəcədə artan tələbatı ilə

---

[89] Bax. B.Y.Axundov, Marksizm-leninizm siyasi iqtisadının predmeti və metodu, Bakı. 1983, s.74

downloaded from KitabYurdu.az

ictimai istehsalın hər bir müəyyən dövr üçün əldə edilmiş səviyyəsi arasında olan ziddiyyətdən ibarətdir. Onun dediyi kimi "İctimai əmək məhsuldarlığının durmadan artması... cəmiyyətin və onun üzvlərinin fasiləsiz artan tələbatını ödəmək üçün zəruri şərtdir..."[90] Deməli , tələbatın artması və digər iqtisadi qanunların fəaliyyət mexanizmi insanların istehsal fəaliyyətinə istiqamət verir ki, bu da insanlar tərəfindən hər bir dövrdə qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsinə köməklik edir. Məlum olduğu kimi qanunların və o cümlədən tələbatın artması qanununun fəaliyyət mexanizmi müəyyən tarixi dövrün olduğu mərhələlərlə və eləcə də bazar iqtisadiyyatı şəraitində müxtəlif komponentlərinin məcmuudur və onlardan istifadə mexanizminin qarşıya qoyduğu məqsədə çatmaq üçün tətbiq edilən müxtəlif iqtisadi metodların və üsullarının məcmusudur.

50-60-cı illərdə Azərbaycan iqtisadi fikrinin inkişafında B.Axundov, Ə.Fərəcov, M.Mustafayev, Y.Məmmədov, T.Vəliyev, A.Həsənov və b-nın mühüm rolu olmuşdur.

Azərbaycanda iqtisadi fikir tarixinin bu mərhələsində aqrar fikrin inkişafında xidməti olan alimlərdən Ə.Mahmudov, S.Mirzəyev, A.Ələsgərov, H.Qasımov, Ə.Verdiyev, H.Xəlilov, T.Babayev, Ə.Qasımov, R.Məmmədov və b. olmuşdular.

Azərbaycanda bu illərdə sənaye problemlərinin öyrənilməsində A.Ağayev, A.Əlibəyov, Ş.Muradov, Z.Səmədzadə, Ə.Zərgərov, M.Tağıyev, F.Fərəcov, V.Axundov və b.-nın böyük rolu olmuşdur.

Habelə, Azərbaycanda 50-60-cı illərdə Yaxın və Orta Şərq ölkələrinin iqtisadiyyatına aid maraqlı tədqiqatlar aparan alimlərdən H.Hüseynov, İ.Əlibəyov, A.Bitte, D.Vəliyev və b.-nı göstərmək olar.

Bu illər Azərbaycanda iqtisad elminin nisbətən yeni sahəsi sayılan riyazi iqtisadiyyat, modelləşdirmə, proqramlaşdırma və proqnozlaşdırma sahələri ilə məşğul olan iqtisadçılardan B.Musayev, Q.İmanov, Ə.Əlirzayev və b.-nın tədqiqatları diqqəti cəlb edir.

XX əsrin 70-80-cı illərində isə Azərbaycanda iqtisad elmi və fikrinin inkişafında mühüm mərhələ olmuşdur. Ona görə də nəzəri iqtisadi məsələlərin öyrənilməsi həmin dövrün əsas əlaməti hesab olunmalıdır.

---

[90] Bax. B.Y.Axundov, Marksizm-leninzm siyasi iqtisadının predmeti və metodu, Bakı, 1983, səh. 75-76

downloaded from KitabYurdu.az

Nəzəri iqtisadi fikrin inkişafı üçün 70-80-cı illərdə iqtisadi şərait formalaşmış, elm və təhsil müəssisələri möhkəmləndirilmiş, iqtisadi mətbuatın fəaliyyəti təkmilləşdirilmiş, iqtisadi kadrların hazırlanması daha da yaxşılaşdırılmışdır. Həmin illərdə siyasi iqtisadın bir çox problemləri Azərbaycanın görkəmli iqtisadçı alimləri T.Vəliyev, M.Allahverdiyev, Ş.Muradov, Z.Səmədzadə, Ə.Mahmudov, A.Nadirov, A.Ələsgərov, H.Şirinov, Ə.Axundov, S.Hüseynov, S.Səfərov, M.Meybullayev, M.Əhmədov və b. tərəfindən tədqiq olunmuşdur. Bu illərdə bu görkəmli iqtisadçı alimlərin yaratdıqları elmi məktəblər bir çox gənc kadrları öz ətrafına toplayaraq nəzəri iqtisadi fikrin formalaşması və inkişafına əsaslı təsir göstərmişlər.

Tarixi inkişafın bütün mərhələlərində olduğu kimi, bu mərhələdə də iqtisadi fikir, iqtisadi düşüncə tərəqqiyə bu və ya digər dərəcədə təsir etmişdir. Lakin bu bir həqiqətdir ki, iqtisad elmi bir sahə kimi XIX əsrdə daha qabarıq surətdə fəaliyyət göstərmişdir. XX əsrdə isə bu elmin rolu daha da artmış, dünya iqtisadiyyatının inkişafına güclü təkan vermişdir.

1776-cı ildə A.Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında" klassik əsərinin nəşri cəmiyyətin inkişaf konsepsiyasının formalaşmasında ciddi amil rolunu oynamışdır. Deməli, 200 ildən artıqdır ki, A.Smitin iqtisadi təlimi dünyanın bir çox ölkələrində iqtisadi siyasətin əsasını təşkil etmişdir.

XX əsrdə Azərbaycanın iqtisadiyyatı 70 il SSRİ-nin tərkibində olmasına baxmayaraq, o, əsrlərə bərabər inkişaf yolu keçmişdir ki, bu da 70-80-cı illərdə Azərbaycanda istehsalın elmi-texniki potensialının səviyyəsinə görə qonşu dövlətlərdən xeyli irəlidə olmuşdur. Bu fikri həmin illərdə Azərbaycanın çoxsahəli sənayeyə, güclü aqrar sektora malik olması da bir daha təsdiq edir.

Cəsarətlə deməliyik ki, mərkəzin təzyiqinə, hakim ideologiya ilə bağlı meydana çıxan çətinliklərə baxmayaraq bu illərdə Azərbaycanın iqtisadçı alimləri ölkə iqtisadiyyatının ən aktual problemlərinin tədqiqində aparıcı rol oynamışlar. Bu dövrdə Azərbaycan SSR EA-nın "İqtisadiyyat" İnstitutunda istehsalın intensivləşdirilməsi, əmək məhsuldarlığı, demoqrafiya, məşğulluq, məhsuldar qüvvələrin yerləşdirilməsi problemləri kompleks şəkildə tədqiq olunmuşdur. 80-cı illərin sonlarında

downloaded from KitabYurdu.az

Azərbaycanda müstəqillik ideyaları uğrunda mübarizənin genişləndiyi bir şəraitdə iqtisadçı alimlərimiz respublikanın təbii sərvətləri, istehsal potensialından istifadə ilə bağlı daha prinsipial mövqe tutmuşlar.

Bu illərdə Azərbaycanın hər cür sərvət və zənginliklərindən ölkə mənafeyi üçün istifadə edilməsi öz növbəsində müvafiq istehsal sahələrinin geniş miqyasda inkişafına səbəb oldu. 70-80-cı illərdə iqtisadi inkişaf sürəti sənayedə struktur dəyişiklikləri, iqtisadiyyatda əsaslı vəsait qoyuluşunun həcmi və istiqamətləri baxımından XX əsrin ən məhsuldar dövrü olmuşdur. Bu illərdə Azərbaycan nəinki özünü təmin etmiş, hətta hər il külli miqdarda vəsaiti keçmiş ittifaq fonduna ayırmışdı.

Təsadüfi deyildir ki, keçmiş müttəfiq respublikalar içərisində demək olar ki, ilk dəfə Azərbaycanda iqtisadi müstəqillik konsepsiyasının hazırlanması zərurəti meydana çıxmışdır. XX əsrin sonlarında yenidən öz mili müstəqilliyini qazanandan sonra Azərbaycanın ictimai-siyasi həyatında baş verən yeniləşmə ilə onun sosial-iqtisadi inkişaf sisteminin də xarakterində gedən əsaslı dönüşün keçid mərhələsi ilə eyni vaxtda üst-üstə düşməsi nəticəsində böhranın miqyasının daha da genişlənməsi, xüsusən də iqtisadi tənəzzül prosesinin xeyli kəsik və təzadlı cəryan etməsini doğurdu. Bu şəraitdə Azərbaycan iqtisadiyyatının hansı əsasla və necə inkişaf etməsi məsələləri qeyri-müəyyən baxışların və mövqelərin təsiri ilə hərc-mərclik şəraitində get-gedə geriləmə vəziyyətinə düşməklə, özünün müəyyən sahələrində mövcud istehsal potensialını hətta imkan daxilində tam qoruyub saxlamaq da mümkün olmadı. Həmin illərdə Azərbaycanda başlıca diqqət ölkə üçün yeni, həm də çox maraqlı görünən bazar münasibətlərinə tezliklə keçilməsinə artan güclü meyl həmin vaxtlar ondan heç də az əhəmiyyətli olmayan iqtisadi inkişafın öz həllini gözləyən başqa təxirəsalınmaz tərəflərinə diqqəti üstələdi. Bu şəraitdə demək olar ki, bütün səviyyələrdə ölkə iqtisadiyyatının aqrar böhrandan çıxması, ən vacibi isə Azərbaycanın yeni mühitlə gələcək tərəqqisinin səmərəli istiqamətlərinin müəyyən edilməsi barədə məqsədli elə bir ardıcıl fəaliyyət göstərilmədi. Təbii ki, yeni sistemə keçid məqsədləri ilə bu zəmin üzərində Azərbaycanın iqtisadiyyatının konkret olaraq hansı istiqamətlərdə inkişaf vəzifələri bir-birilə qarşılıqlı sıx əlaqəlidir. Bununla belə bu üzvi bağlılıq heç də onların hərəsinin özlərinə məxsus həll etməli olduqları müxtəlif

downloaded from KitabYurdu.az

səpkili problemlərin də mövcud olmasını istisna etmir. Əslində bu xüsusiyyətləri nəzərə almaqla Azərbaycan iqtisadiyyatı bazar münasibətləri sistemində malik olduğu imkanlardan daha dolğun və faydalı istifadə əsasında yüksək inkişaf səviyyəsinə qalxa bilər. Bunu xüsusi olaraq qeyd etməliyik ki, 80-cı illərin sonlarında Azərbaycanda müstəqillik ideyaları uğrunda mübarizənin genişləndiyi bir şəraitdə iqtisadçı alimlərimiz respublikanın təbii sərvətləri, istehsal potensialından istifadə ilə bağlı daha prinsipial mövqe tutmuş və Azərbaycanın bir müstəqil dövlət kimi yaşamağa qadir olduğunu konkret faktlarla sübut etmişlər.

Deməli, XX əsrin son illərində əsas məsələ azad iqtisadiyyatın Azərbaycanda xüsusiyyətləri, dünyanın inkişaf meylləri nəzərə alınmaqla qurulmasıdır. Bunun üçün də Azərbaycanda iqtisadi fikrin mövcud elmi potensialı bir növ inventarizasiya edilməli, dünya iqtisadiyyatında qəbul edilmiş normalar, baxışlar artıq özünü doğrultmuş iqtisadi prinsiplər, modellər nəzərə alınmaqla prioritet istiqamətlər müəyyən edilməlidir. Bununla da yaxın və uzaq gələcək dövrlərdə Azərbaycanın iqtisadi inkişaf strategiyası hazırlanmalıdır. Bütün bunlar iqtisadi fikir və ideyaların daha da inkişaf etdirilməsi, ona diqqətin artırılması nəticəsində təmin edilməlidir.

## §4. MÜASİR DÖVRDƏ (90-2000-ci illərdə) AZƏRBAYCANIN İQTİSADİ FİKRİNDƏKİ DƏYİŞİKLİK, ONUN İQTİSADİ ƏDƏBİYYATDA VƏ DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNDƏ ƏKSİ

Artıq XX əsr XXI əsrə qovuşmuşdur. Bu tarixi dövrdə həyatımızın bütün sahələrində, o cümlədən Azərbaycanın milli iqtisadiyyatında da böyük dəyişikliklər baş vermişdir. Belə ki, Azərbaycanda sovet dövründə iqtisad elmləri sistemi yaradılmış, yüksək ixtisaslı iqtisadçı kadrlar hazırlanmış, xalqın iqtisadi təfəkkürü inkişaf etmişdir. Bu dövrdə iqtisadi fikir üçün mühüm səciyyəvi cəhət iqtisad elminin differensiyasıdır. Deməli, bu tarixi dövrdə nəzəri iqtisad (siyasi iqtisad), sahə və sahələrarası iqtisad elmləri yaranıb inkişaf etmişdir.

downloaded from KitabYurdu.az

Lakin eyni zamanda bu dövrdə iqtisad elmləri sistemində müəyyən nöqsanlar da mövcud olmuşdur və onlar tədricən artmışdır. XX əsrin son onilliyində iqtisad elmləri sistemində ciddi yeniləşmə baş vermişdir. Bu yeniləşmənin mahiyyətini izah etmək üçün sovet dövründə iqtisadi fikirdə mövcud olan çatışmazlıqları göstərməklə, onların aradan qaldırılması iqtisadi tədbirlər görmək üçün vacibdir.

Müasir dövrdə Azərbaycanın iqtisadi fikrində (iqtisad elmləri sistemində) mövcud olan başlıca nöqsanlar aşağıdakılardan ibarətdir:

birincisi, iqtisad elminin siyasət və ideologiya ilə əvəz olunması kimi ziyanlı bir vəziyyət əmələ gəlmişdir;

ikincisi, əslində bununla da iqtisadi nəzəriyyə elmi həyatın reallıqlarından uzaq düşmüşdür;

üçüncüsü, iqtisad elmində ayrı-ayrı fikir və mülahizələrin generatoru kimi iqtisadçı alimlər deyil, partiyanın qurultay, plenumlarının qərar və qətnamələri çıxış edirdi;

dördüncüsü, real iqtisadi hadisələrə münasibətdə formasiyalıq və siniflik prinsipləri mütləqləşdirilmişdir;

beşincisi, məlum səbəblər üzündən Azərbaycanda iqtisad elmi əyalət məhdudiyyətindən azad ola bilməmişdir. Deməli, əslində iqtisad elmi ölkəmizin bugünkü suverenliyi istiqamətində inkişaf etdirilməlidir;

altıncısı, ideoloji məhdudiyyt və qadağalar ucbatından Azərbəycan xalqının iqtisadi fikir tarixində çoxlu ağ səhifələr mövcud olmuşdur;

yeddincisi, dünya iqtisadi fikri ilə əlaqə olduqca məhdud və qapalı olmuşdur.

Ümumiyyətlə, tarixi inkişafın bütün mərhələlərində iqtisadi fikir, iqtisadi düşüncə tərəqqiyə bu və ya digər dərəcədə təsir göstərmişdir. Lakin bu da bir həqiqətdir ki, iqtisad elmi bir sahə kimi XIX əsrdə daha qabarıq surətdə fəaliyyət göstərmişdir. XX əsrdə bu elmin rolu daha da artmış, dünya iqtisadiyyatının inkişafına güclü təkan vermişdir.

Bazar münasibətlərinə keçmək məqsədilə müstəqil Azərbaycan Respublikası öz iqtisadi inkişaf modelini azad iqtisadiyyat prinsipləri əsasında qurur. Əlbəttə, bu heç də o demək deyildir ki, illər boyu Azərbaycanda formalaşmış iqtisad elmi hər şeydən imtina etməli, bir növ fəaliyyətə yenidən başlamalıdır.

downloaded from KitabYurdu.az

Birincisi, ona görə ki, XX əsrdə Azərbaycan iqtisadiyyatı 70 il keçmiş SSRİ-nin tərkibində olmasına baxmayaraq, əsrlərə bərabər olan inkişaf yolu keçmişdir. İkincisi, Azərbaycan 80-cı illərin əvvəllərində artıq özünün istehsal, elm və texniki potensialının səviyyəsinə görə qonşu dövlətlərdən xeyli öndə olmuşdur.

İqtisadi ədəbiyyatdan göründüyü kimi 90-cı illərdə Azərbaycan iqtisadiyyatında sözün əsl mənasında müsbət meyllər güclənmişdir. Bunu xüsusilə vurğulamaq lazımdır ki, son illərdə dövlət quruculuğu, yeni iqtisadi sistemin formalaşması istiqamətində çox güclü tədbirlər həyata keçirmiş, istehsalın aşağı düşməsi meyli dayandırılmış, keyfiyyətcə yeni iqtisadi artıma keçmək üçün şərait yaranmışdır.

Bu inkişafın ən böyük mahiyyəti odur ki, Azərbaycan bir müstəqil dövlət kimi yaşayır, fəaliyyət göstərir. Onun müstəqilliyinin dönməz, əbədi xarakter alması ölkəmizin milli iqtisadiyyatının inkişaf strategiyası ilə bağlı qlobal işlərin görülməsi üçün əsas yaradır.

İndi Azərbaycan Respublikası azad, sivil cəmiyyətin əsaslarının qoyulması, inkişaf etdirilməsi ilə bağlı konkret addımlar atır. Etiraf etməliyik ki, bu sahədə təcrübə o qədər böyük deyildir. Lakin XXI əsrin astanasında məlum çətinliklərə baxmayaraq, ölkəmizdə iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı çox mühüm işlər görülür. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olunması istiqamətində konkret tədbirlər həyata keçirilir. Bütün bunlar nəzəri iqtisad elmi qarşısında yeni tələblər qoyur.

Yeri gəlmişkən bu gün əsas məsələ milli və azad iqtisadiyyatın Azərbaycanın xüsusiyyətləri, dünyanın inkişaf meylləri nəzərə alınmaqla qurulmasındadır. Buna görə də aydın, əsaslı proqnozlar gərəkdir. Bu isə dövlətin müvafiq strukturlarının ən vacib funksiyalarından biridir. Azərbaycanın milli iqtisadiyyatının dirçəldilməsində hamı maraqlı olmalıdır. Elə mənafelər var ki, onların gözlənməsi hər kəs üçün müqəddəs olmalıdır. Əgər milli və azad iqtisadiyyatın dirçəldilməsi yolları, strategiyası haqqında fikir aydınlığı varsa, bunlar araşdırılmalı, müzakirələr, diskussiyalar aparılmalı və fikir birliyinə nail olunmalıdır.

İndi müstəqil dövlətə çevrilmiş Azərbaycan Respublikasının qarşısında duran ən başlıca vəzifə siyasi müstəqilliyimizi, ərazi bütövlüyümüzü təmin etməklə yanaşı, milli və azad iqtisadiyyatın

downloaded from KitabYurdu.az

formalaşması haqqında problemi milli mənafelər baxımından səmərəli və həm də optimal müddətə həll etməkdir. Bu baxımdan da yaxın gələcəkdə Azərbaycanın sosial-iqtisadi inkişaf konsepsiyası qarşısında ikili bir problem durur. Bu, bir tərəfdən azad bazar iqtisadiyyatına keçidlə bağlı olaraq milli iqtisadiyyatımızı əsaslı surətdə qurmaq, digər tərəfdən isə keçmiş ittifaq əmək bölgüsü şəraitində həyata keçirilmiş vahid təkrar istehsal prosesinin tərkib hissəsi olmuş Azərbaycanın suveren dövlətə çevrilməsi ilə əlaqədar təkrar istehsalın azad xarakter daşıdığı indiki şəraitdə siyasi-iqtisadi müstəqilliyimizi reallaşdırmağa imkan verən milli iqtisadiyyatımızı formalaşdırmaq və inkişaf etdirməkdir.

Onu da qeyd etməliyik ki, milli və azad iqtisadiyyatın nəzəri cəhətdən öyrənilməsinə aid alimlərimizdən Z.Səmədzadənin, T.Vəliyevin, M.Meybullayevin, M.Əhmədovun, İ.Kərimovun, F.Hüseynovun və b.-nın tədqiqatlarına fikir verilməlidir.

Milli və azad iqtisadiyyatın potensialı nəinki mövcud təkrar istehsal şərtləri, resurslar balansı, onların istifadə dərəcəsi ilə habelə elmi-texniki tərəqqinin səviyyəsindən asılı olmayaraq hərəkətə gətirilə bilən imkanlarla müəyyən olunur. Öz növbəsində makroiqtisadi səviyyədə milli iqtisadiyyatın quruluşu əslində ölkədə mövcud istehsal resurslarının istifadəsi arasında yaranmış faktiki nisbəti əks etdirir. Bu da son nəticədə ictimai əmək bölgüsü ilə müəyyən olunan resursların bölgüsü, milli və azad iqtisadiyyatın formalaşmasında mühüm rol oynayır.

XXI əsrin əvvəllərində Azərbaycanın milli iqtisadiyyatını sistem halında təhlil edərkən aşağıdakı cəhətlərə diqqət vermək zəruridir. Dünyada elə bir ölkə yoxdur ki, o özünün idxal və ixrac siyasətində tənzimləmə üsulundan istifadə etməsin.

İqtisadi ədəbiyyatda milli və azad iqtisadiyyatın formalaşmasını nəzəri cəhətdən təhlil edən iqtisadçılar milli baza (əsas) kateqoriyasına xüsusi əhəmiyyət verirlər. Həmin fikirin tərəfdarları belə hesab edirlər ki, hər hansı bir ölkənin iqtisadiyyatının rəqabət qabiliyyəti yuxarıda qeyd olunan amillərlə yanaşı milli şəraitə, başqa sözlə, milli təsərrüfatın quruluşu, milli mədəniyyət, dövlət idarə işçilərinin mentaliteti, hətta ölkənin tarixi və s. mühüm təsir göstərir. Deməli, milli baza (əsas) dedikdə hər şeydən əvvəl iqtisadiyyatın inkişafına şərait yaradan, onu

downloaded from KitabYurdu.az

stimullaşdıran sosial-iqtisadi, ictimai-tarixi mühit, nəhayət, milli mentalitetə əsaslanan inkişaf konsepsiyasının olması nəzərdə tutulur. Məhz elə buna görə də Çin, Yaponiya, Cənubi Koreya kimi ölkələrdə inkişafın hərəkətverici qüvvələri, mənbələri məlum klassik bazar prinsipləri ilə izah oluna bilmir. Burada ən mühüm problem milli və azad iqtisadiyyatın, iqtisadi inkişafın milli-beynəlmiləl daxili və xarici, liberal prinsiplərinin əlaqəsi, optimal nisbətdə reallaşdırılmasıdır.

Bu gün iqtisad elmi Azərbaycanın sosial-iqtisadi inkişafında əvvəllərdə olduğu kimi öz xidmətini göstərməlidir. 90-cı illərdə ölkə iqtisadiyyatının strukturunda dəyişikliklər, istehsalın səmərəliliyi, əmək ehtiyatları, demoqrafiya, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi problemləri iqtisadçı alimlərimiz tərəfindən çox ciddi şəkildə əsaslandırılmış və bu tədqiqatların nəticəsi müvafiq dövlət strukturl tərəfindən istifadə olunur. Deməli, Azərbaycanda milli və azad iqtisadiyyatın dirçəldilməsi kimi ali bir məqsəd naminə meydana çıxan bütün problemlər dövlətin iqtisadi siyasətində öz həllini tapmışdır.

Bütün bu illərin əməli nəticəsi olaraq 1995-1997-ci illərdə iqtisadiyyatın aşağı düşməsi dayanmış, ayrı-ayrı islahatların, sahələrin hesabına az da olsa daxili milli məhsulun artımı müşahidə olunmuşdur. İnflyasiya minimuma enməklə, əmtəə və xidmətlərin dövriyyəsinin xeyli artması və investisiya qoyuluşunun kəskin çoxalması belə qənaətə gəlməyə əsas verir ki, artıq Azərbaycan tədriclə durğunluq mərhələsindən çıxaraq canlanma fazasına daxil olmaq ərəfəsindədir.

Onu da deməliyik ki, bazar münasibətləri Azərbaycanın iqtisadiyyatının inzibati-amirlik (totalitar) sistemindən bazar sisteminə keçməsinin səmərəli yollarının axtarılması və tətbiqi ilə formalaşır. Bu yollar mövcud sosial-iqtisadi şəraitin təhlili, formalaşmış dinamika və meyllərin qiymətləndirilməsi və inkişaf istiqamətlərinin əsaslandırılmasını özündə birləşdirir.

XX əsrin son onillikləri keçmiş sosialist ölkələrinin və SSRİ-yə daxil olan müttəfiq respublikaların, o cümlədən Azərbaycanın tarixinə geniş miqyaslı iqtisadi-siyasi islahatlar dövrü kimi daxil olacaqdır.

Bu dövlətlərin və eləcə də inkişaf etmiş klassik bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, bazar münasibətlərinin prinsipləri və

downloaded from KitabYurdu.az

iqtisadi sistemin keyfiyyətcə yeni bazisi əsasında, tam surətdə müvəffəqiyyətli transformasiyası belə, avtomatik olaraq ölkənin iqtisadi yüksəlişini, əhalinin rifahının yaxşılaşdırılmasını təmin etməyə zəmanət vermir. Başlıca məsələ, özülü mövcud reallıqlar üzərində qoyulmuş bu yeni iqtisadi sistemə söykənərək, ölkəmizin malik olduğu istehsal-resurs potensialını daha səmərəli şəkildə istifadə etməklə bazar iqtisadiyyatına keçməkdən ibarətdir.

Azərbaycanda bazar iqtisadiyyatına keçid dövründə iqtisadi islahatların ilk addımları bunu əyani surətdə sübut edir. Belə ki, iqtisadi islahatların aparılmasının vacib istiqamətləri üzrə təqribən eyni vəziyyətdə olan, lakin minimal - xammal ehtiyatları cəhətdən kasıb Baltikyanı ölkələrin (Estoniya, Litva və Latviya) və əksinə bu cəhətdən problemi olmayan Rusiya və Qazaxıstanın təcrübələri bir daha təsdiq etdi ki, Azərbaycanın iqtisadi yüksəlişi, sərvətinin daha da artırılması onun təbii ehtiyatları ilə deyil, bu ehtiyatlardan necə istifadə olunmasını müəyyən edən üsullarla bağlıdır.

Əgər ayrı-ayrı istiqamətlərdə aparılan radikal iqtisadi islahatların bütövlükdə XX əsrin sonunadək başa çatmasını nəzərə alsaq, onda XXI əsr Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasında ağırlıq mərkəzi tamamilə ölkənin malik olduğu resurs, elmi-texniki potensialdan bu əsasda Azərbaycanın dünya təsərrüfat sisteminə qoşulması problemləri üzərinə keçəcəkdir.

Bazar iqtisadiyyatına keçid dövründə iqtisadi islahatların perspektiv istiqamətləri mövcud qanunauyğunluqların, meyllərin və struktur dəyişikliklərin səmərəliliyini, amillərini nəzərə alaraq formalaşdırılır. Makroiqtisadi səviyyədə özəlləşdirmənin sürətləndirilməsini davam etdirməklə yeni sahibkarlıq formalarını inkişaf etdirmək və onun səmərəliliyi artırmaq üçün baş strateji xətt olmalıdır.

Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycanın müstəqilliyini qorumaq və möhkəmləndirməkdən ötrü onun son məhsul istehsal etmək yolu ilə dünya bazarına çıxmaq imkanını təmin etməkdir. Bu mənada Azərbaycan Respublikasında bütövlükdə iqtisadi siyasət, o cümlədən iqtisadi islahat strategiyası müəyyənləşdirilərkən aşağıdakı istiqamətlər əsas götürülməlidir:

downloaded from KitabYurdu.az

birincisi, uzun illər boyu ümumittifaq əmək bölgüsündə müvafiq olaraq iqtisadiyyatın birtərəfli, qeyri-təkmil və asılı struktura malik olması üzündən istər maşın və avadanlıq, istərsə də xammal istehsalı və satılması üzrə respublikanın kənardan indiki asılılığını minimuma endirmək, istehlak bazarını yerli istehsal hesabına doldurmaq məqsədi ilə iqtisadiyyatın bütün sahələrində dövlət səviyyəsində xüsusi proqram əsasında zəruri struktur dəyişiklikləri həyata keçirilməlidir;

ikincisi, iqtisadiyyatın normal fəaliyyətinin təmin edilməsi üçün məqbul həddə dövlət sifarişləri tətbiq edilməlidir;

üçüncüsü, qiymətlər dövlət tərəfindən tənzimlənməlidir, lakin ümumi islahat gedişində qiymətlərin tam liberallaşdırılması zəruridir;

dördüncüsü, maliyyə-kredit siyasətinə yenidən baxılmalı, beynəlxalq maliyyə və bank təşkilatlarının "tövsiyələrinə" uyğun olaraq aparılmalıdır;

beşincisi, Azərbaycanın xarici siyasət sahəsindəki fəaliyyəti köklü surətdə yenidən qurulmalıdır;

altıncısı, Azərbaycan iqtisadiyyatının transformasiyası, islahatlaşdırılması, o cümlədən bazar münasibətləri mexanizmi sisteminin əsası olan mülkiyyət çoxnövlülüyünə keçidi təmin edilməlidir;

yeddincisi, ölkə iqtisadiyyatında geniş islahatların aparılması ilə əlaqədar yaranmış və yarana biləcək sosial gərginliyə yol verməmək, əhalinin sosial müdafiəsini təmin etmək üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi vacib və zəruridir.

Artıq Azərbaycanda bu istiqamətdə aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində 90-cı illərin əvvəllərində itisadiyyatda xroniki xarakter almış geriləmə prosesinin qarşısı müəyyən mənada alınmış, ölkənin iqtisadi inkişafında yeni mərhələnin təməli qoyulmuşdur. Əldə olunmuş makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artması Azərbaycanın bazar iqtisadiyyatı istiqamətində inamla irəlilədiyini təsdiq edir.

2001-ci ildə Azərbaycanda Ümumi Daxili Məhsul (ÜDM) istehsalının artımı 10 faiz, illik inflyasiya 0,8 faiz, büdcə kəsiri 3 faizdən az olmuşdur. Neftin dünya bazar qiymətlərinin aşağı düşməsinin büdcə gəlirinə ciddi təsir etməsinə baxmayaraq, Azərbaycan dünyanın bir sıra ölkələrinin, o cümlədən Rusiyanın iqtisadiyyatını, maliyyə sistemini bürüyən böhranın

downloaded from KitabYurdu.az

təsirindən özünü qoruya bilmişdir. Ənənəvi olaraq Azərbaycan iqtisadiyyatında neft məhsulları mühüm rol oynayır. Son illərə kimi dövlət büdcəsi gəlirinin 50 faizə qədəri neft məhsullarının satışından qanunla müəyyən edilmiş vergi və rüsumların daxil olması hesabına formalaşırdı. Neftin dünya qiymətlərinin kəskin surətdə aşağı düşməsi Azərbaycanın maliyyə vəziyyətinə xeyli təsir edərək büdcə gəlirinin formalaşmasında gərginliklər yaratdı. Lakin bu mənfi faktlar iqtisadi islahatların gedişinin təkmilləşdirilməsinə, idarəetmədə struktur dəyişikliklərinin aparılmasına, ölkənin malik olduğu ehtiyatların təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsinə təsir etmədi.

İdarəetmə sisteminin təkmilləşdirilməsi, dövlətin tənzimləyici funksiyalarının gücləndirilməsi, daxili bazarın qorunması, sahibkarlıq fəaliyyətinin inkişafına maneələrin aradan qaldırılması, investisiya fəallığının artması, qeyri-ənənəvi iqtisadi artım mexanizmlərinin işə salınması, bir sözlə, iqtisadi islahatların yeni mərhələsinə keçid üçün bir sıra tədbirlər həyata keçirildi.

İndi Azərbaycanda iqtisadi islahatların sürətləndirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

1) Ölkədə dövlət xərclərinin idarə olunması, hüquq və məhkəmə islahatının aparılması üçün yüksək səviyyəli komissiyalar yaradılması;

2) Dövlətin həyata keçirdiyi islahatlarla əlaqədar olaraq hüquq-mühafizə orqanlarında idarəetmə və icarə strukturlarında korrupsiyaya qarşı radikal tədbirlərin görülməsi;

3) İqtisadi sahədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin yalnız cinayət işlərinin istintaqı ilə məhdudlaşdırılması;

4) Ölkənin maliyyə-kredit, büdcə-vergi siyasətinə nəzarətdə radikal dəyişikliklər edilməsi, müəssisə, idarə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinin konkret faktlara əsaslanmasına diqqətin artırılması;

5) Ölkənin maliyyə sistemində görülən işlərin, pul vəsaitinin formalaşması, bölgüsü və istifadəsində normal şərait yaradılması;

6) Vergi qanunvericiliyində, xarici investorların və iş adamlarının fəaliyyətinə mane olan halların aradan qaldırılması üçün radikal addımlar atılması;

downloaded from KitabYurdu.az

7) Bankların restrukturlaşdırılması və özəlləşdirilməsi istiqamətlərində daha radikal tədbirlərin həyata keçirilməsi;

8) Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında 2001-2005-ci illəri əhatə edən İkinci Dövlət Proqramının həyata keçirilməsi təmin edilməlidir.

Bütün bunlar üçün də Azərbaycanda bazar münasibətlərinin formalaşdırılması proqramı iqtisadiyyatın bütün sahələrində aparıcı islahatların bir sistem kimi kompleks halında ardıcıl olaraq həyata keçirilməsini tələb edir. Bu proqram əslində Azərbaycanın müasir sosial-iqtisadi vəziyyətinin təhlili ilə başlanmalı və keçid mərhələsində iqtisadi siyasətin konseptual müddəaları, iqtisadi islahatların həyata keçirilməsi mərhələləri, yeni idarəetmə sisteminin formalaşdırılması, sosial proseslərin tənzimlənməsinin, struktur siyasətinin, beynəlxalq iqtisadi siyasətin yenidən qurulması istiqamətləri və s. məsələləri əhatə etməlidir.

downloaded from KitabYurdu.az

# FƏSIL 20. MÜASIR DÖVRÜN İQTİSADİ NƏZƏRIYYƏLƏRI

## § 1. TƏKLIF IQTISADIYYATI NƏZƏRIYYƏSI

XX əsrin 70-ci illərində yaranan nəzəriyyələrdən biri iqtisadi təklif (A.Laffer) nəzəriyyəsidir. Təklif iqtisadiyyatı nəzəriyyəsinin tərəfdarları da Fridmen tərəfindən yaradılmış metodoloji prinsipə əsaslanmışlar. Monetarizmin və təklif nəzəriyyəsinin hər ikisinin eyni metodoloji və ideya mövqeyindən çıxış etmələrinə baxmayaraq iqtisadi problemlərə baxışlarındakı fərqə görə bir-birindən fərqlənirlər.

Təklif nəzəriyyəsinin ən mühüm xidməti - iqtisadi artım probleminin əsaslı surətdə öyrənilməsidir. Təklif nəzəriyyəsinin monetarizmdən fərqli cəhəti, onun nümayəndələrinin istehsal amillərinin (kapital və iş qüvvəsi) təklifinin uzunmüddətli dövlət tənzimlənməsini, vergi dərəcəsini aşağı salmağı və məhdud pul siyasətinin yeridilməsini zəruri hesab etmələridir. İqtisadi təklif nəzəriyyəsi məcmu təklifi öyrənən cərəyandır. Onun mahiyyəti məcmu təklifi stimullaşdırmaq, istehsalı və məşğulluğu fəallaşdırmaqdır. Bu nəzəriyyənin tərəfdarları bazarı - iqtisadiyyatın təşkilinin ən səmərəli üsulu və təbii qərarlaşmış iqtisadi fəaliyyət sistemi kimi qələmə verirlər.

Təklif nəzəriyyəsinin nümayəndələri monetarizm tərəfindən yaradılmış işsizlik, inflyasiya və iqtisadiyyatın dövlət tənzimləməsi konsepsiyalarına bəzi əlavələr etmişlər. Bu nəzəriyyənin tərəfdarları qeyd edirlər ki, təbii işsiliyin əsas amili dövlətin sosial təminat sistemidir. Geniş miqyaslı sosial proqrama dövlət büdcəsinin xərclərinin artması, sonuncuya isə vergi rüsumlarının yüksək dərəcəsinin səbəbi kimi baxırlar. Vergi dərəcələri yüksək olduqda vergilər ödənildikdən sonra real gəlirlərin səviyyəsi azad əmək bazarı üçün səciyyəvi olan kəmiyyətdən aşağı düşür, işə cazibədarlıq və əmək haqqı işləməmə ilə müqayisədə azalır. Bu vaxt real gəlirlərlə təmin olunmamış əhalinin çox hissəsi könüllü işsizlər sırasına keçir. Bundan başqa, sosial məqsədlər üçün əlavə dövlət xərcləri məcmu gəlirdə yığımın payını azaldır. Nəticədə kredit resurslarının

downloaded from KitabYurdu.az

həcminin azalması iqtisadi artımın zəifləməsinə səbəb olur və məşğulluğa mənfi təsir edir.

Monetaristlərdən fərqli olaraq təklif nəzəriyyəsinin yaradıcıları gözlənilməyən inflyasiyanın əsas səbəbini yüksək vergi dərəcəsinin və istehsal məsrəflərinin gözlənilmədən dəyişməsinə səbəb olan dövlət fəaliyyətində görürlər.

Təklif nəzəriyyəsinin nümayəndələri büdcə kəsirini tamamilə qəbul etmirlər. Dövlətə gözlənilməyən inflyasiyanın büdcə kanalını tam kəsməyi və pul təklifini başqa yolla, kəsiri nəzərə almayaraq dəyişməyi tövsiyə edirlər.

Yeni konservativ iqtisadi artım nəzəriyyəsini tamamilə təklif nəzəriyyəsinin nümayəndələri işləyib hazırlamışdır. Bu nəzəriyyədə mərkəzi yeri yığım problemi tutur. Onlar yığımın çatışmamasına iqtisadi artımın zəifləməsinin əsas səbəbi kimi baxırlar və yığım kəsirini vergi sisteminin qeyri-mükəmməlliyi ilə əlaqələndirirlər.

Təklif nəzəriyyəsinin tərəfdarları dövlətə yığımı vergi islahatının köməyi ilə dövlətin sosial xərclərini azaltmaqla, büdcə kəsirini aradan qaldırmaqla artırmağa imkan yaratmağı tövsiyə edirlər. Onlar amortizasiyanı sürətləndirmək siyasətilə istehsalın stimullaşdırılmasına xüsusi əhəmiyyət verirlər. Dövlətdən vergi tənzimlənməsi ilə bazar sisteminin normal fəaliyyətini təmin etməyi tələb edirlər. Vergiləri aşağı salmaq yolu ilə iqtisadiyyatı stimullaşdırmağın yüksək səmərəliliyini qeyd edirlər. Onlar büdcə siyasətini pul siyasətindən ayırırlar. Monetarizmin uzunmüddətli pul siyasətinin mütləqləşdirilməsinə qarşı çıxırlar. Qeyd edirlər ki, əgər bazar mexanizminin azad fəaliyyəti qeyri-təkmil vergi sistemi ilə pozularsa, pul siyasəti özlüyündə onun fəaliyyətinə qəti təminat vermir. Pul tənzimlənməsi arzu olunan nəticəni yalnız yeni vergi siyasətilə əlaqələndirdikdə verir. Göstərirlər ki, inflyasiyasız iqtisadi artımın hərəkətverici qüvvəsi təklif nəzəriyyəsinə uyğun olan və pul kütləsinin artım sürətinin azalması ilə möhkəmləndirilmiş vergi stimuludur.

Təklif nəzəriyyəsində "Laffer səmərəsi" son dərəcə mühüm yer tutur. Vergi tənzimlənməsi konsepsiyası ilə büdcənin tarazlığı prinsipi arasındakı əlaqənin əsas xətti onun üzərindən keçir. Vergi tənzimlənməsi təklif nəzəriyyəsinin mərkəzində durmuş, tarazlı büdcə prinsipi isə inflyasiya və

downloaded from KitabYurdu.az

iqtisadi artım konsepsiyalarının əsasını təşkil etmişdi. Təklif nəzəriyyəsinin nümayəndələrinin iqtisadiyyatın dövlət tənzimlənməsi sisteminə münasibəti ondan ibarətdir ki, bu tənzimləmə uzunmuddətli xarakterə malik olmalı və məcmu tələbin antitsiklik idarə olunmasına yox, əmtəələrin, kapitalların və digər istehsal amillərinin təklifinin stimullaşdırılmasına yönəldilməlidir.

## § 2. SƏMƏRƏLİ GÖZLƏMƏ NƏZƏRİYYƏSİ

XX əsrin 70-ci illərinin ortalarından makroiqtisadi nəzəriyyələr sırasına yeni bir nəzəriyyə də daxil olmuşdu. Bu tələbin idarə olunmasının ənənəvi keynsçi nəzəriyyəsi - amerikan iqtisadiyyatının makroiqtisadi problemlərinin səmərəli həll edə bilmədiyi, keynsçi siyasətin inflyasiya ilə səciyyələndiyi dövrdə ABŞ-da yaranmış səmərəli gözləmə nəzəriyyəsidir. Onun görkəmli nümayəndələri R.Lukas, T.Sarcent, N.Uolles, C.Mut və başqaları olmuşdu. T.Lukas 1996-cı ildə Nobel mükafatı almışdı. Bu nəzəriyyənin adı iqtisadi vəziyyətin dəyişməsinə təsərrüfat subyektlərinin münasibətinin xarakterini əks etdirir. Şəxsin özünün əvvəlki təcrübəsini nəzərə alan, bütün mövcud informasiyanı istifadə edən, sonra isə iqtisadi vəziyyətin inkişafının mümkün istiqamətini müəyyən dərəcədə görməyi bacaran münasibət səmərəli adlanır. Səmərəli gözləmə anlayışını ilk dəfə iqtisadi ədəbiyyata 1961-ci ildə C.F.Mut gətirmişdi. Səmərəli gözləmə nəzəriyyəsi "yeni klassik makroiqtisadi nəzəriyyə" də adlanır və bəziləri buna gələcəyin nüfuzlu nəzəriyyəsi kimi böyük ümid bəsləyir. Səmərəli gözləmə nəzəriyyəsi metodoloji əsası monetarizmlə eyni olan neoklassik təsəvvürlü makroiqtisadi nəzəriyyədir. Bu nəzəriyyə prinsipcə neoklassik istiqamət kimi azad sahibkarlıq konsepsiyasına və iqtisadiyyatın öz-özünə bazar tənzimlənməsinə əsaslanmışdı. O həm də mikroiqtisadi nəzəriyyəyə əsaslanır. Bu nəzəriyyə iqtisadçıların çoxdan gözlədiyi makro və mikro nəzəriyyələr arasında əlaqə yaratmağa çalışır. Səmərəli gözləmə nəzəriyyəsi təklif siyasətinin köməyi, iqtisadi sabitsizliyin həll edilməsini mümkün hesab edən konsepsiyalarla təmsil olunduğundan diqqəti cəlb etmişdi. Səmərəli gözləmə nəzəriyyəçilərinin fikrincə dövlət iqtisadiyyata nə qədər az müdaxilə edərsə o qədər yaxşıdır. Hesab edirlər ki, məhz bu

downloaded from KitabYurdu.az

müdaxilə iqtisadiyyatın sabitliyini pozur, onu daima şok vəziyyətinə salır. Onlar son dövrlərin inflyasiyasının sürətini isə tamamilə təklif və qiymətlə əlaqədar olan təsadüfi şoklarla izah etmişlər.

Səmərəli gözləmə nəzəriyyəsi Keynsin makroiqtisadi nəzəriyyəsini tənqid edən və ona alternativ olan nəzəriyyədir. Səmərəli gözləmə nəzəriyyəçiləri monetarist qaydanın xeyrinə keynsçi diskretsion siyasətdən imtina etməyi məqsədəuyğun hesab edirlər. Onlar göstərirlər ki, diskresion siyasət iqtisadi sabitsizliyi gücləndirir.

Səmərəli gözləmə nəzəriyyəçilərinin dəlillərinə görə keynsçi ucuz pul siyasəti istehsalın real həcminin və məşğulluğun arzu olunan artımına deyil, inflyasiyaya səbəb olmuşdu. Bu nəzəriyyəyə görə bazar subyektləri ekspansiya siyasətinin qiymətlərin artmasını görə bilir və əmtəələrin qiymətinə, nominal əmək haqqı dərəcəsinə, nominal faiz dərəcələrinə aid olan qərar qəbul edərək onun gözlənilən nəticələrini nəzərə alır. Səmərəli gözləmə nəzəriyyəçiləri göstərirlər ki, məcmu təklif əyrisi şaquli xəttdir və məcmu tələbin genişlənməsi dərhal qiymətin səviyyəsinin uyğun artmasına səbəb olur, ona görə də istehsalın həcmi ölkədə dəyişməz qalır.

Səmərəli gözləmə nəzəriyyəçiləri əsaslı surətdə aşağıdakı müddəa xarakterli ilkin şərtlərə əsaslanmışlar: təsərrüfat prosesinin iştirakçıları iqtisadiyyatın necə fəaliyyət göstərdiyini başa düşür; siyasi və digər dəyişikliklərin gələcək nəticələrini qiymətləndirməyi bacarır; özlərinin mənafeyinə cavab verən davranış xəttini seçə bilir. Səmərəli gözləmə nəzəriyyəsinə "yeni klassik makroiqtisadi nəzəriyyə" xarakteri verən müddəa isə onların yüksək bazar rəqabətliliyinə malik olmasıdır; qiymət və əmək haqqının səviyyəsi isə "tələb və təklifin dəyişməsinə dərhal uyğunlaşır" fikrində olmalarıdır.

Səmərəli gözləmə nəzəriyyəsinin əsasını "əhalinin özünün ümidinə ümumi münasibəti diskretsion sabitləşdirmə siyasətini səmərəsiz edir" müddəası təşkil edir. Bu nəzəriyyəyə görə siyasətin səmərəsizliyi siyasi səhvlərlə, yaxud vaxtında qərar qəbul etməyi bacarmamaqla deyil, bu siyasətin gözlənilən nəticələrinə insanların münasibətləri ilə şərtlənir. Səmərəli gözləmə nəzəriyyəçiləri göstərirlər ki, əhali sabitləşdirmə siyasətinin gözlənilən nəticələrinə münasibət bildirdikdə, onun səmərəliliyi sıfra bərabər olur.

downloaded from KitabYurdu.az

Beləliklə, iqtisadiyyatın makroiqtisadi problemlərinə səmərəli gözləmə nəzəriyyəsi mövqeyindən yanaşma istər-istəməz aşağıdakı ən radikal antikeynsçi nəticələrə gətirib çıxarır: Hökumət ancaq inflyasiyanın sürəti kimi nominal dəyişikliklərə təsir etməyi bacarır, lakin onlar istehsal və məşğulluq kimi real kəmiyyətlərə münasibətdə gücsüzdür; antitsiklik sabitləşdirmə siyasətini həyata keçirmək üçün heç bir imkan yoxdur. Bunlar isə səmərəli gözləmə nəzəriyyəsinin "yeni klassik makroiqtisadiyyat" adını almasını təbii edir.

Səmərəli gözləmə nəzəriyyəçiləri iqtisadi nəzəriyyədə hamının qəbul etdiyi insanların davranışlarında özlərini səmərəli aparmaları qənaətini əsas götürərək öz diqqətlərini hər şeydən əvvəl cari inflyasiyaya, xüsusən də iqtisadi siyasətin təntənə ilə deyilən tədbirlərinə, pul kütləsinin elan edilmiş artım istiqamətlərinə, valyuta kursunun dinamikasına cəmləşdirmişlər. Onlar hesab edirlər ki, səmərəli davranan iqtisadi subyektlər (sahibkarlar, istehlakçılar və fəhlələr) inflyasiyanın həqiqi inkişafına əks olan hər hansı sxem əsasında qiymət gözləməsini yaratmırlar. Bazar subyektləri onların pul mənafelərinə məxsus olan predmetlərə dair gözləmə yaratdıqda informasiya toplayır və dərk edir. Son nəticədə iqtisadi subyektlər, onların əlində inflyasiya prosesinə aid olan bütün bu informasiyaların onların şəxsi mənafelərinə uyğun olan qərarları qəbul etmək üçün səmərəli istifadə etmək imkanlarına malik olurlar.

Səmərəli gözləmə nəzəriyyəsi praktiki olaraq siyasətçilərin inflyasiya və işsizlik arasında seçmə yol verən istənilən variantlarından imtina etmək deməkdir. Bu nəzəriyyə işsizliyin təbii səviyyəsi fərziyyəsinin variantlarından biridir. Təbii səviyyə fərziyyəsi işsizliyin və inflyasiyanın yüksək artım sürətlərinin eyni zamanda baş verməsini, daha doğrusu, iqtisadiyyatın staqflyasiya vəziyyətində olmasını mümkün sayır.

Təbii səviyyə fərziyyəsinin digər variantı uyğunlaşdırılmış gözləmə nəzəriyyəsidir. Bu nəzəriyyə M.Fridmen tərəfindən irəli sürülmüşdü. Uyğunlaşdırılmış gözləmə nəzəriyyəsi güman edir ki, nominal əmək haqqının dəyişməsi qiymətin səviyyəsindəki dəyişiklikdən geri qalır. Məhz bu vaxt qalığı mənfəətin yüksəldilməsini mümkün edir ki, bu da öz növbəsində məşğulluğu müvəqqəti stimullaşdırır. Lakin nominal əmək

downloaded from KitabYurdu.az

haqqı bir az keçəndən sonra mənfəətin azalmasına səbəb olmaqla istehsala və məşğulluğa olan qısamüddətli stimulu ləğv edərək yüksələcəkdir. Buna görə də uzunmüddətli planda inflyasiya və işsizliyin səviyyəsi arasında alternativlik yoxdur. Uzunmüddətli Fillips əyrisi şaquli düz xətt şəklindədir. Bu isə o deməkdir ki, Keynsin stimullaşdırıcı siyasəti işsizliyin səviyyəsini azaltmaq əvəzinə inflyasiyanın getdikcə artmasına gətirib çıxarır.

Uyğunlaşdırılmış gözləmə nəzəriyyəsində yalnız qısamüddətli planda inflyasiyanın və işsizliyin alternativliyi mümkün sayılır. Lakin uzunmüddətli planda bu cür alternativliyin olmadığı qeyd olunur. Səmərəli gözləmə nəzəriyyəçiləri isə göstərirlər ki, makroiqtisadi siyasət, onun nəticələri fəhlələr tərəfindən əvvəlcədən nəzərə alındığından (səmərəsiz olması üzündən) inflyasiya və işsizlik arasında hətta qısa müddətdə də alternativ əlaqə yoxdur.

İşsizliyin səviyyəsini təbii səviyyədən aşağı salmağa göstərilən hər cür cəhd Fillips əyrisini pozan qüvvələri hərəkətə gətirir və onu sağa çəkir: Fillips əyrisinə görə işsizlik və inflyasiya arasında sabit alternativ əks əlaqə mövcuddur, daha doğrusu hər ikisi eyni zamanda baş vermir və onlar əks istiqamətdə dəyişir. Fillips əyrisi modelində inflyasiyanın yüksək səviyyəsi adətən işsizliyin səviyyəsinin azalması ilə müşayiət olunur.

Beləliklə, təbii səviyyə fərziyyəsinin səmərəli gözləmə ehtimalına əsaslanan variantının tərəfdarları hesab edirlər ki, işçilər stimullaşdırıcı siyasətin inflyasiyalı səmərəsini görürlər. Bu nominal əmək haqqının artırılması tələblərində əks etdirilir, nəticədə qısa müddətdə məşğulluğun heç bir artımı olmur. Uyğunlaşdırılmış gözləmə variantının tərəfdarları hesab edirlər ki, Fillips əyrisində əks olunmuş ənənəvi əlaqələr mövcud deyil. Tələbin idarə olunmasına aid stimullaşdırıcı siyasət işsizliyi tez bir zamanda sabit azaltmadan inflyasiyanın artmasına səbəb olur.

Deməli, təbii səviyyə fərziyyəsinin müxtəlif variantlarının (səmərəli gözləmə və uyğunlaşdırılmış gözləmə) birgə gəldikləri nəticəyə əsasən tələbin stimullaşdırılması siyasəti uzunmüddətli planda istehsalın real həcminə və məşğulluğa təsir göstərə bilmir, ancaq yalnız qiymətin səviyyəsinə təsir göstərə bilir.

downloaded from KitabYurdu.az

## § 3. NEOKLASSİK SİNTEZ NƏZƏRİYYƏSİ

İqtisad elmində kök salmış makroiqtisadi nəzəriyyələr iqtisadiyyatın necə fəaliyyət göstərdiyini izah etməkdə öz aralarında rəqabət aparan və biri-digərinə alternativ olan nəzəriyyələr olmuşdu. Bu nəzəriyyələrə neoklassik, keynsçi, monetarist, təklif iqtisadiyyatı və səmərəli gözləmə nəzəriyyələri daxildir. Bu nəzəriyyələr, xüsusən də neoklassik və keynsçilik daim təkamülə uğramış, inkişaf edib təkmilləşmişdi. Hər bir nəzəriyyənin tərəfdarları iqtisadiyyatın makroiqtisadi problemlərinə aid olan əsas müddəalara vaxtaşırı yenidən baxıb, öz mövqelərində dəyişikliklər etməklə mühüm kompromislərə nail olmuşlar. Lakin monetarizm və səmərəli gözləmə nəzəriyyəsinin makroiqtisadi siyasətə güclü təsir göstərməsinə baxmayaraq, hamı tərəfindən qəbul olunmuş nöqtey-nəzər öz əmələ gəlməsi ilə keynsçilikdə qalmışdı.

İqtisadi nəzəriyyələrin təkamülünün indiki son mərhələsində onun ənənəvi istiqamətlərinin - keynsçiliyin və neoklassizmin ünvanına tənqid getdikcə artmışdı. Bununla yanaşı, onların əsasında konsepsiyaların yeni variantlarının, iqtisadi doktrinanın yenidən qiymətləndirilməsi, iqtisadiyyatın tənzimlənməsinin yeni metodlarının yaradılması prosesi gedir. XX əsrin 80-cı illərinin əvvəllərindən mühafizəkar meyllər, iqtisadi nəzəriyyədə azad sahibkarlıq iqtisadiyyatı bayrağı altında yeni mühafizəkar istiqamət olduqca güclənmişdi. Nəticədə ön plana neoklassik yönümlü təklif iqtisadiyyatı və səmərəli gözləmə nəzəriyyələri keçmişdi.

Müasir dövrdə həm də istiqamətlər, cərəyanlar və məktəblər arasındakı hüdudların silinməsi prosesi gedir. Çünki əsas istiqamətlərdən heç biri müasir iqtisadiyyatın həqiqi vəziyyətini əks etdirmir. Onların hər biri bu və ya digər real prosesləri əsas götürür və bu prosesləri birtərəfli izah edirlər. Ona görə də müasir dövrdə iqtisadi proseslərin mürəkkəbləşməsi, müəssisələrin iriləşməsi, satış probleminin kəskinləşməsi ilə iqtisadi problemlərin praktiki həllinin çətinləşməsi üzündən müxtəlif istiqamətlərin yaxınlaşma və sintez prosesi güclənmişdi.

downloaded from KitabYurdu.az

Bu yaxınlaşmanın obyektiv əsası praktiki vəzifələrin həllində dövlətin rolunun artmasıdır.

Əsas istiqamətlərin sintezləşməsinin əsasında onların tədqiqat predmetinin ümumiliyi durur. Müasir dövrdə müxtəlif istiqamətin iqtisadçıları öz diqqətlərini iqtisadi artım, onun amilləri və nəticələri, inhisarlar, dünya iqtisadiyyatı, inkişaf edən ölkələrin iqtisadi problemləri, ətraf mühitin mühafizəsi məsələləri kimi aktual problemlərə cəmləşdirmişdir.

Neoklassizm və keynsçilik sintezinin əsasını neokeynsçi iqtisadçılar (Nobel mükafatı laureatları C.Xiks və P.Samuelson) qoymuşdu. Onlar Keynsin nəzəriyyəsinə neoklassik təsvir vermiş, onu neoklassik iqtisadçı adlandırmış və onun iqtisadi nəzəriyyəsinin neoklassik ənənələri və kökləri haqqında danışmışlar. "Neoklassik sintez" anlayışı ilk dəfə 1937-ci ildə ingilis iqtisadçısı C.Xiks tərəfindən işlənilmişdi. Neoklassik sintez keynsin nəzəriyyəsilə neoklassik iqtisadi artım nəzəriyyəsinin sintezidir. Neoklassik sintez Keynsin nəzəriyyəsini "Natamam işsizlik" şəraitində müvazinət nəzəriyyəsi kimi şərh etmişdi. Keynsin nəzəriyyəsinin bu cür izah edilməsi müharibədən sonra hakim istiqamət olmuş və iqtisadi siyasətin əsas prinsiplərini formalaşdıran ortodoksal keynsçiliyin inkişafına səbəb olmuşdu.

Neoklassik sintezin görkəmli təbliğatçısı və yaradıcılarından biri amerikan iqtisadçısı P.Samuelson olmuşdu. O, 50-ci illərin əvvəlində keynsçiliyin və neoklassizmin bir vahid istiqamətdə birləşməsinin zəruriliyini əsaslandırmışdı. Neoklassizmin və keynsçiliyin yaxşılaşmasının və sintezinin aydın ifadəsi, onun "neoklassik sintez" nəzəriyyəsi oldu. P.Samuelsonun "Neoklassik sintez" nəzəriyyəsi iqtisadiyyatın dövlət tənzimlənməsi nəzəriyyəsinin mühüm qolu olmaq şərtilə iki istiqamətin əsas prinsiplərinin əlaqələndirilməsidir. Samuelsonun "Neoklassik sintez" nəzəriyyəsinin əsasını keynsçi səmərəli tələb nəzəriyyəsi ilə neoklassik istehsal və bölgü nəzəriyyəsinin birləşməsi təşkil edir. P.Samuelson özünün nəzəriyyəsinə həmçinin elmi-texniki inqilaba böyük əhəmiyyət verən institusionalizmin müasir nəzəriyyəçisi C.Helbreytin əsas ideyalarını da daxil etmişdi. Nəticədə xüsusi və dövlət sahibkarlığını əlaqələndirən qarışıq iqtisadiyyat yaranmışdı.

downloaded from KitabYurdu.az

"Neoklassik sintez" - pul amili əlavə olmaqla natamam məşğulluq şəraitində tarazlıq nəzəriyyəsidir. Bu nəzəriyyədə fiskalizmin keynsçi ideyaları iqtisadiyyatı pul-kredit siyasətinin (faiz dərəcəsini dəyişmə, açıq bazarda əməliyyatları keçirmə və s.) köməyi ilə tənzimlənməsini nəzərdə tutan neoklassik konsepsiyaları ilə birləşmişdi. P.Samuelsonun fikrinə görə maliyyə siyasətinin vəzifəsi "ictimai əmtəələr" təklifi sferası üçün tənzimləyici tədbirləri təmin etməkdir. Dövlətin mikro aləmə müdaxiləsinin əsas məqsədi hökümət məsrəflərində optimallığa və dövlət, müəssisələr və cəmiyyətin ayrı-ayrı üzvləri arasında resursların səmərəli bölgüsünə və yenidən bölgüsünə nail olmaqdır.

Müasir dövrdə pulun iqtisadiyyatda oynadığı rol haqqında keynsçi və monetarist baxışlarda müəyyən yanaşma nəzərə çarpır. Pul haqqında ənənəvi keynsçi baxış olan "pul əhəmiyyət kəsb etmir" və yaxud ifrat monetarist ideya olan "yalnız pul əhəmiyyət kəsb edir" fikirlərinin olmasına baxmayaraq hər iki modellərdə pul xalis milli məhsulla eyni istiqamətdə təsir göstərir. Hər iki nəzəriyyəyə uyğun olaraq pul təklifinin genişlənməsi xalis milli məhsulu artırır və əksinə. Keynsçilik və monetarizm arasında mübahisə bu dəyişikliklərin kəmiyyəti mənasına cəmləşdirilmişdir.

Monetaristlərin sıxışdırılıb aradan çıxarılma səmərəsinə qarşı inamla mübarizə aparmaları sayəsində (nəticəsində) iqtisadçılar və siyasətçilər pul-kredit və fiskal siyasətin əlaqələndirilməsi zəruriliyini tam dərk etmişlər. Monetaristlər resursların yenidən bölgüsü və sabitləşmə vasitəsi kimi fiskal siyasəti rədd etmişlər. Onlar göstərirlər ki, fiskal siyasətin tam köməksizliyi və nəticəsizliyi sıxışdırıb ortadan çıxartma səmərəsi ilə şərtlənmişdir. Monetaristlərin fikrincə dövlət istiqraz satmaqla, yəni əhalidən pul borc almaqla büdcə defisiti yaradır. Nəticədə isə dövlət borcu pula tələbi artırır, faiz dərəcəsini yüksəldir və beləliklə də özəl bölmədən mühüm miqdarda xüsusi kapital qoyuluşları sıxışdırılıb aradan çıxarılır. Əks halda bu mənfəət olur.

Əgər fiskal siyasət sıxışdırıb aradan çıxarma səmərəsi törədirsə, bu səbəbdən fiskal siyasətin səmərəliliyi azalırsa, onda xüsusi investisiyaların potensial sıxışdırılıb aradan çıxarılmasını bir təhər kənar etmək üçün

downloaded from KitabYurdu.az

uyğun olan pul-kredit siyasətinin eyni zamanda aparılması zərurəti görünür.

Bunlardan başqa bütün istiqamətlərin yaxınlaşması prosesi özünü həm də iqtisadçıların indi həm məcmu tələbin və həm də məcmu təklifin təhlilinə əhəmiyyət vermələrində göstərir. Səmərəli gözləmə nəzəriyyəsi nəticəsində isə iqtisadçılar və siyasətçilər siyasətin dəyişməsinin nəticələrinə, gözləmənin mümkün təsirinə, mikro və makro nəzəriyyələr arasında əlaqələrə olduqca böyük əhəmiyyət yetirirlər.

downloaded from KitabYurdu.az

# FƏSİL 21. DÜNYA TƏSƏRRÜFATI HAQQINDA NƏZƏRİYYƏLƏR

## §1. DÜNYA TƏSƏRRÜFATININ NƏZƏRİ PROBLEMLƏRİ

Dünya təsərrüfatına dair çoxlu miqdarda müxtəlif problemləri bir sıra istiqamətlərinə görə qruplaşdırmaq olar. Buraya daxildir: xarici ticarət münasibətləri; beynəlxalq maliyyə və tədiyə balansı; gömrük müdafiəsinin optimal səviyyəsilə bağlı olan problemlər; valyuta kursu rejimi və optimal kurs problemləri; açıq iqtisadiyyatda müvazinət problemləri. Dünya təsərrüfatında ictimai məhsulun strukturu və dinamikasına, milli gəlirin bölgüsünə təsir problemləri, iqtisadi inteqrasiya problemləri, həmçinin bir çox başqa problemlər də bu qəbildəndir.

Ona görə də bunların hamısını bu mövzuda tam işıqlandırmaq mümkün deyil. Odur ki, dünya təsərrüfatı haqqında nəzəriyyələrin mövzuya daha münasiblərini nəzərdən keçirəcəyik. Bunlara əsasən aşağıdakılar aid edilir:

- xarici ticarət haqqında nəzəriyyələr;
- beynəlxalq maliyyə nəzəriyyəsi;
- beynəlxalq iqtisadi inteqrasiya nəzəriyyəsi.

Xarici ticarət haqqında nəzəriyyələr beynəlxalq əmtəə mübadiləsinin səbəbləri, quruluşu və səmərəliliyi haqqında məsələlərə cavab verməyə qabildir.

Dünya təsərrüfatının formalaşması bəşəriyyətin ictimai həyatının bütün sahələrindəki inkişafın qanunauyğun nəticəsidir. Bu, hər bir ölkənin daxili və xarici aləmində baş verən sosial-iqtisadi tərəqqi, təsərrüfat əlaqələrinin yaranması və inkişafı ilə bilavasitə bağlıdır. Burada ictimai əmək bölgüsünün eninə və dərininə inkişafı, onun beynəlxalq əmək bölgüsü səviyyəsinə yüksəlməsi sayəsində iqtisadi münasibətlərin dairəsi genişlənərək beynəlxalq xarakter almış, dünya təsərrüfatının

downloaded from KitabYurdu.az

formalaşmasında həlledici əhəmiyyət kəsb etmiş, iqtisadi əlaqələrin təşəkkülünə zəmin yaratmışdır. Bu özünü hər şeydən əvvəl ayrı-ayrı ölkələrin bu və ya digər məhsulun istehsalı üzrə ixtisaslaşmasında, beynəlxalq ticarətin meydana gəlməsində göstərmişdir. İxtisaslaşma sayəsində istehsal xərclərinin aşağı, məhsulun keyfiyyətinin yüksək olması, onun ucuz başa gəlməsi hər bir ölkədə beynəlxalq əmək bölgüsünün üstünlüklərindən başqalarının bəhrələnməsinə imkan yaradır.

Ona görə dünya təsərrüfatı dedikdə, öncə xarici ticarət münasibətləri diqqət mərkəzində dayanır. Bununla əlaqədar bir sıra süallar yaranır. Beynəlxalq ticarət həmişəmi inkişafa səbəb olur? O, inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələr arasındakı uyğunsuzluğu azaldırmı, yoxsa dərinləşdirir? O, daxili problemlərin həllinə necə təsir göstərir: dualizmin, yoxsulluq və qeyri-bərabərliyin aradan qaldırılmasına, ümumiyyətlə təsir göstərirmi? Bəlkə də o, zəif inkişaf etmiş ölkələrin mənafe və istəklərinə cavab vermir, yaxud onların inkişaf etmiş ölkələrdən asılılığını gücləndirir?

Bir-birilə bağlı olan belə suallar da meydana çıxır: "Üçüncü dünya" ölkələri özlərini necə aparmalıdır; emal edilməmiş əmtəələrin ixracını artırmalımı, yaxud xarici aləmdən ayrılaraq əvəzedici strategiyasını inkişaf etdirməkmi? Xarici investisiya qoyuluşunu həvəsləndirmək lazımdırmı? Zəngin ölkələrin köməyinin rolu necədir? O, "üçüncü dünya" ölkələri borclarının azalmasına, yaxud artmasına səbəb olurmu? Ümumiyyətlə, dünya kapitalizm mərkəzlərindən asılılıq dairəsi, yəni periferiya azalır və yaxud artır?

Aydındır ki, bu suallar inkişaf etməkdə olan ölkələrin qarşısında duran çoxsaylı problemlərin başa düşülməsi üçün mühüm şərtdir. Ona görə hər bir ölkənin iqtisadiyyatında xarici amillərin rolu həmişə öz təsirini göstərir.

Əvvəlcə bazar iqtisadiyyatının qərarlaşmasında mübadilə və kapitalın rolu haqqında mübahisəni, sonra isə fritrederlər, xarici ticarəti liberallaşdırmağın tərəfdarları və proteksionistlər arasındakı mübahisələri nəzərdən keçirək. Müasir mübahisənin xarakterini başa düşmək üçün heç olmasa, neoklassik müqayisəli üstünlük nəzəriyyəsinə diqqət yetirək. Belə

downloaded from KitabYurdu.az

ki, bütün mübahisə iştirakçıları bü nəzəriyyəyə söykənmiş və ya əsaslanaraq irəli getmişdir.

## § 2. NEOKLASSİK MÜQAYİSƏLİ ÜSTÜNLÜK NƏZƏRİYYƏSİ

Xarici ticarətin öyrənilməsi probleminin əsası XVI-XVIII əsrlərdə merkantilizm dövründə qoyulmuşdur. Lakin o vaxt hesab edilirdi ki, qabaqcıl ölkələr idxal etdiyindən çox ixrac etməlidir: yəni müsbət ticarət və tədiyə balansına malik olmalıdır. Bunun da saldosu qiymətli metallar və xarici valyutalar ilə təmin edilir.

Merkantilist nəzəriyyəsi məlum dərəcədə ölkələr arasında antaqonist münasibətlərin səbəbi olmuşdur Çünki belə bəhs etmədə bir ölkə qalib, başqaları isə məğlub hesab edilir; birisi zəngin, başqası kasıb olur.

Klassik nəzəriyyə D.Rikardo və C.S.Milin müqayisəli üstünlük prinsiplərinə əsaslanaraq ölkələr arasında daha ahəngdar münasibətləri bərpa etməyə cəhd göstərir. Burada ilkin nəzəriyyə bir dəyişən amildən, yəni iş qüvvəsi qiymətindən və tam ixtisaslaşma prinsiplərindən törəmişdir. Bunu misalla belə izah etmək olar. Fərz edək, müəyyən bir ölkədə yalnız iki əmtəə - traktor və düyü istehsal edilir; nisbi qiymətlər isə həmin ölkədə belədir ki, bir traktor 5 ton düyüyə dəyir və ölkə öz istehsal güclərini traktor istehsalı və düyü yetişdirilməsi arasında bərabər bölür. Bu halda ölkə 25 mln. ton düyü və 5 min traktor istehsal etməyi nəzərdə tutan orta səviyyədə dayanır. Fərz edək ki, dünya bazarında isə vəziyyət belədir: 1 traktor 10 ton düyüyə dəyir. Bu o deməkdir ki, həmin ölkədə düyü istehsalı əvəzinə yalnız traktor istehsalı üzrə ixtisaslaşma xeyirlidir.

Əgər traktor və düyü istehlakına dəyişiklik olmasa, ölkə əvvəlki kimi onları bərabər nisbətdə istehlak etməyə çalışsa, onda həmin ölkəyə 10 min traktor istehsal edərək onun yarısını dünya bazarında 50 mln ton düyüyə mübadilə etməsi çox faydalıdır. Çünki ölkə daxilində 1 traktorun dəyəri 5 ton, dünya bazarında isə 10 ton düyünün dəyərinə müqabildir.

İlkin klassik nəzəriyyə XX əsrdə bu sahədə xeyli düzəlişə uğradı, bunda isə əsas xidmət İsveç iqtisadçıları Eli Henşerə və Nobel laureatı Bertil Olinə məxsusdur. Beynəlxalq ticarəti ayra-ayrı ölkələrdə əmək

downloaded from KitabYurdu.az

məhsuldarlığının müxtəlifliyilə izah edən klassik nəzəriyyədən fərqli olaraq neoklassik nəzəriyyə bu faktı ondan başlayır ki, ölkələrin hamısı bütün əmtəələrin istehsal texnologiyasına daxil olmağın eyni imkanlarına malikdir.

Lakin müxtəlif ölkələrdə resursların qiymətləri müxtəlifdir. Ona görə iş qüvvəsi ucuz olan ölkələr əmək tutumlu əmtəələr istehsalında, kapitalın qiyməti yüksək olmayan ölkələr isə kapital tutumlu əmtəələr istehsalında nisbi üstünlüyə malik olur.

Dünya ölkələri resurslarla təminatına görə fərqləndiyindən müxtəlif məhsullar istehsalı müxtəlif resurslar nisbətini tələb edir, qarşılıqlı faydalı mübadilə üçün ilkin şərtlər yaradır. Tutaq ki, inkişaf etmiş və inkişaf etməkdə olan iki ölkə var: inkişaf etməkdə olan ölkə üçün aqrar sahədə böyük ixtisaslaşma kənd təsərrüfatı məhsulları istehsalında, inkişaf etmiş ölkə üçün isə sənaye sferasında nisbi üstünlük səciyyəvidir. Belə ki, hər bir ölkənin öz nisbi üstünlüyü vardır. Bu ondan yaranır ki, qiymətlərin beynəlxalq nisbəti onların daxilindəki nisbətinə uyğun gəlmir. Bu isə istehsalı ucuz başa gələn və yüksək keyfiyyətli əmtəələri idxal etmək zərurəti doğurur. Bundan həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələr qazanır.

Qeyd etmək lazımdır ki, qarşılıqlı əlaqədə olan iki ölkədə ixracın dəyəri idxalın dəyərinə bərabər olanda ticarət balanslaşır. Belə ki, neoklassik nəzəriyyəyə görə beynəlxalq ticarətin artması ilə müvafiq olaraq onda iştirak edən ölkələrin xeyri artır (istənilən əmtəənin istehsalında tam ixtisaslaşma mümkün olmasa da, nisbi ixtisaslaşmanın xeyri) və çoxalır. Bu, istehsal amilləri qiymətlərinin müvazinətini təmin edir. Belə ki, beynəlxalq ixtisaslaşma nəticəsində qənaət olunan istehsal amillərinin artmasına tələb yüksəlir.

Neoklassik nəzəriyyə nöqteyi-nəzərindən inkişaf hər bir ölkənin beynəlxalq ticarətdə müqayisəli üstünlüklərdən tam istifadə etməsi deməkdir. Ona görə artımı stimullaşdırmaq üçün ölkənin iqtisadi siyasəti kənara, yəni beynəlxalq ticarətə yönəldilməlidir. Lakin kənara yönəldilən belə iqtisadi siyasət uzunmüddətli plana nisbətən qısa müddətdə daha tez fayda gətirir. Həm də belə xatırladılır ki, ixtisaslaşmanın faydasını ilk kolonistlər və sahibkar-mühacirlər artıq çoxdan əldə etmişlər.

downloaded from KitabYurdu.az

Müharibədən sonrakı illərdə inkişaf etməkdə olan ölkələrin xarici ticarətin üstünlüklərindən tam istifadə etmək üçün cəhdləri uğurlu olmamışdır. Dünya ixracatının xeyli, son iyirmi il ərzində 10 dəfə artmasına baxmayaraq, inkişaf etməkdə olan ölkələrin bu sahədə payı əvvəlki kimi qalmışdır. Bunun bir qismi onunla bağlıdır ki, inkişaf etməkdə olan ölkələrin əksəriyyəti üçün monokultur ixtisaslaşma xarakterikdir. Onlar başlıca olaraq kənd təsərrüfatı xammalları, mineral və yanacaq ixrac edirlər. İlk məhsulların monokultur ixracı bir qayda olaraq risk və qeyri-müəyyən vəziyyət ilə bağlıdır. Bundan başqa ilk məhsulların çox hissəsinin gəlirinə görə tələb əyrisi olduqca aşağıdır. Belə ki, sərvətin artmasilə istehlakçının büdcəsində qida məhsullarının nisbi payı aşağı düşür.

Başqa sferalardan fərqli olaraq kənd təsərrüfatı məhsullarının istehsalı üçün təkmil rəqabət daha çox tipikdir. Aqrar sferası təbii şəraitdən xeyli dərəcədə asılıdır. Bu isə kəskin kortəbii tərəddüdlər doğurur Belə ki, kənd təsərrüfatı məhsulları istehsalının həcmi qabaqcadan məlum olmur; sənayedəki kimi istehsalın həcminə o dərəcədə həm nəzarət etmək, həm də onu tənzimləmək mümkün deyil. Kənd təsərrüfatından fərqli olaraq sənaye məhsuluna tələb sabit artım meylilə xarakterizə olunur və gəlirlərə görə tələb elastikliyi yüksəkdir. Bütün bunlar inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında ticarət şəraitinin pisləşməsi üçün obyektiv ilkin şərtlər yaradır. Təəssüf ki, bir çox inkişaf etməkdə olan ölkələr ixrac olunan məhsulun həcmini sərbəst tənzimləyə və milli mənafe naminə beynəlxalq ticarətdən imtina edə bilmirlər. Onlar üçün məhsul ixracı xarici valyuta əldə etməyin əsəs mənbəyidir. Onların özləri də ixracı genişləndirərək ixrac olunan əmtəələrin qiymətinin düşməsi üçün ilkin şərtlər yaradırlar.

Əlbəttə, xarici ticarətin Tayvan, Cənubi Koreya, Braziliya, bəzi OPEK və başqaları kimi ölkələrdə sürətli iqtisadi artımın mühüm ilkin şərt olması inkar olunmazdır. Lakin onların uğurlarının əsasında hələ keçən əsrin 70-ci illərindən qiyməti kəskin artan ya emal sənayesi məhsullarının, ya da enerji daşıyıcıların ixracı durur. Neoklassik nəzəriyyə bunlarla yanaşı müasir dünyada müşahidə olunmayan bir sıra ilkin şərtlərə əsaslanır. Buna inkişaf problemi ilə məşğul olan həm A.Xirşman, L.Lyuks, Q.Myurdal,

downloaded from KitabYurdu.az

T.Baloq, F.Perru, Q.Zinger kimi radikal, həm də Y.Tinberqen, V.Brandt komissiyasının uzvləri və b. kimi liberal cərəyan alimləri diqqət vermişlər.

İstehsal resurslarının mümkün həcmi heç də kəmiyyətcə təsbit olunmur. Buna görə onlar inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə keyfiyyətcə çox fərqlənirlər. İstehsal amillərinin, məsələn, əmək və kapitalın sürətlə hərəkət etmə qabiliyyəti dəyişir. Bu proseslər inkişaf etməkdə olan ölkələrin daxilində məhduddur.

Azad rəqabətin hakim olduğu klassik kapitalizm genezisindən fərqli olaraq müasir dünyada beynəlxalq arenada transmilli korporasiyalar hökmranlıq edir, dünya ticarətinin 1/3 hissəsini əlində saxlayır. Belə şəraitdə neoklassik nəzəriyyə əvvəllər malik olduğu üstünlüklərə əsaslanır. Bu o deməkdir ki, inkişaf etməkdə olan ölkələrin ixtisassız iş qüvvəsindən geniş istifadə etməklə əməktutumlu məhsullar istehsalında ixtisaslaşması onların möhkəmlənir. Yəni material və əmək resursları aşağı keyfiyyətdə qalır. Halbuki həmin ölkələr üçün informasiya, sahibkarlıq qabiliyyəti insan kapital kimi istehsal amillərinin əldə edilməsi problemi son dərəcədə aktuallığını saxlayır.

Neoklassik nəzəriyyə beynəlxalq ticarətdə dövlətin artan rolunu nəzərə almır; hətta inkişaf etməkdə olan ölkələr üçün istehsal amillərinin milli mənsubiyyətini təhrif edir.

Müqayisəli üstünlüklərdən danışarkən nəzərə almaq lazımdır ki, inkişaf etməkdə olan ölkələrdə məhsul ixracını təmin edən resursların çoxu qeyri rezidentlərə məxsusdur. Bu ixracat üçün işləyən bir sıra emal sənayesi şirkətlərinə və aqrofirmalara xarakterikdir. Odur ki, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatının ixrac bölməsinin başqa sahələrlə əlaqəsi mühüm əhəmiyyət kəsb edir.

Dünya təsərrüfatı yerində saymır: daim yeniləşir, struktur dəyişiklikləri baş verir. Belə dəyişikliklərin təşəbbüsçüləri bir qayda olaraq daha güclü, yəni inkişaf etmiş ölkələr olur. Daha zəiflər - inkişaf etməkdə olan ölkələr isə buna uyğunlaşmaq məcburiyyətində qalır. Bu, xərclərin "ölməsinə", əmək ehtiyatlarının səmərəsiz istifadəsinə səbəb olur, beynəlxalq əmək bölgüsünün üstünlüklərini bitərəfləşdirir. Belə hallar heç də təsadüfü deyil. Bütün bunlar inkişaf etmiş ölkələri inkişaf etməkdə olan ölkələrə nisbətən kapital qoyuluşu üçün daha çox cəlbedici obyektə çevirir.

downloaded from KitabYurdu.az

Ona görə sol radikallar müqayisəli üstünlük nəzəriyyəsini "üçüncü dünya"ya tətbiq olunmaz hesab edirlər. Onlar müasir bərabərsizliyi şərh edən bir sıra nəzəriyyələr də irəli sürürlər. Onların əksəriyyəti marksizmin böyük təsiri altındadır. Lakin bu ənənəvi marksizm şəklində deyil, neomarksist ideyanı əks etdirir.

## §3. QEYRİ-EKVİVALENT MÜBADİLƏ KONSEPSİYASI

Sol radikalların diqqət mərkəzində artım nəzəriyyəsi deyil, zərərli, periferiya və asılı inkişaf nəzəriyyəsi görünür. Onlar iqtisadi artıma milli zəmində deyil, beynəlxalq miqyasda zəif inkişaf amili kimi baxırlar. Maraqlıdır ki, merkantilistlər kimi onlar periferiy inkişafı istehsalın təhlilindən yox, tədavül sferasından, xüsusən beynəlxalq ticarətdən öyrənməyə başlamışlar.

Onların ənənəvi cəmiyyəti tez dəyişdirmək cəhdinin iflası periferiy iqtisadiyyatın həm daxili problemlərini üzə çıxardı, həm də uğursuzluğun qeyri-iqtisadi səbəblərinə diqqət yetirməyə məcbur etdi. Bir sıra alimlərin, xüsusən R.Prebiş, S.Furdato və b. kimi Amerika alimlərinin tədqiqat mərkəzində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı antaqonizm görünür.

Argentina iqtisadçısı Raul Prebiş dünya təsərrüfatının ahəngdar inkişafı illüziyasının aradan qaldırılmasında böyük rol oynadı. O, xarici ticarətə gəlirlərin periferiyadan dünya təsərrüfatının mərkəzinə axıdılmasının xüsusi mexanizm kimi baxırdı.

R.Prebiş ticarət şəraitinin pisləşməsini beynəlxalq əmək bölgüsünün xüsusiyyətləri, inkişaf etmiş ölkələrin ayrı-seçkilik ticarət siyasəti və ETT-nin gedişində baş verən dəyişikliklər ilə əlaqələndirirdi. Onun ardınca BMT-nin İqtisadi komissiyası Latın Amerikası üçün regionda ticarətə neqativ təsir göstərən amilləri təhlil etmişdir. Nəticədə müqayisəli üstünlük nəzəriyyəsinin inkişaf etməkdə olan ölkələrə yalnız nəzəri deyil, həm də empirik səviyyədə uyğun olmasını təkzib etmək cəhdi olundu. Bu da asılı iqtisadiyyat konsepsiyasının qərarlaşması üçün ilkin şərtlər yaratdı.

Selso Furtado göstərir ki, dünya iqtisadiyyatının dualizmi istehlak və mədəni ənənələr dualizmlərinin nəticəsidir. Asılı yarımsistemin hakim

downloaded from KitabYurdu.az

sistemlə əlaqəsi elit ölkələr vasitəsilə həyata keçirilir. Bu da daha inkişaf etmiş yarımsistemə inteqrasiya olunur və onun standartlarına yönəldilir. Ona görə geriliyin mahiyyəti xeyli dərəcədə mərkəzi istehlak modelinin təqlidilə" müəyyən olunur. Latın Amerikasında bu proseslər Asiya və Afrikaya nisbətən daha aydın görünür.

Belə münasibətlərin münaqişəli xarakterinə "üçüncü dünya" ölkələrinin beynəlxalq əmək bölgüsü sistemində əlverişsiz vəziyyətinin nəticəsi kimi baxılır. Bu da ticarət şəraitinin pisləşməsində, artan maliyyə borcunda, "beyinlər axınında" və i.a. ifadə olunur. İdxal əvəzedici sənayeləşdirmə strategiyası bu prosesi kəskinləşdirdi. Bütünlüklə mövcud vəziyyət iqtisadi fikrin sonrakı radikallaşmasına - P.Baran, Ş.Bettelheym, O.Braun, İ.Vallerstayn, N.Frank, A.Emmanuel kimi iqtisadçıların konsepsiyalarının yaranmasına səbəb oldu. Bu zaman iqtisadi proses avtomatik olan sabit müvazinət kimi deyil, müxtəlif ölkə qrupları arasında uyğunsuz qarşılıqlı asılılığın yaranması və güclənməsi kimi nəzərdən keçirilməyə başladı. Bu prosesdə A.Emmanuel qeyri-ekvivalent mübadilənin roluna, S.Amin isə transmilli korporasiyanın roluna diqqət yetirdi.

Fransız iqtisadçısı Artur Emmanuelin 1969-cu ildə çapdan çıxan "Qeyri-ekvivalent mübadilə: beynəlxalq iqtisadi münasibətlərdə antaqonizmlər haqqında oçerk" adlı monoqrafiyası qeyri-ekvivalent mübadilə barəsində mübahisəyə təkan verdi. Burada o, ilkin olaraq xeyli kəskin məsələ qoydu. Bununla əlaqədar belə suallar meydana çıxdı: bu mübadilə nə qədər və hansı həcmdə olur? Nəhayət, onun nəticələri hansılardır və onu indiki vaxtda aradan qaldırmaq olarmı?

A.Emmanuelin radikal konsepsiyası belə sübut etmək cəhdindən ibarətdir ki, kapitalist periferiyası xalqlarının əmək nəticələrinin mənimsənilməsi qərb sivilizasiyası rifahının əsasıdır. Ona görə tədqiqatın başlıca məqsədi "üçüncü dünya"da yaradılan məhsulun əldə edilməsi və mənimsənilməsi mexanizmini təhlil etməkdir. Bu konsepsiya ticarətə bir millətin başqalarının hesabına varlanması üsulu kimi baxan merkantilistlər nəzəriyyəsinin, xırda burjua siyasi iqtisadının, xüsusən mülkiyyəti P.J.Prudonun "oğurluq" kimi qələmə verən radikal siyasi iqtisadın və marksizmin ayrı-ayrı müddəalarından istifadə etməyə çalışır.

downloaded from KitabYurdu.az

R.Prebiş Latın Amerikası ölkələri və inkişaf etmiş ölkələr arasında mübadilənin qeyri-ekvivalent xarakterini sübut edə bilmədi. Ona görə A.Emmanuel keyfiyyət meyarlarını ön plana çəkdi. O, tutuşdurulan istehsal şərtlərini, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə kəskin fərqlənən hazır məhsulun qiymətlərini müqayisə obyekti kimi götürərək marksist dəyər və istehsal qiyməti nəzəriyyəsinə əsaslandı. O, qeyri-ekvivalent mübadilənin iki formasını fərqləndirdi; "əlavə" və "həqiqi". Bunlardan birincisi, yəni "əlavə" qeyri-ekvivalent forması kapitalın üzvi quruluşunun müxtəlifliyinə görə mənfəət normasının bərabərləşməsi gedişinin pozulması nəticəsində yaranır. İkincisi isə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əmək haqqının formalaşmasının institusional fərqlərilə bağlıdır. Emmanuel həmin fərqlənmənin başlıca səbəbini inkişaf etmiş ölkələrdə öz üzvləri üçün daha yüksək əmək haqqına nail olan həmkarlar ittifaqlarının inhisarçı mövqe tutmasında görür. Ona görə Emmanuelin fikrincə qeyri-ekvivalent mübadilənin əsas xeyri inkişaf etmiş ölkələrin fəhlə sinfinə çatır.

A.Emmanuel iqtisadi inkişaf startını ilkin kapital yığımı prosesində və hətta sənaye inqilabında deyil, əmək haqqı artımının rikardoçu yaşayış minimumundan yuksək olmasında görürdü. Onun konsepsiyasında "əmək haqqı səbəb, istismar isə yalnız nəticədir". Onun fikrincə kapitalın üzvi quruluşunun artması əlavə varlanma mənbəyi olaraq belə uyğunsuluğu gücləndirir. Qüsurlu dairə yaranır: inkişaf etmiş ölkə nə qədər çox zəngin olsa, zəif ölkə bir o qədər kasıb olur. Ona görə mərkəz və periferiya disproporsiyası qeyri-bərabər mübadilənin səbəbi deyil, nəticəsidir. Kapital ixracı yaranmış antaqonizmi tamamlayır və gücləndirir.

Müstəmləkə siyasətinin yeridilməsinə mane olan amillər daha yüksək əmək haqqına və siyasi azadlığa uyğunlaşan ağ mühacirlərdir. Ona görə onlar təzə yerdə də Avropa standartlarına uyğun olan tam həcmdə əmək haqqı tələb edirlər. Əks halda metropoliyadan ayrılmağa və onların tələbini yerinə yetirəcək öz müstəqil dövlətini yaratmağa cəhd edirlər. Onlar mühacirlərin xeyrinə həll olunan yerlərdə, məsələn, ABŞ, Kanada, Avstraliya kimi ölkələrdə məqsədlərinə nail olurlar.

A.Emmanuel üsulu "üçüncü dünya" imperialist dövlətlərinin xeyrinə yaradılan izafi dəyərin müntəzəm yenidən bölgüsü haqqında nəticə

downloaded from KitabYurdu.az

çıxarmağa imkan verir. Bu fenomeni izah etməyə çalışan Emmanuel öz nəzərini kapital və əmək istehsal amilləri bazarına yönəldir. Həmin bazarların müqayisəsi onu kapital bazarının daha çox inkişaf xarakteri haqqında fikrə gətirir ki, bu da beynəlxalq kapitalın sərbəst hərəkətində və ümumi mənfəət normasının bərabərləşməsində ifadə olunur. Əməyin hərəkətinə isə müxtəlif institusional əngəllər, hər şeydən əvvəl inkişaf etmiş ölkələrin həmkarlar ittifaqı mane olur. Bu da əmək haqqı stavkasının bərabərliyini pozur.

Beləliklə, qeyri-ekvivalent mübadilənin başlıca səbəbi beynəlxalq kapitalın sürətlə hərəkət etmə qabiliyyəti və beynəlxalq əməyin isə sürətlə hərəkət etmə qabiliyyətsizliyidir. A.Emmanuelin hesablamasına görə orta əmək haqqı geridə qalmış ölkələrdə inkişaf etmiş ölkələrə nisbətən 30 dəfə aşağıdır. İnkişaf etməkdə olan ölkələrdə işçilərin daha aşağı əmək haqqının mənbəyi Emmanuelin fikrincə qeyri-ekvivalent mübadilə və Qərb ölkələrinin buna müvafiq zənginləşməsidir. Bu baxımdan Mərkəzin inkişafı və periferiyanın zəif inkişafı medalın iki tərəfinə bənzəyir.

A.Emmanuelin konsepsiyasında mübadilə sferası həyat fəaliyyətinin bütün başqa sferalarının zərərinə olaraq mütləqləşdirilir. O, müxtəlif ölkələri müqayisə edərək məhsuldar qüvvələrin inkişaf səviyyəsində dərin fərqləri, əməyin mürəkkəbliyi və intensivliyini, həmçinin iş qüvvəsinin ixtisasını lazımi qədər qiymətləndirmir. Bununla birgə onun inkişaf etmiş ölkələrin bütün fəhlə sinfinin "üçüncü dünya" əhalisini istismar etməsi haqqında müddəaları onu hətta yaxın tərəfdarlarından - marksistlərdən də uzaqlaşdırmışdır.

A.Emmanuelin konsepsiyasının zəifliyi ondadır ki, ifratçılığa gedir. O, solçu ehtirasla yazır ki, "seçim yalnız qeyri-ekvivalent mübadilə və avtarkiya arasında mümkündür". Belə dərk edilən inkişaf yalnız qeyri-ekvivalent mübadilənin aradan qaldırılması yolu ilə mümkündür.

## §4. DÜNYA TƏSƏRRÜFATINDA YIĞIM HAQQINDA NƏZƏRİYYƏLƏR

Bu barədə bir sıra nəzəriyyələr vardır. A.Emmanuelin kitabı çapdan çıxandan sonra müəllifin söylədiyi ideyalar barədə kəskin mübahisələr

downloaded from KitabYurdu.az

yayıldı. Radikallar onu son dərəcədə abstrakt olduğuna görə tənqid etdilər. Burada Samir Amin mühüm rol oynadı.

S.Amin mənşəcə misirli olub həyatının çox hissəsini Dakarada keçirmiş, orada 1981-ci ilə qədər Afrikada iqtisadi inkişaf və planlaşdırma işinə rəhbərlik etmiş, daha sonra Afrikanın iqtisadi və sosial inkişafının tədqiqi üzrə Şuranın birinci icraçı katibi olmuşdur. Onun kitabları Fransa, ABŞ, İngiltərə və bir sıra azad olmuş ölkələrin iri nəşriyyatlarında müntəzəm çap olunmuş çoxlu sayda kitab və məqalələrin müəllifidir. Bir çox Afrika dövlətləri və BMT-nin ixtisaslaşdırılmış təşkilatları onu dəfələrlə ekspert və məsləhətçi kimi dəvət etmişlər.

S.Amin A.Emmanuel ilə mübahisədə qeyri-ekvivalent mübadiləyə qarşı belə sadə əks tədbirlər təklif etdi: 1.İxraca vergiqoyma. Bu, inkişaf proqramını reallaşdırmaq üçün vəsait yığmağa imkan verir. 2. Daxili istehsalın diversifikasiyası, yəni manevr etməsi. Bu, xarici aləmdən asılılığı ixtisar etməyə və inkişaf etməkdə olan ölkələrin özünün təminatını yüksəltməyə səbəb olur.

Bazar mexanizminin ideallaşdırılması A.Emmanuel konsepsiyasının əsas nöqsanı kimi haqlı olaraq qeyd edilmişdir. S.Amin qeyri-ekvivalent mübadilədə inhisarların roluna diqqət yetirmiş və göstərmişdir ki, burada proporsiya xeyli dərəcədə kapitalın hərəkətilə müəyyən olunur. Həqiqətən müasir şəraitdə beynəlxalq ticarəti TMK-ların fəaliyyətindən ayrılıqda nəzərdən keçirmək olmaz. Ona görə dünya bazarında mənfəət normasının tam bərabərləşməsini güman etmək reallığa sığmır.

S.Aminin nəzərincə indiki vaxtda kapitalın beynəlxalq fəaliyyəti həlledici amildir. Onun fikrincə inhisarların mərkəzində yaradılan mərkəz və periferiyalarda əmək haqları arasında kənarlaşma imperialist burjuaziyanın diqqət mərkəzində durur. Dünya miqyasında əldə edilən izafi dəyərin çox hissəsi onların cibinə gedir.

Kapitalizm özünün yarandığı vaxtdan dünya miqyasında ekspansiya, yəni genişlənmə meylli cəhətilə xarakterizə olunur. Lakin kapitalist sisteminin qərarlaşmasilə onda asimmetrik, yəni uyğunsuz meyllər, beynəlmiləlləşmə artır, xüsusən də imperializm dövründə. S.Amin hətta xüsusi "periferiy istehsal üsulu" anlayışını işlədir. Onun başlıca cəhəti kapitalist ictimai sistemi çərçivəsində müasir texnologiyanın, yəni artan

downloaded from KitabYurdu.az

əmək məhsuldarlığının və aşağı əmək haqqı səviyyəsinin eyni zamanda mövcud olmasından ibarətdir.

Əvvəllər istehsalın texnikası primitiv qaldığı vaxtadək xarici kapital tərəfindən ona birbaşa nəzarət edilirdi. Lakin sonralar texnologiyanın güclənməsilə birbaşa, yəni S.Aminin sözü ilə desək "bilavasitə" nəzarət formalarına zərurət olmadı. Həqiqətən, hazırda inkişaf etmiş ölkələr dünya elmi-texniki potensialının 98 faizini öz əlində mərkəzləşdirir. Halbuki bunun yalnız 2 faizi inkişaf etməkdə olan ölkələrin payına düşür. Belə asılılıq forması S.Aminin fikrincə mülkiyyətə bilavasitə nəzarət olmasa da külli miqdarda mənfəət götürməyə imkan verir. Buna dünya ticarətinin kənd təsərrüfatı məhsullarının inkişaf etmiş, sənaye məhsullarının isə inkişaf etməkdə olan ölkələrə ixracı kimi paradoksal quruluşunun yaranması qətiyyən zidd deyildir. Əgər əvvəllər onların arasında inkişaf xətti sənaye - kənd təsərrüfatı sənayeləşmə meyarı üzrə keçirdisə, indiki vaxtda proses postsənayeləşmə, yəni mərkəzdə əmək tutumlu və mürəkkəb texnologiyalı istehsal, periferiyalarda isə sadə texnologiyaya əsaslanan standart məhsul xətti üzrə gedir.

Mübahisənin gedişində dünya əmək bazarına xeyli birtərəfli yanaşılmasına da diqqət yetirilmişdir. Xüsusən də, bir çox iştirakçıların fikrincə, mərkəz və periferiyada, əmək məhsuldarlığında və iş qüvvəsinin ödəniş dəyərində olan fərqləri daha dəqiq göstərmək, eləcə də həm inkişaf edən, həm də inkişaf etməkdə olan ölkələrdə həmin bazarın seqmentləşmə amillərini də nəzərə almaq lazımdır.

A.Emmanuelin konsepsiyasının sonrakı konkretləşməsi beynəlxalq inhisarların ekspansiyasının (yayılmasının) tədqiqi və iş qüvvəsi təhlilinin dəqiqləşdirilməsilə bağlı olmuşdur. Ş.Mişale 1976-cı ildə çapdan çıxan "Dünya kapitalizmi" kitabında tədbiq edilən texnologiya və onun xidmətedici iş qüvvəsi arasında, yəni kapital və əmək bazarları arasında qırılmaz əlaqə haqqında məsələ qoymuşdur. Transmilli şirkətlərin inkişaf etməkdə olan ölkələrdə yeni texnologiya yerdəyişmələri yalnız iqtisadi mühit yaratmır; həm də müəyyən dərəcədə beynəlxalq iqtisadi məkan ayrılığını aradan qaldırır. Kapital axınının stimulu yüksək mənfəət normasının əsası olan aşağı əmək haqqıdır. Eyni zamanda transmilli

downloaded from KitabYurdu.az

şirkətlər bu ayrılığı azaldaraq kapital tutumlu texnologiyanı tətbiq etməklə məşğulluq problemini kəskinləşdirir.

Transmilli şirkətlər periferiy cəmiyyətlərin təsərrüfat quruluşunda filiallar "yetişdirməklə" onların mərkəzdən asılılığını gücləndirir, onları dünya kapitalist təsərrüfatının tabeli hissəsinə çevirir. Transmilli şirkətlərin təsiri altında həyata keçirilən sənayeləşmə prosesi eybəcər formalar alır. Q.Zingerin ədalətli hesab etdiyi kimi hər cür sənayeləşmə ölkəni gerilik və asılılıqdan çıxarmağa qabil deyil. Müasir iqtisadiyyatın meyli hər şeydən əvvəl cəmiyyətin imkanlı təbəqələri üçün əmtəələr istehsalına yönəldilmişdir. Onların zövqü, vərdişləri isə təmtəraqlı istehlakın təsiri altında formalaşmışdır.

F.Aydalo "Məkan dinamikası və qeyri-ekvivalent inkişaf" kitabında A.Emmanuelin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə əməyin eyniliyi haqqında fərziyyəsini də inkar edir. O göstərir ki, bu sahədə müxtəlifliyin səbəbi əmək ehtiyatlarının təkrar istehsalı xərclərindəki olan fərqlərdir. F.Aydalo həmin əsərində müxtəlif regionlarda təhsilin, ixtisasın və əhalinin həyat tərzinin rolu barədə daha geniş yazır. Göstərir ki, iş qüvvəsinin miqrasiyası və transmilli şirkətlərin fəaliyyəti bu uyğunsuzluğu tam aradan qaldıra bilməsə də, xeyli dərəcədə azaldır.

Belə yanaşmada transmilli şirkətlər tərəfindən istismarın məhdudlaşdırılması inkişafın şərtidir. S.Amin yazır ki, qlobalizm ideologiyasının tərəfdarları köməklik dayağına və dünya bazarında bərabərsizliyi dərinləşdirən amil kimi xarici kapitalın soxulmasına antitezis axtarırlar. O, konsepsiyasında inkişaf etməkdə olan ölkələrə öz qüvvələri üzərində kollektiv dayaq tapır. Lakin inteqrasiya vasitəsilə iqtisadi müstəqilliyə nail olunması ilk baxışdan göründüyü kimi elə də asan deyil. İş ondadır ki, inkişaf etməkdə olan ölkələrin daxili quruluşu deformasiya olub, yəni transmilli şirkətlərin mənafelərinə tabedir.

Ona görə deformasiya - asılı olmuş struktur istənilən nəticəni verə bilməz; yalnız "lyumpen-inkişaf" təkrar istehsal edə bilər. S.Amin sosializmin tərəfində dururdu. Lakin o, SSRİ-də qurulmuş sosializmin deyil, Şərqi Avropa ölkələrindəki sosializmə rəğbət bəsləyirdi. Belə real sosializmi o, "kapitalistsiz kapitalizm", "dövlət kapitalizmi", "dövlətlə idarə olunan istehsal üsulu" adlandırırdı.

downloaded from KitabYurdu.az

## § 5. DÜNYA TƏSƏRRÜFATININ İ.VALLERSTAYN NƏZƏRİYYƏSİ

Sol radikallar əyani surətdə göstərmişlər ki, inkişaf etməkdə olan ölkələrin bir çox daxili amilləri onların xarici fəaliyyətini əks etdirir; onlardakı zəif inkişafı asılılıq törədir, asılılıq isə öz növbəsində zəif inkişafdan irəli gəlir. Belə çətin vəziyyətin yaranmasının dərin səbəblərini aşkar etmək cəhdi tədqiqatçıların diqqətini cəlb etmişdir. Bununla əlaqədar müasir dünya təsərrüfatının yaranması və inkişafını izləyən bir sıra əsərlər meydana gəlmişdir. Onların sırasında A.Frankın və İ.Vallerstaynın elmi işlərini göstərmək olar.

1978-ci ildə Nyu-Yorkda və Londonda Andre Qundre Frankın "Dünyada yığım. 1492-1789" monoqrafiyası çapdan çıxdı. Bu əsərdə üç əsr ərzində, yəni Kolumbun Amerikanı kəşf etdiyi vaxtdan Böyük Fransa inqilabına kimi olan müddətdə kapital yığımının tarixi oçerkləri verilmişdir. Burada müəllif müasir dünyada yaranmış bərabərsizliyin tarixi köklərini təhlil etməyə çalışır. Onun başlıca ideyası ondan ibarətdir ki, periferiy cəmiyyətlərin geriliyi onların dünya kapitalist təsərrüfatına asılı və tabeli partnyor kimi daxil olmasından irəli gəlir. Dünya bazarı dünya dualizminin yarandığı və böyüdüyü mühitdə təşəkkül tapır. Metropoliyadan asılı olan periferiya kapitalizmi yararsız "xəstə" kompleks olur və sərbəst inkişaf qabiliyyətini itirir. Bu zaman yalnız asılı inkişaf deyil, həm də "zəif inkişafın inkişafı" gedir. Bu da müstəmləkə və asılı ölkələrə kapital ixracının nəticəsidir.

Asimmetrik qarşılıqlı asılılığın güclənməsi haqqında ideya İmmanuil Vallerstaynın "iqtisadi dünya" konsepsiyasında orjinal şərhini tapmışdır. Vallerstaynda inkişaf kateqoriyası yerini məkan genişlənməsi və müvəqqəti tsiklik xüsusiyyətləri olan dünya sisteminə verir. Ona görə də o,

downloaded from KitabYurdu.az

dünya sistemini "məkan-zaman tamlığı" adlandırır. Həmin konsepsiyanı ictimai əmək bölgüsü və mübadilənin təhlilinə əsaslanan tamlıq üsulu fərqləndirir.

İ.Vallerstayn inkişafın "mini-sistemlər", "kapitalist dünya təsərrüfatı" və "sosialist dünya hökuməti" kimi üç əsas mərhələsini götürür. O, "mini-sistem" dedikdə, sadə kənd təsərrüfatı cəmiyyətlərini, eləcə də ovçuları, həmçinin ilk qida toplayan qrupları nəzərdə tutur. Onun diqqət mərkəzində "mini-sistem"dən dünya sisteminə keçid durur. Bu keçidin əsasını o, milli təsərrüfatların inkişafında deyil, beynəlxalq cəmiyyətin qərarlaşmasında görür. Bunun da ayrı-ayrı sinif və etnik qrupları dünya təsərrüfatının yalnız yarımsistemləri kimi çıxış edir. Onun nöqteyi-nəzərincə həmin yarımsistemdə milli inkişaf zəif gedir.

İ.Vallerstaynın fikrincə Avropada kapitalizm bəşər cəmiyyəti inkişafının qanunauyğun məhsulu olmaqdan daha çox tarixi təsadüfdür. O, feodalizmin dağılmasına "demoqrafik qəza", hakim siniflərin real gəlirlərinin artması və bazar vasitəsilə yeni istehsal üsulunun yaranması kimi baxır.

Onun hesab etdiyi kimi ilkin kapital yığımı prosesinin özünəməxsus meyli vardır. Bu prosesin ümumi, yəni daimi meyli bütün tarix ərzində, xüsusən də kapitalizmin öz daxilində yaranmasilə təzahür olunur. İ.Vallerstaynın fikrincə, ilkin kapital yığımı yalnız mərkəzi deyil, həm də periferiyanı, yəni tamamilə bütün sistemi əhatə etmişdir. Artıq o zaman Latın Amerikası, Asiya və Afrika kapital yığımı prosesinə cəlb olunmuşdu. Burada yalnız istehsal ixtisaslaşması deyil, həm də dövlətlərin gücünün müxtəlifliyi mühüm rol oynamışdır ki, bu da son nəticədə qeyri-bərabər mübadiləni doğurmuşdur. "üçüncü dünya"da bütünlüklə ilkin kapital yığımı kimi əhalinin proletarlaşması da başa çatmamışdı. Ona görə iqtisadiyyatın kənardan yönəldilən deformasiya və dezinteqrasiyası natamam periferiy kapitalizminin xarakterik cəhətidir.

Hansı məhsul istehsal etməsindən asılı olmayaraq mərkəz və periferiya mənafelərinin qarşılıqlı tamamlanması bərabərsizliklə şərtlənir. İ.Vallerstayn yazır ki, mərkəz həmişə nisbətən inkişaf etmiş texnika, xeyli kapital qoyuluşu və yaxşı öyrədilmiş işçi qüvvəsi tələb edən sahələr üzrə ixtisaslaşır. Beləliklə, dünya təsərrüfatında yaranan bərabərsizlik uzun

downloaded from KitabYurdu.az

tarixi inkişafın məhsuludur. Məhz geridə qalan ölkələr beləcə geriliyə düçar olmuşlar; onlar qabaqcıl texnologiyaya yaxın buraxılmır, onlardan isə yalnız kapital deyil, hətta beyinlər də çəkilib aparılır.

Lakin inkişaf prosesində aralıq vəziyyət, yəni yarımperiferiya vəziyyəti tutan ölkələr qrupu meydana çıxır. Onlar mərkəzə görə periferiydir; lakin daha zəif ölkələrə nisbətən "mərkəz" mövqeyində dururlar.

Təəssüf ki, İ.Vallerstaynın nəzəriyyəsində başqa sol radikalların ideyalarında olduğu kimi yaranmış vəziyyətdən real çıxış yollarını axtarmaqdansa, kapitalizmin tənqidinə daha çox səy göstərilir.

Qərb ölkələrinin alimləri dünya təsərrüfat sistemi haqqında iqtisadi nəzəriyyənin formalaşmasında mühüm rol oynamışlar. Onlar zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatını təhlil etmək üçün qabaqcıl ölkələrdə hazırlanan materiallardan geniş istifadə etməyə çalışmışlar. Bunu neokeynsçi, neoklassik və institusional doktrinaların gələcək inkişafı tələb edirdi. Şübhəsiz, kəmiyyət tədqiqatlarının keyfiyyətlə əlaqələndirilməsi, proqnozların həyata keçirilməsi, sürətli sənayeləşmə aparılması, özünün və xaricdən cəlb edilmiş maliyyə vəsaitlərindən səmərəli istifadə olunması haqqında praktiki təkliflərin hazırlanması yaranan konsepsiyaların sanbalını artırmaq cəhdi olmuşdur.

Bu məsələ barədə iki əks fikir fardır. Klassik liberalizmin nümayəndələri müqayisəli üstünlük modelini inkişaf etdirərək kənardan yönəldilən siyasətin xeyrini sübut edirlər. Onların iqtisadi görüşləri Tayvan, Cənubi Koreya, Braziliya və bu kimi yeni sənaye ölkələrində məşhurdur. Onların əksinə olan sol radikallar belə inkişafın imkanlarını xeyli tənqidi qiymətləndirirlər ki, bu da Fidel Kastronun məşhur nitqində öz əksini tapmışdır. O, bloklara qoşulmayan ölkələrin dövlət və hökumət başçılarının VII konfransında dünya iqtisadi və sosial böhranı, onun inkişaf etməkdə olan ölkələr üçün nəticələri, qaranlıq perspektivləri haqqında demişdir ki, əgər biz yaşamaq istəyiriksə mübarizə aparmaq lazımdır. Lakin Kuba və yaxud Albaniya kimi daxilən qapalı ölkələr demək olar ki, qalmayıb. Halbuki beynəlxalq əmək bölgsünün tənqidi səslənməkdə davam edir.

downloaded from KitabYurdu.az

Təəccüblü deyildir ki, neoklassik, neokeynsçi, institusional və radikal nümayəndələrin təklif etdiyi nəzəriyyə və reseptlərdə ümidsizlik keçən əsrin 70-ci, xüsusən də 80-cı illərində gücləndi. Bütün bunlar inkişaf etməkdə olan ölkələrin öz nümayəndələrinin hazırladığı iqtisadi nəzəriyyələrin yaranması və inkişafı üçün ilkin şərtlər yaratdı. Məhz bu zərurətdən "periferiya iqtisadiyyatı", "asılı inkişaf", "öz gücünə arxalanmaq", "yeni beynəlxalq qayda" və s. kimi konsepsiyalar meydana gəldi. Bunlar "üçüncü dünya" ölkələrində özünü dərketmə və elmi fikrin inkişafında mühüm rol oynadı.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. Qurani-Kərim. Bakı, 1991-ci il.
2. "Kitabi-Dədə Qorqud". Bakı, 1988
3. Oğuznamə. Bakı,1987
4. N.Gəncəvi. "Xəmsəsi", Bakı, 1980.
5. X.N.Tusi. Əxlaqi-Nasiri, Bakı, 1989.
6. H.Z.Marağayi. "İbrahimbəyin səyahətnaməsi", Bakı, 1982.

downloaded from KitabYurdu.az

7. Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk. Siyasətnamə, Bakı, 1987.

8. A.Bakıxanov. Seçilmiş əsərləri, Bakı, 1984.

9. H.Zərdabi. Seçilmiş məqalələri və məktubları, Bakı,1962

10. M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu, Bakı 1991

11. A.S.Sumbatzade. Azerbaydjanüı - gtno-qenez i formirovanie naroda, Baku, 1990

12. A.S.Faradjev. "Zarojdenie i razvitie gkonomiçeskoy mısli v Azerbaydjane v gpoxu feodalizma", Baku 1986

13.M.Mustafaev. "Gkonomiçeskie vzqlədı M.F.Axundova", Baku, 1962

14. Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, Bakı, 1985.

15. Z.M.Bünyadov. Azərbaycan Atabəyləri dövləti, Bakı, 1981

16. T.Veliev, Ö.Mamedov, X.Kerimov, A.Qasanov i dr. Oçerki istoriy Azerbaydjanskoy mısli, Baku, 1987

17. Vəliyev T.S., Həsənov A.C. Azərbaycan iqtisadi fikir tarixi. Bakı, 1997.

18. T.S.Vəliyev. İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü, Bakı, 1999.

19. Z.Səmədzadə. Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi, Bakı, 2001.

20. T.A.Kuliev. Requliruemaə rınoçnaə gkonomika, Baku, 2000

21. M.X.Meybullayev. "İslam iqtisadiyyatı", Bakı, 2001.

22. M.X.Meybullayev. "XIX əsrin iqtisadçılarının əsərlərində klassik elmi sistemin inkişafı", Bakı, 2001.

23.A.Ş.Şəkərəliyev. Keçid iqtisadiyyatı və dövlət, Bakı, 2000

24. K.Marks. "Kapital" əsəri, I, II, III, IV cildlər.

25. A.Marşall. "Siyasi iqtisadın prinsipləri", I-III cildlər, M.1993

26. Kene F. İzbrannıe gkonomiçeskie proizvedeniə. M., 1960.

27. C.Keyns. Məşğulluğun və faizin ümumi nəzəriyyələri, M.1978.

28. F.M.Fridman. Seçilmiş əsərləri, M.1987

29. Y.Şumpeter. İqtisadi inkişaf nəzəriyyəsi. M.1982

30. R.Makkonnelli və A.Bryu. "Ekonomiks", I-II hissələr. M.1992

downloaded from KitabYurdu.az

31. P.Samuelson, V.Nordxaus. "Ekonomika", M.1997.

32. V.Oyken. Osnovı naüionalğnoy gkonomiki, M.1996

33. T.Veblen Teoriə prazdnoqo klassa, M.1992.

34. F.Xayek. Doroqa k rabstvo, M. 1992

35. D.Qilbreyt. Gkonomiçeskaə teoriə i üelğ obhestva. M. 1979.

36. Ümumdünya iqtisadi fikir tarixi. M.1990

37. S.Bartenev, Gkonomiçeskie şkolı i teorii. M.1995

38. S.V.Braqinskiy, Ə.A.Pevzner, Politiçeskaə gkonomiə: diskuüionnıe problemı, puti obnovleniə. M.Mıslğ 1991.

39. Ə.Ədıqarov, İstoriə gkonomiçeskix uçeniy. M.1999

40. N.Titova, İstoriə gkonomiçeskix uçeniy, M.1997

41. F.Xaek "Neoinstitusionalizm". Voprosı gkonomiki. 1999

42. Vsemirnaə istoriə gkonomiçeskoy mısli: v 6 tomax, ql. redaktor V.Çerkoveü i druqie. M.,MQU, 1987.

43.İstoriə gkonomiçeskix uçeniy. Pod redaküiey A.Xudokormova, M., MQU, 1994

44. İstoriə gkonomiçeskix uçeniy. Pod redaküiey Q.Şmarlovskoy, Minsk, 2000

45. İbn Xəldun "Müqəddəmə" əsəri, 3 cilddə, türkcə, Zakir Qafuri Ucarın tərcüməsi. İstanbul, 1988

46. A.Həsənov. "İbn Xəldunun iqtisadi nəzəri fikirləri" jur. "İqtisad elmləri: nəzəriyyə və praktika". №2, Bakı, 1994

47. A.A.İqnatenko. "İbn-Xaldun", M. 1980

48. Neqişi T. İstoriə gkonomiçeskoy teorii. Per. s anql. M.,1995.

49. Mayburd E. Vvedenie v istoriö gkonomiçeskoy mısli. Ot prorokov do professorov. M., 1996

50. A.Anikin, Elmin gəncliyi. Bakı, 1987-ci il.

51. Q.S.Əlləzov. Klassik burjua siyasi iqtisadının yaranması və inkişafı. Bakı, 1992-ci il.

52. Q.S.Əlləzov. Müasir iqtisadi nəzəriyyələr, Bakı, 1999.

53. Ümumdünya iqtisadi fikir tarixi. I və II hissələr. M. 1987-1988-ci il. Rus dilində.

54. M.Blauq. Gkonomiçeskaə mıslğ v retrospektive. M. 1994 q.

55. Ümumdünya iqtisadi fikir tarixi. M.1990

downloaded from KitabYurdu.az

56. Neqişi T. İstoriə gkonomiçeskoy teorii. Per. s anql. M.,1995.

57. Mayburd E. Vvedenie v istoriö gkonomiçeskoy mısli. Ot prorokov do professorov. M., 1996

58. İstoriə gkonomiçeskix uçeniy. M.1983.

59. Vsemirnaə istoriə gkonomiçeskoy mısli. M.1994, T.5. 60. V.Leontev Gkonomiçeskie GSSG. M.1990.

61. Obhaə gkonomiçeskaə teoriə. M.1995.

62. G.Dolan. Makrogkonomika. Sankt-Peterburq, 1994 63.S.Fişer i dr. Gkonomika. M.1993.

64. İqtisadi nəzəriyyə. Dərslik. (T.S.Vəliyev, Ə.P.Babayev, M.X.Meybullayevin ümumi redaktəsi ilə), Bakı, 2001.

65. Azərbaycan iqtisadiyyatı. Bakı, 1998.

66. Nəsrullayev F.A. İqtisadi nəzəriyyənin predmeti və metodologiyası. Bakı, 1997.

67. X.Kərimov. Azərbaycan iqtisadi fikir tarixinə dair, "Azərbaycan iqtisadiyyatı", Bakı, 1998.

downloaded from KitabYurdu.az

downloaded from KitabYurdu.az